Azərbaycan Respublikası Təhsil Nazirliyi

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti

# TƏTBİQİ KULTUROLOGİYA

3537

## D ə r s l i k

**Dərslik Azərbaycan Respublikası Təhsil Nazirliyinin 12.04.2004-cü il tarixli 317 saylı əmri ilə təsdiq olunmuşdur.**

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

BAKI - 2004

Az 2
M. 83
Dərslik professorlar ***Ələkbər Məmmədov, Solmina Dadaşova*** və dosent ***İlqar Hüseynovun*** rəhbərlikləri ilə müəlliflər qrupu tərəfindən hazırlanmışdır.

**Elmi redaktor:** *Gülnaz Abdullazadə*
fəlsəfə elmləri doktoru, professor.

**Rəyçilər:** - *Niyazi Mehdi*
fəlsəfə elmləri doktoru, professor;
- ***Ramiz Zöhrabov***
Azərbaycan Respublikasının əməkdar incəsənət xadimi, sənətşünaslıq doktoru, professor;
- ***Şəhrəddin Məmmədov***
fəlsəfə elmləri doktoru, professor.

Məmmədov Ə., DadaşovaS., Hüseynov İ.
**M 83 Tətbiqi kulturologiya.** (dərslik). Azərbaycan dilində.
Elmi red. prof. Abdullazadə G., Mars-Print. 2004. 412 s.

«Tətbiqi kulturologiya» adlı dərslik Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin tarixində yenilik kimi qiymətləndirilə bilər. Dərslikdə tətbiqi kulturologiyanın müxtəlif sahələrinə kompleks şəkildə yanaşılmış, mədəniyyətşünaslığın muasir tələbləri nəzərə alınmışdır.
Dərsliyin hazırlanmasında «Tətbiqi kulturologiya» kafedrasının professor-müəllim heyəti iştirak etmişdir.
Dərslikdən ali və orta ixtisas təhsili məktəblərinin professor-müəllim heyəti və tələbələri, mədəniyyət və incəsənət işçiləri, maraqlananlar istifadə edə bilərlər.

**M 4310020000-73**
**097-2004**

**Az 2**
**© «Mars - Print» 2004**



**Turana qılıncdan daha kəskin, ulu qüvvət**
**Yalnız mədəniyyət, mədəniyyət, mədəniyyət !**

**H.Cavid.**

## GİRİŞ

Azərbaycan müstəqillik əldə etdikdən sonra cəmiyyətin ictimai, iqtisadi və siyasi quruluşu ilə yanaşı, onun mədəni həyatı da bazar iqtisadiyyatı şəraitinə uyğunlaşmışdır. Müstəqil dövlətimizin mədəniyyət müəssisələri öz fəaliyyətlərini yeni inkişaf konsepsiyasına uyğun formada qurmağa başlamışlar. Təbii ki, mədəniyyətin siyasi-ideoloji asılılıqdan xilas olması onun inkişaf istiqamətlərini də müstəqilləşdirmişdir. Xüsusilə, Azərbaycan mədəniyyətşünaslığı milli-mənəvi dəyərlərdən və dünya ölkələrinin əməli təcrübəsindən daha geniş şəkildə istifadə etmək imkanı əldə etmişdir. Mədəni əlaqələrin genişlənməsi tətbiqi kulturologiyaya da öz əməli təsirini göstərmişdir. Tətbiqi kulturologiyanın əhatə dairəsi genişlənmiş, onun yeni təcrübi sahələri meydana gəlmişdir. Elə buna görə də, yeni sosial quruluşun və dünya mədəniyyətinin sivil yeniliklərinin humanist xüsusiyyətləri tətbiqi kulturologiyada çox mühüm yer tutmuş, Azərbaycan mədəniyyətinin dünya mədəniyyətinə inteqrasiya olunması üçün bu elmin əhatə dairəsi xeyli dərəcədə genişlənmişdir. İndi insan amili, onun müasir cəmiyyətə uyğun olaraq tərbiyə olunması məhz tətbiqi kulturologiyanın əsas vəzifələrindən birinə çevrilmişdir. Əvvəlki sosializm cəmiyyətindən fərqli olaraq tətbiqi kulturologiyanın tərbiyə istiqamətləri humanistləşmiş, daha da genişlənmişdir. Müasir tətbiqi kulturologiya dini tərbiyə, əxlaq tərbiyəsi, vətənpərvəlik tərbiyəsi, əmək tərbiyəsi, estetik tərbiyə və s. kimi aktual problemlərlə məşğul olur. Bu vəzifələri həyata keçirmək üçün isə tətbiqi kulturologiya mədəniyyətin və incəsənətin müxtəlif növlərindən bədii-emosional vasitə kimi

istifadə edir. Musiqi əsərləri, bədii xalq yaradıcılığı nümunələri, müzey eksponatları, turizm marşrutları, istirahət və əyləncə mərkəzləri və s. tətbiqi kulturologiyanın ifadə vasitələrinə çevrilir. Konkret məqsədə nail olmaq üçün tətbiqi kulturologiya mədəni fəaliyyətin bütün empirik və rasional sahələrini özündə birləşdirir, cəmiyyətin mənəvi stimullarından geniş şəkildə istifadə edir. Ən başlıcası isə, vaxtilə sovet rejimi tərəfindən qoyulmuş bir sıra qadağalar aradan qaldırılır, milli mənəvi və dini dəyərlərə üstünlük verilir. Eyni zamanda Qərbin iqtisadi inkişaf etmiş ölkələrinin də qabaqcıl iş təcrübəsinə istinad edilir. Bir sıra köhnə nəzəri baxışlardan imtina edilməklə yanaşı, insan mənəviyyatını müsbət mənada zənginləşdirə bilən, tarixən sınanmış iş metodlarından da geniş şəkildə istifadə olunur. Bu baxımdan Azərbaycanda fəaliyyət göstərən qabaqçıl mədəniyyət müəssisələrinin əməli müsbət iş təcrübəsi nəzərə alınır və onlardan təqdim olunan dərslikdə empirik vasitə kimi istifadə edilir.

Bildiyimiz kimi, adət və ənənələr uzun əsrlər boyu xalqımızın mənəvi-mədəni həyatında xüsusi əhəmiyyət kəsb etmişdir. Adət və ənənələrimiz xalqımızın milli ruhunu, estetik duyumunu, sənətkarlıq qüdrətini özündə hifz edib saxlamışdır. Zəngin folklor nümunələrimiz məhz adət və ənənələrimiz hesabına itib-batmamış, müasir dövrümüzə qədər gəlib çatmışdır. Onlar zəngin mədəni irs olmaqla bərabər, eyni zamanda tətbiqi kulturologiyanın ifadə vasitələrinə çevrilmişlər. Müxtəlif mədəni-kütləvi tədbirlərdə bu ifadə vasitələrini emosional vasitə kimi tətbiq etməklə həm də milli xüsusiyyətlərimizi qoruyub saxlayırıq. Mədəni irsimizin böyük bir sahəsini əhatə edən folklor nümunələri mədəni asudə vaxtın səmərəli, əyləncəli keçməsi üçün də tətbiq olunur. Tətbiqi kulturologiya folklor nümunələrini mədəni tədbirlərin məzmununa və mahiyyətinə uyğun olaraq araşdırır və mədəni-kütləvi tədbirlərə tətbiq olunması üçün yeni forma və metodlar hazırlayır. Bu elm eyni zamanda folklor nümunələrinin mədəni-kütləvi tədbirlərə tətbiqi prosesində özfəaliyyət kollektivlərinin işinə də böyük üstünlük verir.



Buna görə də, tətbiqi kulturologiya həm də bədii özfəaliyyət yaradıcılığının inkişaf etməsinə xüsusi diqqət yetirir və bunu mədəniyyət müəssisələrinin əsas iş sahələrindən biri hesab edir. Belə ki, özfəaliyyət yaradıcılığı mədəni asudə vaxtın təşkilinin bədii-emosional vasitəsidir. Tətbiqi kulturologiya mədəniyyət mərkəzlərinin fəaliyyətini bədii özfəaliyyət yaradıcılığından və ifaçılığından ayrı təsəvvür etmir. Bədii özfəaliyyət yaradıcılığı təkcə mədəni-kütləvi tədbirlərin bədii ifadə vasitələrinin hazırlanmasına təminat yaratmır, o, eyni zamanda milli-mənəvi xüsusiyyətlərin, estetik zövqün inkişafına müsbət təsir edir, mənəvi tərbiyənin ən güclü ifadəsinə çevrilir. Buna görə də, özfəaliyyət yaradıcılığının mütəşəkkil və ardıcıl olaraq təşkil olunması işi tətbiqi kulturologiyanın tərkib hissəsi sayılır.

İnsanın mədəni fəaliyyəti onun mənəvi ehtiyaclarından irəli gəlir. Tətbiqi kulturologiya isə bu ehtiyacları sosioloji tədqiqatlar vasitəsi ilə müəyyənləşdirib, onların həlli yollarını reallaşdırır. Daha doğrusu, sosioloji tədqiqatlar vasitəsi ilə insanın mənəvi dünyası öyrənilir və ondan tərbiyə vasitəsi kimi istifadə etmək imkanı yaranır. İnsanlar özlərinin təbiətinə uyğun gələn mədəni-sosial fəaliyyətə cəlb edilirlər. Çünki insanın mədəni fəaliyyətə cəlb olunması təkcə nəzəri əsaslarla mümkün olmur. Bu baxımdan filoloğiya elmləri doktoru, professor **Timuçin Əfəndiyevin** təbirincə desək: «El mədəniyyətindən danışarkən özündə rəqsi, musiqini, sazı, sözü birləşdirən, sözün həqiqi mənasında milli teatrın anası sayılan aşıq sənətini, sehri hələ də kifayət qədər aşkarlanmamış dastan səhnələrini xatırlamaya bilmərəm... Lakin məqsədim qədim, zəngin, çoxcəhətli Azərbaycan mədəniyyətinin bütün janrları və onların problemlərindən danışmaq deyil, bu ağır və məsuliyyətli işdir».[1]

Bütün bunları nəzərə alaraq «Tətbiqi kulturologiya» adlı dərslikdə sosioloji tədqiqatların əhəmiyyəti və onların vəzifələri geniş şəkildə şərh olunur. Həmçinin, sosioloji

---

[1] T. Əfəndiyev. «Azərbaycan dramaturgiyasında metodlar». Bakı - «Elm» - 2002, səh. 448.

tədqiqatın metodikası öz əksini tapır. Sosioloji tədqiqatın planı və proqramı elmi cəhətdən əsaslandırılır.

Tətbiqi kulturologiya eyni zamanda sosial ünsiyyətin təşkil olunmasına xüsusi diqqət yetirir. O, tarixi-ənənəvi ünsiyyət formaları ilə yeni ünsiyyət vasitələrini vəhdət şəklində qəbul edir.

Ünsiyyətin tarixi milli-ənənəvi formalarının müasir dövr üçün də aktuallığı təsdiq olunur və onlar müasir ünsiyyət sahələrinə geniş şəkildə tətbiq olunur. Kütləvi bayram və mərasimlər milli-mənəvi, tarixi ünsiyyət vasitələri kimi insanların mədəni fəaliyyətini kütləviləşdirir, onların mənən saflaşmasına, hərtərəfli biliklərə yiyələnməsinə sosial zəmin yaradır.

Dərslikdə ünsiyyətin təşkilinin bir sıra forma və metodları öz əksini tapır. Ünsiyyətin informasiya mübadiləsi funksiyasını yerinə yetirməsi, şəxsiyyətin sosiallaşmasında onun rolu geniş təhlil olunur.

Tətbiqi kulturologiyanın əsas sahələrindən biri kimi ünsiyyətin maddi və mənəvi formaları təhlil obyektinə çevrilir.

Tətbiqi kulturologiyanın böyük bir sahəsi olan turizm işi və müzeyşünaslıq da ünsiyyət mədəniyyətinin formalaşmasında, fiziki tərbiyənin inkişaf etdirilməsində, şəxsiyyətin mənən zənginləşməsində, hər bir fərdin elmi biliklərə yiyələnməsində xüsusi əhəmiyyət kəsb edir. Turizm təkcə fərdlərarası ünsiyyətin reallaşmasında deyil, eyni zamanda beynəlxalq əlaqələrin və bəşəri münasibətlərin inkişaf etməsində böyük əhəmiyyətə malikdir. Məhz bu xüsusiyyətinə görə, tətbiqi kulturologiya turizmin mədəni-sosial əhəmiyyətinə üstünlük verir, onun təşkilinin forma və metodlarını işləyib hazırlayır. Turizmə asudə vaxtın mədəni təşkilinin bir vasitəsi kimi baxılır.

Muzeylərin mədəni-kütləvi fəaliyyəti də tətbiqi kulturologiya sferasına daxildir. Muzeylər elmi-tədqiqat funksiyasını yerinə yetirməklə yanaşı, həm də özünün mədəni-kütləvi fəaliyyəti ilə də fərqlənir. Muzey, mədəniyyət müəssisəsi kimi, tətbiqi kulturologiyanın tədqiqat prosesində



xüsusi yerlərdən birini tutur. Buna görə də, təqdim olunan dərslikdə müzeyin mədəni iş fəaliyyəti geniş işıqlandırılır, şəxsiyyətin tərbiyə olunmasında, insanlararası intellektual münasibətlərin formalaşmasında onun tutduğu yer konkret faktlarla, elmi təhlillərlə izah edilir.

Mədəniyyət müəssisələrində keçirilən mədəni-kütləvi tədbirlərin demək olar ki, əksəriyyətində əyani və texniki vasitələrdən geniş istifadə olunur. Buna görə də, tətbiqi kulturologiya mədəni-kütləvi tədbirlərdə əyani və texniki vasitələrdən istifadə olunmanın elmi əsaslarına, onun forma və metodlarına xüsusi diqqət yetirir. Bu baxımdan dərslikdə əyani vasitələrlə texniki vasitələrin vəhdəti mədəni proseslərin əsasını təşkil edir. Bu vəhdət tətbiqi kulturologiyanın əsas istiqamətlərindən biri kimi diqqəti cəlb edir.

Cəmiyyətdə ekoloji mədəniyyətin də formalaşmasına böyük ehtiyac vardır. Ekologiya ilə bağlı məsələlərin həlli, indi bütün dünyanın qlobal problemi hesab olunur. Buna görə də, tətbiqi kulturologiya insanlar arasında ekoloji mədəniyyətin formalaşmasını və inkişaf etdirilməsini vacib hesab edir.

Tətbiqi kulturologiya ekoloji tarazlığın qorunması işində mədəniyyət müəssisələrinin fəaliyyətinin forma və metodlarını müəyyənləşdirir, mədəni-kütləvi tədbirlər vasitəsi ilə bu qlobal problemin təhlükəli tərəflərini insanların diqqətinə çatdırır, onların aradan qaldırılması üçün konkret vasitələrdən istifadə edir.

Müasir mərhələdə mədəniyyətin idarə olunması xeyli mürəkkəbləşmişdir. Belə ki, bazar iqtisadiyyatı şəraiti mədəniyyətin idarə olunmasının bu və ya digər problemlərini aşkar etmiş, onların həll edilməsi üçün yeni nəzəri və təcrübi amillərdən istifadə olunmasına aid yeni mühit formalaşdırmışdır. «Tətbiqi kulturologiya» dərsliyində bu mühitin xarakterik xüsusiyyətləri nəzərə alınmış, bu məqsədlə də mədəniyyətin inkişafına müsbət təsir edə biləcək faktorlara kompleks şəkildə yanaşılmışdır. Tətbiqi kulturologiyaya aid olan bir çox digər sahələr də dərslikdə qismən də olsa öz əksini tapmışdır.

# I FƏSİL

## TƏTBİQİ KULTUROLOGİYA ELM SAHƏSİ KİMİ

### *1.1. Tətbiqi kulturologiyanın predmeti və vəzifələri.*

Tətbiqi kulturologiya-insan və cəmiyyət, şəxsiyyətin formalaşması və inkişafı haqqında elm sahəsi olmaqla bərabər, mədəniyyət nəzəriyyəsindən daha geniş bir anlayışdır. Çünki o, özündə yalnız elmi-nəzəri müddəaları deyil, həm də mədəni fəaliyyətin empirik əlamətlərini birləşdirib, cəmiyyətə tətbiq edir. Tətbiqi kulturologiya cəmiyyətdə əldə olunan bilgilərin, vərdişlərin real həyata tətbiq olunmasının forma və metodlarını öyrənən bir elmdir. Bu elmi zamanın özü yaratmışdır. Bu sahə sosial mədəni fəaliyyətə qoşulan konkret şəxsiyyətlə mənəvi həyatın inteqral təzahürü hesab olunan mədəniyyət arasında bir körpüdür. Bu körpü şəxsiyyətin yaradıcı potensialının maksimal inkişafının yeni metodları ilə formalaşaraq, onun şəxsi keyfiyyətləri və zəkasının zənginləşməsi ilə möhkəmlənir.

Tətbiqi kulturologiyanın prinsipial xüsusiyyətlərindən ən başlıcası odur ki, o öz predmetinin tədqiqində idealı yox, məhz müasir dünyanın obyektiv reallığını seçir və ümumbəşəri mənəvi dəyərlərə istinad edir.

Tətbiqi kulturologiya həyat reallıqlarını, cəmiyyətdə yaşayıb fəaliyyət göstərən hər bir fərdin mənəvi tələbatını öyrənir, şəxsiyyətin hərtərəfli inkişaf edib kamilləşməsinə müsbət təsir göstərən müxtəlif vasitə və üsulları aşkar edir. O, bir elm kimi bütün tiplərdən olan mədəniyyət müəssisələrinin təcrübi fəaliyyətini müasir tələblər baxımından öyrənir, onların mənəvi həyata daha geniş şəkildə tətbiq olunmasına əməli təminat yaradır.

Tətbiqi kulturologiya əsasən, mədəniyyətin və incəsənətin müxtəlif növlərinin ictimai həyatın mənəvi tərəfinə tətbiq olunmasının rasional və empirik vasitələrini aşkar edərək insanların biri-biri ilə sağlam ünsiyyətlərinin



formalaşmasına kömək edir. Eyni zamanda, cəmiyyətin mədəni inkişaf prosesi üçün bir-birinə alternativ olan maraqlı proqramlar, yeni konsepsiyalar hazırlayır.

Məlumdur ki, mədəniyyət bəşəriyyətin ictimai-tarixi proseslərdə topladığı maddi və mənəvi sərvətlərin məcmusu, həmçinin onun yaradılması, tətbiqi və gələcək nəsillərə çatdırılması üsullarıdır.

Mədəniyyət anlayışına, həmçinin, xalq kütləsinin yaradıcılıq fəaliyyəti, onların təbiəti və cəmiyyəti dəyişdirmək imkanları da daxildir. Beləliklə, mədəniyyət mürəkkəb ictimai hadisədir. O, insan tərəfindən yaranmış sərvətlər şəklində və bu sərvətləri yaradan fəaliyyət şəklində mövcuddur. Bu ayrı-ayrılıqda insanın əməyini, əqlini, əxlaqını, istedad və bacarığını əks etdirir. Qeyd etmək lazımdır ki, dünyanın şüurlu ictimai varlığı olan insanın yaradıcılığı və mənəvi fəaliyyət dairəsi bütün dövrlərdə çox rəngarəng olmuş və onlar varislik prinsipinə uyğun olaraq həmişə nəsildən-nəslə ötürülmüşdür. Buna görə də, bəşəriyyətdə maddi və mənəvi sərvətlər toplusu yaranmışdır. Mövcud olan toplumlar əsasında isə daima, ardıcıl olaraq mədəniyyətin yeni nümunələri və formaları meydana gəlmişdir. Məhz bu dialektik inkişaf əsasında cəmiyyətlərin çoxfunksiyalı mədəniyyət sistemləri, müəssisələri, idarəedici orqanları, elmi, bədii strukturları formalaşmışdır.

Qeyd edək ki, mədəniyyət insanın ictimai şüuru və yaradıcılığı əsasında formalaşan bir anlam olsa da o, həm də, hər bir yaradıcı fərdin meydana gətirdiyi yeniliklərin, oxşar yaradıcılıqların daima təkrarlanan mənəvi mühitidir. Bu mühit həm yaradıcılığa, həm də milli mentalitetin inkişafına təsir edən müxtəlif amillərlə zəngindir. Məhz bu zənginliklər «mədəniyyətşünaslıq» və ya «kulturologiya» kimi anlamların yaranmasına, onların ictimai şüurda möhkəm yer tutmasına şərait yaradır. Belə ki, mənəvi sərvətlər sadəcə toplum şəklində arxivlərə və ya muzey fondlarına atılmır. Mədəniyyətin hər bir nümunəsi elmi əsaslarla dərindən öyrənilir və insanların gündəlik həyatlarına bu və ya digər formada tətbiq olunur. Tətbiqedilmə prosesləri insanları daima mənəvi zənginləşmə

ilə müşayiət edir, hər bir fərdin hiss və duyğularına təsir göstərir, istedad və yaradıcılıq potensialını üzə çıxarır.

Müasir Azərbaycan cəmiyyətində də mədəniyyətşünaslıq və ya kulturologiya bir elmi-təcrübi sistem kimi mövcud olaraq həm irsi təcrübənin nəsildən-nəslə ötürülməsində xüsusi rol oynayır, həm də ictimai həyatın bütün sahələrində mədəniyyətin idarə olunmasına və inkişafına təkan verir. Xüsusilə, kulturologiyanın böyük bir sahəsi olan tətbiqi kulturologiya keçmişin mədəni irsini öyrənib xalqımızın bədii yaradıcılığı ilə bağlı olan zəngin materialları toplamaqla yanaşı, əldə olunmuş bu tarixi təcrübənin qiymətli nümunələrini müasir həyatımıza tətbiq edir.

Tətbiqi kulturologiya başqa elmlər kimi müxtəlif tədqiqat metodlarından istifadə edir. İlk növbədə bu və ya digər proseslərin qanunauyğunluqlarına şüurlu olaraq əməl edir, qarşısına konkret məqsəd və vəzifələr qoyur, müstəqil proqram və plan əsasında iş qurur, müəyyən metod və iş üsullarından istifadə etməklə öz məqsəd və məramlarını cəmiyyətin mədəni həyatına tətbiq edə bilir. Bütün bu proseslər mədəniyyət müəssisəsində realizə olunur.

Tarixi-mədəni təcrübənin müasir həyata tətbiq olunması əsasən kütləvi tədbirlərdə baş verir. Məsələn, mədəniyyət müəssisələri tərəfindən hazırlanan bədii-kütləvi tədbirlərdə xalqımızın milli-etnik xüsusiyyətlərini, bədii-estetik fikirlərini əks etdirən folklor nümunələri ilə yanaşı, müasir incəsənət nümunələrindən də istifadə olunur. Bunun da nəticəsində həm sosial təcrübənin yeni nəslə ötürülməsi funksiyası yerinə yetirilir, həm də xalqın yaradıcılıq mədəniyyəti, bədii-estetik şüuru, mənəvi səviyyəsi daima inkişaf edir.

Tətbiqi kulturologiya keçmişin bədii-tarixi yaddaşını araşdırarkən mədəni irsin təbliği məsələsinə də geniş yer verir. Məhz elə buna görə də hər bir ictimai quruluşun xarakteri həmişə mədəniyyət sahəsində öz əksini tapır. Bu xüsusiyyətlərdən çıxış edərək mədəniyyət haqqında danışarkən onu tarixi dövrlər əsasında təhlil etmək lazım gəlir.



Deməli, mədəniyyət tarixi xarakter daşıyır və yeni formalarda təzahür edərək tez-tez öz məzmununu dəyişir. Buna görə də, tətbiqi kulturologiya tarixi inkişaf baxımından ictimai-siyasi mühiti öyrənir, ona uyğun gələn yeni iş formalarının nəzəri və təcrübi əsaslarını yaradır.

Tətbiqi kulturologiya varislik prinsipinə kortəbii surətdə əməl edib heç də mədəni irsdən mexaniki şəkildə istifadə etmir. Varisliyi təhlil etmə yolu ilə ona yaradıcı dəyişikliklər edir, mövcud ictimai-siyasi quruluşun xarakterik xüsusiyyətlərinə uyğunlaşdırır və yalnız bundan sonra ondan istifadə etməyi qərarlaşdırır.

Mədəniyyət ilk növbədə özünü milli formada büruzə verir və o, «hər şeydən əvvəl, öz ifadəsini dildə tapır. Milli ədəbiyyatın spesifikası da onunla bağlıdır. Müəyyən bir millət içərisində tarixən təşəkkül tapmış, məişət xüsusiyyətləri, ənənələr, adətlər, mərasimlər, habelə xalqın, cəmiyyətin müxtəlif siniflərinin mənşəyi, əxlaqı, obraz və xarakterinin incəsənətin bir çox növlərində: memarlıqda, musiqidə, təsviri sənətdə, teatr və kinoda inikası mədəniyyətə milli forma verir»[2].

Qeyd etmək lazımdır ki, mədəniyyət insanların ictimai-kütləvi və fərdi fəaliyyətlərinin müxtəlif sahələrini əhatə etməklə yanaşı, əxlaq və hüquq kimi normativ sistemləri də özündə birləşdirir. Bu səbəbdən də əxlaqi dəyərlərin, hüquqi, etik normativlərin qorunması anlamı da mədəniyyət sisteminin tərkib hissəsidir.

Göstərilən fikrə əsaslanaraq deyə bilərik ki, tətbiqi kulturologiya əxlaqi, hüquqi, etik, estetik dəyərləri araşdırıb üzə çıxarır, şəxsiyyətin, cəmiyyətin formalaşmasında onlardan səmərəli şəkildə istifadə edir.

Tətbiqi kulturologiya nəzəriyyə ilə təcrübəni bir vəhdət şəklində birləşdirir. Buna görə də o, təkcə milli nəzəri, təcrübi bilgilər dairəsində ilişib qalmır, eyni zamanda beynəlxalq aləmdə baş verən bütün mədəni yenilikləri də öyrənir. Beynəlxalq mədəni təcrübəyə əsaslanaraq hər bir milli

---

[2] Mədəni - maarif işi. Bakı, 1974, s.15.

mədəniyyətin müsbət ənənələrinin inteqrasiya olunmasına təkan verir.

Hansı mədəniyyətdən istifadə etməsindən asılı olmayaraq əxlaqi, hüquqi, etik, estetik anlamlar tətbiqi kulturologiyada üstünlük təşkil edir. Belə ki, tətbiqi kulturologiya keçmiş adət və ənənələrin, bayram və mərasimlərin ən mütərəqqi nümunələrini seçir, sistemləşdirir və onlardan tərbiyə vasitələri kimi istifadə edir.

Məlumdur ki, adət və ənənələr bədii-emosional materiallarla-tamaşa elementləri, musiqi, mahnı nümunələri, əyləncəli oyunlarla zəngin olmaqla yanaşı, insanların davranışlarına, vərdişlərinə, ictimai münasibətlərinə və sair rəftarlarına əsaslı təsir göstərən əxlaq normalarının da daşıyıcılarıdır. Bu daşıyıcıları mədəniyyət müəssisələrinin kütləvi tədbirlərinin ifadə vasitələrinə çevirməyin forma -və metodları ilə tətbiqi kulturologiya məşğul olur. Belə ki, kulturoloqlar, peşəkar mədəniyyət işçiləri adət və ənənələri, onların bədii ifadə vasitələrini öyrənir, mədəniyyət müəssisələrinin kütləvi tədbirlərinə tətbiq edirlər. Adət və ənənələr bütün mədəni tədbirlər üçün rəmzi məna kəsb edir və onlara milli məzmun gətirir. Məsələn, Novruz bayramı ərəfəsində keçirilən bir çox mədəni tədbirlərdə səmənidən, xalqımızın qədim milli geyimlərindən və s. milli-rəmzi atributlardan geniş istifadə olunur. Xalqımızın adət və ənənələrinin müasir milli-psixoloji xüsusiyyətlərinə uyğun gələn nümunələr indiki mədəni həyatımıza tətbiq olunur. Bu vəzifəni yerinə yetirməklə tətbiqi kulturologiya dünyəvilik prinsiplərindən bəhrələnərək əlaqələndirici mövqe tutur, ayrı-ayrı mədəniyyətlərin inteqrasiyasına təminat yaradır.

Azərbaycan dövləti ikinci dəfə müstəqillik qazandıqdan sonra ölkəmizin dünya xalqları ilə mədəni əlaqələri daha da genişlənmişdir. Həm dövlət səviyyəsində, həm də ayrı-ayrı mədəniyyət fondları, assosiasiyaların fəaliyyəti dairəsində bir çox müxtəlif ölkələrin mədəniyyət siyasəti öyrənilir və onlardan mədəniyyət müəssisələrimizdə qabaqcıl təcrübə kimi istifadə olunur. Məsələn, «Simurq» Azərbaycan Mədəniyyət Assosiasiyası tərəfindən 2001-ci ilin iyun ayının 27-29-da Bakıda «Azərbaycanda yeni mədəniyyət siyasətinin formalaşmasına yardım» adlı böyük elmi-nəzəri konfrans təşkil olunmuşdu. Konfransda Amerikanın, Fransanın, Norveçin, Yaponiyanın, Rusiyanın və eləcə də, Azərbaycanın tanınmış kulturoloq alimləri iştirak etmişlər. Alimlər öz çıxışlarında dövlətlərarası əlaqələrin inkişaf etməsində mədəniyyətin daha böyük əhəmiyyət kəsb etdiyini söyləmişlər. ABŞ nümayəndəsi Ceyms Stüart çıxışında qeyd etmişdir ki, Amerika hökuməti mədəniyyət və incəsənət siyasəti məsələlərinə çox böyük əhəmiyyət verir. 2000-ci ilin noyabr ayında Ağ Evdə mədəniyyət mövzusunda keçirilən konfransda Amerika mədəniyyətinin xaricdə nümayişinin və təbliğinin mədəniyyət siyasətinin çox vacib hissəsi olduğu xüsusilə qeyd olunmuşdur.[3]

Ən maraqlısı odur ki, ABŞ beynəlxalq miqyasda özünün mədəniyyət siyasətini genişləndirmək üçün ən çox ölkənin muzeylərindən istifadə edir. MET, MOMA, Koçran, Metropoliten kimi muzeylər mədəniyyətin siyasi münasibətlərin yaxşılaşmasına tətbiq olunmasında daha fəal olmuşlar.[4] Muzeylər müxtəlif ölkələrdə sərgilərini, elmi-nəzəri konfranslarını, ekspozisiya mübadiləsini və s. iş formalarını təşkil etməklə dövlətlərarası mədəni əlaqələrin genişlənməsində yaxından iştirak edirlər. Belə işgüzar əlaqələrin səmərəli təşkil olunması üçün kulturologiyanın tətbiqi əhəmiyyəti daha böyükdür. Bu sahədə fəaliyyət göstərən peşəkarların, xüsusilə, nəzəriyyəçilərin apardıqları təhlillər, təşkilatçılıq metodları muzeylərin fəaliyyət istiqamətlərinin genişlənməsinə, tətbiq olunan iş formalarının müsbət nəticələr verməsinə səbəb olur. Buna görə də, muzeyşünaslıq xüsusi bir elm olsa da, tətbiqi kulturologiyanın fəaliyyət məkanına daxildir. Belə ki, muzeylər özlərinin bədii-kütləvi tədbirlərini tətbiqi kulturologiyanın işləyib hazırladığı metodlar, formalar əsasında qururlar. Muzey özünün kütləvi tədbirləri ilə mədəniyyət müəssisəsi kimi diqqəti cəlb edir. Bu

---

[3] Azərbaycanda yeni mədəniyyət siyasətinin formalaşmasına yardım. Bakı, 2001, s.101.

[4] Bax: Yenə orada. s. 100.

baxımdan o, kulturologiya elmi ilə bilavasitə bağlıdır. Kulturologiya muzey işi sahəsinə aid olan yenilikləri öz fəaliyyət dairəsinə tətbiq edir.

Tətbiqi kulturologiyanın predmetində mədəniyyət müəssisələrinin ardıcıl fəaliyyət göstərməsi yollarının araşdırılması, onların maliyyə mənbələrinin təşkili problemləri də öyrənilir.

Bildiyimiz kimi bütün dünya miqyasında mədəni asudə vaxtın səmərəli təşkilinin texnologiyası, onun mənəvi mühiti daima təkmilləşir. Elmi-texniki tərəqqiyə uyğun olaraq yeni tipli mədəniyyət və istirahət parkları, əyləncə mərkəzləri meydana gəlir. Həmin əyləncə mərkəzləri kompyüterlər və başqa müasir texniki vasitələrlə təmin olunur.

Bir çox inkişaf etmiş ölkələrdə kulturologiyanın texniki vasitələrinin modernləşməsi prosesi çoxdan başlamışdır. Məsələn, ABŞ-da hələ 1955-ci ildə uşaqlar üçün fantaziya ilə zəngin olan «Disneylend» adlı əyləncə parkı yaradılmışdır. Sonralar həmin parkın iş təcrübəsi Fransa, Yaponiya, Almaniya, İtaliya və başqa dövlətlərin mədəniyyət fəaliyyətlərinə tətbiq olunmuşdur. 1986-cı ildə fransızlar Parisdə «Disneylend» əyləncə parkının planı əsasında özlərinin nəhəng «Yevrodisneylend» adlı parklarını yaratmışlar. «Fantaziya aləmində» parkı da «Disneylend»in təcrübəsinə istinad edilərək yaradılmışdır.

Bunlardan başqa dünyanın müxtəlif ölkələrində ekzotik əhəmiyyət kəsb edən, çox mürəkkəb əyləncə texnologiyalarına malik olan parklar yaradılmışdır. Onların təcrübəsi əsasında Azərbaycanda da yeni tipli əyləncə və istirahət parkları meydana gəlmişdir. Bunların içərisində «Lunapark» artıq mütərəqqi iş təcrübəsi ilə fərqlənir.

Kulturologiya sahəsində baş verən modernləşmə mədəni asudə vaxt dövründə əyləncə və istirahətin təşkilinin metodologiyasına və iş formalarına müasirlik baxımından yanaşmağı tələb edir. Belə ki, əyləncə və istirahətin sosial mühiti dəyişmiş, yeni ictimai-siyasi quruluşa xas olan fəaliyyət prinsipləri meydana gəlmişdir. Bu prinsiplər bazar iqtisadiyyatı şərtləri əsasında nəzərə çarpır və istirahət və



əyləncənin təşkili formasına öz təsirini göstərir. İndi bazar iqtisadiyyatı qanunlarına uyğun olaraq bütün mədəni əyləncə və istirahət sahələri haqqı ödənilməklə realizə olunur.

Bazar iqtisadiyyatı mədəniyyət müəssisələrinin fəaliyyətində müstəqillik yaradır, onların özlərini maliyyələşdirmək imkanlarını genişləndirir. Tətbiqi kulturologiya bir elm sahəsi kimi bazar iqtisadiyyatı şəraitində mədəniyyətin idarə olunmasının, onun maliyyələşdirilməsinin forma və metodlarını öyrədir.

Heç kəsə sirr deyil ki, müasir mərhələdə bazar iqtisadiyyatı mədəniyyətin məzmununa, onun inkişaf istiqamətlərinə çox böyük təsir göstərir. İndi cəmiyyətdə mövcud olan mədəni fəaliyyət proseslərində şou-biznes anlamı ön plana keçmişdir. Mədəniyyət və incəsənət nümayəndələri öz fəaliyyətlərində iqtisadi gəlir əldə etməyə daha çox üstünlük verirlər. Buna görə də onlar öz xidmətlərini reklam edir, yaradıcılıq proqramlarını da bazar iqtisadiyyatı şəraitinin tələbləri səviyyəsində qururlar. Təbii ki, müasir mərhələdə mədəni fəaliyyətin məzmun və formasının dəyişməsi tətbiqi kulturologiyanın predmetinə də yeniliklər gətirir. İlk növbədə mədəni fəaliyyətin bazar iqtisadiyyatı şəraitinə uyğunlaşdırılmasının xüsusiyyətləri tətbiqi kulturologiyada öz əksini tapır. Mədəniyyətin inkişafına müsbət təsir göstərən həm dövlət, həm də ictimai yardımların obyektləri tətbiqi kulturologiyanın predmetində geniş şərh olunur, sahibkarlıqla mədəni prosesin qarşılıqlı əlaqələrinin həm mənəvi, həm də iqtisadi əhəmiyyəti, istehsal müəssisəsi ilə mədəniyyət müəssisəsinin qarşılıqlı iş birliyinin məqsəd və məzmunu aşkarlanır. Bazar iqtisadiyyatı mühitində menecment və marketinq xidmətinin mahiyyəti açıqlanır. Menecerlərin və marketoloqların peşəkarlığından istifadə olunaraq istehsal və biznes müəssisələri ilə işgüzar əlaqələr yaradılır. Onlar ikitərəfli maraqların reallaşması üçün sosial, mədəni və iqtisadi mühit formalaşdırırlar. Bunun da nəticəsində mədəni xidmətlərdən istifadə edən sahibkarlar öz gəlirlərini daha çox artırmaq imkanı əldə edir, fəaliyyətlərini stabilləşdirə bilirlər.

Sahibkarlıq inkişaf etdikcə mədəniyyət sahələrinə sponsorluq-xeyriyyəçilik fəaliyyəti də artır.

Mədəniyyətin maliyyə imkanları genişləndikcə o, özünün yaradıcılıq mühitini genişləndirməyə meyilli olur. Yəni, təkcə mədəni-əyləncəvi xidmətlə kifayətlənmir. Eyni zamanda mədəniyyət sahələrində geniş istifadə edilən məhsulların istehsalı və kommersiyası ilə də məşğul ola bilir.

Hamımıza məlumdur ki, mədəni xidmətlər sahəsi çox genişdir. Cəmiyyət inkişaf etdikcə bu sahələrə tələbat da artır. Tətbiqi kulturologiya ilə məşğul olan müəssisələr və onlarda fəaliyyət göstərən mütəxəssislər sosioloji tədqiqatlar əsasında bu tələbatın həcmini, onun mahiyyətini öyrənir, onların təminatının daha səmərəli variantlarını işləyib hazırlayırlar. Aparılan tədqiqatlar həm differensial, həm də kütləvi formada yerinə yetirilir. Belə ki, yaş və peşə maraqları, cinsi və başqa sosial maraqlar da nəzərdən qaçmır. Təbii ki, müxtəlif sosial qrupların maraqlarının və mənəvi tələbatlarının öyrənilməsini sosiologiya elminin obyektindən ayrı təsəvvür etmək mümkün deyildir.

Ümumiyyətlə, tətbiqi kulturologiya bir çox elmlərin nailiyyətlərindən bəhrələnir, onların tədqiqat metodlarından səmərəli şəkildə istifadə edir. Əsasən psixologiya, pedaqogika, etnoqrafiya, arxeologiya, fəlsəfə, estetika, etika, sənətşünaslıq və s. humanitar elm sahələri tətbiqi kulturologiyanın inkişafında çox mühüm əhəmiyyətə malikdirlər. Bu elmlər kulturologiyanın həm nəzəri mənbələrini, həm də təcrübə bazasını öz tədqiqatlarının nəticələri ilə daima zənginləşdirirlər. Həmçinin, folklorşünasların apardıqları tədqiqatlar hesabına bədii-kütləvi tədbirlərin emosional ifadə vasitələri genişlənir, inkişaf edir. Yeni folklor materialları mədəniyyət müəssisələrinin bədii-kütləvi işinə tətbiq olunur. Bu səbəbdən də demək olar ki, tətbiqi kulturologiya bir sıra fundamental elmləri özündə birləşdirir və onların nailiyyətlərinin mədəni həyatımıza daxil olmasında xüsusi əhəmiyyət kəsb edir.

Xüsusilə, XX əsrin sonu və XXI əsrin başlanğıcında kulturologiya mənəvi həyatın zənginləşməsinə təkan verən,



sosial problemlərin həlli istiqamətində özünün fundamentallığı ilə fərqlənən bir elm sahəsi, əməli mədəni fəaliyyətin qurucusu kimi nəzərə çarpır. Tətbiqi kulturologiya insanların biri-biri ilə mədəni ünsiyyətinin və davranışının sosial mexanizmini araşdırır, milli-mənəvi xüsusiyyətləri beynəlxalq nailiyyətlərlə zənginləşdirir.

Mədəni ünsiyyətin beynəlxalq təcrübəsi sosial həyatın bütün istiqamətlərində nəzərə çarpır və kulturologiyanın əsas tədqiqat sahəsi kimi diqqəti cəlb edir. Təbii ki, Azərbaycan kulturoloqları da beynəlxalq təcrübənin yerli mədəniyyət müəssisələrinin işinə tətbiq olunmasına xüsusi əhəmiyyət verirlər. Bu baxımdan tarixi ənənələr zəminində Rusiyanın kulturoloq alimlərinin yaradıcılıqları ilə tanışlıq üstünlük təşkil edir. M.A.Ariarski, P.A.Podbolotov kimi rus alimlərinin tətbiqi kulturologiya haqqında yazdıqları fikirlər daha maraqlıdır. Məsələn, P.A.Podbolotov kulturologiyanın fundamental və tətbiqi hissələrə bölündüyünü qeyd edir. Onun fikrincə kulturologiya rasional və empirik mahiyyət kəsb edərək mənəvi həyatın əsas tələbatlarını ödəyən geniş anlayış kimi nəzərə çarpır.[5] Bu elm sənətşünaslıqdan fərqli olaraq cəmiyyətin sosial-iqtisadi proseslərinə təsir göstərir. Kulturologiya həm tarixi-ənənəvi hadisələrin qoruyucusu, həm də insan xarakterini formalaşdıran elmi-fəlsəfi mahiyyəti ilə başqa elmlərdən fərqlənir.

Kulturologiyanın tətbiqi tərəfi daha empirik xarakter daşıyır və ictimai həyatın bütün sahələrində dinamik xarakterli fəaliyyəti ilə fərqlənir. Tətbiqi kulturologiya pedaqoji və psixoloji vasitələrin gücü ilə insan əxlaqının, istedad və qabiliyyətinin, ünsiyyət mədəniyyətinin formalaşmasında əməli mahiyyət kəsb edir.

Müasir tətbiqi kulturologiya ilk növbədə mədəniyyətin işlək tərəflərini tənzimləyir, onu iqtisadiyyata, siyasətə, sosial mühitə uyğun şəkildə idarə edir. O, hər bir fərdin mədəni həyata qatılması mexanizmini işləyib hazırlayır, məişət, əmək,

[5] П.А. Подболотов. Культура на пороге III тысячелетия. Тезисы докладов международного семинара в г.Санкт-Петербурге, 25-26 апреля 1994 года. Санкт-Петербург, 1994, с. 110.

3537
Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

istirahət prosesini stimullaşdırır. Bunun da nəticəsində hər bir fərdin dünyagörüşü zənginləşir, əxlaq və davranışı mövcud ictimai quruluşun həyat prinsiplərinə uyğunlaşdırılır.

Sovet dövründə kulturologiya «mədəni-maarif işi» adı altında mövcud olmuş, sırf siyasi – əxlaqi əhəmiyyət kəsb etmişdir. İnsanlara ideologiya aşılayan bir sahə kimi mövcud olmuşdur. Bu cəhd kulturologiyanı ideologiyalaşdırmış, onun əhatə dairəsini məhdudlaşdırmışdır. Kulturoloqların fəaliyyəti üçün azad yaradıcılıq mühiti olmamışdır. Kulturologiya kommunist rejiminin ideyalarının, siyasətinin təbliğat maşınına çevrilmişdir. Lakin etiraf etmək lazımdır ki, Sovet hakimiyyəti totalitar bir rejim olsa da savadsızlığın ləğvinə nail olmuş, mədəni-maarif şəbəkələrini genişləndirmiş, özfəaliyyət yaradıcılığının inkişafına və kütləviləşməsinə şərait yaratmışdır. Tarixi abidələrin və başqa mənəvi sərvətlərin qorunub mühafizə olunmasına xüsusi diqqət yetirmişdir. Bütün bu müsbət hallarla yanaşı ayrı-ayrı yaradıcı adamlara fərdi azadlıq mühiti yaradılmamışdır. Bədii yaradıcılıqla məşğul olanlara sosializm realizmi ideyalarından kənara çıxmaq qadağan edilmişdir.

Azərbaycan müstəqillik əldə etdikdən sonra isə demokratik inkişaf yolunu seçdi və insanların mədəni-estetik baxışlarında da azadlıq meylləri təkamül etməyə başladı. Ölkənin mənəvi-estetik potensialı yeni inkişaf mərhələsinə qədəm qoydu. Bu proses tətbiqi kulturologiyanın da mahiyyətini yeniləşdirdi.

Ümumiyyətlə, ictimai-siyasi quruluşların xüsusiyyətlərindən asılı olaraq mədəniyyət və kulturologiya anlayışlarına müxtəlif mövqelərdən yanaşılmışdır. XX əsrin əvvəllərində yaşamış türk sosioloqu Ziya Göyalpa görə kültürlə mədəniyyət bir-biri ilə fərqlənən anlayışlardır. Ziya Göyalpın fikrincə «kültür milli olduğu halda, mədəniyyət uluslararasıdır -beynəlmiləldir. Kültür yalnız bir millətin din, əxlaq, hüquq, ağıl, estetika, dil, iqtisadiyyat və texnika ilə bağlı yaşayışlarının uyumlu-ahəngdar bir bütünüdür. Mədəniyyət isə eyni inkişaf səviyyəsində olan bir çox millətlərin toplumsal ictimai həyatlarının ortaq bir bütünüdür. Məsələn, Avropa və



Amerika mədəniyyət dairəsində bütün Avropada yaşayan millətlərin ortaq bir Qərb mədəniyyəti vardır. Bu mədəniyyətin içində bir-birindən ayrı və baxımsız-müstəqil bir ingilis kültürü, bir alman kültürü, bir fransız kültürü və s. mövcuddur». [6]

Bu fikirlər Ziya Göyalpın məfkurəçiliyindən və türkçülüyündən irəli gəlirdi. O, milli kültürün inkişafına daha çox meyilli idi. Z.Göyalp milli kültürü yetkinlik kimi qəbul edirdi. Onun təhlilinə görə fransızca «kültuğ» sözünün də ayrı-ayrılıqda iki anlamı vardır. Bu anlamlardan birini «milli kültür» (hars), o birini «yetkinlik» (məhzib) kimi çevirə bilərik. Milli kültür haqqındakı bütün yanlış anlamlar fransızca «kültuğ» sözünün bu cür iki anlamlı olmasındadır. Ziya Göyalpa görə «kültür ilə yetkinlik arasındakı fərqlərdən birincisi, kültürün «demokratik», yetkinliyin isə «aristokratik» olmasıdır. Kültür xalqın gələnəklərindən-ənənələrindən, alışqanlıqlarından - vərdişlərindən, adətlərindən, şifahi və yazılı ədəbiyyatından, dilindən, musiqisindən, dinindən, əxlaqından, bədii və iqtisadi məhsullarından ibarətdir.»[7]

Ziya Göyalp XX əsrin əvvəlində yaşamasına baxmayaraq kültür anlamını izah edərkən kulturologiyanın əhatə dairəsinin rəngarəng olması arzusunda da olmuşdur. O, bir sosioloq kimi estetik zövqlərin müxtəlifliyini, insan təbiətinin qeyri-sabitliyini də unutmamışdır. Kulturologiya anlamını geniş mənada işlətməsə də mədəni tələbatın müxtəlif olduğunu bilmiş, yalnız milli kültürə qapılmağın insanın mənəviyyatında məhdudiyyət yaradacağını anlayaraq yazmışdır: «... insan hər gün eyni yeməyi yeməkdən usandığı kimi, daim eyni kültürə mənsub ədəbiyyatdan, eyni musiqidən, eyni memarlıqdan və eyni qidalanmaqdan da bezər.»[8]

Məhz tətbiqi kulturologiya bir elm sahəsi kimi daima insanların gündəlik mənəvi tələbatını ödəyir, onları yalnız bir

---

[6] Ziya Göyalp. Türkçülüyün əsasları. Bakı, «Maarif», 1991, s. 40.
[7] Yenə orada. s. 83-84.
[8] Ziya Göyalp. Türkçülüyün əsasları. Bakı, «Maarif», 1991, s. 85.

kültürün bədii-estetik materialları ilə deyil müxtəlif kültürlərin bəşəri əhəmiyyət kəsb edən mənəvi sərvətləri ilə də qidalandırır. Bu prosesdə həm milli zövqlər, həm də differensial və kütləvi, qrup zövqləri də nəzərə alınır.

Tətbiqi kulturologiya estetik kateqoriyalara istinad edərək insan duyğularının hissi-emosional tələbatını ayırd edir, müxtəlif tədbirlərin vasitəsilə mənəviyyatı kamilləşdirə bilən, insanları bəzən güldürən, bəzən isə həyəcanlandıran bədii formalar və metodlar seçir. Hissi-emosional tələbatın ödənilməsində incəsənətin bütün növlərindən istifadə olunur. Teatr, kino, musiqi, xoreoqrafiya, təsviri incəsənət insan mənəviyyatını zənginləşdirən, şəxsiyyətin formalaşmasına daha emosional təsir göstərə bilən vasitələr kimi qiymətləndirilir. Elə buna görə də keçmiş sovetlər ittifaqı məkanında bədii xalq yaradıcılığının inkişafına xüsusi diqqət yetirilirdi. Özfəaliyyət kollektivləri həmkarlar ittifaqları, əmək kollektivləri və bir sıra ictimai təşkilatlar tərəfindən maliyyələşdirilirdi. Uşaq və yeniyetmələrin bədii özfəaliyyət yaradıcılığı ilə məşğul olmaları üçün böyük şəraitə malik olan maddi-texniki bazalar mövcud idi. Bu bazalarda müxtəlif yaş qrupları üzrə maraq klub və dərnəkləri də fəaliyyət göstərirdi. Bədii xalq yaradıcılığının daha geniş məkanda inkişaf etməsi tətbiqi kulturologiyanın problemlərinin həll edilməsini asanlaşdırırdı. Təkcə mərkəzi şəhərlərimizdə deyil, ölkəmizin qəsəbə və kəndlərində də bədii özfəaliyyət yaradıcılığını kütləvi tədbirlərlə təbliğ etmək mümkün idi. Çünki hər bir kənd klubunda da özfəaliyyət kollektivləri fəaliyyət göstərirdi. Özfəaliyyət yaradıcılığının tədqiqi ilə məşğul olan alim Ramiz Ağayev respublikamızda mədəniyyət şəbəkələrinin həcminə diqqət yetirərək, yazmışdır: «Cəmiyyətin intellektual, siyasi həyatında mühüm rol oynayan mədəniyyət, incəsənət, mədəni-maarif müəssisələrinin geniş şəbəkəsi yaradılmışdır. Respublikamızda 15 dövlət teatrı, 117 muzey, 50-yə yaxın mədəniyyət və istirahət parkı, 4000-dən çox kitabxana, 3500-ə yaxın klub və mədəniyyət evləri, 100-dən çox xalq kollektivi, 2500-dən artıq teatr kollektivi, 1700 musiqi kollektivi, 2000-ə



yaxın xor-vokal kollektivi, 1000-dən artıq rəqs ansamblları fəaliyyət göstərir.»[9]

Lakin ölkəmiz imperiya əsarətindən azad olunduqdan sonra keçid dövrünün özünəməxsus qanunlarına uyğun olaraq ictimai həyatın bütün sahələrində olduğu kimi mədəniyyət sahəsində də qeyri-sabitlik yarandı. Cəbhə hakimiyyəti dövründə mədəniyyət şəbəkələrinin fəaliyyəti başqa məqsədlərə yönəldildi. Onlardan bəziləri kommersiya mərkəzlərinə və ayrı-ayrı təşkilatların ofisinə çevrildi.

Qeyd etmək lazımdır ki, imperiya dağıldıqdan sonra mədəniyyət sahəsində Rusiyanın özündə daha böyük böhranlar baş vermişdir. Rusiyanın tanınmış kulturoloqlarından biri olan M.A.Ariarskinin fikrincə rus mədəniyyəti çox çətin bir böhran içərisində çapalamaqdadır. M.A.Ariarskinin qeydlərinə görə maliyyə çətinlikləri ucbatından rus mədəniyyəti «iflic» vəziyyətinə düşmüşdür. Xüsusilə, daha demokratik fəaliyyətlə məşğul olan asudə vaxt mərkəzləri daha acınacaqlı vəziyyəti yaşamışdır. Bu baxımdan yalnız kommersiya ilə məşğul olan, özünü sərbəst surətdə maliyyələşdirən mədəniyyət müəssisələri bu yaranmış böhrandan çıxmaq şansı qazanmışdır.[10]

Qeyd olunan faktlara istinad edərək deyə bilərik ki, mədəniyyətdə baş verən bir sıra tənəzzüllü proseslər MDB məkanına daxil olan bütün dövlətlərdə mövcud olmuşdur. Bu dövlətlər arasında Azərbaycan Respublikası mədəniyyətin inkişafı istiqamətində daha çox işlər görə bilmişdir. Məhz bunun nəticəsində tətbiqi kulturologiyanın da müasir təcrübə sahələri meydana gəlmişdir. Xüsusilə, adət və ənənələrin ictimai həyata realizə olunması zəminində nəzərə çarpacaq dərəcədə inkişaf baş vermişdir. Mədəniyyət sferasına daxil olan özəl sahələrin miqdarı sürətlə artmışdır. Belə ki, sovet rejimi dövründə toy mərasimlərini, nigah, ad günləri və başqa

---

[9] Ramiz Ağayev. Azərbaycanda bədii xalq yaradıcılığının inkişaf mərhələləri. Bakı, 1992, s. 98.

[10] Бах: Культура на пороге III тысячилетия. Тезисы докладов международного семинара в г. Санкт-Петербург. 25-26 апреля, 1994. с. 166-167.

ənənəvi ailə-məişət şənliklərini keçirməyin bir sıra çətinlikləri olduğu halda indi özəl şadlıq evləri bu problemlərin həllini böyük peşəkarlıqla aradan qaldırır. Həmçinin, müasir tətbiqi kulturologiyanın tələblərinə uyğun olaraq mədəniyyət və incəsənət adamlarının da istedad və bacarıqlarının artmasına, onların sənət karyerasının inkişaf etməsinə kifayət qədər şərait yaradılır.

Tətbiqi kulturologiya üçün milli adət və ənənələrin öyrənilməsi və onların mənəvi dəyərlər sisteminə realizə olunması həmişə aktual olmuşdur. Çünki tarixin bütün dövrlərində millətin və xalqın ictimai şüur səviyyəsini əks etdirən adət və ənənələr həm də mədəni tərəqqinin, əxlaqi xüsusiyyətlərin göstəriciləri kimi nəzərə çarpmışdır. Digər tərəfdən hər bir millətin və xalqın bədii yaradıcılıq nümunələri adət və ənənə məkanında klassikləşmiş, mədəni irsə çevrilmişlər. Yeni yaranan mənəvi dəyərlər də varislik prinsipinə uyğun olaraq keçmiş adət və ənənələrdən bəhrələnmişlər. Lakin, varislik prinsipi insanların mənəvi dəyərlərinin inkişafına, yeniləşməsinə mane olmamışdır. Sadəcə olaraq adət və ənənə formasında mənəvi mədəniyyətin tarixi təcrübəyə əsaslanan yeni istiqamətləri formalaşmışdır. Məhz yaranan yeni istiqamətlərin öyrənilməsi, onların tarixi inkişaf əsasında toplanan təcrübəsinin müasir cəmiyyətimizin həyatına şamil edilməsi tətbiqi kulturologiyanın əsas vəzifələrindən biri hesab edilir.

Qeyd edək ki, bütün tarix boyu əsarət altına düşmüş hər bir xalqın mədəniyyətində, xüsusi ilə milli dəyərlər sistemini özündə cəmləşdirən adət və ənənələrdə deformasiya halları da baş verir. Azərbaycan ərazisinin böyük bir hissəsinin 200 ilə yaxın Rusiyanın işğalı altında olması bir çox milli və dini adət və ənənələrimizin ciddi siyasi və mənəvi təzyiqlər altında qalmasına səbəb olmuşdur. Dini bayramlarımızın keçirilməsinə qadağalar qoyulduğundan onların bədii-emosional ifadə vasitələri xalqımızın yaddaşından silinmişdir. Onların əvəzinə sosialist həyat tərzini təbliğ edən, mahiyyət etibarı ilə siyasi, ideoloji xüsusiyyətə malik olan adət və ənənələr təbliğ edilmişdir. Bunun da



nəticəsində sovet dövründəki bütün mədəniyyət müəssisələri dini adət və ənənələrə qarşı mübarizə mərkəzlərinə çevrilmiş, kommunist rejiminin tarixi bayramlarını geniş miqyasda təbliğ etməklə məşğul olmuşlar.

Azərbaycan xalqı öz müstəqilliyini əldə etdikdən sonra isə «Qurban», «Ramazan», «Novruz» kimi dini və milli bayramlarımızın dövlət səviyyəsində təntənəli şəkildə qeyd olunmasına başlanmışdır.

Məhz, müasir mərhələdə Azərbaycan xalqının dini və milli adət və ənənələrinin icra edilməsi prosesində siyasi və ideoloji amillərin aradan qaldırıldığını nəzərə alaraq deyə bilərik ki, milli və dini adət və ənənələrimizdəki bədii-emosional cəhətlərin tədqiq olunmasına, onlarla əlaqədar olan folklor nümunələrinin aşkar olunmasına böyük ehtiyac vardır. Bədii-estetik dəyərə malik olan incəsənət nümunələrini araşdırmaqla milli mentalitetimizin reallıqlarını bütün dünya miqyasında nümayiş etdirmək mümkündür. Tətbiqi kulturologiyanın əsas məqsədlərindən biri də məhz xalqımıza məxsus olan bədii duyğuların mahiyyətini açıb, onların insan mənəviyyatına təsirini əyani vasitələrlə və müxtəlif forma və metodlarla nümayiş etdirməkdən ibarətdir.

Tətbiqi kulturologiyanın ən böyük metodlarından biri hər bir ictimai, siyasi, fəlsəfi fikri bədii hadisəyə çevirməkdir. Bunun üçün tətbiqi kulturologiya bədii-sənədli dramaturgiya janrından yaradıcı şəkildə istifadə edir, nəzərdə tutulan hadisələrin ideyasını aşkar edib onları əvvəlcə ssenari nümunəsində təcəssümləşdirir. Təcəssümləşdirmə həm nümayişetdirmə, həm də teatrlaşdırma vasitəsilə reallaşdırılır.

Qeyd olunan nümunələr əsasında bədii ifadə vasitələri toplanılır və onlar ssenariçi-rejissor tərəfindən mövzunun ideya məzmununa uyğunlaşdırılır. Bunun da nəticəsində ünsiyyətin bədii-kütləvi forması meydana çıxır. Bədii-kütləvi işin formalarından istifadə edilərək unudulub yaddaşdan silinmiş milli adət və ənənələrimizi yenidən bərpa edir, folklor nümunələrimizi öyrənib həmin bədii kütləvi tədbirlərin ifadə vasitələrinə çeviririk.

Kulturoloq alim Telman Haqverdiyevin fikrincə «bütün tarixi mərhələlərdə bədii ifadə vasitələrindən obrazlı emosional təsir amili kimi geniş istifadə edilmişdir. Bədii söz, bədii boya, musiqi və başqa sənət növləri insanın mənəvi aləminə dərindən müdaxilə edən ən güclü təsir vasitələri kimi qiymətləndirilmişdir. Buna görə də dini baxışların və sinfi mövqelərin tətbiqində bədii-kütləvi formalara böyük üstünlük verilmişdir. Hələ ibtidai dövrlərdə yaranan sehrbazlıq oyunları, animistik mərasimlər, totem bayramları və s. bədii vasitələrlə müşayət olunmuşdur. Dünyanın bütün dini məbədlərində bu gün də bədii ifadə vasitələrindən geniş istifadə edilir». [11]

Ən maraqlı cəhət odur ki, dini ayin və mərasimlərdə həmişə nümayişetdirmə və teatrlaşdırma metodlarından istifadə edilmişdir. Hətta allahların şərəfinə təşkil olunan qədim kütləvi bayramlar da teatrlaşdırılmışdır. Bədii təcəssümləşdirmə zamanı həmin allahlar haqqında xalq tərəfindən yaradılmış miflərdən geniş istifadə olunmuşdur. Məsələn, antik dövrdə yunanların şərab allahı sayılan Dionisin şərəfinə ildə üç dəfə kütləvi bayram keçirilmiş və bayram şənliklərində ənənəvi olaraq miflərdən; rəqslərdən, xor mahnılarından yaradıcılıqla istifadə edilmişdir.

Buna görə də mahiyyət etibarı ilə hələ antik dövrdə bayram və mərasimlərə hazırlıq prosesi müasir tətbiqi kulturologiyanın ilkin mərhələsi sayıla bilər. Belə ki, aparılan tədqiqatlara görə «bu bayramlarda allahlar təbliğ edilərkən miflərdən, musiqidən, xor mahnılarından, maskalardan, dekorasiyalardan geniş istifadə edilirdi. Mərasimlərdə hazırlıq görən və onları idarə edən şəxs «Arxont» adlanırdı. Arxont bayramın maliyyə xərclərinin dəqiqləşdirir, repertuarını seçir, iştirakçılarını müəyyənləşdirirdi». [12]

Yəqin ki, qeyd olunan tarixi mərhələ müasir kulturologiyanın ilkin tarixi təcrübəsi olmuş və tətbiqi

[11] T. Haqverdiyev. Bədii-kütləvi işin təşkili və metodikası. Bakı, ADU nəşriyyatı. 1992, s. 9-10.
[12] T. Haqverdiyev. Bədii – kütləvi işin təşkili. Bakı, ADV nəşriyyatı. 1991, s. 11.



kulturologiyanın forma və metodlarının əsası da həmin dövrdə qoyulmuşdur. Çünki tarixi faktlardan göründüyü kimi həmin dövrdə də kütləvi bayram və mərasimlərin ssenarisi hazırlanmış, onlarda bədii ifadə vasitələrindən, əyani vəsaitlərdən geniş istifadə edilmişdir. Mədəniyyətdə daha geniş mənada təkamülün əsası qoyulmuşdur. İncəsənətə aid terminlər və adlar meydana gəlmişdir. Həmin sənət terminləri və adları müasir dövrdə də işlənilməkdədir.

Lakin ictimai formasiyalar dəyişdikcə sinfi və demokratik, totalitar və s. xarakterli cəmiyyətlərin siyasi-ideoloji baxışlarına uyğun olan müxtəlif mədəniyyətlər yaranmışdır. Yeni yaranan hər bir mədəniyyətin öz təkamül prinsipləri olmuşdur. Tətbiqi kulturologiyanın vəzifələrindən biri isə bu prinsipləri dərindən öyrənib onları mövcud cəmiyyətin həyatına tətbiq etməkdən ibarətdir. Məsələn, sovet dövründə mədəniyyət tam şəkildə dövlət dotasiyası ilə idarə olunurdu. İndi də mədəniyyətə dövlət yardımları vardır. Ancaq indiki cəmiyyətdə mədəniyyətin idarəolunması bazar iqtisadiyyatı şəraitinə uyğunlaşdırılmışdır. Bu işin reallaşdırılması vəzifəsi isə əsasən tətbiqi kulturologiyanın üzərinə düşür. Lakin, bazar iqtisadiyyatı şəraitində mədəniyyətin idarə olunmasını indiki sosial-siyasi quruluşumuza uyğun gələn inkişaf etmiş ölkələrin təcrübəsinə istinad etmədən reallaşdırmaq mümkün deyildir. Yalnız dünyada mövcud olan və ölkəmizin indiki iqtisadi quruluşuna uyğun gələn təcrübə formasına keçmək lazım gəlir.

Bildiyimiz kimi dünyanın ən böyük, qüdrətli dövləti Amerika Birləşmiş Ştatlarıdır. Maraqlıdır ki, Azərbaycan Respublikasında əhalinin mədəni asudə vaxtının təşkili ilə bağlı xüsusi pedaqoji sistem olduğu halda, ABŞ-da vahid kulturoloji sistem yoxdur. Bizim ölkədə mədəniyyət və incəsənət sahəsi üzrə kadrlar hazırlayan xüsusi təhsil müəssisələri var. Lakin ABŞ-da mədəni asudə vaxtın təşkilatçıları müxtəlif peşə sahibləridirlər. Bu peşə sahibləri onlar üçün yaradılan xüsusi kurslarda təkmilləşirlər.

Digər tərəfdən ABŞ-da hər bir ştatın mədəniyyət haqqında öz qanunu vardır. Bu qanun ştat ərazisinin

xüsusiyyətlərinə uyğun olaraq hazırlanır. Ölkədə mədəni fəaliyyətin təşkili ilə həm dövlət, həm də müxtəlif təşəbbüs qrupları məşğul olur. Dövlətin təşkil etdiyi mədəni xidmət, əhalinin bütün yaş qruplarını və təbəqələrini əhatə edir. Dövlətin mədəni fəaliyyətinin təşkili haqqında bir çox qanun və proqramlar hazırlanır. Onların cəmiyyətin həyatına tətbiq olunmasına ciddi nəzarət edilir. Mədəniyyətə aid hazırlanan proqramların maliyyələşdirilməsi əsasən vergidən gələn gəlirlər hesabına yerinə yetirilir. Eyni zamanda müxtəlif nazirliklərin və idarələrin də mədəni asudə vaxtın təşkilində öz maraqları vardır. Məsələn, Kənd Təsərrüfatı Nazirliyinin ölkə əhalisi arasında kənd təsərrüfatı sahəsi üzrə biliklərin təbliğ olunmasında böyük marağı vardır. Bu nazirlik ölkənin hər yerində «Amerikanın fermerləri» adlı klublar yaratmışdır. Qeyd edək ki, həmin klublar kənd əhalisinin təsərrüfat məşğuliyyətinin təşkili üzrə bilgilərini artırmaqla yanaşı, onların həm də mədəni asudə vaxtının səmərəli keçməsi qayğısına da qalırlar.

Şəxsi təşəbbüsü ilə mədəni asudə vaxtın təşkilinə qoşulan imkanlı adamlar isə xüsusi birliklər və assosiasiyalar yaradır, daha maraqlı və geniş əhatə dairəsinə malik olan mədəni-kütləvi tədbirlər həyata keçirirlər.

ABŞ-da hələ vaxtı ilə 1906-cı ildə yaradılmış «Milli Asudə Vaxt Assosiasiyası» adlı təşkilat indi də bu ölkədə mədəniyyətin inkişafında xüsusi rol oynayır. Mədəni asudə vaxtın təbliği və reklamı üçün həmin assosiasiyanın müxtəlif istirahət və əyləncə parkları vardır.

Bu təşkilat ölkənin tanınmış pedaqoqlarının gücü ilə 37 şəhərdə oyun meydanları yaratmış, mədəni asudə vaxtın təşkili ilə məşğul olmuşdur.

Yeni iqtisadi quruluşa keçdiyimizi nəzərə alaraq kapitalist dünyasında mövcud olan iş təcrübəsinə və nəzəriyyəsinə əsaslanmaqla tətbiqi kulturologiyanın predmetini müasirləşdirməyə, mədəniyyətin idarə olunmasının yeni formalarını cəmiyyətimizə tətbiq etməyə çalışmalıyıq.

Köhnə nəzəriyyə və təcrübə əsasında mədəniyyətin idarə olunmasını təsəvvür etmək mümkün deyil. Çünki, indiyə



qədər mövcud olan tətbiqi kulturologiya kommunist ideologiyasına xas olan prinsiplərə əsaslanır və müasir cəmiyyətin həyat tərzinə uyğun gəlmir. Lakin klublar, mədəniyyət sarayları, istirahət və əyləncə parkları, mədəni idman kompleksləri və s. mədəniyyət formaları yenə mövcuddur. Təbii ki, onlar indi də şəxsiyyətin formalaşması, insanların istirahət və əyləncələrinin səmərəli keçməsi işi ilə məşğul olurlar, tərbiyə və təhsilin daha da inkişaf etməsi üçün yeni forma və metodlar arayırlar.

Tətbiqi kulturologiya da başqa sahələr kimi empirik və rasional bilgilər əsasında formalaşan ümumi metodologiyaya daha çox üstünlük verir. Eyni zamanda dövrün və ictimai həyatın tələblərinə uyğun olaraq bir elm kimi özünün də xüsusi metodologiyasını yaradır. Məhz bunun əsasında tətbiqi kulturologiyanın tədqiqat obyektləri daima yeniləşir, müvafiq sahələr üzrə istiqamətləndirilir.

Tətbiqi kulturologiyanın əsas vəzifələrindən ən başlıcası mədəniyyət müəssisələrinə rəhbərlik üçün ixtisaslı kadrların hazırlanmasıdır. Hərtərəfli biliyə malik olan, estetik duyumu və pedaqoji məharəti ilə fərqlənən, yüksək təşkilatçılıq qabiliyyətinə yiyələnən mütəxəssislərin yetişdirilməsi müasir kulturologiyanın əsas vəzifələrindən biridir. Məhz bu məqsədlə də Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti nəzdində mədəniyyət və incəsənətin bütün sahələrini əhatə edən ixtisaslar üzrə mütəxəssislər hazırlanır.

Yeni mütəxəssislər hazırlanarkən cəmiyyətdə insan amilinə, şəxsiyyət azadlığına daha çox üstünlük verilir. İnsanların mədəni asudə vaxt fəaliyyətləri siyasiləşdirilmir, hər bir fərdin estetik duyumu, azad seçim imkanları nəzərə alınır. İnsanların arzu etdikləri istirahət və əyləncə, bədii və texniki yaradıcılıq qabliyyətlərinin inkişaf etdirilməsinə şərait yaradılır. Mədəni xidmət sahəsində rəqabət prinsipinə üstünlük verilir.

Müasir tətbiqi kulturologiyada maddi və mənəvi maraqlar bir vəhdət şəklində özünü daha qabarıq şəkildə

büruzə verir. Bu maraqlar isə öz növbəsində hər bir şəxsdən cavabdehlilik və şəxsi məsuliyyət tələb edir.

### *1.2. Asudəvaxtşünaslıq tətbiqi kulturologiyanın əsas istiqamətlərindən biri kimi.*

Tətbiqi kulturologiya əsasən insanların sosial-mədəni problemlərinin həlli ilə məşğul olduğuna görə bütün mədəni-əyləncəli fəaliyyət, asudə vaxt büdcəsi əsasında proqramlaşdırılır. Yəni, tətbiqi kulturologiya insanların işdən sonrakı vaxtlarının mənalandırılmasına, hər bir fərdin özü üçün bu vaxtın daha səmərəli istifadə olunmasına xidmət etməyin vasitələri haqqında fikir yürüdür, yeni konsepsiyalar hazırlayır, onları ictimai həyata tətbiq edir. Bu da bir daha sübut edir ki, müasir dövrdə tətbiqi kulturologiya insanların mədəni həyatına güclü təsir göstərmək və onların asudə vaxt balanslarını daha səmərəli şəkildə tənzimləmək, müxtəlif fəaliyyət istiqamətləri üzrə bölüşdürmək imkanına malikdir. Məhz bu baxımdan cəmiyyət elmlərindən biri kimi tətbiqi kulturologiya insan və şəxsiyyət amilini ön plana çəkir, hər bir fərdin mənəvi həyatını asudə vaxt sferasında daha çox zənginləşdirmək funksiyasını yerinə yetirir. Bu prosesdə mənəvi həyatın müxtəlif sahələrində fəaliyyət göstərən dövlət təşkilatları, ictimai-sosial institutlar və eyni zamanda ayrı-ayrı şəxsiyyətlər tətbiqi kulturologiyanın əsas subyektlərinə çevrilirlər.

Qeyd edək ki, hazırda asudə vaxtın təşkili elmi problem olmaqla yanaşı, həm də ictimai, siyasi problemdir. Bu problem bütün dünyada qloballaşdırılmışdır. Öz vətəndaşının sağlamlığının qayğısına qalan, onun istedad və bacarığının inkişafını istəyən hər bir dövlət asudə vaxtı insan mənəviyyatını cəmiyyətə uyğunlaşdıran, onu mənən kamilləşdirən vaxt sərvəti kimi qiymətləndirir. Təbii ki, asudə vaxt sərvətindən tətbiqi kulturologiyanın tədqiqat və fəaliyyət obyekti olan mədəniyyət müəssisələrində daha geniş istifadə olunur. Bu müəssisələrdə insan amili daima diqqət mərkəzində durur, asudə vaxtın məzmunlu və səmərəli keçirilməsi üçün



sistemli iş aparılır. Öncə cəmiyyətin ayrı-ayrı təbəqələrinin intellektual dərəcəsi, maddi təminat səviyyəsi öyrənilir. Bundan sonra mənəvi tələbat araşdırılır, hər bir fərdin yaradıcılıq meylləri, ünsiyyətə girmək maraqları öyrənilir, pedaqoji, psixoloji təhlillər və sistemləşdirmələr aparılır. Asudə vaxt büdcəsi fiziki, əqli, sosial, estetik və başqa istiqamətlərə yönəldilir. Çünki asudə vaxt ümumi vaxtın işdən azad məqamlarını əhatə edir və həmin müddətdə insanların mənəvi və fiziki məşğuliyyətləri kulturoloqlar tərəfindən qruplaşdırılır. Eyni zamanda fiziki, psixi və intellektual qüvvələrin bərpa olunması, onların sosial şərtlərinin müəyyənləşdirilməsi amilləri elmi əsaslarla təhlil olunur, proqramlaşdırılır.

Tətbiqi kulturologiya elmi asudə vaxtın sosial problemini üç əsas cəhət üzrə müəyyənləşdirir:

Birinci cəhət, asudə vaxt reallığı yaradan konkret ictimai və şəxsi şəraitin mövcudluğudur. Bu şərait tarixi-ictimai və fərdi - bioqrafik xarakter daşıyır. Yəni hər iki vəziyyətdə asudə vaxtın miqdarı ictimai-siyasi mühitdən, fərdin həyat mövqeyindən asılı olaraq az və ya çox ola bilər. Bu vəziyyət asudə vaxtın qeyri-ahəngdar olduğunu təsdiqləyir və ondan məqsədli şəkildə istifadə olunmasını çətinləşdirir. Daha dəqiq desək ağır həyat tərzi çox zaman asudə vaxtı sıxışdırıb onu minimum həddə qədər azaldır. İnkişaf etmiş ictimai quruluşdakı həyat tərzi isə asudə vaxt müddətinin artmasına sosial zəmin yaradır. Lakin, buna baxmayaraq hər bir ictimai mühitdə insanları asudə vaxt ərzində konkret məqsədlər üçün fəallaşdırmaq mümkündür. Bunun üçün hər bir fərdin istəyini, mənəvi maraqlarını müəyyənləşdirmək lazım gəlir. Məhz asudə vaxtın qeyri-ahəngdar olmasına görə tətbiqi kulturologiya əhalinin müxtəlif sosial kateqoriyalara bölündüyünü nəzərə alır və hər bir sosial qrupun tələbatını ödəmək üçün mövcud vəziyyət və şəraitə uyğun gələn yeni stimullar axtarıb tapır.

İkinci cəhət, mədəniyyətin məkan sisteminə, bu məkanın rəngarəngliyinə və müvafiq şəraitinə aiddir.

Məlumdur ki, mədəniyyət müəssisələri hər bir fərdə öz marağını, istedadını formalaşdırmaq, yaradıcılıq potensialını inkişaf etdirmək imkanı verir. Mühit nə qədər mədənidirsə, imkanlar diapazonu bir o qədər genişdir. Belə şəraitdə mənəvi meyarlar da rəngarəngdir. Bunları nəzərə alaraq tətbiqi kulturologiya mədəniyyət müəssisələrinin optimal modelini işləyib hazırlayır, onlarda insanların asudə vaxtlarının səmərəli keçməsi üçün rasional və empirik bilgilər toplusu yaradır.

Üçüncü cəhət, mədəni asudə vaxtdan istfadə edilməsinə şəxsiyyətin fərdi münasibətindən ibarətdir. Yəni, hər bir fərdin öz seçim müstəqilliyi vardır. Fərdi seçim ümumi tərbiyə prosesinə uyğun gələ də, gəlməyə də bilər. Məhz bu məsələdə xüsusilə çoxlu mənəvi-estetik, psixoloji problemlər mövcuddur.

Bəllidir ki, mədəni mühitdə yaşayıb bilavasitə mədəni sərvətlərin əhatəsində olmaq məhdud və fəaliyyətsiz insan kimi qalmaq, öz asudə vaxtından israfçılıqla istifadə etmək də mümkündür.

Tətbiqi kulturologiya elminin apardığı tədqiqatların nəticələrinə görə məhdud fəaliyyət insanları mədəniyyət müəssisələrindən uzaqlaşdırır və onların asudə vaxtlarından məqsədyönlü şəkildə istifadə olunmasını çətinləşdirir. Lakin bu hal fərdin mənəvi həyatının intensivliyinə nəzərə çarpan dərəcədə təsir göstərə bilmir.

Aparılan təcrübələr və eksperimentlər göstərir ki, adamların əməli fəaliyyəti nə qədər az planlaşdırılıbsa və ya rəsmiləşdirilibsə onda pedaqoji baxımdan təsir göstərmək də bir o qədər çətin olur. Məsələn, müasir bazar iqtisadiyyatı şəraitində, işsizlər istisna olunmaqla, demək olar ki, adamların bütün fəaliyyətləri iqtisadi stimullar üzərində planlaşdırılıb. Hər bir fərd öz vaxtını daha çox iqtisadi maraqlara həsr etməyə çalışır. Mövcud olan ictimai proses insanların asudə vaxt büdcəsini azaldır, onların istirahət və əyləncəyə, harmonik mədəni inkişafa yönələn vaxtlarını məhdudlaşdırır. Təbii ki, belə bir vəziyyətdə mədəni asudə vaxtın təşkili çətinləşir və tətbiqi kulturologiya məkanında problemlər baş verir. İndiki şəraitdə mədəni inkişafa ideoloji baxımdan da heç bir təsir yoxdur. Buna görə də, adamların mədəni sərvətlərə yiyələnmək marağı əsasən iqtisadi cəhətdən bəhrələnmək həvəsi üzərində qurulur. Məsələn, musiqi dərnəklərində fəaliyyətə meyillənən hər bir yeniyetmə və gənc ilk növbədə özfəaliyyət yaradıcılığı ilə məşğul olmağı gələcəyin dolanışıq vasitəsi kimi nəzərdə tutur. Şadlıq evlərində, bar və restoranlarda çalışıb öz həyat təminatını ödəmək məqsədi güdür. Çox təsadüfi hallarda yalnız mənəvi zənginləşmə amilləri önə çəkilir. Bu da əsasən zəngin ailələrin həyatında baş verir.

Lakin bu hal Azərbaycan cəmiyyətində mədəniyyətin inkişafına marağı azaltmır. Əksinə olaraq dövlət səviyyəsində mədəniyyətin inkişafına xüsusi qayğı göstərilir. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi vardır. Bu Nazirliyin isə bütün rayonlarda mədəniyyət şöbələri fəaliyyət göstərir. Milli Məclisdə mövcud olan Mədəniyyət Komissiyası vaxtaşırı olaraq mədəniyyətin inkişafı ilə bağlı olan qanunlar qəbul edir, yeni konsepsiyalar hazırlayır. Ölkəmizdə Mədəniyyət və İncəsənət Universiteti, Musiqi Akademiyası, Milli Konservatoriya, Rəssamlıq Akademiyası, mədəni-maarif texnikumları, incəsənət və musiqi məktəbləri və s. fəaliyyət göstərir. Bu qurumlar milli mənəvi inkişafımıza əsaslı təminat yaradır və tətbiqi kulturologiya sahəsinin təkamülü üçün də elmi-təcrübi mənbələrə çevrilirlər. Onların mövcudluğu mədəniyyət müəssisələrində təşkil olunan özfəaliyyət dərnək və birliklərinin sayının artmasına da zəmin yaradır. Özfəaliyyət yaradıcılığı uşaq və yeniyetmələrə bu təhsil müəssisələrinə daxil olmaq üçün ilkin hazırlıq mərhələsinə çevrilir.

Lakin, özfəaliyyət yaradıcılığına marağın kökündə bir ənənəvilik də durur. Belə ki, lap qədim zamanlardan sənətkarlıq, o cümlədən incəsənətin bütün növləri özfəaliyyət yaradıcılığı məkanında inkişaf etmişdir. Məhz bu məkanda böyük nüfuz sahibi olan, öz peşəkarlığı ilə seçilən çoxlu xalq sənətkarları yetişmişdir. Xüsusilə, musiqi incəsənəti üzrə yetişən sənətkarlarımız xalqın mədəni həyatının, onun estetik

zövqünün inkişafında əsaslı rol oynamışlar. Toy şənliklərində, ənənəvi bayram və mərasimlərdə, ədəbi-musiqili məclislərdə el sənətkarları mahiyyət etibarı ilə xalqın hiss və duyğularını harmonik şəkildə inkişaf etdirmiş, asudə vaxtın təşkilatçısı funksiyasını yerinə yetirmişlər. Hələ 1216-cı ildə Urmiya şəhərində dünyaya gələn Səfiəddin Ürməvi bütün Şərqdə ən mahir ud ifaçısı kimi tanınmışdır. Hətta onun ifaçılığı haqqında xalq arasında maraqlı hekayələr də meydana gəlmişdir. Həmin hekayələrdən birində deyilir ki, guya qırx gün susuz qalmış bir dəvəni bulaq başına gətirəndə suya şığıyan dəvə qəflətən Ürməvinin udunun səsini eşitmiş və bir anlıq yerində dayanaraq ona qulaq asmışdır. [13]

Səfiəddin Ürməvi bir çox musiqi əsərləri də bəstələmişdir. Onun bəstələdiyi mahnıların ilk ifaçısı o dövrün məşhur müğənnisi Lihaz xanım olmuşdur.

«Məcmu məxtum» adlı bir əsərdə yazıldığına görə «bir gün ruzigarın əllaməsi, hünər və sənətin ustadı Səfiəddin Əbdül mömin Bağdad bağlarının birində ud çalırmış. Musiqinin gözəl sədası yaxınlıqda pərvaz edən bülbülü cəlb edir. Bülbül səsə gəlir. Uçub qarşıdakı budağa qonur. Sonra daha da yaxınlaşıb musiqini dinləyənlərin lap yanına gəlir. Nəhayət, sevincdən coşub qanad çalmağa başlayır, udun səsinə səs verir, axırda o qədər şeyda olur ki, gəlib adamların arasında oturub oxuyur.»[14]

Səfiəddin Ürməvi kimi sənətkarlar bütün dövrlərdə yetişmiş və xalqın mənəviyyatının zənginləşməsində xüsusi rol oynamışlar. Xalqın həyatında rəqs məclisləri, musiqili ədəbi məclislər xüsusi rol oynamışdır. Rəqs məclisləri «cəngi» dəstəsinin ifası ilə müşayət olunmuşdur. Fransız ədibi Aleksandr Düma Qafqaza səfərini təsvir edərək yazmışdır: «Mən Əlcəzairdə, İstanbulda, Tripolidə şərq rəqslərinə tamaşa

[13] Teymur Bünyadov. Əsrlərdən gələn səslər. Bakı, «Gənclik», 1975, səh.22.
[14] L.Kərimov. Səfiəddin Ürməvi. «Azərbaycan» jurnalı, № 2, 1968, s.171.



etmişəm. Şamaxılı Nisənin ifasındakı rəqs bunların hamısından üstündür.»[15]

Aleksandr Düma öz əsərində Şamaxının əyləncə məclislərindən biri haqqında da geniş məlumat vermişdir. O, yazmışdır: «Biz Mahmud bəygilə gəldik. Onun evi Azərbaycanın ən gözəl binalarından birində idi. Mən Dərbənddən Tiflisədək heç bir yerdə belə bina görməmişdim. Biz şərq qaydasında səliqə-səhmana salınmış salona daxil olduq. Buradakı sadə, lakin yaraşıqlı avadanlığı sözlə ifadə etmək çətindir. Qonaqlar üstünə zərif örtük salınan qızılı rəngli atlas döşəkçələr üzərində əyləşmişdilər. Bu da otağa ayrı gözəllik verirdi. İri pəncərələrin qarşısında üç rəqqasə və beş çalğıçı oturmuşdu.

Musiqi sədaları yüksəlirdi... Üç dəmir dayanacaq üzərində qurulmuş (manqal, ocağ) təbii iri yumurtanı andırırdı. Burada fleytaya oxşar tütəyin səsi, mandalinanı xatırladan tarın və qonquriyə bənzəyən metal dayaqlı kamançanın şən sədaları bir-birinə qarışırdı».[16]

Misaldan göründüyü kimi hələ mədəniyyət müəssisələri olmadığı dövrlərdə də zəngin adamların saraylarında asudə vaxtın daha məzmunlu keçirilməsi qayğısına qalınmışdır. Elə bunun nəticəsində də müxtəlif adamların istedad və bacarıqları üzə çıxmişdir. Elə təkcə Şamaxı şəhərində Nisə, Sona, Səkinə, İzzət, Rəna, Mələkə, Qəndi, Badam və başqa tanınmış rəqqasələr yetişmişdir. Özləri yetişən bu insanlar əslində ənənələrin təsiri ilə formalaşmış, püxtələşmişlər. Sonra onlar öz sənətlərini cəmiyyətin mənəvi zənginləşməsinə, asudə vaxtın daha əyləncəli və mənalı olmasına sərf etmişlər.

1902-ci ildə Şamaxıda olan şair Borey (V.Şurf) «Səlimə» adlı poemasında şəhərin əyləncəli-musiqili həyatını təsvir edərək yazmışdır:

«Dəfin, balabanın, zurnanın səsi...
Süzəndə qızların gözəl dəstəsi...
Zərif ədalarla, işvəylə, nazla,

[15] A.Məmmədov. Azərbaycan rəqsləri. «Elm və həyat» jurnalı, № 7, 1972, səh.13.
[16] А.Дюма. Кавказ, Путешествие. Тифлис, 1861, с. 337-338.

Çalıb oxuyurlar min bir avazla.
Ayaqlar toxunur biri-birinə
Atlas libasların ətəklərinə»[17]

Göründüyü kimi bədii xalq yaradıcılığı təkcə milli-mənəvi kamilləşmənin, estetik zövqün inkişafına təsir etməmiş, eyni zamanda mentalitetimizin formalaşmasına, onun dünyaya təqdim olunmasına yaxından kömək etmişdir. Bu tərbiyəedici ənənə əsrlər boyu inkişafda olmuş, milli-mənəvi kökümüzün monolitliyini artırmışdır. Həmin möhtəşəm kök üzərində zəngin xalq folkloru nümunələri meydana gəlmişdir. Bu bədii xalq nümunələri müasir dövrümüzdə də öz aktuallığını itirməmiş, emosional tərbiyə vasitələri kimi tətbiqi kulturologiyanın əsas obyektinə çevrilmişdir. Onların hər birindən mədəniyyət müəssisələrində keçirilən tədbirlərdə mövzunun tələblərinə uyğun şəkildə istifadə olunur. Eyni zamanda folklor nümunələrimiz və başqa mədəni irsimiz insanların asudə vaxtının düzgün təşkili işində də çox əhəmiyyətlidir. Yüksək estetik duyum və zövq aşılayan, insanların dünyagörüşünü zənginləşdirən mədəniyyət və incəsənət toplumuz yüksək pedaqoji-tərbiyəvi aspektdə də tarixin sınaqlarından çıxmışdır. Mədəniyyət müəssisələri olmayan tarixi dövrlərdə əxlaqi dəyərlərimiz olan adət və ənənələrimiz bir növ klub funksiyasını yerinə yetirmişdir. Həmin adət və ənənələrin təsiri ilə zəngin bədii xalq yaradıcılığı nümunələri meydana gəlmişdir.

XX əsrin əvvəllərində isə, Azərbaycanda kulturoloji proseslərin daha geniş mənada əsası qoyulmuşdur. Klublar, kitabxanalar, mədəniyyət və istirahət parkları, mədəniyyət sarayları, teatrlar və s. mədəniyyət və incəsənət müəssisələri meydana gəlmişdir. Bu müəssisələrin inkişafı tətbiqi kulturologiyanın təkamülünə də şərait yaratmışdır. Onların hər biri şəxsiyyətin formalaşmasında və inkişafında xüsusi əhəmiyyət kəsb etmişdir. Təkcə keçmiş pioner evlərində və saraylarında ayrı-ayrı görkəmli şəxsiyyətlərin ilkin mənəvi tərbiyəsinin təməli qoyulmuşdur. Bunu təsdiq etmək üçün 1997-ci ilin fevral ayının 1-də Azərbaycan

[17] V.Şurf (Borey) «Səlimə». Bakı, 1971, səh.5-6.



Prezidenti,ümummilli liderimin mərhum Heydər Əliyevin gənclərlə görüşündə söylədiyi bir fikrinə istinad etmək olar. Həmin yığıncaqda Prezident demişdi: «Burada uşaq təşkilatı və pionerlər evi haqqında məsələ qaldırıldı. Keçmişdə respublikamızın hər yerində pionerlər evi var idi. Bu gün demək lazımdır ki, həmin pionerlər evi gənclərin, yeniyetmələrin həyatında çox böyük rol oynayıbdır. Biz onu qiymətləndirməliyik, heç vaxt unutmamalıyıq. Ola bilər ki, sizin çoxunuz uşaqlıq dövrünüzü pionerlər evində keçirmisiniz. Kim həmin pionerlər evindən necə istifadə edib, yaxud öz həyatı üçün ondan nə alıb, onu özü bilər. Mən isə demək istəyirəm ki, uşaqlıq dövrümdə məktəblə bərabər, pionerlər evi mənim həyatımda ən böyük rol oynayıb. Mən bütün uşaqlıq dövrümü, yəni orta məktəbin 10-cu sinfini qurtaranadək pionerlər evinin daimi müdavimi olmuşam. Mən pionerlər evində şahmat, dama oynamışam, dram, özfəaliyyət və bir sıra digər dərnəklərdə, müxtəlif idman yarışlarında iştirak etmişəm. Pionerlər evinə ömrüm boyu minnətdaram.»[18]

Sözsüz ki, mədəniyyət müəssisələrinin şəbəkə və tipləri çox genişdir. Bu müəssisələrin hər birinin öz konkret vəzifələri, iş formaları və fəaliyyət strukturları vardır. Lakin onların hər birinin fəaliyyəti şəxsiyyətin tərbiyə edilib formalaşmasına, insanların istirahət və əyləncəsinin təşkilinə, onların istedad və bacarıqlarının inkişaf etdirilməsinə xidmət edir. Bir sözlə, mədəni asudə vaxtdan daha səmərəli istifadə etmək məsuliyyəti müasir mərhələdə mədəniyyət müəssisələri, onun kulturoloq təşkilatçılarının üzərinə düşür.

Tətbiqi kulturologiyanın tədqiqat nəticələrinə görə asudə vaxt dincəlmək, istirahət etmək, həm kütləvi, həm də ayrılıqda fərd kimi bütün mədəni proseslərin iştirakçısına çevrilmək hüququ verən geniş bir məkandır. Bu məkanda insanlar tam azaddırlar və istədikləri mədəni əyləncəli fəaliyyəti seçmək gücündədirlər. Lakin, bu demokratik seçim asudə vaxtdan istifadə olunmanın iki qrupa bölünməsinə

[18] Heydər Əliyev. Azərbaycan Prezidentinin gənclərlə görüşü. (1 fevral, 1997-ci il) Bakı, «Sabah» nəş. 1997, s. 9.

səbəb olur. Onlardan biri aktiv, digəri isə passiv qrupdur. Passiv qrupun iştirakçıları öz mədəni asudə vaxtlarını televiziyanın qabağında bədii filmlərə baxmaqla, bədii kitablar oxumaqla və digər hərəkətsiz vərdişlərlə başa vururlar. Onlar ictimai həyatda baş verən bütün hadisələri sadəcə olaraq seyr edir, daha çox boş vaxtlarını öldürməklə məşğul olurlar. Əksər halda bu qrupa daxil olanlar ictimai aktivlikdən uzaq düşür, yaradıcılıqdan və fərdi inkişafdan kənarda qalırlar.

Asudə vaxtını aktiv keçirmək meylində olanlar isə ictimai, siyasi fəaliyyətlə məşğul olur, bədii özfəaliyyət kollektivlərində öz istedad və bacarıqlarını inkişaf etdirməyə can atır və ya elmi-texniki yaradıcılığa qoşulurlar.

İctimai-siyasi quruluşlara uyğun olaraq hər bir cəmiyyətin mədəniyyəti onun xarakterinə uyğunlaşdırılır. Cəmiyyətin siyasi, iqtisadi məzmunu mədəniyyətin inkişaf modellərində öz əksini tapır. Bununla yanaşı mədəniyyət bütün dövrlərin insani münasibətlərini, etik və estetik baxışlarını, etnoqrafiyasını, milli-psixoloji xüsusiyyətlərini özündə qoruyub saxlayır. Eyni zamanda mövcud cəmiyyətin həyat tərzi, siyasəti, istehsal münasibətləri, dini və elmi baxışları, texnologiyası, ədəbiyyat və incəsənəti və s. xüsusiyyətləri mədəniyyətin əsas tərkib hissəsi kimi özünü biruzə verir.

Alim Fuad Məmmədov «Kulturologiya» adlı kitabında müasir cəmiyyətin mədəniyyətini üç əsas faktorla izah etməyə çalışır. Onun fikrincə, bu faktorlardan birincisi, «mənəvi istehsala» təminat yaradan şəxsi yaradıcılıq fəaliyyətidir. İkincisi, mədəni sərvətlərin ümumkütlə tərəfindən mənimsənilməsidir. Üçüncüsü, dövlətin mədəni siyasətidir. Bu siyasət vasitəsi ilə ictimai inkişaf naminə intellektual potensialdan cəmiyyətin tərəqqisi üçün istifadə etmək imkanları yaranır.[19]

Sözsüz ki, cəmiyyətin başlıca inkişafı mənəvi fəaliyyət sferasında özünü göstərir. İnsan yaradıcı bir varlıq kimi öz yaratdıqlarını həm də mənəviləşdirir. Maddi nemətlər istehsal

[19] Фуад Мамедов. Культурология. Баку. 2002, с. 71.



olunduqda belə insanın bu nailiyyətləri də mənəviləşdirilir. Belə ki, insan əməyi onun mənəvi yaradıcılığının əsas mövzusuna çevrilir. Yaradılan maddi sərvətlər elə insanların özləri tərəfindən bədii-emosional şəkildə tərənnüm olunur, təcəssümləşdirilir. Bunun da nəticəsində adətlər, ənənələr, bayram və mərasimlər yaranır. Həyatda mühüm əhəmiyyət kəsb edən tarixi anlar da bu və ya digər formada tərənnüm edilir. İnsanın mənəvi-psixoloji təbiətinə xas olan tərənnümçülük həm də onun öyrənmək, estetik zövq almaq, bədii fəaliyyətə qoşulmaq imkanlarını yaradır. Beləliklə də, insanın həyatında mənəvi tələbatın rəngarəngliklləri baş verir. Bu da onun mədəni asudə vaxt məkanını formalaşdırır. Bu məkan daima təkamül edir və genişlənir. Elmi-texniki tərəqqi də bu məkana ardıcıl olaraq təsir göstərir və asudə vaxtın təşkilinin çox mükəmməl və intellektual texnologiyasını, onun yeni formada idarə olunması mexanizmini yaradır. Asudə vaxtın həm maddi bazası, həm də mənəvi mühiti zaman-zaman dəyişir. Tətbiqi kulturologiya bu dəyişiklikləri ardıcıl olaraq izləyir, onun bilavasitə sistemləşdirilməsində yaxından iştirak edir. Xüsusilə, Azərbaycan müstəqillik əldə etdikdən sonra onun mədəniyyət siyasəti də müstəqilləşmişdir. Xarici ölkələrlə birbaşa mədəni əlaqələr qurmaq imkanı yaranmışdır. Sözsüz ki, tətbiqi kulturologiya beynəlxalq miqyasda Azərbaycanın siyasi-mədəni əlaqələrinin formalaşmasına, Azərbaycan dövlətinin nüfuzunun artmasına yaxından kömək edir. Bu prosesdə mədəni vasitələr və sərvətlər siyasi münasibətlərin tənzimlənməsinə, xalqlar və millətlərarası əlaqələrin genişlənməsinə əlverişli şərait yaradır. Azərbaycanın müxtəlif beynəlxalq festivallarda, olimpiya oyunlarında, beynəlxalq yarışlarda və başqa tədbirlərdə iştirakı ölkəmizin sivil bir dövlət kimi tanınmasına, öz mənəvi səviyyəsini nümayiş etdirməsinə səbəb olur. Təbii ki, bu tədbirlərin həyata keçirilməsində, onların təşkilində kulturoloqların da böyük zəhməti vardır. Onlar hadisənin mahiyyətinə uyğun gələn bədii ifadə vasitələri tapır, seçilmiş materialların təqdimatının forma və metodlarını planlaşdırırlar. Daha

doğrusu mədəniyyəti dövlət siyasətinin reallaşmasına tətbiq edirlər.

Məlumdur ki, müstəqil bir ölkə kimi inkişaf etmiş nəhəng dövlətlərlə mədəni əlaqələrin yaradılması indiki çətin geosiyasi məkanda Azərbaycan üçün çox vacibdir. Azərbaycan güclü dövlətlərin himayəçiliyini, dəstəyini qazanmadan öz müstəqilliyini axıra qədər qoruyub saxlaya bilməz. Həmin nüfuzu və dəstəyi qazanmaq üçün isə Azərbaycan dövləti öz xalqının qədim sivilizasiya yolu keçdiyini və bəşər mədəniyyətinə gətirdiyi mənəvi sərvətləri dünya ictimaiyyətinə təqdim etməyi bacarmalıdır. Bu təqdimat mədəni sərvətlərimizi dünyanın hərrac bazarlarına çıxarıb satmaqla baş vermir. Satışa çıxarılanlar heç zaman bizim olmamışdır. Ayrı-ayrı tarixi dövrlərdə milli xalçalarımız, məişət əşyalarımız, dekorativ-tətbiqi sənət nümunələrimiz satın alınaraq xarici ölkələrə daşınmış və Azərbaycan mədəniyyət xəzinəsində ağır itkilər olmuşdur. Məhz, bütün bunları nəzərə alaraq Azərbaycan dövləti tarix və mədəniyyət abidələrimizi qoruyub saxlayır, onlardan daha səmərəli şəkildə istifadə edir. Mədəni irsimizin qorunub saxlanılması dövlətin mədəniyyət siyasətinin tərkib hissəsi hesab olunur. Lakin mədəni irsin beynəlxalq siyasətə tətbiq edilməsi vəzifəsi əsasən mədəniyyət müəssisələrinin və onların kulturoloq mütəxəsisslərinin üzərinə düşür. Məsələn, muzeylərimiz xalqımıza məxsus olan mənəvi-tarixi dəyərlərimizi ayrı-ayrı ölkələrdə təbliğ edirlər. Bu sərgilər prosesində kütləvi informasiya vasitələrindən, müxtəlif dillərdə nəşr olunmuş buklet və kitablardan istifadə olunur, Azərbaycanın mədəniyyət və incəsənət xadimlərinin çıxışları təşkil edilir. Məhz tətbiqi kulturologiyanın elmi-metodiki potensialı muzey əşyalarının və bir sıra yardımçı vasitələrin köməyi ilə Azərbaycan xalqı və onun mədəniyyəti haqqında sərgi keçirilən ərazinin əhalisində obyektiv fikir yaratmaq imkanı verir.

Dünyada mədəni asudə vaxtın turizm formasına da çox geniş yer verilir. Turizm həm asudə vaxtın daha mənalı keçməsi üçün əhəmiyyətlidir, həm də ölkənin milli gəlirinin



artmasına təsir göstərən əlverişli bir sahədir. Tətbiqi kulturologiya sahəsində aparılan araşdırmalara görə müxtəlif ölkələrin milli gəlirinin böyük bir hissəsi turizm xidmətindən əldə olunur. Hələ XX yüzilliyin 60-cı illərindən başlayaraq Qərbin iqtisadi inkişaf etmiş ölkələri mədəni asudə vaxtın daha geniş məkanda təşkilinə üstünlük verməyi zəruri bilmişlər. Bunun da nəticəsində müasir mərhələdə ABŞ-da, İngiltərədə, Kanadada, Avstriyada, Almaniyada və dünyanın bir sıra digər ölkələrində turizm yüksək inkişaf həddinə çatmışdır. Adı çəkilən ölkələrdə turizmin inkişafı üçün dövlət tərəfindən böyük maliyyə vəsaiti ayrılır. Məsələn, İngiltərədə nəşr olunan «Ekonomist» jurnalının verdiyi məlumata görə bu ölkə 1959-cu ildə turizmin inkişafı üçün 310 milyon funt sterlinq ayırdığı halda, sonralar ildən-ilə bu məbləği artırmışdır. 1979-cu ildə 5,9 milyard funt sterlinq, 1989-cu ildə isə 22,7 milyard funt sterlinq məbləğində turizm üçün pul ayırmışdır.

Tətbiqi kulturologiya mədəni asudə vaxtın təşkili məsələsini insanın mənəvi fəaliyyət azadlığına təminat yaradan əsas amillərdən biri kimi qiymətləndirir. Bununla yanaşı, tətbiqi kulturologiya beynəlxalq təcrübənin öyrənilməsinə diqqətlə yanaşır. Kulturoloqların apardıqları araşdırmalar göstərir ki, ABŞ və Böyük Britaniyada tərbiyə potensialını ardıcıl olaraq artırmaq və inkişaf etdirmək üçün xüsusi ənənəvi sistem formalaşmışdır. Bu sistemə uyğun olaraq ictimaiyyətin və dövlətin tələbləri aşağıdakı istiqamətlərdə reallaşdırılır:

- Milli mədəniyyətin ən qiymətli nümunələrinin dövlət tərəfindən mühafizə olunması, ənənəvi xalq yaradıcılığının qorunması və inkişaf etdirilməsi;
- əhalinin asudə vaxtının təşkili üçün müəssisələr, təşkilatlar, ictimai və sosial institutlar tərəfindən vergi imtiyazlarının müəyyənləşdirilməsi;
- uşaq və yeniyetmələrin, gənclərin, eyni zamanda yaşlı nəslin bədii-estetik tələbatını ödəyə biləcək, hər bir sosial qrupun

mənəvi tərbiyəsinə təminat yaradacaq və bir-birinə alternativ olan müxtəlif proqramların yaradılması.[20]

Tətbiqi kulturologiya beynəlxalq təcrübəni milli-ənənəvi xüsusiyyətlərlə, dövlətin siyasəti və mədəniyyət strategiyası ilə əlaqələndirir. Hər bir xalqın, etnoqrafiyasını, etik normalarını, psixoloji cəhətlərini nəzərə alır. Mədəniyyət siyasəti mahiyyəti etibarı ilə bəşəridir. Bir sıra beynəlxalq diplomatik münasibət və əlaqələrin formalaşmasında, bəşəriyyətə humanist ideyaların aşılanmasında mədəniyyət siyasəti zəruridir. Digər tərəfdən yaradılan mədəni əlaqələr xalqları bir-birinə yaxınlaşdırmaqla yanaşı, bir-birinin mədəni sərvətlərindən bəhrələnir. Eyni zamanda ayrı-ayrı ölkələrin mədəni inkişaf təcrübəsi öyrənilir. Məsələn, Yaponiyada mədəniyyətin inkişafı haqqında xüsusi dövlət konsepsiyası mövcuddur. Bu mədəni inkişaf konsepsiyasında 5 əsas siyasi xətt üstünlük təşkil edir. Burada mədəniyyətin inkişaf istiqamətləri aşağıdakı amillər üzərində qurulur:

a) Milli xüsusiyyətlərin qorunması və istifadəsi;
b) Mədəni imkanlar;
c) Milli dil siyasətinə yardım;
ç) İncəsənətin dəstəklənməsi;
d) Müəlliflik hüququnun qorunması.

Milli xüsusiyyətlərin qorunması və istifadəsi anlayışına uyğun olaraq Yapon xalqının tarixinin və mədəniyyətinin öyrənilməsinə, düzgün anlaşılmasına dövlət səviyyəsində qayğı göstərilir. Mədəni irsin qorunması haqqında qanuna əsasən vacib mədəni xüsusiyyətlər, tarixi-incəsənət yerləri, monumental abidələr və s. qorunur, bərpa edilir. Tarixi yerlərdə qazıntı işləri aparılır, bədii və elmi əhəmiyyəti olan əsərlərin satın alınmasına və qorunmasına dövlət tərəfindən yardım edilir.

Məlumdur ki, dünyada millətlərarası münasibətlərdə kifayət qədər düyünlər də vardır. Lakin milli münasibətlərdə mövcud olan bu düyünlər və qarşıdurmalarla yanaşı, dünya sivilizasiyasının inkişafına müsbət təsir edən humanist

---
[20] İlqar Hüseynov. Azərbaycan milli adət və ənənələrinin bədii-estetik mahiyyəti. Bakı, «Mars-Print», 2002. s. 204



mahiyyətli amillər də çoxdur. Belə ki, yalnız beynəlxalq mədəni əlaqələr prosesində milli və humanist ideyaların bir vəhdət şəklində birləşməsi mümkündür. Göstərilən amillərin vahid formada təzahür etməsi üçün millətlərarası mədəni əlaqələrin təşkilinin alternativi yoxdur. Çünki millətlərarası mədəni əlaqələr nəinki milli münasibətlərin humanistləşdirilməsinə təkan verir, eyni zamanda dövlətlərarası inteqrasiyaların formalaşmasım sürətləndirir.

Mədəni əlaqələr milli ünsiyyətin məzmununu genişləndirir, xalqlar arasında çoxsahəli iş birliyinin qurulmasına, cəmiyyətdə mövcud olan müxtəlif problemlərin həllinə geniş şərait yaradır. Odur ki, millətlərarası ünsiyyət mədəniyyəti müasir dövrdə hətta ən ziddiyyətli və gərgin vəziyyətlərin tənzimlənməsinin daha çevik vasitəsidir. Bəşəri normalara əsaslanan mədəni əlaqələr yüksək əxlaq prinsiplərinə uyğun olaraq özündə yüksək insani mənəviyyatı birləşdirir. Bu ünsiyyət forması milli-etnik fərqlənmələrdən uzaqlaşmağın vasitəsi kimi katalizator rolunu oynayır, milli mədəniyyətlərin bir-birinin mənəvi-irsi dəyərlərindən bəhrələnməsinə yardımcı olur.

Məhz bu spesifik xüsusiyyətlərinə görə hələ sovet dövründə beynəlxalq mədəni əməkdaşlıq dövlətin xarici siyasətinin əsas təzahürlərindən biri olmuşdur.

Heç kəsə sirr deyildir ki, Azərbaycan müstəqillik əldə etdikdən sonra onun daha yüksək səviyyədə beynəlxalq mədəni əlaqələr yaratmasına ehtiyac vardır. Ölkəmizin müstəqil bir subyekt kimi dünya siyasətinə inteqrasiya olunması yenicə möhkəmlənən dövlət sisteminin davamiyyətli inkişafına təminat yaratmalı, beynəlxalq mədəni əlaqələr əsasında millətimiz və xalqımız haqqında müsbət fikirlər formalaşdırmalıdır. Həmçinin, dünya dövlətləri bütün ölkələr və xalqlar arasında həqiqi mədəni sərvətlərin geniş qarşılıqlı mübadiləsinə tərəfdar olmalıdırlar. Bu cür mübadilə hümanizm məqsədlərinə, xalqların mənəviyyatca zənginləşməsinə, sülhün və mehriban qonşuluğun möhkəmlənməsinə xidmət etməlidir. Bu prosesin inkişaf etdirilməsində isə tətbiqi kulturologiyanın rolu əvəzsizdir.

Qeyd etmək lazımdır ki, zəngin təbii sərvətlərə, əlverişli coğrafi mövqeyə, güclü istehsal vasitələrinə malik olan Azərbaycan həmişə dünya ölkələrinin diqqətini cəlb etmişdir. Lakin Azərbaycan 200 ilə yaxın bir müddət ərzində rus imperiyasının əsarəti altında olduğuna görə özünün müstəqil xarici mədəni əlaqələrini yarada bilməmişdir. 70 il ərzində isə sovet imperiyası tərkibində Azərbaycan mədəniyyəti müəyyən siyasi məhdudiyyətlərə baxmayaraq inkişaf etmiş, dünya miqyasında öz milli simasını nümayiş etdirə bilmişdir. Azərbaycan mədəniyyətinə sovet etiketinin vurulmasına baxmayaraq xalqımızın müəyyən istedad və qabiliyyətlərini, tarixini, adət və ənənəsini, milli-etnoqrafik xüsusiyyətlərini təbliğ edə bilən şəxsiyyətlərimiz yetişmişdir. Xüsusilə dünya şöhrətli mədəniyyət və incəsənət xadimlərimizin sənətkarlıq fəaliyyəti nəticəsində Azərbaycan Respublikasının beynəlxalq mədəni əlaqələri bu və ya digər formada mümkün olmuşdur.

Mübaliğəsiz demək olar ki, 1969-cu ildə Heydər Əliyevin Azərbaycan rəhbəri vəzifəsinə gəlməsi Azərbaycan Respublikasının xarici ölkələrlə mədəni əlaqələrini xeyli dəyişmiş və Kremlin Mərkəzi hakimiyyətinin təzyiqlərinə baxmayaraq hətta qardaş Türkiyə dövləti ilə də bir sıra sahələr üzrə mədəni əlaqələr qurulmuşdu.

Tarixi araşdırmalardan məlumdur ki, sovet imperiyası ərazisinin 0,4 faizini və əhalisinin 2,5 faizini təşkil edən Azərbaycan üzüm və çay istehsalında ikinci, neft və polad boruların istehsalına görə isə SSRİ-də üçüncü yeri tuturdu. Məişət kondensionerləri və silindr yağları istehsalı da əsasən Azərbaycan ərazisində cəmləşdirilmişdi. Bununla yanaşı SSRİ-də istehsal edilən neft-qazma və neft - istismar, geoloji kəşfiyyat avadanlıqlarının əsas hissəsi, Azərbaycan Sovet Sosialist Respublikasının payına düşürdü. Pambıq, tütün, yun, ipək, meyvə, tərəvəz və s. sahələr üzrə də Azərbaycan fərqlənirdi. Lakin bu qədər geniş istehsal sahələri olmasına baxmayaraq Azərbaycan xalqı əldə olunan külli miqdarda vəsaitdən məhrum edilirdi. Bu məhrumiyyətlər respublikanın xarici dövlətlərlə birbaşa mədəni və iqtisadi əlaqələrini yaratmaq sahəsində də özünü biruzə verirdi. Mərkəzi



hakimiyyətin icazəsi olmadan adi turist kimi də başqa dövlətlərlə əlaqə yaratmaq mümkün deyildi. Hər halda mərkəzin nəzarəti altında da olsa, Azərbaycanın beynəlxalq mədəni əlaqələri məhdud səviyyədə inkişaf edirdi. Professor Musa Qasımovun fikrincə həmin dövrlərdə «Azərbaycan Respublikasının beynəlxalq mədəni əlaqələrini xüsusi dövlət idarələri, ictimai və yaradıcı təşkilatlar, ayrı-ayrı mədəniyyət xadimləri həyata keçirirdilər. Respublikamız dünyanın 120-dən çox ölkəsi ilə mədəni əlaqələr saxlayırdı».[21]

Bildiyimiz kimi dövlətlərarası işgüzar münasibətlərin formalaşmasında, millətlər və xalqların bir-birinə yaxınlaşmasında turizm işinin düzgün təşkili çox böyük siyasi əhəmiyyət kəsb edir. Turizm həm dövlət siyasətində, həm də onun iqtisadi potensialının artırılmasında mühüm yer tutur. Belə ki, turizmə ciddi xərc qoymadan kifayət qədər xarici valyuta əldə etmək mümkündür. İndiki mərhələdə Azərbaycanın zəngin turizm potensialı vardır. Bu potensialdan sovet ittifaqı dövründə də istifadə edilmişdir. Lakin sovet ittifaqı mədəni əlaqələri kommunist əxlaq prinsipinə uyğun şəkildə siyasiləşdirdiyindən turizm vasitələrindən tam şəkildə istifadə olunmurdu.

Turizmin təşkili ilə əsasən Respublika Baş Turizm İdarəsi və Azərbaycan Turizm və Ekskursiya Şurası məşğul olurdu. Tarixi materiallardan məlum olur ki, 1975-ci ildə Bakı Xarici Turizm İdarəsi 28289 xarici turist qəbul etmiş, xaricə isə cəmi 4509 nəfər göndərmişdir. Bunun nəticəsində 51,6 min manat məbləğində vəsait qazanılmışdır və bundan sonra respublika rəhbərliyi turizmin inkişafı üçün müəyyən işlər görmüşdür.[22]

Respublikada turizm işinin maddi-texniki bazasını yaxşılaşdırmaq məqsədilə 1978-ci ildə «Moskva» mehmanxanası yenidən istifadəyə verilmişdir. Həmin ildə 20497 xarici turist qəbul olunmuşdur. Xaricə isə 5305 turist

---

[21] Musa Qasımov. Bəşəriyyətin şağ qalması naminə. Bakı, «Azərnəşr». 1991, s. 51.
[22] «Yeni fikir» qəzeti, 1990, 15 avqust.

yola salınmışdır. Göstərilən ildə turizmdən 82,6 min manat gəlir əldə edilmişdir.[23]

Sonralar da turizmin inkişafına qismən diqqət yetirilmiş, «Karvansaray»ın və «Gəncə» mehmanxanasının açılışı hesabına turizm bazaları artırılmışdır. 1987-ci ildə turizmdən 254,3 min manat gəlir əldə olunmuşdur. Məhz, həmin ildən turizmdən əldə olunan gəlirin bir hissəsi Azərbaycan Respublikasının özünə qalmışdır.[24]

Beynəlxalq mədəni əlaqələr genişləndikcə Azərbaycan xalqı tanınmış, onun haqqında daha çox informasiyalar almaq və yaymaq maraqları da artmışdır. Təbii ki, turizm əlaqələri Azərbaycanın mədəniyyətinin, incəsənətinin, tarixinin təbliğində müstəsna rol oynamışdır. Hətta Azərbycanla tanışlıqda siyasi maraqları olan xaricilər də «turist» adı altında xalqımızın həyat tərzini, onun mədəni irsini öyrənməyə cəhdlər göstərmişlər. Bunun da nəticəsində bir çox xarici ölkələrdə Azərbaycan xalqının mədəni irsindən, onun mövcud vəziyyətindən bəhs edən kitab və məqalələr dərc olunmuşdur. Eyni zamanda Azərbaycan ədiblərinin və alimlərinin əsərlərini öz ölkələrinin nəşriyyatlarında kitab şəklində çap etmişlər. Məsələn, hələ 1970-1976-cı illərdə ABŞ-da sənətşünas Çarlz Elisin «Azərbaycan xalqları» adlı kitabı nəşr olunmuş, 1977-ci ildə isə Azərbaycanın satirik şairi Mirzə Ələkbər Sabirin «Hophopnamə» kitabı çap olunmuşdur. ABŞ-ın Konqres kitabxanasında Nizaminin, Füzulinin, Səməd Vurğunun, Cəfər Cabbarlının və başqa şairlərin əsərləri saxlanılır.

Türkiyədə, İranda, Macarıstanda, Almaniyada, Kubada və dünyanın onlarla başqa ölkələrində Azərbaycan müəlliflərinin əsərləri çap edilmişdir.

Almaniyanın Frankfurt şəhərində keçirilən 41-ci beynəlxalq kitab yarmarkasında tarixdə ilk dəfə olaraq müstəqil bölmədə Azərbaycan kitabları nümayiş etdirilmişdir. Təxminən, 150 adda milli kitablarımız olan bu sərgidə Dağlıq Qarabağ, Naxçıvan, Şəki, Lənkəran haqqında albomlar,

[23] «Kommunist» qəzeti, 1990, 4 may.
[24] «Ədəbiyyat və incəsənət» qəzeti, 1991, 3 may.



Azərbaycan ədəbiyyatının klassikləri N.Gəncəvinin, M.Füzulinin əsərləri, bəstəkarlar Ü.Hacıbəyovun, Q.Qarayevin, F.Əmirovun, şair R.Rzanın həyat və yaradıcılıqlarından bəhs edən albomlar nümayiş etdilirmişdir. Sərgidə «Azərbaycan xörəkləri», «Azərbaycan miniatürləri», «Azərbaycan təbiəti» və başqa kitablar böyük maraqla qarşılanmışdır. Tanınmış tarixçilərimiz Z.Bünyadovun, İ.Əliyevin, F.Məmmədovanın ölkəmizin tarixi keçmişinə həsr etdikləri əsərlər Dağlıq Qarabağ həqiqətlərini almanlara olduğu kimi çatdıra bilmişdir.

Xarici ölkələrlə mədəni əlaqələrin formalaşmasında Azərbaycanın mədəniyyət günlərinin keçirilməsi də xüsusi rol oynamışdır. Bu mədəniyyət günləri zamanı Azərbaycan musiqisi dünyanın hər yerində bütün millət və xalqların nümayəndələrinin dərin rəğbətinə səbəb olmuşdur. Məsələn, Rəşid Behbudovun, Zeynəb Xanlarovanın, Fidan və Xuraman Qasımovaların və başqa dünya şöhrətli müğənnilərimizin çıxışları xarici ölkələrdə böyük hərarətlə qarşılanmış, Azərbaycan xalqının sivil mədəniyyətə malik olması haqqında beynəlxalq miqyasda müsbət rəy yaratmışdır.

Mədəniyyətlərin bir-biri ilə yaxınlaşması dövlət diplomatiyasının ahəngdar inkişafında böyük əhəmiyyətə malikdir. Belə ki, sənətkarlar, mədəniyyət və incəsənət xadimləri bəzən dövlətlərarası siyasi münasibətlərin tənzimləyicilərinə, «katalizator»larına çevrilirlər.

Sovet imperiyasının dağıldığı son anlara qədər xarici ölkələrlə mədəni əlaqələr ideologiyalaşdırılır, böyük məhdudiyyətlərlə müşayət olunurdu. Xüsusilə, sovet siyasətində bizə qardaş olan Türkiyə strateji düşmən kimi təqdim edilirdi. Lakin buna baxmayaraq ayrı-ayrı illərdə Sovet-Türkiyə mədəni əməkdaşlığına dair sazişlər bağlanmış, Türkiyənin elm, mədəniyyət və incəsənət xadimlərinə də Azərbaycanla tanışlıq və mədəni əlaqələr üçün imkanlar yaranmışdır. 1977-ci ildə Türkiyə ictimaiyyətinin böyük bir nümayəndə heyəti Azərbaycana gəlmişdir. 1978-1979-cu illərdə isə Türkiyə – SSRİ dostluq və mədəni əlaqələr

cəmiyyətinin nümayəndələri respublikamıza gəlmiş və ölkə ictimaiyyəti ilə bir sıra görüşlər keçirmişlər.

Azərbaycanla Türkiyənin tarixi əlaqələrinin tədqiqatçısı Mahir Abdullayevin fikrincə keçmiş «Türkiyənin baş naziri Süleyman Dəmirəl və prezident (sabiqlər) Turqut Özalın, habelə türk xalqının bir sıra ictimai və dövlət xadimlərinin, Türkiyə Böyük Millət Məclisinin üzvlərinin, ictimai təşkilatların, müxtəlif mədəniyyət, elm və incəsənət nümayəndələrinin, işgüzar adamların respublikamıza səfərləri, Azərbaycanın da müxtəlif səviyyəli nümayəndələrinin, o cümlədən dövlət başçısının qonşu ölkəyə səfəri qarşılıqlı etimadı artırmağa, mədəni əlaqələri genişləndirməyə imkan yaratdı». [24]

Beynəlxalq mədəni əlaqələr əsarətdən xilas olmuş və öz müstəqil dövlətini qurmış bir xalqın baş verə biləcək yeni təcavüzlərdən müdafiə olunması üçün də imkanlar yaradır. Əslində mədəni əlaqələr Azərbaycanın dövlətlərarası siyasətinin əsas vasitələrindən birinə çevrilərək strateji əhəmiyyət kəsb edən fəaliyyət sahəsi kimi mövcuddur. Bu fəaliyyət sahəsi gücləndirildikcə millətlərin və dövlətlərin bir-birini daha dərindən tanıması, bir-birinin mədəniyyətini öyrənməsi prosesi baş verir. Bunun da nəticəsində milli, dini, irqi cəhətlərə görə fərqləndirmə tədricən aradan qalxır, gözəl musiqi, incəsənət nümunələri,humanist mahiyyətli insani davranışlar dövlətlərin beynəlxalq ünsiyyətinin, siyasətinin inkişafına nəzərə çarpacaq dərəcədə müsbət təsir edir.

Digər tərəfdən mədəni əlaqələr yolu ilə xalqlar bir-birinin mədəni irsindən bəhrələnməklə yanaşı, onların həyat tərzlərində, dünya görüşlərində, ictimai-siyasi münasibətlərində ümumi cəhətlər formalaşır.

Azərbaycan dövləti başqa ölkələrlə mədəni əlaqələr yaradarkən həmin dövlətlərin qanunlarını, hakimiyyət strukturlarını öyrənir və onların münasib cəhətlərini dövlət

[24] Mahir Abdullayev. Azərbaycan-Türkiyə əlaqələri. Bakı, Mütərcim. 1998. s. 57.



quruculuğu prosesinə tətbiq edir. Bununla da başqa dövlətlərin əldə etdiyi tarixi təcrübədən istifadə olunur. Həmçinin, ölkəmizdə mövcud olan bir sıra problemləri dünya ictimaiyyətinin nəzərinə çatdırmaqla onların həlli üçün inkişaf etmiş dövlətlərdən yardımlar əldə etmək və dəstək qazanmaq imkanı yaranır. Belə ki, Ermənistanın respublikamıza təcavüzünün ən gərgin dövru olan 1990-cı ildə Türkiyədə Azərbaycan mədəniyyəti günləri təşkil olunmuşdur. Həmin günlərdə türk ictimaiyyəti ermənilər tərəfindən Azərbaycan xalqının başına gətirilən faciəli hadisələr barədə daha geniş məlumatlar ala bilmiş, Ermənistanın düşmən siması haqqında onlarda daha aydın təsəvvür yaranmışdır.

Beynəlxalq miqyasda mədəni əlaqələrin qurulması təkcə kiçik və nisbətən az inkişaf etmiş dövlətlərin siyasəti deyildir. Eyni zamanda böyük dövlətlər də beynəlxalq miqyasda mədəniyyət siyasətinə çox mühüm əhəmiyyət verirlər.

Hazırda Azərbaycan, müstəqil bir dövlət kimi, özünün azad mədəniyyət siyasətini həyata keçirməklə dünya sivilizasiyasında diqqətə çarpan yerlərdən birini tutmalıdır. Mədəni əlaqələr vasitəsilə ölkəmizin xarici dövlətlərlə iqtisadi, siyasi inteqrasiyası üçün də zəmin yaratmış oluruq.

İkincisi, mədəni əlaqələr dövlətlərarası əlaqələrin spektorlarını dəqiqləşdirir və yaradılan münasibətlərin əhatə dairəsinə ilkin aydınlıq gətirir. Belə ki, Azərbaycan Respublikası bu gün mədəni əlaqələr yaratdığı dövlətlərin ictimai, siyasi, mədəni, hərbi və s. potensialını öyrənir və öz maraqlarını təmin edəcək bilgilərə malik olur. Bu bilgilər əsasında isə özünün xarici siyasətini qurur və inkişaf etdirir.

Beynəlxalq siyasətin tərkib hissəsi kimi mədəni əlaqələr ardıcıllıq prinsipinə əsaslanmalı, dinamik xarakterə malik olmalıdır. Bu sahədə mövsümi fəaliyyət göstərmək, fasilələrlə münasibətlər qurmaq isə keyfiyyət etibarilə istənilən nəticəni vermir. Hətta din və dil baxımından, eləcə də adət və ənənə oxşarlığına görə bir-birinə çox yaxın olan dövlətlərarası münasibətlərdə də ardıcıllıq prinsipinə əməl edilmədikdə, əlaqələrdə yaranan dostluq həmin andaca hər iki təfəfin xarici

siyasətinə öz mənfi təsirini göstərir. Azərbaycan xalqının atalar sözlərində deyildiyi kimi, «qohumlar bir-birinə getməyə-getməyə yadlaşır, yad isə əlaqələrini artırdıqca «qoğmaşır». Çox təəssüflər olsun ki, yalnız mərhum prezident Heydər Əliyevin və bəzi dövlət və içtimai təşkilatların xarici ölkələrə etdiyi rəsmi səfərlər zamanı yaradılan mədəni-siyasi əlaqələr istisna olunmaqla, respublikada başqa qeyri-dövlət və ictimai təşkilatlar səviyyəsində xarici ölkələrlə mədəni əlaqələrin qurulması işi ardıcıllıqla təşkil olunmur. Halbuki, erməni təcavüzünə məruz qaldığımız bir dövrdə işğal altında olan torpaqlarımızı qaytarmaq və müstəqilliyimizi əbədiləşdirmək naminə bütün ölkələrlə intensiv şəkildə mədəni əlaqələr qurmalı, ölkəmizə qarşı tətbiq olunan irticanın mahiyyətini geniş dünya içtimaiyyətinin diqqətinə çatdırmalıyıq.

Heç kəsə sirr deyil ki, müasir şəraitdə informasiya müharibəsi daha böyük təsir gücünə malikdir. Millət, xalq, dövlət haqqında mənfi və ya müsbət fikirlərin formalaşması informasiyanın gücündən çox asılıdır. Elə buna görə də, vaxtilə rus şovinizminə arxalanan Ermənistan dövləti bütün Rusiya informasiya vasitələrini Azərbaycana qarşı yönəltməyə nail olmuşdu. Ermənistan Azərbaycana etdiyi təcavüzü danır, Dağlıq Qarabağda baş verən qanlı hadisələri bu yerdə yaşayan və sayı 100 mindən artıq olmayan ermənilərin «azadlıq mübarizəsi» kimi təqdim edirdi. Öz tarixi yurdlarından didərgin salınmış bir milyondan artıq soydaşlarımızın, qətlə yetirilmiş minlərlə günahsız vətəndaşlarımızın acınacaqlı və faciəli həyatı «demokratiya», «insan haqları» kimi şüarlar söyləyənləri narahat etməmişdir. Baş verən bu olaylar xalqımızın tarixi-dramatik yaşamlarıdır və tətbiqi kulturologiyaya daxil olan bədii forma və metodlardan istifadə etməklə həmin tarixi anlar dramatikləşdirilərək, bədii təcəssümləşdirmələr aparılaraq bu gün bütün dünya ictimaiyyətinə çatdırıla bilər. Ədəbi-bədii kompozisiya yolu ilə, müxtəlif mövzularda mədəni kütləvi tədbirlər keçirməklə tarixi faktları üzə çıxarıb, real həqiqətləri dünya xalqlarına təbliğ etmək olar.



Göründüyü kimi tətbiqi kulturologiyanın mövzu dairəsi çox genişdir. Məhz ictimai həyatın rəngarəngliyindən əmələ gələn geniş mövzu məkanı müxtəlif sosial qrupdan və təbəqədən olan insanların mədəni asudə vaxtlarının səmərəli keçməsi, onların beynəlxalq informasiya məkanına daxil olması üçün geniş imkanlar açır. Tətbiqi kulturologiya insanlar arasında sosial və mədəni təklənmənin aradan qaldırılmasına ayrı-ayrı vasitələrlə kömək edir. Nəinki böyüklərin, eləcə də, uşaq və gənclərin bir-birilə ünsiyyətə girməsi üçün mədəniyyət müəssisələri ən əlverişli fəaliyyət məkanıdır.

Tətbiqi kulturologiya insana, şəxsiyyətə məxsus olan mədəni asudə vaxtı mənalandıran, onu sosiallaşdıran yaradıcı bir sahədir. Bu sahə həm təbliğat, həm də təşviqat imkanlarına malik olmaqla dövlətin və bütövlükdə cəmiyyətin həyatında aparıcı rol oynayır. Tətbiqi kulturologiya hər bir şəxsin mədəni həyata qatılması mexanizmini işləyib hazırlayır, əmək prosesini stimullaşdırır. Bunun nəticəsində isə, dünyagörüşü formalaşır, əxlaq və davranış normaları mövcud ictimai quruluşun real həyat prinsiplərinə uyğunlaşdırılır.

# II FƏSİL

# TƏTBİQİ KULTUROLOGİYA VƏ SOSİOLOJİ TƏDQİQATLAR

## *2.1. Tətbiqi kulturologiyada sosioloji tədqiqatların yeri*

Tətbiqi kulturologiyanı sosioloji tədqiqatlardan ayrı təsəvvür etmək mümkün deyil. Çünki tətbiqi kulturologiya mədəniyyətin əsasən empirik tərəfi ilə məşğul olduğundan, ictimai həyatda baş verən bütün proseslərin, tələbatların səviyyəsini və dərəcəsini müəyyənləşdirmədən mədəni-əməli fəaliyyətin inkişaf dinamikasından uzaq düşür. Bunun da nəticəsində cəmiyyətin mədəni həyatında durğunluq baş verir, təkamül ləng gedir. Cəmiyyətin mədəni həyatı isə rəngarəng olduğundan onun canlı orqanizmi olan insanların da sosial kateqoriyaları müxtəlifdir. Hər bir sosial kateqoriyaya mənsub olan insanların özünəməxsus mədəni tələbatları vardır. Məhz bu tələbatları dəqiqləşdirmədən, onların dərəcələrini müəyyənləşdirmədən mədəni-əməli işin həyata keçirilməsi və onun lazımi səviyyəyə çatdırılması mümkün deyildir. Bu baxımdan sosioloji tədqiqatlar aparmadan müxtəlif sosial təbəqənin mənəvi ehtiyaclarını, onların bədii yaradıcılığa və digər özfəaliyyət sahələrinə olan meyllərini aşkar etmək çətindir. Həmçinin, əhalinin asudə vaxt müddətindəki mənəvi tələbatını da dəqiqləşdirməyə böyük ehtiyac vardır. Xüsusilə, Azərbaycan müstəqillik əldə etdikdən sonra bütün mədəniyyət müəssisələrinin fəaliyyəti bazar iqtisadiyyatı şəraitinə uyğun şəkildə təşkil olunmaqla istiqamətləndirilmişdir.

Bazar iqtisadiyyatı şəraiti özünüidarəetmə prinsipinə əsaslandığı üçün mədəniyyət müəssisələri əhalinin sosial-psixoloji durumunu, ayrı-ayrı fərdlərin və qrupların estetik duyumunu müəyyənləşdirməli, mənəvi tələbatın səviyyəsinə uyğun olan iş qurmalıdırlar.

Tətbiqi kulturologiya sosioloji tədqiqatları mədəniyyət müəssisələrinin işinin müasir şəraitə uyğun olaraq düzgün



qurulmasının əsas informasiya mənbəyi kimi qiymətləndirir, onun əldə etdiyi empirik materialların mədəni quruculuq proseslərinə tətbiq olunmasını zəruri hesab edir.

Sosioloji tədqiqatlar, adından məlum olduğu kimi sosial-mədəni mühitin real mənzərəsini əks etdirən vasitədir.

Sosioloji tədqiqatlar qarşıya qoyulan konkret suallar ətrafında təşkil olunur və onun nəticələri nəzəri təhlilin əsas mövzusuna çevrilir.

Müəyyənləşdirilən suallar öz aktuallığı ilə fərqlənir və xarakter etibarı ilə mövcud həyatla, müxtəlif problemlərin ictimai, siyasi, mədəni mühiti ilə əlaqələndirilir. Tədqiqatın nəticələrinin mahiyyəti də qarşıya qoyulan sualların aktuallığından, ictimai dəyərindən çox asılıdır. Çünki bu sualların arxasında çox fəal ictimai varlıq olan insan və şəxsiyyət durur. Şəxsiyyət «özünün praktiki fəaliyyətini bir tərəfdən ətraf dünyanın obyektiv qanunauyğunluqlarını dərk etmək əsasında qurur. Bu qanunların tələblərinin adekvat surətdə əks olunması insanın təkcə fəaliyyətinin deyil, həm də sosial davranışının məzmununu şərtləndirir»[26]

Sosioloji tədqiqatlar apararkən həm şəxsiyyətin fəaliyyətinin və sosial davranışının xarakteri və tələbatı dəqiqləşdirilir, həm də bu tələbatın ödənilməsinin təcrübi mexanizmi işlənib hazırlanır.

Rus kulturoloqları sosioloji tədqiqatın təşkilinin dörd əsas mərhələdən ibarət olduğunu qeyd edirlər:

- tədqiqatın hazırlıq mərhələsi;
- ilin sosioloji məlumatlarının toplanılması mərhələsi;
- yığılmış məlumatların ümumiləşdirməsi və onların elektron-hesablama maşınları vasitəsilə sistemləşdirilməsi;
- sistemləşdirilmiş məlumatların təhlili, tədqiqatın yekunlarına əsaslanan hesabatın hazırlanması, nəticə və rəylərin formalaşdırılması.[27]

Sosioloji tədqiqatların aparılma forması qarşıya qoyulan məqsədin xarakterindən asılıdır. Tədqiqatın

---

[26] Sosiologiya. Bakı, «Təbib» 1994, səh. 68.

[27] Как провести социологическое исследование. Москва, 1990, с. 12.

mahiyyəti onun məkanını və məntiqi xüsusiyyətini müəyyən edir. Tədqiqatın obyektinə çevrilən mövzunun əhatə dairəsi formanın dəqiqləşdirilməsində xüsusi rol oynayır.

Xarakterik xüsusiyyətlərinə görə sosioloji tədqiqatın üç əsas növündən istifadə olunur. Bunlardan birincisi, kəşfiyyat xarakterli tədqiqatdır. Belə tədqiqatlar yığcam xarakter daşıyır və məhdud dairəni əhatə edir. O, ilkin məlumatların, sənədlərin toplanılması və öyrənilməsi prosesidir. Sosioloji tədqiqatın bu növü daha geniş miqyaslı tədqiqatların ilkin mərhələsi hesab olunur. O, tədqiq olunan obyekt haqqında əlavə məlumatlar əldə etmək üçün imkanlar açır, yeni məlumatlar əldə olunmasına şərait yaradır. Buna görə də, bu növ tədqiqat yardımçı vasitə kimi özünü biruzə verir.

Kəşfiyyat xarakterli tədqiqatın ekspress-sorğu xüsusiyyətli forması da vardır. Ekspress-sorğu xüsusi məlumatların əldə olunması prosesində istifadə olunur. Respondentlər müxtəif hadisə və faktlara bədahətən, aparılan sorğular nəticəsində, münasibət bildirirlər. Məsələn, hər hansı mühazirənin dinləyicilərindən, müxtəlif mədəni-kütləvi tədbirlərin, siyasi aksiyaların iştirakçılarından və s. proseslərin şahidlərindən ekspress-sorğular götürülür.

Sosioloji tədqiqatın ikinci növü, yazılı tədqiqat adlanır. Yazılı tədqiqat konkret sosioloji təhlilin ən mücərrəd formasıdır. Bu tədqiqat növünün qarşısında duran əsas məqsəd empirik məlumatların alınması və təcrübə prosesindən əldə olunan bu məlumatların öyrənilməsidir.

Yazılı tədqiqatın əhatə dairəsi daha geniş olur və əldə olunan məlumatlar sosioloji obyektin bütün tərəflərini geniş şəkildə öyrənməyə istiqamətləndirir. Əldə olunan məlumatların xüsusi hesabatı aparılır, onlara münasib olan təhlil metodu seçilir, tədqiqatın məqsədi, məzmunu, istiqamətləri, funksiyaları müəyyənləşdirilir.

Yazılı sosioloji tədqiqatlar mükəmməl şəkildə hazırlanmış proqram əsasında yerinə yetirilir. Həmin proqrama uyğun olaraq əldə olunan materiallar qruplaşdırılır, xarakterizə edilir, qiymətləndirilir.



Üçüncü növ sosioloji tədqiqatlar analitik tədqiqat adlanır. Analitik tədqiqat sosioloji tədqiqatın daha dərin məzmunlu təhlil növü olub, öyrənilən obyektin bütün tərəflərinə rasional mövqedən yanaşır.

Analitik tədqiqat obyektinin bütün xarakterik xüsusiyyətlərini faktlar əsasında təhlil edir, onun məqbul və qeyri-məqbul tərəflərini üzə çıxarır. Həmçinin, analitik tədqiqata xeyli vaxt lazım gəlir və daha optimal proqrama, fəaliyyət metodlarına ehtiyac yaranır.

Analitik tədqiqat sosioloji materialların toplanılmasına və tədqiqinə kompleks şəkildə yanaşır. Burada müxtəlif formalı sorğulardan, müşahidələrdən, təhlillərdən istifadə olunur.

Daha müstəqil tədqiqat forması olduğundan analitik tədqiqat mahiyyətcə eksperiment xarakteri daşıyır. Çünki tədqiqatın müxtəlif yanaşma metodlarından istifadə etməsi müxtəlif hadisə və obyektin sosioloji tədqiqinə yeni cəhətlər əlavə edir.

Sosioloji tədqiqatlar zamanı eksperimentlər aparmağın bir çox problemləri də mövcuddur. Çünki insan fəaliyyəti, cəmiyyətin həyatı ilə bağlı aparılan eksperimentlər bəzən nəticə etibarı ilə təsəvvürlər şəklində özünü biruzə verir. Buna görə də, sosioloq alimlər mənəviyyatla bağlı məsələlər ətrafında eksperiment xarakterli tədqiqatların aparılmasını düzgün hesab etmirlər.

Tətbiqi kulturologiya sosioloji tədqiqatlardan əsasən sosial layihələndirmə məqsədi üçün istifadə edir. Belə ki, bir çox mədəni-kütləvi tədbirlərin təşkili prosesində, asudə vaxt mədəniyyətinin bu və ya digər formalarının insanların həyatına tətbiqi prosesində sosioloji tədqiqatların nəticələri əsasında sosial layihələndirmələr aparılır. Xüsusilə, müasir mərhələdə mədəni-kütləvi tədbirlərin həyata keçirilməsinin maliyyə imkanları sosial layihələndirmələrdən çox asılıdır. Çünki bu layihələrin reallaşdırılması əsasən qrantlar vasitəsi ilə həyata keçirilir. Bir sıra beynəlxalq təşkilatlar ayrı-ayrı mədəni kütləvi tədbirlərə, yalnız elmi cəhətdən əsaslandırılmış sosial layihələrə qrantlar ayırır.

Sosial proqnozlaşdırma da sosioloji tədqiqatlar əsasında yerinə yetirildikdə gələcək mədəni quruculuq proseslərinin inkişaf dinamikasını dəqiqləşdirir, əhalinin mənəvi tələbatını əvvəlcədən müəyyənləşdirir. Təbii ki, sosial layihələndirməyə və sosial proqnozlaşdırmaya bir ictimai quruluşun digəri ilə əvəz olunduğu halda daha böyük ehtiyac duyulur.

«Sosial layihələşdirmənin əsas mahiyyəti qarşıya qoyulmuş məqsədə çatmaq üçün aşkar edilmiş vəzifə və problemləri həll etməyə imkan verən vasitələri quraşdırmaqdan ibarətdir. Bu vasitələr iki formada mövcud olur: 1) layihələşdirilən obyektin sosial parametrlərinin sistemi və onların kəmiyyət göstəriciləri kimi, 2) layihələşdirilən göstəricilərin həyata keçirilməsini təmin edən konkret tədbirlərin məcmuyu və gələcək obyektin keyfiyyət xarakterləri kimi.»[28]

Qeyd olunan layihələşdirmənin əsas mahiyyəti və məzmunu mədəniyyətin bütün sahələrinin idarəetmə prosesinə tətbiq olunur.

Sosioloji tədqiqatlar konkret metodologiya əsasında aparılır. Metodologiyaya əsaslanaraq ilk mərhələ tədqiqata hazırlıq işləri ilə bağlıdır. Hazırlıq mərhələsində tədqiqatın proqramı, iş planı tərtib olunur və yardımçı sənədlər müəyyənləşdirilir.

Sosioloji tədqiqatların proqramı konkret obyektin, hadisə və ya prosesin öyrənilməsinə qərar verildikdən sonra işlənib hazırlanır. Təbii ki, tədqiqat obyekti metodoloji və nəzəri cəhətdən əsaslandırılır, onun ictimai əhəmiyyəti, aktuallığı müəyyənləşdirilir. Tədqiqat obyektinin bütün sahələri mütəxəssis təhlilindən keçir. Yalnız bundan sonra sosioloji tədqiqatın dərin düşünülmüş proqramı işlənilir. Proqram tədqiqatın bütün mərhələlərini əhatə edir, onu son nəticəyə qədər istiqamətləndirir. Elə bu cəhətinə görə də sosioloq alimlər proqramı tədqiqatın strateji sənədi adlandırırlar. Çünki ancaq dəqiq hazırlanmış proqram

[28] Sosiologiya. Bakı, «Təbib» 1994, s. 104.



əsasında sosioloji tədqiqatın vahid bir konsepsiyasına nail olmaq mümkündür.

Mövzusundan asılı olmayaraq hər bir tədqiqat obyekti formula edilir və problemin əhəmiyyəti baxımından əsaslandırılır. İlk növbədə sosioloji obyektin informasiya tələbatı öyrənilir. Eyni zamanda, tədqiqat obyektinə daxil olan hadisələrin, problemlərin sosial səviyyəli ziddiyyətləri nəzərdən keçirilir və bu ziddiyyətlərin aradan qaldırılması yolları, vasitələri dəqiqləşdirilir. Lakin aparılan tədqiqat prosesində əngəllərdən qaçmaq üçün problemin yığcamlığına xüsusi diqqət yetirmək lazımdır. Çünki problemin olduqca geniş masştabda öyrənilməsi istəyi bir çox çətinliklər yarada bilər. Xüsusilə, tədqiqat planı olduqca lakonik olmalı, mədəniyyət müəssisəsinin imkanlarına uyğunlaşdırılmalıdır.

Hamıya məlumdur ki, mədəniyyət sahəsində tətbiqi kulturologiyaya aid sosioloji tədqiqatların reallaşdırılması işi ilə əsasən mədəniyyət müəssisələrinin əməkdaşları məşğul olurlar. Onların fəaliyyətləri isə regional xarakter daşıyır. Məhz, sosioloji tədqiqatların aparılması prosesində regional xüsusiyyətlərin nəzərə alınması iki planın konkret əhatə dairəsi üçün zəmin yaradır. Regional zəmində mövcud olan ziddiyyətlər, onların aradan qaldırılması yolları yeni kəmiyyət və keyfiyyət baxımından öyrənilir. Tədqiqatın aparıcı prinsipi kimi inkişaf meylləri və istiqamətləri dəqiqləşdirilir. Məsələn, ərazidə və ya regionda mədəni əyləncəyə, özfəaliyyət yaradıcılığına, idmana, turizmə və s. mədəni təsisatlara olan tələbat və maraqlar səviyyəsi aşkarlanır. Maraq və tələbatın aşağı və ya yuxarı olmasının səbəbləri analitik təhlil nəticəsində müəyyənləşdirilir. Bu proses mədəniyyət sahəsində, xüsusilə tətbiqi kulturologiya fəaliyyəti istiqamətində yeni keyfiyyət və kəmiyyət amillərinə yiyələnmək üçün böyük əhəmiyyət kəsb edir.

Yuxarıda tədqiqatın vahid bir problem ətrafında aparılmasına üstünlük verdik. Lakin, sosioloji tədqiqat zamanı bəzən bir çox problemlərin cavablarının müəyyənləşdirilməsinə cəhdlər olunduğuna da təsadüf edilir. Buna «Çox problemli» tədqiqat deyirlər. «Çox problemli»

sosioloji tədqiqatlar hadisələrin, inkişafa mane olan səbəblərin daha obyektiv şəkildə öyrənilməsi prosesini çətinləşdirir. Bir neçə problemin vahid tədqiqat prosesində öyrənilməsi fəaliyyət mexanizmini mürəkkəbləşdirir, xüsusilə əldə olunmuş sosioloji informasiyanın məzmununa dağınıqlıq gətirir. Bunun da nəticəsində həmin materiallar üzərində məntiqi ümumiləşdirmələr aparmaq çətinləşir.

Sosioloji tədqiqatların aparılması prosesi bir çox metodoloji ümumiləşdirmə mərhələsindən ibarətdir. Birinci mərhələdə, sosioloji tədqiqatın məqsədi müəyyən edilir. Yalnız bundan sonra tədqiqatın əhatə dairəsi dəqiqləşdirilir.

Sosioloji tədqiqat böyük praktiki əhəmiyyətə malik olub, bir sıra tədbirlərin iş planının hazırlanmasına, idarəetmə sisteminə aid olan qətiyyətli qərarların verilməsinə, sosial həyatın müxtəlif sahələri üzrə səmərəli fəaliyyətin təşkil olunmasına kömək edir.

İlkin mərhələdə, sosioloji tədqiqatın təşkilatçıları qarşıya qoyulan məqsədlə bağlı olan problemlərin həllinə aid vasitə və imkanları nəzərdən keçirirlər.

İkinci mərhələ, tədqiqatın obyektinin müəyyən edilməsi və predmetinin dəqiqləşdirilməsi mərhələsidir.

Təbii ki, sosioloji tədqiqatın obyekti insanların fəaliyyəti və onların birliyi, ümumi maraqları, fərdi xüsusiyyətləri və s. ilə əlaqədar ola bilər. Əsas məsələ ondadır ki, sosioloji tədqiqatın obyekti ictimai, siyasi, mədəni əhəmiyyət kəsb etməli, sosial problemlərin daşıyıcıları olmalıdır. Obyektin öyrənilməsi prosesində əldə olunan bilgilər əsasında sosial mühitə bu və ya digər formada təsir etmək imkanı yaranmalıdır. Nəzərə almaq lazımır ki, hər bir tədqiqat obyektinin hüdudları, yəni əhatə dairəsi müxtəlifdir. Eyni zamanda bu və ya digər problemin meydana gəlmə səbəbləri bəzən tədqiqat obyektinin hüdudlarından kənarda özünü biruzə verir. Bu faktor tədqiqat obyektinin miqyasının daha da genişlənməsinə səbəb olur, sosioloji tədqiqatın obyektiv nəticələrinin müəyyənləşdirilməsinə imkan yaradır. Belə vəziyyəti müxtəlif mədəni-kütləvi təbdirlərdə, özfəaliyyət yaradıcılığı birliklərinin məşğələlərində və s. proseslərdə



müşahidə etmək olar. Məsələn, özfəaliyyət yaradıcılığı dərnəklərində və birliklərində məşğələlərin səviyyəsinin aşağı olması, yaxud hər hansı tədbirin şablon metodika ilə keçirilməsi təkcə iştirakçıların fəallığının aşağı səviyyədə olmasından asılı deyildir. Bəzən bu halın əsas səbəbini məşğələni aparan müəllimin, rəhbərin və ya təşkilatçının səviyyəsinin aşağı olmasında axtarmaq lazım gəlir. Bu vəziyyət isə tədqiqatın obyektini ikiləşdirir. Bir tərəfdən iştirakçılar və ya dinləyicilər ayrıca tədqiqat obyektinə çevrilir, digər tərəfdən isə bir obyekt kimi təşkilatçıların, müəllimlərin səviyyəsini, işgüzarlıq dərəcəsini və s. xüsusiyyətləri öyrənməyə zərurət yaranır. Bu amillərin aşkar edilməsi tədqiqat obyektinin düzgün müəyyənləşdirilməsi üçün real şəraiti aşkar edir. Məhz obyektin müxtəlif tərəflərinin aşkar edilməsi və öyrənilməsi tədqiq olunan problemin hərtərəfli şəkildə öyrənilməsinə imkan yaradır.

Üçüncü mərhələ, tədqiqat prosesində istifadə olunan vasitələrin, metodların və anlayışların məntiqi təhlilindən ibarətdir.

Məntiqi təhlil zamanı əsasən tədqiqatın metodologiyası dəqiqləşdirilir və bu dəqiqləşdirməyə uyğun olaraq tədqiqat mexanizmi, onun vahid konsepsiyası ümumiləşdirilmiş formada işlənilir. Yalnız bu vəziyyətlərin həyata keçirilməsi əldə olunan ilkin informasiyaları zəruriləşdirir.

Maraqlıdır ki, bu gün tətbiqi kulturologiyanın fəaliyyət imkanlarını tətbiqi sosiologiyadan ayrı təsəvvür etmək mümkün deyildir. Belə ki, hər iki sahə empirik materialların məntiqi quruluşuna xüsusi diqqət yetirir və bu məqsədlə də sosioloji tədqiqatlar zamanı metodoloji proseduranın həyata keçirilməsinə xüsusi həssaslıq yaranır. Tədqiqat prosesində mühüm yer tutan əsas anlayışlar geniş təhlil olunur. Məsələn, «sosial fəallıq», «sosial-siyasi fəallıq», «sosial-mədəni fəallıq» və s. anlayışların təhlili tədqiqatın istiqamətlərini genişləndirir, onun məzmununu, əhatə dairəsini dərinləşdirir. Müxtəlif anlayışların məntiqi təhlili zamanı tədqiqat obyektinin xarakterik xüsusiyyətləri aşkarlanır. Bu da nəticə etibarı ilə tədqiqatla bağlı yeni hipotezlərin meydana gəlməsinə səbəb

olur. Tədqiqatın hipotezləri onun məqsədinin aydınlaşmasına yardımçı olur, müxtəlif metod və üsulların tətbiq olunmasına əsas yaradır. Hipotezin formula edilməsi nətitcəsində tədqiqatın ümumi istiqaməti müəyyənləşdirilir. Hipotez vasitəsilə hər hansı faktın, hadisə və prosesin izah edilməsi üçün irəli sürülən elmi fərziyyələr məntiqi təhlil prosesində ya təsdiq olunur, ya da inkar edilir.

Peşəkar kulturoloqlara və sosioloqlara məlumdur ki, obyektindən asılı olmayaraq bütün sosioloji tədqiqatlar müxtəlif fərziyyələrə əsaslanır.

Fərziyyələr sosioloji informasiyanın toplanılması prosesində xüsusi əhəmiyyət kəsb edir və tədqiqatın operativliyini sürətləndirir. Bu prosesdə tədqiqatçının abstrakt idrakı xüsusi rol oynayır. Abstrakt idrak tədqiqatçının fantaziyasını artırır və bir çox anlayışların müəyyənləşdirilməsində ona yardımçı olur. Digər tərəfdən abstrakt idrak tədqiqatçıya çevik düşünmək və fikir yürütmək imkanı verir. Xüsusilə ayrı-ayrı anlayışların məntiqi təhlili prosesində abstrakt idrak fikri fəallaşdırır, yeni metodlar seçimi imkanı yaradır.

### *2.2. Sosioloji tədqiqatın vəzifələri və onun əsas metodları*

Sosioloji tədqiqatlar sosiologiyanın tətbiqi sahələrini əhatə edir. Onun qarşısına çıxan vəzifələr isə tədqiqat obyektinin məntiqi tələblərindən, məqsədindən irəli gəlir. Tədqiqat tətbiqi kulturologiya sahəsinə şamil edilirsə deməli, hipotezə uyğun olaraq o kulturologiyaya aid proseslərin öyrənilməsi ilə bağlı tələbləri ifadə edir. Bu da ona dəlalət edir ki, tədqiqatın mərkəzi sualı onun əsas vəzifəsini aşkar edir. Əsas vəzifə tədqiqatın məqsədi ilə bağlıdır. Mərkəzi sual da məqsədin mahiyyətindən asılıdır. Əgər məqsəd adamların istirahət və əyləncəyə ümumi marağını öyrənməkdən ibarətdirsə bu məsələdə əsas vəzifə dəqiqləşdirilir. Lakin, mövzunun əhatə dairəsi tədqiqatın qarşısına əlavə vəzifələr də çıxarır. Çünki, tədqiqatın əhatə dairəsinə və xarakterinə uyğun olaraq əlavə məsələlərin öyrənilməsinə də ehtiyac



yaranır. Məsələn, «hansı sosial və demoqrafik qrup istirahət və əyləncəyə daha çox meyillidir», yaxud «istirahət və əyləncənin maddi-texniki bazası maraqlara uyğundurmu» kimi suallar tədqiqatın əlavə vəzifələrini meydana çıxarır.

Sosioloji tədqiqatın əsas vəzifəsi kollektivdə mənəvi iqtisadi tərbiyənin təhlili məsələsinə də aid edilə bilər. Sözsüz ki, bu əsas vəzifənin yerinə yetirilməsi üçün aşağıdakı əlavə vəzifələrin öyrənilməsinə də ehtiyac yaranır:

- istehsal intizamının vəziyyəti;
- istehsalçının estetik durumunun səviyyəsi;
- kollektivdə peşəkar iqtisadi təfəkkürün vəziyyəti;
- kollektivdə mənəvi tərbiyə işinin formaları və s.

Sosioloji tədqiqatlar bütün cəmiyyətlərin həyatında inkişafın tənzimləyicisi, təkamülün hərəkət mexanizmi kimi nəzərə çarpır. Sosioloji tədqiqatlar aparmadan maddi, mənəvi, siyasi, elmi, dini və s. proseslərin inkişaf dinamikasını dəqiqləşdirmək və istiqamətləndirmək mümkün deyildir. Buna görə də, vaxtaşırı aparılan sosioloji tədqiqatlar ictimai həyatın bütün sahələri üzrə statistik məlumatların əldə olunmasına, insanların mənəvi və iqtisadi tələbatlarının öyrənilməsinə kömək edir. Sosioloji tədqiqatlar vasitəsilə əldə olunan məlumatların cəmiyyətin həyatına yaradıcılıqla tətbiqi təkamül prosesində yaranan durğunluqları aradan qaldırmaq üçün bir vasitəyə çevrilir.

Eyni zamanda sosioloji tədqiqatlar vasitəsilə bu və ya digər problemlər, məsələlər haqqında əhalinin ictimai fikri müəyyənləşdirilir və həmin müəyyənləşmənin müqabilində işlər görülür, ehtiyaclar ödənilir, yeniliklər meydana gəlir.

Xüsusilə, mədəniyyət sahəsində aparılan sosioloji tədqiqatlar əhalinin müxtəlif kateqoriyalarının tələbatını öyrənir, bəzi özfəaliyyət yaradıcılığı, asudə vaxtın mədəni təşkilinə lazım olan imkanları aşkar edir, yüksək mənəvi mühitin formalaşması üçün yeni forma və metodların işlənib hazırlanmasına sosial-informasiya mühiti yaradır. Klublarda, mədəni-idman komplekslərində, mədəniyyət və istirahət parklarında çalışan peşəkar mədəniyyət işçilərinin yaradıcılıq fəaliyyətləri üçün yeni imkanlar açır, onları bütün sahələr üzrə

ictimai rəyin vəziyyəti haqqında dolğun informasiya ilə ardıcıl olaraq təmin edir.

Sosioloji tədqiqatlar cəmiyyətin ictimai həyatının bütün sahələrində aparıldığı üçün onun işlək metodları da müxtəlifdir.

Sosioloji tədqiqatın işlək metodları əvvəlcədən hazırlanmış tədqiqat proqramının məzmunundan, mahiyyətindən, qarşıya qoyduğu məqsəddən çox asılıdır. Məhz tərtib olunan proqramda sosioloji tədqiqatın metodiki hissəsi də öz əksini tapır. Bunlar təxminən aşağıda qeyd edilən əhatə dairəsinə malik olurlar:

- məcmu halında tədqiqatın müəyyən edilməsi;
- ilkin sosioloji informasiyanın yığılmasında istifadə olunan metodların xarakteristikası;
- informasiyanın yığılması üçün instrumentariyanın məntiqi strukturu.

Yuxarıda qeyd etmişdik ki, hər şeydən əvvəl tədqiqat obyekti dəqiqləşdirilir. Tədqiqat obyekti mücərrəd bir anlayış deyil, konkret kollektivdən, sayı və əhatə dairəsi müəyyənləşdirilmiş insan qruplarından ibarətdir. Məlumdur ki, kollektivlər kəmiyyət və xarakter etibarı ilə müxtəlifdir. Kollektivin minlərlə üzvü və onlarla sosial qrupları ola bilər. Elə bir mühitdə sosioloji tədqiqatın hansı metodundan istifadə edilməsinin səmərəliliyi dəqiqləşdirilməlidir. Məsələn, minlərlə fəhləsi və başqa mütəxəssisləri olan böyük kollektivdə sosioloji tədqiqatın sorğu metodundan istifadə etmək çox çətindir. Birincisi, ona görə ki, tədqiqat obyekti kimi bütün insanlar arasında sorğu keçirmək uzun vaxt tələb edir. Uzun vaxt müddətində isə cəmiyyətin, kollektivin həyatında yeni sosial vəziyyət formalaşır. Bunun da nəticəsində aparılan sorğunun tətbiq olunma vaxtı ötüb keçir və çəkilən zəhmət hədər gedir. Digər tərəfdən sorğuya əhalinin böyük bir hissəsinin cəlb olunması külli miqdarda vəsait hesabına başa gəlir. Tədqiqata çoxlu sayda fəalların cəlb olunmasına ehtiyac yaranır. Tədqiqatın obyektinin əhatə dairəsi həm onun reallaşmasının ömrünü uzadır, həm də fəalları yorur və onların diqqətini mövzudan yayındırır. Bunun da nəticəsində



tədqiqat köhnəlir və reallaşmadan nəticəsiz qalır. Buna görə də əksər hallarda sosioloqlar geniş miqyaslı sosioloji tədqiqatlardan çox təsadüfi hallarda-zəruri vəziyyətlərdə istifadə edirlər. Demək olar ki, həmişə sosioloji tədqiqatlar konkret sosial və demoqrafik qruplar üzrə seçmə xarakter daşıyır. Yəni tədqiqatın struktur xüsusiyyətlərinə, sosial-demoqrafik qrupa görə yığcam olaraq müəyyən miqdarda adamlar seçilir. Elə buna görə də, sosioloqlar bu qanunauyğunsuzluqdan istifadə etməyi «seçmə» üsul adlandırırlar. Alimlər sosioloji tədqiqatın keyfiyyətini də seçmə üsulundan düzgün və səmərəli şəkildə istifadə olunmasında görürlər. Belə ki, seçmə üsulu əvvəlcədən tədqiqatın proqramında layihələşdirilir və tədqiqat obyektinin dinamik xüsusiyyətləri nəzərə alınır.

Seçmə layihəsində tədqiqat üçün ayrılmış insan qruplarının sosial tərkibi qeyd olunur. Qarşıya qoyulan məqsəd və iş prinsipləri aşkarlanır. İnsan qruplarının ayrılması aşağıdakı prinsipləri əhatə edir:

- sorğunun keçirilməsi mexanizmi müəyyənləşdirilir, onun texniki tərəfləri əsaslandırılır;
- sorğunun gedişində əldə olunan informasiyanın doğruluğunun müəyyən edilməsinin texnologiyası dəqiqləşdirilir.

Sosioloji tədqiqatın anket sorğusu, müsahibə, sənədlərin təhlili, söhbət, müşahidə və s. kimi müxtəlif metodları vardır. Tədqiqat zamanı hansı metoddan istifadə edilməsinə baxmayaraq onların hər biri tədqiqatın proqramının metodiki hissəsində qeyd olunan informasiya tələblərinə cavab verməlidir. Həmin proqramda ayrı-ayrı metod və üsulların xarakteristikası, tətbiq olunma xüsusiyyətləri, sualların qoyuluşu qaydaları öz əksini tapır və tədqiqat istiqamətvericilik funksiyasını yerinə yetirir. Məhz sosioloji tədqiqatın proqramında instrumentariyanın müstəqil sənəd kimi çıxış etməsi tədqiqat metodlarından istifadə etmənin keyfiyyət amilinə təsir edir, onları tənzimləyir.

Eyni zamanda yuxarıda deyilənlərlə yanaşı, informasiyaların işlənib hazırlanmasının məntiqi sxemi də sosioloji tədqiqat proqramında öz əksini tapır.

Bütün bu qeyd olunanlar sosioloji tədqiqat proqramının hazırlanmasının çox mürəkkəb və peşəkarlığa əsaslanan bir iş olduğunu göstərir. Sosioloji tədqiqat proqramı çox ciddi sənəd olduğundan daha təcrübəli mütəxəssislər tərəfindən hazırlanır. Proqram hazırlanarkən tələskənliyə yol verilmir və lazım olduqda onun üzərində işləməyə uzun müddət vaxt sərf edilir. Bu tələbat sosioloji tədqiqat planının keyfiyyətini artırır və tədqiqatın daha yüksək elmi səviyyədə həyata keçirilməsinə müsbət təsir göstərir.

Proqramdan əlavə sosioloji tədqiqatın iş planı da olur. İş planı tədqiqatçının bütün fəaliyyətini istiqamətləndirir və görüləcək işin həm maliyyə məsələsini, həm də elmi-təşkilati strukturlarını qabaqcadan müəyyənləşdirir. Plan əsasında işlək fəaliyyət tənzimlənir, tədqiqatın ahəngdarlığına əlverişli təminat yaradılır. Plan görülən işlərə nəzarəti artırır, hesabatlara qanuni zəmin yaradır, lazımsız maliyyə məsrəflərinin qarşısını alır. İş planı tədqiqatın bütün mərhələlərində iş prosesini sabitləşdirir.

İş planının hazırlanması da peşəkar mütəxəssislər tərəfindən yerinə yetirilir. Onu hazırlayan adamlar idarəetmənin qanun və qaydalarını, icra fəaliyyətinin prinsiplərini yaxşı bilməlidir. Xüsusilə, sosial planlaşdırmanın prinsipləri haqqında onun geniş məlumatı olmalıdır. İş planını hazırlayan mütəxəssis sosial planlaşdırmanın təkcə praktiki tərəfini deyil, həm də nəzəriyyəsini də bilməlidir. Digər tərəfdən cəmiyyətin mədəni həyatına dərindən bələd olmalı, tətbiqi kulturologiyanın elmi-nəzəri tələblərini dərk etməli, sosioloji tədqiqatın nəticələrinin cəmiyyətin həyatına realizə edilməsi yollarını qabaqcadan proqnozlaşdırmağı bacarmalıdır. Məhz bu xüsusiyyətlər sosial hadisələrin elmi əsaslarla dərk edilməsinin mahiyyətindən irəli gəlir.

Sosioloji tədqiqatın aparılması dəqiqlik tələb etdiyindən onun iştirakçıları arasında maarifləndirmə



tədbirlərinin həyata keçirilməsinə çox böyük ehtiyac vardır. Tədqiqat prosesində iştirak edən adamlarla əvvəlcədən elmi-nəzəri, metodiki xarakter daşıyan iş aparılmalıdır. Yalnız bundan sonra onlar arasında dəqiq əmək bölgüsü həyata keçirilməlidir. Əmək bölgüsü aparıldıqdan sonra isə iştirakçıların təşkilati fəaliyyətləri bir-biri ilə əlaqələndirilməlidir.

Məlumdur ki, sosioloji tədqiqatlar səviyyəsindən asılı olmayaraq bir sıra mürəkkəb mərhələlərdən keçir. Real həqiqətlərin üzə çıxarılması üçün isə hər bir iştirakçının, təşkilatçının praktiki fəaliyyəti vahid elmi mərkəzdən idarə olunur və həmin elmi mərkəz sosioloji informasiyanın keyfiyyətinə daima diqqət yetirir. Elmi mərkəz hər bir informasiyanın reallığa uyğun olub-olmamasını yoxlayır. Etiraf edək ki, bəzən sosioloji tədqiqata cəlb olunan hər hansı bir şəxsin saxta fəaliyyəti, yaxud səhlənkarlığı ucbatından elmi mərkəzə təhrif olunmuş, yanlış informasiyalar da daxil ola bilir. Bu da tədqiqatın nəinki elmi səviyyəsini azaldır, eyni zamanda onun nəticələrini heçə endirir. Belə saxta tədqiqatları cəmiyyətin həyatına tətbiq etmək olmaz. Sovet dövründə sosioloji tədqiqatların saxta, şişirdilmiş informasiyaları çoxluq təşkil etmişdir. Çünki sovet cəmiyyətində informasiyanın ideoloji tərəfinə daha çox üstünlük verilmiş, bu isə nəticədə kapitalist dünyası qarşısında öyünmək üçün sosioloji tədqiqatın informasiyalarını saxtalaşdırmışdır. Əslində ideoloji-siyasi əhəmiyyət kəsb edən bu informasiyalar cəmiyyətin həyatında bir saxtakarlıq yaratmışdır. Bu saxtakarlığın nəticəsi olaraq hətta əmək göstəriciləri də şişirdilmiş, cəmiyyəti düzgün proqnozlaşdırmadan, inkişafa apara biləcək yeni layihələndirmələrdən məhrum etmişdir. Bunun nəticəsində isə sovet cəmiyyətinin bütün sahələrində bir durğunluq yaranmış və həmin durğunluq 1991-ci ildə sovet imperiyasının dağılmasına gətirib çıxarmışdır.

İndi də sorğu blanklarının düzgün tərtib olunmaması halları sosioloji tədqiqatlar zamanı qeyri-dəqiq məlumatların əldə olunmasına səbəb olur. Eyni zamanda anket sorğusunu aparan qrupların tez-tez dəyişdirilməsi təşkilatlanmanı

zəiflə1dir, informasiyanın vaxtında əldə olunmasına mane olur. İnformasiyanın vaxtında əldə olunması isə tədqiqatın aktuallığının itirilməsi ilə nəticələnir.

Sosioloji tədqiqatın planında onun mərhələli şəkildə icra strukturunun forma və növləri müəyyənləşdirilir. Bu strukturlara elmi-tədqiqat mexanizmi və texniki təchizat növləri də daxil edilir. Bu prosedur və əməliyyatların həyata keçirilməsi əsasən dörd blok üzrə planlaşdırılır.

Birinci blokda, tədqiqatın proqram və instrumentariyası müzakirə olunur və onların təsdiq olunması qaydaları müəyyənləşdirilir. Həmçinin, ilkin informasiyanı əldə edən qruplar formalaşdırılır. Yenicə formalaşmış bu qrupların təcrübi fəaliyyətlərini yoxlamaq və təkmilləşdirmək üçün əvvəlcə sınaq tədqiqatı həyata keçirilir. Sonra sınaq əhəmiyyəti kəsb edən tədqiqatın nəticələrinə görə əldə olunmuş ilkin informasiyanın proqram və instrumentariyasına düzəlişlər edilir. Bu prosedur keçdikdən sonra anket və ya müsahibə blankları artırılır, sosioloji tədqiqatın instrumentariyasına diqqət yetirilir.

İkinci blokda, ilkin informasiyanın əldə edilməsinə təminat yaradan təşkilati və metodiki işlər nəzərdə tutulur. Bu blokda həmçinin, sorğunun zamanı və məkanı, onun respondentləri müəyyənləşdirilir. Sosioloji tədqiqatın məqsədi və vəzifələri aydınlaşdırılır. İnstrumentariyanın bütün növlərinin mərkəzləşdirilmiş şəkildə mövcudluğuna və yığılmasına şərait yaradılır.

Üçüncü blok, ilkin informasiyanın Elmi Hesablama Mərkəzində işlənib hazırlanması ilə əlaqədar olan əməliyyatların məcmusunu əhatə edir. Qeyd olunan mərhələdə tədqiqat qrupunun iştirakçıları hesablama mərkəzinin əməkdaşları ilə birgə işləyirlər.

Dördüncü blokda, tədqiqat zamanı əldə olunmuş məlumatların nəticələri təhlil olunur, yekun hesabatları hazırlanır və başqa ehtiyac duyulan əlavə işlər yerinə yetirilir.

Proqram və plandan başqa köməkçi sənədlər də mövcud olan normativə uyğun olaraq qabaqcadan müəyyənləşdirilir və əldə olunur. Bu sənədlər əsasən, maddi və



texniki təchizatlarla əlaqədar olur. Həmin sənədlərdə sosioloji tədqiqata çəkilən xərclər hesabat şəklində öz əksini tapır. Eyni zamanda, təlimat xarakterli köməkçi sənədlər də burda lazım gəlir. Onlar arasında daha biri sorğuya cavab verənlərin təlimatlandırıcı sənədidir. Həmin təlimat sənəddə yığcam olaraq tədqiqatın məqsədi və vəzifələri öz əksini tapır. Eyni zamanda təlimatda sorğu keçirilən yer və onun yerinə yetirilmə müddəti, ilkin informasiyanı əldə edəcək adamların şəxsiyyəti, sorğunun xarakteri, forma və məzmunu və s. göstərilir.

Qeyd edək ki, normativ sənədlərdə sorğu ilə bağlı olan bütün vacib məlumatlar öz dəqiqliyi və' konkretliyi ilə fərqlənir. Burada sosioloji tədqiqat üçün zəruri olan bütün məsələlər izah olunur. Tədqiqatın növündən asılı olaraq onun vaxtı müəyyənləşdirilir.

Tətbiqi sosiologiyanın təcrübədə ən geniş yayılmış formalarından biri anketləşdirmədir. Anketləşdirmə qrup və ya fərdi formada olur.

Qrup şəklində anketləşdirmədən əsasən əmək kollektivlərində və təhsil müəssisələrində istifadə olunur. Sorğu aparılan qrup arasında anketlər paylanılmamışdan əvvəl həmin qrupla işləmək üçün bir nəfər təyin edilir. Bir nəfərin təlimata görə yalnız 15-20 nəfərlə sorğu aparmaq imkanı vardır. Məhz qrupla iş aparmaq üçün bir nəfərin təyin edilməsi respondentlərə sorğu ilə bağlı əlavə məlumatlar almaq imkanı yaradır, onlara fərdi məsləhətlər verilir, anketi doldurma qaydaları başa salınır. Həmçinin sorğu qrupuna təyin olunan şəxs tədqiqatın keyfiyyətinə birbaşa nəzarət edə bilir.

Fərdi anketləşdirmə prosesində isə konkret sualları özündə əks etdirən anketlər respondentlərə iş yerlərində və ya yaşayış yerlərində paylanılır.

Hazırda ilkin sosioloji informasiyanın əldə edilməsində sorğu anketlərinin əhəmiyyəti də çox böyükdür.

Sosioloji sorğu anketləri həm tədqiqatın obyekti ilə bağlı olan sualların əhatə dairəsinə görə fərqlənir, həm də obyekt haqqında keyfiyyət və kəmiyyət etibarı ilə fərqlənən

informasiya toplumuna şərait yaradır. Digər tərəfdən, sorğu anketi vasitəsilə toplanılan informasiyanın təhlili də əlverişli olur. Həmin anketi təkrarən təhlil etmək üçün problem olmur.

Ən əsas məsələ sorğu anketinin suallarının düzgün qurulması və onun konkretliyi məsələsidir. Həyat fəaliyyəti prosesində bizi əhatə edən proseslər və hadisələr haqqında suallar düşünmək ilk öncə çox sadə görünür. Ancaq tətbiqi sosiologiya sahəsində sualların qoyuluşu daha çox tədqiqatın funksiyasından və onun məzmun tələblərindən irəli gəlir. Suallar həm respondentlər üçün aydın olmalı, həm də onların hər birini maraqlandırmalıdır. Buna görə də istifadə olunan suallar öz məzmununa görə birbaşa respondentin özünə, onun şəxsiyyətinə, marağına da aid ola bilər. Bunları nəzərə alsaq anket suallarını öz funksiyalarına görə əsas və qeyri-əsas bölgü üzrə qiymətləndirmək olar. Eyni zamanda qapalı və açıq suallar qrupu da vardır. Qapalı sual o hesab olunur ki, həmin sualın cavabının müxtəlif variantları olur.

Qapalı suallar alternativli və qeyri-alternativli də ola bilər. Məsələn, respondentə belə bir sualla müraciət etmək olar:

«Siz özfəaliyyət yaradıcılığı ilə məşğul olursunuzmu?»

Həmin suala qısa cavab vermək üçün münasibət «hə», «yox» sözlərini dairəyə almaqla bildirilir. Yaxud da, münasibət bildirilən variantın altından xətt çəkilir. Belə münasibət bildirmək respondent üçün də asandır. Çünki cavabı geniş cümlə ilə yazmağa ehtiyac olmur. Bu da bütün şəraitdə respondentə anket sualına münasibət bildirmək imkanı verir.

Sosioloji tədqiqatın sualları sorğu anketlərində bəzən cədvəl formasında da verilir. Nümunə olaraq aşağıdakı cədvələ diqqət yetirmək lazımdır:

| Vaxtınız çatırmı? | Çatır | Çatmır | Çətinlik çəkirəm. |
|---|---|---|---|
| 1. İstirahət və əyləncəyə | + | | |
| 2. İctimai işlərə | | + | |
| 3. Mütaliəyə | | | + |
| 4. İdmanla məşğul olmağa | + | | |



Bu suallara «çatır», «çatmır» və «çətinlik çəkirəm» sözləri yazılmış qrafalarda plyus işarəsi qoymaqla münasibət bildirmək olar. Münasibət dairə və başqa işarə şəklində də bildirilə bilər.

Sosioloji tədqiqat anketinin tərtibi və onun kompozisiya quruluşu xüsusi peşəkarlıq tələb edir. Anket bir növ respondentlərlə müsahibə ssenarisidir. O, respondenti maraqlandıra biləcək bir səviyyədə tərtib olunmalıdır. Xüsusi qrafik formasında tərtib olunmuş anketlərə daha çox diqqət yetirmək lazımdır. Belə anketlərdə şriftlər aydın göstərilməli, müstəqil cavaba kifayət qədər geniş yer verilməli, işarələrdən və başqa qrafik vasitələrdən dəqiq istifadə olunmalıdır. Qrafik tərtibatda illüstrasiyaya daha çox üstünlük verilir və o respondentin psixoloji vəziyyətinə çox böyük təsir göstərir. Tərtibatçı illüstrasiya ilə psixoloji təsiretmə funksiyasını yerinə yetirir. Belə anketlərdə suallar da illüstrasiyalardan ibarət olur. Belə anketlər daha asan qavranılır. O, anketi doldurmağın rəngarəng texnikasının meydana gəlməsinə şərait yaradır. Psixoloji yükü azaldır, sualın mahiyyətini obrazlı formada açır.

Sosioloji tədqiqatın poçt-sorğu forması da vardır. Poçt-sorğu forması, adından məlum olduğu kimi poçt vasitəsilə yerinə yetirilir. Sorğu anketləri müxtəlif ünvanlara poçt ilə göndərilir və eyni zamanda həm də məlumatlar da poçt vasitəsilə alınır.

İlk dəfə poçt sorğusundan 1880-ci ildə Karl Marks istifadə etmişdir. O, həmin ildə fəhlələr üçün sorğu anketi tərtib edərək onu «Revyu sosialist» jurnalında dərc etmiş və həmin jurnalın nüsxələri poçt vasitəsilə bütün Fransaya yayılmışdır.

Rusiyada isə, poçt-sorğu anketi ilk dəfə 1918-ci ildə «Əməkçi xalqın səsi» («Qolos trudovoqo naroda») qəzetində dərc edilərək Moskva vilayətinə yayılmışdır.

Sovet dövründə də belə sorğu formasından istifadə olunmuşdur. Əsasən, XX əsrin 60-70-ci illərində sovet tədqiqatçıları poçt sorğularından istifadə etməyə səy göstərmişlər.

Lakin poçt vasitəsilə sosioloji tədqiqatların aparılması indiki dövrdə böyük maliyyə xərcləri tələb edir. Digər tərəfdən poçt sistemində hələ çevik əməliyyatların bərpa olunmaması poçt sorğusunun cavabını ləngidir. Təcrübə göstərir ki, poçt sorğusuna qaytarılan cavabın da faizi indiki mərhələdə çox aşağıdır. İqtisadi cəhətdən inkişaf etmiş ABŞ, İngiltərə, Fransa, Almaniya və s. ölkələrdə isə, poçt-sorğu anketlərindən geniş istifadə olunur.

Sosioloji tədqiqatın poçt-sorğu forması müxtəlifdir. Belə ki, hazırlanmış anketlər poçt vasitəsilə müxtəlif ünvanlara göndərilməklə yanaşı, həm də anket sualları qəzet və jurnallarda çap olunur. Qəzet və jurnallarda çap olunan sorğulara vaxtında cavab alınması üçün mükafatlandırma metodlarından da istifadə edilir. Daha doğrusu, həmin anketlərdə qoyulan sualları düzgün cavablandıranlara müəyyən mükafatlar da vəd olunur. Əslində, bu həvəsləndirmə üsulu, sorğuya vaxtında operativ cavab almağa təminat yaratmaq üçün edilir.

Müasir mərhələdə müsahibə sosioloji tədqiqatın ən çevik forması sayılır.

Müsahibə üçün az vaxt lazım gəlir və böyük xərclər, vəsaitlər çəkməyə ehtiyac olmur. O, əvvəlcədən planlaşdırılsa da, şifahi sorğu xarakteri daşıyır.

Anket vasitəsilə sosioloji tədqiqatların aparılması isə sorğudan fərqli olaraq respondentlə birbaşa ünsiyyətə girmək və onun tədqiqatın obyektinə münasibətini öyrənmək imkanını verir. Həmçinin, hər hansı suala verilən cavabın əhatə dairəsi çox geniş olur və bu xüsusiyyət məzmuna uyğun olaraq toplanılan informasiyanın keyfiyyətini artırır.



Lakin, müsahibə götürənlərin seçilməsi və onların hazırlanması müəyyən vaxt tələb edir. Çünki müsahibə götürənlər əsasən fəallar arasından seçilir, onlar müəyyən müddət ərzində sosioloji tədqiqatın funksiyasına və tələbatına uyğun olaraq təlimatlandırılırlar.

İndiki şəraitdə müsahibə vasitəsilə tədqiqatlar həm anket vasitəsilə yerinə yetirilir, həm də diktafonlardan geniş istifadə olunur.

Belə ki, şifahi sorğunun nəticəsi sorğu anketində öz əksini tapır və əldə olunan informasiya təhlil olunmaq üçün Elmi Tədqiqat Mərkəzinə ötürülür.

Diktafon vasitəsi ilə əldə olunan informasiya da anketlərə köçürülməklə sənədləşdirilə bilər.

Müsahibələr iş yerlərində, yaşayış yerlərində və əhalinin toplaşdığı kütləvi tədbirlərdə, izdihamlı küçələrdə keçirilə bilər.

Tətbiqi sosiologiyada müsahibə sorğusunun üç növü mövcuddur: standartlaşdırılmış, fakslaşdırılmış və müstəqil müsahibələr.

Standartlaşdırılmış müsahibə zamanı suallar çox konkret və dəqiq olur, respondentlə müsahibə götürən arasında reqlamentə əməl edilir.

Əvvəlcədən hazırlanmış suallar müsahibə üçün nəzərdə tutulur, şifahi danışıq tərzinə uyğunlaşdırılır. Məsələn, «Sizə təqdim olunan bu vərəqdə asudə vaxt ərzindəki məşğuliyyətlərin müxtəlif növləri göstərilmişdir. Deyə bilərsinizmi, siz boş vaxtınızda bunların hansı ilə məşğul olursunuz?»

Həmin andaca respondentə suala uyğun olan nömrələnmiş blank verilir. Yaxud müsahibə aparan şəxs respondentlərin şifahi cavabını verilən suala uyğun gələn blankda qeyd edir.

Əgər müsahibə zamanı respondentə verilən suala və fikrə aydınlıq gətirmək lazım gələrsə müsahibə aparan şəxs sualdan kənara çıxmamalıdır.

Bəzən müsahibə anketlərində cavablar kodlaşdırılmış şəkildə qeyd olunur. Məsələn, «Siz hansı qəzetləri oxumağa

daha çox üstünlük verirsiniz?» kimi sual qoyulduqda sorğu anketində çoxlu sayda qəzet adlarını göstərmək lazım gəlir. Respondent həmin qəzetlərdən birinə və ya bir neçəsinə nəzərdə tutulmuş kod işarəsi ilə münasibət bildirir.

Fakslaşdırılmış müsahibələr tədqiqat obyektinə uyğun olaraq əvvəlcədən hazırlanır. Bu müsahibə üsulunun təlimatına uyğun olaraq respondentlər müsahibənin mövzusu ilə əvvəlcədən tanış olur, hətta onlarla tədqiqatın məzmunu ilə əlaqədar seminarlar da keçirirlər. Eyni zamanda respondentlər metodik göstərişlər alır, mövzu ilə bağlı kitablar və məqalələrlə tanış olmaq imkanı əldə edirlər. Respondentlərlə hazırlıq işləri zamanında sosioloji tədqiqatın sualları da dəqiqləşdirilir.

Müstəqil müsahibə isə sosioloji tədqiqat aparan şəxsin ilkin fəaliyyət mərhələsini əhatə edir. O, tədqiqatın məzmunu və problemlərini dəqiqləşdirmək üçün müəyyən ərazilərdə və ya müəssisələrdə müstəqil sorğular keçirir.

Müstəqil müsahibə tədqiqatın suallarını əhatə edən plan olmadıqda da aparılır. Çünki bu tipli müsahibələr zamanı aparılacaq tədqiqatın mövzusu və əhatə dairəsi müəyyənləşdirilir. Tədqiqat aparan müsahibəçi respondentlərlə söhbətlər əsasında müəyyən mövzu ətrafında müzakirələr açır. Daha doğrusu tədqiqatın obyektinin aktuallığını dəqiqləşdirmək məqsədi ilə onun mövzusu ətrafında konkret müzakirələr aparır. Məhz bu müzakirələr zamanı tədqiqatın həm mövzusu həm də onun qarşıya çıxan sualları ümumiləşdirilir.

Tətbiqi kulturologiya sahəsində müşahidələrin aparılması və ondan səmərəli istifadə edilməsi mədəni fəaliyyətin keyfiyyətinin artmasına fəal təsir göstərir. Belə ki, müşahidələr yolu ilə mədəni-kütləvi tədbirlərin şablonçuluqdan xilas olunmasının qarşısı alınır. Kütləvi təbdir prosesində klub fəalları müşahidə aparmaq prosesinə cəlb edilir, onların köməyi ilə bədii ifadə vasitələrinə, tədbirin emosionallıq səviyyəsinə və s. xüsusiyyətlərə olan reaksiyaların dərəcəsi müşahidə olunur.



Gözlə aparılan müşahidələrə vizual müşahidələr də deyilir. Vizual müşahidələr zamanı video kameradan da geniş istifadə edilir. Kütləvi tədbirlər gizli şəkildə lentə köçürülür və orada baş verən bütün hadisə və reaksiyaları təkrarən təhlil etmək və nəticə çıxarmaq imkanı yaranır. Ən çox eksperiment xarakterli tədbirlərdə vizual müşahidələrdən geniş istifadə olunur.

Vizual müşahidə tətbiqi kulturologiya sahəsində ona görə geniş yayılmışdır ki, o özünün konstruktivliyi və reallığı ilə fərqlənir. Hələ vaxtilə A.Eynşteyn gözlə müşahidənin əhəmiyyətini yüksək qiymətləndirərək demişdir: «Görüb dərk etməyin sevinci, insana gözəl təbiətin bəxşişidir»[29]

Deməli, birbaşa gözlə müşahidə aparmaq, müəyyən hadisələrin məzmun və mahiyyətini vizual şəkildə dərk etmək sosioloji tədqiqatın ən optimal metodlarından biridir. Bu metod tədqiqatçı ilə obyektin arasında canlı əlaqə yaradır, baş verən hadisələrə yerindəcə münasibət bildirmək və onlardan nəticə çıxarmaq imkanı verir.

Sosioloji müşahidələr tarixən ictimai, siyasi proseslərin əsas tədqiqat metodu kimi geniş yer tutmuşdur. Hələ vaxtilə F.Engels düz 21 ay İngiltərədə əhalinin siyasi fəallığı üzərində müşahidələr aparmış, onların sevinc və iztirablarını öyrənə bilmişdi.[30]

Sosioloji müşahidələr əsasən insanların davranışlarını, onların bu və ya digər təcrübi proseslərə münasibətlərini öyrənmək metodudur. Bu metod asudə vaxt sahəsinə daha çox tətbiq olunur və insanların mədəni-əyləncəli vasitələrə münasibətlərini aşkar edir, aşkar olunmuş faktiki məlumatlar əsasında elmi təhlillər aparmaq imkanı yaradır. Bu müşahidələr əsasında mədəniyyət müəssisələri öz fəaliyyətlərində həm kəmiyyət, həm də keyfiyyət baxımından daima, ardıcıl olaraq yeniliklər edirlər.

Sosioloji tədqiqatlar tətbiqi kulturologiya sahəsində mövcud olan əksliklərin mübarizəsini üzə çıxarır, əksiliklərin

[29] Как провести социологическое исследование. М., 1990.с.107.
[30] Маркс К., Энгельс Ф. Соч. Т.2.с.238.

daxili ziddiyyətlərini müəyyənləşdirir. Mədəni proseslərdəki daxili ziddiyyətlərin aşkarlanması təşkilatçıları inkişafa aparan yeni seçim qarşısında qoyur. Yəni mədəniyyətdəki daxili ziddiyyətlər sosioloji tədqiqatlar vasitəsilə aşkar edildikdən sonra onlar elmi təhlilə ötürülür. Elmi təhlil zamanı inkişafın yeni tələbləri müəyyənləşdirilir və onlara müvafiq olan fəaliyyət vasitələri seçilir. Yeni fəaliyyət vasitələri köhnəni sıxışdırıb tədricən aradan çıxarır, inkarı – inkar qanununa uyğun olaraq mədəni fəaliyyətin mahiyyətini yeniləşdirir. Daha doğrusu mədəni fəaliyyətin yeni forma və metodları meydana gəlir. Bu yenilik mədəni fəaliyyət prosesinin təşkilini şablonçuluqdan, durğunluqdan xilas edir. Təbii ki, inkişafın daxili ziddiyyətləri ilə bağlı olan bu proses dialektik qanunauyğunluqlara cavab verən dinamik inkişaf mexanizmini yaradır.

Yuxarıda qeyd edildiyi kimi, cəmiyyətdə müxtəlif sosial kateqoriyaya aid olan fərdlər və insan qrupları mövcuddur. Digər tərəfdən isə bu gün cəmiyyət üzvləri demokratik qruplara da bölünürlər.

Bu fikrə bir qədər aydınlıq gətirmək üçün sosial kateqoriyalara və demokratik qruplara nəzər yetirmək lazımdır.

Cəmiyyətdə insanlar öz peşələrinə, intellektual səviyyələrinə görə bir-birindən fərqlənirlər. Həmçinin, onların psixoloji durumları arasında da böyük fərq vardır. Həm peşə, həm də psixoloji-intellektual fərqlər insanların mənəvi davranışlarında, onların mənəvi tələbatlarında da özünü biruzə verir. Lakin insan ictimai varlıq olmaqla yanaşı, həm də fizoloji-psixoloji varlıqdır. İctimai varlıq kimi hər bir fərdin həyatındakı fəaliyyətini müşahidə etmək mümkün olsa da insanın fizoloji-psixoloji aləmi qismən qapalıdır. Məhz bu qapalı aləmin qapılarını açmaq üçün tətbiqi sosiologiya elminin apardığı tədqiqatlara böyük ehtiyac vardır.

Digər tərəfdən insanların peşə fəaliyyətləri də onların bədii-estetik zövqlərinə, mənəvi aləmə münasibətlərinə bilavasitə təsir göstərir. Məsələn, neft-qaz sənayesində çalışanlarla incəsənət, mədəniyyət sahəsində çalışanların bədii-



estetik maraqlarını eyniləşdirmək olmaz. Lakin, bəzən qeyri – mədəniyyət və incəsənət sahəsində çalışanlar arasında da yüksək bədii-estetik zövqə malik olan, eyni zamanda ədəbiyyat və incəsənətə maraq göstərən insanlar vardır. Təbii ki, bu insanların bədii-mənəvi maraqları yalnız sosioloji tədqiqatlar vasitəsi ilə aşkarlana bilər. Tətbiqi kulturologiya sahəsinin təcrübəli mütəxəssisləri isə sosioloji tədqiqatların əldə etdiyi nəticələrdən bəhrələnərək bu insanların mənəvi tələblərinə differensial şəkildə yanaşır, eyni zamanda differensial maraqlar əsasında ümumiləşdirmələr aparır. Belə ki, təklər ümumiləşərək qruplar əmələ gətirir. Həmin qrupların maraqları isə mədəniyyət müəssisələrinin təşkilatçıları tərəfindən nəzərə alınır və əməli işlər görülür.

Əslində, tətbiqi kulturologiya bütün sosial kateqoriyaların maraq və tələbatının ödənilməsini əməli-mədəni fəaliyyətin əsası kimi qəbul edir. Buna görə də, mədəniyyət müəssisələrində mədəni xidmət təşkil olunarkən əhalinin peşə maraqları da nəzərdə tutulur. Peşə bayramları ilə bağlı mədəni-kütləvi tədbirlər təşkil olunur. Peşəkarlığı artırmaq üçün müxtəlif peşələr üzrə dərnək və birliklər, kurslar yaradılır. Məsələn, Azərbaycan müstəqillik əldə etdikdən sonra kompyuter texnologiyası cəmiyyətimizin bütün sahələrinə tətbiq olunur. Elə peşə sahəsi yoxdur ki, orada kompyuter texnologiyasından istifadə olunmasın. Belə bir mərhələdə əhalinin böyük əksəriyyəti kompyuter texnologiyasından istifadə etmək vərdişlərinə yiyələnmək üçün bu sahə üzrə yaradılan ödənişli kurslara böyük maraq göstərirlər. Mədəniyyət müəssisəsi həmin marağın əhatə dairəsini sosioloji tədqiqat metodları ilə öyrənir, ona münasib olaraq öz fəaliyyətini qurur.

Əhalinin müasir mərhələdə maraq dairəsi bazar iqtisadiyyatı ilə əlaqədar olaraq çox genişdir. Xüsusilə, beynəlxalq iqtisadi və mədəni əlaqələr ən adi peşə sahibini müxtəlif xarici dilləri bilməyə məcbur edir. Xarici dilləri öyrənmək bütün iş adamlarının fəaliyyət dairəsini genişləndirir. Bu səbəbdən də, aparılan sosioloji tədqiqatlar göstərir ki, insanlarda xarici dilləri öyrənməyə böyük maraq

vardır. Bu maraqlar mədəniyyət müəssisələrinə müxtəlif dilləri öyrənməyə istiqamətləndirilən ödənişli kurslar yaratmaq imkanı verir.

Demoqrafik maraqlar dedikdə, müəyyən yaş qruplarına aid olan maraqların öyrənilməsi nəzərdə tutulur.

Tətbiqi kulturologiya, psixologiya, pedaqogika və s. humanitar elmlərin apardığı tədqiqatlara görə yaş qruplarının maraq və mənəvi tələbatları da müxtəlifdir. Xüsusilə, mədəni əyləncəyə, özfəaliyyət yaradıcılığına meyllər müxtəlif yaşlarda, müxtəlif formada təzahür edir. Altı yaşından 10 yaşınadək uşaqların marağı ilə, 14-18 yaşlı yeniyetmələrin maraqlarını eyniləşdirmək olmaz. Orta nəslin və ahıllıq yaşına çatanların isə öz maraqları, sosial tələbləri vardır.

Bütün bu fərqləri təxmini təhlil edib mədəni xidmət sahələrini yaratmaq düzgün deyildir. Tətbiqi kulturologiya mənəvi ehtiyacların elmi əsaslarla öyrənilməsinə üstünlük verir. Bu məqsədlə də tətbiqi kulturologiya sosioloji tədqiqatların nəticələri əsasında yaradılan mədəni xidmət sahələrini daha keyfiyyətli iş hesab edir.

Xüsusilə, indiki şəraitdə, yəni bazar iqtisadiyyatının tələblərinə uyğun olaraq təşkil olunan mədəni xidmət bu işdən bəhrə götürmək prinsipinə daha çox əsaslanır. Hazırda mədəni fəaliyyət sovet dövründən fərqli olaraq daha azaddır. Azad fəaliyyət mədəniyyət təşkilatçılarının gündəlik işlərində özünü biruzə verir. İndi mədəniyyət işçiləri siyasət və ideologiyanın «əsiri» deyillər.

Lakin, ideologiyadan tam uzaq düşmək, ümummilli maraqları təbliğ edən mədəni fəaliyyəti inkar etmək bu gün düzgün deyildir. Bazar iqtisadiyyatı şəraitində yaşasaq da dövlətçilik və milli maraqlara cavab verən, kütlələrə vətənpərvərlik ruhunu aşılayan mədəni-kütləvi tədbirlərin keçirilməsinə çox böyük ehtiyac vardır. Bu baxımdan tətbiqi kulturologiya elmi iqtisadi maraqlarla yanaşı, dövlət quruculuğuna müsbət təsir göstərən, Azərbaycan xalqının ümummilli maraqlarını müdafiə edən, düşmənə qarşı mübarizə təbliğatına çevrilən mədəni-kütləvi tədbirlərin



səviyyəsinin inkişaf etdirilməsinə istiqamətləndirilən sosioloji tədqiqatların təşkil olunmasını da vacib hesab edir.

Təbii ki, milli maraqları əhatə edən mədəni-kütləvi tədbirlərin də bədii ifadə vasitələri əhalinin sosial-mədəni, bədii-estetik tələbatına cavab verməlidir. Məhz həmin tələbatın səviyyəsini müəyyənləşdirmək, ifadə vasitələrinin keyfiyyətini artırmaq üçün tətbiqi sosiologiyanın tədqiqat formalarından, təhlil metodlarından geniş istifadə olunmalıdır.

## III FƏSİL

# BƏDİİ XALQ YARADICILIĞI VƏ MİLLİ - MƏNƏVİ DƏYƏRLƏR

### *3.1. Milli adət və ənənələr mənəvi dəyərlərin zəmini kimi*

Müasir inkişaf göstərir ki, XXI əsri güc, qüvvə deyil, ağıl, intellekt idarə edəcəkdir. Hər bir dövlətin qüdrəti onun hərbi potensialı ilə deyil, elm, bilik, təhsil dəyərləri ilə ölçüləcəkdir. Təsadüfi deyil ki, Birləşmiş Millətlər Təşkilatı XXI yüzilliyi «təhsil əsri» elan etmiş, biliyi, ağılı, təfəkkürü başlıca meyar saymışdır.

Respublikamızda təhsilin vəziyyətinə nəzər yetirdikdə deyə bilərik ki, o, qabaqcıl ölkələrin təhsil sahəsindəki mütərəqqi təcrübəsinə və ənənələrinə istinad edərək müstəqil respublikamızın dövlətçiliyinin möhkəmləndirilməsinə ləyaqətlə xidmət edir. Respublikamızın sabiq prezidenti məhrum H.Əliyev keçid dövrünün çətinliklərinə baxmayaraq təhsilin inkişafına nəinki dövlət təminatı vermiş, hətta onu milli inkişafımızın öncül istiqaməti kimi səciyyələndirmişdir. O, respublikamızın pedaqoji ictimaiyyəti, gənclərlə, istərsə də, ordu sıralarında xidmət edən əsgərlərlə görüşündə təhsilin, tərbiyənin geniş imkanlarından danışır, bu işi respublikamızın müasir həyatı ilə şərtləndirirdi. Bu günün məktəblisi sabahın gənci, əsgəridir. Gənclərin ləyaqətli vətəndaş kimi yetişməsi üçün onlar hərtərəfli biliyə, milli keyfiyyətlərə malik olmalıdırlar. «Öz dili, mədəniyyəti, mənəvi dəyərləri ilə tərbiyə olunmuş gənclər heç vaxt vətəninə, xalqına ögey münasibət bəsləməz. Gənclərimiz milli ruhda tərbiyə olunmalıdır, bizim milli mənəvi dəyərlərimizin əsasında tərbiyələnməlidirlər. Gənclərimiz bizim tariximizi yaxşı bilməlidir, keçmişimizi yaxşı bilməlidir, dilimizi yaxşı bilməlidir, milli dəyərlərimizi yaxşı bilməlidir.



Milli dəyərlərimizi, milli ənənələrimizi yaxşı bilməyən, tariximizi yaxşı bilməyən gənc vətənpərvər ola bilməz».[31]

Milli dəyərlərin, milli adət-ənənələrin zəruriliyi mərhum H.Əliyevin məruzə və çıxışlarında həmişə qürurla söylənilirdi. Bu bir daha göstərir ki, milli mənəvi dəyərlər xalqın mənəvi sərvəti, mənəvi xəzinəsidir, bu sərvətə, xəzinəyə biganə olmaq cinayətdir. Son illərdə xalqımızın milli adət-ənənələrinə biganəlik halları haqlı olaraq xalqın, xüsusilə ziyalıların etirazına səbəb olmuşdur. Bu etiraz və narazılıqlar haqqında mətbuatda çıxışlar milli mənəvi dəyərləri qorumaq çağırışına çevrildiyi bir vaxtda mərhum, ümummilli liderimiz H.Əliyev bir sıra məqamlara aydınlıq gətirmiş, görüləcək işlərin perspektivini müəyyənləşdirmişdi. 2001-ci il avqustun 14-də hörmətli prezidentimiz «Etimad» qəzetində Azərbaycanın dini rəhbəri, Qafqaz müsəlmanlarının şeyxülislamı Allahşükür Paşazadənin ünvanına təhqirli yazılarla əlaqədar Azərbaycan televiziyası ilə verdiyi bəyanatı ictimaiyyət rəğbətlə qarşıladı. Həmin bəyanatda hörmətli prezidentimiz demişdi: «Bu fürsətdən istifadə edərək, bir-iki məsələyə toxunmaq istəyirəm. O da ondan ibarətdir ki, biz öz milli-mənəvi dəyərlərimizi, adət ənənələrimizi, əxlaqi dəyərlərimizi bütün istiqamətlərdə qorumalıyıq, saxlamalıyıq və gənc nəsli əsrlər boyu sınaqlardan keçmiş bu mənəvi, əxlaqi dəyərlər ruhunda tərbiyələndirməliyik. Hər xalqın öz mentaliteti var. Bizim Azərbaycan xalqının mentaliteti onun böyük sərvətidir. Heç vaxt iki xalq bir-birilə bənzəməz. Heç vaxt iki xalq bir-birinə bənzər dəyərlərə malik ola bilməz. Yenə də deyirəm, hər xalqın özünə, öz tarixi köklərinə, əcdadları tərəfindən yaradılmış milli, mənəvi dəyərlərinə bağlılığı böyük amildir. Biz də indi dünyanın mütərəqqi mənəvi dəyərlərindən istifadə edərək, xalqımızın mədəni səviyyəsini daha da inkişaf etdirərək, gənc nəsli daha da sağlam əhval-ruhiyyədə tərbiyələndirməliyik.»[32]

---

[31] H.Əliyev Azərbaycan Respublikası gənclərinin I forumunda nitqi. Bakı. 1996-ci il səh. 20.

[32] Xalq qazeti.14 avqust, 2001-ci il

Milli-mənəvi dəyərlər şifahi xalq ədəbiyyatında atalar sözləri, məsəllərdə, nağıl və dastanlarda, adət-ənənələrdə nəsillərdən-nəsillərə keçərək bu günümüzə gəlib çıxmışdır. «Kitabi Dədə - Qorqud», «Koroğlu», digər qəhrəmanlıq və məhəbbət dastanlarımızda, nağıllarımızda, milli mənəvi dəyərləri qəhrəmanların Vətən və torpaq uğrunda mübarizəsində görürük. Bu baxımdan qədim tarixə malik olan folklorumuz dərin ideya-estetik məzmuna, janr zənginliyinə malikdir. Nağıllar, dastanlar, atalar sözləri, bayatılar əsrlər boyu xalqın mənəviyyatına təsir göstərib onu düzlük, doğruçuluq, ədalət uyğunda mübarizəyə çağırmışdır.

Uşaqlar, yeniyetmələr, gənclər, Koroğlunu, Nigarı, Nəbini, Həcəri, Məlikməmmədi, ona görə sevirlər ki, həmin qəhrəmanların iştirak etdiyi dastanlarda, nağıllarda insanı təəccübləndirən macəralar, sehirli aləmlə qarşılaşırlar.

Həm də bu qəhrəmanlar igid, qoçaq və mərddirlər. Eyni zamanda öz xalqını, torpağını sonsuz məhəbbətlə sevirlər. Unutmaq olmaz ki, yeniyetmə yaşa dolduqca, özünü vətəndaş kimi anladıqca onda Vətən, xalq məhfumu genişlənir və bütün ölkə, mənsub olduğu xalq, onun adət və ənənələri haqqında çox şey bilmək istəyir, suallar verir, narazılıq edir, mühakimələr yürüdür. Söz yox ki, verilən sualların müvəffəqiyyətli həlli cavablardan çox asılıdır. Folklorun bütün növləri həmin suallara hərtərəfli cavab verilməsi imkanını daha da artırır. Cəmiyyətimizin müasir mərhələsində, onun mənəvi həyatında folklorun, mənəvi mədəniyyətin estetik dəyərinin gündən-günə artmasının səbəbi də budur.

Əxlaq, estetik və mənəvi tərbiyə kompleks tərbiyə işinin ayrılmaz hissəsidir. Bu sosial pedaqoji işin forma və metodları rəngarəng və çox sahəlidir. Hazırda mədəniyyət müəssisələrində, məktəblərdə yeniyetmələrin, gənclərin mənəvi-estetik tərbiyəsində müxtəlif iş formalarından istifadə olunur. Şer həvəskarlar birliyi, bədii əsərlərin müzakirəsi, folklor toplayıcıları, incəsənət, elm və sənət adamları ilə görüşlər, mənəvi və bədii mədəniyyəti təbliğ edən digər fəaliyyət növlərindən istifadə olunur. Tədbirlərdə, mənəvi



mədəniyyətin gözəlliyinin dərk olunması yeniyetmənin hərəkətində, davranışında tamamlanır, fəaliyyətə çevrilir. Əxlaqın belə gözəlləşməsini şifahi xalq ədəbiyyatının estetik gücündə görürük. Bu gücün estetik dəyəri onun bədiiliyində, nikbinliyində, canlı, şirin dilində, fikir zənginliyi və ideyalılığındadır. Təsadüfi deyil ki, Şərqin, o cümlədən Azərbaycanın görkəmli elm və mədəniyyət xadimləri milli mənəvi dəyərlərimizi bəşəri dəyərlər kimi qiymətləndirmişlər.

Qabaqcıl məktəblər, mədəniyyət müəssisələrində folklorun göstərilən mənəvi estetik məziyyətlərini nəzərə almaq, müzakirəsi keçirilən bədii əsərləri yeri gəldikcə müvafiq atalar sözləri ilə yekunlaşdırmaq, mövzuların təhlilində, ictimai - siyasi hadisələr qiymətləndirildikdə xalqın fikrini, istək və arzularını ifadə edən hikmətamiz sözlərdən istifadə olunması məqsədəuyğundur. Nəticədə, yeniyetmələrdə vətənpərvərlik, əməksevərlik kimi əxlaqi keyfiyyətlərlə bərabər nitq mədəniyyəti, fikri, danışığı, atalar sözləri və məsəllərlə tamamlamaq vərdişi tərbiyə olunur.

«Dastanlarda, nağıllarda mənəvi gözəlliyin tərənnümü», «Folklorda əməyin tərifi», «Folklor mənəvi sərvətimizdir», «Atalar sözləri kamilliyə çağırır bizi» və başqa bu kimi mövzularda söhbətlərin, müzakirələrin mədəniyyət müəssisələrində təşkili estetik tərbiyənin səmərəliliyini daha da artırır. Söhbət və müzakirələrdə dinləyicilər zahiri və daxili gözəlliyin vəhdətini, elmiliyini, igidliyin, əməksevərliyin, insan gözəlliyini tamamlayan əlamətlər olduğunu öyrənirlər.

«Koroğlu» dastanında əxlaqın bu inandırma, alışdırma üsullarını aydın görür, xalq müdrikliyinə inamımız daha da artır, ondan bəhrələnirik.

Bu gün məktəblərdə, mədəniyyət evlərində folklorumuz toplanılır, diqqətlə çeşidləşdirilir, tədqiq olunur, qəhrəmanlıq və məhəbbət dastanlarından, nağıllardan gənclərin mənəviyyatının gözəlləşməsində yaradıcılıqla istifadə olunur. «Koroğlu» dastanında mənəvi gözəllik» mövzusunda təşkil edilmiş müzakirələrdə söylənilmiş nümunələrə nəzər yetirək:

«Koroğlu dönüb Nigara baxdı. Gördü vallah bir haldadır ki, alma yanaqlar Səmərqənd kağızı kimi ağarıb. Ala

gözlər bahar buludu kimi dolub. Yaqut dodaqlar bir dəqiqədə elə solub, elə bil laləsdir, şaxtaya düşüb. Koroğlu elə istəyirdi ağzını açsın ki, Nigar xanım yerindən qalxdı. Nə Koroğluya baxdı, nə dəlilərə, yavaş-yavaş lap təpənin kənarına gəldi. Bir Eyvaz gedən yollara baxdı, bir də uzaqdakı başı qarlı dağlara baxdı. Saçlarından üç tel ayırıb basdı mərmər sinəsinin üstünə və dedi:

*Başı ərşə duran dağlar,*
*Dağlar, Eyvazı neynədiz?!*
*Üç igidi udan dağlar,*
*Dağlar, Eyvazı neynədiz*

*Qarğasam, tökülər daşın,*
*Borandan ayrılmaz başın,*
*Düşər daşın, qalar leşin*
*Dağlar, Eyvazı neynədiz?!*

*Oğul deyib ağlayaram,*
*Dağ çəkərəm, dağlayaram,*
*Coşub qılınc bağlayaram,*
*Dağlar, Eyvazı neynədiz?!*

*Mən Nigaram, ah çəkərəm*
*Daşın çaylara tökərəm,*
*Yerində bürc – bağ tikərəm,*
*Dağlar, Eyvazı neynədiz?!*

Elini, obasını, dağlarını ana məhəbbəti ilə sevən Nigar, göründüyü kimi daxilən də qənirsiz bir gözəldir. Koroğlu və onun dəliləri çətinliyə düşərkən onlara ağıllı məsləhətlər verir, igidlərə analıq edir. Onun haldan-hala düşməsi ana qayğısından, vətən istəyindən yaranır. Ağıllı olması və gözəlliyi onu müqəddəsləşdirir.

Məktəblilərin əxlaq, bilik səviyyəsinin yüksəldilməsi təlim-tərbiyə işimizin mərkəzində durmaqdadır. Dastanda bilikli olmağın gözəlliyi təqdir olunur və nümunələr söylənilir: «Ruqiyə xanım Əliqulu xanın bircə qızı idi. Odur ki, Əliqulu



xan əlindən gələni Ruqiyə xanım üçün etmişdi. Ta elm qalmamışdı ki, ona oxutmamış olsun. Qız özü də çox fərasətli qız idi. Bütün elmləri əzbərləyib açarını qoymuşdu cibinə». Və yaxud «Məhbub xanım çox ağıllı qız idi. Belə şey çox az düşər ki, bir adam həm gözəl olsun, həm də ağıllı, kamallı. Amma Məhbub xanımda ikisi də var idi. O, necə deyərlər – deyəsən lap yaxşı gündə dünyaya gəlmişdi. Gözəllikdə elə idi ki, elə bil qüdrətin yetmiş iki qələmindən yetmiş iki rəng alıb bəzənmişdi. Ağılda, kamalda Əflatuna loğmanlıq edərdi, Loğmana Əflatunluq».

Düzlük, doğruçuluq, sözü mərdanə demək, işdə aşkarlıq, insanda inam, etibar tərbiyə edir. Mənəvi mədəniyyətin, tərbiyənin tələbi belədir. «Koroğlu» dastanında bu günümüzlə səsləşən, mərdliyə, igidliyə, sağlamlığa, qoçaqlığa çağırışlar bir daha haqq verir deyək ki, bu keyfiyyətlərsiz vətənin ləyaqətli vətəndaşı olmaq çətindir. «Koroğlu mərd adamdır, sevdiyi şey mərdlik, qoçaqlıqdır», «Nigar xanımın-görəsən bu dünyada sənin kimi ikinci bir igid varmı? -sualına Koroğlunun cavabı ilk baxışdan diqqəti cəlb edir.

*Anadan oğul doğulub,*
*Giziroğlu Mustafa bəy.*
*Bu dünyaya tək gəlibdi,*
*Giziroğlu Mustafa bəy!*

*Nizəsinin ucu qanlı,*
*Dəliləri dəmir donlu*
*İgidləri mərddir onun,*
*Giziroğlu Mustafa bəy.*

*Bir atı var Alapaca,*
*Aman vermir Qırat qaça,*
*Şeşpərinin ucu haça,*
*Giziroğlu Mustafa bəy.*

*Hay deyəndə haya basar,*
*Huy deyəndə huya basar,*
*Koroğlunu çaya basar,*
*Giziroğlu Mustafa bəy.*

Qoşmadan göründüyü kimi təkbətək döyüşdə Koroğludan da güclü igidlər vardır. Lakin, Koroğlu ərən olaraq qalır. Şöhrəti mənliyini saxtalaşdırmır, lovğalıq, xudbinlik, namərdlik təbiətinə ögeydir. Mənəvi gözəlliyi, əfsanəvi qəhrəmanlığı ilə bərabər, onu sevdirən sazlı-sözlü olması, çalıb-çağırmasıdır. Koroğlu nəğmələri mərdliyə, mübarizliyə, elini, obasını, Vətənini sevməyə çağırışdır.

Orta məktəbdən başlayaraq həddən artıq özünə bəzək verən, qamətinə uyğun olub-olmamasının fərqinə varmadan «qəşəng» geyinib, «gözəl» görünmək istəyən gənclərimiz hələ az deyil. Atalar həddən çox bəzək-düzəyə uyanlara vaxtı ilə müdrik tövsiyələr vermişlər. «Zor ilə gözəlləşmək olmaz», «Qoyma xaldan xal olmaz», «Xal özü olsun gərək» demişlər. «Gözəl kamallı gərək» məlum atalar sözündən görünür ki, xalq gözəllik üçün zahiri forma ilə daxili məzmunun vəhdətini zəruri hesab etmişdir.

Şifahi xalq ədəbiyyatının müxtəlif janrları əsasında keçirilən söhbət, müzakirə və disputlardan belə bir doğru nəticə yaranır ki, insanın daxili və zahiri gözəlliyi bir-birini tamamlamalıdır. «İnsan gözəlliyi zahiri məlahət və hüsnü - lətafətdən ibarət deyildir, onda ağıl və fərasətin mövcud olması da ilk şərtlərdəndir. Zahiri gözəlliyi və hüsn - camalı kamala yetirən ağılın nuru və mərifətin ziyasıdır. Ağılsız və mərifətsiz gözəl məqbul və müstəhsən deyildir. Bu surət zahirdə nə qədər eybsiz və qüsursuz olsa da, kamal və mərifət asarı görünməsə o surət dilpəsənd, könül açıcı və fərəhgətirici ola bilməz.»[33]

Azərbaycan nağılları, onların qəhrəmanları uşaqların ən yaxın dostlarıdır. Divə qalib gələn Məlikməmmədi, əjdahanın boynunu vuran Məlikməmmədin igidliyini onlar

[33] Firudin bəy Köçərli, Seçilmiş əsərləri, Bakı. 1963, səh. 219.



heç vaxt unutmayırlar. Buna görə də uşaqlar nağılları dəfələrlə oxuyur, dostlarının oxuduqları nağılları maraqla dinləyirlər. Ona görə ki, oxu və dinləmələr uşaqlara cəsarət, qorxaqlığa nifrət, azadlığa və gözəlliyə məhəbbət hissləri bəxş edir. Uşaqları, gəncləri maraqlandıran bir hal da var; - nağıllardakı təbiət təsvirləri, insanın zahiri gözəlliyi. Bu təsvirlərdə onlar əlçatmaz dağların zirvələrini, əfsanəvi imarətləri, mavi dənizi, donmuş çayları, ağ atlı oğlanı, «qa» deyəndə ət, «qu» deyəndə su istəyən zümrüd quşunu, boz qurdu, hiyləgər tülkünü görürlər. Bu təsvirlərdə onlar boylu-buxunlu igidləri, günəş üzlü gözəllərlə qarşılaşdırırlar: «Məlikməmməd qapını açıb boş otağa girdi. Bu otağın qapısını açdı, bir ayrısına girdi, onun qapısını açdı, bir ayrısına girdi... Belə-belə Məlikməmməd altı qapı açdı, yeddincisini açdıqda az qala ağlı başından çıxsın. Burada səndəl taxtın üstündə bir nazənin əyləşmişdi ki, yemə-içmə onun xətti-xalına, gül camalına tamaşa elə». Nağıl sona yetdikdə uşaqlar bir həqiqəti təsdiqləyirlər, - bu gözəl qız həm də ağıllı, kamallıdır. Məsləhət bilir ki, quyudan əvvəl Məlikməmməd çıxsın. Belə etməsə qardaşları kəndiri kəsər, Məlikməmməd quyuda qalar. Nağılda bir maraqlı, həm də əxlaqi hadisəni də uşaqlar unutmurlar. Bala üzünə həsrət qalan zümrüd quşu əjdahanı öldürən Məlikməmmədə: - nə xahişin var əmr et – deyir. Məlikməmməd cavabında heç nə istəmirəm, məni işıqlı dünyaya çıxart. Yaxşılığa yaxşılıq etmək ənənəsini Zümrüd quşundan eşitmək uşaqlarda təbiətimiz, heyvanat aləminə, o cümlədən, Zümrüd quşuna qarşı nəcib estetik duyğular oyadır. Valideyinlərin qızlarına Zümrüd adı qoyması övlad, bala istəyi onlarda Zümrüd «ləyaqəti» görməklə əlaqələndirilir. Bəli, nağıl Vətənə məhəbbət tərbiyəsinin əlverişli və heç nə ilə əvəz oluna bilməyən mənbəyidir. Nağılların vətənpərvərlik ideyası göründüyü kimi onun məzmununun dərinliyidir. Xalqın yaratdığı, min illərlə yaşayan əfsanəvi obrazlar uşağın qəlbinə, əxlaqına əcdadımızın qəhrəmanlıq ruhunu, adət və ənənəsini, istəklərini çatdırır. Nağıl doğma elə-obaya ona görə məhəbbət artırır ki, o xalqın yaradıcılığıdır.

Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, əməkdar müəllim, filologiya elmləri doktoru, professor Azad Nəbiyevin 1968-ci ildə tərtib etdiyi, «Gənclik» nəşriyyatında çap olunmuş «Azərbaycan Xalq Nağılları» kitabında nağıllarımız üç qrupa bölünüb. Heyvanlar aləmindən bəhs edən nağıllar, Məişət nağılları və Sehirli nağıllar. Təxminən qırxa qədər cəmləşdirilmiş nağıllar uşaqların, gənclərin tez-tez oxuduqları nağıllardır.

Mənəvi dəyərlərin, xüsusilə də, milli adət və ənənələrin gənc nəslə çatdırılmasında müəllim, valideyn nümunəsi, müəllim nüfuzu keçmişdə də olub, bu gün də əhəmiyyət daşıyır. Elə «aftoritet»in lüğəti mənası da «təsir» deməkdir. Müstəqilliyimizin bu günündə aftoritet müəllim, universitet və məktəb rəhbərindən çox şey gözlənilir. Unutmaq olmaz ki, mənəvi təsir qüvvəsinə hamı deyil, xalq arasında, ictimai təşkilatlarda, ailədə, tədris müəssisələrində şəxsi nümunəsi ilə seçilən adamlar malik olurlar. Belə insanlara ona görə etibar olunur ki, onlar öz hərəkət və davranışları ilə xalq məsələsində deyildiyi kimi «aydan arı, sudan duru» adamlardır. Söz yox ki, etibar qarşılıqlı olmalıdır. Necə deyərlər «tərbiyəçiyə etibar zəruri olduğu kimi, tərbiyə olunana da etibar zəruridir».

Görkəmli pedaqoqlar, elm və mədəniyyət xadimlərinin belə bir fikri ilə razılaşmalıyıq; Öz valideyinlərinə məhəbbət bəsləməyənlər, öz övladlarından məhəbbət və ehtiram gözləmək haqqını itirir. Şərqin görkəmli mütəfəkkir şairi Sədi Şirazi öz hekayələrinin birində qeyd edir: «Bir gün cavanlıqda nadanlıq edib, anamın üstünə bərk qışqırdım. O, qəlbi incimiş halda küncdə oturdu, ağlayıb dedi:

- Körpəliyini unutmusan ki, belə kobudluq edirsən?

*Ana oğlunu zorlu görcək haman*
*Belə söylədi: - Ey pələng ovlayan!*
*Yada düşsə idi uşaqlıq çağın,*
*Ki, qoynumda gücsüz çəkərdin fəqan.*
*Bu gün eyləməzdin mənə zülmlər,*
*Ki, sən güclüsən indi, mən natəvan.*[34]

[34] Sədi Şirazi. Gülüstan. Bakı. 1962. səh. 160.



Lakin Sədi bunu da bilirdi ki, valideynlər də övlada nümunə olmalıdır. Onlar övladlarının qarşısında ata-analarını tez-tez xatırlamalı, islam adət və ənənəsinə əməl edərək onların qəbirlərini ziyarət etməlidirlər.

*İllər keçir, lakin güzar etmirsən,*
*Öz atanın məzarına heç zaman*
*Sən atana nə hörmətlər etdin ki,*
*O hörməti gözləyəsən oğlundan.*[35]

Şagirdin əməlləri ilə fəxr edən müəllimlər, bəzən şagirdlərinin qəbahətlərindən də xəcalət çəkirlər. Bir nəfər naqis hərəkətilə yüzünün adına ləkə gətirir. Böyük Nizaminin poeziya dili ilə desək:

*Bir dostun da olsa eyibli əgər,*
*Yüzünün adına ləkə gətirər.*

Təhsil, tərbiyə sahəsində xalqımızın ustad-müəllim ənənəsi olub, indi də bu ənənə yaşamaqdadır. Görünür «Ustadına kəm baxanın gözlərinə qan damar» aforizmi bu ənənədən yaranıb. Böyük fatehlər İskəndər, Teymur öz ustadlarını iftixarla xatırlamışlar. Müəllimlər də həmişə öz tələbələrinin uğurlarına sevinmişlər. Torpağımızın azad olunması uğrunda şəhid oğlan və qızlarımızın valideynləri ilə bərabər, onlara dərs demiş müəllimlərin də fəxr etməyə haqları var. Lakin ustad, müəllim əməyinə dönük çıxanlar keçmişdə olub, indi də var. Vətən uğrunda döyüşlərdən boyun qaçıran, qızların, gəlinlərin ismətinə təcavüz edənləri azmı görmüşük?!

Firudin bəy Köçərlinin gürcü şairi Akaki Seretelidən, özünün dediyi kimi «zikr» etdiyi «Mürəbbi» hekayəsinin söhbətimizlə səsləşdiyini, tərbiyəvi əhəmiyyətini nəzərə alaraq onun məzmununu bütövlükdə verməyi münasib bilirik.

[35] Sədi Şirazi. Gülüstan. Bakı. 1962. səh. 158.

«Abxaziyada olan uca dağların birisinin başında cavan bir abxazlının evi qaralırdı. Burada cavan abxazlı gözəl və istəkli Nazibrola adlı yarı ilə dünyanın qayğısını unudub, işrət edirdilər. Soyuq və boranlı bir gecədə abxazlının süd qardaşı, qabardalı Səfər bəy ona qonaq olur. Yorulmuş müsafir qardaşının yanına bir işdən ötrü gəlibdir. Onun ürəyi eşq odu ilə alışıb yanır, çoxdandır gözəl Ziya xanıma aşiq olubdur, amma məzurə Ziya xanım ona təklif edir ki, Əlmənsurun kəhər atını oğrasın və illa ona getməyəcəkdir. Əlmənsurun Kəhər atı cəmi Abxaziyada adı ilə söylənir və hamı ona aşiqdir. Sahibi-xanə qardaşının sözlərini eşidib onu bu xətalı səfərdən mən edir, amma qardaşının xatirəsi üçün bu çətin əmri öz öhdəsinə götürür.

Məğrib səmtində hələ ulduzlar göy üzündə sayrışırdı ki, rəşad abxazlı yedəyində kəhər at dar və qorxulu çığır ilə dağ başına öz xanəsinə tərəf dırmaşırdı. Süd qardaşı yapıncı altında xab - da idi. Amma onun istəkli yarı Nazibrola üzü-gözü qanlı, yaxası parçalanmış, zülfləri pərişan halda gözlərindən yaş tökürdü, rəxtxab isə dağınıq və pərişan halda idi.

Nə iş vaqe olduğunu abxazlı qəflətən anladı, ürəyi sıxıldı, başı ağırlaşıb bila-ixtiyar yerə yıxıldı. Arvadın həzin səsi ilə ağlamağı, qəm və qüssəsi bir dəqiqə onun ixtiyarını aldısa da, yenə abxazlı özünü toxdadıb arvadının əlindən tutub dedi: «Mənim əzizim, ağlama, o bir yuxu idi, onu yadından çıxart. Sən günahdan paksan, yenə bizim pakizə və müqəddəs məhəbbətimiz ulduz kimi saf və baqi qalacaqdır». Bu sözlərdən sonra onun üzündən öpüb, ürəyini sakit elədi.

Sonradan namusuna toxunan Səfəri mülatifətlə yuxudan oyadır. Səfər süd qardaşının adəti halında görüb xof və əndişədən çıxır və belə güman eləyir ki, arvad vaiqəni ərindən məxfi saxlayıbdır. Abxazlı qardaşına gülər üzlə deyir: «Xahişini əmələ gətirdim. İstədiyin kəhər at səni gözləyir, tez ol yola rəvan ol, daha da artıq səni yanımda saxlardım, amma bilirəm ki, əziz yarının vüsalına tələsirsən».

Sonradan qonağa əl-üzünü yumağa su, yeməyə xörək verib... onunla bahəm dağın ətəyinə enir. Burada qonağa vida



etdikdə ütab ilə ona deyir: «Səfər bəy! Sənin bəd əməlin və alçaqlığın mənə məlumdur. Sən mənim irzimə və namusuma toxundun. Bu fənalığı söyləməyə dilim qadir deyil. Bu fəna yaddan çıxmaz və əhv olunmaz. Öz yolunla get, bir də mənim gözümə sataşma, bu ləkəni ancaq qan ilə yumaq olar.

Bu sözləri eşitdikdə Səfər bəy titrədi və rəngi ağardı, ahəstə qardaşına dedi: «Doğru deyirsən, müqəssirəm, deməyə bir sözüm yoxdur. Şeytan məni günah əmələ saldı, mən sənin kəmtərin, qulunam, rəhm elə, başımı cəsədimdən ayır».

« -Yox, sənə mənim əlim dəyməz, sən mənim anamın südünü əmmisən, çəkil kənara babalarımızın müqəddəs adətini pozmaqda müqəssir sən deyilsən. Vətəninə müraciət etdikdə öz müəllimi və mürəbbilərinin hüzuruna gedib, mərdanəliyini ona söyləməyi səndən rica edirəm. Hər qisim tənbeh o sənə qərar etsə ona tabe ol».

Səfər bəy pərişan hal və qəmgin vətəninə varid oldu. Və öz mürəbbisi, alim və möhtərəm Hacı Yusifin hüzuruna gəlib tamam əhvatı ona söylədi. Bu söylədikcə Hacı Yusifin üzü bulud kimi qaralıb tutqun olurdu. Axırda güclə nəfəs alıb soruşdu: «bəs sonra nə oldu, səninlə necə rəftar elədi. Sənə nə dedi?»

Səfər bəy cavab verdi ki; «... o məni əhv elədi süd qardaşlığı cəhətinə, amma məndən söz aldı ki, sənin hüzuruna gəlib təqsirimi ərz eyləyim və hər əmr səndən sadir olsa ona əməl edəm». «Aha! Düşünürəm, belə bir böyük günahın cəzası qandır, bunu ancaq qan ilə təmizləmək olar, başqa bir çarə yoxdur! «Belə deyib tapançanın çaxmağını qalxızdı. Səfər bəy döşünü qabağa tutub cəzasına razı oldu. Hacı Yusif onu rədd edib dedi: «Yox, ölümə layiq sən deyilsən. Sənin mürəbbindir ki, sənə tərbiyə verməkdə böyük qüsur göstəribdir». Bu halda tapança açılır və Hacı Yusifin ruhsuz qəlbi yerə sərilir və alnından nazik qan çeşməsi açılır... Müəllim və mürəbbilərə nə gözəl ibrətdir.» [36]

«Xalqın gözü tərəzidir». Bu həqiqətdən qaçmaq olmaz. Zəmanəmizdə əxlaqi və mənəvi dəyərlərin milli adət və ənənələrin eybəcərləşməsi hallarına tez-tez rast gəlirik. Zahiri

---

[36] Bax: Z. Göyüsov. «Fəzilət və qəbahət», səh. 425.

gözəllik nəinki bəzi iradəsi zəif olan gənclərin, hətta evli-eşikli, ailəsi, uşaqları olan kişilərin gözlərini örtür, nəticədə vaxtsız «evlənmələr» ailənin dağılması, uşaqların başsız qalması ilə nəticələnir. Sosial bəlalar da bundan sonra başlanır. Respublikamızın hüquq-mühafizə orqanlarının, gənclər təşkilatlarının, qadınlar şurasının, ruhani idarəsinin, tədris müəssisələrinin məqsədli fəaliyyətləri, milli dəyərlərin təbliği ictimai rəyin, informasiya vasitələrinin, kamilliyə çağırış yazılarının vaxtaşırı verilməsi mövcud qəbahətlərin aradan qaldırılmasına müsbət təsir etməyə bilməz. Xalq arasında ləyaqətli övlad tərbiyə etməkdə təcrübəsi olan valideynlərin, sənət adamlarının, görkəmli pedaqoqların, ağbirçək anaların, ağsaqqalların məsləhətlərinin dinlənilməsi də gənc ailələrin vaxtsız dağılmasının, təsadüfi «evlənmələrin» qarşısını qismən də olsa ala bilər. İctimai rəy tarix boyu əxlaqi eybəcərlikləri pisləmiş, onların aradan qaldırılmasını lazım bilmişdir. Ziyalıları, təhsil müəssisələri az olduğu bir zamanda görkəmli yazıçımız Nəcəf bəy Vəzirov xalq rəyinin bu xüsusiyyətlərini nəzərə almış, bir sıra qəbahətlərin aradan qaldırılmasında xalqa müraciət etməyi məsləhət bilmişdir. O, öz ailəsini, uşaqlarını baxımsız qoyub əyyaşlığa qurşanan bir nəfər haqqında yazmışdı: Bazarı dövr edib, mənzilə qayıdan zaman bir övrətə rast gəldim. Yanma iki balaca uşaq söykənmiş, gözləri yaşlı. Yaxınlaşıb sual etdim:

- Bacı, bu pərişanlığa səbəb nə?..

- Qardaş, bihəyalıq edirəm, bağışla, on il bundan əqdəm, məni bir qovurmaçıya ərə verdilər. Bir növ dolanırdıq. Mən palaz toxuyub satardım, o da öz işi ilə məşğul idi. Üsrət görməmişdik. İndi bir neçə müddət olar ki, o bədbəxt uyub bir matışkaya, bizdən üz döndərib, qalmışıq əl amanda.

- Bu gözəl balalardan əl çəkib?

- Bəli, başına dönüm... Əl çəkib. Keçən vaxtlar hər bir axşam bir neçə çörək qoltuğunda, bir kasa dolu qovurma gəlirdi uşaqların yanma. Amma indi biz onun üzünü görmürük. Matışka üçün əlahiddə otaq tutub yeməkləri, içməkləri bir yerdədir.

- Bu xanə-xarab neçə yaşındadır?



- Olar bir 30-40 yaşında. Olub qalanım əlimdən gedib. Hər kimə də əl açıram, nalayiq cavabdan savayı bir şey eşitmirəm...

Biçarə başladı ağlamağa, tifillər də qoşuldular ona.

- «Kifayətdir bacım. Dəxi artıq dözə bilmirəm, al bu bir manatı, mən qayıdıram meydana. Nalə çəkib camaatı başıma yığam, tapın deyim o məlunu çəkin bazara, tüpürün onun üzünə, əlacı budur bacı, bu iş camaat işidir. Kömək camaatdan gərək».[37]

Bu gün respublikamızda ərsiz övlad tərbiyə edən xanımlar az deyil. Onların çoxu abırlarını büküblər. Xalq hər şeyə qadirdir. Nahaq yerə «El bir olsa, dağ oynadar yerindən» deməyiblər.

Mənəvi dəyərlərimiz adət və ənənələrimiz tükənməzdir. Onlardan istər təlim, istərsə də tərbiyədə səbrlə istifadə həmişə müsbət nəticə vermişdir. Milli mənəvi dəyərlərin öyrənilməsində, onların insan fəaliyyətində vərdişə çevrilməsində tələsikliyə, mövsümçülüyə yol verməli olmaz. Bu iş ardıcıl və məqsədli aparılmalıdır. İslam dinində «Səbr allahın adlarından biridir», «Allah səbr edənləri sevir». Əyyub peyğəmbərin on iki övladı var idi. Allah onu sınamaq üçün övladlarını əlindən alır, o bir dəfə olsun etiraz etmir, səbrlə dərdə-kədərə dözür. Söz allah deyəndir deyib dərdlərə dözür. Xəstələnir, bədəninə qurdlar düşür, bədənindən yerə düşən qurdları götürür yaralarının üstünə qoyur, allah belə məsləhət bilib, məni qurdlara yem verib. Bütün əzablara səbrlə dözən Əyyub peyğəmbər allahın sınağından çıxır. Allah onu yenidən cavan oğlan edir, ona yenidən on iki övlad bəxş edir.

Səbrlə zəruri bilikləri əldə etmək ənənəsi tarix boyu mövcud olmuşdur. «Səbr ilə halva bişər ey qora səndən, bəsləsən atlas olar tut yarpağından» deyən atalarımız məhz səbrin qarşıya qoyulan məqsədə çatmaq üçün mühüm vasitə olduğunu nəzərdə tutmuşlar. M.F.Axundov, H.Zərdabi, M.Ə.Rəsulzadə, Ə.Ağaoğlu və digər görkəmli elm və mədəniyyət xadimləri maarif və mədəniyyət, azadlıq və demokratiya uğrunda səbr ilə mübarizə aparmışlar.

---

[37] Bax: Z. Göyüşov. «Fəzilət və qəbahət», səh. 431.

Düşünülmüş səbrin nəticəsində onlar xalqı qəflət yuxusundan oyatmış, elm və maarif işığını Azərbaycana yaymışlar. Bəzən səbirsizlik, danışığın yerini bilməmək insana baha başa gəlir, necə deyərlər «söz nə qədər ağızdan çıxmamışdır, sən onun ağasısan, əgər ağızdan çıxmışsa sən onun qulusan».

Unutmaq olmaz ki, səbr təhsillə, savadla bağlıdır. O, hadisələrə ağıllı, şüurlu münasibətin ifadəsidir. Göründüyü kimi hamı səbrə borcludur.

Səbri necə deyərlər «allahdan buyruq, ağzıma quyruq» kimi başa düşmək olmaz. Əksinə onu maariflənmə, mənəvi dəyərlərə yiyələnmə kimi qəbul etmək lazımdır. İş yoldaşlarımıza, qohumlara, tələbələrə və başqa insanlara üz vermiş dəhşətli halların; metro, təyyarə, dəniz, yol qəzaları, əzizlərini itirmiş digər insanların keçdikləri kədərlərin çox şahidi olmuşuq. Son illərdə sanki allah xalqımızı imtahana çəkir. Bəzən belə kədərli hadisələr olur ki, adama öz dərdini unutdurur, insanda şüursuzluq yaradır. Atalar deyib: «Ölənlə ölmək olmaz».Deməli vəziyyətdən çıxmaq, kədərin əsirliyindən qurtarmağı bacarmaq lazımdır. Bəzi müsəlman ənənələrini necə deyərlər «bayraq», edib, özünü yüksək əhval-ruhiyyədən məhrum edən insanların faciələrini az eşitməmişik. Ata və anası vəfat edən qız dözmür, özünə qəsd edir. Oğul vəfat edir, ana dözmür və s. Belə anlarda insanlara qayğı, səbr vermək, ümid verən sözlər demək, onları əvvəlki anlara qismən də olsa qaytara bilər. Cəlaləddin Rumi yaxşı demişdir ki, «dərdli adamın tərəddüdlərlə, dumanlarla dolu qaranlıq bir könül evi vardır, əgər onun dərdini dinlərsənsə və azacıq bir təsəlli verərsənsə, bu evə bir pəncərə açmış olarsan.» Qarabağ müharibəsində ermənilərlə vuruşda şəhid olan oğlan hər bir azərbaycanlı kişinin oğlu, hər bir azərbaycan qızının qardaşıdır. Bu danılmaz həqiqətdir. Lakin illərlə bu dərdin yükünü çəkmək, insanı bütün mənəvi dəyərlərdən məhrum etmək deməkdir. Böyük yunan alimi, filosofu Platon kədərin əsiri olmağı pisləyir. Kədər insanı ən böyük beşlikdən; ən yüksək, ən ülvi, ən ali nemət olan sağlamlıqdan, gözəllikdən, qüvvədən, sərvət və yaxşılıqdan məhrum edir.



Əlbəttə kədərdən qaçmaq mümkün deyil, biz insanıq, qəmə, kədərə arxa çevirmək, arsızlıq etmək bizim adətimiz deyil. Qəm-qüssə insanlara yaxşı günlərin qədrini bilməyi öyrədir. Xalq şairi Məmməd Rahim qəmin, qüssənin göstərilən cəhətlərini rübailərinin birində belə ifadə edir:

*Bütöv seçilməzdi kəm olmasaydı,*
*Zil heç duyulmazdı bəm olmasaydı.*
*Nəşənin qədrini bilməzdi insan,*
*Qüssə olmasaydı, qəm olmasaydı.*

Müasir gəncliyin həllinə ehtiyacı olan problemlərindən biri-onları ailə həyatına hazırlamaq ənənəsidir. Müstəqilliyimiz, təhsil-tərbiyə işində qazanılmış nailiyyətlərimiz-fəxrimiz, nöqsanlar isə hardasa etdiyimiz səhvlərin nəticəsi-kədərimizdir. Nəticə məqsəddən başlayır. Məqsədimiz övladlarımızı boya-başa çatdırıb, onları xalqımızın adət və ənənəsi əsasında ailə həyatına qovuşdurmaqdır. Azərbaycan ailəsinin bu sahədəki adət-ənənələri tarix boyu mənəvi saflığına görə seçilib. Sovet məkanında verilən statistik məlumatlardan məlum olur ki, ailələrin dağılması, boşanma faizinə görə Respublikamız digər respublikalardan əsaslı formada yaxşılığa seçilir. Rusiyada, xüsusilə Moskvada, yeni ailə quranların yetmiş faizdən çoxu iki aydan sonra dağılır hətta toyun səhərisi günü boşanma hallarına təsadüf olunur. Bu faktlar göstərir ki, Azərbaycan ailəsində abır-həya, böyük öyüd-nəsihətinə baxmaq ənənəsi güclüdür, tərbiyəedicidir. Övlada kiçik yaşında gələcək ailə həyatından müxtəlif yollarla məlumat vermək, nümunələr göstərmək, ata-ananın bir-birinə qarşılıqlı münasibətlərinin səviyyəsi müəyyən mənada uşaqları gələcək ailə həyatına hazırlıq məktəbidir. Bu məktəbin müəllimlərinin səhvini gələcək bağışlamır, necə deyərlər sonrakı peşmançılıq fayda vermir. Xalq arasında belə deyirlər: «Qızını döyməyən, dizini döyər», «Anasına bax, qızını al», «Qızım sənə deyirəm, gəlinim səndə eşit», «Gəlin ocağa gələr», «Ərlə arvadın torpağı bir yerdən götürülüb» və s. sadalanan misal və aforizmlərin

hər birinin özünə məxsus tərbiyəvi mənası var. Əlbəttə, qızını döyməyən sözünü fiziki cəza kimi deyil, sözün qüdrətindən istifadə kimi nəzərə alınmalıdır.

Dünya xalqlarının ailə qurmaq, toy etmək ənənəsinə nəzər yetirdikdə Azərbaycan xalqının bu sahədəki adət-ənənəsinə tərbiyəlik baxımmdan tay ola bilməz. Bu ənənə müsəlmançılıq, türkçülük ənənələrindən bəhrələnib, bəşəri dəyərləri özündə birləşdirib. Azərbaycan qadını həmişə sevgilisinə, ərinə sədaqəti ilə baş ucalığı gətirib. Bu sevgi, sədaqət Allahın rəsulu Məhəmməd peyğəmbərdən, hədislərdən, onun nəbilərinin nəsihətlərindən irəli gəlib. Böyük əxlaq nəzəriyyəçisi Nəsirəddin Tusi ailə qurmaq, övlad tərbiyə etmək haqqında tövsiyələri əsrlərlə türk xalqlarının ailə qurmaq, övlad tərbiyə etmək proqramı olub. O, deyirdi ki, arvadın ən yaxşısı odur ki, ağıl, dəyanət, həya, ismət və nəzakətdə, ərinin sözünə baxmaqda, dostluqda misli olmayan, qohum - əqraba arasında hörmətli, dözümlü ola, xoş xasiyyətli, ərinin könlünü almaqda, dərdini dağıtmağa səbəb ola. Böyük əxlaq nəzəriyyəçisinin yaxşı qadın haqqında söylədiyi hikmətli sözlərinə bir şey əlavə etmədən onu olduğu kimi verməyi lazım bilirəm.

«...filosoflar deyiblər ki, yaxşı qadın ana, dost və kəniz, pis arvad isə zalım, düşmən və oğrulara oxşayır».

Ləyaqətli qadını anaya ona görə oxşatmışlar ki, ərinin yanında olmasını istər, səfərə gedəndə darıxar, onun arzu və istəklərini yerinə yetirməkdə əzab və əziyyətə dözər, ana da övladı üçün belə edər.

Dosta ona görə oxşatmışlar ki, əri nə versə, razı qalar, vermədiyini üzürlü sayar, malını ondan əsirgəməz, heç yerdə onun əleyhinə çıxmaz.

Kənizə ona görə oxşatmışlar ki, qayğı göstərməkdə, qulluq etməkdə əlindən gələni əsirgəməz; ərinin danlağına dözər, eyblərini örtər, tərifləyər, çörəyini itirməz, ərinin xoşuna gəlmədiyi işləri görməz.

Ləyaqətsiz arvadı ona görə zalıma oxşatmışlar ki, işləməyi sevməz, söyüşkən olar, qara yaxar, tez-tez özündən



çıxar, ərinin nəyi bəyənib, nəyi xoşlamadığını bilməz, qulluqçu və xidmətçilərə rahatçılıq verməz.

Düşmənə ona görə oxşatmışlar ki, ərini təhqir edər, alçaldar, dava-dalaş salar, açıqdan-açığa abrını alar, şikayət edib əleyhinə iş qaldırar, eyblərini aləmə yayar.

Oğrulara ona görə oxşatmışlar ki, ərinin malına xəyanət edər, ehtiyac olmadan pul istər, var-dövlətini dağıdar, ona lazım olan şeyləri kənara paylar, zahirdə dostcasına göz yaşı axıdar, batində öz mənafeyini ərindən yüksək tutar.

Bədcins arvada rast gələnin bircə çarəsi vardır; boşayıb canın qurtara. Pis arvadla bir yerdə yaşamaq canavarla və ya əfi ilanla bir yerdə olmaqdan təhlükəlidir.[38]

N.Tusinin qadın haqqında görüşlərinə müasirlik baxımından yanaşdıqda razılaşmayanlar tapılar. Lakin dəyərli, gözəl olan ənənələri qoruyub saxlamaq, yaşatmaq lazımdır.

Bu gün gənclərimizin bəziləri ləyaqətsiz geyimləri, yersiz hərəkətləri «müasirlik» kimi qəbul edir, gündə bir formaya düşürlər. Gecə barlarına, xarici seriallara aludəçilik artdıqca ictimai yerlərdə, təhsil ocaqlarında xoşa gəlməz hallarla, universitetlərdə, orta məktəblərdə abırsız geyimli tələbə və şagirdlərlə qarşılaşırıq. Doğrudur bəzi gənclərimizdə eybəcərliklərin baş verməsində kinoteatrlarda, televizorlarda nümayiş etdirilən filmlərin (serialların) təsiri danılmazdır. Bu işə dövlət nəzarəti ilə bərabər gənclər təşkilatlarının, valideynlərin, pedaqoji ictimaiyyətin müvafiq qrupların köməyi lazımdır. Gənclərin geyimlərində, hərəkətlərində özünü göstərən dəyişikliklər onların gələcək ailə həyatlarının möhkəm bünövrəyə söykənəcəyinə şübhə yaradır. Şəhərimizin bağlarında, metro qatarlarında, insanların gözü qarşısında bir-birinə sarılmış gənclərin hərəkətlərindəki «müasirlik» bəzən çox baha başa gəlir.

Milli mənəviyyatımızı heç bir «yeniliyə» «müasirliyiə» qurban vermək olmaz. Gənc qızlarımız və gəlinlərimiz, hər bir azərbaycanlı qadın hər yerdə, hansı şəraitdə olursa olsun öz qızlıq və qadınlıq şərəfini, ismətini ləyaqətlə qorumalıdır.

---

[38] N. Tusi. Əxlaqi Nasiri. Bakı, 1989, səh. 155.

Baxdıqları serialdan sonra öz-özünə belə bir hesabat verməlidir; biz azərbaycanlıyıq, bizim sevməkdə, sevilməkdə, ailə qurmaqda, övlad tərbiyə etməkdə öz adət - ənənəmiz var. Yaddan çıxarmaq olmaz ki, çox asanlıqla «sevgili» tapan qızlar tezliklə unudulurlar. Unutmaq olmaz ki, bizim şifahi xalq ədəbiyyatımızda, bayatılarımızda qızlarımızın öz ləyaqətlərini müdrikliklə qorumaları, sevgiyə, məhəbbətə əyləncə, «gün keçirmək» kimi baxan kişilərə «mən o güldən deyiləm, iyləyib atasan» demişlər.

Gənclərin tərbiyəsində, onların gələcək ailə həyatına hazırlanmasında bütövlükdə dövlət, xalq məsuliyyət daşımalıdır. Ata-ana övlad qarşısında, övlad valideyn qarşısında, ailə üzvləri bir-biri qarşısında, hər bir insan, qonşu, vətən, xalq qarşısında məsuliyyət daşımalıdır.

Məsuliyyət hissi, qarşılıqlı münasibət günümüzün reallığı olmalıdır. Müstəqilliyimizi yaşadığımız hazırki vaxtda insanlar arasında məsuliyyət hissinin gündən-günə möhkəmlənməsi, dövlətçiliyimizin möhkəmlənməsinə təminat verən mənəvi dayaqdır.

Müasirliklə bağlı gənclərlə valideynlər arasında müəyyən konfliktlər özünü göstərir. Ailənin iqtisadi imkanı olmadığı halda övlad yeni paltar, kostyum, mobil telefon və s. tələb edir. Belə tələbə və istəyə yeni ailə həyatı qurmuş gənc ailələrdə də təsadüf olunur. Hansı valideyn övladının və ya hansı kişi öz xanımının qəşəng geyinməsini istəməz. İmkan daxilində bu istək həyata keçirilir. Lakin bu istəklərin çoxu bir daha təkrar edirəm «müasirlik» tələbindən yaranır. «Ayağını yorğanına görə uzat» məsəli tamamilə unudulub. İndi başqasına, hər hansı yoldan keçənə baxıb yeni tələblər – nəfs yaranıb. Gənclərin ürəyindən başlayan bu nəfs gündən-günə şaxələnir, onların bütün varlığına hakimlik edir. Bəla burasındadır ki, yenə də bəzi valideynlər, vardan-yoxdan çıxır, övladlarının «arzularına» əməl edirlər. Şərqin əxlaq nəzəriyyəçisi Fəxrəddin Əttarın (1119-1220) «Pədərnamə» əsərində nəfsin fəlakətləri haqqında söylədikləri bu günki, reallıq üçün də çox əhəmiyyətlidir: «Nəfs bədənin təbiətinə meyl edən, hissə aid ləzzətlər, şəhvətlər əmr edən, qəlbi bayağı



tərəflərə çəkən, şərlərin yuvası, pis xasiyyətlərin başlanğıcıdır» ...Məgər nəfs bəlasından deyilmidir ki, zavallı, muradsız quş gəlib ovçunun toruna düşür». Göründüyü kimi nəfsi idarə etmək üçün insanda iradə, cəsarət olmalıdır. F.Əttarın dediyi kimi «öz nəfsinlə edəcəyin dava ən böyük davadır».

Cəmiyyətdə mənəvi dəyərlər, qarşılıqlı hörmət və münasibətlər öz dəyərini itirdikdə insanların bir-birinə isti münasibətləri soyuyur, biganəlik yaranır. Biganəlik əxlaqi gözəlliyə yaddır. Atalar deyib ki, «yaxın qonşu, uzaq qohumdan yaxşıdır». Qonşuluq, xalqlar dostluğu baxımdan xalqımızın ənənəvi tarixi çox zəngindir. Ölkəmizə gələn səyyahlar, qonaqlar xalqımızın dostluq və ənənələri haqqında kitablar yazıb, dövrü mətbuatda vaxtaşırı çıxışlar etmişlər. İnsan-insanın dostu, qardaşı olmalıdır. Allahın rəsulu Məhəmməd peyğəmbər deyir: «Ey allahın qulları, allah sizə əmr etdiyi kimi qardaş olun. Müsəlman müsəlmanın qardaşıdır: Ona zülm etməz, ondan yardımı kəsməz, onu həqir görməz, - Köksünə işarət edərək: - takva bax, burdadır, takva, bax, burdadır, takva bax burdadır. Müsəlmanın qardaşı həqir görməsi şər baxımından şəxsə yetər. Hər müsəlmanın birindən digərinə rizqi və malı haramdır».[39]

Göründüyü kimi insanın mənəvi aləminə həssaslıq, başqalarının bədbəxtliyinə şərik olmaq ənənəsi, ən böyük insan sevinci buradan başlayır. Bunsuz əxlaqi mədəniyyətə yiyələnmək mümkün deyil. Müasir mərhələdə gənclərlə tərbiyə işini elə aparmalıyıq ki, dostun, qohumun, qonşunun, ünsiyyətdə olduğu insanların qəlbində olan kədəri gözlərindən oxumağı bacarsınlar. İnsan həyatının xüsusiyyətlərini-xoşbəxtliyini, bədbəxtliyini bilməyən gənc heç vaxt qayğıkeş ola bilməz. Dərdin, kədərin, ehtiyacın dadını bilməyənlər heç vaxt dərdlilərin dərdinə ortaq olmazlar. Ulu Fizulinin dediyi kimi

*Kim sərin çeşmə başında əyləşib, hardan bilir*
*Çöldə avara gəzən, Məcnunun dərdü möhnətin.*
*Dərdimiz hardan əyan olsun bizim dərdsizlərə?*
*Dərdlilər yaxşı bilir, aləmdə dərdin, qiymətin.*

---

[39] Bax. Məmməd Aslan. Allahın Rəsulu. «Qismət» 2001. səh. 114.

Bəzi insanların həyat tərzinin firavanlığı onların gözlərini tutur, dosta, qonum-qonşuya biganəlik yaranır, hətta qapı bir qonşusunun aclığından, toxluğundan xəbər tutmurlar. Halbuki qonşunun qonşuya pay verməsi ənənəsi, pay alanın sağ ol deməsi, «payınız çox olsun» ənənəsi xalqımız arasında aforizmə çevrilib. Fikrimizi qonşuluqla bağlı bir xalq deyimi ilə davam etdirirəm: Çox uşaqlı ailə ilə bir uşaqlı ailə uzun illər qonşuluq edirlər. Çoxuşaqlı ailənin başçısı uşaqların yemək - içməklərini güclə çatdırır, ailə bu minvalla yaşayırmaş. O biri qonşunun bir oğlu var idi. Onlar üç nəfər naz-nemət içində yaşayırmışlar. Necə deyərlər «toxun acdan xəbəri olmur». Çoxuşaqlı ailənin ruzusu tükənir. Əlacsız qalan ata zibillikdən mundar olmuş toyuğu gizlincə götürüb bişirmək üçün uşaqların anasına verir. Ana toyuğu bişirən vaxt qonşunun oğlu onların həyətində oynayırmış. Oyun qurtaranda qonşunun oğlu evlərinə getmir, uşaqlarla qalır. Toyuq bişdikcə iyi evə dolur. Qonşu oğlanın da ondan yemək istəyi yaranır. Toyuğun bişməsini gözləyir. Ata anaya məsləhət bilir ki, qonşu uşaq getməyincə uşaqlara yemək verməsin. Ana belə də edir. Uşaq evlərinə gedəndən sonra ata-anasına gileylənir ki, qonşuları toyuq bişirirdi, ona təklif etmədilər. İmkanlı qonşu səhərisi gün qonşu ilə qarşılaşarkən oğlunun dediklərini ona xatırladır. Çoxuşaqlı qonşu nə üçün onun oğluna toyuğun ətinin verməməsinin səbəbini belə izah edir: - Biz ac qalıb əlacsızlıqdan mundar olmuş toyuğu yedik, istəmədik ki, sənin oğlun mundar yesin. Varlı qonşunun eşitdiyi hadisə onu sarsıdır və düşünür ki, qonşuya laqeydliyi, onların çətin vəziyyətini görməyib. Baş vermiş hadisə qonşunu öz-özünə hesabat verməyə məcbur edir və onda insani hisslər baş qaldırır. Qonşuların həyat tərzi ilə maraqlanır, onların ehtiyaclarının təmin olunması yolunda varını əsirgəmir.

Müstəqilliyimizin indiki vaxtında hər bir azərbaycanlının tək özünün deyil, həm də həmvətənləri haqqında narahat olmadan bir gün də yaşamaq haqqı yoxdur. Erməni qəsbkarları bir milyondan çox həmvətənlərimizi isti yuvalarından, uzun illər məskunlaşdığı torpaqdan didərgin



salıb, onların çadırlarda məskunlaşdığı vaxtda qiyməti bilinməyən imarətlərin, villaların tikilməsi nə qədər məqsədəuyğundur? Heç bir yerdə görməmişik, oxumamışıq və eşitməmişik ki, şəhərimizdə ucalan özəl imarətlərdə şəhid ailələrinə, qaçqınlara yer verilib.

Həzrəti peyğəmdər Mədinədə yenə gəzintiyə çıxmışdı. Şəhərin səliqə-səhmanına fikir verir, şəhərin inkişaf əlamətlərinə nəzər yetirirdi. Bu şəhər onun varlığı ilə bir neçə qat ucalmışdı. Bu şəhər onun gəlişi ilə islamın xitabət kürsüsünə çevrilmişdir. Minbərdi, kürsüydü başdan-başa lətafət şəhəriydi Mədineyi-Münəvvər! Mömünlərin könlünə işıq burdan yayılırdı.

Ərş üzündən dünyanın ən böyük səhrasına enən bu Nur burada bir yerə toplanmış, buradan da Şərqin çöhrəsini güldürməyə başlamışdır. Bu Nur Həzrəti peyğəmbərin xatirinə endirilmişdir!

*Bura Şəhri-Məhəmməddir!*
*Yerdən Göyə İbadətdir!*
*Ucalarda bir məbəddir!*
*Müşk ilə ənbər burası!*

Beləcə, içindəki işıqlı duyğularda Həzrəti-Peyğəmbər bir küçədən keçərkən şövqü ətrafa düşən uca qübbəli, göstərişli və ətrafdakı evlərdən yüksəkliyi ilə dərhal seçilən bir evlə qarşılaşdı. Ayaq saxlayıb xeyli baxdı. Hələ ki, ətrafdakı adamlar bu sürəkli baxışların nə demək olduğunu kəsdirə bilmədilər. Axır ki, ətrafındakılara üz tutub, bu binanın nə olduğunu soruşdu. Ənsardən bir müsəlmanın təzəcə inşa etdirdiyini söylədilər. Peyğəmbər eşitdiklərinə heç bir cavab vermədi.

Aradan bir neçə gün ötmüşdü. Həmin evi inşa etdirən ənsar Həzrəti Peyğəmbərin hüzuruna gəldi. Kəmali ədəblə salam verdi. Fəqət Peyğəmbərimiz cavab vermədi və üzünü başqa tərəfə çevirdi. Ənsar güman etdi ki, Peyğəmbər onun salamını eşitməmiş ola bilər. Salamını təkrar etdi. Həzrəti Peyğəmbər salama yenə müqabilə etmədi və üzünü ondan

çevirdi. Ənsar çox üzgün hala gəldi. Ona qarşı Peyğəmbərin tutduğu tövrün səbəbini digər sahiblərdən öyrənmək istədi. Peyğəmbər dostları-göstərişli ev məsələsini olduğu kimi ənsara bildirdilər. Ənsar onlardan ayrılıb həyətinə gəldi. Peyğəmbərin ürəyincə olmayan o göstərişli evi yerlə yeksan etdi. Və bəraət üçün bunu Həzrəti Peyğəmbərə birdirmədi. Aradan xeyli zaman keçmişdi. Peyğəmbər yenə həmin küçə ilə keçərkən evi yerli-dibli yıxılmış gördü. İzi belə qalmamışdı. Nələr baş verdiyini soruşdu. Ətrafındakılar bunun Peyğəmbər salamını almadığı üçün Ənsarın bir etirafı olaraq etdiyini bildirdilər. Allahın elçisi son dərəcə məmnun qaldığını bu kəlamı ilə bəyan etdi: «Böyük bir ehtiyac olmadığı halda, hər inşaatdan sahibi məsuldur!»[40]

Ucaldılan imarətlərdə millətin dərdi-sərinə ortaq olmadan, könül xoşluğu ilə yaşamaq, milli dəyərlərə etinasızlıq deyilmi?

Milli adət və ənənələrin mənəvi və kulturoloji dəyərini bütün zamanlarda görkəmli elm və mədəniyyət xadimləri yüksək qiymətləndirmişlər.

Platon bayramları dövlətin sabitliyi hesab edərək göstərirdi ki, tərbiyə işində buraxılan qüsurlarl bayramlar vasitəsi ilə düzəltmək mümkündür. Aristotelə görə isə insan təbiəti belədir ki, təkcə zəhmət çəkmək deyil, öyrənməyi və bayram etməyi də istəyir. Buna onun hərtərəfli haqqı var. Göründüyü kimi, insan həyatını mənalandıran başlıca amillərdən biri kimi mərasimlər olduqca qiymətlidir. İnsanlar toplanışlarda, mərasimlərdə görüşür, bir-biri ilə ünsiyyətdə olur, dərdlərini, sevinclərini bölüşdürürlər.

Sovet məkanında formaca milli, məzmunca sosalist, «mədəniyyətin» təbliği xalqların özünəməxsus mənəvi dəyərlərin şüurlardan silinməsinə gətirib çıxarmışdır.

Azərbaycanın müstəqil Demokratik Respublikasının məhvi günü xalqın bayramına çevrilmişdi. Müstəqil olmayan xalqların əxlaq və milli mədəniyyəti ola bilməz. Tarixi inkişaf göstərir ki, azadlıq, müstəqillik olmayan yerdə insanın milli,

[40] Bax: M.Aslan «Allahın Rəsulu», Bakı, «Qismət» 2001. səh. 123.



mənəvi dəyərlər əsasında formalaşması mümkün deyil. Əxlaq nəzəriyyəçilərindən biri haqlı olaraq demişdir: Nə qədər ki, fərdlər öz insanlıq şərəf və haqlarını layiqincə qoruyub saxlaya bilmək səviyyəsinə yüksələ bilməmişlər, nə dini əxlaq, nə qəbilə əxlaqı, nə adət-ənənəyə əsaslanan əxlaq bəşəriyyəti ikiüzlü, hiyləgər, kölə və ya ağa əxlaqından xilas edə bilməyəcəkdir. Bu gün respublikada yaranmış müstəqillik, demokratiya şəraiti Azərbaycan xalqının özünün gələcək nəsillərin milli-mənəvi dəyərlər əsasında tərbiyə etmək imkanını daha da artırır.

### *3.2 Bədii xalq yaradıcılığının tarixi qaynaqları və müasirlik*

Qədimdən bu günədək özünəməxsus təkamül mərhələləri və inkişaf yolu keçmiş Azərbaycan xalq yaradıcılığı, folklor nümunələri sinkretik olub, bədii yaradıcılığın bir sıra sahələrini əhatə etmişdir.

Bədii sənət əsərləri yalnız bir qrup adamlar tərəfindən deyil, eyni zamanda mənsub olduğu etnik qrupun, icmanın, kollektivin bədii təfəkkür tərzini, istək və arzularını, görüşlərini və mənafeyini ifadə edən ayrı-ayrı istedadlı sənətkarlar tərəfindən yaradılmışdır.

Xalq yaradıcılığının gözəl biliciləri təsdiq edirlər ki, incəsənətin baniləri dulusçu, dəmirçi, toxucu, daşyonan, bənna, ağac və sümük üzərində nəqş edən nəqqaş, rəngsaz, ümumiyyətlə sənətkar insanlar olmuşlar. Biz bu zəngin xəzinənin incilərinə, milli mənəvi dəyərlərimizin nümunələrinə nisbətən keçmiş, orta əsr və sonrakı dövrlərdə yaşayıb-yaradan sənətkarlarımızın, saz və söz ustalarımızın yaradıcılığında rast gəlirik. Məsələn, Azərbaycanda islama qədər «Əfrasiyab» (Alp Artunqa), «Şu», «Hun», «Göktürk», «Oğuz», «Uyğur» yaxud islamdan sonrakı «Kitabi-Dədə Qorqud» dastanları ilə bağlı olan ozan yaradıcılığı, «Koroğlu» qəhrəmanlıq dastanı, «Əsli və Kərəm», «Leyli və Məcnun», «Şah İsmayıl», «Abbas və Gülgəz», «Xosrov və Şirin», «Aşıq

Qərib», «Qurbani», «Abdulla-Cahan», «Alıxan-Pəri», «Bəhmən-Humay», «Valeh-Zərnigar», «Dilsuz-Xəzangül», «İbrahim-Hürnisə», «Məhəmməd-Güləndam», «Seydi-Pəri», «Tahir-Zöhrə» və s. kimi məhəbbət dastanları, Şah İsmayıl Xətainin hakimiyyəti illərində yaşamış aşıq Qurbani, habelə aşıq Abbas Tufarqanlı, Aşıq Alı, Sarı aşıq, aşıq Valeh, aşıq Pəri, Molla Cuma, Xəstə Qasım, aşıq Ələsgər kimi nisbətən keçmiş sənətkarlarımızın bir sıra dəyərli əsərləri (qoşma, gəraylı, təcnis, ustadnamə, müxəmməs və s.) hafizələrdə yaşadıqları üçün yaddaşnamələr sayəsində bizə qədər gəlib çatmış və qorunub saxlanmaqdadır.

Azərbaycan xalq yaradıcılığının tarixi inkişaf mərhələlərində folklor həmişə bədii yaradıcılıq üçün mühüm obyekt, tükənməz mənbə olmuşdur. Burada nəinki sənət əsərlərinin yüksək idealları, həm də tarixi gerçəklik və xalq ənənələrinin yüksək əhval-ruhiyyəsi təcəssüm etdirilmişdir.

Aşıq sənəti xalq yaradıcılığının sinkretik növü olaraq, mühüm qaynaqlardan biri kimi şifahi xalq ədəbiyyatının zəngin qolunu təşkil edir.

Aşıq xalqın ən sevimli nəğməkarıdır. Azərbaycan professional musiqisinin banisi, dahi bəstəkar Üzeyir Hacıbəyov demişdir: «Aşıq sənəti xalqa, kütlələrə daha yaxındır, xalqın həyəcan və arzularını, xalq musiqisinin başqa növlərinə nisbətən daha parlaq əks etdirir, aşıq ictimai mövqeyinə görə kəndliyə, zəhmətkeş xalqa yaxındır. Aşıq sənəti xalqın öz yaradıcılığıdır»[41].

Azərbaycan xalqının ictimai və bədii fikir tarixində xüsusi rol oynamış aşıq yaradıcılığı zəngin el xəzinəsinin sazlı-sözlü incilərini zaman-zaman nəsillərə təlqin etmişdir.

Aşıq ədəbiyyatı janr etibarilə çox zəngindir. Ustad sənətkarlar lirik janrın qoşma, gəraylı, təcnis və sairə növlərində yüksək sənət nümunələri yaratmışlar. Onlar vətənə məhəbbətlərini, onun əsrarəngiz gözəlliyini, dövrdən,

[41] Bax: Hacıbəyov Ü. Aşıq sənəti. «Бакинский рабочий» qəzeti, 1928,



zəmanədən şikayətlərini, təmiz sevgi hisslərini təsvir və tərənnüm etmişlər.

Aşıqlar ifa sənətinin xarakterinə görə iki qrupa bölünürlər. Bunlardan bir qismi ancaq yaranmışları hifz etməklə məşğul olmuş, özü yeni heç nə yaratmamışdır. Məlum olan saz havalarını çalmış, şer və dastanlar demişdir. İkinci qrup isə yaradıcı aşıqlardır ki, onlar yaranmışları yaşatmaqla bərabər özləri də yaradıcılıqla məşğul olmuş, yeni şer qoşub oxumuşlar. Aşıqların dili son dərəcə xəlqidir, xalq danışığına daha yaxındır, həm də ritmik, harmonik xüsusiyyət aşıq şerində daha güclüdür. Çünki aşıqların yaratdıqları şerlər qəlbləri ehtizaza gətirən saz havaları üzərində qurulur.

Aşıq şerinin xəlqiliyi və estetik çalarlarına toxunarkən onu da deməliyik ki, aşıq şerinin gözəlliyi, bu lirikada işlədilən sözlərin çoxmənalılığı, xəlqiliyi ilk növbədə Azərbaycan dilinin zənginliyi ilə əlaqədardır.

Bu gün ulu aşıq poeziyasını araşdırarkən orada dövrlə, zamanla, üslub və poetik söz seçmə ilə bağlı qəliz ifadələrə də rast gəlmək olur. Məsələn, aşıq Ələsgər «Murği ruhum getməz səndən irağa» misrasındakı «murğ» sözünü ifadənin gözəlliyini artırmaq üçün işlətmişdir. «Murğ» farsca quş mənasında işlədilir. Əgər şerdə «murğ» əvəzində «quş» sözü işlədilsəydi, gülünc bir ifadə alınmış olardı.

Aşıq sənəti xalq yaradıcılığının qaynaqlarından biri kimi Qafqaz və Orta Asiya xalqlarında, İranda (Cənubi Azərbaycanda) və Türkiyədə də mövcuddur. Türkiyədə Azərbaycan aşıq yaradıcılığına çox ehtiramla yanaşılır. Məsələn, Ankarada, İstambulda, İzmirdə, Əskişəhərdə Aşıq Ələsgərin adını Yunis İmrə, Qaracaoğlan, Pirsultan Abdal, Ərzurumlu Əmrah, Gövhəri kimi Türkiyənin qüdrətli saz və söz ustaları ilə bir sırada çəkirlər. Ulu xalqımız əsrlər boyu öz dünyagörüşünü, etnik və mənəvi aləmini ağız ədəbiyyatında, şifahi xalq yaradıcılığında, o cümlədən aşıq sənətində əks etdirmişdir. El aşıqları həmişə xalqın içərisində olmuş, böyük hörmət, nüfuz sahibi kimi qiymətləndirilmiş, el-obanın sevinc və kədərinin şəriki olmuşdur. Azərbaycan xalq yaradıcılığı zəminində dirçəldilən, qorunub saxlanılan mənəvi dəyərlər

içərisində aşıq sənətinə dərin məhəbbət bu gün də yaşamaqdadır.

Azərbaycan aşıq poeziyasının ən görkəmli nümayəndələrindən biri, qüdrətli sənətkar mahir söz ustası Aşıq Ələsgərin anadan olmasının 175 illiyinin qeyd edilməsi barədə Azərbaycan Respublikasının mərhum prezidenti, möhtərəm Heydər Əliyevin fərmanı xalq sənətinə, xalq yaradıcılığına, klassik irsimizə dövlət qayğısının ən parlaq təzahürü idi. Bu məlum qərar sənətsevərlərimizin hər birini aşıq yaradıcılığını, ustad aşıq Ələsgərin şer-sənət irsini bir daha dərindən öyrənməyə və bu ulu sənəti qoruyub saxlamağa səfərbər edir.

Aşıq sənəti ənənələrinə dərindən yiyələnən aşıq Ələsgər özündən sonra yetişən onlarla gənc aşığın yaradıcılığına güclü təsir göstərmişdir. Aşıq öz şerlərinin birində deyir:

*Adım Ələsgərdi, mərdü-mərdana,*
*On iki şagirdim işlər hər yana.*
*Tülküsən, aslanla girmə meydana,*
*Danasan sürtülüb kaldan danışma.*

1918-1919-cu illərdə erməni daşnakaları tərəfindən törədilən milli qırğın zamanı azərbaycanlılar Göyçə mahalından başqa yerlərə köçməyə məcbur olmuşdular. Köçənlər içərisində Aşıq Ələsgər də var idi. Həmin hadisənin şahidi olan Aşıq Ələsgər şerlərinin birində deyir:

*Necə oldu atam, nə oldu anam?*
*Pozuldu növrağım, dağıldı qalam.*
*Yığıldı barxanım, yükləndi qaflam,*
*Bu yurddan o yurda köçürəm bu gün.*

Aşıq kimdir? Sualına Aşıq Ələsgər belə cavab verir:

*Aşıq olub tərki-vətən olanın,*
*Əzəl başdan nur kamalı gərəkdir.*



*Oturub, durmaqda ədəbin bilə,*
*Mərifət elmində dolu gərəkdir.*

Ürək ağrısı ilə onu da qeyd etmək lazımdır ki, ustadın Göyçə mahalındakı məzarı erməni qaniçənləri tərəfindən dağılıb viran qoyulmuşdur.

Vaxt vardı «Kitabi-Dədə Qorqud»da adı çəkilən ozanlar ahəngli sözlər deməklə kifayətlənməzdilər. «Dədə Qorqud» boyları Azərbaycan ərazisində ən qədim aşıq dastanlarındandır. «Dədə Qorqud» dastanı şifahi xalq yaradıcılığının toplu bir formasıdır. Həmin dastanın ənənələrini sonralar digər aşıq dastanları davam etdirmişdir.

Görkəmli ədəbiyyatşünas Əziz Mirəhmədov bu xüsusda yazır: «Dastan yaradıcılığını sonrakı əsrlərdə daha coşğun ilhamla davam etdirən xalq sənətkarları, ilk növbədə aşıqlar XVI-XVIII əsrlərdə «Koroğlu» kimi əzəmətli qəhrəmanlıq eposu, «Aşıq Qərib», «Əsli və Kərəm», «Abbas və Gülgəz» kimi füsunkar məhəbbət dastanları qoşmuşlar...

Şifahi ədəbi sərvətin qiymətli bir hissəsi olan aşıq yaradıcılığını Abbas Tufarqanlı, Sarı aşıq, Xəstə Qasım kimi gözəl söz ustaları inkişaf etdirdilər»[42]

Canlı xalq dilinin zəngin çalarlarından bacarıqla istifadə edən Azərbaycanın klassik və müasir aşıq sənətinin nümayəndələri çoxdur. Görkəmli saz və söz ustalarının siyahısında Aşıq Abbasqulu, Aşıq Nəcəfqulu, Aşıq Hüseyn Cavan, Aşıq Qəşəm, Aşıq Dilqəm, şair Vəli, Çoban Əfqan, Növrəs İman, Aşıq Əli, Miskinli Vəli, Aşıq Teymur, Aşıq Qurban, Aşıq Bəylər, Aşıq Əmrah, Aşıq Hüseyn Saraclı, Aşıq Kamandar, Aşıq Ədalət, Aşıq Əhməd, Aşıq Şakir, Aşıq Pənah, Aşıq Sadıq, Aşıq Mikayıl Azaflı, Aşıq Əkbər, Aşıq İmran, Aşıq Mahmud, Aşıq Hacı, Aşıq Murad, Hüseyn Xalaoğlu, Göyçəli Aşıq Hacı, Aşıq Aydın Çobanoğlu, Aşıq Əhliman, Fəzail Miskinli, Aşıq Bəsti, Aşıq Cəvahir, Aşıq Nabat, Aşıq Zülfiyyə, Aşıq Ulduz Quliyeva və başqaları saz havalarının biliciləri kimi tanınmışlar.

---

[42] Bax: Azərbaycan klassik ədəbiyyatı kitabxanası, I cild Bakı, 1982, s.12

Məhz həmin aşıqlar Azərbaycan klassik aşıq poeziyasının görkəmli nümayəndələrinin bir başa varisləridir.

İnsan təfəkkürünün yaratdığı elə bir anlayış yoxdur ki, o inkişaf prosesi keçirməsin. Bu həqiqət dialektikanın kəşfindən sonra bütün mahiyyəti ilə aşkar olunmuşdur.

Azərbaycan xalq dastanları, onun tarixi və mahiyyəti haqqında ilkin anlayış xalq yaradıcılığının ilkin qaynaqları, bədii nümunələri ilə eyni vaxtda meydana gəlmişdir.

Dastan Yaxın və Orta Şərq, Cənubi-Şərqi Asiya xalqlarının şifahi və yazılı ədəbiyyatlarında geniş yayılmışdır. Dastanın yazıdan əvvəlki dövrlərdə ayrı-ayrı, qəbilə və tayfalarla əlaqədar hadisələri, əhvalatları bu və ya digər dərəcədə əks etdirən ən qədim nümunələri insanların əsatiri varlıqlarla, totemlərlə mübarizəsinə həsr edilmişdir. Dastanlar millətlərin din, fəzilət və milli qəhrəmanlıq macəralarının əksər mənzum hekayələridir. Dastanlarımızın kökü tarixə söykənən və ilhamını tarixdən alan xalq ədəbiyyatı, xalq yaradıcılığı məhsuludur.

Dastanlar aşıq ədəbiyyatının əsas janrlarından sayılır. Aşıqlar onlarca qəhrəmanlıq və məhəbbət dastanları yaratmışlar.

«Kitabi-Dədə Qorqud», «Koroğlu», «Şah İsmayıl», «Qurbani», «Tahir və Zöhrə», «Aşıq Qərib», «Əsli və Kərəm» və sairə dastanları qeyd etmək olar.

Uzun əsrlər boyu Azərbaycan xalqının çətinliklə, təmkin və səbrlə əldə etdiyi elin yaddaşı, mənəvi sərvəti, təkcə onun ədəbi və tarixi memarlıq abidələri, kitabələri, qaya təsvirləri ilə məhdudlaşmır, bu sıraya həm də pərvazlayan xalq yaradıcılığı və onun zəngin qaynaqlarından biri olan xalq dastanları da daxildir.

Görkəmli ədəbiyyatşünas B.Çobanzadə yazırdı: "Xalq ədəbiyyatı, yaxud "ağız ədəbiyyatı" yazılı ədəbiyyatın əsasıdır. Yazılı ədəbiyyat xalq ədəbiyyatının inkişaf və təkamül etmiş bir şəklindən başqa bir şey deyildir. Cəmiyyətlərdə yazılı ədəbiyyat ilə xalq ədəbiyyatı arasında az fərq vardır, yaxud heç yoxdur. Cəmiyyət irəlilədikcə, bu fərq meydana çıxır və böyüyür. Cəmiyyətin siniflərə ayrılması ilə bir-birindən



müəyyən və qəti cizgilərlə ayrılan xalq ədəbiyyatı və yazılı ədəbiyyat əmələ gəlir»[43].

Ozan-aşıq sənəti və dastan yaradıcılığında aktual problemlərdən biri də bu mühüm sənət və yaradıcılıq sahələrinin teatr və kino sənəti ilə inteqrasiyası, qarşılıqlı yaradıcılıq vəhdəti və əlaqəsidir.

Uzun əsrlərin təcrübəsi və bu sahədə aparılan araşdırmalar onu deməyə əsas verir ki, teatr və kino sənətinin şifahi xalq ədəbiyyatı və xalq yaradıcılığı ilə sıx əlaqədə olması bu sənət sahələrinin məhsuldar inkişafına güclü təkan vermişdir. Teatr və kino sənətinin inkişafında tükənməz xalq yaradıcılığının, xalq dastanlarının səhnə təcəssümü, kino dilinə çevrilməsinin əhəmiyyətini qeyd etməklə teatr və kino sənəti ilə bağlı yazıçı, dramaturq, bəstəkar, rəssam, operator, ssenariçilərin xidməti də qeyd olunmalıdır.

Bu cəhətdən «Dədə Qorqud» (ssenari müəllifi Anar Rəsul Rza oğlu, quruluşçu rejissoru Tofiq Tağızadə, quruluşçu operatoru Rasim İsmayılov, bəstəkarı Emin Sabitoğlu, quruluşçu rəssam Nadir Zeynalovdur), «Koroğlu» (ssenari müəllifi Sabit Rəhman, quruluşçu rejissoru Hüseyn Seyidzadə, bəstəkarı Cahangir Cahangirovdur) kimi qəhrəmanlıq dastanlarının ekranlaşdırılması, «Leyli və Məcnun», «Əsli və Kərəm», «Aşıq Qərib», «Şah İsmayıl», «Koroğlu» və digər xalq dastanlarının teatr sənəti ilə əlaqəsi, yaradıcılıq prosesi, xüsusilə opera sənəti ilə bağlılığı da öz gözəl bəhrəsini vermiş və bu sənət sahəsinin məhsuldar inkişafına təkan vermişdir.

«Leyli və Məcnun» (musiqisi və librettosu Ü.Hacıbəyovundur), «Koroğlu» (musiqisi Ü.Hacıbəyov, librettosu M.S.Ordubadinindir), «Əsli və Kərəm» (musiqisi və librettosu Ü.Hacıbəyovundur), «Şah İsmayıl» (musiqisi Müslüm Maqomayev, librettosu Mirzə Əbdül Qədir İsmayılzadənindir) operaları tamaşaçıların şüuruna, zəkasına mənən təsir etdiyi kimi, həm də ürəklərdə gözəl duyğular oyadır.

---

[43] Bax: Cobanzadə B. Türk ədəbiyyati. Bakı, Azərnəşr 1999, səh 38.

Xalq dastanlarımız müxtəlif tarixi dövrlərdən keçib zənginləşən, püxtələşən əhatəli bir yaradıcılıq prosesinin məhsuludur. Bu dastanların ifa edildiyi aşıq-saz məclislərinə diqqət yetirsək, burada hər şeydən əvvəl, sənətin müxtəlif sahələri teatr-tamaşa, musiqi-melodiya və folklor ifaçılığı məharəti kimi ünsürlərin, əslində isə başlıca əlamətlərin vəhdət halında birləşdiyinin şahidi olursan. Məhz bu baxımdan respublikamızda ssenari-libretto emalatxanasının yaradılması klassik tarixi mövzularda əsərlərin səhnə təcəssümünə və dastan yaradıcılığında teatr-tamaşa, musiqi-melodiya ifaçılığı sahəsində kəsirli cəhətlərin aradan qaldırılmasına imkan yaradır.

Ozan-aşıqlarımız və zəngin xalq dastanlarımız cəmiyyətin bütün inkişaf mərhələlərinin canlı salnaməçisi kimi keçmişi, rəvayət və əfsanələri, bu günü və hətta gələcəyi belə bir nöqtədə, bir məcrada birləşdirməyə qadir olmusdur.

Folklora istinadən ilkin dövrlərdə təşəkkül tapmış mədəni-mənəvi qaynaqlar içərisində xalq musiqi yaradıcılığı xüsusi əhəmiyyət kəsb edir. Azərbaycan xalqı öz tarixi etibarı ilə çox qədim və həm də zəngin musiqi irsinə malikdir.

"Qobustan"ın qaya rəsmləri (petroqlifləri) içərisində kollektiv rəqs oyunu təsvir edilmişdir ki, bu da bizə bir növ müasir "Yallı" rəqsini xatırladır. Alimlər bunu təxminən e.ə. V-III əsrlərə aid edirlər. Dağ ətəklərindən birində böyük bir daş tapılmışdır. Bərk cisimlə ona zərbə endirdikdə müxtəlif səslər almaq olur. Güman etmək olar ki, bu daş Azərbaycanda geniş yayılmış zərb alətlərinin ən ibtidai nümunəsidir. Maraqlıdır, yerli əhali buna "qaval daş" deyir. Güman ki, "Yallı" rəqs havalarında bir zərb aləti kimi bu daşdan istifadə edilmişdir.

Mingəçevir qazıntıları zamanı sümükdən düzəldilmiş qədim bir musiqi alətinə təsadüf olunmuşdur ki, bu da Azərbaycan xalqının müasir nəfəsli musiqi alətlərindən birini xatırladır. Alimlər bu aləti e.ə. I əsrə aid edirlər.

Musiqi mədəniyyəti bir neçə nəslin yaradıcılığı sayəsində yeni bədii boyalarla zənginləşərək təkmilləşmişdir.



Dövrünün ensiklopedik alimləri, filosof və musiqi biliciləri Əbu Nəsr Fərabi, Əbu Əli ibn Sina, Homer, Platon, Aristotel, Plutarx, Qətran Təbrizi, Xaqani Şirvani, Nizami Gəncəvi, Səfiəddin Urməvi, Əbdülqadir Marağayi, İmadəddin Nəsimi, M.F.Axundov, Həsən bəy Zərdabi, S.Ə.Şirvani, Mir Möhsün Nəvvab, Üzeyir Hacıbəyov mənəvi dünyamızda musiqinin xeyrindən dönə-dönə söhbət açmış, xalq musiqi binasının təməlini təşkil edən muğam və avazatlar, muğam-ifaçılıq, vokal-müğənnilik, not və instrumental musiqi yaradıcılığı haqqında dəyərli və faydalı fikirlər söyləmişlər.

Xalq musiqisinin əsasını təşkil edən xalq mahnıları, aşıq musiqisi, muğamat, rəqs musiqisi, bir sıra qədim ailə-məişət mərasim oyunları, habelə tar, kamança, zurna, balaban, tütək, təbil, qoşa nağara, qopuz (saz), kanon, ud, tulum, ney, cəng, sitar, barbəd, tənbur, rübab, səntur, şeypur və sairə kimi musiqi alətləri keçən əsrlərdə və bu gün də geniş yayılmışdır. "İlk gözəl nəğmə və rəqs melodiyalarının yaradıcısı – xalq özüdür"[44] deyən Üzeyir Hacıbəyovun "ən kamil və ən gözəl musiqi aləti insanın öz səsidir" deyirdi. Məhz bu səs çox yığcam, lakonik olub, insanın idrak və kamalına, mənəvi gözəlliyinə dahi bəstəkarın böyük inamını ifadə edir. Böyük dahilər, mütəfəkkir filosoflar insana, onun əqlinə inam mövqeyindən yanaşmışlar. "Məndə sığar iki cahan, mən bu cahana sığmazam" deyən Nəsimi insan idrakının, kamalının sonsuzluğuna, qüdrətinə işarə etmirdimi?

Böyük Şekspir Hamletin dili ilə söylədiyi: "İnsan! Təbiətin möcüzəsi, xeyirxah düşüncəli, sonsuz qabiliyyətli, mütənasib əndamlı, heyrətamiz davranışlı insan! Kainatın yaraşığı, bütün canlı varlığın tacı olan insan!"

Musiqinin orta əsrlərdə özünəməxsus yer tapması ən qədim ədəbi abidə olan "Dədə Qorqud" dastanlarından məlumdur. Azərbaycan xalqının keçmiş musiqi həyatı haqqında qiymətli məlumatlara bir sıra başqa ədəbi abidələrdə, xüsusən Nizami, Məhsəti, Xaqani kimi alim-filosofların əsərlərində rast gələ bilərik. Böyük Nizaminin

[44] Bax. Hacıbəyov Ü. Əsrləri, II cild, 1945 s. 322

"Xəmsə"si bu cəhətdən diqqətə layiqdir. Beş ölməz əsərdə müxtəlif musiqi janrları, xalq musiqi ifaçılığı və bir sıra musiqi alətləri haqqında maraqlı və dəyərli məlumatlar verilir. Klassiklərimizin və o dövrdə yaşayıb yaratmış musiqiçi alimlərimizin əsərlərindən belə məlum olur ki, həmin dövrlərdə xalqımızın mədəni həyatında istifadə olunmuş zərb, nəfəsli və simli musiqi alətlərinin sayı 60-dan çox olmuşdur. Barbəd, cəng, rud, səntur, rübab, tənbur, yəganə, ney, ud kimi musiqi alətləri əsasən saray məclislərində; saz, qopuz, zurna, tütək, balaban və s. el məclislərində çalınarmış.

Nizaminin "Xosrov və Şirin" poemasında Xosrov Pərvizin saray musiqiçilərindən Barbəd və Nikisanın "Rast" muğamı üstündə deyişmələri çox səciyyəvidir.

Təqdirəlayiqdir ki, Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyinin ekspozisiyasında qədim milli musiqi alətlərindən ud, səntur, setar, cəng, cəqanə, rud, rübab, ney və s. alətlər bu gün də qorunub saxlanılır və nümayiş etdirilir. Dövlət Musiqi Akademiyası bərpa emalatxanasının müdiri, sənətşünas Məcnun Kərimov qədim milli musiqi alətləri üzərində bərpa işləri aparmaqla yanaşı, həm də muzeydə musiqi alətləri ansamblını yaratmış və ona rəhbərlik edir.

Vaxtı ilə Azərbaycanda geniş yayılmış musiqi alətlərindən biri də simli, yaylı cəngdir. Arfa musiqi alətinə bənzəyən cəng haqlı olaraq arfanın əcdadı sayılır. Cəngin ilk vətəni qədim Misir hesab edilir.

Görkəmli alim, akademik Teymur Bünyadov "Əsrlərdən gələn səslər" əsərində yazır: "Şumerlərə məxsus Bisay məbədindən tapılan cəngin beş min il tarixi var. 1929-cu ildə Ur qazıntıları zamanı qiymətli daş-qaş içərisində 68 qadın skleti, əllərində cəng aşkar edilmişdir"[45]. Azərbaycan xalq musiqisi böyük inkişaf yolu keçmişdir. Azərbaycan xalq mahnıları, təsnif, diringə, rəqs havaları və sairə musiqi formalarının elmi təhlili göstərir ki, Azərbaycan xalqının musiqi incəsənəti çox mütənasib və ciddi sistemə əsaslanır[46].

---

[45] Bax: Bunyadov T. Əsrlərdən qələn səslər. Bakı, Gənclik, 1975. s 16.
[46] Bax. Hacıbəyov Ü. Azərbaycan xalq musiqisinin əsasları. B. 1945,Əsərləri II cild s. 18-24.



Böyük bəstəkar Ü. Hacıbəyov milli musiqi alətlərindən bəhs edərkən yazırdı ki, "Biz azərbaycanlılar özümüz Şərq əhlindən olduğumuza görə musiqi təhsili işində Şərq musiqisinə qarşı laqeyd qalsaq, öz mədəni vəzifəmizi kamalınca ifa etməmiş olarıq. Tar isə Şərq musiqi təhsilini genişləndirə bilən alətlərdən ən qiymətli, ən mühümdür"[47].

Yaxın və Orta Şərq ölkələrində tar musiqi alətlərinin tacı sayılır. Bu alətin bədii-texniki imkanları, xoş avazlı tembri, orijinal quruluşu, mürəkkəb mizrab üsulları onu dünyada mövcud olan əksər çalğı alətlərindən fərqləndirir.

Mötəbər tarixi sənədlərə əsaslanıb deyə bilərik ki, tar musiqi alətini miladın X əsrində Türküstan türklərindən Tərxanın oğlu Məhəmməd Çarco şəhərinin Fərab adlı bir kəndində düzəldib. Şərq musiqi alətlərinin şahı sayılan bu alət eyni zamanda ərəb, fars, əfqan, hind, ləzgi, özbək və Qafqazın bir çox xalqlarının istifadə etdiyi bir musiqi aləti kimi məşhurlaşıb.

XIX əsr Azərbaycanın ədəbi həyatında bir sıra görkəmli şəxsiyyətlərin meydana gəlməsi istər-istəməz mədəniyyət və incəsənətin, ədəbiyyatın da inkişafına öz təsirini göstəmişdi. O dövrdə Şuşada onlarca görkəmli musiqiçi və xanəndələr, şair və yazıçılar yaşamışlar.

Belə şəxsiyyətlərdən biri də tarzən Mirzə Sadıq Əsəd oğlu (Sadıqcan) idi (1846 - 1902). Əbəs yerə demirlər ki, "Sadıqcan Azərbaycan tarının atasıdır". Sadıqcana qədər tarı diz üstünə qoyub əyilərək çalırdılar. 1870 - 1875-ci illərdə qüdrətli sənətkar tar üzərində hərtərəfli rekonstruksiya aparır. Tarın quruluşunu dəyişir, artıq pərdələri atıb 17 pərdə saxlayır. 5 simli tara 6 sim də əlavə edir.Bir sözlə yeni tar - Azərbaycan tarını yaradır. Bu tar çox tez bir zamanda bütün Qafqaz və Orta Asiyada primitiv, zəif səsli İran tarını sıxışdırıb aradan çıxarır və Sadıqcanın tarını xalq "Sehrli tar", onu isə "tarın atası" adlandırır.

---

[47] Yenə orada.

Sadıqcan Şuşada Pərinaz oğlu kimi tanınmış Xarrat Qulunun məktəbində tütək, ney, kamança və ən nəhayət tarda çalmağı öyrənmişdir.

Güclü barmaqlara malik olan Sadıqcan qısa müddətdə özünün fitri istedad və qabiliyyəti nəticəsində nəinki bu sənətə yiyələnir, hətta məharətli tar çalması ilə öz müəllimlərini belə geridə qoyur. Sadıq tar çalanda ustadı Əli Əskər həsədlə "kaş mənim var-dövlətim Sadıqın, onun barmaqları isə mənim olaydı" deyər, şagirdi ilə fəxr edərdi. Gənc Sadıqın adı Azərbaycanın bir çox şəhərlərilə yanaşı, Gürcüstanda, İranda Hacı Hüsü, Məşədi İsi, Keştazlı Həşim, Mirzə Məhəmməd, Əbdülbaqi və Cabbar Qaryağdıoğlu kimi görkəmli xanəndələrlə birgə çəkilirdi.

Sadıqcan İran şahzadəsi Müzəffərəddinin toyunda elə bir məharət göstərmişdi ki, Nəsrəddin şah onu "Şiri-Xurşud" qızıl medalı ilə təltif etmişdi.

Məşhur tarzənlərdən Məşədi Zeynal, Mərdi Canıbəyov, Malıbəyli Həmid, Məşədi Cəmil Əmirov, Şirin Axundov, Qurban Primov Sadıqcan məktəbinin yetişdirmələridir.

Sadıqcan məktəbinin varisləri sırasında Bəhram Mansurov, Əhməd Bakıxanov, Əliağa Quliyev, Həbib Bayramov, Sərvər İbrahimov, Əhsən Dadaşov, Baba Salahov, Hacı Məmmədov, Əlikram Hüseynov, Ramiz Quliyev, Ağasəlim Abdullayev, Fikrət Manafov, Abutalib Hacıyev, Vamiq Məmmədəliyev, Zamiq Əliyev, Firuz Əliyev, Möhlət Müslümov, Həmid Vəkilov kimi istedadlı və tanınmış sənətkarlar az deyildir.

Musiqi insan oğluna zövq verən, onun qəlbini titrədən, ona sağlamlıq gətirən, tükənməz sevinc və sağlamlıq mənbəyidir. Bu, min illərlə davam edən prosesdir. Gələcək nəsillərdə bu prosesin davam etməsinə şübhə yoxdur. Yaşıl yarpaq suya möhtac olan kimi, insan da musiqiyə möhtacdır. Musiqi insanı mənəvi cəhətdən saflaşdıran sehrkar bir sənətdir.

Üzeyir Hacıbəyov çox qədim tarixi olan Azərbaycan musiqisi və ədəbiyyatı barədə böyük iftixar hissilə danışır və bu gözəl mənbədən istifadə etməyi, onun nəcib ənənələrindən



bəhrələnməyi sənətkar üçün müqəddəs borc sayırdı. O, yazırdı ki, Azərbaycan xalqının mədəniyyəti və incəsənəti olduqca qədim bir tarixə malikdir. Azərbaycan şerinin və musiqisinin dahi sənətkarları Nizami, Nəsimi, Füzuli, Səfiəddin Urməvi, Əbdülqədir Marağayi və başqaları bütün dünyada tanınmış məşhur şəxsiyyətlərdir. Onların fikrincə xalq əsrlər boyu incəsənətin gözəl ənənələrini yaratmış və yaşatmışdır.

Azərbaycanlılar lap qədim vaxtlardan musiqiyə qabil bir xalq kimi böyük şöhrət qazanmışlar.

Ü.Hacıbəyovun "Leyli və Məcnun" operasından (1908-ci il) başlamış, "Koroğlu"ya qədər hər hansı bir opera, mahnı və romansını dinlədikdə bu böyük bəstəkarın ölməz surəti gözlərimiz qarşısında canlanır.

Xalq musiqimizin əlvanlığı, gözəlliyi, melodikliyi məhz Ü.Hacıbəyovun yaradıcılığında özünün mükəmməl və hərtərəfli inikasını tapmışdır. Zəngin xalq musiqi xəzinəsinin incilərindən bacarıqla istifadə edən, zamanın estetik tələblərini nəzərə alan görkəmli bəstəkarımız Üzeyir Hacıbəyovun musiqisində dilbərlik, incəlik, büllurluq vardır. Bu musiqinin gözəlliyini sözlə ifadə etmək çətindir. Gərək bu musiqini təkrar-təkrar eşidəsən, onun nəcib hissləri ilə yaşayasan.

Yaxın və Orta Şərq musiqi mədəniyyətinin inkişafında görkəmli yer tutan, musiqi elminin baniləri sayılan Əbu Nəsr Məhəmməd Fərabi (865 - 950), Əbu Əli ibn Sina (980 - 1037), Səfiəddin Əbdülmömin ibn Yusif ibn Faxir əl-Ürməvi (1230 - 1294) və Əbdülqadir ibn Qeybi Əl Hafiz Əl-Marağı (1353 - 1435) xüsusi qeyd olunmalıdır.

Orta, Yaxın Şərqdə musiqi elminin banisi Əbu Nəsr Məhəmməd Fərabinin musiqi haqqında mülahizələri istər xüsusi traktatlarda (risalələrdə), istərsə də elmin başqa sahələrinə həsr olunmuş əsərlərdə öz əksini tapmışdır. Onun "Musiqi haqqında böyük kitabı" (Kitab-ül-musiqi-əl Kəbir), "Ritmlərin təsnifat kitabı" (Kitab-ül fi-ehca-ül-iqa), "Musiqi haqqında söz" (Kitab-ül musiqi), "Elmlərin təsnifi haqqında kitabı" (Kitab-ül-fi-ehca-ül-ülum) fundamental əsərlərdir.

Fərabinin elmi əsərlərində ilk dəfə olaraq muğam məsələlərinə də toxunulmuşdur. Muğamların X - XI əsrdə

nəzəri əsaslarının öyrənilməsində məhz bu elmi əsərlər yeganə mənbələrdir.

Fərabinin "Musiqi haqqında böyük kitab"ında irəli sürülən problemərin əhatəliyi, onların həll olunmasının dərinliyi baxımından öz dövründə həm Şərqdə, həm də Avropada misilsiz tədqiqat əsəri idi. Öz yaxın müasiri və davamçısı, böyük alim-filosof, məşhur həkim, musiqi nəzəriyyəçisi Əbu Əli İbn-Sinadan başlayaraq bütün Şərqdə musiqi haqqında elmi fikrin çoxşaxəli inkişafında Fərabi böyük şəxsiyyət olaraq qalmışdır. Fərabi "Kitab-ül-musiqi-əl-kəbir" çoxcildli məşhur əsərlərində musiqi elmini nəzəri və əməli hissələrə bölüb, melodiyanın daxili düzülüşünü hesablamışdır. Şərq musiqisinin ritmik əsasını dəlillərlə şərh etmişdir. Fərabinin elmi-fəlsəfi irsi Əbu Əli ibn-Sina, Bəhmənyar, Nizami, Siracəddin Urməvi, Nəsrəddin Tusi, İbn-Xəldun və başqaları üçün zəngin bilik xəzinəsi olmuşdur.

Öz dövrü baxımından Fərabiyə yaxın İbn-Sinadır. İbn Sina Buxara yaxınlığında Afşana kəndində anadan olmuşdur. Onun elmin müxtəlif sahələrinə (səhiyyə, riyaziyyat, fizika, astronomiya və s.) həsr olunmuş əsərləri ilə yanaşı, musiqidən bəns edən nəzəri araşdırmaları vardır. İbn Sinanın əsas musiqi əsəri-"Musiqi haqqında traktat"ı (Risalatün fi-elm-ül-musiqi) Fərabinin bilavasitə "Musiqi haqqında böyük kitab"ının təsiri altında yaradılmışdır.

Ü.Hacıbəyov musiqi sənətində 12 muğamın və 6 avazın yaranmasında Fərabi və İbn Sinanın, Əl-Kindin roluna yüksək qiymət verir.

O, "Azərbaycan xalq musiqisinin əsasları" kitabının "tarixi məlumat" hissəsində yazır ki, "bu musiqi mədəniyyəti sarayının tikilişində musiqi nəzəriyyəsini yaxşı bilən və hərtərəfli bilik sahibi olan Əbu Nəsr Fərabi, Avropada Avitsenna adı ilə məşhur olan alim, mütəfəkkir Əbu Əli Sina, Əl-Kindi və başqaları iştirak etmişlər. XIII-XV əsrlərdə musiqi-nəzəri fikrinin parlaq dövrü məhz böyük Azərbaycan alim və musiqiçiləri Səfiəddin Ürməvinin və Əbdülqadir Marağayinin adı ilə bağlıdır[48].

[48] Bax: Hacıbəyov Ü. Azərbaycan xalq musiqisinin əsasları. Bakı, 1985. s.358



Dahi bəstəkar Ü.Hacıbəyov Azərbaycan xalq musiqisi araşdırmalarına toxunarkən yazırdı ki, "Yaxın Şərq xalqları musiqisinin nəzəri və əməli inkişafı tarixində başlıca yeri dünyada məşhur olan iki nəfər Azərbaycan alimi, musiqişünası tutur; Səfiəddin Ürməvi (XIII əsr) və Əbdülqadir Marağayi (XIV əsr).Yaxın Şərq xalqlarının musiqi mədəniyyəti XIV əsrə doğru özünün yüksək səviyyəsinə çatmış və on iki sütunlu, altı bürclü bina (dəstgah) şəklində iftixarla ucalmış və onun zirvəsindən dünyanın bütün dörd tərəfi: Çindən və Orta Afrikadan Qafqaza qədər geniş bir mənzərə görünmüşdür.

Musiqi binasının möhkəm təməlini təşkil edən 12 sütun 12 əsas muğam və 6 bürc isə 6 avazatı təşkil edirdi"[49].

Səfiəddin Urməvi və Əbdülqadir Marağayinin musiqi-nəzəri irsi Orta və Yaxın Şərq xalqlarının musiqi nəzəriyyəsinin öyrənilməsində əhəmiyyətli rol oynamışdır.

Azərbaycanın musiqi sənətini dünyada tanıtdıran Səfiəddin Əbdül Mömin ibn -Yusif əl -Ürməvi (1230-1294) Şərqdə musiqi elminin parlaq nümayəndələrindən sayılır. Ürməvinin 15 fəsildən ibarət «Kitab əl-ədvar» (dövrlər kitabı) və 5 fəsildən ibarət «Risaleyi Şərəfiyyə» ensiklopedik əsərləri xüsusilə diqqətə layiqdir. O, orta əsr musiqi elmində ilk dəfə musiqi səslərinin kağız üzərində təcəssümündə tabulatur (hərfi-rəqəmli) sistemdən istifadə edərək öz dövrünün musiqi nümunələrini qeydə almaq istəmişdi. Ürməvi əsərlərində ilk dəfə olaraq «On iki muğamı» sistemləşdirmiş, onun növlərini avazlara, hissələrə, şöbələrə ayırmışdır.

1258-ci ildə monqolların hücumu dövründə Səfiəddin Ürməvinin musiqi istedadına valeh olan Elxani hökmdarı Hülakü xan himayədarlıq göstərmişdir. Ürməvi Elxani hökmdarının sarayında vəzir Şəmsəddin Cuveyninin oğulları Bəhaəddin və Şərəfəddinə dərs demiş, özünün «Risaleyi Şərəfiyyə» əsərini şagirdi Şərəfəddin Haruna ithaf etmişdir. Əsərdə musiqi nəzəriyyəsinin şərhi verilmişdir. Ürməvinin

[49] Yenə orada, s. 324.

risalələrindən «Şərəfiyyə» və «Kitab əl-ədvar» fransız dilinə tərcümə olunmuş onun musiqi görüşlərindən fransız şərqşünası Karradevo fransız dilində böyük məqalə yazmışdır.

İngilis musiqişünas alimi Henri Corc Farmer yazırdı ki, «Kitab əl-ədvar» və «Risaleyi-Şərəfiyyə» əsərləri mütaliə nəticəsində aydın oldu ki Əl-Fərabidən sonra musiqi sənətinin üsul qaydalarını tədqiq edən ən böyük alim Səfiəddin Ürməvidir.

On beş fəsildən ibarət olan «Kitab əl-ədvar» əsərində oxucu doqquzuncu fəsildə muğamlarla tanış olur. Bu fəsildə qeyd olunur ki, «Musiqi sənəti ilə məşğül olan hər kəs «Şüdud» adlanan dövrlərlə rastlaşır. Bu dövrlərin hər biri özlüyündə xüsusi bir təməl üzərində dayanan bina timsalında dəstgahdır. Bunların sayı 12-dir. Üşşaq, Nəva, Əbu Salik (ona «Busəlik» də deyirlər), Rast, İraq, İsfahan, Zirəfkənd, Buzürk, Zəngulə, Rəhavi, Hüseyn, Hicaz».

«Kitab əl-ədvarin» əsərində eyni zamanda musiqi şöbələrindən də geniş şəkildə bəhs olunur. Ürməvi öz elmi əsərlərində musiqinin fiziki, akustik, bədii təsir qüvvəsini, melodiya,ritm məsələlərini şərh etməklə yanaşı, muğamın qayda-qanunlarını, ladların səs sıralarını da təyin etmişdir[50].

Səfiəddin Ürməvinin əsərləri Şərq və Qərb alimlərinin diqqətini cəlb etmiş, Qütbəddin Şirazi (XIII əsr), Əbdülqadir Marağayi (XIV əsr), Məhəmməd Əl Cürcani (XIV əsr), Əbdürrəhman Cami (XV əsr) onun əsərlərinə şərhlər yazmışdır.

Onun «Kitab əl-ədvar» əsəri türk musiqiçisi Şükrulla Əhməd oğlu (XV əsr) tərəfindən türk dilinə tərcümə olunmuşdur. «Kitab əl-ədvarın» əlyazma nüsxələri Sankt-Peterburq Universitetinin şərq fakultəsi kitabxanasında, Britaniya muzeyi (London), Bodli kitabxanasında (Oksford), İstambul, Nyu-York və başqa yerlərdə saxlanılır. Azərbaycan Milli EA-nın Memarlıq və İncəsənət İnstitutunun kitabxanasında əsərin foto süräti vardır.

[50] Bax: Zöhrabov R. Muğam, B. 1991, s. 30-35.



XIV əsrin ikinci yarısında və XV əsrdə Azərbaycanda bir sıra görkəmli musiqiçilər yetişmişdir. Onlar xalqın şifahi ənənəyə əsaslanan irsinə daxil olmuş bir sıra muğamlar,təsniflər bəstələmiş və nəzəri tədqiqat əsərləri yaratmışlar.

Bu mühüm işdə daha böyük müvəffəqiyyət qazanan XIV -XV əsrlərin böyük musiqi nəzəriyyəçisi Xacə Əbdülqadir İbn-Qeybi Əlhafiz Əl- Marağayi (1353-1434) idi.

O, Azərbaycanın mədəniyyət mərkəzlərindən olan Marağa şəhərində anadan olmuşdur.

Əbdülqadir Marağayi hələ Cəlairi hökmdarı Şeyx Üveysin dövründə (1356-1374) saray məclislərində çıxış etmiş, musiqiçi, xanəndə və bəstəkar-alim kimi şöhrət qazanmışdır.

Came-Ül-Əlhan («Melodiyalar külliyyatı») «Məqasid-Ül-Əlhan» («Melodiyaların məqsədləri») «Şərh-Ül-ədvar» (Urməvinin «Kitab Əl-Ədvar» əsərinə şərh) və «Kənz Ül-əlhan» («Melodiyalar xəzinəsi») risalələrini yazmışdır.

Bir sıra musiqi alətlərində (ud, ney və s.) gözəl çalğıçı və bəzi musiqi əsərlərinin müəllifi kimi tanınan Əbdulqadir Marağayi Şərq ölkələrinin, o cümlədən Azərbaycanın musiqi sənəti nailiyyətlərini ümumiləşdirmişdir.

Bununla da, o, Yaxın və Orta Şərqdə tarixi-nəzəri, fəlsəfi-estetik fikrin gələcək inkişafına zəmin yaratmışdır.

Əbdülqadir Marağayi Teymurləngin vaxtında həyatının çox hissəsini Səmərqənddə keçirmişdir. Onun Səmərqənddə yazılmış traktatları (risalələri) «Məqasid-ül-əlhan» (1413), «Came-ül-əlhan» (1418) bir çox Şərq xalqlarının musiqi mədəniyyətində mühüm yer tutur.

Əbdülqadiri hər şeydən əvvəl, musiqi əsərlərinin inkişaf və quruluş qanunlarını açmaq maraqlandırırdı. Onun ilk araşdırmalarında muğam problemi ön plana çəkilirdi. Onun ən böyük elmi əsəri «Came Ül-Əlhən»-oğlu Nurəddin Əbdurrəhman üçün yazılmışdır. «Fəraidi-əşərə» («On fayda»), «Ləhniyyə» («Melodiya haqqında») «Kənz ül əlhan» («Mahnı xəzinəsi») və «Zübdət ül-ədvar fi şərhi risalətil-ədvar» («Mahnılar risaləsinin izahında seçmə nəğmələr») Əbdülqadirin əsərlərindəndir.

XIV əsrdə musiqi sənətinin inkişafı ilə əlaqədar yeni lad-məqam quruluşları da püxtələşir. Bunlar 12 muğamdan yaranmış 24 şöbədir. Əbdülqadir Marağayi öz əsərlərində 24 şöbə sistemini təfsilatı ilə şərh etmişdir .

Əbdülqadir Marağayi traktatlarının birində yazır ki, ümumiyyətlə, 12 muğam məlumdur ki, «onları ərəblər «dairə» və ya «şudud», əcəmilər (yəni ərəb olmayanlar) isə «Muğam» və ya «pərdə» adlandırırlar. Bunların hər birinin öz elmi adı var: «Üşşaq», «Nəva», «Busəlik», «Rast», «Hüseyni» və s. Göründüyü kimi, buradaki adlar lada (muğama) daha çox aiddir.

Əbdülqadir Marağayinin bəzi əsərlərinin əlyazmaları İstambul (Nuri Osmaniyyə kitabxanası) və Oksford kitabxanalarında saxlanılır.

XVI-XVII əsrlərdə Orta Asiya alimlərindən Nəcməddin Kavkabini, Dərviş Əli və azərbaycanlı Mirzəbəyin traktatlarında (risalələrində) muğamlar haqqında maraqlı məlumatlar verilmişdir. Məsələn, Həmədan yaxınlığındakı Dərçəzinə qəsəbəsinin sakini Mirzəbəy maraqlı bir «Risaleyi-musiqi» əsəri yazmışdır. Dərviş Əlinin «Risaleyi-musiqi» əsəri ilə Mirzəbəyin «Risaleyi-musiqi» əsərində bir-birinə oxşarlıq çoxdur. 10-12 fəsildən ibarət olan traktatda muğam şöbələrinin adları və sayları Dərviş Əlinin traktatındakı adlara və saylara bərabərdir. Mirzəbəy əsərində bizə məlum olan «Novruz», «Şahnaz», «Mayə», «Gərdəniyyə» avazları ilə yanaşı bir neçə avazın, o cümlədən «Bədəl», «Həsrək» və «Hasar»ın da adını çəkir. Yəqin ki,o dövr üçün avazların sayı və adı dəyişikliyə uğramışdır[51].

Şifahi-professional musiqinin əsas janrı olan muğamların öyrənilməsi yeni dövr XIX əsrin ikinci yarısına təsadüf edir.

Əbədi-bədii fəaliyyəti ilə diqqəti cəlb edən tanınmış içtimai xadim, şair, rəssam, nəqqaş və xəttat Mir Möhsün Nəvvab (1833-1918) bu dövrdə yaşamış və yaratmışdır. M.M.Nəvvab ilk təhsilini Şuşada almış və bütün ömrünü orada keçirmişdır. O, Şuşada təşkil olunmuş «Məclisi-Fəramuşan» və ya «Məclisi-xamuşan» şer-musiqi məclisinə

[51] Bax: Zöhrabov R. Muğam, Bakı, 1991, s. 38 - 41.



başçılıq etmişdir. Biz muğam haqqında məlumatlara Nəvvabın «Vüzuhil-ərqam» (rəqəmlərin aydınlaşdırılması) əsərində rast gəlirik. Bundan əlavə Nəvvabın astronomiya elmindən bəhs edən «Kifayətül-ətfal», 100-ə qədər Qarabağ şairlərindən bəhs edən «Təşkireyi-Nəvvab», 500 nəsihətdən ibarət «Nəsihətnamə» kitabları da məlumdur. Nəvvabın şer-musiqi məclisində Mirzə Sadıq Əsəd oğlu (Sadıqcan), Məşədi Cəmil, İslam Abdullayev, Cabbar Qaryağdıoğlu, Seyid Şuşinski və başqaları iştirak etmişdir.

M.M.Nəvvabın «Vüzuhul-Ərqam» əsərində musiqi islahatları, muğam məsələləri, onların mənşəyi, musiqi alətləri, ifaçılıq xüsusiyyətləri şərh edilir. Bu əsərdə müəllif öz dövründə məlum olan müxtəlif dəstgahların quruluşunun təsvirinə əsaslanaraq Azərbaycan muğamlarının nəzəriyyəsi haqqında məlumat vermiş, muğamla əlaqədar xüsusi dəstgahlar cədvəli yaratmışdır.

Onu da qeyd edək ki, XIX əsrin ikinci yarısında Qarabağda «Məclisi-fəramuşan»dan başqa «Məclisi-üns», Şamaxıda «Beytüs-Səfa», Bakıda «Məcməüş-şüəra» adlı şer-musiqi məclisləri fəaliyyət göstərirdi. Bu kimi məclislərdə klassiklərin əsərləri oxunur, şer, musiqi, muğam-ifaçılıq, fəlsəfə və s. məsələlər barədə faydalı söhbətlər aparılırdı. Məsələn, «Məclisi-üns» (ərəbcə ülfət, uyuşma) 1864-cü ildə Şuşada şair H.A.Agahın evində təşkil olunmuş, sonralar Xurşudbanu Natəvanın rəhbərliyi ilə 1897-ci ilədək fəaliyyət göstərmişdir. X.Natəvan, M.R.Fəna, M.Ə.Növrəs, A.H.Yüz-başov, M.Məmai və başqaları məclisin nüfuzlu üzvləri idilər.

«Məcməüş-şüərə» (ərəbcə şairlər yığıncağı) ədəbi məclisi 1880-ci ildə Bakıda təşkil edilmişdir. Əvvəllər şairlərdən M.Cürminin, sonralar isə A.Süreyyanın başçılığı ilə təxminən 1915-ci ilədək fəaliyyət göstərmişdir. İ.Zülali, M.Dilxun, Ə.Cənnəti, Ə.Yusif, M.Müsəvvir, A.K.Salik, M.Azər və başqaları məclisin fəal üzvlərindən idilər. Məclisdə qonaq sifəti ilə Seyid Əzim Şirvani də iştirak edərdi.

Bakıda mərhum tarzən Bəhram Mansurovun babası Məşədi Məlik Mansurov (1833-1909) dövrünün açıq fikirli

ziyalısı, bilikli musiqişünas və mahir çalğıçı kimi evində ədəbi məclis yaratmışdı.

Məşədi Məlik son dərəcə qonaqpərvər olduğundan Qarabağdan, Şirvandan, eləcə də İrandan Bakıya gələn musiqiçilər aylarla onun mənzilində qalırdılar. Vaxtı ilə Hacı Hüsü, Əbdülbaği (Bülbül-can), Məşədi Zeynal, Sadıqcan kimi məşhur xanəndə və musiqiçilər Məşədi Məlikin ən yaxın dostları idi.

Şərqin görkəmli xanəndələrindən Ala Palaz oğlu, Molla Rza da dəfələrlə onun qonağı olmuşdur. Burada hər bir muğam ayrıca müzakirə olunur, onların düzgün oxunmasına diqqət yetirilərdi. Bəzən muğamı bir neçə xanəndə ifa edərdi. Bakı məclisində Səyid Mirbabayev, Ağa Kərim Salik, Ağa Səid oğlu Ağabala, Əli Zühab, Mirzə Fərəc, Bəylər, Baladadaş və başqaları öz musiqi savadlarını təkmilləşdirmişlər.

Bu dövrdə Şamaxıda fəaliyyət göstərən «Mahmud ağa məclisi» Şərqdə və Avropada geniş şöhrət qazanmışdı. Mahmud ağa Əhməd ağa oğlu (1826-1896) səxavətli, genişürəkli, musiqiyə, şerə, sənətə vurğun insan kimi tanınmışdı. O, Şamaxıda çoxlu xeyriyyə işləri görüb, məktəb açıb, körpülər saldırıb, bulaqlar çəkdirib, el üçün dəyirman qurub, şairlərə, xanəndələrə arxa olmuşdur.

«Mahmud ağa məclisi»ndə musiqi istedadı olan gənclərə muğam dərsi öyrədilir, Qafqazda, İranda, Türkiyədə səsi, sorağı eşidilən xanəndələrin yarışı keçirilərdi. Mahmud ağa səriştəli musiqiçi, xüsusilə muğam bilicisi idi. Çox təəssüf ki, onun musiqi haqqında yazıları itib batmış, bizə çatmamışdır.

Mahmud ağa 1902-ci il Şamaxı zəlzələsinə qədər Azərbaycanın ən böyük və zəngin ticarət mərkəzi sayılan Şamaxıda, həmçinin Şərqdə həm musiqi məclislərinin təşkilatçısı kimi, həm də ki, xeyriyyəçi fəaliyyəti ilə tanınmışdı. Azərbaycana gələn bütün səyyahlar onun görüşünə gəlirdilər. Məşhur səyyah, böyük yazıçı Aleksandr Düma, Peterburq Rəssamlıq Akademiyasının prezidenti, rəssam - knyaz Q.Qaqarin, rus etnoqrafı və səyyahı İ.Yevlaxov və başqaları Mahmud ağanın musiqi-şer məclislərində iştirak etmişlər.



A.Dümanın yazdığına görə onun evi memarlıq zənginliyinə görə misilsiz imiş.

Mahmud ağanın Şamaxıda təkcə musiqinin, ədəbiyyatın deyil, həm də XIX əsr memarlığının, incəsənətinin və xeyriyyəçiliyinin inkişafında böyük xidmətləri olmuşdur.

XIX- XX əsrin məşhur muğam ustaları Səttar, Sadıqcan, Bülbülcan, Hacı Hüsü, Məşədi İsi, Cabbar Qaryağdıoğlu, Qurban Pirimov, Seyid Şuşinski, şamaxılı Mirzə Məhəmməd Həsən, Topal Mehdiqulu, Humay və başqaları Mahmud ağanın musiqi bulağından su içmişlər. Burada Nisə, Sona, Rəna, Səkinə və Mələk kimi rəqqasələr yetişib kamillik səviyyəsinə çatmışlar.

«Mahmud ağa» məqaləsinin və 1989-cu ilin dekabrında Azərbaycan Dövlət Milli Dram Teatrında keçirilən «Muğamla yoğrulan ömür-Mahmud ağa» xeyriyyə gecəsinin ssenari müəllifi İskəndər Etibar çox haqlı olaraq ürək yanğısı ilə yazır ki, musiqi tariximizi, o cümlədən şahlığın 500 ildən çox meydan oxuduğu Şirvan şənliklərini kimlər, hansı muğam, hansı nəğmələr bəzəmişdir? Əcdadlarımızın ruhunu hansı musiqi növü, hansı müğənnilər, musiqi alətləri oxşamışdır? Böyük musiqi xadimlərimiz Səfiyəddin Urməvi, Əbdülqadir Marağalı, Mir Möhsün Nəvvab haqda geniş xalq kütləsi nə bilir? Şirvan musiqi tarixində bir qrup ziyalının adını eşitdiyi XII əsr musiqişünası Məhəmməd İbn-Əbu-Bəkr Şirvani haqda, XVIII əsrdə, yəni Mustafa xan dövründə Şərqin muğam «allahı» sayılan Həsəncan, sonrakı illərin musiqiçiləri Hacı Nəcəf bəy Şirvani və onlarca belə adamları xalqımızın sənət fədaisi kimi nə vaxt tanıdacaq və özümüzə güclü mənəvi dayaq nöqtəsi edəcəyik?

Mahmud ağa musiqi tariximizdə görkəmli bir musiqişünas kimi xüsusi yer tutur. O, özü pəsdən oxuyur, həm də şirin tar çalırdı. Mahmud ağa ömrünün bir gününü də musiqisiz keçirməzdi. Mahmud ağa Şamaxıda «Beytüs Səfa» adlı ədəbi məclisə maddi yardım göstərmişdi.

Şair Seyid Əzim Şirvani şerlərində Şamaxı bəylərini həcv etmiş, lakin Mahmud ağanı tərifləmişdi.

Qədim, ulu, müdrik Şirvanın həyatında muğam nə qədər rol oynamışsa, muğamın inkişafında və təkmilləşməsində də Şirvan və Şirvan musiqisevərlərinin öz xidmətləri və payı vardır. Şirvan xanəndələri bu gün də Mahmud ağa ruhunu yaşadır. Mahmud ağa işığına Şərqin və Avropanın bir çox səyyahları, o cümlədən Fransanın böyük oğlu Aleksandr Düma, rəssam Knyaz Qaqarin, dünya şöhrətli rəssam Vasili Vereşagin gəlmişlər. Bu səfərlər o zamanlar işıqlı tarixə çevrilib kitablara köçmüş, rəsm əsərlərinə çevrilib dünya muzeylərini və kitabxanalarını bəzəyir.

Təsadüfi deyil ki, Ü.Hacıbəyov Azərbaycan musiqisinin təməlini muğam sisteminə bağlayır və bu təməlin böyük imkanlarına yüksək qiymət verərək yazırdı:

«Hazırda Azərbaycan musiqisi çoxlu şöbə və güşələri ilə birlikdə aşağıdakı müstəqil köklərə malikdir: Rast, Segah, Şur, Çahargah, Şüştər, Zabul, Şahnaz, Bayatı-Şiraz və Humayun. Bütün Azərbaycan türk xalq musiqisi ancaq bu göstərilən köklərə əsaslanır»[52].

Görkəmli bəstəkar F.Əmirov muğam ifaçılıq mədəniyyətindən bəhs edərək göstərirdi ki, muğamlar bütünlükdə və ayrı-ayrılıqda hər biri poetik obraz, təsəvvür və fəlsəfi ideyalar aləmini əks etdirir. Lap qədim zamanlardan başlayaraq muğamlar Şərqin böyük söz ustalarının poeziyası ilə möhkəm şəkildə bağlı olmuşdur. Muğamlarda oxunan mətnlərdə Nizami, Nəsimi, Füzuli, Xaqani və başqa görkəmli Azərbaycan şairlərinin əsərlərindən istifadə edilmişdir.

Məsələn, böyük Füzulinin 500 illik yubileyi ərəfəsində tez-tez bu sözlər səslənirdi.

«Şərqin, eləcə də bəşəriyyətin böyük söz ustadı Füzuli yubiley şairi deyildir. Füzuli 500 ilin də, 1000 ilin də, 1500 ilin də şairi kimi anıla bilər. Bizim üçün Füzuli hər günkü yaşayışımız, zövqümüz, ibadətimiz, bayatı-şirazımız və ən əziz doğmamızdır».

Füzuli bizə aydın, agah olan sairdir, sehrdir, dirilik və oyanışdır.

[52] Zöhrabov R. Əsərləri, II cild. Bakı 1991 s.324



*"Dəhrdən kam almaq olmaz*
*olmadan kiryan,*
*Sədəf su almayınca*
*Əbri-neysandan guhər verməz"* –

deyərək insanları bu təlatümlü zəmanənin burulğanlarından, məkr və şərdən hifz edən ümid, təsəlli, iman və güvənc yeri adlanmışdır. Bizim üçün Füzuli məqsəddir. Yəni sufi təriqətlərində Vücudi-mütləqə qovuşmaq, yaradana yetməkdən ötrü dini ayinlər icra edilirdisə, bizim inamımıza görə Füzuli ilə həmdərd olmaq, onunla həmsöhbət olmaq şərəfinə çatmaq, Füzuli kəlamından zövq almaq taleyimizə yazılmış ən müqəddəs an, mənəvi-ruhi vəcd, allahın lütfkərimidir.

Bu gün «Bayatı-şiraz» muğamı məhz Füzulinin «Pənbeyi-dağı cünun»unda qərarlaşıb:

*Pənbeyi-dağı cünun içrə nihandır bədənim,*
*Diri olduqca, libasım-budur, ölsəm kəfənim.*

Füzuli sözün əsl ustadı idi. Ona görə insan və onun şəxsiyyəti hər bir şeydən uca olmalı və mənəvi dəyərlərə əsaslanmalıdır.

Füzuli yazdığına, təlqin etdiyinə ilk növbədə özü inanıb, iman gətirib.

*Can sözdür, əgər bilirsə, insan,*
*Sözdür ki, deyirlər özgədir can.*

Füzulini oxumaq hər kəsdən böyük məsuliyyət tələb edir. Müğənni, qiraətçi, ifaçı bilməlidir ki, söhbət Füzulidən gedirsə, deməli, həmin anda istər tamaşaçı olsun,istərsə də dinləyici, hər şeyi unudub diqqət kəsilir ki, görsün, şairin gül ətirli qəzəli necə təqdim olunur:

*"Məni candan usandırdı,*
*cəfadan yar usanmazmı?*
*Şəbi hicran yanar canım,*
*tökər qan çeşmi giryanım,*

*Oyadar xəlqi əfqanım,*
*Qara bəxtim oyanmazmı?*

Bu şer-qəzəl məzmun və sənətkarlıq baxımından ən kamil beyt tək şah beyt adlanır.

Yüksək melodiyaya malik Azərbaycan klassik muğamları musiqi tarixinə şöhrət gətirən gözəl söz ustaları və sənətkarları ilə həmişə sıx əlaqədə inkişaf etmişdir.

Yüksək bədii təsir gücünə malik olan Azərbaycan muğamları, muğam dəstgahları demək olar ki, bütün dünya xalqları üçün anlaşıqlıdır.

Azərbaycan muğamlarını musiqi dünyasının həqiqəti adlandırırlar. Min illərdir ki, bu həqiqətlə yaşayırıq, fəqət, onun mahiyyəti bizə tam aydındırmı? Yox, tam aydın olsaydı, əsrlər boyu nəsillər ondan «doyar», bezikərdi. Bu mürəkkəblikdəndir ki, muğam bizim mənəvi sitayiş yerimiz olmuşdur. Sitayişdə isə bir sirr var ki, bizi və onu sevənləri sehrində saxlayır.

Təsadüfi deyil ki, şair və dramaturq Bəxtiyar Vahabzadə «Şəbi-hicran» poemasında xalq musiqisinin, xalq yaradıcılığının qaynaqlarından, muğamın insana təsirindən bəhs edərkən yazır:

*Muğam bir xəzinədir, açarıdır duyğular,*
*Muğamda sevinc də var, muğamda kədər də var,*
*Muğam mənim xalqımın misilsiz kamalıdır,*
*Tarixidir, eşqidir, arzusu, amalıdır.*

*Tar səsinə qulaq as...*
*Bu səs elin nəfəsi.*
*Bu səs gözlərdən axan*
*Yaşların damcı səsi.*
*Bu səs sükuta dalmış*
*Göyü də dilləndirir.*
*Ulduzlar da bu səsin*
*Önündə baş endirir.*



Musiqi mədəniyyətimizin inkişafında klassik xanəndələrimizin böyük xidmətləri olmuşdur.Öz məlahətli gözəl səsləri və sənətkarlıq bacarıqları ilə Qafqazda, Yaxın və Orta Şərqdə məşhur olan Hacı Hüsü, Məşədi İsi, Səttar, Əbülhəsən xan İqbal, Keştazlı Həşim, Ala Palaz oğlu, Molla Rza, Əbdülbaqi Zülalov, Cabbar Qaryağdıoğlu, Şahnaz Abbas, Keçəçi oğlu Məhəmməd, şəkili Ələsgər, Mirzə Məhəmmədhəsən, Malıbəyli Həmid, Zabul Qasım, Seygah İslam, Məşədi Məmməd Fərzəliyev, Bülbül, Seyid Şuşinski, Zülfü Adıgözəlov, Xan Şuşinski, kimi məşhur xanəndələr böyük bir məktəb yaratmışlar.

Sonrakı dövrlərdə isə bu məktəbin yüzlərlə istedadlı varisləri klassik xanəndələrimizin yolunu davam etdirmişlər. Şövkət Ələkbərova, Sara Qədimova, Hacıbaba Hüseynov, Əbülfət Əliyev, Ağabala Abdullayev, Yavər Kələntərli, Fatma Mehrəliyeva, Tükəzban İsmayılova, Mürşüd Məmmədov bu qəbildəndir.

XX yüzilliyin sonları, XXI yüzilliyin əvvəllərində bu məktəbin böyük bir dəstəsi, o cümlədən Qəndab Quliyeva, Səkinə İsmayılova, Mələkxanım Əyyubova, Baba Mahmudoğlu, Teymur Mustafayev, Ağababa Novruzov, Qulu Əsgərov, Əlibaba Məmmədov, Mənsum İbrahimov, Könül Xasıyeva, Nəzakət Teymurova, Aygün Bayramova və s. öz məlahətli səsləri ilə rəğbət qazanmışlar.

Mərhum Rəşid Behbudov, müasir müğənnilərimizdən Müslüm Maqomayev, Fidan və Xuraman Qasımova bacıları vokal sənəti sahəsində dünyada tanınmışlar.

Azərbaycan xalq musiqisində Rast, Şur, Zabul, Segah, Cahargah, Bayatı-şiraz, Bayatı-kürd, Sarənc, Kürd-şahnaz, Şüştər, Humayun, Dügah, Rəhab, Dilkəş tək yüksək bədii keyfiyyətlərə malik dəstgahlar mövcuddur. Təsadüfi deyildir ki, Azərbaycanda qonaq olan YUNESKO-nun ümumdunya folklor musiqi şöbəsinin baş direktoru Jan Düring Azərbaycan muğamları, xalq musiqisi və aşıq yaradıcılığı haqqında öz fikirlərini belə izah etmişdir: «Azərbaycanda musiqi həyatı son dərəcə zəngindir. Burada çoxlu musiqi və not ədəbiyyatı, qrammafon valı buraxılır. Bütün bunlar sübut

edir ki, musiqi xalqın həyatında mühüm yer tutur. Diqqətəlayiq cəhətdir ki, folklora, ənənəvi klassik musiqiyə qayğı ilə yanaşılır. Azərbaycanda musiqi demokratikdir. Bütün mədəni dünyanın nailiyyətinə çevrilmiş Azərbaycan musiqi xəzinəsi ilə bir daha təmasda ola bildiyimə şadam»[53].

Muğam sənəti təkcə Azərbaycanın deyil, həmçinin Şərqin digər xalqlarının, məsələn, türklərin, iranlıların, ərəblərin, hindlilərin musiqi mədəniyyətində də müstəsna rol oynamışdır.

Azərbaycanda musiqi mədəniyyəti XX əsrin 20-ci illərində yeni inkişaf mərhələsinə qədəm qoydu. Yuxarıda qeyd olunduğu kimi, bu illərdə Azərbaycan milli musiqi və opera sənətinin banisi Üzeyir Hacıbəyov və istedadlı bəstəkar Müslüm Maqomayevin xidmətləri qeyd edilməlidir.

1921-ci ildə Azərbaycan Dövlət Konservatoriyası (indiki Musiqi Akademiyası) yaradıldı.

XX əsrin 30-40-cı illərində Azərbaycan musiqisində yeni janrlar: mahnı, romans, simfoniya, kantata, rabsodiya, kamera-instrumental əsərlər meydana gəldi.

1934-cü ildə Azərbaycan Bəstəkarlar İttifaqı yaradıldı. 1936-cı ildə Azərbaycan Dövlət Filarmoniyası fəaliyyətə başladı. Musiqi məktəbinin yetişdirmələri-Niyazinin, Səid Rüstəmovun, Qara Qarayevin, Cahangir Cahangirovun, Tofiq Quliyevin mahnı və musiqiləri eşidilməyə başladı. XX əsrin 30-cu illərində «Koroğlu» və «Nərgiz» operaları milli opera sənətinin inkişafında yeni mərhələ oldu.

1938-ci ildə Moskvada Azərbaycan dekadası (10-günlüyü) keçirildi.

Musiqi mədəniyyəti və ifaçılıq sənətinin inkişafında xidmətlərinə görə Üzeyir Hacıbəyova, Şövkət xanım Məmmədovaya və Bülbülə «SSRİ xalq artisti» adı verildi.

II Dünya müharibəsi illərində 400-dən çox milli vətənpərvərlik ruhunda musiqi əsərləri meydana gəldi. Qara Qarayev, Cövdət Hacıyev, Soltan Hacıbəyov, Niyazi, Fikrət Əmirov və başqaları tərəfindən 25-dən çox simfonik əsər yaradıldı. Kütləvi mahnı sahəsində Ü.Hacıbəyov,

[53] Bax: Xalq qazeti, 1987, 17 oktyabr



S.Rüstəmov, A.Rzayeva, S.Ələsgərov, Ş.Axundova və başqa bəstəkarlarımızın fəaliyyəti xüsusi qeyd olunmalıdır.

Ü.Hacıbəyovun bəstələdiyi "Sənsiz" və «Sevgili canan» romansları vokal lirikasının ən gözəl nümunələri idi.

Ü.Hacıbəyovun 1945-ci ildə çap edilmiş «Azərbaycan xalq musiqisinin əsasları» adlı elmi-nəzəri əsəri rəğbətlə qarşılandı. Fikrət Əmirovun Dövlət mükafatına layiq görülmüş «Şur», «Kürd-ovşarı» əsərləri, Cövdət Hacıyevin «Üçüncü simfoniya», Cahangir Cahangirovun Dövlət mükafatına layiq görülmüş «Arazın o tayında» vokal-simfonik poeması, Süleyman Ələsgərovun «Bayatı-Şiraz» muğamı, Əşrəf Abbasovun «Gələcək gün» poeması müharibədən sonrakı illərin töhfələridir.

Bu illərdə Azərbaycan bəstəkarları opera və balet yaradıcılığı sahəsində müvəffəqiyyətlər əldə etmişlər.

Dövlət mükafatına layiq görülmüş Soltan Hacıbəyovun «Gülşən», Qara Qarayevin «Yeddi gözəl», Əfrasiyab Bədəlbəylinin «Qız qalası», «Nizami», Fikrət Əmirovun «Sevil», daha sonralar «Min bir gecə» baleti, «Gözün aydın» komediyası, Səid Rüstəmovun «Durna», Süleyman Ələsgərovun «Ulduz» operettaları, Niyazinin «Rast» simfonik muğamı yaradıldı.

Yeri gəlmişkən, qeyd edək ki, Azərbaycan bəstəkarlarının ölkəmizdə və xaricdə qastrol səfərləri baxımından bəstəkar, maestro Niyazinin fəaliyyəti daha önəmli olmuşdur. Coşqunluq, səmimilik, emosionallıq Niyazi sənətkarlığına xas olan keyfiyyətlərdir. Niyazinin ifaçılıq düşüncələri öz böyük daxili inamı ilə şöhrət qazanmışdır. Klassik və simfonik musiqinin fəal təbliğatçısı kimi onun Moskvadakı, digər şəhərlərdəki konsertləri rəğbətlə qarşılanırdı. Ona 1946-cı ildə Gənc dirijorların baxışı laureatı adı verilmişdi.

1951-ci ildə maestro Niyazi «Praqa baharı» festivalının iştirakçısı olmuşdur. Azərbaycan dirijorunun çıxışı Çexoslovakiyanın musiqi ictimaiyyətini məftun etmişdi. O, ölkənin qızıl medalı ilə mükafatlandırılmışdır. 1951-1952-ci illərdə konsert-ifaçılıq fəaliyyətinə görə Niyazi iki dəfə Dövlət

mükafatına layiq görülmüşdür. SSRİ xalq artisti Niyazi Türkiyədə Çaykovskinin «Yevgeni Onegin» və «Qaratoxmaq qadın» operalarım tamaşaya qoymuşdur.

Sonrakı illərdə Arif Məlikovun «Məhəbbət əfsanəsi», Qara Qarayevin «İldırımlı yollarla» baletləri göstərilmişdir.

Azərbaycan bəstəkarları kino sənəti ilə bağlı 50-dən çox bədii filmlərə musiqi bəstələmişlər. Milli musiqi sahəsində Azərbaycan mahnı yaradıcılığı özünəməxsus yer tutur. Gözəl muğam sənəti sərrafları ilə yanaşı, öz ifaçılıq bacarığı və məlahətli səsi ilə könülləri vəsf edən istedadlı müğənni dəstəsi yaranmışdır.

Onların içərisində Gulağa Məmmədov, Flora Kərimova, Anatollu Qəniyev, Yalçın Rzazadə, Yaşar Səfərov, Elmira Rəhimova, Oqtay Ağayev,Natəvan Şeyxova,Nisə Qasımova, Nəzakət Məmmədova, Yaqut Abdullayeva, Gülyaz və Gülyanaq Məmmədova bacıları, Brillyant Dadaşova, Aygün Kazımova, Ağadadaş Ağayev, Məmmədbağır Bağırzadə, Nazpəri Dostəliyeva və başqaları qeyd oluna bilər.

Bu gün Azərbaycan musiqi mədəniyyəti müasir dünya mədəniyyətinin bir hissəsini təşkil edir.

Bu gün Azərbaycan xalq musiqi yaradıcılığında musiqi janrlarının elmi-nəzəri tədqiqində, musiqi əsərlərinin öyrənilməsində tətbiq edilən not qrafik işarələrinin də tarixi qədimdir. Ən qədim not yazı nümunələri miladdan öncə X əsrə aiddir. Şumer şəhəri Uqaritdə aparılan qazıntılar zamanı tapılmış mixi yazılı gil lövhəcikdə 3 min il əvvəl bəstələnmiş qədim mahnının sözləri və melodiyası yazılmışdır.

Yaxın və Orta Şərq ölkələrində not yazı nümunələri VIII əsrdən məlumdur.Əbu Nəsr Fərabinin «Kitabi ül-musiqi Əl Kəbir» (X əsr) əsərində verilmiş cədvəldə diatonik qamma səslərinin ardıcıllığı ərəb əlifbası ilə göstərilmişdir.

XI əsrdə musiqi nəzəriyyəsinin görkəmli islahatçılarından İtaliya musiqiçisi Qvido Dairetsonun yaratdığı dörd xətli not yazısı sisteminə XIV əsrdə beşinci not xətti əlavə edilmişdir. Bu sistem XVI əsrin axırlarından Rusiyada və başqa ölkələrdə tətbiq edilməyə başlamışdır.



Mahnı, musiqi və muğamlarımızla yanaşı, Azərbaycan xalq yaradıcılığı zəminində pərvazlanan ilkin qaynaqlardan biri də xalqın məişətinə çox qədimdən daxil olan xalq rəqsləridir. Bu gün milli adət və ənənələrimizlə bağlı xalq oyunları və tamaşalarında milli musiqi alətləri və milli geyimlərdən məharətlə istifadə olunur. Əbəs yerə demirlər ki, mahnı, musiqi, oyunlar xalqın ürəyindən xəbər verir. Əsrlər boyu insanlar özlərinin ən müqəddəs arzularını, ümidlərini özünəməxsus şəkildə formalaşdırdıqları milli incəsənətdə, tərənnüm etmişlər.

Qədim zamanlardan bəri oyun və rəqslər saray və meydançalarda keçirilən xalq şənlikləri və mərasimlərinin ayrılmaz hissəsi olmuşdur.

Fəsilin əvvəlində qeyd etdiyimiz kimi, Qobustan və qədim Naxçıvanın Ordubad rayonu bölgəsindəki «Gəmiqaya» qayaüstü rəsmlərində daşa, qayaya hopmuş ov və hərb səhnələri ilə yanaşı Azərbaycanda geniş yayılmış «Yallı» rəqsinin nişanələrini də aydın görmək olur. Burada müasir Azərbaycan «Yallı» rəqsini xatırladan fərdi və qrup halında dini ayin rəqs mərasiminin əks etdirən süjetlər də maraq doğurur. Qədim «yallı» rəqsi ilə yanaşı, Respublikanın müxtəlif bölgələrində nisbətən keçmiş «Halay», «Mücəssəmə», «Hağışta», «Fincan-fincan», «Çəngi», «Teşti», «Uzun-dərə», «Mirzəyi», «Turacı», «Vağzalı», «Tərəkəmə», «Qaytağı», «Şalı-şalı» və s. kütləvi və habelə qrup, qoşa, solo rəqslər əsrlərdən bəri öz oyun tərzini, forma və məzmununu mühafizə edərək bizim dövrə qədər gəlib çatmışdır. Məsələn, bu günlər Naxçıvan Muxtar Respublikasında «Yallı» rəqsinin yüzdən çox müxtəlif növü aşkar edilmişdir. Masallı rayonunun Mahmudavar kəndində qızlardan ibarət «Halay» xalq rəqs kollektivinin otuzdan çox yaşı vardır.

Bu gün istər peşəkar xoreoqrafiya sahəsində, balet, opera tamaşalarında və istərsə də xalqımızın məişəti, adət və ənənələri ilə bağlı el şənliklərində Azərbaycan xalq yaradıcılığının bu növlü qaynağından da geniş istifadə olunur.

Bizcə, Ü.Hacıbəyovun «Koroğlu», M.Maqomayevin «Nərgiz» operalarında, Qara Qarayevin «Yeddi gözəl»,

F.Əmirovun «Min bir gecə», Soltan Hacıbəyovun «Gülşən» baletlərindəki xalq rəqsləri dediklərimizi təsdiqləyir.

Rəqs sənətinə, onun çox cəhətli çalarlarına, oyun tərzinin sirlərinə yiyələnməkdə Azərbaycan rəqqasları və balet ustalarının zəhməti az olmamışdır. Onların içərisində Leyla Vəkilova, Qəmər Almaszadə, Əminə Dilbazi, Afaq Məlikova, Rəfiqə Axundova, Maqsud Məmmədov, Nailə Mahmudova, Roza Cəlilova, Kamil Dadaşov, Xumar Zülfüqarova, Kamal Həsənov, Hüseynağa Hüseynov, Arif Huseynov, Ramiz Eynullayev, Əli Əşari kimi rəqqas və baletmeystrlərin adları şərəflə çəkilir.

Teatr ictimai fikrin məhsulu, həyatın bədii inikasıdır. Teatr incəsənətin qüdrətli, ecazkar, sinkretik növü kimi xalq yaradıcılığı qaynaqlarından sayılır.

Xalq teatrı elementləri hələ ibtidai icma quruluşu dövründən mövcuddur. Xalq yaradıcılığının bu qaynağı quldarlıq dövründə inkişaf edərək sonralar xalq dramlarının müxtəlif növlərinin əsasını təşkil etmişdir. Qədim tarixə malik «Sayaçı», «Novruz», «Kövsəç», «Kaftar-kosa», «Tapdıq çoban» və digər xalq tamaşalarında dramatik süjet, hərəkət «aktyor» oyunu mövcud idi. Xalq yaradıcılığının bu qaynağına meyl göstərən qədim oyun və teatr tamaşaları həmişə böyük maraqla qarşılanmışdır. Xalqın istək və arzularını, baxışlarını, bədbin və nikbin əhval-ruhiyyəsini, məhəbbətini, həyəcan və iztirablarını özündə təcəssüm etdirən «Qaravəllilər», «Məzhəkələr», bədahətçilik ənənələri əsasında yaradılmış «Kilimarası», «Maral oyunu», «Tapdıq çoban» «Hoqqa oyunu», «Kaftar-kosa» oyunlarında, kukla tamaşalarında realistik ənənələr bu gün də qorunub saxlanılır.

Bu günə qədər Azərbaycan xalq teatrı tarixinə dair bir sıra elmi-tədqiqat işləri, monoqrafiya və dərsliklər keçən əsrlərlə bu gün arasında canlı rabitə yaradır. Məmməd Arifin «Azərbaycan xalq teatrı» məqaləsi, Əli Sultanlının «Azərbaycan dramaturgiyasının inkişaf tarixindən» kitabı, Yaşar Qarayevin «Faciə və Qəhrəman», Mirəli Seyidovun «Varsaq», «Oyun» məqalələri, M.H.Təhmasibin «Azərbaycan xalq dastanları», Həmid Araslının «Aşıq sənəti haqqında», Mahmud Allahverdiyevin «Azərbaycan xalq teatrı tarixi» adlı dərsliyi, Ramiz Ağayevin «Müasir Azərbaycan xalq teatrları» monoqrafiyası, İnqilab Kərimovun «Azərbaycan dram teatrı-100», «Azərbaycan-Türkiyə teatr əlaqələri» monoqrafiyaları, Nizaməddin Şəmsizadənin «Azərbaycan ədəbiyyatşünaslığı» adlı sanballı əsəri, Babək Qurbanovun «Azərbaycan incəsənəti: təriflər, təhriflər» kitabı bu cəhətdən dərin maraq doğurur.



XIX əsrin ortalarından Azərbaycanın müxtəlif bölgələrində (Şamaxı, Şuşa, Bakı, Quba, Şəki, Gəncə, Göyçay və s.) teatr həvəskarları tərəfindən ev tamaşaları göstərilməyə başlandı.

XX əsrin əvvəllərində həvəskar truppaların sayı xeyli artdı. Burada kiçik səhnəciklər, vodevillərlə yanaşı, Azərbaycan klassiklərinin: M.F.Axundov, H. Cavid, Ü.Hacıbəyov, S.S.Axundov, Ə.Haqverdiyev, N.Vəzirov, N.Nərimanov, C.Cabbarlı və s. əsərləri də oynanılırdı.

XX əsrin 60-cı illərindən başlayaraq Azərbaycanda teatr incəsənətinin yeni tipi-xalq teatrları yarandı. Yalnız XX yüzilin 80-ci illərində onların sayı 60-a çatdı.Hələ vaxtilə Azərbaycan səhnəsinin ən görkəmli sənətkarları A.M.Şərifzadə, Ülvi Rəcəb, M.Davudova, S.Ruhulla, M.A.Əliyev dram kollektivlərinin işinə yaxından kömək edir, vaxtaşırı həmin kollektivlərlə birlikdə bu və ya başqa rolu oynayırdılar. Aktyorlardan İsmayıl Dagıstanlı, Hökümə Qurbanova, Rza Əfqanlı, Əli Zeynalov, Lütfəli Abdullayev, İsmayıl Talıblı, Əli Qurbanov, Ələddin Abbasov, Atamoğlan Rzayev, Murad Muradov və başqaları xalq teatrı tamaşalarında çıxış etmişlər.

XIX əsrin ikinci yarısından başlayaraq Azərbaycanda cərəyan edən ictimai-siyasi hadisələr ölkədə maarifçilik hərəkatının inkişafına güclü təkan verdi. Ədəbiyyat, incəsənət və mədəniyyət sahələrində baş vermiş dəyişikliklər Azərbaycan teatrları üçün də müsbət nəticələr verdi. Dahi mütəfəkkir M.F.Axundovun ədəbiyyata dram janrı gətirməsi, xalq teatrlarının peşəkarlar səhnəsinə çevrilməsində həlledici rol oynadı.

Böyük maarifçi Həsən bəy Zərdabinin və görkəmli yazıçı Nəcəf bəy Vəzirovun təşəbbüsü ilə 1873-cü ildə Bakıda Mirzə Fətəli Axundovun «Lənkəran xanının vəziri» və «Hacı Qara» komediyalarının tamaşaya qoyulması Azərbaycanda, eləcə də bütün müsəlman Şərqində dünyəvi peşəkar teatrın təməlini qoydu.

Hüseyn Ərəblinski, Cahangir Zeynvalov, Hüseynqulu Sarabski, Abbas Mirzə Şərifzadə, Mirzağa Əliyev, Sidqi Ruhulla, Ülvi Rəcəb və başqalarının səyləri nəticəsində Azərbaycanda milli peşəkar aktyorluq məktəbi formalaşdı. Azərbaycan öz müstəqilliyini qazandıqdan sonra teatr sənətinin inkişafında mühüm işlər həyata keçdi. Həmin dövrdə pərakəndə halda olan teatr truppalarının birləşməsi nəticəsində Dövlət teatrı yarandı.

1919-cu il oktyabrın 24-də Dövlət teatrının rəsmi açılışı elan olundu. Azərbaycan dram teatrı ilə yanaşı, Azərbaycan Opera və Balet Teatrı muğam əsasında yaradılmış tamaşalarla meydana çıxdı. Dahi Azərbaycan bəstəkarı Üzeyir Hacıbəyovun yaratdığı «Leyli və Məcnun» operasının 1908-ci ildə ilk tamaşası ilə Azərbaycanda və bütün müsəlman Şərqində Opera sənətinin təməli qoyuldu. Üzeyir Hacıbəyovla yanaşı, Azərbaycanda Avropa tipli peşəkar musiqi sənətinin bünövrəsini qoyan Müslüm Maqomayevin «Şah İsmayıl» operası da muğam operası janrının incilərindən biri kimi Azərbaycan səhnəsində həmişəlik yer tutdu.

Bu gün respublikamızda Milli Dram teatrı, Opera və Balet teatrı ilə yanaşı, Musiqili Komediya teatrı, Rus Dram teatrı, Gənc Tamaşaçılar teatrı, Kukla teatrı, Marionet teatrı, Pantomim teatrı, «Yuğ» teatrı, Bakı Bələdiyyə teatrı uğurla fəaliyyət göstərir.

İrəvan, Naxçıvan, Gəncə, Sumqayıt, Lənkəran, Şəki, Salyan, Mingəçevir, Qazax, Qax, Qusar, Ağdam, Şuşa, Füzuli teatrları öz tamaşaları ilə teatrsevərlərin dərin rəğbətini qazanmışlar. Azərbaycan Dövlət müstəqilliyini bərpa etməsi ilə milli teatrımızın inkişafı üçün də geniş imkanlar açılmışdır.



### *3.3. Bədii-kütləvi iş tətbiqi kulturologiyanın əsas istiqamətlərindən biri kimi.*

Bəşəriyyətin bütün tarixi mərhələlərində olduğu kimi XX əsrdə, bədii ifadə vasitələrindən obrazlı, emosional təsir vasitəsi kimi geniş istifadə edilmişdir.

Cəmiyyətin müasir inkişaf mərhələsi, III minilliyin başlanması insanlarda zamana yeni münasibət tərbiyə edir. Müstəqil respublikamızda mədəniyyətin hər hansı bir sahəsində adət-ənənələrdən, söhbət açdıqda ən əvvəl diqqətimizi mədəniyyət obyektlərinə, xüsusən müxtəlif insanları özündə birləşdirən mədəniyyət evlərinə, saraylarına, müzeylərə, kitabxanalara və s. yönəltməliyik.

İnsanların elmi dünyagörüşlərinin, mədəniyyətlərinin, təhsillərinin , vətənpərvəlik hisslərinin inkişaf etdirilməsində sözsüz ki, milli ənənələr, mədəniyyət əsaslı rol oynayır. Belə ki, bədii söz, ədəbiyyat, təsviri sənət, kino, müsiqi və başqa sənət növləri insanın mənəvi aləminə dərindən müdaxilə edən güclü, emosional təsir vasitələri kimi qiymətləndirilir. Yuxarıda qeyd etdiyimiz fikirlərə əsaslanaraq, deyə bilərik ki, insan təfəkkürünün, dünyagörüşünün dəyişməsi, asudə vaxt problemi məhz bədii-kütləvi işlə birbaşa əlaqəlidir.

Bədii-kütləvi iş mədəniyyət müəssisələrinin sənədli və bədii materiallarının toplama qaydalarını, onların ssenariləşdirilməsinin forma və metodlarını öyrənir. Bu sahənin əsas məqsədlərindən biri tədbirlərin mövzularının real həyatdan götürülməsini, cəmiyyət haqqında düşüncələrin, həyatdakı ziddiyyətlərin dialektik qanunlar əsasında araşdırılmasını öyrətməkdən ibarətdir.

Milli ənənələrimizi, unudulub yaddan çıxmış folklor nümunələrimizi öyrənib həyata qaytarmaq, xalqı düşündürən və narahat edən məsələlərin tədbir şəklində ifadə olunması, xalqın və ölkənin həyatında baş verən unudulmaz və əlamətdar anların kütləvi şəkildə qeyd edilməsi, bədii-kütləvi işin başlıca vəzifəsidir. Belə ki, bədii-kütləvi işin mövzu dairəsi

məhdud deyil. O, içtimai-siyasi və mənəvi həyatımızı beynəlxalq hadisələri əhatə etməklə yanaşı kütləvi tədbirlərin vasitəsi ilə tamaşaçıları maarifləndirir.Onu da qeyd etmək lazımdır ki, bütün mədəniyyət obyektlərinin (mədəniyyət kompleksləri, turizm mərkəzləri, idman saraylarının, klubların, istirahət və mədəniyyət parklarının, mədəni-idman komplekslərinin) fəaliyyətlərinin əsasını bədii-kütləvi iş təşkil edir.

Əhalinin məişətinə daxil olmuş adət və ənənələr, onların psixologiyası ilə üzvi surətdə əlaqədardır, təbiətin, içtimai mühitin və şəxsi həyatın çox mühüm hadisələrinə onların münasibətini ifadə edir. İnsanların əxlaqının, sosial cəhətdən idarə olunmasının, onların mənəvi tərbiyəsinin mühüm vasitələrdən birinə çevrilir.

Bir çox tədqiqatlarda göstərilmişdir ki, ənənənin əsas funksiyası formalaşmış ictimai təcrübəni qorumaq, ən ümumi olan təsəvvürləri, hissləri, vərdişləri təkmilləşdirmək və sonrakı nəsillərə verməkdir. Mədəniyyət və incəsənət müəssisələri insana öz marağını, həvəsini formalaşdırmaq və təmin etmək, yaradıcılıq qüvvəsini inkişaf etdirmək imkanı verir. İnsan təbiətə, mühitə tez uyqunlaşır. Mühit nə qədər mədəni olarsa, imkanlar diapozonu bir o qədər genişlənər, insanların mənəvi dünyası bir o qədər rəngərəng olar. İnsanlar arasında mədəni ünsiyyətin daha da sıx olması bədii-kütləvi işin xüsusiyyətlərindən də asılıdır. Çünki bədii-kütləvi tədbirlər cəmiyyətin mədəni həyatını zənginləşdirir. Kütləvi tədbirlərdə xalqımızın milli, tarixi-ənənəvi bayramları xüsusi yer tutur. Bu bayramlarda qədim mədəniyyətimizi, tariximizi əks etdirəcək cəhətlərin nümayişinə diqqət yetirilir. Bir sözlə bədii-kütləvi iş və tədbirlər müxtəlif fikirləri hadisələr şəklinə salmağın, hərəkət formasında nümayiş etdirməyin təşkili yollarını öyrədir. Bu yaradıcılıq prosesində əsasən insanın hiss və duyğularına təsir etməyin forma və metodlarını dəqiqləşdirir.

Xalq yaradıcılığının inkişaf etməsində də bədii-kütləvi işin əhəmiyyəti böyükdür. Xalq yaradıcılığı dedikdə, biz təkcə qədim dövrlərdə yarananları nəzərdə tutmuruq. Xalq



yaradıcılığı xalqın, millətin mənəvi sərvətidir. Xalqın daş yaddaşı, mənəvi sənəti xalq yaradıcılığında, folklorunda inkişaf etdirilir. Xalqımız öz mənəvi sərvətlərini, bədii yaradıcılığını bü gün də yaradır. Xalq oyun və tamaşalarının əsas inkişaf dövrü antik dövürdür. Qeyd etmək lazımdır ki, müasir teatrlarımız birdən-birə yaranmamış, onlar həm də antik dövrün mədəniyyətindən çox şey götürüb saxlamışdır.

Azərbaycanın qədim xalq bayram və mərasimlərində də bədii ifadə vasitələrindən ğeniş istifadə olunmuşdur. Qədim dövrlərdə yaranmış kütləvi xalq tamaşalarının çoxu mərasimi xarakter daşısa da, əsasən insanın estetik fikrini, bədii zövqlərinin təkamülini inikas etdirmişdir. Azərbayçan xalqının gözəl folklor nümunələri də , o çümlədən qədim xalq oyun tamaşaları da qanunauyğun təkamülün nətiçəsidir. Kütləvi tamaşalar tarixinə diqqət yetirsək ğörərük ki , onlar bütün dövrlərin içtimai-siyasi və mədəni hadisələrini, xalqların və etnik qrupların bədii-estetik fikirlərini əsrlərdən-əsrlərə ötürə bilmişdir. Əsasən, XVIII əsrdən sonra formalaşan bədii-kütləvi iş indi rejissor adlanan təşkilatçının yaradıcılığının məhsulu olmuşdur.

Bədii-kütləvi iş keşməkeşli bir tarixi yol keçmişdir. Bədii-kütləvi iş mədəniyyət və incəsənətin əsas sahəsi olub, təbliğatı və incəsənəti tam şəkildə özündə birləşdirir.

Bədii-kütləvi işin predmet və vəzifələri, bu bölmədə öz əksini tapır. Buraqa tələbələrə bədii-yaradıcılıq haqqında nəzəri bilik verilir. Bu bölmə eyni zamanda tələbə-gənclərə həyat təcrübəsini də dərindən öyrədir. İnsanların həyat tərzi, ictimai-siyasi baxışları dəyişir. Xalqımızın milli xüsusiyyətlərini, o cümlədən folklor nümunələrini kütləvi tədbirlərdə yaşatmaq, daha da inkişaf etdirmək gərəkdir. Bu bölmənin əsas mahiyyəti də elə bunu açmaqdır.

Bədii-kütləvi işin mahiyyətini, forma və metodlarını, kütləvi iş rejimini bilmədən bu sahədə çalışmaq, onu dərk etmək mümkün deyil.

Bu bölmədə bədii-kütləvi işin mahiyyəti, metodları proqrama əsasən acıqlanır.

Cəmiyyətimizdə xalqın həyatı ilə bağlı olan əsas sahələrdən biri kimi bədii-kütləvi iş çox önəmli yer tutur.

Mədəniyyət müəssisələrinin ən geniş fəaliyyət sahəsi məhz bədii-kütləvi işdir. Elmi dünyagörüşün inkişaf etdirilməsi, ictimai fəallığın, estetik baxışın, insanlar arasında mədəni ünsiyyətin daha da artmasına , eyni zamanda şəxsiyyətin formalaşmasına bədii-kütləvi iş xidmət edir. Bədii-kütləvi tədbirlər cəmiyyətin mədəni həyatını zənginləşdirir, insanların istirahətinin mənalı, səmərəli keçməsinə kömək edir. Ən vacibi bədii-kütləvi işin təşkili xüsusiyyətlərində bir sıra ictimai elmlərin nailiyyətlərindən yaradıcı şəkildə istifadə olunur.

Bədii-kütləvi iş nədir ? Onun əsas vəzifəsi nədir ? Bədii-kütləvi iş bədii formada, kütləvi şəkildə keçirilən tədbirlərə deyilir. Bu işin əsas məqsədi cəmiyyət həyatında, mədəniyyət müəssisələrində bədii təbliğat fəaliyyəti üçün geniş nəzəri baza və əməli vərdiş formalaşdırmaqdan ibarətdir. Bədii-kütləvi iş incəsənət vasitələrindən ayrı mümkün deyildir. Müasir mədəniyyət müəssisələrində elə bir tədbir yoxdur ki, orada incəsənətin bu və ya digər növlərindən istifadə edilməsin.

Bəşəriyyətin bütün tarixi mərhələlərində bədii vasitələrdən obrazlı emosional təsir amili kimi geniş istifadə olunmuşdur.

Bədii-kütləvi iş mədəniyyət müəssisələrinin əsas fəaliyyət sahəsi olub, təbliğatı, təşviqatı və incəsənəti tam şəkildə özündə birləşdirir. Bədii-kütləvi iş əsasən iki hissəyə bölünür; onlardan birincisi ən sadə iş sahəsi olub, yalnız illüstrasiyalardan istifadə edərək, qapalı binalarda aparılır. Bu iş sahəsinə tematik gecə və konsertləri, şifahi jurnalları və sairləri aid etmək olar.

İkinci isə-meydanlarda, park və xiyabanlarda, küçələrdə təşkil olunan mürəkkəb formalı iş sahəsidir. Burada əsasən daha geniş kütləvi işi özündə birləşdirən bayramlar, gəzintilər və s. nəzərdə tutulur. Belə tədbirlərdə bədii-kütləvi işin əsas sahəsi olan teatrlaşdırmadan geniş istifadə edilir.

Bədii-kütləvi işin mədəniyyət müəssisələrinin başqa fəaliyyət sahələrindən ən fərqli cəhəti onun kütləviliyidir.



Bədii-kütləvi iş mədəni-sosial ünsiyyətin ən fəal sahəsi kimi özünü bürüzə verir. Bədii-kütləvi işin əsas prinsiplərinə aşağıdakıları aid etmək olar:

- Əxlaq tərbiyəsi;
- Əmək tərbiyəsi;
- Vətənpərvərlik tərbiyəsi;
- Estetik tərbiyə.

Tərbiyə işinin bir sıra başqa formaları da vardır. Bu prosesdə əsas məqsəd tədbirin ideyasının əxlaq prinsipləri ilə uyğunlaşdırılmasından, ideyaların tərbiyə baxımından istiqamətləndirilməsindən ibarətdir. Bədii-kütləvi tədbirlər planı da yuxarıdakı prinsiplərə əsaslanır. Bədii-kütləvi işin təşkilatçıları özlərinin pedaqoji fəaliyyətlərini məntiqi-emosional zəmində qurur, bu məqsədlə incəsənət vasitələrindən geniş istifadə edirlər.

İnsanların daxili təbiətini, istək və arzularını öyrənmədən onlara təsir göstərə biləcək vasitələrin seçilməsi və onlardan istifadə olunması çox çətindir. Belə ki, insanın təbiəti dəyişdikcə onun mənəvi ehtiyacları, dünyavi baxışları da yeniləşir. Cəmiyyətdə v ə insanın mühitində baş verən yeniliklər insanların təbiətinə də təsir edir, onu bu və ya digər şəkildə dəyişə bilir. Bu baxımdan mədəniyyət işçisinin fəaliyyətinin bir istiqaməti də bədii-kütləvi tədbirlərdə iştirak edənləri maarifləndirməkdir.

Kütləvi tamaşalar tarixindən görürük ki, onlar bütün dövrlərin ictimai-siyasi və mədəni hadisələrini, xalqların və kiçik etnik qrupların bədii-estetik fikirlərini əsrlərdən əsrlərə yaşada bilmişlər.

İctimai həyatı və eləcə də insanların təbiətini öyrənmək üçün tədqiqat formasından istifadə etmək olar. Bunlardan ən çox istifadə olunanı sosioloji tədqiqatdır. Bəli, sosioloji tədqiqat mədəniyyət işçilərinin pedaqoji fəaliyyətini istiqamətləndirə biləcək ən əlverişli vasitədir.

Bədii-kütləvi işin xalq yaradıcılığının inkişaf etdirilməsində də əhəmiyyyəti böyükdür. Bu predmetin əsas vəzifələrindən biri ondan ibarətdir ki, o bədii-kütləvi tədbirlərin mövzularının həyat kerçəkliyindən götürülməsinə

daha böyük üstünlük verir, cəmiyyət həyatındakı ziddiyyətlərin dialektik qanunlar əsasında araşdırılmasını öyrədir. Mədəniyyət müəssisələrində təşkil olunan yaradıcı tədbirlərin ideya istiqamətlərini nəzərdən keçirərkən bədii-kütləvi işin həm də pedaqoji bir proses olduğunu götürürük. Kütləvi tədbirlər hazırlayan, müxtəlif ideyalar aşılayan mədəniyyət işçiləri yüzlərlə insanların dünyagörüşünə, əxlaqına, mədəniyyətinə təsir etməlidirlər. Müxtəlif qruplara aid olan adamlarla işin təşkilində, sosial psixoloji xüsusiyyətlərin düzgün aparılması böyük əhəmiyyət kəsb edir. Müasir insanlar üçün geniş dünyagörüş, hərtərəfli bilik çox səciyyəvidir. Buna görə də, bədii-kütləvi iş mədəniyyət işçisinin bədii yaradıcılığından əlavə, pedaqoji fəaliyyəti kimi də qiymətləndirilməlidir.

Bədii-kütləvi işin əsas mahiyyəti də budur ki, insanlar arasında birliyi , asudə vaxt problemini müəyyən qədər həll etsin. İnsanların asudə vaxtlarının artması, mədəni səviyyənin yüksəlməsi istirahət və əyləncəyə, bayram şənliklərinə böyük maraq yaratmışdır. Bu da bədii-kütləvi işin əsas mahiyyətidir, desək, səhv etmərik.

Bədii-kütləvi işin əsas metodlarından danışarkən qısa olaraq təbliğat işindən, illüstrasiyalaşdırma və teatrlaşdırmadan söhbət aça bilərik.

Təbliğat çox geniş bir sahədir. Onun əsas mahiyyətini bütün sosial qruplar tərəfindən anlaşmasında axtarmaq lazımdır. Təbliğat sözün gücündən ibarət olan bir vasitədir. Deməli, elə metodlardan istifadə etmək lazımdır ki, insanları öz ətrafında birləşdirərək, təbliğat qüvvətverici bir işə çevrilsin. Real həyat həqiqətlərinə əsaslanan təbliğat sadəcə sözlə deyil, bir sıra həyat hadisələri ilə, hadisələrdən doğan emosional vəziyyətlərlə təsdiq edilməli, öyrənilməlidir. Eyni zamanda kütlələrə daha geniş məlumat vermək təbliğatın əsas vəzifələrindən biridir.

Bədii-kütləvi işin təşkili bu metoddan istifadə etməklə təbliğ edilən sahənin adamları tərəfindən düzgün dərk edilməsini təmin edir. Kütləvi tədbir mövzusunun ən sadə metodu-məhz illüstrasiyalaşdırma, kütləyə çatdırmaq



istəyimiz bütün fikirləri inkişaf etdirir. Hər hansı bir kütləvi klub tədbirində filmdən fraqment, tamaşadan parça, mahnı və müsiqidən istifadə, gərginliyin yaranmasına imkan vermir. İllüstrasiyalaşdırma metodundan kino-mühazirələrdə, tematik gecələrdə və s. kütləvi tədbir formalarında geniş istifadə olunur. Bu metoddan istifadə etmək klub müəssisələrinin texniki və yaradıcılıq imkanlardan çox asılıdır. İllüstrasiyalaşdırma metodunun əsas vasitələrdən biri də bədii-özfəaliyyət yaradıcılığının günün tələbləri səviyyəsində qurulmasıdır.

Bədii-kütləvi işin illüstrasiya metodu 3 prinsip əsasında qurulur:

- 1-ci prinsip-istifadə ediləcək bədii materialların ideya və məzmununun keçirilən tədbirin ideya və məzmununa uyğun gəlməsi;
- 2-ci prinsip-tədbirin məntiqi və emosional tərəflərin psixoloji əsaslandırılmasıdır. Onu da qeyd edək ki, illüstrasiyanın psixoloji təsiri emosionallıq yaradır;
- 3-cü prinsip-incəsənətin müxtəlif vasitələrindən kompleks şəkildə istifadə edilməsidir. Bu prinsipə əməl edərkən incəsənətin müxtəlif növlərindən tədbirin güclü emosionallığa malik olması üçün istifadə edilir. Mahiyyət etibarı ilə illüstrasiya teatrlaşdırmaya çox yaxındır.

Teatrlaşdırma metodu müxtəlif, rəngarəng ifadə vasitələrinin qeyri-adi sintezindən ibarətdir. Bu metoda yiyələnmək üçün ən əvvəl onun sosial-psixoloji mahiyyətinə, bədii-estetik imkan dairəsinə diqqət yetirmək lazımdır. İnsanların ictimai-siyasi baxışlarının zənginləşdirilməsi, kütləvi ünsiyyətə qoşulması dövrümüzün ahəngi ilə sıx bağlıdır. Bədii-estetik zövgün formalaşmasında teatrlaşdırma böyük rol oynayır. Teatrlaşdırma nəticəsində insanlar müxtəlif məlumatlara deyil, eləcə də biliklərə yiyələnir. Bir çox incəsənət növləri ilə (teatr, kino, şer, balet və s.) təmasda olurlar. Qeyd etmək lazımdır ki, teatrlaşdırmanın əsas yaradıcı qüvvəsi, özfəaliyyət kollektivlərinin üzvləri ilə kütlədir. Teatrlaşdırma işini aparanın əsas məharəti isə bu böyük qüvvənin bütün hərəkət və yaradıcılığını

teatrlaşdırmanın şərtlərinə tabe etdirməkdir. Eyni zamanda kütləvi hərəkətləri ideya və məzmunla əlaqələndirməkdir.

Kütləvi klub, eləcə də mədəniyyət müəssisələri teatraşdırmasında fantaziyaya da daha çox ehtiyac duyulur. Burada əsasən rejissor özünün fantaziyasına arxalanaraq, ssenari üzərində də dəyişikliklər edir, mövzuya uyğun olaraq tədbirin janrını dəqiqləşdirir. Beləliklə, teatrlaşdırmanın bir sıra tələbləri vardır. Bədii-kütləvi işin bu kompleks metodundan istifadə edən hər bir mədəniyyət işçisi xalqımızın şanlı tarixini, ailə, məişət ənənələrini, adət-ənənələrini bayram şənliklərinə çevirə bilər.

Mədəni cəhətdən inkişaf etmiş adamın həyat mövqeyinin fəallığı vaxt ehtiyatlarını üzə çıxarır, onun diqqətini mənəvi yüksəlişə cəlb edir və asudə vaxtının keçirilməsi formalarına təsir göstərə bilər. Yuxarıda qeyd etdiyimiz kimi, insanın mənəvi keyfiyyətlərinin formalaşması sistemində adət və ənənələr, bayramlar mühüm yer tutur.

Bədii-kütləvi işin təşkilatçısının ilkin fəaliyyəti mövzu planının hazırlığından başlanır. Mədəniyyət müəssisələrində bədii-kütləvi işin mövzuları onun yerləşdiyi ərazinin təsərrüfat həyatından, adamların məşğuliyyətindən, yerli adət və ənənələrdən, dövrün ictimai-siyasi hadisələrindən götürülür.

Xalqımızın uzun əsrlər boyu yaratdığı milli adət və ənənələr rəngarəng bədii sərvətlər bədii-kütləvi işin zəngin mövzu mənbələridir. Bunların içərisində tarixi bayramlar və mərasimlər xüsusi yer tutur. İllər, əsrlər boyu bu mərasim və bayramlar ideallaşdırılmış və xalqın yaddaşına əbədi köçmüşdür. Kütləvi tədbirlər zamanı bu mərasim və bayramlardan, adət və ənənələrdən, tarixi hadisələrdən geniş istifadə edilir. Hər bir xalqın öz adət, ənənəsi var. Sözsüz ki, bu adət, ənənələr əsrlərdən əsrlərə adlayaraq bu günümüzə çatmış və xalqın mənəvi qidasına çevrilmişdir.

Bədii-kütləvi işin tərbiyəvi əhəmiyyəti böyükdür. Belə ki, bədii-kütləvi iş ictimai həyatı, cəmiyyəti, təbiəti, insanların yaşayışını və bu yaşayışın bütün əhvanlığını, xüsüsi şəkildə əks etdirir. Bədii-kütləvi işdə yaradıcılıq kutləvi xarakter dayşıyır.



Cəmiyyət əhvali-ruhiyyəsinin, ictimai-siyasi münasibətlərin ifadəsi ilə yanaşı, burada insanların dünyagörüşü, elmi və mədəni səviyyəsi, cəmiyyətə münasibəti əks olunur.

Məlumdur ki, klub teatrlaşdırılmasında müxtəlif ictimai-siyasi, ənənəvi xarakter daşıyan hadisələr məntiqi və bədii ümumiləşdirmələr yolu ilə estetik ideal mövqeyinə yüksəlir, insanların duyğu və hisslərinə təsir edən bədii-emosional hadisəyə çevrilir. Kütləvi klub tədbirlərində təmtəraqlı epizodlara meyl etmək əlamətdar hadisəni ideyasızlaşdıraraq onu sadəcə əyləncəyə çevirər. Belə tədbirlərdə hadisənin təbiiliyini saxlamaqla bərabər, məzmunları həmahəng olan və ümumi obrazın açılışına kömək edən bədii materiallardan istifadə etmək lazımdır.

Bədii-kütləvi klub tədbirini hazılayarkən ilk növbədə əlaqələndirilmiş obraz tapmaq tələb olunur. Bədii-kütləvi tədbirin bədii obrazı da insanların ağlına, hisslərinə təsir edib, onlarda quruculuq əzmkarlığı, mübarizə əhval-ruhiyyəsi yaratmalıdır. Bəzən kütləvi klub tədbirləri rəsmi və bədii hissədən ibarət olur.Onun birinci hissəsi çox zaman şablon formaya əsasən qurulur. Klub tədbiri o vaxt kütləvi xarakter daşıyır ki, zalda əyləşənlər yalnız tamaşaçı deyil, həm də tədbirin iştirakçısı olur. Mədəniyyət müəssisələrinin (klub, mədəniyyət evləri, sarayları və s.) iş təcrübəsində kütlələrin tədbirdə real fəaliyyətini təşkil etməyin ən geniş yayılmış üsulları zala müraciət etmək və suallar verməkdən, aktyorları tamaşa zalına çıxartmaqdan və s. ibarətdir. Kütlələrin ictimai-mədəni fəaliyyəti təşkil etmək üçün tədbirdənkənar üsullardan da geniş istifadə edirlər. Kütlələrin müəyyən sosial qrupları, klub işçilərinin daha maraqlı və əyləncəli tədbirlər hazırlayacağını arzu edirlər.

Kütləvi tədbirlər yalnız əhalinin marağı əsasında təşkil olunduqda onların tələbatını ödəyir, mədəni-ictimai fəaliyyəti intensivləşdirir.

Mədəniyyət müəssisələrində bədii-kütləvi işin ən geniş yayılmış formalarından biri də tematik gecədir. Bədii-kütləvi işin müxtəlif formaları vardır. Tematik gecələrin təşkili və onun hazırlığı mədəniyyət işçisinin üzərinə böyük məsuliyyət

qoyur. Müşahidələr göstərir ki, başqa kütləvi iş formalarından fərqli olaraq tematik gecələrdən daha çox istifadə olunur. Mədəni, ictimai-siyasi və başqa həyat hadisələrinin daha əhəmiyyətliləri tematik gecənin mövzusu kimi əlaqələndirilir.

Cəmiyyətin iqtisadi həyatına, ailə və məişətinə və digər məsələlərə aid tematik gecələr təşkil etmək mədəniyyət müəssisələrinin apardığı təbliğat və təsviqat işinin mövzu dairəsinigenişləndirir.

Bədii-kütləvi işin bu forması insanlar arasında vaxtaşırı ünsiyyət vasitəsidir.Eyni zamanda onların biliklərə yiyələnməsinə, tərbiyə olunmasına, bədii-estetik zövgün inkişaf etdirilməsinə imkan verir.

Bədii-kütləvi işin xüsusi forması olan tematik gecənin mövzu dairəsi üç əsas istiqamətdə müəyyənləşdirilir. Bu sahə üzrə müəyyənləşdirilmiş mövzuların məzmunu həyat tərzinin üstünlüklərini, ölkəmizin daxili və xarici siyasətini, qəhrəmanlığ əhatə edir. İkinci istiqamətə ictimai-siyasi və mədəni həyatla bağlı hadisələrə həsr olunmuş tematik gecələr aid edilir. Respublikanın, şəhərin, kəndin həyatında baş verən bir sıra ictimai-siyasi və mədəni hadisələr tematik gecənin əsas mövzularını təşkil edir.Üçüncü istiqamətdə ayrı-ayrı zəhmət adamlarının, igidlik və qəhrəmanlıq göstərmiş xalqın nümuyəndələrinin həyat fəaliyyətinə və xatirəsinə həsr olunmuş tematik gecələr nəzərdə tutulur. Cəmiyyətin mənəvi həyatının tərkib hissəsi sayılan ailə və məişət haqqında tematik gecələri də unutmaq olmaz. Tədbir boyu materialın məntiqi düzülüşünə, ideya bütövlüyünə, hadisələrin dialektik inkişafına diqqət yetirilir.

Bundan əlavə xalq yaradıcılığını özündə birləşdirən, günün ictimai-siyasi mənzərəsini əks etdirən yaradıcı kollektivlər bədii-kütləvi işin ən geniş yayılmış formalarından biridir. Cəmiyyətin sosial inkişafına mane olan əngəlləri aradan qaldırmaq üçün bu qruplar böyük təbliğat gücünə malikdir. Özfəaliyyət kollektivlərinin ən fəal üzvlərindən olan təsviqatçılar yüksək siyası biliyə, gözəl mənəvi keyfiyyətlərə malik olmalı, öz əmək fəaliyyətlər ilə başqalarından fərqlənməlidirlər.



Bədii-kütləvi işi adət və ənənələrin təşkilindən ayrı təsəvvür etmək mümkün deyil. Adət və ənənələr bədii-kütləvi işin özülüdür. Adət və ənənələr xalqın mənəvi sərvətdir. Bədii-kütləvi iş formaları bu özül üzərində təşəkkül tapır.

Adət və ənənələr daima insan münasibətlərinin tənzimləyicisi və əsas istiqamətvericisi olmuşdur. Adət və ənənələrin tərbiyəvi cəhətləri onun bədiiliyində özünü daha aydın göstərir. Xalqımızın bütün bayram və mərasimləri bədii vasitələrlə müşayət olunmuşdur. Bədii-kütləvi işdə adət və ənənələr insanları kompleks şəklində tərbiyə edir.

Sosial quruluşlar mahiyyət etibarı ilə eyni deyildir. Onların tək idarəetmə xüsusiyyətləri deyil, eləcə də əxlaqi xarakterləri qismən də olsa bir-birindən fərqlənir. Məhz bu fərqlənmə istər-istəməz yeni mənəvi keyfiyyətlər doğurur. Bir çox adət-ənənələrimizin xalq tərəfindən qanunləşdirilmiş mərasim anları var. Onlar tarixin bütün mərhələlərində həmişə kütləvi şəkildə icra edilmiş, hətta bütün millətin mənəvi birliyini təmin etmişdir.

Adət və ənənələrin ən əlverişli kütləvi tərbiyə vasitəsi olduğu mədəniyyət işçilərinin də diqqətindən yayınmamışdır. Buna görə də mövzu və keyfiyyət baxımından mədəniyyət və istirahət parklarının, mərkəzləşdirilmiş klub sistemlərinin, mədəni-idman komplekslərinin bədii-kütləvi işi əsasən adət və ənənələr üzərində qurulmuşdur.

Bədii-kütləvi iş qüvvətli təbliğat vasitəsi kimi sosial həyatın ən dəyərli qürumlarındandır.

Bir qədər də asudəvaxt və bədii-kütləvi iş probleminə toxunaq.

Asudə vaxtdan hamımız , hər gün istifadə edirik. Buna baxmayaraq, hamı özünün təfəkküründən, arzusundan asılı olaraq asudə vaxtını müxtəlif işlərə sərf edir.

Müasir dövrdə bədii-kütləvi işin inkişaf etməsində yeniyetmə və gənclərlə keçirilən tədbirlər xüsusi yer tutur. Buna misal olaraq bir sıra festivalları, gənclərin yaradıcılıq tədbirlərini, konsertləri misal göstərmək olar. Teatrlaşdırılmış mitinqlər müasir dövrün ən emosional kütləvi tədbirləridir.

Teatrlaşdırılmış kütləvi tamaşalar bədii-kütləvi işin daha geniş yayılmış müasir formalarıdır.

Ümumiyyətlə bədii-kütləvi işin ayrı-ayrı formalarının təşkili və metodikası mövcuddur. Bədii-kütləvi işin təşkili prosesini xalq yaradıcılığından, daha doğrusu özfəaliyyət yaradıcılığının təşkilindən ayrı təsəvvür etmək mümkün deyildir.

Bir qədər də bədii-kütləvi işin əsas məsulliyətçisi olan təşkilatçı-rejissorun iş metodundan söhbət açaq. Bir sözlə klub tədbirlərinin əsas məsuliyyət təşkilatçı-rejissorun üzərinə düşür. Təşkilatçı-rejissor teatrlaşdırılmış klub tədbirinin ssenarisini özü yaza bilər.

Rejissor bədii-kütləvi işin tetarlaşdırılmasında əsas sima olsa da, hər bir teatrlaşdırmanın xarakterinə uyğun yaradıcılıq heyəti təşkil etməlidir. Bütün yaradıcılıq prosesində rejissordan pedaqoq və psixoloq olmaq tələb edilir.

Kütləvi klub tədbirinin teatrlaşdırılmasında fantaziyaya daha çox ehtiyac vardır.Bədii ədəbiyyatın müstəqil bir növü də dramdır. Dramaturgiya böyük anlamdır. Dram əsərlərinin auditoriyası genişdir, kütləvidir. Böyük rus dramaturqu A.N.Ostrovski yazırdı: «Dramatik poeziya ədəbiyyatın başqa sahələrinə nisbətən xalqa daha yaxındır». Dramatik ədəbiyyatdan incəsənətin müxtəlif sahələrində o cümlədən, bədii-kütləvi işdə geniş istifadə olunur və buna görə də o sintetik xarakter daşıyır. Hər hansı bir teatrlaşdırılmış tamaşa rejissor, aktyor, rəssam, çox zaman həm də bəstəkar yaradıcılığının müştərək təcəssümü kimi meydana çıxır. Bədii-kütləvi işin də əsas məğzini dramaturgiya təşkil edir.

Azərbaycan xalqının uzun əsrlər yaratdığı milli adət və ənənələri və rəngarəng bədii sərvətlər bədii-kütləvi işin əsas mövzu mənbəyidir. Bunlar içərisində bayram və mərasimlər xüsusi əhəmiyyət kəsb edir. Bayram mərasimləri mahiyyət etibarı ilə 3 əsas hissəyə bölünür:

- Əmək və bayram mərasimləri;
- Fəsillərin dəyişməsi ilə əlaqədar olan bayram və mərasimlər;
- Ailə və məişətlə bağlı olan bayram və mərasimlər.



Ümumiyyətlə, bədii-kütləvi işin təşkili prosesində istifadə olunacaq mənbələr çoxdur, lakin əsas məsələ ətrafda baş verən hadisələri düzgün qiymətləndirilib onların ümumi xalq əhəmiyyəti kəsb edənlərini bədii-kütləvi tədbir formasına salmaqdır.

Bədii-kütləvi iş özündə müxtəlif sosial qrupları birləşdirən geniş xalq kütləsi ilə aparılır. Lakin xalq kütləsi kütləvi klub tədbirlərinə sadəcə olaraq vaxt keçirmək üçün gəlmir, onları klub tədbirlərinə cəlb edən müəyyən məqsədlər və meyllər vardır.

İctimai-mədəni fəaliyyətin təşkili amillərindən biri də tədbirlərdə milli və yerli ənənələrdən, folklor nümunələrindən bacarıqla istifadə etməkdir.

Yaradıcılıq prosesinldə iştirakçıların ictimai-mədəni fəaliyyətinin yeni forma və metodlarının aşkar edilməsinə imkan vardır. Bunun üçün klub işçisindən ictimai inkişafımızın qanunauyğunluqlarına nəzər yetirmək və həmin qanunauyğunluqlar baxımdan fəal yaradıcılıq işi aparmaq tələb olunur.

Bədii-kütləvi tədbirlərin təbliğ olunması və onlar haqqında maraqlı, rəngarəg informasiyanın təşkili hər bir tədbirin müqəddəratını həll edən əsas amillərdən biridir. Auditoriyada kütlələrin azlığı tədbirin pozulmasına da səbəb ola bilər. Çünki kütlənin azlığı tədbirin yüksək səviyyədə keçirilməsinə mənfi təsir göstərə bilir. Xüsusilə bədii yaradıcılıqla məşğul olaq qruplarda ruh düşgünlüyü yaranır. Tədbir öz məzmun, formasını itirir və ya zəif olur. Buna görə də mədəniyyət işçisi hazırlanan tədbirin geniş miqyaslı təbliğinə çalışmalı, hətta tədbirdən sonra da onun haqqında müsbət informasiyanın yayılmasına çalışmalıdır.

Bütün bədii-kütləvi tədbirlərin təbliğində informasiya vasitələri kimi əsasən afişalardan istifadə olunur. Afişa nədir ? Afişa tədbirin keçirildiyi yer və vaxt haqqında dəqiq məlumat verən ən əlverişli informasiya formasıdır.

Bədii-kütləvi tədbirlər haqqında kütləvi məlumatın çatdırılmasında mətbuatın rolu çox böyükdür. Xüsusilə geniş ərazini əhatə edən kütləvi tədbirlərdə, el şənliklərində mətbuat

təbliğatından geniş istifadə edilir. Sözsüz ki, mətbuat, televiziya vasitəsi ilə məlumatın çatdırılması imkanları çox genişdir. Televiziya vasitəsi ilə tədbir daha canlı, maraqlı kütləyə çatdırılır. Tədbir nə qədər maraq doğurursa, bu televiziyanın da işini asanlaşdırır.

Yüksək səviyyədə, tədbirin keyfiyyətli alınması, onun yüksək bədii-estetik təsir gücündə malik olması əsasən məşq prosesinin düzgün təşkilindən asılıdır. Bir qədər öncə təşkilatçı-rejissorun iş xüsusiyyətlərindən danışdıq. Təşkilatçı-rejissor hansı klub tədbiri ilə üzləşdiyini, tədbirdə nə qədər adamın, yaradıcı qrupların, onların nəzərdə tutulmuş məkana yerləşə biləcəyini müəyyənləşdirməlidir. Elə tədbirlər var ki, klubun foyesinə və ya səhnəsinə sığışmır. Bütün bunlardan məlum olur ki, bədii-kütləvi tədbirlərin ilk mərhələsi hazırlıq məşqlərindən başlayır.

Qeyd etmək lazımdır ki, bədii-kütləvi tədbirin gedişində də bir sıra problemlər ortaya çıxır. Bəzən elektrik xəttinin nasazlığından işıq kəsilir və mikrofonlar işləmir. Təkcə bu səbəbdən iş pozulur, yaradıcılıq işi hədər gedir.

Bədii-kütləvi işin təşkili bir sıra maliyyə xərcləri və sənədləri əsasında yerinə yetirilir. Kütləvi tədbirlər təşkil olunarkən kənardan rejissorlar, tərtibatçı rəssam və bəstəkar da dəvət oluna bilir. Hamısının da haqqı ödənilməlidir. Maliyyə hesabı düzgün aparılmalıdır. Çünki, mədəniyyət müəssisələri dövlət büdcəsi hesabına maliyyələşir. Hər hansı bir mədəni-kütləvi tədbirlərin təşkili üçün də həmin büdcədən xüsusi fond ayrılır və bu fond bütün tədbiri maliyyələşdirir.

Mədəniyyət üçün ayrılmış büdcə faizinin artırılması işi mədəniyyət müəssisələrinin rəhbərlərinin fəaliyyətindən də çox asılıdır. Maliyyə işi bədii-kütləvi işin inkişaf istiqamətini müəyyənləşdirən əsas amilə çevrilmişdir.

Bədii-kütləvi tədbirlərin mövzularına, onların ideya və məzmununa, təşkilatçılıq xüsusiyyətlərinə yenidən baxılmasını, onların təsir imkanlarının müasir dövrlə əlaqələndirilməsini tələb edir və müasir dövrdə aparılan bütün bədii-kütləvi işin təhlilinin əsas istiqamətlərini müəyyən edir. Hər hansı bir kütləvi klub tədbirini təhlil edərkən ilk növbədə



ona auditoriyanın psixoloji tələbləri mövgeyindən yanaşmaq lazımdır. Mövzunun və onun ifadə vasitələrinin auditoriyanın marağı və estetik qavrama keyfiyyəti ilə nə dərəcədə uyğun gəldiyini müşahidə etmək tədbirin təhlilinin birinci məsələsini təmin edir. Klub tədbiri auditoriyanın psixoloji tələblərini ödəyirsə, deməli ssenarist-təşkilatçı metodist öz yaradıcılıq fəaliyyətini kütlələrin psixoloji tələblərinə əsaslanaraq qura bilmişdir. Bir sual doğur. Onda auditoriyanın psixoloji tələblərinin ödənildiyini biz hardan bilək, hansı cəhətdə müəyyən edək ? İlk növbədə, tədbir boyu ayrı-ayrı epizodların emosionallıq dərəcəsini izləmək və bütövlükdə tədbirin iştirakçılara təsir dərəcəsini müəyyənləşdirmək lazımdır. Kütləvi tədbirlərin keyfiyyəti haqqında ən düzgün fikri adamların emosiyaları yaradır. Əgər tədbirin gedişi zamanı adamlar yarımçıq çıxıb gedirsə, belə tədbiri təhlil etməyə, onun psixoloji təsir gücündən danışmağa ehtiyac yoxdur. Belə bir tədbir qeyri-məqbul sayılır. Hər hansı bir tədbirin başqa tədbirlərlə müqayisəli şəkildə təhlilinə də geniş yer vermək lazımdır. Təhlil olunan tədbirin qabaqkı tədbirlərlə nisbətən üstün cəhətləri müqayisəli şəkildə aydınlaşdırılmalıdır. Keçirilən tədbirlərin müqayisəli təhlilini vermək üçün bütün tədbirlər üzərində aparılan müşahidələr sənədləşdirilməlidir.

Təhlil prosesində tədbirdə istifadə olunan formanın rəngarəngliyinə, parçaların bir-birini məntiqi ardıcıllıqla əvəzetmə dərəcəsinə xüsusi diqqət yetirilir. Yox, əgər ssenarist-rejissor hadisələrin məntiqi ardıcıllığına nail olmayıbsa, ideya bütövlüyü də alma bilməz. Məntiqi ardıcılıq olmadıqda hissələr arasında fasilələr yaranır, müəllif fikri qırılır.

Tədbiri təhlil edərkən onun sosial əhatə dairəsinə də diqqət yetirilir. Bu zaman tədbirin eyni zamanda klubun ərazisində yaşayan əhalinin bütün təbəqəsini özündə birləşdirmək dərəcəsi yoxlanılır. Bu metod müxtəlif sosial qrupların tədbirə cəlbolunma dərəcəsini müəyyənləşdirir. Eyni zamanda tədbiri hazırlayanların müxtəlif kateqoriyadan olan insanlar arasında apardıqları işin keyfiyyəti aşkar olur. Lakin elə tədbirlər vardır ki, məsələn 8 Mart-Qadınlar günü, 28

May, Yeni İl bayramı, bu tədbirlər bütün kateqoriyadan olan adamları özünə cəlb edir. Tarixi hadisələrlə bağlı günlərin qeyd olunması da mədəniyyət müəssisələrinin xidmət dairəsindən asılıdır.

Mədəniyyət müəssisəsi ərazisində kimlər (yaş məhdudiyyəti qoyulmur) yaşayırsa, onlar üçün də bədii kütləvi tədbirlər hazırlanır.

Tədbirin bədii-estetik dəyəri bədii ifadə vasitələrinin zənginliyi ilə ölçülür. Belə vəziyyətdə bədii ifadə vasitələri mövzunun ideya tələblərinə cavab verməlidir. Tədbirdə istifadə olunan materiallar adamların hiss və duyğularına müsbət təsir edirsə, deməli, onların estetik dəyəri də vardır. Materiallar dolğun məna kəsb edərsə bu zaman adamları həm həyəcanlandırmalı, həm də düşündürməlidir. Hər bir material dövrün, zamanın nəbzini tutmalıdır.

Tədbiri təhlil edərkən onun tərbiyəvi istiqaməti mövzunun aktuallığı ilə əlaqələndirilir. Tədbir günün mədəni-sosial tələblərinə cavab verirsə, deməli aktual və müasirdir. İctimai-siyasi xarakterli tədbirlərdə dövlətimizin siyasi mövqeyi əsas götürülməli, tədbirin ideya və məzmunu dövrün ictimai-siyasi və mənəvi tələblərini əhatə etməlidir. Kütlələrin tədbirə olan marağı onun əhəmiyyətini və aktuallığını əks etdirən bir göstəricidir.

Tədbirdə istifadə olunan materiallar auditoriyanın yaş qrupuna, peşə yönümünə uyğun gəldikdə daha çox cəzbedici olur. Ümumiyyətlə, cəzbedici materialların emosional təsir səviyyəsi təşkilatçının yaradıcılıq keyfiyyətini aşkar edir.

Hər bir tədbirin adamların əhval-ruhiyyəsinə nə kimi göstərməsi də müşahidə edilib, təhlil olunmalıdır. Tədbirin əsas məqsədi nikbin emosiyalar aşılamaqdan ibarət olmalıdır. Nikbin emosiyalar adamları daha da fəallaşdırır və yaşamaq uğrunda mübarizəyə ruhlandırır.

Tədbirin iştirakçılarının tədbirə olan münasibətini öyrənmək təhlil zamanı çox əhəmiyyətlidir.

Bədii-kütləvi işdə eksperiment aparmadan yüksək yaradıcılıq həddinə çatmaq mümkün deyildir. Eksperiment yeni formaların axtarış meydanıdır. Pisi dərk etmək vacibdir



ki, yaxşısını qiymətləndirmək düzgün olsun. Belə nəticəyə gəlmək olar ki, klub tədbirləri üzərində ardıcıl və əsaslı müşahidələrin aparılmasını təmin etmədən bədii-kütləvi işin kefiyyətini yaxşılaşdırmaq mümkün deyildir.

Müasir dövrdə bədii-kütləvi işin inkişaf etməsində uşaq və gənclərlə keçirilən tədbirlər xüsusi yer tutur. Buna nümunə olaraq bir sıra yürüşləri, bayramları, festivalları misal göstərmək olar. Gənc nəslin hərtərəfli və ahəngdar inkişaf etdirilməsində əsas vəzifələrdən biri də onlar asudə vaxtdan səmərəli istifadə etmək, öz daxili aləmini zənginləşdirmək bacarığı aşılamaqdan ibarətdir.

Bədii-kütləvi işə uşaqları cəlb etmək, onların özfəaliyyət yaradıcılığını üzə çıxartmaq gərəkdir. Mənəvi tələbat yüksək olduqca uşaqların əyləncəsində texniki və bədii yaradıcılıq, incəsənət, idman-turizm daha çox yer tutur.

Gənc nəslin klublarda tərbiyə olunması prosesinin təkmilləşməsi bilavasitə klub işi təşkilatçısının əməyinin pedaqoji nəticəsinin əsas şərtlərinin nəzərə alınmasından asılıdır. Onlarla aparılan işdə sosial-psixoloji xüsusiyyətlər böyük əhəmiyyət kəsb edir. Müasir gənc, yeniyetmə üçün geniş, hərtərəfli bilik çox səciyyəvidir. Böyüməkdə olan nəslin tərbiyəsi sistemində klub müəssisələri mühüm yer tutur.

Klubun bütün fəaliyyəti bir-birilə qarşılıqlı surətdə əlaqədar olan iki sahədən ibarətdir.

Cəmiyyətimiz inkişaf etdikcə, bədii-kütləvi iş qarşısındakı konkret vəzifələr və funksiyalar dəyişmir. Müasir klub dövlət və ya ictimai müəssisələrin müəyyən növü olub, əhalinin müxtəlif təbəqələri arasında, o cümlədən uşaq və yeniyetmələr arasında məqsədyönlü mədəni iş aparma vəzifəsi daşıyır.

Bədii-kütləvi işin çoxcəhətli vəzifələrindən biri də uşaq və yeniyetmələrlə aparılan işin təşkili xüsusiyyətidir. Kütləvi uşaq tədbirlərinin hazırlanması təkcə klub, mədəniyyət evi, idman komplekslərində deyil, eyni zamanda televiziyada da gedir. Kütləvi tədbir formalarından fərqli olaraq dərnək məşğələləri uzun müddət dövran edir, eyni dinləyici tərkibinə malik olur. Bu dərnək işini müntəzəm xarakterli edir,

uşaqların yaş və fərdi xüsusiyyətlərini nəzərə almağa imkan verir.

Gənc nəslin hərtərəfli və ahəngdar inkişaf etdirilməsində əsas vəzifələrdən biri də asudə vaxtdan səmərəli istifadə etmək, öz daxili aləmini zənginləşdirmək bacarığı aşılamaqdan ibarətdir. Asudə vaxt haqqında bir qədər öncə danışmışdıq. Gənclərin, yeniyetmələrin asudə vaxtı onların öz mənəvi tələbatını daha dolğun ödəməklə istirahətini təmin etməsidir. Bunu nəzərə alaraq uşaqların, yeniyetmələrin və gənclərin asudə vaxtlarından daha dolğun səmərəli istifadə etmələri, istedad və yaradıcılıq qabiliyyəti üzə çıxdığı üçün klublarda, mədəniyyət evlərində yaradılması lazım olan maraq klublar haqqında tövsiyələr lazımdır.

Müasir dövrdə idman özfəaliyyətinə daha böyük diqqət yetirilir. Ümumiyyətlə, idman özfəaliyyəti bədii-kütləvi işin təşkilində mədəniyyət işçisi üçün geniş imkanlar açır.

Bütün bunları nəzərə alaraq onu qeyd etməliyik ki, mədəniyyət müəssisələrinin maddi-texniki bazalarının imkanları kütlələrin mənəvi ehtiyaclarını ödəyə biləcək bir səviyyədə inkişaf etməsə də, peşəkar mədəniyyət işçilərimiz bədii-kütləvi iş sahəsinin bir sıra müasir formalarını və xüsusiyyətlərini yarada bilmişlər. Maddi-texniki bazası olmayan heç bir mədəniyyət evi, müəssisəsi normal işləyə bilməz. Zəif maddi-texniki bazası olan mədəniyyət müəssisəsinin işi qabarıq nəzərə çarpmır. Bədii-kütləvi işdə real fəaliyyəti təşkil etmək üçün klub ssenaristi ilk növbədə iştirakçıların konkret fəaliyyət üsullarını işləyib hazırlayır. Bunun üçün o, müxtəlif ssenari gedişlərindən və rejissor həllindən geniş istifadə edir.Əlbət ki, yaxşı tamaşa, tədbir üçün yaxşı maliyyə və yüksək maddi-texniki baza lazımdır.

Qabaqcıl mədəniyyət müəssisələri kütlələrin ictimai-mədəni fəaliyyətini təşkil etmək üçün tədbirdənkənar üsullardan da geniş istifadə edirlər.

Yaradıcılıq prosesində iştirakçıların ictimai-mədəni fəaliyyətinin yeni forma və metodlarının da aşkar edilməsinə imkan vardır. Mədəniyyət işçisindən ictimai



inkişafımızbaxımından fikir yürüdüb fəal yaradıcılıq işi aparmaq tələb olunur.

Kütləvi tədbirlər yalnız əhalinin marağı əsasında təşkil olunduqda onların tələbatını ödəmiş olur, mədəni-ictimai fəaliyyəti intesivləşdirir. Hər bir kütləvi tədbir bu gün öz işini həyat tələbləri səviyyəsində qurur. Kütləvi tədbirlərin müasir işi, formaları əsrimizin ruhunu, dünyamızın rəngarəngliyini, ictimai həyatın müxtəlif hadisələrini hər hansı bir yerdə daha geniş əks etdirmək imkanına malikdir.

Bədii-kütləvi işin bünövrəsi mənşə etibarı ilə çox qədim tarixə malikdir. Bədii-kütləvi işin əsas qolunu kütləvi bayramlar təşkil edir. İdeya və məzmunundan asılı olmayaraq, kütləvi xalq bayramları bütün dövrlərdə öz ictimai quruluşunun spesifik xüsusiyyətlərini, məişət hadisələrini, insanların bədii təfəkkürünü, ictimai baxışlarını, onların həyat mövqelərini əks etdirmişdir. Son dövrlərdə kütləvi xalq bayramlarının keçirilməsinə xüsusi diqqət yetirilmiş, bayramları emosional şəkildə hazırlamaq üçün peşəkar rejissorlar qarşısında konkret vəzifələr qoyulmuşdur.Bədii-kütləvi iş adamların ictimai-siyasi baxışlarını inkişaf etdirir və həm də ünsiyyət vasitəsi kimi onları bir-birinə daha da yaxınlaşdırır.

Cəmiyyətin müasir inkişaf mərhələsi bütün sahələrdə o cümlədən, mədəniyyət və incəsənətdə yeni münasibət, geniş dünyagörüşünün formalaşmasına şərait yaradır.

Milli ənənələrimizi, unudulub yaddan çıxmış folklor nümunələrimiz öyrənib həyata qaytarmaq , milləti, xalqı düşündürən və narahat edən məsələlərin tədbir şəklində ifadə olunması, xalqın və ölkənin həyatında baş verən unudulmaz və əlamətdar onların kütləvi şəkildə qeyd edilməsi bədii-kütləvi işin ən başlıca vəzifəsidir.

Mövzu genişliyi etibarı ilə bədii-kütləvi iş məhdud olmamalı, ictimai-siyasi həyatın mənzərəsini, beynəlxalq hadisələri kütləvi tədbirlər yolu ilə işıqlandırmalıdır. Bu gün bədii-kütləvi işin bütün sahələrdə, o cümlədən, xalq yaradıcılığının inkişaf etdirilməsində də əhəmiyyəti böyükdür. Hər tarixi mərhələlərdə olduğu kimi, müasir dövrümüzdə də

tarixi bayramlar, tarixi hadisə və günlər böyük təntənə ilə qeyd olunur. Keçirilən kütləvi tədbirlərdə istedadlı müğənnilərimiz, müsiqiçilərimiz, aktyorlarımız çıxış edirlər və kütlə tərəfindən tanınır, sevilirlər. Müğamlarımız, təsnif və xalq mahnılarımız öz tarixliyini, ifasını itirmir. Xalq yaradıcılığı-təkcə ötən əsrlərdə yarananları nəzərdə tutmur. Öz mənəvi sərvətlərini xalq bu gün də yaradır və yaşadır. Bütün tarixi mərhələlərdə bədii-kütləvi işin inkişafı, ənənələri öz əksini tapır. Bu gün bədii-kütləvi tədbirlərin mövzularının həyat həqiqətlərindən götürülməsinə böyük üstünlük verilir. Bədii-kütləvi iş mədəni-sosial ünsiyyətin ən fəal sahəsidir.Bədii vasitələrin qüdrəti hər bir ideyanı canlı hərəkət şəklində nümayiş etdirilməsidir. Elə bir rayon, şəhər və ya kənd yoxdur ki, orada müxtəlif səpkidə bədii-kütləvi tədbirlər təşkil olunmasın. Bu tədbirlər minlərlə adamı özünə cəlb edir. Son illər ölkəmizin mədəniyyət obyektlərində (klublarda, mədəniyyət və istirahət parkları, mədəni-idman komplekslərində) təşkil olunan təntənəli mərasimlərdə, bayramlarda və başqa tədbirlərdə 700 mindən artıq adam iştirak etmişdir. Bu göstərici bədii-kütləvi işin tərbiyə sistemində tutduğu yeri aydın şəkildə əks etdirərək, onun təsir gücünü üzə çıxarır. Belə olan halda təşkil olunan bütün bədii tədbirlər xəlqilik prinsipini özündə qoruyub saxlaya bilər. Tədbirin ideyası daha güclü olduqda yüksək emosional bir səviyyəyə qalxır.

Bədii-kütləvi iş təcrübəsindən gətirilən misallar yeni forma axtarmağa imkan yaradır. Bu gün keçirilən bədii-kütləvi tədbirlərin hamısı vahid ideya çərçivəsində aparılmır. İdeyalılıq bu gün əsas şərtdir. Lakin belə bir sual olunur. İdeyalılıq bədii-kütləvi tədbirlərin hamısındamı gərəkdir ? Elə bədii-kütləvi tədbirlər var ki, istirahət-əyləncənin təşkili məqsədini güdür. Mədəniyyət müəssisələrində təşkil olunan tədbirlərin ideya istiqamətlərini nəzərdə keçirərək bədii-kütləvi işin həm də pedaqoji bir proses olduğunu görürük.

İndiki şəraitdə həyat tərzinin dəyişməsi, adamların asudə vaxtlarının artması, mədəni səviyyənin yüksəlməsi istirahət və əyləncəyə, bayram şənliklərinə böyük maraq yaratmışdır.



Keçmişimizin tarixi, həyat xatirələrini əks etdirən kütləvi tədbirlərdə ulu babalarımızın ruhu yaşayır.

Bədii-kütləvi iş özündə müxtəlif sosial qrupları birləşdirən geniş xalq kütləsi ilə aparılır. Lakin bu gün kütlə klub, meydan tədbirlərinə sadəcə olaraq vaxt keçirmək üçün gəlmir, onları bu tədbirlərə cəlb edən müəyyən məqsədlər və meyllər vardır.

Adamların ictimai fəaliyyətə cəlb olunması və onların şəxsi təşəbbüskarlığının inkişaf etdirilməsi mədəniyyət müəssisələrinin işinin əsasını təşkil edir.

Kütlələrin ictimai-mədəni fəaliyyəti əsasında mədəniyyət müəssisəsinin işinin təşkili daha ahəngdar olur və bu günün aktual problemlərini əhatə edə bilir. Bədii-kütləvi tədbirlər, əsasən kütlələrin təşəbbüsü əsasında təşəkkül tapır və onların mənəvi tələbatını ödəyə bilir. Onu da qeyd edək ki, bədii-kütləvi tədbirlərdə iştirakçıları yaradıcılığa cəlb etməyin böyük mədəni-sosial əhəmiyyəti vardır. İnsanların sosial-mədəni fəaliyyətinin təşkilində kütləvi informasiyanın (televiziya, radio, mətbuat) təşkili böyük rol oynayır. Ümumiyyətlə, bu gün kütlələr əyani, həm də şifahi informasiyalardan geniş istifadə edirlər.

## IV FƏSİL

# ÜNSİYYƏTİN SOSİAL-KULTUROLOJİ MAHİYYƏTİ VƏ ONUN MƏNƏVİ TƏRBİYƏ SİSTEMİNDƏ ROLU

### *4.1. Tarixi-ənənəvi ünsiyyət formaları və onların sosial-kulturoloji mahiyyəti*

Elmi ədəbiyyatda ünsiyyətin sosial-kulturoloji mahiyyətinə, onun tərbiyə prosesindəki roluna aid müxtəlif fikirlər mövcuddur. Ünsiyyətin elmi əsasları əsasən sovet mədəniyyətşünaslığında və pedaqoji elmdə kommunist metodologiyası aspektində şərh edilmişdir. Çox zaman bu tədqiqatlar reallıqlardan uzaq olmuş, sosialist həyat tərzinin kommunist prinsiplərinə uyğunlaşdırılmışdır. Kommunist cəmiyyəti ünsiyyətin azad mühiti kimi göstərilmiş, ancaq ünsiyyətin milli və dini formaları, onun tarixi ənənəviliyə söykənməsi haqqında elmi tədqiqat və təhlillər aparılmamışdır. Tarixi, fəlsəfi aspektlərdə aparılan bir sıra tədqiqatlardan aydın olur ki, insanın təkamül prosesi onun ünsiyyət mədəniyyətindən də asılı olmuşdur. Ünsiyyət mədəniyyəti bu və ya digər formada ictimai şüurun başqa sahələrinə də təsir etmiş, dünyagörüşünün, yaradıcılıq vərdişlərinin, əxlaqi cəhətlərin, davranış normalarının, ictimai mühiti əhatə edən bütün amillərin hərəkət və inkişaf rüşeyminə çevrilmişdir.

Ünsiyyət bəşər tarixinin ilkin dövrlərində instink xarakter daşıdığı halda, yeni əmək formalarının yaranması, eləcə də kainatın dərk olunmasına olan maraq insan zehniyyatını dərinləşdirmiş, onu fizioloji varlıqdan ictimai varlığa çevirmişdir. Bunun da nəticəsində şüurlu ünsiyyətin təkamül prosesi başlanmışdır.

Maraqlıdır ki, görkəmli alman alimi F.Şiller «Estetik tərbiyə haqqında məktublar» adlı yazısında insanın bilavasitə ünsiyyətlə bağlı olan gözəllik duyumunu fitri istedad əsasında inkişaf edən bir oyun, düşünülmüş məqsədin həllini ifadə edən bir əyləncə adlandırmışdır.



İnsan, cəmiyyətin təkamülü haqqında əldə olunmuş bilgilərə görə, üst poleolit dövründən başlayaraq ünsiyyətin mahiyyəti şüurun təkamülünə uyğun şəkildə inkişaf etmişdir. Adi ünsiyyət get-gedə məqsədli ünsiyyət həddinə çatmışdır. İnsanı əhatə edən aləmin mürəkkəbliyinin dərki prosesində ünsiyyətin də yeni keyfiyyətləri və xassələri meydana çıxmışdır. Əvvələr ov üzərində qalib gəlmək, düşmənini məğlub etmək üçün birləşən insanlar sonralar daha mürəkkəb və məqsədli ünsiyyət formalarından istifadə etmək məcburiyyəti qarşısında qalmışlar. İnsan təbiət və cəmiyyətdə hökm sürən qanunauyğunluqların mahiyyətini, onların hər birinin özünəməxsusluğunu müəyyənləşdirmək istəyirdi. Məhz bu müəyyənləşdirmək istəyi insan təfəkküründə bir sıra inanclar, vərdişlər, adət və ənənələr yaratmışdır.

İnsan təbiət və cəmiyyətdəki hadisələrlə daha yaxın və emosional ünsiyyət yaratdıqca onun baxışları və zövqü də müəyyən istiqamətdə formalaşır, onu yeniləşməyə doğru çəkib aparırdı.

Bəllidir ki, ünsiyyət həmişə duyğular vasitəsilə müşaiyət olunur. Duyğularımız müşaiyət olunan obyektin xassələri haqqında biliklər yaradır, bu obyektin xassələrini öyrənməyə, ona bu və ya digər formada təsir göstərməyə yardımçı olur. Məhz ünsiyyət zamanı aparılan müşahidələrin duyğularımız vasitəsi ilə inikas olunması prosesində yeni dərketmə keyfiyyətləri yaranır. Bu keyfiyyətlər isə özlüyündə yeni məzmuna çevrilir. Məsələn, kainatda mövcud olan özünüdərketmənin məzmununu və mahiyyətini müşahidələr və birbaşa ünsiyyət vasitəsilə anlamağa çalışan insan tarixən bir sıra dini anlayışlar, etiqadlar, adət və ənənələr yaratmışdır. Bununla da əvvəlki ünsiyyət anlayışları toplusundan doğan yeni məzmunlu ünsiyyət vasitələri meydana gəlmişdir.

Yeni ünsiyyət vasitələrinin həm forması, həm də məzmunu mahiyyət etibarı ilə idraklaşdırılmış, daha mücərrəd anlayışlarla zənginləşmişdir. Buna animistik anlayışların, adət və ənənələrin meydana gəlməsini, onların etiqad və xüsusiyyətlərini misal göstərmək olar.

Dini anlayışların və mərasimlərin meydana gəlməsi ünsiyyətin daha kütləvi olması üçün vasitəyə çevrildi. Dini bayram və mərasimlər insanları fövqəltəbii inam ətrafında daha sıx şəkildə birləşdirdi. Bu birləşmə də öz növbəsində insani fəaliyyətin yeni keyfiyyətdə inkişafı üçün əbədi zəmin yaratdı. İnsanların təklənməsinin qarşısını dini qanun və inanclara istinad edərək ala bildi.

Kütləvi ünsiyyətin dini forması insanların vahid cəmiyyət şəklində birləşmək mühitini yaratdı. Dini ünsiyyət insanları fövqəltəbiiləşdirilmiş obyektlər və fikirlər ətrafında toplaya bildi. Daha sonralar isə insanların çoxu tək Allah ideyası ətrafında birləşdi. Sinaqoqlar, kilsələr, məscidlər və başqa dini mərkəzlər onların ünsiyyət yerlərinə çevrildi. Beləliklə də, kütləvi dini ünsiyyətlər kütləvi dini mədəniyyətlərin formalaşmasına səbəb oldu. Dini ünsiyyət vasitəsilə müxtəlif xalqlar, millətlər, irqlər birləşə bildi. İndi dünyada «islam mədəniyyəti, «xristian mədəniyyəti» və s. kimi anlayışlar reallıqlara əsaslanır.

Dini ibadətlərin kütləvi şəkildə icra olunması insanları ruhən birləşdirir, onların duyğu və hisslərini dini əxlaqi tələblər əsasında tənzimləyir. Bununla bağlı olaraq Hacı Sabir Həsənli yazır ki, ibadət məvhumu dar ayinçilik, Allaha yalnız ruhi əlaqə mənasında başa düşülməməlidir. Bu ibadət Allaha bəndəlik və bu bəndəlikdən irəli gələn fəaliyyətdir. Bu mənada ibadət insanın yer üzündə fəaliyyətini tənzim edən əhatəli proqrama bənzər kamil bir həyat təcrübəsidir.

Misaldan göründüyü kimi, dinin mənəvi dəyər olaraq əxlaqi münasibətlər yaratmaq təbiəti yalnız ünsiyyət prosesində idraka hopdurulur və realizə olunur. Eyni zamanda dini adət və ənənələrin mühafizəkar təbiəti etik davranışa, günahsız həyat mövqeyinə zəmin yaradır.

Beləliklə də, dini zəmində baş verən ünsiyyət milli münasibətlərin prosesini də Allah ideyası ətrafında tarazlaşdırır. İnsanın Allah qarşısında günahlar törətməsinə qadağalar qoyulmaqla mənəvi birlik, xeyirxah əməllərlə yaşamaq prinsipi irəli sürülür.



Qurani Kərimdə deyilir ki, *ey iman gətirənlər! Allaha, Peyğəmbərə və özünüzdən olan ixtiyar sahiblərinə itaət edin!* Əgər bir iş barəsində mübahisə etsəniz, Allah və qiyamət gününə inanırsınızsa, onu Allaha və Peyğəmbərə həvalə edin! Bu daha xeyirli və nəticə etibarı ilə daha yaxşıdır.

Təəssüflər olsun ki, kommunist ideoloqları uzun müddət dinin sosial-psixoloji təsir gücünün əxlaqi cəhətlərini danmış, onu xalq üçün «tiryək» adlandırmışlar. Lakin din ictimai şüurun xüsusi forması kimi qədim daş dövründə meydana gəlmiş və özünün müxtəlif adət və ənənələrini yaratmışdır. Bu adət və ənənələr ictimai həyatın bütün tərəflərini əhatə etmiş, insanların davranış normalarına çevrilmişlər.

Adət və ənənələr ünsiyyət vasitəsi olaraq təkcə mənəvi cəhətlərin təzahürü deyil, cəmiyyətin sosial-mənəvi və mədəni tərəqqisinin göstəriciləridir. Öz adət və ənənələrinə görə xalqlar, millətlər bir-birindən qismən də olsa fərqlənirlər. Bu mənada adət və ənənələr maddi və mənəvi təkamülün nəticəsini nümayiş etdirir və ayrı-ayrı millətə və xalqa xas olan mənəvi dəyər kimi nəzərə çarpır.

Adət və ənənənə hər bir fərdi özünün sosial-psixoloji mühitinin təsiri altına salır və ənənəvi olan əxlaq vərdişlərini, davranış normalarını ona icra etdirir. Xüsusilə, mərasim anları qanuni hal kimi hamı tərəfindən qəbul olunan emosional təsir mərhələsi və ya anıdır. Onda iştirak edən hər bir fərdin bu emosional təsir anından kənarda qalması qeyri-mümkündür.

Dini və milli adət - ənənələr xalqın yaradıcılıq məhsulu olduğundan əsrlər boyu yaşamışdır. T.Haqverdiyev yazır ki, adət və ənənələr insanların kədər anının təsəllisi, sevincinin isə carçısı olmuş, xalqın mənəvi təbliğat tribunasına çevrilmişdir.

Burdan aydın olur ki, adət və ənənələr xalqın həyat tərzi ilə bağlı olduqda əbədi yaşamaq şansı əldə edir. Onlar müxtəlif formasiyalarda qismən modernləşsə də, öz mahiyyətlərini qoruyub saxlaya bilirlər. Məsələn, Novruz bayramı yarandığı gündən bəri beş ictimai formasiyanı yaşamış, insanların mədəni ünsiyyət vasitəsi olmuşdur. Bundan sonra da yaşayacaq və ünsiyyət vasitəsi kimi mənəvi

saflaşmanın, yeniləşmənin, paklaşmanın rəmzi xüsusiyyətlərini qoruyub saxlayacaqdır.

Bayramların mənəvi dəyərini yüksək qiymətləndirən fransız filosofu J.J.Russo demişdir: ... «Əgər xalqı zəhmətkeş və yaradıcı etmək istəyirsinizsə, ona bayram etmək imkanı verin».

Təbii ki, xalqa təntənəli bayram etmək imkanını güclü iqtisadiyyata malik olan cəmiyyət verir. Cəmiyyətin sosial-iqtisadi durumu pis olduqda onun ənənəvi xalq bayramları da sönük olur. Xalq bayramları kütləvi ünsiyyətin ən güclü emosional təsir formalarıdır. Xüsusilə, belə bayramların emosional təsiri altında kütlə psixologiyası fərdilikdən ümumiliyə doğru dəyişir, bayram ünsiyyətinin ideoloji mühitini yaşayaraq vahidləşir. Fransız psixoloqu Q.Lebon «Kütlənin psixoloqiyası» kitabında yazır ki, kütləni təşkil edən fərdlərin necə, nə cür adam olmasından, xarakter və ağlından asılı olmayaraq birləşib kütlə əmələ gətirdiyi zaman, onların hamısında eyni qəlb, eyni ağıl, eyni hissiyyat və eyni xarakter olur. Kütləni əmələ gətirən fərdlərdə tamamilə yeni ideyalar və hisslər yaranır.

Q.Lebon kütləvi ünsiyyətin üç əsas təsir mərhələsinə diqqət yetirir. Onun fikrincə birinci mərhələdə, kütləyə qarışan fərd, ətrafındakı adamların çoxluğundan ruhlanıb yeni qüvvə və cəsarət alır. Bu mərhələdə fərdin tənhalıq zamanı daşıdığı məsuliyyət, cavabdehlik mahiyyət etibarı ilə dəyişir, kütlə düşüncəsi səviyyəsinə düşür.

İkinci mərhələ, adamların bir-birinə sirayət etməsidir. Məsələn, kütləvi bayramın iştirakçısı olan hər bir adam özündən asılı olmayaraq kütlənin yaşadığı hisslərə, əhval-ruhiyyəyə, davranışa və s. psixoloji vəziyyətlərə yoluxur. Bu proses, 1988-1990-cı illərdə Azərbaycanda baş verən meydan hərəkatında da təsdiqlənmişdir. Fərdin sosial qrupundan asılı olmayaraq meydan psixologiyası onun davranışına və düşüncəsinə də sirayət etmişdir.

Üçüncü mərhələ, xasiyyətin dəyişməsi mərhələsidir. Kütləvi tədbirin (bayram, mərasim və s.) iştirakçısı bu mühitdə təsir altına tez düşür və onda yeni bir xasiyyət



formalaşır. Beləliklə də, kütləvi ünsiyyət zamanı təqliq edilən hər şeyi fərd qəbul edir.

Maraqlıdır ki, fərdin kutləvi tədbirdə fizioloji xüsusiyyətləri daha da aktivləşir, o özünə məxsus olan şüurdan müəyyən mərhələdə uzaq düşür və öz şüuru üzərindəki hökmranlığını itirib kütlə üçün proqramlaşdırılmış ideyalarla, əxlaqi amillərlə yoluxur.

Görünür Sovet hakimiyyəti dövründə kommunist ideoloqları kütləviliyin sosial-psixoloji mahiyyətini anlayaraq «böyük bayramlar» keçirmək ənənəsini yaratmışdılar. Təşkil olunan bayramların psixoloji muhitində insanları fizioloji varlığa çevirib, onların «pozulmuş şüuru» yerinə kommunist əxlaq prinsiplərini yazmağa çalışmışlar. Bu məqsədlə tarixi-ənənəvi ünsiyyət formalarından geniş istifadə etmişlər.

Kütlənin sosial fəallığına təsir göstərən tarixi-ənənəvi ünsiyyət formalarını şərti olaraq üç qrupa bölmək olar:

1. Kütləvi ünsiyyətin cəmiyyət üçün ən yararlı formaları ilk növbədə onun özünün yaratdığı sosial, tarixi, inqilabi və vətənpərvərlik ənənələridir. Buraya rəsmi dövlət bayramları, tarixi bayramlar, xatirə günləri, görkəmli şəxslərin ad günləri və s. daxildir. Belə formalı kütləvi ünsiyyət tədbirləri əsasən rəsmi şəkildə təşkil olunur. Təbii ki, onların təşkil olunmasında əsasən hakimiyyətin, mövcüd rejimin və ya ictimai birliyin maraqları üstünlük təşkil edir. Buna görə də, hakimiyyət kütləni özü ilə həmrəy etmək, onu daima öz təsiri altında saxlamaq məqsədi ilə adamları kütləvi ünsiyyətə cəlb etmək imkanlarını əldən vermir. Məlum məqsədə görə də, belə ünsiyyət tədbirlərində əsas təşkilatçı hakimiyyət olur. Ayrı-ayrı fərdi keyfiyyətlər kütlənin real şüur səviyyəsinə enir. Onlar kütləni idarə edən adamların düşünüb hazırladığı plana itaət edir, verilən əmrlərə tabe olurlar.

Məlum olduğu kimi, məhz, qeyd olunan səbəbə görə kommunizm rejimi dövründə süni şəkildə olsa da bir çox adət və ənənələr yaradılmışdır. Lakin, hakimiyyət tərəfindən təşkil olunmuş bu bayram tədbirləri xalqın sosial maraqlarına uyğun gəlmirdi. Hər halda idarə, müəssisə rəhbərləri vasitəsilə

geniş xalq kütləsi bu təbliğat məkanına cəlb edilir, onların şüuruna təsir olunurdu.

Xalqın özü tərəfindən yaradılmış və onun milli-mənəvi xüsusiyyətlərini qoruyub saxlayan tarixi-ənənəvi ünsiyyət formaları irsi xarakter daşıdığından təşkil olunmadan da kütləları daima özünə cəlb edə bilmişdir. Bu tipli kütləvi bayram və mərasimlərdə könüllülük prinsipi üstünlük təşkil etmiş, onların təşkilatçısı da, ifaçısı da xalq özü olmuşdur. Dini, milli, ənənəvi, fəsil bayramları və s. bu qəbildəndir. Məsələn, xalq həmişə «Novruz» bayramının yeniləşdirici mahiyyətini yüksək qiymətləndirmiş, özünün kütləvi fəaliyyəti ilə onun əsas qəhrəmanına çevrilmişdir. Hər bir fərd özünün sosial-iqtisadi vəziyyətindən asılı olmayaraq «Novruz» adət və ənənələrinə qovuşmağa çalışmış, onun sevinclərini yaşaya bilmiş və indi də yaşamaqdadır;

2. İstehsal ənənələrini, ayin və mərasimləri, əmək bayramlarını ünsiyyət vasitələri kimi ikinci qrupa daxil etmək olar. Bu tipli ünsiyyət də tarixi-ənənəvi xüsusiyyətləri özlərində qoruyub saxlaya bilmişlər. Dini adət və ənənələrdən fərqli olaraq onlar ictimai-siyasi quruluşların ruhuna, həyat tərzinə uyğunlaşa bilmişlər. Bu ünsiyyət vasitələri zamanı, əməyin tərənnümünə daha çox üstünlük verilmiş, zəhmət adamlarının fəaliyyəti, əldə etdiyi nailiyyətlər yetişməkdə olan gənc nəsil üçün örnək olmuşdur. Qeyd olunan ünsiyyət formalarının təşkili məsuliyyəti əsasən mədəniyyət müəssisələri və əmək kollektivləri üzərinə düşmüşdür. Belə tədbirlərdə incəsənət vasitələrindən istifadə etmək imkanı olan mədəniyyət müəssisələri, xüsusi fəallıq göstərmiş, tədbirlərdə ünsiyyətin emosionallığına təminat yaratmaq üçün peşəkarlıq mövqeyinə əsaslanmışlar.

Ünsiyyət prosesinin emosional mühitinin yaradılması incəsənət vasitəsi ilə daha effektlidir. İncəsənət iqtisadi, ictimai və digər problemləri məhz etik-estetik məzmunda açmaqla onların həlli üçün insanları yüksək əməli fəaliyyətə sövq edir.

Deməli, şəxsiyyətin tələb diapazonu nə qədər genişdirsə onun fəaliyyət dairəsi də bir o qədər geniş olur. Bu baxımdan tələblər insani fəaliyyətin «ictimai proqramı» sayıla bilər.



Kütləvi ünsiyyət vasitələri insanın bir sıra tələblərinin ödənilməsinə təminat və ya ümid yaratdıqda onlar xəlqiləşir və yaşayır;

3. Ailə və məişət adətlərini, ənənələrini, mərasimlərini və sair həyati ünsiyyət vərdişlərini üçüncü qrupa aid etmək olar. Bu tipli ünsiyyət vasitələrinin də tarixi ailənin və məişətin yaranmasının tarixi qədər qədimdir.

Ailə-məişət adət və mərasimləri əsasən, şəxsi səbəb motivləri üzərində qurulsa da, ümumilik, onun aşkaredici atributudur. Fərdin həyatında baş verən əlamətdar tarixi hadisənin və ya anın kütləvi şəkildə qeyd olunması şəxsiyyətin varlığının mahiyyətini təsdiq edir. Bu təşəbbüsdə əsasən qohumlar, dostlar, tanışlar iştirak edirlər. Onların köməyi ilə toylar, nişanlar, ad günləri və s. kütləvi ünsiyyət vasitəsinə çerilir.

Ailə-məişət adət və ənənələrindəki ünsiyyət zamanı milli-etik münasibətlər özünü daha qabarıq şəkildə biruzə verir, ənənəviliyin mühafizəkar təbiəti heç kəsin diqqətindən yayınmır. Burada məişət mühafizəkarlığına bu və ya digər formada təsir etmək çətindir. Çünki, məişət adət və ənənələrində dini cəhətlərlə milliliyin vəhdəti mövcüddur. Kommunist rejimi dövründə ümumsovet mədəniyyəti yaratmaq üçün və xalqı dindən uzaqlaşdırmaqdan ötrü çox cəhdlər edilmişdir. Sovet tədqiqatçıları millətləri bir-birinə yaxınlaşdırmaq pərdəsi altında məişətin dini-milli olan tərəflərinə qarşı çıxırdılar. Həmin «tədqiqatçılar ordusundan» biri olan O.Abdullayev yazır ki, şəxsi ailə-məişət ənənələrinin millətlərin bir-birinə daha da yaxınlaşmasında, məişət münasibətləri sistemindəki zəhərli, mühafizəkar adət və mərasimlərin aradan qardırılmasında böyük əhəmiyyəti vardır.

Hələ vaxtilə M.Ə.Rəsulzadə adət və ənənələri millətin təməl daşı hesab etmiş, onları xalqları mədəniyyətcə bir-birində fərqləndirə bilən başlıca amil kimi qiymətləndirmişdir.

Dini-milli adət və ənənələri «keçmişin zərərli qalıqları» adlandıran sovet ideologiyası əslində sovet imperiyası altına düşmüş xalqları öz tarixi-ənənəvi irsindən məhrum etmək,

«beynəlmiləlçilik» prinsipləri pərdəsi altında dini olandan imtina etmək məqsədi güdürdü. Buna görə də, ölkənin mədəniyyət müəssisələrində keçirilən tədbirlərin məzmununa ciddi nəzarət olunur, hətta həmin tədbirlərin dəvətnamələri də Dövlət Təhlükəsizlik Komitəsinin nəzdində fəaliyyət göstərən senzuradan keçirilirdi.

Azərbaycan müstəqillik əldə etdikdən sonra mədəni ünsiyyət mərkəzləri üzərindən nəzarət götürüldü.

Lakin, Sovet dövrünün mənəvi tərbiyə sahəsindəki fəaliyyətini birtəfli şəkildə heçə endirmək də haqsızlıq olardı. Mədəniyyətin təkamülünə daha çox üstünlük verən bu cəmiyyətdə böyüməkdə olan nəslin tərbiyə problemi ön plana çəkilirdi. Məktəbdən kənar tərbiyə müəssisələri yaradılır, hər bir gəncin yaradıcılıq potensialını və istedadını üzə çıxartmaq üçün dərnək və birliklər meydana gəlirdi. Bu da əsasən cəmiyyətin daxilində işsizlik probleminin olmamasından, əmək kollektivlərində sağlam mənəvi mühitin mövcüdluğundan, məktəblə mədəniyyət müəssisələrinin qarşılıqlı əlaqələrinin olmasından, asudə vaxt büdcəsinin yaradıcılıq meyllərinə balanslı şəkildə uyğunlaşdırılmasından irəli gəlirdi. Hamı bilir ki, mədəni asudə vaxt şəxsiyyətin hərtərəfli, ahəngdar inkişafı istirahət, sağlamlığın möhkəmləndirilməsi və fiziki inkişafı, ictimai iş və təhsil, elm, texnika və mədəniyyət sahəsində qabiliyyətin inkişafı, bədii yaradıcılıq, yoldaşlıq ünsiyyəti və uşaqların tərbiyəsi üçün istifadə edilən istehsaldan kənar əhəmiyyətli bir vaxtın hissəsidir.

Asudə vaxt ünsiyyəti əmək ünsiyyətindən fərqli olaraq ən çox tarixi-ənənəvi xüsusiyyətlər uzərində qurulur. Asudə vaxt ünsiyyəti zamanı şəxsiyyət müstəqil seçim, yaradıcılıq və digər başqa fəaliyyət imkanlarına malik olur. O, bayram şənliklərində iştirak edir, bədii ifaçılıq və yaradıcılıqla məşğul ola bilir, müxtəlif insan qrupları ilə ünsiyyətə girir və fikir mübadiləsi edir və s. Lakin asudə vaxt ünsiyyətinin səmərəliliyi əsasən onun təşkilindən və iştirak edənin fərdi fəallığından daha çox asılıdır. Asudə vaxt təşkilatçısı ünsiyyətin nəticələrini əvvəlcədən proqnozlaşdırmalı, dinamik



hərəkət və ya fəaliyyət planı, ssenari hazırlamalıdır. Bu hazırlıq prosesində ünsiyyətdə iştirak edənlərin sosial-psixoloji vəziyyətləri təhlil olunmalı, konkret sosioloji analizlər aparılmalıdır. Öncə ünsiyyətdə iştirak edən hər bir fərdin ictimailəşmə dərəcəsi müəyyənləşdirilməlidir.

### *4.2. Ünsiyyət prosesində milli özünüdərketmə və informasiya mübadiləsinin rolu*

Mədəni ünsiyyətin təşkili hər bir ictimai-siyasi quruluşun gündəlik həyat problemləri ilə bağlıdır. İctimai-siyasi quruluşlar dəyişdikcə mədəni ünsiyyətin də məzmunu və mahiyyəti yeni yaranan cəmiyyətin spesifik xüsusiyyətlərinə uyğunlaşdırılmışdır. Cəmiyyətin məzmunu mədəni ünsiyyətin mahiyyətinə də fərqli təsir göstərmişdir. Bu baxımdan keçmiş Sovet ittifaqı məkanında təşkil olunan mədəni ünsiyyətin əsas ölçü meyarı kommunist əxlaq prinsipləri olmuşdur. Mədəniyyət müəssisələri həmin prinsiplərin tələbləri səviyyəsində olan ünsiyyət vasitələrinə üstünlük vermişdir. Həmçinin, tətbiqi kulturologiya sahəsində bu prinsiplərə uyğun olan elmi-metodiki ədəbiyyatlar yazılmış, cəmiyyətin ideoloji tələblərinə cavab verən elmi tədqiqatlar aparılmışdır.

Mədəniyyət müəssisələrinin ideoloji mərkəzlərə tabe olmalarına baxmayaraq kulturoloqlarımız tarixən formalaşmış milli-ənənəvi ünsiyyət növlərinin və vasitələrinin inkişaf etməsinə və təkmilləşməsinə də xüsusi diqqət yetirməyə çalışmışlar. Ancaq onlar mövcud ictimai ideoloji quruluşun tələblərindən kənara çıxa bilməmişlər.

SSRİ dağıldıqdan sonra Azərbaycan Respublikası müstəqillik əldə etmiş, bununla da yeni ictimai, siyasi, iqtisadi quruluşun yaranması insanlar arasındakı mədəni ünsiyyət əlaqələrinin sərhədlərini də xeyli genişləndirmişdir. Azərbaycan Dövləti dünya mədəniyyətinə daha azad şəkildə inteqrasiya olunmaq və beynəlxalq təcrübədən öyrənmək imkanı əldə etmişdir.

1991-ci ildə Azərbaycan müstəqil dövlət kimi yeni ictimai, siyasi, iqtisadi quruluşa qədəm qoymuş, onun mədəni

həyatında da bir sıra dəyişikliklər baş vermiş, çevik demokratik fəaliyyət mərhələsi başlanmışdır. Məhz yeni cəmiyyətdə demokratik əsasların üstünlük təşkil etməsi insanların arasındakı əlaqələrin sərhədlərini genişləndirmiş, mədəni ünsiyyətin forma və mahiyyətində də yeniləşmə aparılmasının labüdlüyünü aşkarlamışdır.

Azərbaycanın ictimai-siyasi və mədəni həyatında baş verən dəyişikliklər ünsiyyətin sosial-psixoloji mahiyyətini də dəyişdi. Yeni cəmiyyətin yaranması və onun insanlara bəxş etdiyi demokratik prinsiplər mədəni ünsiyyət sahəsində mövcud olan məhdudiyyətlərin də aradan qaldırılmasına səbəb oldu. Məhz bu məhdudiyyətlərin aradan qaldırılması ümumbəşəri mədəni sərvətlərdən daha geniş istifadə olunmasına mənəvi zəmin yaratdı, mədəni ünsiyyətin tarixi-ənənəvi cəhətlərdən bərpa edilməsi problemlərinin aktuallığını üzə çıxartdı. Məlum oldu ki, insanların əsrlər boyu inkişaf etmiş milli, dini ünsiyyət formaları və başqa mənəvi dəyərləri böyük tərbiyəvi əhəmiyyət kəsb edir, mahiyyət etibarı ilə müasir dövrdə də insanlar arasında mədəni ünsiyyət əlaqələrinin genişlənməsi üçün yeni sosial psixoloji zəmin yaradır.

Cəmiyyət həyatının bazar iqtisadiyyatı tələblərinə uyğunlaşdırılması mədəni ünsiyyətin sosial-psixoloji mahiyyətini də dəyişmişdir. Bu səbəbdən də, yeni cəmiyyətin demokratik prinsipləri ilə kommunist sovet rejimi dövründən miras qalmış mədəni inkişaf konsepsiyası arasında kəskin ziddiyyətlər mövcuddur. Xüsusilə, kommunist mədəniyyəti konsepsiyası və əxlaq prinsipləri ölkəmizin mədəni-maarif müəssisələrinə dünya mədəniyyəti nümunələrindən geniş şəkildə istifadə etmək imkanları verməmişdir. Məhz bu məhdudiyyətlərin aradan qaldırılması, ümumbəşəri sərvətlərdən daha geniş istifadə olunması, mədəni ünsiyyətin tarixi ənənəvi cəhətlərinin bərpa edilməsi problemi, bu gün aktuallıq baxımından mühüm əhəmiyyətə malikdir.

İndi cəsarətlə demək olar ki, insanların əsrlər boyu yaradıb inkişaf etdirdikləri milli, dini ünsiyyət formaları və başqa mənəvi dəyərləri tərbiyə sistemi sahəsində də öz



aktuallığını qoruyub saxlaya bilmiş, onlar müasir dövrdə də mahiyyət etibarı ilə insanlar arasında mədəni ünsiyyətin genişlənməsi üçün sosial-psixoloji zəmin yaratmışdır.

Dövlət quruluşunun və onun ictimai-siyasi mühitinin dəyişməsi mədəni ünsiyyət vasitələrinin də yeni elmi-nəzəri əsaslarının işlənməsini aktuallaşdırmışdır. Onu da qeyd etmək lazımdır ki, quruluşun dəyişməsi ilə əlaqədar olaraq mədəni-maarif müəssisələrinin işində deformasiya baş vermişdir. Bu deformasiyanı aradan qaldırmaq və ünsiyyəti bilavasitə insanların maraq və ehtiyaclarına uyğun şəkildə qurmaq üçün ilk növbədə, kommunist rejimindən qalmış ideoloji və siyasi məhdudiyyət prinsiplərindən uzaqlaşmaq lazımdır. Məhz elə buna görə də, bu problemin elmi həlli, xüsusilə mədəni-maarif müəssisələrində mədəni ünsiyyət mexanizminin işlənib, tətbiq edilməsi bu gün aktuallıq kəsb edir. Eyni zamanda Azərbaycanın dünya mədəniyyətinə inteqrasiya olunması üçün beynəlxalq nümunələrin öyrənilməsi və müxtəlif mədəni ünsiyyət vasitələrinin ölkəmizdə tətbiqi öz elmi aktuallığını bir daha təsdiqləyir. Belə ki, bu gün milli mədəniyyəti yaşatmaq, onu inkişaf etdirib gələcək nəsillərə düzgün çatdırmaq hər bir kulturoloqun əsas vəzifə borcu olmalıdır.

Kulturoloq alimlərin dediyi kimi «... gələcəyin cəmiyyəti-mədəni asudə vaxta, istirahət və əyləncəyə, eyni zamanda təhsilə doğru yönəldilmiş bir cəmiyyət olacaqdır.» Bu nikbin fikirləri nəzərə alaraq bu gün sağlam ünsiyyətin yaradılmasına və eləcə də intellektual səviyyəyə müsbət təsir göstərən mədəni-kütləvi tədbirlərin genişləndirilməsinə xüsusi diqqət yetirilməlidir.

İnsanların bir-biri ilə ünsiyyətə girməsinin əsas səbəblərindən biri də müxtəlif aktual informasiyalara yiyələnmək tələbatı ilə bağlıdır. Hələ lap qədim zamanlardan informasiya mübadiləsi insan cəmiyyətində xüsusi yer tutmuş, şəxsiyyətlər arasındakı ünsiyyətin, yaxınlaşmanın əsas vasitələrindən birinə çevrilmişdir. Eramızdan əvvəl V əsrdə yaşamış sofistlər mücərrəd şəkildə olsa da informasiya mübadiləsinin ünsiyyətə təsirini kommunikasiya prosesi ilə əlaqələndirməyə çalışmışlar. Bəsit formada olsa da onlar

kommunikasiyanı üç mühüm aspektə bölmüşlər. Bu bölgüyə görə:

1) İnsanlar arasında mövcud olan əlaqələr və onların bir-birinə qarşılıqlı təsirindən ibarətdir;
2) İnsanlar arasında əmələ gələn kommunikativ əlaqələr özbaşına, təsadüfən yaranmış, əslində o, mühitdən, şəraitdən asılıdır və müəyyən səbəblərlə bağlıdır;
3) Kommunikativ əlaqə hər iki tərəfin yalnız xeyri ilə nəticələnmir. Tərəflərdən biri bu əlaqədən az və ya çox dərəcədə zərər də çəkə bilər.

Bununla yanaşı qədim yunan filosofu Sokratın fikrincə, kommunikasiya insanın özünüdərketməsinə də kömək edir, onu təminatlı dərəcədə istiqamətləndirir.

Kommunikasiya prosesinin baş verməsi informasiya mübadiləsi yaratmaq istəyən iki tərəfin hissi, əməli fəaliyyətindən asılıdır. Təbii ki, onların hər ikisinin içində rəylər, məlumatlar yığımı mövcuddur və tərəflər bu rəy və məlumatları bir-biri ilə ünsiyyət yaratmaqla aşkarlaya bilirlər. Belə bir vəziyyətdə hər iki tərəf ünsiyyətin həm obyektinə, həm də subyektinə çevrilirlər.

Sosial-psixoloji baxımdan informasiya mübadiləsi fərdi və ya qrup şəklində də ola bilər. Lakin, mübadiləyə girən hər iki tərəf azlıqdan və ya çoxluqdan asılı olmayaraq bir-birini kifayət qədər məlumatlandırırlar.

Bu prosesin ikinci əsas şərti hər iki tərəfin istifadə edə biləcəyi vahid kommunikasiya vasitələrinin mövcudluğudur. Yəni ünsiyyətdə olan tərəflər informasiyanı bir-birindən deyil, onların hər ikisinə bəlli olan konkret mənbədən götürürlər. Bu mənbə kitabxana, sənədli film, məruzəçi, icmalçı və s. ola bilər. Hər halda vahid informasiya mərkəzi hər iki fərdin eyni zaman və məkandan məlumatlanmasına imkan yaradır. Alman məlumatlar yenidən müzakirə obyektinə çıxarılır və mübadilə materialına çevrilir. Xüsusilə, kommunikasiya prosesində çatdırılan məlumatın qəlizliyi onun yenidən şərhinə ehtiyac yaradır. Bu proses də ünsiyyətin davamlılığını artırır və eyni zamanda informasiyanın dərk olunmasını asanlaşdırır.



Təəssüflər olsun ki, istər pedaqoji, istərsə də mədəniyyətşünaslıq aspektində ünsiyyətdə informasiya mübadiləsinin mahiyyəti geniş işlənilməmişdir. Əslində isə, insanların mədəni asudə vaxt mərkəzlərinə getməsinin bir səbəbi də ünsiyyətə girib informasiya əldə etmək marağıdır.

Bir-biri ilə informasiya mübadiləsi etmək bütün insanlara xas olan cəhətdir. Lap qədim zamanlardan kənd və şəhərlərdə insanlar müxtəlif yerlərə toplaşıb baş verən ayrı-ayrı hadisələri, şəxsləri müzakirə obyektinə çıxarmışlar. Yaxşı və ya pis mənada «qiybətlər» etmişlər. Hamının qiybət kimi qəbul etdiyi bu proses əslində, hər bir fərdin informasiya mübadiləsi etmək, məlumatlandırmaq ehtiyacından irəli gəlmişdir.

Kənddə və ya şəhərdə informasiya vasitələri artdıqca fikir mübadilələri də çoxalmışdır. Ailə-məişətlə, yerli fəaliyyətlərlə bağlı məlumatlara beynəlxalq məlumatlar da əlavə olunmuşdur. Tədricən informasiyanın geosiyasi məkanı artmış, insanların dərktemə fəaliyyəti genişlənmişdir.

Hələ XX əsrin 80-ci illərində kütləvi informasiya və təbliğat vasitələri auditoriyası arasında aparılmış sosioloji tədqiqatlar göstərmişdir ki, iqtisadi və beynəlxalq həyat məsələlərinin işıqlandırılması oxucunu, televiziya tamaşaçısını və radio dinləyicisini əsasən təmin edir. Eyni zamanda onlar insan münasibətlərinə, adamların istehsalatda və məişətdə gündəlik fəaliyyətinə aid problematikanı, əxlaq və tərbiyə mövzularını daha dolğun və daha ixtisaslı şəkildə işləyib hazırlaya bilirlər.

İnformasiya vasitələrinin çoxluğu və onların peşəkarlıq səviyyəsi insanların müxtəlif məlumatları dərk etmək qabiliyyətini artırmış, ünsiyyətin məzmununu dolğunlaşdırmışdır.

Məhz dərketmə fəaliyyətinin genişlənməsi informasiya mübadiləsinin məzmununu zənginləşdirmiş, bu məqsədin mədəni formada realizə olunması üçün yeni vasitələr yaratmışdır. Belə ki, mədəniyyət müəssisələri də məlumatlandırıcılıq mahiyyəti kəsb edən əyləncəli tədbirləri ilə

əslində insanları informasiyalaşdırmaq funksiyasını da yerinə yetirmişdir.

Dərketmə fəaliyyəti informasiya mübadiləsinin əsas komponentlərindən biridir. Bu fəaliyyət növü də ünsiyyət prosesində iki istiqamətdə inkişaf edir. Birinci mərhələ məlumatın bir-birinə ötürülməsi və mənimsənilməsi prosesidir. Məlumatın bir-birinə ötürülməsi əsasən fərdiləşdirilmiş ünsiyyət prosesində baş verir. Lakin məlumatın çatdırılması prosesi mühazirə, disput, tədbirlər, dərnək məşğələləri zamanı da baş verir. Hər iki halda məlumat büdcəsi artır. Eyni zamanda mübadilə olunur. Məlumatın mübadiləsi isə yeni müzakirələrin, diskussiyaların yaranması üçün mövzular meydana gətirir. Hər bir fərdin yeni evristik fəaliyyəti formalaşır. Yəni, informasiya mübadiləsi təfəkkürü dərinləşdirir, yeni biliklərin əldə olunmasının həm də evristik fəaliyyət mühitini yaradır.

Ünsiyyətdə informasiya mübadiləsi təkcə məlumat toplumu ilə nəticələnmir. İnformasiya mübadilələri ünsiyyətinə girmiş şəxs müzakirə olunan, görünən və eşidilən hadisələrin mahiyyətini də qiymətləndirməkdən yan keçmir. Hər bir fərd onu əhatə edən mühiti, ictimai hadisələri, özünün və başqalarının davranışlarını müzakirə obyektinə çıxarmaqla, həm də onlara qiymət verir. Təbii ki, bu qiymətləndirmə fəaliyyəti alınan məlumatları daha da dərinləşdirir, yaddaşı gücləndirir, hadisə və fikirləri müqayisə etmək, təkrar düşünmək, çıxarılan qərar və nəticələrin doğruluğunu yoxlamaq imkanı yaradır.

İnformasiya mübadiləsi zamanı təzahür edən qiymətləndirmə fəaliyyəti özü də ziddiyyətlidir. Əvvələ ona görə ki, informasiya mübadiləsində iştirak edən hər bir fərdin ictimai-siyasi, elmi dünyagörüşü müxtəlifdir. Zövqlərin də müxtəlifliyini buraya əlavə etsək deyə bilərik ki, hər bir hadisənin, predmetin mahiyyətinə fərdlərin birmənalı şəkildə qiymətləndirilməsi mümkün deyildir. Lakin, birgə informasiya mübadiləsi müəyyən hadisələr haqqında ümumi ictimai fikir yarada bilir. Sözsüz ki, ümumi ictimai fikrin formalaşması ünsiyyətin təşkili vasitəsindən çox asılıdır. Xüsusilə emosional



kütləvi oyun ünsiyyətindən kütləvi tamaşa, teatr, kino vasitəsindən, mühazirə və disput formalı tədbirlərdən istifadə etmək yolu ilə ictimai fikrin formalaşdırılması prosesi daha operativ şəkildə baş verir. Bunu Bakının bir sıra mədəniyyət müəssisələrində apardığımız psixoloji tədqiqatlar da bir daha təsdiq edir. Qeyd olunan ünsiyyət vasitələrinin iştirakçıları ictimai mühitin psixoloji təsiri nəticəsində tədricən fərdiçiliyə xas olan qiymətləndirmə fəaliyyətindən ictimai qiymətləndirmə fəaliyyətinə keçirilir.

Qiymətləndirmənin ictimailəşməsi əsasən dərnək və birliklərdə, kütləvi tamaşalarda və s. mədəni-kütləvi tədbirlərdə daha çevik baş verir. Bu baxımdan Respublika Aqrar Sənaye Həmkarlar Komitəsinin nəzdində 1997-ci ildən yaradılmış «Çiçəyim» adlı uşaq teatrının fəaliyyəti də bunu sübut edir. Burada əsasən, məktəbli uşaqlar fəaliyyət göstərirlər. Onlar tamaşa hazırlığı prosesində təkcə həvəskar aktyorlar kimi fəaliyyət göstərmir, həm də geniş informasiya mübadiləsində olur, bu və ya digər tamaşaları, aktoyr oyunlarını, rejissor işini müzakirə edir, onlara məntiqi qiymət verməyə çalışırlar. Dərnək rəhbərinin iştirakı ilə ardıcıl olaraq keçirilən müzakirələr, informasiya mübadilələri, nəticədə uşaq teatrının iştirakçılarını hər tərəfli məlumatlı edir, onların ictimai, elmi, tənqidi baxışlarını formalaşdırır. Xüsusilə, onlar geniş kütlə qarşısında çıxışlar etdikcə özlərinin də sənət fəaliyyətinin əhəmiyyətini hiss edirlər. Belə ki, «Çiçəyim» uşaq teatrı vaxtaşırı olaraq əsgərlər qarşısında, ayrı-ayrı təhsil müəssisələrində tamaşalar göstərir, bədii qiraətlər təşkil edir. Onların bu fəaliyyəti dövlət və ictimai təşkilatlar tərəfindən xüsusi olaraq qiymətləndirilmişdir. Məsələn, Azərbaycan Həmkarlar İttifaqı Konfederasiyası tərəfindən təşkil olunan «Azərbaycan əsgəri» adlı bədii qiraət müsabiqəsində «Çiçəyim» uşaq kollektivi birinci yeri tutmuş, fəxri diploma, pul mükafatına və döş nişanlarına layiq görülmüşdür. Azərbaycan Cümhuriyyətinin 80 illik yubileyinə həsr olunmuş «Ulu Vətənim, Səcdəgahım Azərbaycan» adlı ədəbi-bədii kompozisiya xüsusi ilə yadda qalan olmuşdur.

Qeyd olunan fakt bir daha təsdiq edir ki, ünsiyyətin əsas faktorlarından biri olan informasiya mübadiləsi bütün komponentləri ilə inkişaf etdikcə, fərdlərin peşəkarlıq xüsusiyyətləri də artır, onlar xüsusi vərdişlər və əxlaqi keyfiyyətlər əldə edirlər. Eyni zamanda hər fərdin həyatında yeni keyfiyyət dəyişmələri baş verir. Başqalarının işini, əməlini, əxlaqi keyfiyyətini təhlil edən fərd istər-istəməz özünə də tənqidi yanaşır. Xüsusilə, yaratdığı bədii obrazın yaxşı və ya pis cəhətlərini özünün xüsusiyyəti ilə müqayisə etmək imkanı əldə edir. Bu müqayisə yolu ilə o, həm də özünü qiymətləndirmə fəaliyyətində bulunur. Bundan sonra onun həyatında praktiki dəyişmə halları baş verir. Onun təbiətində, içində yaxşı ilə pisin mübarizəsi meydana gəlir. Fərdin düşdüyü mühitin təsirindən asılı olaraq yaxşı cəhətlər pis cəhətləri tədricən sıxışdırıb çıxarır. Beləliklə də, fərdin bir çox keyfiyyətləri təcrübi fəaliyyət prosesində dəyişir, yeniləşir.

Yeniləşmənin özünün də istiqamətləri müxtəlifdir. İnsanlar düşdüyü mühitdən və şəraitdən asılı olaraq pis mənada da yeniləşirlər. Sovet imperiyası da beynəlmiləl tərbiyə adı altında insanlarımızın təbiətini daima dəyişib, onları «manqurtlaşdırmaq» təbliğatı aparmışdır. İmperiyanın əsarəti altında olan xalqlar və millətlər, soy kökündən, dilindən, adət və ənənələrindən uzaq salınırdılar.

Həsən bəy Zərdabinin təbirincə desək «Bir xalq ki, öz dilini, tarixini, adət və ənənəsini unudursa, bu həmin xalqın belinin sındırılması deməkdir».

Azərbaycan müstəqil olduqdan sonra insanlarımızın şüurunda yeni informasiya mübadiləsi prosesi başlandı. Kommunist rejiminin beynimizə yeritdiyi yalnış informasiyalardan təmizlənmək ehtiyacı yarandı. Ünsiyyət və qarşılıqlı xarakterin təsiri dəyişdi. Bir quruluşdan digər quruluşa keçid dövrü fəaliyyətin məzmununu, funksional tərəfini yeniləşdirdi. İnsanlarda tarixi kökləri öyrənmək, əsrlərdən bəri xalqın yaddaşında və məişətində qorunub saxlanılan adət və ənənələrə əməl etmək meyli gücləndi. Vaxtilə inkar etdirilən informasiya mübadiləsi yenidən müzakirə meydanına çıxarıldı.



Mədəniyyət müəssisələrindəki informasiya mübadiləsi ilk növbədə fəaliyyətin məzmunu ilə əlaqələndirilməlidir. Əgər fəaliyyət ictimai-siyasi, yaxud ideya – mənəvi xarakter daşıyırsa, informasiya mübadiləsi də məhz elə bu məqsədlər istiqamətində aparılmalıdır.

Bir çox rus müəllifləri məlumat mübadiləsini ünsiyyətin kommunikativ qarşılıqlı təsir forması kimi qeyd edirlər. A.Q.Andreyev, A.V.Telyuk, M.S.Kaqan, N.Y.Arefina və başqaları isə bu anlayışla razılaşmırlar. Onlar belə hesab edirlər ki, ünsiyyətin məlumat mübadiləsi kimi təyin edilməsi, onun əhatə dairəsini daraldır. Biz isə öz tədqiqatımızda məlumat mübadiləsini ünsiyyətin tərkib hissələrindən, tərəflərindən biri kimi qiymətləndiririk.

Məsələ ondadır ki, tədqiqatçı Q.M.Andreyeva ünsiyyət termininin özünün də sosial-psixologiyada dəqiq analoqu olmadığını bildirir.

«Kommunikasiya» ingilis sözü olub, hərfi mənası «çatdırmaq», «xəbər vermək» kimi başa düşülür. Həmçinin, kommunikasiya «birləşmək», «qarşılıqlı təsir etmək» kimi də tərcümə olunur. Lakin, kommunikasiya daha çox «əlaqə vasitəsi» kimi başa düşülür. İnformasiya mübadiləsi də ünsiyyətin tərkib hissələrindən biri olub, kommunikasiya, əlaqə vasitəsi kimi başa düşülə bilər.

Ünsiyyətdə olan fərdlər arasında mövcud olan informasiya mübadiləsi təkcə təsəvvürlərin, ideyaların, maraq və baxışların mübadiləsindən ibarət deyildir. Burada hissi olanın, hərəkətlərin, davranışların da mübadiləsi var. Bu cəhət ünsiyyətin interaktiv, yəni bir-birinə qarşılıqlı təsir etmə tərəfini ifadə edir.

İkinci bir cəhət də «perpetiv cəhət» adlanır. Perpetiv cəhət tərəflərin bir-birini dərk etməsi və bir-biri ilə həmrəy olması kimi başa düşülür.

Ümumi təhlillərdən belə nəticəyə gəlmək olar ki, məlumat mübadiləsi, yəni onun alınması və ötürülməsi, reallaşması mexanizmi kommunikasiya formasından asılıdır. Bu məlumat mübadiləsinin tələblərindən doğan nəticələr aşağıdakılardan ibarətdir:

- başqa şəxslərlə müqavilə və əlaqələr qurmaq bacarığı;
- həmrəylik əldə etmək bacarığı;
- tərəf - müqabilini öz mövqeyini dəyişməyə vadar etmək bacarığı;
- müxtəlif rollara girmək bacarığı;
- qarşılıqlı təsiretmə müddətində daxili müxtariyyatı qoruyub saxlamaq bacarığı.

Qeyd olunan bu cəhət hər bir fərdin kommunikativ fəaliyyət dərəcəsini tənzimləyən və yeni keyfiyyət həddinə doğru apara biləcək əsas amillərdir.

Eyni zamanda öz iradəsini, prinsipini nümayiş və davam etdirmək bacarığıdır. İradəli insan hər hansı bir iş görərkən davranış qaydalarından kənara çıxmamağa çalışır. Bu davranışın qaydalarına əməl etməsi insanın öz hərəkətlərinin nəticəsini görməyə imkan verir. İnsan əxlaqi cəhətdən yetginləşdikcə, kamilləşdikcə onda yaxşı hərəkətlər etməyə meyl yaranır. Əxlaqlı hərəkətin əsasını şüur və iradə təşkil edir.

İradəsi zəif olan insanlar bir-biri ilə informasiya mübadiləsi apararkən də onun əxlaqında və davranışında olan nöqsanlar tez üzə çıxır. Dialoq aparmaq, tənqidləri qəbul etmək, iradlara təmkinlə cavab qaytarmaq mədəniyyəti çatmır.

Lakin ünsiyyətin informasiya mübadiləsi mühiti gec-tez onu özünü mühakimə etmək məcburiyyətində qoyur. Məhz özünü mühakimə etməyi bacaran insanlar həmişə müdriklik zirvəsinə ucala bilirlər.

Məşhur fransız yazıçısı Antuan De Sent Ekzüperi mühakimənin mahiyyətini belə izah etmişdir. «Bu çox çətin işdir. Özünü mühakimə etmək, başqalarını mühakimə etməkdən çətindir. Əgər sən özünü düzgün mühakimə etsən, deməli sən əsl müdrik adamsan».

İnsanlar arasında sağlam ünsiyyətin formalaşdırılmasında mədəniyyət mərkəzlərinin böyük imkanları vardır. Bu baxımdan təcrübə bazası olan Azərbaycan Neft və Qaz Sənayə İşçiləri Həmkarlar Komitəsinin Bakının Qaraçuxur qəsəbəsində yerləşən, Qum



adası NQÇİ-nin Qurban Abbasov adına Mərkəzi Mədəniyyət Sarayının xidmətləri böyükdür. Bu mədəniyyət sarayında insanları fəallaşdıran, onları ictimailəşdirən bir sıra qarşılıqlı təsir vasitələrindən istifadə olunur. Ünsiyyətin pedaqoji cəhətdən əhəmiyyətli olması üçün mədəniyyət sarayında ardıcıl olaraq eksperimentlər aparılır, qarşılıqlı təsiretmənin yeni forma və metodları işlənilir. Keçirilən tədbirlərin məşqlərindən sonra burada disskusiya şəklində qarşılıqlı fikir mübadiləsi aparılır. Çox zaman ünsiyyəti daha da səmimiləşdirmək üçün, canlı informasiya mübadiləsi yaratmaq məqsədilə məşğələyə aid olmayan mövzularda da söhbət aparılır. Bu söhbətlər klub pedaqogikasına uyğun şəkildə təşkil olunur. Beləliklə də, mədəniyyət sarayının rəhbərliyi qarşılıqlı ünsiyyət prosesində pedaqoji fəaliyyətin nəzəri tərəfini təcrübə ilə əlaqələndirə bilir.

Bildiyimiz kimi, ünsiyyət özünə insan fəaliyyətinin mənəvi və maddi formalarının müxtəlifliyini daxil edir və bu cəhət onun mühüm tələbatı olur. Heç kim üçün sirr deyil ki, şəxsiyyətlər, fərdlər arasında münasibət bu gün daha çox əhəmiyyətlidir.

Müasir sosial-psixologiya sübut edir ki, emosional münasibət insan üçün çox zəruri əhəmiyyətə malikdir və eyni zamanda ünsiyyətin hərtərəfli inkişafının əsas təminatçısıdır. Emosional münasibət olmadan başqalarının sevinc və kədərini anlayıb onları bölüşdürmək mümkün deyildir.

Ünsiyyət, insanın emosional vəziyyətinin ən vacib xüsusiyyətidir. Ünsiyyət bir qayda olaraq incəlikdən–kobudluğa, məhəbbətdən–nifrətə qədər emosionaldır. Buna görə də, ünsiyyət prosesində insanlar bir-biri ilə sadəcə olaraq məlumat mübadiləsi etmir, eyni zamanda bir-birinə öz münasibətlərini də bildirirlər. Nəticədə, qarşılıqlı ünsiyyətdə olan adamların ətrafında onlar üçün arzu olunan və vacib sayılan xüsusi mühit meydana gəlir.

Ancaq, ünsiyyətdə olarkən insan özünə, hərəkətlərinə kənardan başqalarının gözü ilə baxmağı da bacarır. Öz fəaliyyətini görüb təhlil etmək bacarığı hər bir fərdə öz hərəkətlərini qiymətləndirmək, vaxtında öz səhvlərini

düzəltmək imkanı verir. Belə qabiliyyətə yiyələnən fərd, çox zaman öz hərəkətinin nəticəsini qabaqcadan da görə bilir. Belə ünsiyyət, sərbəst məlumat toplamaq mənbəyinə çevrilir. Ünsiyyətdə olan fərdin bütün növdə olan münasibətlərdə dərketmə potensialı artır, daha hərtərəfli biliyə yiyələnir. Dərketmə potensialı artdıqda məlumat mübadiləsinin də keyfiyyət səviyyəsi yüksəlir. Dərketmə potensialı artan zaman vaxta da qənaət olunur. Beləliklə də, ünsiyyət məlumatın keyfiyyətli ötürülmə vasitəsinə çevrilir.

### *4.3 Təbiətlə ünsiyyət mədəniyyəti.*

İnsan öz varlığının ilk günündən başlayaraq təbiətlə bağlı olmuş, təbiət onun evi, yaşamaq üçün qida mənbəyi olmuşdur. İllər keçdikcə, insanlar təbiətin isti, soyuğunu dərk etdikləri kimi, təbiətin flora və faunasından istifadənin səmərəli yollarını da müəyyən etmiş, özlərinə lazım olan nemətləri qorumuş, onların nəsildən-nəslə ötürülməsinə qayğı göstərmişlər. Əlbəttə, bu qayğı onların həyat tərzinin, güzəranlarının yaxşı olması zəruriyyətindən yaranırdı. Ona görə də, yaşadıqları ərazinin flora və faunasından qidalanmaqla bərabər, onlardan həm də faydalanmaq vasitəsi kimi istifadə edirdilər. Beləliklə də, insanlarda təbiətin flora və faunasına qayğı, təbiətə «övlad» münasibəti yaranmağa başladı. Doğrudur, bəzən təbiət «çılğınlıq» göstərmiş insanların başına olmazın müsibətləri və fəlakətləri gətirmişdir. Fırtınalar, leysanlar, daşqınlar, zəlzələlər, insanların illərlə, böyük zəhmətlər bahasına yaratdıqları maddi və mənəvi mədəniyyəti dağıtmış, yerlə yeksan etmiş, minlərlə insan həyatına qəsd etmişdir. Lakin təbiətin bütün fəlakətləri insanı dəhşətə gətirib, qorxudursa da insanlar təbiətdən ayrı düşməmiş, yenə də təbiətə pənah gətirmiş onun şıltaqlıqlarına dözməli olmuşlar. İllər ötdükcə insanın gözəlliyə meyli tədricən artmış öz həyat və məişətlərini daha yaxşı qurmağa çalışmışlar. Onlar yaşayış yerlərini yeni «qanunlar» əsasında seçməli olmuş, axar bulaqları, mənzərəsi, təbii sərvətləri bol olan yerlərdə məskunlaşmışlar. İnsanların



yaşayış yerlərini belə bir meyar əsasında seçmələri sonralar onların bir obada, kənddə və şəhərdə məskunlaşmasına gətirib çıxarmışdır.

Göründüyü kimi, insan təbiətin şah əsəri, dünyanın əşrəfi, yaranmışların tacıdır. Lakin bəzən insanlar təbiətə qəsd edir, onun sərvətlərindən insafsız istifadə edir, necə deyərlər, bir budaqdan ötrü bir ağacı, kiçik bir sahədən ötrü hektarlarla sahəni məhv edirlər.

Hələ eramızdan əvvəl, görkəmli tarixi şəxsiyyətlər, filosoflar insanların təbiətə olan qayğısı, sağlam münasibəti, təbiətdən səmərəli istifadə haqqında, olduqca qiymətli, dəyərli fikirlər söyləmiş, insanları təbiətə, onun flora və faunasına qarşı mədəni rəftara, sağlam münasibətə çağırmışlar.

Müsəlman tarixində Allahın Rəsulu olan Həzrət Məhəmmədin hədislərində təbiətə qayğı, ona insani münasibətlər haqqında olduqca ibrətamiz, dəyərli fikirlər vardır. Təbiət haqqında Həzrəti Məhəmmədin müdrik kəlamları insanlarda təbiətə qarşı mədəni rəftar, sağlamlığın təminatçısı baxımından həmişə qiymətli olmuşvə bu gün də öz dəyərini qoruyub saxlayır. Həzrət Məhəmmədin təbiətə qayğı haqqında hədislərindən bəhrələnən, onun fikirlərini həyata keçirən insan həmişə gözəl, yüksək mənəviyyata malik olan mədəni insandır. Belə insanların üzü müqəddəs tanrı və insanlar yanında həmişə nurlu olur:

«Kim ağac əkib böyüdərsə, onun ünvanına o ağacda hasil olan məhsulların miqdarıyca Cənabi haqq savab yazar».

«Yeddi şey vardır ki, insan qəbirdə belə olsa, onlardan hasil olan savab davamlı surətdə onun özünə çatır: öyrədilən elm, xalqın istifadəsi üçün çəkilən su, əkilən ağac, inşa edilən məscid, oxunmaq məqsədilə bağışlanan Quran və mükəmməl tərbiyə edilmiş övlad».

«Hər kim boş (istifadəsiz), quru və coraq bir yeri əhya edəcək olarsa, bu əməlinə görə Allah onu mükafatlandırır. İnsan və heyvan ondan mənfəətləndikcə bu yeri dirçəldən şəxsə sədəqə yazılır».

«Hər kim bir ağac əksə, o ağac meyvə verdikcə savabı ona yazılır».

«Yer üzündə bitmiş olan heç bir nəbat yoxdur ki, onun mühafizəçisi bir mələk qorumuş olmasın, bu vəziyyət bitkinin məhvinə qədər davam edir. Hər kim ki, bu bitkini basıb əzirsə o vəzifələndirilmiş mələk ona lənət yağdırır».

«Hər kim yerinə yenisini əkmədən bir sidr ağacını kəsəcək olarsa, Allah ona cəhənnəmdə bir ev tikər».

«Haqsız olaraq bir sərçəni öldürəndə Cənabi-haqq qiyamət günündə hesab soracaqdır».

«Kim ov arxasınca qaçarsa, qafil ölər».

«Qoyunların burnunu silin, altlarını təmizləyin, arxaclarına yaxın yerdə namaz qılın, zira onlar cənnət heyvanlarıdır».

«Heyvan sağanlar əl dırnaqlarını kəssinlər, sağım zamanı uzun dırnaqları ilə heyvanın məmələrini qanatmasınlar». [54]

Heyvanların himayəsinə dair Qərb aləmində qurulan bir sıra ənənələrin ana qaynağı Məhəmmədin hədislərindən gəlir. Bir gün Peyğəmbər gəzərkən bir eşşəyin üzünə damğa vurulduğunu və bu səbəbdən heyvanın yanağının yandığını görür. Bu əhvalatın nə üçün icra edildiyini soruşur. Cavab verirlər ki:

- Bu üsulu Romalılardan öyrəndik. Heyvanın oğurlanmasına mane olan bir damğa vurmağı biz də mənimsəmək istədik. Peyğəmbər bir az düşündükdən sonra bu məsləhəti verdi:

- Bir heyvanın ən həssas yeri üzüdür. Mütləq damğa vurmaq istəyirsinizsə, heç olmasa bunu arxa tərəfdəki sərt dəri təbəqəsi üzərinə vurun.[55]

Bütün Peyğəmbərlər və Nəbilər dünyanın canlı aləminə həmişə qayğı göstərmiş, onlara sığınacaqlar vermişlər. Musa peyğəmbər bir qartalın göyərçini qovduğunu görür. Təbiətin gözəl varlığı Musa peyğəmbərdən imdad istəyir. Peyğəmbər onu çuxasının altında gizlədir. Qartal Musa peyğəmbərdən soruşur ki, onun qovduğu ov Musaya tərəf gəldi, quşu versin, yoxsa ac qala bilər. Peyğəmbər qartaldan soruşur ki, ona yem lazımdır, yoxsa göyərçin. Qartal yem lazım olduğunu söyləyir. Belə olanda Musa peyğəmbər göyərçini xilas etmək üçün onu çuxasının altından çıxarıb buraxır və onun çəkisi qədər qılçasından ət kəsib qartala vermək istəyir. Məlum olur ki, Allah Taala Musanı imtahana çəkirmiş, göyərçin mələkə, qartal həzrət Cəbrayıl imiş.

[54] M. Aslan. «Allahın Rəsulu». «Qismət» nəşriyyatı, Bakı – 2001, səh. 130-131

[55] M. Aslan. «Allahın Rəsulu». «Qismət» nəşriyyatı, Bakı – 2001, səh. 66-67



Həzrət Məhəmmədin göstərilən hədislərinə izah verməyə haqqım və hüququm yoxdur. Lakin çətin zəmanəmizdə savab qazanmağı özündə təcəssüm etdirən bu hədislər böyüklü, kiçikli hər bir Azərbaycan vətəndaşının fəaliyyət proqramına çevrilməlidir.

Dünyanın inkişaf etmiş ölkələrində insanlarla təbiət arasında mədəni münasibət hələ lap qədim zamanlarda mövcud olub. Belə ki, bu ölkələrdə təbiətin nəinki fauna və florası, həm də abı-havası belə insanlar üçün dərman, istirahət, həm də tükənməz zövq mənbəyi olmuşdur. Onlar nəinki təbiətin flora və faunasını məhv edir, əksinə heyvanların, bitkilərin çoxalmasına imkan yaradır, onların say artımı qayğısına qalırmışlar. Bu hal bir çox ölkələrdə ənənəyə çevrilmişdir. Azərbaycan təbiətinin vaxtı ilə keşiyində durmuş akademik Həsən Əliyev bu ənənəni belə xatırlayır:

«...1958-ci il Yunanıstanda keçirilən VI Beynəlxalq Təbiəti Mühafizə konqresinə getmişdim. Afina şəhərinin köhnə hissəsində bir nəhəng zeytun ağacı gördüm, onun ətrafına hasar çəkilmişdir. Üstündə yazılmışdır: Oleya Platon. («Platon zeytunu») Mən bizi müşayət edənə sual verdim ki, məşhur yunan filosofu Platon qədimdə yaşamışdır. Onun bu ağaca nə dəxli var? Dedilər ki, qədim yunan adətinə görə, hər bir cavan ailə qurmazdan əvvəl yeddi zeytun basdırıb, onu əvvəlcə yetişdirməli və sonra evlənməlidir... Daha sonra akademik yazır ki, bu gün Yunanıstanın iqtisadiyyatında zeytun yağının istehsalı xüsusi yer tutur. Bu Zeytun ağacını da Platon basdırıb. Yunan gənclərinə örnək kimi indiyə qədər

qorunub saxlanılır. Belə bir ənənəni bizim cavanlar niyə bizim şəraitdə tətbiq etmirlər?» [56]

Göstərmək lazımdır ki, son 25-30 ildə Azərbaycan təbiətinin keşiyini çəkən ona doğma övlad münasibəti bəsləməkdə fərqlənən alimlərdən biri məhz akademik Həsən Əliyev olub. Onun vəfatından sonra sanki təbiətə elə bil ki, qayğı unuduldu. H.Əliyev çinarları daha çox sevirdi. Bəlkə ona görə ki, xalqımız qədimdən bu ağaclara ucalıq, əzəmət, vüqar rəmzi kimi baxıb. Elə vüqarlı, qamətli igidlərimizi, ərənlərimizi də çinara bənzətmiş, dastanlarımızda bizi sevənlərə çinar ömrü arzulamışlar. Vətənimizin ərazisində uzun ömürlü çinarlar çoxdur. Xalq bu ağacları həyat rəmzi kimi qoruyub saxlayır, müdafiə edir. Ancaq təəssüflər olsun ki, bəzən başqa cür olur. Çinarlar insanların gözləri qabağında məhv olunur. Akademik H.Əliyev haqqında yazılmış xatirələrdən birində söylənilir:

«...Gəlmişəm Azərittifaqın sədri ilə görüşüm. Onun işçilərinin əlindən yaman yanıqlıyam. Zalım uşaqları elə bil təbiətə düşmən kəsiliblər. Belə getsə, onların ucbatından respublikada bir dənə ağac, kötük qalmayacaq. Ürəyim doludur. Heç bilmirəm hansını deyim. Cəbrayılda, Vartaşendə (indiki Oğuz rayonu), Ağdaşda neçə yüz il yaşı olan çinarların üstündə yeməkxana, çayxana tikib adını da qoyublar «Ekzotika». Bunu vallah düşmən də eləməz. Üç-dörd gün bundan əvvəl Cəbrayılın rəhbərləri ilə bu barədə çox sərt danışmışam. Dedim ki, elə eləməyin çinarın başına gətirdiyiniz oyunları sizin başınıza açım. Azərittifaqın sədri də əncam çəkməsə, lap YUNESKO-ya, BMT-yə qədər gedəcəyəm...

Bu hadisədən bir həftə sonra ezamiyyət götürüb Cəbrayıla getdim. Həsən Əliyevin dediyi o çinar düz rayonun mərkəzində idi.

Gövdəsində dairə şəkilli iki mərtəbəli yeməkxana tikilmişdi. Tüstüdən, hisdən yarpaqları qapqara qaralmışdı. Məni heyrətləndirən isə o idi ki, rayonun ağsaqqalları, rəhbərləri, ziyalıları görəsən nə əcəb belə bir anormallığa, vəhşiliyə göz yumub, dözürdülər. Çinar 3-4 yüz yaşı olan köklü-köməcli, iri gövdəli, başı az qala buludlara dəyən nəhəng ağac idi. Ağacın köklərindən su damcı-damcı süzülərək bal kimi şirin suyu olan bulaq əmələ gətirmişdi. Həqiqətən əsl möcüzə idi. Çinarı görəndən sonra Həsən müəllimin nəyə görə belə bərk əsəbiləşdiyini başa düşdüm və ona haqlı olaraq bəraət qazandırdım.

Bakıya gələn kimi «Əsir çinar» adlı bir məqalə yazıb işlədiyim jurnalda dərc etdirdim.

Zaqatala şəhərinin mərkəzindəki çinar da öz əzəməti, vüqarlı duruşu ilə seçilir. Deyilənlərə görə 7-8 yüz yaşı var. Yerli əhali danışırdı ki, Həsən Əliyev hər dəfə Zaqatalaya yolu düşəndə mütləq o çinara baş çəkər, əlini onun gövdəsinə qoyub, sanki ağacla söhbət edər, dərdini soruşardı. Buna bənzər söhbətlərin Dəvəçidə, Qəbələdə, Goranboyda, Lənkəranda da şahidi olmuşam». [57]

Həsən Əliyevin həm də gözəl qələmi, özünəməxsus publisistik üslubu var idi. O insanları, heyvanları, bitkiləri, xarici mühitin zərərli təsirindən mühafizə etmək, havanın, torpağın, içməli suyun təmizliyini qorumaq yollarından inandırıcı faktlarla söhbət açar, təbiətdəki maraqlı hadisələr, ən qiymətli fikirlər haqqında elə həvəslə, ürəklə yazırdı ki, istər-istəməz oxucuda təbiətə qarşı mərhəmət hissi onun dərdlərinə çarə etmək istəyi baş qaldırardı. Onun «Həyacan təbili» adlı kitabında təbiətə mədəni yanaşmaq, onun flora və faunasından insafla istifadə etmək haqqında fikirləri diqqəti cəlb edir. Həmin kitabda «Yaşıl siyasət» adlı məqalədə oxuyuruq: «Biz Almaniya düzənliyində geniş bir tarlanın yanından keçərkən, orada becərmə işləri aparılırdı. Fikirləşdik ki, yəqin təzə meyvə bağı salınır. Maşını saxlatdırıb baxanda məlum oldu ki, bura yeni salınacaq meşə üçün tinglikdir. Biz təəcüblə soruşduq ki, belə gözəl tarlada nə üçün meyvə bağları deyil, meşə üçün tinglik salınır? Güclü məntiqə malik olan hazırcavab alman meşəçi dedi:

- Meyvəni başqa ölkələrdən də almaq olar, lakin meşəni isə heç yerdən gətirmək olmaz. Meşə torpaqdır, sudur, havadır.

---

[56] «Ədəbiyyat və incəsənət» qəzeti, 1yanvar, 1982-ci il.

[57] Bax: Ə. Hüseynov «Azərbaycan müəllimi» 2002, 1-7 noyabr.

Yenə həmin yazıda deyilir: «Almaniyada hər kəs ovçu ola bilər. Amma bunun üçün o, meşəni də, onun canlı aləmini də, silahı da, ovçuluq qayda-qanununu da yaxşı bilməlidir... Ovçuluğun mənəvi tələbləri də var ki, hər kəs ona da qanun kimi möhkəm riayət etməlidir. Məsələn, quşu ancaq uçan zaman vurmaq olar. Yaxud, dovşanı ancaq qaçan zaman ovlamağa icazə verilir. Maralları yemləmə məntəqəsindən ən azı 200 metr uzaqlıqda nişan almaq olar. Burada ovçular onlar üçün ayrılmış sahələrə-təsərrüfatlara qulluq etməlidirlər. Onlar meşədə ot toxumları səpib, becərməli, ağaclar, kollar əkməli, vəhşi heyvanlar üçün çuğundur və kartof yetişdirməlidirlər. Yalnız bütün bu şərtlərə əməl edənlər ovçuluq birliyinə qəbul edilirlər».

İnsanların ağac əkməsi, yaşıllığa qayğı göstərməsi mədəni-estetik xarakter daşımır, həm də təbiətin flora və faunasından iqtisadi şəraitlərini yaxşılaşdırmaq məqsədi ilə istifadə etmişlər. Məsələn, Avstraliyada evklit, Kanadada ağcaqayın, Livanda küknar, Kiprdə sərv ağacları ölkənin təbiətində, iqtisadiyyatında mühüm rol oynayır. Təsadüfi deyil ki, göstərilən ölkələrin dövlət rəmzlərində həmin ağacların şəkili əks etdirilmişdir. İqtisadi məna daşıyan bu baxım həm də göstərilən ölkələrin təbiətə qarşı estetik görüşlərinin nəticəsi kimi dəyərləndirilməlidir. Bir sıra ölkələrdə təbiətin florası daha yüksək qiymətləndirilib, onlar orden və medal adları ilə rəsmiləşdirilib. Məsələn, Yaponiyada insanlar Xrizantema adlı ordenlə təltif olunurlar.

Təbiət insanlara maddi nemətləri ilə deyil, həm də onun dünya baxışının formalaşmasına hərtərəfli təsir göstərmək xassəsinə malikdir. «Təbiət insan üçün həyat beşiyi, müəllim, sağlamlıq, həm də tükənməz zövq mənbəyidir. Təbiətdə olan hər bir mötədil şey insana xoş gəlir onu sağlamlaşdırır». [58]

Böyük rus pedaqoqu K.D.Uşinski uşaqlıq illərini xatırlarkən təbiətin ona göstərdiyi təsirin əvəzsiz olduğunu göstərmişdir.

[58] Y.A.Komenski Seçilmiş əsərləri, Azərnəşr, 1961. səh. 83.



Bu haqda o belə yazır: «Təbiətin uşaqlara göstərdiyi şən, güclü, tərbiyəedici təsiri heç bir şey əvəz edə bilməz». Lakin bəzən insanlar təbiətə yanaşmada, mədəni fəaliyyətin qanunlarından istifadədə səhvlərə, cinayətə yol verirlər. Bu mənada fransız filosofu J.J.Russo yaxşı deyib: «Təbiətin əlindən çıxan hər şey yaxşıdır, hər şeyi insanların əli korlayır». Doğrudan da bəzən insan əli ilə təbiətə qəsd edilir. Lakin bu qəsdə etiraz edənlər həmişə olub. Alimlər, şairlər, ziyalılar həmişə həyacan «təbili» çalıblar. Ölməz şairimiz S.Vurğun da təbiət vurğunu olub. Təbiətə övlad münasibəti ömrü boyu şairin yaradıcılıq poeziyasında oxunulub. Gənc Səməd Vurğun Gəncədə müəllim işlərkən qələmə aldığı «Çinarın şikayəti» şeri təbiətə edilən amansızlığa qarşı etirazı olduqca təsirli və ibrətamizdir. 2 noyabr 1936-cı ildə «Kirovabad bolşeviki» qəzetində dərc olunmuş şerin ilk çapında qəzetdə sərlövhədən sonra belə bir qeyd var: «bəzi rayon və şəhərlərimizdə «ağıllı» mühəndislərin quruluş proyektinə görə çinarlar yıxılmalı imiş. Vətənimizin gözəl təbiətinə qarşı bu kimi qaba rəftarın qarşısını almaq üçün şair öz etiraz səsini belə ucaltmışdır». [59]

Çinarın şikayəti

*Dindi yol üstündə qoca bir çinar:*
*Şairim, sənə bir şikayətim var.*
*Bu qoca dünyanın şahidiyəm mən...*
*Kölgəmdə dincəlir hər gəlib gedən.*
*Bağcalar gül açır yaş torpağımda*
*Quşların adı var hər yarpağımda;*
*Mən bu yer üzünə gələndən bəri*
*Olmuş budaqlarım hava səngəri.*
*Kötüyüm dünyanın sirri ilə dolu,*
*Dolanmış başıma karvanlar yolu;*
*Bağrımı doğramış min bir Cahangir,*
*imtahan etmişəm onları bir-bir;*

[59] Bax.S.Vurğun. Əsərləri, 1-ci cild. Bakı, Elm, 1985, səh.209.

*Başımda oynamış yüz boranlı qış...*
*Sanma ki, qüdrətim, gücüm qalmamış,*
*Bax, ayrılmamışam öz kötüyümdən!..*
*Qəhrəman bir elin timsalıyam mən...*
*Bir kəs incimamiş sakit dilimdən.*
*İnsana yaxşılıq gəlmiş əlimdən –*
*Yayda kölgəliyim, dağlardan sərin,*
*Yaylağı olmuşam biçinçilərin,*
*Silmişəm onların alın tərini,*
*Sonra dinləmişəm can dəftərini,*
*Ağır səfərlərə çıxan hər nəfər*
*Tükənmək bilməyən uzun gecələr*
*Sığınmış qoynuma sözü var kimi.*
*Örtmüşəm üstünü çadırlar kimi;*
*Başına yağmamış nə yağış, nə qar,*
*Tarix yaxşılığı yaxşı salamlar!*
*Aylı gecələrin buludu lay-lay*
*Dağılıb, üzünü göstərəndə ay*
*İşığı sallanır budaqlarımdan*
*Öpür şirin-şirin dodaqlarımdan.*
*Bəzən də kükrəyib əsəndə külək*
*Coşur varlığımda polad bir ürək*
*Qalın şaxlarımın xışıltısından*
*Zövq alır dünyanın şöhrəti insan.*
*Bəzən də bir sərin axşama yaxın*
*Ətəkli çöllərdən hey axın-axın*
*Qalxan dolaşalar qaqqıldaşaraq,*
*Dərələr keçərək, dağlar aşaraq,*
*Başımın üstündə dövrlər vurur,*
*Bir yerə sıxlaşıb, məclislər qurur.*
*Bu doğma quşların simfoniyasından*
*Zövq alır dünyanın şöhrəti insan.*
*Bəzən də canlanır gündüzün səsi –*
*Yığışır kölgəmə uşaq dəstəsi;*
*Azad yurdumuzun şərqilərindən*
*İxtiyar yaşımda zövq alıram mən...*
*Sərilər kölgəmə xallı xalçalar.*
*«Bizdən də bəxtiyar bir nəsil mi var?»,* -



*Deyən uşaqların körpə yaşına,*
*Günəşlər yurdunun vətəndaşına*
*Baxdıqca böyüyür gözümdə insan,*
*Çəkdiyim ağrılar çıxır yadımdan.*
*Fəqət deyirlər ki, yoldaş mühəndis*
*Məni bir arxasız, yurdsuz kimsəsiz*
*Zənn edib, plana almışdır ki, mən*
*İndi çıxmalıyam öz kötüyümdən...*
*Demək qalmayacaq məndən yadigar.*
*Ancaq mühəndisə bir sualım var...*
*«Ömründə bir şitil, bir budaq belə,*
*Mühəndis əkmişmi barı əlilə*
*Ki, məni - bu boyda çınarı birdən*
*Qoparmaq istəyir durduğu yerdən?»*
*Mən bu şikayəti duyduqca dərin,*
*Dedim ki, haqlısan, qocaman çinar!*
*Bizdə təbiətə zülm edənlərin*
*Nə insan duyğusu, nə də haqqı var!*

Doğma yurdumuz Azərbaycan öz təbii gözəlliyi ilə bütün dünyada seçilir. Doğma yurdumuz münbit torpaq, bol günəş, gözəl təbiət məskənidir. Gözəllik bütün əzəməti və ülviyyəti ilə bu yerlərdə qərar tutmuşdur. Elə buna görə də qədim zamanlardan indiyə kimi vətənimizə ayaq basanlar bu ülviyyətdən vəcdə gəlmişlər. Xalq yazıçısı M.İbrahimov elimizin təbiətindən, onun əsrarəngiz gözəlliklərindən iftixar hissi ilə demişdir: «Əziz vətənimiz, ağ saçlı qoca və həmişəcavan Qafqaz, qədim yunanlar, romalılar, orta əsr Avropa səyyahları, böyük rus yazıçıları sənin hüsnünə tamaşa edəndə nahaq yerə valeh olmamışlar. Sən doğrudan da əbədi gözəllik yurdusan».[60]

Danimarkanın görkəmli rəssamı Hellüf Bidstrup Azərbaycanı gəzdikdən sonra demişdir: «Sizin ölkəniz çoxlu ləzzətli yeməklərlə dolu olan böyük süfrəyə bənzəyir. Adam bu xörəklərdən hər birinin dadına baxmaq istəyir. Mən ucsuz-bucaqsız Sovet İttifaqını gəzərkən xeyli yeni-yeni təəssürat

[60] «Bakı» axşam qəzeti 1964-cü il, 26 fevral.

almışam. Azərbaycanın özünəməxsus misilsiz təravəti də mənə son dərəcə xoş gəldi. Mən dünyanı rəssam kimi dərk edirəm. Sizin respublikanız öz boyalarının qeyri-adi coşğunluğu ilə bir yerə yığılıb çox gözəl palitra yaradan rəng çaları ilə məni məftun etmişdir».[61]

İnsan öz mənəvi, zehni emosional və estetik inkişafının başqa dövrünə nisbətən yeniyetmə yaşında ətraf aləmin qavranılmasının incəliyini, emosional etstetik aydınlığını daha çox dərk edir. Elm həqiqətlərin, qanunauyğunluqların dərk edilməsi fikirlərinin hisslərlə nəcibləşdirilməsini tələb edir. Bu nəcibləşdirilmənin mənbələrindən biri təbiət gözəlliyidir, çünki yeniyetmə üçün fikirlərin, idrakın, həqiqətlərin aşkar edilməsi mənbəyi də təbiət aləmidir. XX əsrin görkəmli pedaqoqu V.A.Suxomlinskinin təsdiqlədiyi kimi "Yeniyetməlik illərində dünyanın estetik keyfiyyətlərinin qavranılması dərin məntiqi idrakla, əşyaların və hadisələrin təbiətinə fitrən nüfuzetmə ilə qarışır. Məntiqi idrak nə qədər dərindirsə, incədirsə, onlarla bağlı olan intellektual hisslər nə qədər parlaqdırsa, təbiətin estetik keyfiyyətləri yeniyetmənin mənəvi aləminə bir o qədər əhəmiyyətli təsir edir.[62]

Göstərilən elmi və pedaqoji təfəkkürə istinad edərək məktəblərdə, mədəniyyət müəssisələrində təbiətin flora və faunasına məhəbbət, onun gözəlliklərini görmək, duymaq bacarığını və mədəniyyətini inkişaf etdirmək məqsədi ilə ilin müxtəlif fəsillərində təbiətə ekskursiyalardan yaradıcılıqla istifadə etmək olar. Məlumdur ki, kənd və rayon şəraitində bu işi daha səmərəli və keyfiyyətli keçirilməsinə daha yaxşı imkan vardır. Bu işin daha səliqəli və mədəni keçirilməsi əlbəttə xüsusi hazırlıq tələb edir.

Təbiətə ekskursiyalar ilin müxtəlif fəsillərində adətən üç mərhələdə keçirilir: ekskursiyalara hazırlıq, ekskursiyanın keçirilməsi və ekskursiyanın yekunlaşdırılması.

Ekskursiyanı təşkil edən məktəb və mədəni-maarif müəssisələrinin işçisi müşahidə ediləcək mənzərələrin yerini qabaqcadan müəyyənləşdirmək üçün müvafiq hazırlıq işləri

---

[61] «Kommunist» qəzeti, 19 oktyabr 1966.
[62]V.A.Suxomlinski. Vətəndaşın doğulması. «Maarif», 1975, səh. 305.



aparır. Yerli şəraitlə əlaqədar olaraq, yaşayış yerindən çox da uzaq olmayan meşələri, çayları, gölləri, düzləri, pambıq, taxıl tarlaları və zəmilərini müəyyənləşdirir. Bir çox mədəni-maarif işçisi ekskursiya yerini müəyyənləşdirərkən özləri ilə «bələdçi» uşaqlar aparır, müşahidə ediləcək mənzərələri, istirahət yerlərini onların iştirakı ilə müəyyənləşdirir. Ekskursiya elə qurulur ki, gəzinti müxtəlif yerlərdən (düzənlik, meşəlik, çay kənarı və s.) keçsin. İşin bu formada təşkili təbiətin daim gözəllik saçan mənzərələri üzərində daha çox müşahidələr aparmağa imkan verir.

Ekskursiya yeri müəyyənləşdirilərkən uşaq və gənclərin yaş xüsusiyyətləri, ekskursiyaya sərf edilən vaxtın nəzərə alınması unudulmur. Hazırlıq işləri başa çatdıqdan sonra uşaqlara özləri ilə nələr götürmək lazım olduğu (fotoaparat, etüdlər çəkmək üçün rəsm avadanlığı, istirahətin şən keçirilməsi üçün musiqi alətləri və s.) bildirilir.

Səfərə çıxmazdan əvvəl ekskursiyanın məqsədi, görüləcək işlərin məzmunu haqqında söhbət keçirilir. Uşaqlara başa salınır ki, ekskursiyanın müvəffəqiyyətlə keçməsi üçün təbiəti mexaniki deyil, gördükləri, müşahidə etdikləri heyvanları, quşları, gülləri, çiçəkləri və s. fəal surətdə müşahidə etmək lazımdır.

Nəhayət, ekskursiyanın müddəti, hərəkət qaydaları haqqında məlumat verilir. Bundan sonra uşaqlar Vətən, təbiət haqqında mahnılar oxuya-oxuya yola çıxırlar. Təbiətə ekskursiyalar müxtəlif məqsədlər daşıya bilər. Məsələn, baharın gəlişi, mənzərə janrında müzakirəsi keçirilmiş hər hansı bir əsərə yekun vurmaq, təsviri sənət əsəri ilə – yəni mədəniyyət nümunəsi ilə canlı təbiət arasındakı fərqi və yaxud poeziyada təbiətin tərənnümünü görə bilmək, mədəniyyətini inkişaf etdirmək, baharın gəlişi, təbiətin oyanması və digər məqsədlərlə təşkil oluna bilər. İşin belə forması uşaqlarda incəsənətin gözəlliyi ilə təbiət gözəlliyini fərqləndirmək bacarığı tərbiyə etməyə imkan verir. Buna görə də təbiət aləminə elə vaxt səyahət təşkil olunmalıdır ki, orada qavrayışların zənginliyini duymaq mümkün olsun. Məlumdur ki, baharın gəlişi ilə hər gün təbiət yaşıl paltarını dəyişir. Ona

görə də ən mahir rəssam belə təbiətin gözəlliyini olduğu kimi verməkdə acizdir.

N.Q.Çernışevskinin dediyi kimi «Cisimlərin rəsmi elə çəkilə bilməz ki, təbiətdən yaxşı olsun.., Nəinki əllə çəkilə bilməz, hətta həm də təsəvvürə gətirilə bilməz». Məsələn, uşaqlar S.Bəhlulzadənin «Qudyalçay vadisi»nə tamaşa edərkən burada güllərin, çiçəklərin boyalarla təsvirini görüb təbiətin gözəlliyini sənət əsərindən duyursa, təbiətə ekskursiyalar zamanı çöllərin bəzəyi olan həmin çiçəklərin, güllərin ətrini duyur, canlı varlıqdan zövq alırlar.

Ekskursiyalar zamanı müəllimlər, mədəniyyət işçiləri tarlaların, meşələrin, göllərin hazırda müstəqil respublikamızın zəhmətkeşlərinə mənsub olmasını açıqlamaqla gənclərdə doğma diyara, onun zəngin təbiətinə gözəl vətənpərvərlik hissləri tərbiyə etmiş olurlar. Pedaqoqlarımızdan biri bu mənada yaxşı demişdir ki: «Adamda Vətənə məhəbbət, doğma yerlərə, öz şəhərinə, kəndinə, həyətdəki ağaclara, doğma kəndin ətrafını bürüyən dağlara olan məhəbbətdən başlayır». Bu doğrudan da belədir.

Ekskursiya zamanı istirahətin şən və əyləncəli keçirilməsinə əhəmiyyət verilməlidir. Bu məqsədlə də istirahət yeri çay kənarında yüksək təpədə, ətraf yaxşı görünən yerdə keçirilir.

Ekskursiya başa çatdıqdan sonra uşaqların təbiət haqqında təəssüratları, təbiətə münasibətləri eşidilir.

Ekskursiya zamanı poeziya nümunələrindən istifadə edilməsi, mədəni tərbiyə işində əhəmiyyətli bir haldır: çünki şer söyləmək özü mədəniyyət nümunəsidir.

«Təbiət düşündürür»

*Gəl çıxaq seyrinə uca dağların,*
*Çəmən olan yerdə xalça nə lazım.*
*Gözündən su içək buz bulaqların*
*Lipar olan yerdə dolça nə lazım.*

*Nə kaman götürək, nə tar, nə qaval*
*Orda nəğmə də var, nəğməkar da var.*



*Yarıb buludları dinəndə qartal*
*O səsə bərabər bir səs harda var?*

*Gahdan yağış yağıb, külək əssə də*
*Qoruyar çardaqlı qayalar bizi.*
*Ətrafı çən tutub, duman kəssə də*
*Bələdçi cığırlar aparar bizi.*

*Torpağın ətrini fikirləşəndə*
*İpək tellərinə çiçək taxarsan.*
*Səhərlər yadına güzgü düşəndə*
*Maral baxan gölə sən də baxarsan.*

*Titrəmə soyuğa, yanma sazağa,*
*Üşüsək otlardan yorğan istərik.*
*Daş-kəsək toxunsa ələ, ayağa*
*Loğman çiçəklərdən dərman istərik.*

*Zülmət gecələrdə parlayan şimşək,*
*Yol üstə göz qırpan mayak deyilmi?!*
*Gəlin təbiəti biz də düşünək,*
*O özü hər şeyi düşünən kimi.* [63]

Vətənimizin təbiətini, onun flora və faunasının gözəlliklərini vəsf edən poeziya nümunələrindən yeri gəldikcə istifadə edilməsi ekskursiyanın daha maraqlı (məqsədə nail olmaq üçün) və məzmunlu keçirilməsinə kömək edir. Belə bədii parçalar oxunarkən təbiətin ecazkar gözəllikləri bədii material kimi deyil, artıq təbiət varlığı kimi göz qarşısında canlanır və insanda şirin duyğular oyadır, təbiətə qarşı estetik baxışlar, mədəni davranış tərbiyə olunur.

Ekskursiya zamanı xalqımızın öz yurduna və onun gözəl təbiətinə olan məhəbbəti ifadə edən müasir mahnılardan, aşıq qoşmalarından, el mahnılarından, folklor nümunələrindən istifadə edilməsi müsbət nəticələr verir.

---

[63] H. Hüseynzadə. «Ömür gözləsə». Gənclik, Bakı. 1978, səh. 159

Uşaqlığımı sahilində keçirdiyim Kür qırağının meşələri göz oxşayan mənzərələri, gümüş yarpaqlı qovaq meşələri «kənd yeri» heç vaxt unudulmur. Meşənin qoynunda güllü-çiçəkli geniş bir sahə «Gözəl dərə» adlı «təbiət qızı» burada uyuyurdu. Bahar fəslində rəngarəng libasa bürünmüş dərənin «ayağı» gəlib Kürün sahili ilə birləşir, bu ecazkar birləşmədən ülvi bir gözəllik yaranır. İlk baxışda bu gözəlliyi görmək heç də asan deyil. Kəndimizdə müəllim işlərkən şagirdlərimin bu gözəl məkana ekskursiyasını təşkil etməyimi heç vaxt unutmuram. İstirahət üçün «Qırqovullu təpə» seçilər, çünki buradan «Gözəl dərə», meşənin ətəyi, Kürün sahilindəki su dartan motorlar həm də Kürün o tərəfi-Qarabağ sahili yaxşı görünür.

... Ekskursiya davam edir, məktəblilər çiçəkli düzlərdən keçib, «Gözəl dərə»nin sahil meşəsinə yarpaqları gümüş kimi parlayan qovaqlığa çatırlar, şən əhval-ruhiyyə ilə qovaq fidanları dövrəyə alınır, ətrafları təmizlənir. Eldəniz yoldaşlarına üç yarpaq göstərir. Bunlar palıd, qovaq və söyüd yarpaqlarıdır. Yarpaqlar formalarına görə seçildiyi kimi nazikliyinə, incəlik və gözəlliyinə görə də bir-birindən fərqlənir. Ekskursiyanın adi gəzintiyə çevrilməsi üçün müəllim uşaqlara tərbiyəvi söhbətini davam etdirir. Təbiətin gözəlliyini qorumağı, qədrini bilməyənlərə körpə fidanları, çəmənlikləri əzmək istəyən, uşaqları görüb yuvasına çəkilən quşlara amansız olanlara qarşı barışmaz olmağı tövsiyə edir. Müəllim bir həqiqəti də söyləməyi unutmur. Adətən uşaqlar quşları vurmaq üçün quşatan gəzdirirlər. Gördükləri quşları vurmaq üçün ondan istifadə edirlər. Müəllim belə halları quşlara qarşı qəsd kimi qiymətləndirir və uşaqları başa salır ki, mədəni insanlar quşlara amansızlıq deyil, qayğı ilə yanaşır, onların qorunması üçün lazımi şərait yaradırlar.

Təbiəti evə, kəndə gətirmək, məktəbi yaşıllığa bürümək həyatı daha da gözəlləşdirir. Nahaq yerə deməmişlər «Yaşıllığı bol olan ölkədə xəstəlik olmaz». Müəllim bildirir ki, hərə bir ağac əksə, kəndimiz başdan başa yaşıllığa çevrilər. Uşaqlardan biri H.Hüseynzadənin «Palıd əkin siz» şerini söyləyir.



*Siz ay təbiətə deyib-gülənlər*
*Başdan müqəddəsdir əməlləriniz.*
*Siz ay yaşıllığın qədrin bilənlər*
*Bakıda daha çox palıd əkin siz.*

*Qızıl quşlar kimi qızıl şəfəqlər*
*Yarpaqlar qoynunda oynayacaqlar.*
*Yeraltı çaylar da tutaraq xəbər*
*Qalxıb yer üstündə qaynayacaqlar.*

*Durnalar həsrətlə boylanır bizə*
*Ceyran da qayıdar Muğan düzündən*
*Cavanlar rahatca verib diz-dizə*
*İçər çeşmələrin duru gözündən.*

*İtməz zəhmətimiz, əztyyətimiz*
*Qışda yaz qoxulu çəmən bəslərəm.*
*Bakıda daha çox palıd əkin siz*
*Qartal dostları da özüm səslərəm.*[64]

Ekskursiya zamanı yurdumuzun təbii sərvətlərindən, onun flora zənginliyindən danışılarkən göstərilir ki, Cənubi Qafqaz respublikalarının ümumi ərazisində 6000-ə qədər bitki növü olduğu halda təkcə respublikamızın ərazisində bu bitki növləri təqribən dörd min iki yüzdən çoxdur. Respublikamız fauna zənginliyi ilə seçilir. Məlum olduğu kimi respublikamızda üç yüz əlli növ quş və doxsan yeddi növ məməli heyvan mövcuddur. Məhz buna görə də yurdumuzun təbiətində zövq almalı, görməli yerlər çoxdur. Nəhayət uşaqlar meşədən çıxıb «Gözəl dərəyə» enirlər. «Cözəl dərə» gül-çiçək xiyabanına bənzəyir. Elə bil hər şeyə insan əli sığal çəkib. Meşədən təxminən 90-100 metr aralandıqdan sonra müəllim ətrafı seyr edib gözdən keçirməyi, güllər, çiçəklər haqqında xalq deyimlərini söyləməyi təklif edir.

---

[64] H.Hüseynzadə. «Seçilmiş əsərləri», Azərbaycan nəşriyyatı, 1975. səh.39.

*Gül istəyən, tikanı da istər;*
*Gül o qədər bitib, reyhan ortada itib;*
*Gül güllükdə bitər;*
*Gül solanda, bülbül ağlar;*
*Gül solanda dibinə tökülər;*
*Gül qədrini bülbül bilər;*
*Güllüyün gülü beş gündür;*

Gəzintidən alınan təəssürat haqqında uşaqlar gül haqqında yuxarıda göstərilən aforizmlər söyləyirlər.

Ani fasilədən sonra gördükləri mənzərə haqqında uşaqların təəssüratları dinlənilir.

«Gözəl dərə»nin gözəlliyi meşə ilə birləşib könül oxşayan gözəllik yaratmasıdır. Belə bir mənzərədən ayrılmaq olarmı? Baxın, ətrafımızdakı bənövşələr meşənin ətəyini bəzəyir, onu daha da gözəlləşdirir». «Dərədə hər cür çiçək vardır, elə bil ətrafda güllü, naxışlı xalça salınıbdır» və s. Uşaqlar çiçəklərdən nümunə götürürlər, onları rənginə, iyinə görə fərqləndirirlər. Lalə, çöl zanbağı, turac otu, ay çiçəyi və s. çiçək və bitki adları eşidilir. Onların hər birinin özünəməxsus iyi, qoxusu vardır. Hər biri bir dərdin dərmanıdır. Təbiətdə ən çox işlədilən, xəstələri müalicə edən dərmanlardan çoxu bəzi alaq otlardan, ayaq altında tapdalanan, yol kənarında, arxların qırağında bitən, bağayarpağından, uşaqların əllərini dalıyan gicitkandan alınır. Belə bir fakt da uşaqlara çatdırılır ki, alman faşizmi ilə müharibədə döyüşən əsgərlərimizə doğma təbiətimizin bitkiləri də kömək etmişdir. Belə ki, o qanlı-qadalı illərdə meşə sərvətlərindən düşmənə qarşı mübarizədə müvəffəqiyyətlə istifadə olunurdu. Meşə təsərrüfatı və ağac emalı sənayesi müəssisələri təyyarə və tank istehsalı üçün böyük əhəmiyyətə malik olan fındıq və dəmirağac istehsalını xeyli artırmışdı. Sarımsaqdan tutmuş dərman bitkilərinə qədər toplanırdı. II Dünya Müharibəsi illərində bioloqlar Azərbaycanda bitən dərman otlarından, çöl meyvələrindən geniş istifadə edilməsini təşkil etmişdilər. İlk dəfə Göyçay Yağ zavodunda efir yağı istehsalına başlanmışdı. 1941-ci ildə Bakı ət kombinatında xüsusi tibbi dərmanlar zavodu təşkil olundu.



Bu zavod 1943-cü ildə 26 adda dərman buraxırdı. Təbabət işçiləri dərman bitkiləri və digər preparatlardan yaralı əsgərləri və zabitləri müalicə etməyin yeni üsullarını tapırdılar. Yaralılar arasında ölüm halları xeyli azalmışdı. Onların 70 faizdən çoxu müalicədən sonra əsgəri hissələrə qayıdırdı.

Uşaqlardan biri sualla yoldaşlarına müraciət edir: «nə üçün bu çiçək- «Ay çiçəyi» adlanır? Açıqlanır ki, təbiətdə gözəl, füsunkar varlıqlar saysız-hesabsızdır. Müxtəlif çiçəklər, Ay, Günəş, Sarı bülbül, Zümrüd quşu və digər təbiət varlığı haqqında gözəl əfsanələr yaradılmışdır. «Ay çiçəyi» haqqında belə bir əfsanə vardır. Əfsanədə deyilir ki, yer üzünü bəzəyən bütün çiçəklər günəşə dəlicəsinə vurulmuşdur. Çiçəklərin şahı olan qızılgül bu məhəbbətin rəmzi olaraq doğan günəşin rəngini seçmişdir. Dağ lalələri günəşin nurunu əmmişdir. Gün batanda güllərin, çiçəklərin incə çöhrəsinə dərin məhzunluq çökür. Təbiətin incə gözəlləri ayrılığa tab gətirməyərək gecəni qüssə və kədər içərisində keçirir, səhəri göz yaşları ilə-şehlə açırlar. Yerindən boylanan günəş öz ılıq şüaları ilə çiçəkləri oxşayır, onlara sevinc verir.

Həmin güllərin arasında qönçəsinin böyüklüyü və gözəlliyi ilə fərqlənən ağ rəngli bir çiçək Günəşi rəfiqələrinin hamısından çox sevirmiş. Lakin Günəş bütün çiçəklərə eyni gözlə baxır, nəvaziş göstərirmiş.

Günəş onu daha çox görsün deyə, həmin çiçək sarmaşıqtək ağaclara, kollara dolaşır, həsrətlə göylərə dırmanırmış, ancaq sevgilisi onun məhəbbətinə biganə qalır, başqa güllərə də meyl göstərirmiş. Bu həmin çiçəyi bərk sarsıdır. O and içir ki, ömrü boyu bir daha daş qəlbli sevgilisinə baxmayacaq, üzünü ondan çevirəcəkdir. Çiçək əhdinə sadiq qalır. Günəş həmin çiçəyi bir daha görə bilmir. Küskün çiçək öz səadətini qaranlıqda axtarır. Bu xəbəri Ay eşidir. Öz gümüşü nuru ilə həmin çiçəyi oxşayır, sevgisini ona açır. Beləliklə, onlar bir-birilərini sevirlər. O gündən etibarən çiçək ancaq axşamlar açır, səhər günəş doğanda isə ləçəklərini yumur günəşdən gizlənir. O zamandan insanlar təbiətin bu incə qızına «Ay çiçəyi» adı verirlər.

Ekskursiyanın gedişində el yaradıcılığından, təbiət, onun hadisələri, flora və faunamız haqqında tapmacalardan istifadə olunur. Belə tapmaca və nağıllar təbiəti nəinki ağılla, həm də ürəklə sevməyə çağırır, uşaqları təbiətin gözəlliklərinə valeh edir:

Ağ sandığım açıldı,
İçində nur saçıldı

(sübhün açılması)

Ağ tas, qızıl tas,
Birini götür
Birini aç.

(Ay, gün)

Ağac başında al yanaqlı yumru qız

(Alma)

Adam deyil, hey qaçar,
Meşə deyil səs salar

(Çay)

Ay ilə gələr
Gün ilə gedər
Yüz ilə gələr
Min ilə gedər

(Yol, ulduz)

Özü ala
Yeri tala
Para-para
Qəlbi qara

(Lalə)

Nədəndir ay nədəndir
Bağrım zədən-zədəndir
Ağacında od yanar
Yarpağı göy nədəndir.



(Qızıl gül)

Ağac başında düzülər,
Əl vursan, qanı süzülər

(Xar tut)

Bazardan aldım bir dənə,
Evdə açdım min dənə

(Nar)

Püstədi ha püstədi
Taxtı rəvan üstədi
Camış kimi ot otlar
Su içməyə ləkdədir.

(Barama qurdu)

Çilə bülbülüm çilə
Qanadı var tül kimi.
Uçur bağda, çəməndə
Çox yüngüldür tük kimi.

(Bal arısı)

Respublikamızın ərazisində nadir ağaclar: Lənkəranda dəmir ağacı, Zəngilanda 719 hektar sahəni əhatə edən təbii çinar meşəsi vardır. Bu meşə Avropada birinci, dünyada ikincidir. Qırmızı palıd Laçın rayonunun ərazisində ucalır. «I Pyotr, indiki Sankt-Peterburq ətrafında qorunub saxlanılan palıd meşəsini o vaxt qoruq elan etmişdir. Deyilənə görə palıd ağacını kəsəni Pyotr özü tənbeh edərmiş». Müəllim Qırmızı palıd ağacının dəyərliyindən, əhəmiyyətindən danışarkən XX əsrin əvvəlində olan belə bir əhvalat söyləyir.

Fransız sahibkarı haradansa bu nadir ağacın Laçın meşələrində olduğunu eşidir. Qızıl palıddan (yerli camaat onu belə adlandırırlarmış) misilsiz məişət əşyaları hazırlanırmış. Fransızlar Laçın meşələrinə nümayəndələr göndərirlər. Ferman və Şanan adlı ata-oğul fransız mühəndisləri bura yol çəkirlər. Qızıl palıd meşəsini qırdırırlar, taxta doğratdırırlar.

Lakin onları apara bilməyirlər. İşlətdikləri adamların haqqını qızıl pulla verirlərmiş. Bir gün quldurlar ata-oğulu tuturlar. Əvvəl oğlu vururlar. Atası oğlunun ölmədiyini görüb imdad istəyir-Hələ ölməyib, mən onu sağalda bilərəm. Pullarımızı götürün, bizə dəyməyin-deyirlər. Ata və oğul öldürülür. Erməni fitvası ilə düzəldilmiş bu faciəni eşidən Sultan bəy adlı yerli bir bəy bu hadisəni eşidib qatilləri cəzalandırıb. Hadisəyə bu günümüzün gözü ilə baxdıqda bütün Azərbaycan xalqına rahatlıq verməyən bir məsələni bir daha xatırlatmalı oluruq. Bu da ibarətdir erməni qəsbkarları tərəfindən zəbt edilmiş torpağımız, onun flora və faunası. Doğma elindən, obasından didərgin düşmüş böyüklü, kiçikli insanlar öz kəndlərini, uşaqlıq illərini keçirdikləri çayın sahilini, meşənin gözəlliyini necə unuda bilər. Bu gün ərazimiz uğrunda gedən mübarizədə ona nail olmaq lazımdır ki, yetişməkdə olan nəsildə Vətənimizi, torpağımızı sevməklə bərabər düşmənə-erməni qəsbkarlarına nifrətləri daha da artsın. Müstəqil respublikamızın torpaqlarının, təbii sərvətlərinin müdafiəsinə həmişə hazır olsunlar.

...«Gələn var» - deyə uşaqlar meşəlikdən at fınxırtısı eşidirlər. Onlar səs gələn tərəfə baxırlar. Köhlənin belində meşəbəyi gəlir. Həmişə olduğu kimi o atdan enir, yenə də uşaqlarla söhbətə girişir.

- Dünən səhər gördüm balta səsi gəlir, tez özümü verdim səs yerinə, nə görsəm yaxşıdır? Gördüm iki nəfər cavan bir palıdı baltalayırlar. Palıdın «naləsi» göyə qalxır. Oğlanlar məni görcək üz qoydular qaçmağa, qaça bilmədilər, tutdum onları. Uşaqlar soruşdular ki, indi bizim kəndimizdə belə adam olmamalıdır. Təbiətə qarşı mədəni və mərhəmətli olmaq haqqında kənd klubunda, məktəbimizdə vaxtaşırı söhbətlər, müzakirələr keçirilir. Bu günki ekskursiyamızın məqsədi də təbiəti sevməklə bağlıdır. - Düz deyirsiniz uşaqlar, meşəbəyi sözünə davam etdi: - Zarafat edirəm kəndimizdə gözəlliyə qəsd edənlərə az təsadüf olunur. Bu işdə siz məktəblilərin də xidməti az olmayıb.

Meşəbəyi uşaqlarla xudafizləşərkən uşaqlardan biri:



*Kef üstündən kefimizi*
*Gəldi, sordu meşəbəyi*

*- Buyur! – dedik, atdan enib*
*Bardaş qurdu meşəbəyi*
*Qamçısını atdı sola*
*Çantasını çəkdi dala*
*Şirin-şirin, bala - bala*
*Bizlə vurdu meşəbəyi*
*İsti kabab, təzə fətir,*
*Doymaq olmur, yenə gətir*
*Bığlarını arada bir*
*Eşib burdu meşəbəyi,*
*Altmışı verib yelə*
*Düşməyibdir ruhdan hələ*
*Qarşıdakı bir gözələ*
*Göz də vurdu meşəbəyi*
*Yatdı biri keflənərək*
*Birin də yıxdı külək*
*Hüseynlə axıradək*
*Möhkəm durdu meşəbəyi.*[66]

Ekskursiya davam edir, uşaqlar Kürün sahilindəki su dartan motorlar kompleksinə çatırlar. Ağ daşdan tikilmiş yaraşıqlı evlər, yaşıllıqlar qoynunda daha gözəl görünür. Bir tərəfdə inşaatçılar yeni binanın təməlini qoyur, qovağın kölgəsində mexaniklər məşğuldular. İnsan əməyi təbiətin estetikası ilə birləşib insanı daha yaxşı işləməyə həvəsləndirir. Kür qırağı gündən-günə gözəlləşir. Lakin Kür həmişəki Kür deyil, onun suyu da həmişəki su deyil, halbuki təmiz suya olan ehtiyacımız gündən-günə artır. Suyun natəmizliyi əhali arasında xəstəliklərin çoxalmasına gətirib çıxara bilər. Səbəbi də ekologiyanın çirklənməsi, bu suyun bulanması. Ana təbiəti, onun sərvətlərindən olan suyun təmizliyini qorumalıyıq. Nahaq yerə xalq «Su aydınlıqdır», «su bir yerdə qalanda iyiyər», «Su murdarlıq götürməz» deməyib. Respublikamızın

---

[66] H.Hüseynzadə «Ömür gözlə» Gənclik, Bakı, 1978. səh.164.

Tuğay meşələri haqqında məlumatımız olmalıdır. Söhbət davam etdirilir. Qırmızı körpüdən tutmuş Xəzər dənizinə qədər, uzanıb gedən Kür çayı ətrafındakı meşələr bu qəbildəndir. Kür ətrafı meşələr respublika ərazisinin ortasında təbii tarla, qoruyucu meşə zolağı rolunu oynayır, səhra zonasına sərinlik, rütubət yayır, ətrafındakı zərərli bakteriyaları məhv edir. Vaxtı ilə bu çay ildə iki dəfə daşmış, sahil boyu 500 metrdən tutmuş, 2 kilometrə qədər enində meşə zolağı yaranmışdır. Bura nadir heyvan və quşlar məskəninə çevrilmiş, ətraf kəndlərin əhalisini ağac materialları ilə, gümxanaları tut yarpağı ilə təmin etmiş, barama istehsalı üçün əsas yem bazası olmuşdur.

Şəkinin Avropaya gedib çıxan ipəyi Tuğay meşələrinin məhsulu hesabına olmuşdur. İndi zaman dəyişilmiş, meşələrin yerində Şamxor, Yenikənd su dəryaçaları tikilmiş, Kür cilovlanmış daşqınların qarşısı alınmış, taxıl və pambıq sahələri intensiv suvarıldıqdan, şor suların səviyyəsi qalxmış, zərərli sular çay ətrafına axmağa başlamışdır.

Beləliklə, Tuğayın dəryaçalar ətrafında qalan hissəsi həm susuzluqdan, həm də şorlanmanın təsirindən yavaş-yavaş qurumağa, seyrəlməyə başlamışdır. Dəryaçalar altında qalan meşələr əvəzinə yeni meşələr salmaq məsələsi isə unudulmuş heç kəsi maraqlandırmamışdır. Lakin son illər respublikamızda bu sahədə canlanma görünməkdədir.

İndi bütün ictimaiyyətin başlıca vəzifəsi Tuğayın bu qalan hissəsini saxlamaqdan, onun yoxa çıxmasının qarşısını almaqdan, qurumuş, funksiyasını itirmiş sahələrdə bərpa işlərinin genişlənməsindən ibarətdir. Müşahidələr göstərir ki, ekskursiyalar uşağı ruhlandırır, şənləndirir, onların mənəvi və fiziki sağlamlığını təmin edir. Təbiətdəki gözəlliklər, ondakı səslər, rənglər uşaqlarda müxtəlif şən əhval-ruhiyyə yaradır. Məsələn: baharda səfərə çıxmaq uşaqda şadlıq və nikbinlik hissi doğurur. Qovsi-quzeh, sakitlik, sərinlik, başı göylərə ucalan ağaclar, laləli düzlər, sakit axan sular nə qədər də gözəldir. Baharda Kürün haray salıb yamaclara çırpınaraq axması ilə payızda öz-özlüyündən həzz alırmış kimi sahili öpə-öpə axması hamıya eyni təsir göstərmir. Taxıl zəmilərinin



təkrar olunmaz gözəlliyi, səmanın nəhayətsiz maviliyi, güllərdən, çiçəklərdən alınan təsir də müxtəlifdir.

Çıxışlara yekun vurularkən göstərilir ki, indi bu gözəlliyi özümüz yaratmalıyıq. Evlərdə, klubda, kitabxanada, məktəbin həyətində çiçək xiyabanı düzəltmək, orada hər bir bitki nümunəsi yetişdirməliyik. Ağaclara daha yaxşı qulluq etməliyik. Təbiətə övlad münasibəti tərbiyə olunmalıdır.

Hərə bir ağac əkib yetişdirsə şəhərlərimiz, kəndlərimiz başdan-ayağa yaşıllığa bürünər. Yaxşı deyiblər: «Meşəsi çox olan obanın, məzarı az olar». Şagirdlərə bunlar da çatdırmaq unudulmur: «Yaşıl rəng gözü işıqlandırır». (Nizami) Yaşıllığa çox baxmaq, ürək xəstəliklərinin sağalmasına kömək edir. Beləliklə şagirdlər dərk edirlər ki, təbiətin dərmanı xeyirlidir, onun estetikası, təbiətdən alınan gözəllik duyğusu da dərmandır «Fərq burasındadır ki, birinci bədənin fiziki sağlamlığına, ikincisi isə ruhun, mənəviyyatın sağlamlığına kömək edir. Biri bədəndə əmələ gələn xəstəliyi, ikinci mənəviyyatda əmələ gələn boşluğu, yoxsulluğu, ətaləti, kütlüyü və ya hər hansı eybəcər hissi aradan qaldırır. Bu mənada təbiətdə olan gözəl səslər, rənglər, simmetriya, ətirlər də ruh, mənəviyyat dərmanıdır»[67]

Artıq respublikamızda qoruqlara qayğı ildən-ilə artır. Lakin təkcə qoruqlarda olan heyvanat və bitki aləminin qayğısına qalmamalıyıq. Gözəlliyin gözəlliyi harmoniyalıqda, simmetriklikdə, mütənasiblikdədir. Hegel heyvanat aləmini təbiətin zirvəsi hesab edir. Vaxtı ilə dağlarımızın, meşələrimizin, Milin, Muğanın bəzəyi olan bir çox heyvanlara qeyri - sağlam münasibət nəticəsində onların nəsli kəsilmək üzrədir. Mədəniyyət müəssisələrində, özəl qurumlarda, tədris ocaqlarında ictimai fəallıq gündən-günə artmalıdır, təbiətə qayğı bulaqların gözünün kor olmasına, gözəlliyin can verməsinə imkan verməməlidirlər. Uşaqlar, gənclər bütövlükdə insanlar öz ərazilərində olan irili-xırdalı neçə bulaq olduğu, flora və faunasının hansı növünün yaşadığını bilməlidirlər. Belə olmasa bulaqların zümzüməsi susar, zümrüd meşələrin yerində kötüklər başsız atlı qiyafəsində

[67] M.Cəfər «Estetik zövq haqqında». Bakı. Azərnəşr 1965-ci il. Səh. 18.

olacaq. Elə buna görə də təbiətə mədəni münasibət hər yerdə görülməlidir.

Bu gün müstəqil respublikamızın hər bir vətəndaşı doğma yurdumuza böyük «milli park» kimi, «qoruq» kimi yanaşmalıdır. Onlar ölkəmizin Konstitusiyasında deyilən: «Ətraf mühitin qorunması hər bir şəxsin borcudur» sözlərini unutmamalıdırlar.

Unutmaq olmaz ki, təbiət gözəlliyi məktəblilər üçün hər şeydən qabaq estetik qavramanın «mədəniyyət məktəbi»dir. Təbiət gözəlliyi hisslərin zərifliyini tərbiyə edir, insan gözəlliyini duymağa kömək edir.

İlk qeydlər uşaqların təbiətin gözəlliklərini görməkdə çətinlik çəkdiklərini aşkar edə bilər. Lakin ekskursiyaların davam etdirilməsi təbiət haqqında qeydlərin təkrarı tədricən uşaqların yaradıcılıq bacarıqlarını, poetik qavrayışın inkişafına öz müsbət təsirini göstərəcəkdir. Uşaqların «Gözəl dərə» haqqında qeydlərində oxuyuruq: «İki ay bundan əvvəl çılpaq gördüyüm qovaqlar indi təzə paltar geyib. Yazda meşə qışdakından gözəl görünür, qışın sakitliyindən əlamət yoxdur. Quşlar da, yarpaqlar da nəğmə oxuyur...»

«Mən Kürün köpüklü sularına baxmaqdan heç cür ayrıla bilmirdim. «Qırqovullu təpə»dən ətrafa baxmaq, çiçəklərdən dəstə bağlamaq adama ləzzət verir. Kürdən, meşədən ayrılmaq olmur».

«İstərdim ki, məktəbimizin həyəti «Gözəl dərə» kimi gözəl olsun. Bunu isə biz yaratmalıyıq...»

Təcrübə göstərir ki, müşahidələr uşaqların bədii zövqünün tərbiyəsinə çox böyük təsir edir. Təbiətdən aldıqları təəssürat onların danışıqlarında, hərəkətlərində, bədii yaradıcılıqlarında tədricən özünü göstərir.

Doğma torpağın sahibi olmaq onun gözəlliklərini sevmək əsl vətənpərvərlik hissidir. Bu hissi yetişməkdə olan nəsildə görməyə çalışmalıyıq. Əsl vətənpərvər insanlar onda olacaqdır ki, uşaqlıq illərində boya-başa çatdığı torpağı sevsin, uğrunda mübarizə aparsın.



Mədəniyyət işçiləri, müəllimlər, tərbiyəçilər öz əməli işlərində bu müsbət keyfiyyətləri nəzərə almalı, uşaqlarda ana təbiətə övlad qayğısı tərbiyə etməlidirlər.

Ölkəmizin gənc vətəndaşları bilməlidilər ki, təbiət adlı nəhəng muzeylərin «eksponatları» rəngarəngdir. Təkcə vətənimizdə 300 növ məməli heyvan, 700 növ quş yaşayır. Ölkəmizdə 5676 növ bitki vardır. Müvafiq elmi-pedaqoji əsaslarla təşkil olunan gəzintilər, söhbətlər uşaqları həmin muzeyin «eksponatları» ilə, daha yaxından tanış etməyə imkan verir. Söz yox ki, bu imkan təbiətə övlad qayğısını daha da artırar...

Aparılmış müşahidələr göstərir ki, insanların mənəvi kamilliyini, fiziki sağlamlığını təmin edən təbiət həmişə gözəldir. Görkəmli filosofların birinin dediyi kimi «Ev tikməkdə qaranquşların, toxuculuqda hörümçəklərin, oxumaqda bülbüllərin şagirdi» olan insanın indiki şəraitdə təbiətə üz tutması, təbiətin flora və faunasından, mineral maddələrdən dərman vasitəsi kimi istifadə etməsi təsadüfi deyil. İnsanlar bir həqiqəti təsdiqləyirlər: bir halda ki, insanı Allah torpaqdan yaradıb, deməli torpaqda bitən bitkilər onların sağlamlığını qoruya bilər. Buna görə də təbiətin flora və faunasından, mineral maddələrdən sağlamlıq vasitəsi kimi istifadə olunması ənənəsi bu gün geniş vüsət almışdır. Bu həm də yeniyetmələrin, gənclərin bütövlükdə insanların ekoloji mədəniyyətinin göstəricisidir.

# V FƏSİL

# TURİZM VƏ MUZEYŞÜNASLIQ TƏTBİQİ KULTUROLOGİYANIN ƏSAS TƏRKİB HİSSƏSİ KİMİ

## *5.1. Turizm – sosial-mədəni fəaliyyət sahəsi kimi*

Turizm-fəal istirahətin ən əlverişli və səmərəli formalarından biri olub, insanların fiziki cəhətdən kamil və hərtərəfli inkişafında, mədəni asudə vaxtının mənalı təşkilində ən effektli vasitələrdən biridir.

Turizm-təkcə təbiəti seyr etmək, ondan mənəvi həzz almaqla bitmir, o eyni zamanda sosial hadisə kimi-çox aktual və hərtərəfli bir sahə hesab edilir.

Turizmin ilk tarixini üç istiqamətdə öyrənmək olar. Bunlardan birincisi, təhsil məqsədilə edilən səyahətlər; görkəmli adamlarla görüşlər, tarixi mədəniyyət abidələri, qədim şəhərlər, incəsənət əsərləri ilə tanışlıqdır.

İkinci istiqamət, keçmişin ictimai həyatı ilə bağlı olan dini mədəniyyət ocaqlarında ziyarətin təşkili, Mədinə, Məkkə, Kəbə, Kərbəla, Məşhəd və s. kimi dini ibadət yerlərinə səyahətin edilməsidir. Bu heç də dini ziyarət məqsədi daşımır. Burda əsas məqsəd, şəxsiyyətin dünyagörüşünün artırılması və fiziki cəhətdən sağlamlaşdırılması ilə bağlıdır.

Üçüncü istiqamət, istirahət və sağlamlıq, idman mərkəzlərində səyahətin təşkil olunmasıdır.

Turizm tarixi hadisə kimi çoxdan yaranmışdır. Lakin XIX əsrə kimi ondan lazımi səviyyədə istifadə olunmamışdır.

«Turist» termini ilk dəfə 1800-ci ildən başlayaraq İngiltərədə istifadə olunmağa başlamışdır. 1817-ci ildə ondan fransız müəllifləri istifadə etməyə çalışmışlar..

«Turizm» fransız sözü olub, «turizme», «tur» - «gəzinti», «səfər» deməkdir.



«Turizm» termininin 2 mənası vardır:

1. İşdən uzaqlaşmaq məqsədilə asudə vaxtı səyahətdə keçirmək, yeni yerlər görmək, yeni insanlar arasında olmaqla mədəni istirahəti təşkil etmək;
2. Yaşayış yerini dəyişmədən əhalinin müxtəlif istiqamətdə hərəkəti nəzərdə tutulur. Bura asudə vaxtın təşkili formaları, turistlərin sağlamlığının möhkəmləndirilməsi, ümumi mədəniyyətinin yüksəldilməsi ilə əlaqədar səfər, gəzinti və başqa mədəni yerlərdə istirahətin təşkili daxildir.

Turizm insanın sağlamlığını möhkəmləndirir, iş qabiliyyətini, dünyagörüşünü genişləndirir, öz Vətənini, torpağını daha da yaxından tanımağa və sevməyə xidmət edir. Belə ki, öz ölkəsi daxilində gəzintiyə daxili (milli) turizm, vətəndən kənarda gəzintiyə isə beynəlxalq turizm deyilir.

Beynəlxalq turizm-XIX əsrin ortalarından inkişafa başlamış, XX əsrin ikinci yarısından kütləvi xarakter daşıyır. Avropa (İspaniya, İtaliya, İsveçrə və b.) dünyanın əsas turizm regionudur. İkinci əsas beynəlxalq turizm regionu isə Amerikadır.

Turizm əsasən turist idarələri tərəfindən qabaqcadan proqramlaşdırılmış mütəşəkkil, qismən də ayrı-ayrı şəxslərin müəyyənləşdirdiyi qeyri-mütəşəkkil səyahətlərdən ibarət olur.

Turizm-asudə vaxtın təşkili forması olub, mədəniyyətin öyrənilməsi, təbiətlə yaxınlıq, tarixin və müasir dövrün dərki üçün vasitədir.

Tətbiqi kulturologiyanın bir sahəsi olan turizmə, həm də asudə vaxt şəraitində sosial-mədəni fəaliyyətin bir növü kimi baxılır ki, onun da tərbiyəvi əhəmiyyəti birbaşa olaraq aşağıdakılardan asılıdır:

- turist-ekskursiya işinin istiqaməti və nəzəri-ideoloji səviyyəsi müasir tələblərə nə dərəcədə cavab verir;
- səyahət və ekskursiyalar zamanı kütlələrin sosial-mədəni fəaliyyətinin təşkilində istifadə olunan formalar hansı pedaqoji yanaşma və metodlarla təmin olunur;
- bu fəaliyyət nəticəsində insanların əldə etdikləri yeni bilik və bacarıqlar gələcəkdə onlara lazım ola bilərmi;

- səyahət və ekskursiyalar zamanı şəxsiyyətin sosial özünüdərketmə, kollektivçilik hissinin möhkəmlənməsi, ictimai fəallığın artması, istedadının və s. imkanlarının üzə çıxarılması araşdırılır.

Tətbiqi kulturologiyanın əsas istiqamətlərindən biri olan turizm aşağıdakıları təmin edir;

a) əhalinin (və ya vətəndaşların) qısa və uzunmüddətli (məzuniyyət) asudə vaxtlarında tarixi mədəniyyət abidələrilə, təbiətlə və s. tanışlıq;

b) turist-ekskursiya fəaliyyəti prosesində yaradıcılıq, maarif və istirahətin fərdi, qrup və kütləvi formalarının birləşdirilməsi, uyğunlaşdırılması.

Onu da deyək ki, səyahət və ekskursiyalar kütlələrin sosial-mədəni fəaliyyətinin təşkilinin pedaqoji proqramına daxildir:

a) turist-ekskursiya müəssisələri və ya turist bazaları ilə razılaşdırılmış işin forma və məzmununun seçilməsi, təsir obyektinin xüsusiyyətlərinin nəzərə alınması, şəxsiyyətin mənəvi inkişaf səviyyəsinə və maraq dairəsinə uyğun işin forma və məzmununun təmin olunması və tətbiqi kulturologiyanın əsas istiqamətlərindən biri olan turizmin spesifikasının nəzərə alınması;

b) turist-ekskursiya işinin konkret formalarına daxil olan əmək, təlim-tərbiyə, özünütədris fəaliyyəti prosesində insanlarm əldə etdikləri informasiya sistemi vasitəsilə biliklərin dərinləşməsi və yeni biliklərin qazanılması;

c) səyahət və ekskursiyaların gedişində mədəni asudə vaxtın rasional və empirik təşkilinə və kütlələrin fasiləsiz təhsili prosesinə yönəldilmiş və bu fəaliyyəti stimullaşdıran kulturoloji işin forma, metod və vasitələrinin müəyyənləşdirilməsi.

Turist qruplarının həyat fəaliyyətini bəzən üç əsas mərhələyə ayırmaq mümkün olur. Birinci mərhələdə, dostluq, tanışlıq prosesi özünü bariz şəkildə büruzə verir. Bu zaman qrupun iştirakçıları bir-biri ilə tanış olur, oxşar maraqlı



adamlar bir-birini tapır. Bu zaman həm formal qrupun strukturu, həm də mikroqrup yaradılır.

Pedaqoji proqramın bu dövrü əhatə edən hissəsi özünə ekskursiyalarla yanaşı, özfəaliyyət gecəsinə hazırlıq, idman yarışlarında iştirak kimi formaları da birləşdirir.

Bu mərhələdə ekskursiyanın seçilməsinə xüsusi diqqət yetirilir. Ekskursiyanın mövzuları qrupun ayrı-ayrı üzvlərinin maraq və tələbatlarına uyğun gəlməlidir. Eksperiment zamanı müəyyən olunmuşdur ki, vətənpərvərlik mövzulu ekskursiyalara maraq daha çoxdur.

İkinci mərhələdə, qrupun bir bütöv kimi yetişməsi ilə, ayrı-ayrı üzvlər arasında əlaqələrin möhkəmlənməsi ilə xarakterizə olunur. Bu dövrdə özfəaliyyət gecəsinə hazırlıq işi qüvvətləndirilir, müxtəlif əldə düzəldilmiş əşyaların sərgisi, turist mahnıları, foto müsabiqələri, divar qəzetlərinə baxışlar və s. keçirilir. Ekskursiyaların mövzuları və yürüşlərin müddətləri genişlənir.

Nəhayət, üçüncü mərhələ turist qruplarının möhkəmlənməsi, bir bütöv halına gətirilməsi ilə xarakterizə olunur. Bu da turist bazasında olan bütün qruplar arasında məqsəd birliyinin olması ilə əlaqədardır.

Bu mərhələdə tərbiyəvi nəticələr ümumiləşdirilir, səyahətə yekun vurulur. Əvvəllər istifadə olunmuş formalarla yanaşı, bu mərhələdə səyahətin kulminasiya nöqtəsi olan bayramlar xüsusi rol oynayır.

Turist bayramının metodikası maksimum sayda turistlərin cəlb olunmasına, onların hər birinin bilik, bacarıq, istedad və yaradıcılıqlarının nümayiş etdirməsinə əsaslanır. Bu bayramın ssenarisi elə tərtib olunmalıdır ki, burada turistlər səyahətin necə başa çatdırılması barədə və həm də səyahət etdikləri regionla öz regionları arasında oxşar və fərqli cəhətlər barədə öz fikirlərini bildirsinlər.

Bayramın gedişində səyahət müddətində keçirilmiş baxışlara yekun vurulur, yeni yarışlar təşkil edilir, turistlərin ictimai-siyasi, faydalı əməyinə qiymət verilir. Səyahət zamanı sosial-mədəni fəaliyyətin bütün rəngarəngliyini özündə əks etdirən bayram uzun illər turistlərin yaddaşında qalır.

Turist-ekskursiya mərkəzlərində istirahət edən turistərlə aparılan mədəni-kütləvi iş ideya və tərbiyəvi işin əsasını təşkil edir. Onun forma və metodları müxtəlifdir.

Turistlərlə keçirilən müxtəlif tematik gecələr, veteranlarla görüş, muzeylərə, tarixi mədəniyyət abidələrinə təşkil edilən ekskursiyalar Vətənimizin əldə etdiyi nailiyyətləri təbliğ etməyə imkan verir.

Turistlərin mədəni fəaliyyətini təşkil etmək üçün bədən tərbiyəsi və idman yarışları, olimpiadalar, ədəbiyyat və incəsənətin təbliği, özfəaliyyət yaradıcılığının təşkili, kino xidmətinin təşkili və s. əsas yer tutur.

Turistlərlə keçirilən bütün mədəni-kütləvi tədbirlər onların arzu və istəklərinə uyğun olmalıdır. Eyni zamanda onların cinsi, yaşı, peşəsi, savadı nəzərə alınmalıdır.

Turist-ekskursiya mərkəzləri teatr-tamaşa müəssisələri, yaradıcılıq ittifaqları ilə daima əlaqə saxlamalıdır. Bu işə ictimaiyyəti cəlb etmək, mədəniyyət müəssisələrinin iş təcrübəsindən istifadə etmək, yüksək ixtisaslı kadrlar (mədəni fəaliyyətin təşkilatçılarını) hazırlamaq lazımdır.

Turist-ekskursiya mərkəzlərində mədəni fəaliyyətin təşkili əsasən, bədii şuranın üzərinə düşür.

Bədii şura-direktor və yaxud onun müavini, baş təlimatçı, mədəni fəaliyyətin təşkilatçısı, kitabxanaçı, akkompaniator, kinomexanik və ictimai təşkilat nümayəndələrindən ibarətdir.

Bədii şuranın tərkibi 4 nəfərdən 10 nəfərə qədər olur. Bədii şuranın tərkibi turist müəssisəsinin daxili əmri ilə təsdiq edilir.

Qeyd etmək lazımdır ki, bədii şura klubun, turist kabinetinin, kitabxananın işinə rəhbərlik etmir, onlarla yaxından əlaqə saxlayaraq, işini qarşılıqlı kömək əsasında qurur. Bədii şura öz işini bütün ictimai təşkilatlarla; turbaza, mehmanxana, həmin ərazidə yerləşən mədəniyyət müəssisələri və yaradıcılıq təşkilatları ilə ümumiləşdirir.

Turist müəssisəsində mədəni-kütləvi işin təşkili mədəni fəaliyyətin təşkilatçısına tapşırılır. O, ictimai-siyasi və mədəni həyata dair bütün suallara cavab verməyi bacarmalıdır.



Mədəni fəaliyyətin təşkilatçısı müntəzəm olaraq, turistləri turist müəssisəsinin mədəni həyatı ilə, mədəni-kütləvi tədbirlər planı ilə tanış etməli, keçirilən tədbirlərdə iştiraklarını təmin etməlidir. Ayrı-ayrı turistlərin yaradıcılıq qabiliyyətini aşkar etməli, onları turist fəallarının işinə cəlb etməli, marağa görə və həvəskar birliklərdə, özfəaliyyət kollektivlərində iştirakını təmin etməlidir.

Mədəni fəaliyyətin təşkilatçısı idman və sağlamlıq işləri üzrə təlimatçı ilə birlikdə idman yarışları təşkil etməlidir.

Mədəni fəaliyyətin təşkilatçısı turistlərin maraq və suallarına qarşı nə qədər diqqətli olarsa, o qədər onun fəal köməkçisi olar.

**Mədəni fəaliyyətin təşkilatçısı-** birbaşa turizm üzrə baş təlimatçıya tabedir. MFT- vəzifəsinə daxildir:

- turistlər arasında bütün mədəni-kütləvi tədbirlərin təşkili və keçirilməsini təmin etmək;
- turistlərin mədəni-kütləvi təminatı, kinotəchizatı və radioşəbəkəsi işinin planlaşdırılması;
- turist müəssisəsinin mədəni şurasının işini təşkil etmək;
- mühazirələrin, tematik gecələrin, mahnı və rəqs gecələrinin, idman bayramlarının, kütləvi oyunların, habelə turistlərin özfəaliyyət yaradıcılığının təşkilində müsabiqə və baxışların, başqa mədəni kütləvi tədbirlərin keçirilməsində və s. məsələlərdə turizm üzrə təlimatçılara metodiki köməklik göstərmək;
- turistlərin kütləvi istirahəti üçün nəzərdə tutulmuş turist bazasının bədii tərtibatının təşkilinə köməklik göstərmək və əyani təbliğatın vəziyyətinə nəzarət etmək;
- yerli mədəniyyət müəssisələri, ictimai və yaradıcılıq təşkilatları, elm və təhsil müəssisələri ilə daima əlaqə saxlamaq;
- keçirilən mədəni-kütləvi tədbirlərin gündəlik uçotunu aparmaq;
- gördüyü işlər haqqında turizm üzrə baş təlimatçıya hesabat vermək.

**Akkompaniator (pianoçu, akkordeonçu)** - mədəni fəaliyyətin təşkilatçısına tabedir, onun rəhbərliyi altında işləyir. Akkompaniatorun vəzifəsinə daxildir:

- turist müəssisəsində keçirilən bütün mədəni-kütləvi işin musiqi hissəsinin repertuarını tərtib və müşayiət etmək;
- səhər idmanı, kütləvi idman tədbirləri, bayramlar, bədii özfəaliyyət konsertini, musiqi, mahnı və rəqs gecələrini və başqa mədəni kütləvi tədbirləri musiqi ilə müşayiət etmək;
- turistlər arasında ən yaxşı milli və xarici musiqi əsərlərinin təbliğini həyata keçirmək.

**Kitabxanaçı** - Mədəni fəaliyyətin təşkilatçısına tabedir. Kitabxanaçının vəzifəsinə daxildir:

- Kitabxananın və oxu zalının işini təşkil etmək;
- Kitabxananın kütləvi işinin planını tərtib etmək;
- Kitabxananın fondunu komplektləşdirmək və ardıcıl olaraq zənginləşdirmək;
- Ədəbi söhbətlər keçirmək, kitab sərgiləri təşkil etmək, albom, plakat, turizmə dair qəzet və jurnal məqalələri, tematik gecələr üçün yeni bədii ədəbiyyat sərgiləri təşkil etmək;
- Gündəlik yerli və mərkəzi qəzetləri nümayiş etdirmək;
- Oxuculara verilən kitabların və yeni kitabların uçotunu aparmaq.

Mədəni-kütləvi işin əsas prinsipi – demokratiklik, prinsipiallıq və ideyalılıqdır.

İkinci prinsip - ölkəmizdə baş verən mədəni quruculuqla və həyatla bağlılıqdır.

Üçüncü prinsip - kütləvilik və differensiallıqdır. Bu prinsipin həyata keçirilməsi mədəni fəaliyyətin təşkilatçısından turistləri yaxından tanımağı, onlarla daima yaxından əlaqə saxlamağı, onların maraqlarını öyrənməyi (yaşım və professional hazırlığını nəzərə almaqla) tələb edir. Bu prinsip eyni zamanda, milli xüsusiyyətlərin nəzərə alınmasını tələb edir.

Turistlərlə keçirilən mədəni-kütləvi işin əsas sahələri bunlardır:

- kütləvi-siyasi iş;
- təbiət elminin təbliği;



- mədəni həyat tərzinin təbliği;
- estetik tərbiyə;
- bədii özfəaliyyətin təşkili və xalq yaradıcılığının inkişafı;
- kütləvi bayramlar, gəzintilər, oyun və əyləncələr (plan üzrə turistlərə mədəni xidmət göstərmək);
- kitabxana işi;
- kino təchizatı işinin təşkili.

Mədəni-kütləvi işin göstərilən sahələrinin turist müəssisələrində təşkilinin forma və metodları aşağıdakılardır:

**Kütləvi-siyasi iş**. Dövlət rəhbərliyinin qərarlarının təbliği, dövlətimizin daxili və xarici siyasəti, müasir beynəlxalq vəziyyət, qanunvericilik və respublika həmkarlar ittifaqları konfederasiyasının dövlət, təsərrüfat və mədəni quruculuqda olan rolunun təbliğ olunmasıdır.

Turistlərlə aparılan kütləvi-siyasi işin formaları bunlardır: İctimai-siyasi mövzulara dair mühazirələr, söhbətlər, tematik gecələr, şifahi jurnallar (beynəlmiləl dostluq gecələri) və s.

Kütləvi-siyasi işin əsas sahəsi turistlərin vətənpərvərlik ruhunda tərbiyəsidir. Bununla əlaqədar turistlərlə əlamətdar tarixi bayramlar, müharibə veteranları ilə görüşlər, milli qəhrəmanlara həsr olunmuş gecələr və s. keçirmək olar.

Turist təşkilatlarının və turistlərin təsərrüfat-siyasi kompaniyalarda, bayramlarda, xatirə və əlamətdar günlərdə iştirakına xüsusi diqqət yetirilməlidir.

Turist təşkilatlarının radio qovşağının, divar mətbuatının daimi fəaliyyətinə, materialın konkret və ideyalılığına xüsusi diqqət yetirilməlidir.

Yadda saxlamaq lazımdır ki, kütləvi-siyasi iş maraqlı, cəlbedici, emosional olmalıdır. Bu işdə mədəni kütləvi tədbirləri rəngarəng və hərtərəfli hazırlamaq, turistlərin fəal iştirakına nail olmaq ən əhəmiyyətli bir vəzifə hesab olunur.

Əyani təbliğat vasitələrinin təşkilinə xüsusi fikir verilməlidir: plakatlar, panno, stendlər, portretlər qalereyası, foto-sərgilər, foto-montajlar, «satira-pəncərəsi», karikatura vitrini, şarjlar, turist müəssisəsinin bədii tərtibatı və reklamlar

insanların şüuruna böyük estetik təsir göstərir. Bu turistlərin həm də ideya siyasi tərbiyəsinin fəal formasıdır.

Təbiət elminin təbliği. Bu bölmədə müasir elm və texnika, radioelektronika, kibernetika sahəsində əldə edilən nailiyyətlər, təbiət hadisələrinin və ictimai həyatın xüsusiyyətləri öz əksini tapır. Bununla əlaqədar turist müəssisələri yaradıcı təşkilatlar ilə daima əlaqə saxlamalıdırlar.

Elmi maarifin təbliğində istifadə olunan formalar əsasən, bunlardır: şifahi jurnalar, görkəmli elm xadimləri, mədəniyyət və incəsənət işçiləri ilə görüşlər, təbiətşünaslıq ekskursiyaları və s. Burada ölkəşünaslıq muzeyləri də əsas rol oynaya bilər. Turistlərin qüvvəsi ilə həmçinin, müxtəlif respublikalara həsr olunmuş ölkəşünaslıq gecələri, rayonun qocaman və görkəmli adamları ilə görüşlər keçirilə bilər. Bu zaman, kitabxana tərəfindən ölkəşünaslığa dair ədəbiyyat sərgisi təşkil olunmalıdır.

Dini yerlərin ziyarət edilməsi, məscidlərə, mədrəsələrə ekskursiyaların təşkili, din xadimləri ilə görüşlər bu işin həllində mühüm əhəmiyyət kəsb edə bilər.

Mədəni həyat tərzinin təbliği. Mədəni-kütləvi işin bu bölməsində həyat tərzi, mədəni-məişət, mədəni-quruculuq məsələlərinin təbliği, həyatda rast gəlinən mənfiliklər: müftəxorluğa, kobudluğa, qadına hörmətsizliyə qarşı mübarizə də əsas yer tutur.

Hazırda mədəni həyat tərzinin təbliğində istifadə olunan əsas formalar bunlardır:

- Mühazirələr- mənəvi mədəniyyətə və mənəviyyatımıza dair;
- Tematik gecələr: «İnsanın gözəlliyi nədədir?!», «İnsanda hər şey gözəl olmalıdır», «Uşaqlar bizim gələcəyimizdir» və s.
- Mədəni-məişət və ictimai-iaşə müəssisələrinin işçiləri ilə turistlərin görüşünü təşkil etmək;
- Turist müəssisəsi kitabxana ilə birlikdə mədəni-məişətə dair sərgi və stendlər təşkil etmək – turist müəssisələrində keçirilən bayramlarda, adət-ənənələrdə turistlərin fəal iştirakını təmin etmək;
- Film nümayiş etdirmək və filmin müzakirələrini təşkil etmək.

Estetik tərbiyə. Estetik tərbiyə-insan fəaliyyətinin maddi və mənəvi sahələrində gözəlliyi görmək, duymaq və yaratmaq bacarığının tərbiyəsidir. Bu mürəkkəb və çoxtərəfli prosesdə bir sıra obyektiv və subyektiv faktorlar iştirak edir:

Təbiət, əmək, texnika, ictimai ideal, incəsənət. Əxlaq, geyim, dini fikirlər və insanın mənəvi saflığı – bunların hamısı bizim estetik normalara və ictimai ideala uyğun gözəl olmalıdır. Keçmişin mənfiliklərinə qarşı mübarizədə estetik tərbiyə əsas rol oynayır.

Turist müəssisələrində estetik tərbiyənin əsas istiqamətləri bunlardır: incəsənətin təbliği, teatr-tamaşa və konsert işi, bədii ədəbiyyatın təbliği, bədii özfəaliyyət, turistlərin kino xidməti və s.

Estetik tərbiyənin təşkili formaları klassiklərin irsinə əsaslanmalıdır: ədəbiyyat və incəsənətə dair mühazirə və söhbətlər, mühazirə-konsertlər, incəsənət lektoriyaları, musiqili-ədəbi gecələr, turistlərin incəsənət ustaları ilə görüşü, «İncəsənət təqvimi» gecələri, şifahi jurnal və almanax – «Gözəllik aləmində», turistlərin xahişi ilə – radio-konsert, təsviri incəsənətin tematik sərgiləri, bədii oxu, filmlərin nümayiş etdirilməsi, televiziya proqramına baxış, filmlərin müzakirəsi, tamaşaçı konfranslarının keçirilməsi və s. adamlarda gözəl zövq tərbiyə edilməsi üçün imkan verir.

Bununla əlaqədar turistlərin bədii özfəaliyyətinin təşkili, turist bayramlarının, mahnı bayramlarının, bal rəqslərinin, bal və karnavalların keçirilməsi, kollektiv surətdə tamaşalara, konsertlərə, bədii muzey və sərgilərə, şəkil qalereyasına baxış və müzakirələrin keçirilməsi olduqca vacibdir. Bu məsələlər turistlərin arzu və istəklərinə uyğun olaraq, yerli yaradıcılıq təşkilatları ilə əlaqə saxlamaqla – yazıçıların, bəstəkarların, rəssamların, kinematoqrafçıların, jurnalistlərin iştirakı ilə keçirilə bilər.

Estetik tərbiyədə, turist müəssisəsinin gözəl şəraitdə olması, onun bədii tərtibatı insanlarda mənəvi zövqü formalaşdırmalıdır.

**Bədii özfəaliyyətin təşkili.** Bədii özfəaliyyət kollektivlərində iştirak kütlələri mənəvi zənginliklərdə birləşdirir. Professional və qeyri-professional incəsənət cəmiyyətimizin bədii xəzinəsini zənginləşdirir. Bədii özfəaliyyət turistlərin mədəni fəaliyyətinin bir növü – ideya və estetik tərbiyənin əsas faktorudur.

Bədii özfəaliyyətin təşkilinin əsasını repertuarın seçilməsi təşkil edir. Burada seçilən əsərin ideya istiqaməti, aktuallığı, bədii zənginliyi və eyni zamanda özfəaliyyət kollektivinin imkanları nəzərə alınmalıdır.

Burada bədii özfəaliyyətin kütləviliyi, onun mədəni-kütləvi tədbirlərdə iştirakı, turist müəssisəsinin özfəaliyyət kollektivinin Xalq yaradıcılıq evi, klublar, Mədəniyyət evi və Mədəniyyət sarayları ilə əlaqəsi, turist müəssisəsinin özfəaliyyət kollektivinin baxışlarda, müsabiqələrdə, festivallarda iştirakı əsas faktordur. Bununla əlaqədar olaraq aşağıdakı cəhətlər nəzərə alınmalıdır:

- tədbir hansı hadisə ilə bağlı hazırlanır (əlamətdar gün, tematik konsert, ədəbi-musiqili kompozisiya üçün və s.)
- kollektivin ifaçılıq imkanları;
- səhnənin imkanları (səhnənin ölçüsü, səs və işıq tərtibatı, əldə olan rekvizit və s.).

Turist baza və mehmanxanalarında turist təşkilatının işçiləri və turistlərin iştirakı ilə bədii özfəaliyyət gecələri keçirmək məqsədəuyğundur. Turistlər arasında bədii qiraətçilərin, rəssamların, müğənnilərin, rəqqasların və s. müsabiqələrini keçirmək olar.

**Kütləvi bayramlar və gəzintilər, oyunlar və əyləncələr.**

Bayramlar mədəni-kütləvi işin bir forması olub, qabaqcadan tərtib edilmiş ssenari əsasında müxtəlif tədbirlər kompleksinin hazırlanmasına imkan verir. Bura tematik, teatrlaşdırılmış və əyləncəli gecələr, karnavallar, ŞHK, kütləvi oyunlar, attraksionlar, kinofilm nümayişi, sərgilər, müsabiqə və viktorinalar və s. daxildir.



Turist müəssisəsində kollektiv istirahətin iki formasından istifadə oluna bilər: 1) tamaşa; 2) oyunlar.

Əsas xüsusiyyətləri bunlardır: kütləvilik, mənəvi zənginləşmə, istirahət və əyləncə, yaradıcılıq qabiliyyəti və estetik zövqləri inkişaf etdirmək və s.

Oyunlar-insanlar arasında ünsiyyət vasitəsidir, özfəaliyyət yaradıcılığını inkişaf etdirir, sosial-mədəni fəaliyyəti təşkil edir.

Yaradıcılıq qabiliyyətlərinin üzə çıxarılmasına görə oyunlar fiziki və bədii növlərə ayrılır.

İndi turist müəssisəsinin yerləşdiyi yerin coğrafi vəziyyətindən asılı olaraq milli oyunlardan geniş şəkildə istifadə etmək lazımdır. Bunun beynəlmiləl tərbiyə üçün böyük əhəmiyyəti vardır.

Hazırda turist müəssisələri aşağıda qeyd olunan mədəni-kütləvi tədbirlərin keçirilməsində böyük təcrübə toplamışlar. Bunlardan: turist mövsümünün açılmasına, Yeni ilin qarşılanmasına, Qışın yola salınmasına, Mahnı bayramı, ŞHK, bal-karnaval və s. kimi bayram və kütləvi gəzintilər misal ola bilər.

Turist müəssisələrində rəqs gecələrinin keçirilməsi mühüm əhəmiyyət kəsb edir. Belə gecənin müvəffəqiyyəti turist müəssisəsinin təşkilatçılarının üzərinə düşür. Bu işdə mədəni fəaliyyətin təşkilatçısı, akkompaniator, kitabxanaçı, təlimatçılar və turist fəalları aktivlik göstərməlidirlər.

Rəqs meydançası bayramsayağı bəzədilməlidir. Burada estrada,- şou - biznes əsas amillərdəndir. Estradanın tərtibatı gözəl olmalı və orkestr üzvlərinin geyimləri eyni olmalıdır.

Rəqs gecələrində bədii işıqlandırmadan da istifadə edilir. Bu isə bayram əhval-ruhiyyəsi oyadır. Bu işdə radio gücləndiricilərinin olması vacibdir. Orkestr üçün bir neçə mikrofon, bir mikrofon isə mədəni fəaliyyətin təşkilatçısı üçün qoyulmalıdır. Rəqs meydançasının müxtəlif yerlərində səs gücləndiriciləri qoyulmalıdır. Meydançanın ətrafı boyunca oturacaqlar düzülməlidir (rəqsdən sonra dincəlmək üçün). Bu zaman istirahət otağı, oxu zalı fəaliyyət göstərməlidir. Burada

turistlər yeni qəzet və jurnallarla tanış ola bilər və stolüstü oyunlar oynaya bilərlər.

Gecənin təşkilatçısı bütün tədbirin keçirildiyi müddətdə turistlərlə ünsiyyətdə olmalı, həmin şəxs olduqca xeyirxah, insanpərvər və mədəni olmalıdır.

**Kitabxana işi.** Turist müəssisəsində kitabxana işi, turistlərin məşğuliyyətinə, peşəsinə və maraq dairəsinə uyğun komplektləşdirilməlidir. Kitabxana rəhbəri kitab satışı müəssisələri ilə əlaqə saxlamalı; kitab fondunun yaradılması və onun saxlanılması, kitabların uçotu, işlənilməsi, şöbələrə bölünməsi, kataloqdan istifadə edilməsi, kitabların hesablanması və kitabxananın maddi-texniki bazasını təmin etməlidir.

Kitabxananın kütləvi iş formalarına oxucularla söhbət, biblioqrafik məlumat, ictimai-siyasi oxu, kitabların kollektiv müzakirəsi, ədəbi gecələr, oxucu konfransları, yazıçılarla yaradıcılıq görüşləri, memorial və ev muzeylərinə ekskursiya, kitab günü, poeziya günü, kitabsevərlər klubu və s. daxildir. Bundan əlavə bu işdə əyani təbliğatın formalarından: sərgi, vitrin, plakat və s. istifadə etmək olar.

Kitabxana işində oxu zalının tərtibatı və uçotunun aparılmasının da böyük əhəmiyyəti vardır.

**Kino təchizatı işinin təşkili.** Kinofilmlər, ideya – siyası tərbiyə və elmi-texniki biliklərin təbliğində əsas vasitədir. Eyni zamanda şəxsiyyətin hərtərəfli inkişafında, mədəni istirahətin təşkilində kinonun böyük tərbiyəvi əhəmiyyəti vardır.

Mədəni-kütləvi işin bu bölməsinə əsasən kinoqurğunun təşkili, turist müəssisəsinin kino-prokatla əlaqəsi, repertuar cədvəli və onun tərtibi qaydası, kinofilmlərin seçilməsi, turist müəssisəsinin profilini nəzərə almaqla kinofilmlərin reklamlaşdırılması, kinofilmlərin yüksək səviyyədə nümayiş etdirilməsi, yanğından qorunma qaydalarına riayət etmək və s. daxildir.

Kinotəchizatı işinin formalarına kinofestivallar, kinogecələri, filmlərin müzakirəsi, tamaşaçı konfransları, kino incəsənəti ustaları ilə yaradıcılıq görüşləri, kinosevərlər gecəsi, xronikal-sənədli, mənzərə və turist filmlərinin nümayiş



etdirilməsi, mədəni-kütləvi işin başqa formaları ilə yanaşı kinodan istifadə edilməsi və s. aiddir.

Kino incəsənətini təbliğ etmək məqsədilə tematik sərgilər, kino ədəbiyyatı sərgiləri təşkil etmək məqsədəuyğundur.

Təcrübə göstərir ki, turist müəssisələrində mədəni-kütləvi işin təşkilində illüstrasiyalaşdırma vasitəsi kimi – tematik gecələrdə, şifahi jurnallarda və əlamətdar günlərə həsr olunmuş gecələrdə kinodan geniş surətdə istifadə olunmalıdır.

Vətəndaşların və onların ailə üzvlərinin fəal istirahətinin ən əlverişli forması özfəaliyyət turizmidir. Həmkarlar təşkilatı, turist-ekskursiya və idman müəssisələri özfəaliyyət turizminə böyük diqqət yetirməlidir.

Özfəaliyyət turizminin inkişafında şəhər və rayon turist klubları böyük rol oynayır.

Hazırda turizm-ekskursiya şuralarının nəzdində rayon, şəhər turist klubları fəaliyyət göstərir. Onlar özfəaliyyət turizminin kütləvi inkişafına köməklik göstərir, turizmi əhalinin sağlamlığı, hərtərəfli inkişafı və tərbiyəsi üçün əsas vasitə kimi təbliğ edir, turistlərin turist-ekskursiya tədbirlərində təhlükəsizliyini təmin edirlər.

Şəhər və rayon turist klubları böyük təşkilati və tədris - metodiki iş aparır, özfəaliyyət yürüşləri və səyahətlərin təşkilinə məsləhətlər verir və turist-ictimai kadrları hazırlayır.

Maraqlı turist yürüşləri və səyahətləri təşkil etmək üçün turist klubları tədris marşrutları işləyib hazırlayırlar. Buna istirahət günləri yürüşü, tarixi mədəniyyət yerlərinə yürüş marşrutları və s. aiddir.

Turist klubu turizm-ekskursiya şurasının təqdimatına əsasən, həmkarlar təşkilatının qərarı ilə yaradılır.

Turist klubu şuranın rəhbərliyi ilə fəaliyyət göstərir.

Klubun əlverişli, avadanlıqla təchiz olunmuş, turistləri cəlb edə biləcək, baxımlı binası olmalıdır. Klubda turist ədəbiyyatı ilə təchiz olunmuş kitabxana olmalıdır. Kitabxanada eyni zamanda turistlərlə keçirilən yürüş və səyahətlərin hesabatı saxlanılmalıdır. Klubda turistlər üçün

səyahət və yürüş zamanı istifadə olunacaq avadanlıq və saxlanılan məntəqə olmalıdır.

Turizm-ekskursiya şurası klub şurasının sayını müəyyənləşdirir. Turizm-ekskursiya şurasının iclasında turist klubunun idarə heyəti seçilir. Klubun idarə heyətinə təşkilatçılıq qabiliyyəti olan, işinə yaradıcı münasibət bəsləyən yüksək ixtisaslı mütəxəssislər daxil edilməlidir.

Klubun idarə heyəti aşağıdakı komissiyaları yaratmalıdır:

**İş sahələrinə görə:**

1. Təşkilati iş bölməsi;
2. Tədris-metodiki iş bölməsi;
3. Marşrut-ekspedisiya işi bölməsi;
4. Təbliğat-təşviqat işi böləsi;
5. Turist-ictimai kadrlarının hazırlanması və attestasiyası ilə bağlı bölmə;
6. Yarışların və yürüşlərin keçirilməsi ilə bağlı bölmə.

**Turizm növlərinə görə aşağıdakılara bölünür:**

1. Piyada turizm;
2. Xizək turizmi;
3. Su turizmi;
4. Dağ turizmi;
5. Velosiped turizmi;
6. Avtomobil və motosikl turizmi;
7. Hava turizmi.

Hər bir turist klubu işini planlaşdırmalı və planın həyata keçirilməsinə nəzarət etməlidir.

Planlaşdırmanı perspektiv və cari olaraq 2 hissəyə ayırmaq olar.

Perspektiv plana aiddir:

- Özfəaliyyət turizminin inkişafının beşillik planının işlənilməsi;



- kütləvi turist tədbirlərinin perspektiv təqvim planının işlənilməsi və s.;

Cari məsələlərə aiddir:

- turist klubunun il ərzində keçiriləcək əsas tədbirlərinin planı;
- kütləvi turist tədbirlərinin təqvim planı;
- il ərzində turist-ictimai kadrların hazırlanması planı;
- il ərzində klubun ictimai komissiyasının iş planı;
- turist klubunun rüblük iş planı;
-il ərzində kütləvi turist tədbirlərinin maliyyələşdirilməsi üçün smetanın tərtibi və s.

Əhalinin və onların ailə üzvlərinin mədəni, mənalı, sağlam istirahətini təşkil etmək bu gün turist müəssisəsinin əsas və başlıca vəzifəsidir. İstirahətin bütün forma və növləri öz yüksək mədəniyyəti ilə fərqlənməli, turistlərin maraq və mədəni tələbatını ödəməli, onlarda yüksək zövq tərbiyə etməli və onların dünyagörüşünü genişləndirməlidir.

### *5.2. Tətbiqi muzeyşünaslıq və onun əsas istiqamətləri*

Milli-ümumbəşəri dəyərlərin təşəkkülü, inkişafı və formalaşmasının tədqiqində kulturologiyanın tərkib hissələrindən olan tətbiqi muzeyşünaslıq bu gün də öz aktuallığı ilə elmlər sistemində güclü inkişafetdirici təsirə malikdir. Tətbiqi muzeyşünaslıq muzeylərin mədəni – kütləvi fəaliyyəti ilə sıx bağlı olduğundan, üç əsas bölməni özündə birləşdirir: 1) elmi metodika; 2) texniki avadanlıq; 3) təşkil və idarəetmə. Tətbiqi muzeyşünaslıq bir tərəfdən, əldə edilmiş təcrübənin müəyyən zaman, tarixi dövr ərzində formalaşmasını sübut edir. Burada fəaliyyətin tarixə istinadən baş verdiyi bəlli olur. Digər tərəfdən isə, muzeyşünaslığın nəzəri əsaslarının təkmilləşməsi və tətbiq edilməsi tədqiq edilir. Bu prosesdə də zaman öz işini görür. Lakin hər iki halda nəzəriyyənin təcrübəyə tətbiqi və tətbiqdən yeni nəzəri fikirlərin, ideyaların, konsepsiyaların əmələ gəlməsi prosesi

baş verir. Yəni, qarşılıqlı əlaqəlilik müəyyən tarixi zaman çərçivəsində «yeni»nin yaranmasında zəminə çevrilir.

Tətbiqi muzeyşünaslığın yaranmasının ilkin dövrlərində uzunmüddətli təcrübə daha qabarıq şəkildə özünü göstərmişdir. Məhz buna görə də muzeyşünaslığın digər inkişaf istiqamətlərindən fərqli olaraq, tətbiqi muzeyşünaslıq daha tez təşəkkül tapmış və digər istiqamətlərin də inkişafına təkan vermişdir.

**Elmi metodika** - tətbiqi muzeyşünaslığın əsas bölmələrindən biri hesab olunur və nəzəriyyə ilə sıx surətdə qarşılıqlı əlaqədədir. Qeyd etmək lazımdır ki, bir sıra metodiki elementlər muzeylərin yaranması ilə təşəkkül tapmışdır.

Muzey fəaliyyətinin bütün forma və istiqamətləri metodika ilə əhatə olunmaqla inkişaf axarına düşmüşdür. Metodiki tədqiqatlar ümumi və xüsusi olmaqla iki istiqamətdə aparılır. Ümumi metodikalar muzeyin bütün fəaliyyət prosesinə aiddir. Məsələn, ekspozisiyanın metodiki prinsiplərinin nümayiş kommunikasiyasının xüsusi forması kimi əhəmiyyəti, ekskursiya işinin prinsipləri, muzey əşyalarının saxlanılması metodikası və s.

Xüsusi metodiki tədqiqatlar, muzeylərin profil və növlərindən asılı olaraq ümumi elmi metodikalardan yaranır. Bu növ tədqiqatlar, muzeyşünaslıq və ixtisas predmetlərinə əsaslanırlar. Məsələn, tarix profilli muzeylərin ekspozisiyalarının metodiki quruluşu anoloji olaraq bədii və yaxud təbiyyət-elmi profilli muzeylərinkindən fərqlidir. Birinci mövqe baxımından qeyd olunmalıdır ki, muzeyşünaslıq tarix elmləri ilə sıx əlaqədə inkişaf edir. İkincidə isə sənətşünaslıq, üçüncüdə geologiya, zoologiya və digər elmlərlə qarşılıqlı əlaqədə inkişaf edir və s.

Xüsusi metodikalar içərisində profillərinə görə fərqli muzeylərin daxili növlərinə aid olunanlar mövcuddur. Məsələn, tarix muzeylərində arxeoloji, etnoqrafik, tarixi-hərbi və s. qruplar üzrə xüsusi metodikalar inkişaf edir.

Digər tərəfdən, tarix və yaxud bədii profilli muzeylərdə tətbiq edilən metodikalar muzeyin növünə görə müxtəlifdir: kütləvi (elmi, elmi-maarif), tədris, tədqiqat xarakterli və s.



Xüsusi metodikalar qrupunda da ümumi və xüsusi metodikalar mövcuddur. Ümumilər muzey işinə aid olmaqla, ümumi məsələlərin həllində mühüm əhəmiyyət kəsb edir. Xüsusilər fəaliyyətin ayrı-ayrı növlərini – fondların komplektləşdirilməsini, ekspozisiyanı, uçot, mühafizə, tədris-tərbiyə işlərini, eyni zamanda xronoloji ardıcıllığı tələb edən işləri əhatə edir. Son illərdə muzeyşünaslıqda elmi-metodiki fəaliyyət prosesi özünü ekspozisiya sahəsində, elmi komplektləşdirmə, tədris-tərbiyə işində (muzey pedaqogikası, muzey psixologiyası, muzey estetikası, muzey etikası və s.) qabarıq şəkildə göstərməkdədir. Bu sahələrdə gedən inkişaf, formalaşma yeni elmi axtarışların milli zəmində həyata keçirilməsini tələb edir. Bu da öz növbəsində müvafiq mühit və şəraitin mövcudluğu ilə tənzimlənir ki, hər bir tədqiqatçı çətinliklə üzləşməsin.

Ekspozisiya-sərgi işinin elmi-nəzəri, əməli tədqiqi prosesi muzeyşünaslıqda elmi-metodiki tədqiqatların ən geniş yayılmış bölməsidir. Belə tədqiqatların mürəkkəbliyi ekspozisiyanın xüsusiyyəti ilə ölçülür. Burada metodika ekspozisiyanın bütün məsələlərini əhatə edir: ekspozisiya-sərgi fəaliyyətinin planlaşdırılması, ekspozisiyanın profili və növünün təyin edilməsi, ekspozisiyanın elmi və bədii-estetik konsepsiyasının, quruluşunun işlənilməsi, ekspozisiya materiallarının təşkili və seçilməsi, ayrı-ayrı tarixi dövrlərin ekspozisiyada öz əksini tapması, bədii-memarlıq həlli, texniki vəsaitlərin təyini və s.

Fondların elmi komplektləşdirilməsi sahəsi üzrə aparılan elmi-metodik tədqiqatlar ilk növbədə muzeyşünaslığın sistemləşdirilməsinə bilavasitə xidmət edir. Xüsusilə də, elmi ekspedisiyaların təşkilinə metodiki hazırlıq işinin keyfiyyətli həyata keçirilməsi mühüm əhəmiyyət kəsb edir.

Muzey fondu və fond işinin elmi təşkilində komplektləşdirmənin elmi-tədqiqat xarakteri, fondların quruluşu, tərkibi, uçotu və elmi sənədləşdirilməsi metodikası, muzeyə daxil olan əşyaların qəbulu və təhvilinin elmi əsaslarla işlənilməsi, qeydiyyat metodikası, elmi inventarlaşdırılması,

muzey fondlarının mühafizəsinin elmi metodikası, mühafizə rejiminin elmi əsaslarda nizamlanması, elmi arxivin fəaliyyət metodikası, bərpa işinin elmi təşkili, muzey mühafizəsi işinin elmi əsaslarda sistemləşdirilməsi, muzeyin mühafizə mühiti, saxlama rejimi, hava-rütubət və işıq rejimi, bioloji rejimin elmi metodikaları, fond və ekspozisiyalarda muzey əşyalarının qorunması, muzey əşyalarının yerləşdirilməsi, qablaşdırma və daşınması, fövqəladə şəraitdə muzey əşyalarının qorunması kimi məsələlər tədqiq edilir.

Fondun komplektləşdirilməsinin elmi-metodiki əsaslarından bəhs edilərkən mövcud elmlərə aid bu günə qədər nəşr olunan mənbələrə istinad edilməsi, müvafiq elmi-tədqiqat, təhsil müəssisələri ilə qarşılıqlı elmi əlaqələrin daha da genişləndirilməsi məqsədyönlüdür. Təkcə tarix, arxeologiya, etnoqrafiyaya aid elmi-pedaqoji, ixtisas ədəbiyyatından yox, eyni zamanda bədii silsilə fənlərinin tədrisində vacib sayılan mənbələrdən də maksimum istifadə olunmalıdır. Bir sözlə, komplektləşdirmə prosesində elmin bütün sahələrinə aid mənbələrə istinad edilməlidir, elmi metodikaların tətbiqi prosesi əsaslandırılmalıdır.

Muzey fondunun komplektləşdirilməsində digər mühüm istiqamət muzey daxilində metodikaların işlənilməsidir. Belə metodikalar sırasında tarix-diyarşünaslıq, məişət, mədəniyyət, incəsənət əhəmiyyətli ekspedisiyalar nəticəsində hazırlanan vəsaitlər mühüm əhəmiyyətə malikdir. Belə metodik vəsaitlər profillərinə görə elmi müxtəlifliyə malikdirlər.

Mövcud dərsliklər, dərs vəsaitləri, monoqrafiyalar, metodik tövsiyə və vəsaitlər, jurnal və qəzet məqalələri, elmi konfransların materialları, ayrı-ayrı tədqiqat əsərlərində verilən fikirlər, mülahizələr, təklif və nəticələr, sistemləşmələr, elmi yeniliklər problem əhəmiyyətlidir.

Ümumiyyətlə, müasir ədəbiyyatda problemlə bağlı bu və ya digər səviyyədə metodiki məsələlərə toxunulur, lakin ümumiyyətlə, muzeyşünaslığın və onun tərkibi sayılan fondun elmi komplektləşdirilməsinin metodikasına aid tədqiqatların həddindən az sayda olması təəssüf doğurmaya bilməz. Bu,



milli muzeyşünaslıqda da özünü qabarıq şəkildə göstərir. Müvafiq təcrübəyə və ayrı-ayrı materiallara əsaslanmaqla, müasir muzey fəaliyyətində komplektləşdirmənin sənədləşdirilməsinin ümumi prinsiplərinin müzakirələri maraq doğurmaya bilməz.

Təcrübi fəaliyyət nəticəsində bəlli olan aktual məsələlər aşağıdakılardır: fəaliyyət mənbələrinin təyin edilməsi, muzey əhəmiyyətli materialların seçilmə metodikası, materiallarda muzey əhəmiyyətli təsir gücünün təyini və s.

Məlum olduğu kimi, muzey fəaliyyətində ekspozisiya mexanizminin əhəmiyyəti vacib olduğundan, ekspozisiyanın təşkili metodunun işlənilməsinin də müvafiq olaraq əhəmiyyəti mühümdür. Muzeylərin mədəniyyət müəssisələri sırasında aparıcı mövqeyə malik olması, bu sahənin də əsaslı tədqiqinə səbəb olmuşdur. Muzeyşünaslığın təşəkkülü ilə bərabər, ekspozisiyanın qurulması metodlarının meydana gəlməsi dünya təcrübəsində özünü göstərmişdir. İlk mənbələrdən tutmuş, elmi fikir və konsepsiyalar da daxil olmaqla yaranan yeniliklər müvafiq istiqamət xarakteri almağa başlamışdır. «İbtidai» ekspozisiya qurmaq təcrübəsindən tutmuş mövcud ekspozisiya quruluşunadək olan inkişaf müəyyən yol keçsə də, bu gün üçün Azərbaycanda qənaətbəxş sayıla bilmir. Çünki, bu sahədə müasir tələblərə cavab verə biləcək elmi metodikalar demək olar ki, yox dərəcəsindədir. Bunun həm obyektiv, həm də subyektiv səbəbləri mövcuddur. Obyektiv səbəblər sırasında 69 il ərzində İttifaq daxilində «mərkəzə» tabeçilik prinsipi, məhdudiyyətlər, tədqiqatlar üçün müvafiq şəraitin olmaması və s., subyektiv səbəblər sırasında isə Azərbaycanda və digər respublikalarda problemlə bağlı elmi-tədqiqat işlərinin aparılmaması, mövcud muzey fəaliyyətinə əsaslanmaqla yeni yolların, vasitələrin, metodların axtarılmaması, bir sözlə, muzeyşünaslıqda tətbiqə fikir verilməməsi və s. özünü qabarıq şəkildə göstərməkdədir.

Hələ XIX əsrə qədərki dövr ərzində dünya muzeylərində sistematik ekspozisiyalar təşkil edilirdi. XIX əsrin ikinci yarısından komplekslik özünü biruzə verməyə

başlamışdır. Məsələn, etnoqrafik kompleks, arxeoloji kompleks, toponimik kompleks və s. belə ansambllar bir növ sistematikliyə əlavə kimi qəbul edilirdi. Sonralar isə belə komplekslər ayrı-ayrı müzeylərə çevrilməyə başladı (XIX-XX əsrlər). Getdikcə təkmilləşmə isə ekspozisiyada «tematiklik» anlayışının yaranmasına səbəb oldu. Yəni, kompleks-tematik ekspozisiyalar yaranmağa başladı. Sonralar özünü doğrultmayan bu metod yeniləri ilə əvəz olundu və s. Bu prosesin tədqiqi və yeni metodların tapılmasında milliliyin əhəmiyyətini yaddan çıxarmaq olmaz.

Tətbiqi muzeyşünaslıqda yuxarıda göstərildiyi kimi, tədris-tərbiyə fəaliyyəti müasir dövrdə öz müsbət təsirini göstərməkdədir. Nəzərdə saxlamaq lazımdır ki, aşağı yaş dövründən tutmuş, ahıl yaş dövrü də daxil olmaqla insanlar muzeylərlə sıx qarşılıqlı əlaqə prosesində formalaşmaya, zənginləşməyə nail olurlar ki, bu prosesdə məktəb yaş dövrü xüsusilə tədris-tərbiyənin məqsədyönlü xarakter almasına gətirib çıxarır. Yəni, muzeylər həm tədris, həm də tərbiyə mərkəzlərinə çevrilirlər. Bu, bir tərəfdən mühitə münasibəti formalaşdırır, tarixə, milli adət-ənənəyə, bədii sənətkarlığa, maddi və mənəvi mədəniyyətə maraqları get-gedə artırır, digər tərəfdən isə, mənimsəmədə bədii silsilə fənlərinin dərindən qavranılmasına zəmin yaradır, üçüncüsü isə, peşəyönümünün istiqamətli xarakter almasında mühüm rol oynayır və nəhayət, ayrı-ayrı sahələr üzrə idraki elmi müqayisələrin yaranması prosesi əmələ gəlir.

Muzey mühiti çərçivəsində isə tədris-tərbiyə işinin elmi şəkildə təşkili muzeyin müvafiq elmi-yaradıcı potensialı – muzey kollektivi tərəfindən həyata keçirilir.

Kollektiv mürəkkəb qurumdur. Kollektivin fəaliyyətindəki istiqamət müxtəlifliyi onun elmi, yaradıcı, tərbiyəvi, təhsilləndirici və s. mürəkkəb şaxəli fəaliyyət sisteminə malik olmasını tələb edir.

Muzey kollektivinin inkişafı mürəkkəb prosesdir. Bu kollektivin təşəkkülü, xüsusiyyətə uyğun fəaliyyət üçün tələblərin verilməsi, verilən tələblərin yerinə yetirilməsi üçün elmi-yaradıcı potensialın qarşılıqlı münasibəti, ünsiyyəti,



əlaqələrin təyini, ümumi fəaliyyət proqramının perspektiv üçün planlaşdırılması və s. kifayət qədər vacib göstəricilərdir. Muzey kollektivinin inkişaf dialektikasının müəyyən bir hissəsini fəaliyyət müstəvisində onun bir mərhələdən digərinə keçməsi, bu proseslərdə yeni törəmələrin təşəkkülü və inkişafını xarakterizə edən daxili dəyişikliklərin, ziddiyyətlərin mahiyyətinin əks etdirilməsi təşkil edir. Mərhələliyin özündə də mürəkkəblik mövcuddur. Yaranan yeni törəmələr, formalaşan qurumlar, sistemləşmələr muzey kollektivinin elmi nəzəri və əməli fəaliyyətində, özünüidarəetməsində, müvafiq münasibətlərində, ən başlıcası isə yaradıcı kollektivin mənəvi-estetik, bədii inkişaf səviyyəsində, kollektiv üzvlərinin etik davranışlarında öz təsirini göstərir. Bu təsirlər hər mərhələdə özünə müvafiq olaraq təzahür edir və sonrakı mərhələ üçün mənbəyə, zəminə çevrilməklə inkişafa səbəb olur.

Birinci mərhələ haqqında şərhə keçməmişdən qabaq ani olaraq kollektivdə şəxsiyyətin inkişafı probleminə nəzər salaq. Muzey kollektivi, adından məlum olduğu kimi, muzeyin ümumi fəaliyyət proqramı çərçivəsində öz işini qurur. Buna görə də, elmi-bədii, nəzəri, təcrübi, tərbiyəvi, ideoloji, elmi-mənəvi, elmi-yaradıcı, elmi-pedaqoji və s. istiqamətli kadrların birgə fəaliyyət sisteminə əsaslanan muzey kollektivi mürəkkəb inkişaf prosesini özündə ehtiva edir. Məhz belə muzey kollektivi muzeyşünaslığın mürəkkəb fəaliyyət mexanizmini sistem halında yerinə yetirməyi fəal mövqeyə qoyur.

Muzey kollektivində fəaliyyət zamanı məzmunca mövcud olan münasibətlər yaradıcı və digər əməkdaşların biri-birinə, muzey mühitinə, ətraf gerçəkliyə, yoldaşlarına mövqeyini, elmi-yaradıcı əlaqəsini əks etdirir. Məhz belə əlaqə, ünsiyyət və münasibətlər yaradıcı kollektivdə şəxsiyyətə öz müsbət təsirini göstərir, eyni zamanda kollektiv zənginləşməyə səbəb olur.

Beləliklə, muzey kollektivində şəxsiyyətin elmi-bədii, yaradıcı keyfiyyətlərinin əlaqəli inkişafı, həm fərdi tərəqqi, həm də kollektiv formalaşmasına səbəb olur. Yəni, yaradıcı fərdiyyətin güclənməsi, kollektivin hərtərəfli inkişafı

deməkdir. Bu inkişaf isə öz növbəsində muzey mühitində qarşı tərəfə yönəldilir. Qarşı tərəf hesab edilən tamaşaçılar – müxtəlif yaş qrupuna və müxtəlif ixtisasa malik olanlar müvafiq olaraq bu cür təsirdən bəhrələnirlər, müvafiq biliklərə, mənəvi zənginləşməyə nail olurlar, bir sözlə tərbiyə olunurlar. «Lakin əgər kollektivdə tərbiyənin özünün mahiyyətini təşkil edən - insanın dünyaya, adamlara, cəmiyyətə, özünə çoxcəhətli münasibətləri yarandıqda kollektivin formalaşdırılması, şəxsiyyətin tərbiyəsi prosesi olur. Şəxsiyyət kollektivdən kənarda inkişaf edə bilməz, şəxsiyyətdən kənarda isə kollektiv yoxdur».[68] A.S.Makarenko isə ikili obyekti şəxsiyyət və cəmiyyətdə görür.[69] Bu müddəa tədqiqatçı alim T.U.Konnikova tərəfindən müəyyən edilmiş qanunauyğunluqda öz həllini tapmışdır: «... kollektiv şəxsiyyətə onun öz fəallıq dərəcəsinə görə, daha dəqiq desək, şəxsiyyətin mənəvi cəhətdən əhəmiyyət kəsb edən fəallıq dərəcəsinə görə təsir edir.»[70].

**Birinci mərhələ.** Muzey kollektivinin təşəkkülü və sonrakı fəaliyyəti perspektiv məqsədə xidmət edir. Bu məqsəd yaradıcı kollektiv tərəfindən dərk edilən perspektivi, uğurlu fəaliyyəti, elmi-bədii, yaradıcılıq inkişafını nəzərdə tutur. Muzey kollektivində məqsəd iki istiqaməti əhatə etməlidir: birincisi, muzey kollektivinin özünün proqramlı perspektivi; ikincisi, muzey kollektivinin muzey tədbirləri vasitəsi ilə mühitə etdiyi təsirin proqramlı perspektivinin təyini. İkincidə, muzeyin yaradıcı kollektivi mövcud sənətkarlıq, yaradıcılıq nümunəsi-eksponat vasitəsilə ətraf mühitə, bu mühitin «nümayəndələri» olan tamaşaçıya, seyrçiyə göstərilən məqsədyönlü təsir istiqamətində perspektiv inkişaf xətti müəyyənləşdirilir.

[68] Məktəb pedaqogikası. Bakı. «Maarif», 1982. s. 57.

[69] Бах: А.С.Макаренко. Незавершенные педагогические работы. Соч. т.в., с.508.

[70] Т.У.Конникова. Роль коллектива в формировании общественной направленности личности. – «Учен. Зап. ЛГПИ им. А.И.Герцена», с. 368, 1970.



Birinci mərhələdə məqsədin həyata keçirilməsi yolu – yaradıcı-psixoloji «maneələrin» dəf edilməsi, çıxış yolunun axtarılması yoludur. Bu prosesdə hər bir kollektiv üzvü ilə bərabər, tamaşaçı fəallığı da tələb olunur. Muzey kollektivi vasitəsi ilə elmi-bədii, yaradıcı işlərin, tədbir və sərgilərin xüsusi məqsədləri kimi uzaq perspektivə istinad edilən yaxşı və orta perspektivlər elə birinci mərhələdəcə nəzəri-əməli fəaliyyətin və qarşılıqlı əlaqələrin təhrikedicisi kimi özünü göstərir.

Əlbəttə, yaxşı və orta perspektivlər (sərgilər və digər tədbirlər) kollektiv tərəfindən seçilib təyin edilir, mərhələlərlə tətbiq edilir. Lakin fəaliyyətin gedişi zamanı yeni perspektiv haqqında fikir, mülahizə, tövsiyə, təkliflərə ehtiyac duyulur, axtarışlara geniş yer verilir. Axtarışlar zamanı həm muzey kollektivinin yaradıcı heyətinin hər bir üzvünün, həm muzeydə nümayiş etdirilən sərgi eksponatı müəllifinin, həm tamaşaçı kütləsinin rəy və tövsiyələri, təklifləri nəzərə alınmalıdır; bunların nəticəsində muzey kollektivinin iş planında konkret təkliflər öz əksini tapır. Belə şəraitdə muzeyin yaradıcı kollektivi muzeydənkənar yaradıcı qüvvələr, tamaşaçılarla işgüzar əməkdaşlığa girir və bu, elmi-bədii maraqların, fərdi yaradıcılıqların aşkara çıxarılması üçün onlara imkan verir.

Birinci mərhələdə mühüm fəaliyyət amili kollektiv planlaşdırmadır. Bu prosesdə kollektivin ayrıca müzakirəsi tələb olunur, müzakirə zamanı digər muzeylərdən, müvafiq nazirlik və birliklərdən, cəmiyyətlərdən nümayəndələr dəvət edilə bilər. Bu zaman ayrı-ayrı sənətkarların elmi-yaradıcı təkliflərindən də istifadə edilə bilər. Başlıcası odur ki, həyata keçiriləcək işlər mövcud maraq və imkanlara cavab verməli, şəraitlə ayaqlaşmalıdır.

Muzeyin işinə yaradıcı fəalların cəlb edilməsinin də əhəmiyyəti böyükdür. Muzeysevərlərin təyinatına və formalaşmasına səhv yanaşılmamalı, bu zaman dəqiq addım atılmalıdır.

Beləliklə, birinci mərhələnin yerinə yetirilməsi üçün aşağıdakı başlıca tələblərə diqqət verilməlidir:

1. Muzeyin yaradıcı kollektivinin məqsədi onun yaxın və orta perspektivini təyin etməlidir. Bu prosesdə maraqlar və mühit, şərait nəzərdə saxlanmalıdır;
2. Muzey kollektivinin elmi-yaradıcı fəaliyyətində fasiləsizlik olmalıdır. Tamaşaçı özünə müvafiq gündə müxtəlif muzey tədbirlərində iştirak edə bilər;
3. Muzey kollektivində məsuliyyətlilik, fəallıq, işgüzar və yaradıcı ünsiyyət olmalıdır.

**İkinci mərhələ.** Bu mərhələdə muzey kollektivi məqsədə müvafiq olaraq daha mürəkkəb vəzifələrin yerinə yetirilməsi istiqamətində inkişaf yolu keçir. İlk növbədə görüləcək işlərin təşkilində mürəkkəblik yaranır. Bu prosesdə birinci növbədə muzeyin profilinə uyğun həyata keçiriləcək tədbirlərin planlaşdırılmasında mürəkkəblik özünü qabarıq şəkildə göstərir. Yəni, mühitin tələblərinə uyğun strateji mövqe seçilməlidir. Əgər ətraf mühitin tələblərinə uyğun fəaliyyət xəttini seçə bilməyən və yaxud mühit və şəraitlə ayaqlaşmaq üçün daha mürəkkəb xarakterli, eyni zamanda zamanın tələblərinə uyğun işin öhdəsindən gəlməyən muzeylərə ətraf mühitin maraq göstərməyəcəyi təbiidir. Digər tərəfdən müasir, çox informasiya bolluğu ilə zənginləşən tamaşaçını maraqlandırmaq da çətindir. Üçüncüsü, kompleks tədbirlərin planlaşdırılması bu gün üçün vacibdir. Əlbəttə, hər bir muzeyə müstəqil fəaliyyət xətti seçməyə icazə verilir. Azərbaycanda rəhbərlik və nəzarət Mədəniyyət Nazirliyi tərəfindən aparılsa da, mövzu rəngarəngliyi, məzmun dolğunluğu əldə etmək, müxtəlif xarakterli tədbirlərin planlaşdırılması üçün maksimum şərait yaradılır. Müstəqil fəaliyyət, müstəqil təşkilatçılıq, müstəqil planlaşdırma əlaqələri və s. perspektiv üçün geniş imkan yarada bilər. Müstəqil fəaliyyət üçün muzeyin elmi-bədii, yaradıcı potensialı əhatə olunduğu mühitdən bəhrələnmək şərti ilə müvafiq metod, forma, vasitə və yollardan istifadə edərək, muzey kollektivinə aktual problemlərdən bəhs edən fəaliyyət istiqaməti seçməlidir. Özünüidarə üçün imkanlar yaranır. Muzey kollektivinin özünüidarəsinin inkişaf etdirilməsi – muzeyə verilən tələblərlə muzeyin imkanları arasındakı ziddiyyətin aradan qaldırılması



ilə tənzimlənir. Təşkilatçılıq, kommunikativlik, icraçılıq, kompleks planlaşdırmaya malik olmaq, mühitə, şəraitə, vəziyyətə uyğun çevik fəaliyyət göstərmək kimi muzey özünüidarəsi üsullarına yiyələnmək, bu prosesə elmi-yaradıcı, müstəqil yanaşmaq, yenilikçilik ruhu ilə işə münasibət bəsləmək vacib sayılır. Eyni zamanda fəaliyyətin gedişində elmi-nəzəri tövsiyə, təkliflərin tətbiqi məqsədyönlü sayılır.

Nəzərdə saxlamaq lazımdır ki, ikinci mərhələdə muzey kollektivində tətbiqin əhəmiyyəti böyükdür. Tətbiq prosesində elmi-nəzəri biliklərin köməyi ilə nə şəkildə, nə dərəcədə təsir etmək diqqət mərkəzində olmalıdır. Burada elmi-nəzəri, elmi-bədii və təcrübi təsirlərlə bərabər, təşkilatçılıq bacarıqlarının da aşılanması əhəmiyyət kəsb edir. İkinci mərhələdə əsas xüsusiyyətlərdən biri də müxtəlif yaş qrupuna mənsub uşaqlar, yeniyetmə gənclər və digər tamaşaçıların qavrama qabiliyyətlərinin, həm də əməli fəaliyyətlərinin daha mürəkkəb şəkil almasıdır. Birinci mərhələdə rəhbər işçinin, yaradıcı sənətkarın, bədii tərtibatçının, bərpaçının və digər əməkdaşların rəhbərliyi, tövsiyə və göstərişləri əsasında bir çox yaradıcı işlərdə püxtələşmiş muzey kollektivi üzvləri, indi artıq görüləcək işləri müstəqil şəkildə planlaşdırır. Belə işlərin planlaşdırılması və yerinə yetirilməsi də öz növbəsində bilik, bacarıq və vərdişlərin, müvafiq qarşılıqlı əlaqələrin, elmi-yaradıcı münasibətlərin yerinə yetirilməsini tələb edir. Kollektiv tədricən öz fəaliyyət xəttini istiqamətləndirir, öz gücü ilə gələcək perspektivini təyin etmək bacarığına malik olur. Beləliklə, belə muzey kollektivi digərlərindən fərqlənməyə başlayır. Məhz muzey kollektivinin belə inkişafından sonra digər kollektivlərlə yaradıcı əməkdaşlıq, qarşılıqlı yardım münasibətləri özünü göstərir. Yəni, istər-istəməz belə tərəqqi ətraf mühitə öz təsirini göstərir, tamaşaçı kütləsinin, yaradıcılar ordusunun, sənətkarların, tədqiqatçıların cəmləşmə məkanına çevrilir və bu, digər muzey kollektivlərinin də qarşılıqlı əlaqəyə girməsini reallığa çevirir. Fəaliyyət prosesində, işin birinci başlanğıcını təyin edən mənəvi ilə, bu mənəvinin «diktəsi» ilə sonrakı fəaliyyətin istiqamətini əməli şəkildə qurmağa yönəldilən tətbiqin

fəaliyyət mexanizmi arasında ziddiyyətlilik hökm sürür. Bu prosesdə yaradıcılıq tələbi ilk növbədə mənəvi vasitəsilə bilavasitə təklif edilir. Bu təklifdə görüləcək işlərin nəzəri tərəfləri açılır, əməli fəaliyyət yolları təyin edilir. Bu da kollektiv özünüidarənin nəzəri mexanizmini təşkil edir, sonra bu mexanizm öz əməli istiqamətini götürür.

Beləliklə, ikinci mərhələnin yerinə yetirilməsində əsasən aşağıdakı başlıca tələblərə diqqət yetirilməlidir:

1. Fəaliyyətdə muzey kollektivinin mənəvi təsir gücü nəzər-diqqətdə olmalıdır;
2. Fəaliyyətdə tələb və təkliflərin qarşılıqlı əlaqəlilikdə mütənasib tarazlandırılması, ödənilməsi, muzeyin idarəedici mexanizmi tərəfindən şifahi və yazılı sorğu vasitəsilə öyrənilməli, alınan nəticəyə uyğun olaraq nəzəri və əməli fəaliyyət planı seçilməlidir;
3. Muzey kollektivində elmi-nəzəri, bədii, əməli proseslərin mərkəzində duran yaradıcı qüvvələrin qarşılıqlı əlaqələri, münasibətləri məqsədyönlü şəkildə nizamlanmalı, ziddiyyətlər aradan qaldırılmalıdır;
4. Muzey kollektivinin özünüidarəsinin inkişafına ciddi fikir verilməlidir.

**Üçüncü mərhələ.** Bu mərhələdə muzeyin tərbiyəedicilik, təhsilləndiricilik, zənginləşdirmək, inkişaf etdirmək, maraqlar yaratmaq, yaradıcılığa meyl oyatmaq, ümumiyyətlə, məqsədyönlü təsir yolu seçmək mühüm fəaliyyət xətti sayılır. Bu proseslərin muzey kollektivi tərəfindən məqsədyönlü, keyfiyyətli şəkildə həyata keçirilməsi üçün, əvvəlcə tamaşaçı üzərində güclü müşahidələr aparmaq vacibdir. Müşahidələr ikitərəfli aparılmalıdır:

- birincisi, muzey kollektivi tərəfindən həyata keçirilən tədbirin tələblərə uyğun, yüksək keyfiyyətini müşahidə etmək, kollektivin yeniliyə münasibətini təhlil etmək;

- ikincisi, tamaşaçının tədbir zamanı zənginləşmə, dəyərlənmə dərəcəsini müşahidə etmək və müəyyən nəticələr əldə etmək.

Müşahidənin birincisi də əslində ikinciyə xidmət etmək üçündür. Hər iki müşahidə sonrakı fəaliyyət perspektivini



təyin etmək üçün mənbə rolunu oynayır, perspektiv fəaliyyət modelinin dəqiqləşməsinə xidmət edir. Bütün bunlar bir tərəfdən muzeyin yaradıcı kollektivinin mühiti mənən zənginləşdirmək istiqamətindəki elmi-yaradıcılıq motivlərini, digər tərəfdən isə müxtəlif yaş qrupu və dünyagörüşünə malik tamaşaçı kütləsinin davranışında hökm sürən motivləri açıb göstərir. Təbii yaranan muzey ekspozisiyası, müxtəlif tədbirlər vasitəsilə xüsusi təşkil edilən tərbiyəvi, təhsilləndirici, zənginləşdirici, inkişafetdirici, formalaşdırıcı situasiyaları, məqamları qavramaya kömək edir, imkan, şərait yaradır, eyni zamanda sonrakı məqamların yaranmasında zəminə çevrilir. Bu prosesdə hər bir sahə üzrə fəaliyyət məsuliyyət tələb edir. Sərgi və yaxud tədbirin mövzusunun aktuallığına ciddi fikir verilməsi, ekspozisiyanın bədii memarlıq həllinin yüksək keyfiyyətlə işlənməsi, tədbirin, həm də sərginin elmi əsaslarda hazırlanması, eksponat haqqında məlumatın maraqlı faktlar əsasında verilməsi, bələdçilərin keyfiyyətlə hazırlanması, müasir texniki vəsaitdən istifadə və digər sahələrə məsul şəxslər elmi-nəzəri, elmi-əməli cəhətdən hazırlıqlı olmalıdırlar. Birinci mərhələ daha mürəkkəb və daha məsuliyyətli mərhələdir. Məhz buna görə də bu mərhələ prosesində muzey pedaqogikası, psixologiyası, muzey estetikası, muzey etikasına ciddi riayət edilməlidir. Bunun üçün isə bu istiqamətləri dərindən öyrənmək hər bir muzey işçisi üçün vacib sayılır. Bu mərhələdə muzey işçisinin özünüformalaşdırma tələbatı meydana çıxır. Yəni, muzey kollektivi üzvləri geniş planlı humanist münasibətlərdə yüksək pedaqoji, tərbiyəvi bacarığa malik olmalı, hazırlıqlı psixolojiyə, gözəllik «aşiqinə» yüksək hörmət və məhəbbət bəsləmək ruhunda inkişaf etməli, yüksək davranış mədəniyyətinə malik olmalıdırlar.

Bu mərhələdə fəaliyyət motivi mütəmadi dəyişməlidir. Fəaliyyət motivlərini formalaşdırmağın mühüm nəticəsi mənəvi-bədii, yaradıcı biliklərin, bədii yaradıcılıq nümunələrinin qavranması üçün əlverişli zəmin yaratmaqdan ibarətdir. Onların köməyi ilə duyulanları dərindən dərk etmək, qavramaq, mənən zənginləşmənin yeni pilləyə qalxmasına tələbat doğurur.

Üçüncü mərhələnin xüsusiyyətləri əsasən, iki ziddiyyətli fəaliyyəti biruzə verir: muzey kollektivinin əməli fəaliyyətinin inkişaf səviyyəsi ilə idrakı fəaliyyət baxımından əhəmiyyətli münasibətləri arasında ziddiyyətlilik, fəaliyyət və davranışın daha az əhəmiyyətli motivləri ilə məqsədə uyğun tələb olunan idrakı qiymətli motivlər arasında zidiyyətlilik.

Beləliklə, üçüncü mərhələ üçün aşağıdakı başlıca tələblər məqsədyönlüdür:

1. Kollektiv fəaliyyətin məqsədləri ətraf mühit, tamaşaçı mühiti üçün yaradıcı məna kəsb etdiyinə görə bu istiqamətdə daha güclü perspektiv inkişafa fikir verilməlidir;
2. Muzey kollektivində elmi-yaradıcılıq, bədii-estetik, etik və psixoloji münasibətlər səviyyəli xarakter daşımalıdır;
3. Muzey kollektivinin həyat və fəaliyyət təcrübəsi mənəvi-siyasi, bədii-estetik, muzeyşünaslığın məzmununu əhatə edən biliklərlə zənginləşməli, fəaliyyətin şüurlu dərk edilməsinə yönəldilməlidir;
4. Muzey kollektivinin xüsusi və ümumi məqsədləri yalnız ümumi məqsədə – elmi əsaslar zəminində zənginləşdirmə, dəyərləndirmə, məqsədyönlü təsir göstərməyə, tətbiqə xidmət etməlidir.

Muzey kollektivi, muzey işçisi ilə tamaşaçı arasında olan fəaliyyət prosesində paralellik yaranır, yəni bir işçi ilə tamaşaçı arasında olan əlaqə həm də kollektiv əlaqə deməkdir.

Muzey fəaliyyətində inkişafa azacıq təkan verən **dördüncü** mərhələ də mövcuddur. Bu, tamaşaçıların özlərinin biri-biriləri arasında yaranan qarşılıqlı əlaqələridir. Belə əlaqələr bir o qədər də güclü təsirə malik olmasa da, inkişafda müəyyən qədər rol oynayır.

Beləliklə, muzey kollektivinin fəaliyyəti nəticəsində həm kollektiv üzvləri formalaşır, inkişaf edir, həm də tamaşaçı kütləsinə hərtərəfli təsir göstərərək, məqsədə nail olunur. Kollektivin fəallığı nə qədər güclü olarsa, müvafiq olaraq inkişaf mərhələləri də müəyyən edilir.



Məhz muzeyin yaradıcı kollektivi tərəfindən həyata keçirilən və bilavasitə tətbiqin inkişafetdirici mexanizmi rolunu oynayn tədris-tərbiyə işində yuxarıda qeyd edildiyi kimi, muzey pedaqogikasının mühüm əhəmiyyəti bu günə qədər özünü göstərmişdir. Tətbiqi muzeyşünaslıqda muzey pedaqogikası özünəməxsus təsir istiqamətlərinə malikdir. Dəqiq desək, son onillik zaman çərçivəsində öz inkişaf yolunu tutan muzey pedaqogikası muzeyşünaslıq və pedaqogikanın sintezindən yarandığına görə, onun təsir istiqamətləri də bu yönümlərdədir. Həm pedaqoji prosesi, həm də muzeyşünaslığı müvafiq olaraq əhatə edən muzey pedaqogikasının məqsədi onun təsir istiqamətlərini, quruluşunu, mahiyyətini, elmi-nəzəri və elmi-əməli əhəmiyyətini aydınlaşdırmaqdan ibarətdir. Əlbəttə, məqsədə nail olmaq üçün bu elmin qarşısında müvafiq vəzifələrin yerinə yetirilməsi vacibdir. Vəzifələrin həyata keçirilməsi prosesində məktəbli şəxsiyyətinin hərtərəfli və ahəngdar inkişafı, bu prosesdə qanunauyğunluqların rolu, ailə, məktəb, muzeyin tərbiyəvi, təhsilləndirici fəaliyyətində elmi metodikalardan istifadə, qarşılıqlı əlaqəlilik və s. ciddi diqqət mərkəzində olmalıdır.

Muzey pedaqogikasında «...təcrübə komponenti qarşılıqlı fəaliyyətin elmi-metodik əsasları və ailə, məktəb, muzeyin birgə fəaliyyəti sistemini əhatə edir».[71] Bu elm bütün tərbiyəvi fəaliyyət istiqamətlərində təkanverici xüsusiyyətə malikdir. Tərbiyəvi fəaliyyət istiqamətlərinin səmərəsi üçün muzey kollektivi çalışmalıdır ki:

a) uşaqların fəaliyyətlərinə rəvac verilsin, bunun üçün müvafiq şərait yaradılsın;
b) yoldaşlarına münasibət (şəxsiyyətlərarası) prosesi düzgün tənzim edilsin;
c) ictimai-faydalı və eləcə də yaradıcılıq işlərinə cəlb edilsinlər;
ç) əqli, hissi, iradi fəaliyyət sahəsinə kompleks təsir göstərilsin.

Eləcə də vətənpərvərlik, əmək, əxlaq tərbiyəsi sahəsində muzeydə həyata keçirilən tədbirlərin əhəmiyyəti böyükdür.

---

[71] Muzeyşünaslıq. Bakı, 2002. s. 19.

Estetik tərbiyəyə gəldikdə isə qeyd etmək lazımdır ki, muzey bu sahədə əsas mənbə rolunu oynayır. Nəzərdə saxlamaq lazımdır ki, ayrı-ayrı muzeylər təşkilati quruluşundan, qarşıya qoyulan məqsəddən asılı olaraq bir sıra sosial funksiyaları yerinə yetirirlər. 1985-ci ildə işıq üzü görən «Muzey və məktəb» («Музей и школа») metodik vəsaitində sosial funksiyalarına görə muzeylərin fəaliyyət istiqamətləri aşağıdakı kimi qruplaşdırılmışdır:

«Muzey fondunun komplektləşdirilməsi... fondun mühafizəsi üzrə görülən işlər, uçotun mühafizəsi və yaxından öyrənilməsi... ekspozisiya işləri (muzeylərin spesifikasına uyğun), ekspozisiyaların düzülüşü və sərgilərin təşkili, elmi-maarifçilik işləri (muzey ekspozisiyaları əsasında aparılan ekskursiyalar, mühazirə və söhbətlər, məsləhətlər, müxtəlif mövzularda kütləvi tədbirlər və s.)».[72] Göründüyü kimi, fəaliyyət göstəricilərinin demək olar ki, hamısında tətbiq mühüm əhəmiyyətə malikdir və muzeylərin əsas işlək mexanizmi hesab olunur. Problemlə bağlı bu günə qədər mövcud olan elmi-ixtisas ədəbiyyatı və muzeylərin iş təcrübələrinin tədqiqi də həmin nəticəni təsdiq edir.

Muzey pedaqogikasında muzeylər (ekskursiyalar) vasitəsilə aparılan pedaqoji prosesə xüsusi diqqət yetirilir. Burada muzey tənəzzöhləri və muzey dərslərinin təşkili metodikası xüsusilə diqqət mərkəzində olmalıdır. Öz istiqamətlərinə görə – keçirilmə yeri və məkana, mövzu xüsusiyyətlərinə görə, məqsədli və tərkibli tənəzzöhlərə ayrılırlar. Hər istiqamətin özünəməxsus fərqli cəhətləri mövcuddur. Keçirilmə yeri və məkana görə tənəzzöhlər muzeydaxili (ekspozisiyalara, sərgilərə və açıq yerlərdə saxlanılan fondlara təşkil edilir), kompleks (qarışıq şəkildə həyata keçirilir və əhatəli olur) və muzeydənkənar (tarixi, memarlıq, mədəniyyət abidələri və abidə yerlərinə təşkil edilir) olmaqla üç yerə bölünür.

Mövzu xüsusiyyətlərinə görə icmal xarakterli, ixtisaslaşdırılmış və tematik (geniş və qısa əhatəli) tənəzzöhlər

[72] Музеи и школа. Пособие для учителей. М., «Просвещение», 1985, стр.23.



məktəb yaş dövründə ayrı-ayrı fənlərin əhatəli qavranılması və mənimsənilməsi, eyni zamanda uzunmüddətli yaddaqalma üçün mühüm əhəmiyyətli zəmin rolunu oynayır.

Elmi-maarif (ümumtəhsil) və tədris əhəmiyyətli olan məqsədli tənəzzöhlər təcrübə prosesində özünü doğrultmuş və bu gün də bu üsuldan maksimum istifadə olunur. Əlbəttə, bu növ tənəzzöhlərin təşkili bütün hallarda mərhələli xarakter daşıyır. Və hər bir mərhələnin özünün də elmi – təcrübi prosesləri həyata keçirilməlidir.

Müasir muzey fəaliyyətində tətbiq əhəmiyyətli iş elementlərindən sayılan muzey dərslərində yaş qrupu və maraqlar nəzərə alınmalı, dərsin aparılma metodikasının müasir muzey işçisi və yaxud tamaşaçısının tələbatlarını ödəyib-ödəməməsi baxımından qiymətləndirilməsi diqqət mərkəzində olmalıdır.

Ekspozisiya və ya fondlarda muzey dərslərinin aparılması əsasən təcrübi xarakter daşıyır. Dərslər əşya və nümunələrin təkrar nüsxələri qorunan xüsusi otaqlarda aparıla bilər. Hər iki halda maddi nümunənin təsiri öz müsbət nəticəsini verir. Lakin hər iki halda münasib maddi-texniki baza, mənəvi-psixoloji şərait əsas hesab olunmalı və mənimsəmənin keyfiyyətinə müsbət təsirini göstərməlidir. Bu prosesdə Y.A.Komenskinin əyanilik haqqında təliminin yada salınması problem əhəmiyyətlidir: «...mümkün olan hər şeyi duyğularla qavramağa təqdim etmək, yəni görünən-görmə duyğusuna, səsi-eşitmə duyğusuna, iyi-iybilmə duyğusuna, dadı olanı- dadbilmə duyğusuna, toxunula biləni-lamisə duyğusuna təqdim etmək qoy müəllimlər üçün qızıl qayda olsun».[73]

Qeyd etmək lazımdır ki, bu təlim ancaq təsviri əyaniliyə şamil edilmir, həm də idraki prosesin təcrübəyə keçməsi ilə nəticələnir ki, bu da təlimin uzunömürlülüyünü təmin edir. Muzeylərdə əyani seyr anlayışa, anlayış yaddasaxlamaya və yaddasaxlamanın təsiri ilə isə təcrübi fəaliyyətə keçir. Belə nəticənin əldə edilməsi üçün isə müvafiq muzey mühitinin olması əhəmiyyətlidir. Müvafiq muzey mühiti

[73] Seyidov Ə. Pedaqogika tarixi. Bakı., «Maarif», 1968. s.21.

vasitəsilə məktəblilər məhz özünütərbiyə və özünütəhsilə öyrəşirlər, vərdiş alırlar.

Muzey dərslərinin keyfiyyətli təşkilində hazırlıq işinin, müvafiq mütəxəssis qrupunun texniki vasitədən istifadə mexanizminə malik olması, dünya muzeyşünaslığı təcrübəsinin öyrənilməsi və tətbiqinin, sistematiklik, elmilik, ardıcıllıq, planlılıq, fərdi yanaşma, konkretlilik və didaktik qanunauyğunluqlara riayət olunmasının əhəmiyyəti də nəzərə alınmalıdır.

Muzey tərkibində fəaliyyət göstərən dərnək və klubların, muzey olimpiadaları və müsabiqələrin, muzeydaxili və muzeydənkənar kompleks tədbirlərin tərbiyəedici və təhsilləndirici əhəmiyyəti baxımından qiymətləndirilməsi məqsədyönlüdür.

Tətbiqi muzeyşünaslıqda muzey psixologiyasının mühüm əhəmiyyəti özünü təcrübədə göstərsə də, lakin çox təəssüflər olsun ki, bu istiqamətdə bu günə qədər tədqiqatlar aparılmamış, ümumiləşdirmələr, sistemləşdirilmələr aşkarlanmamışdır. Cəsarətlə qeyd edirik ki, şəxsiyyətlərarası münasibətlərin psixoloji əsaslarının elmi-yaradıcı nöqteyi-nəzərdən qiymətləndirilməsinin, şəxsiyyətin bədii-yaradıcı fəaliyyətinin xüsusiyyətlərinin, elmi-bədii-yaradıcı muzey mühitində diqqətin, ünsiyyətin, duyğunun, qavrayışın, hafizənin, təfəkkürün, təxəyyülün, hisslərin, iradənin, qabiliyyətlərin fəaliyyəti, inkişafının tədqiqi, muzey mühitinə yaradıcı-psixoloji münasibətin araşdırılması kimi problemlər artıq öz tədqiqi həllini tapmalıdır. Çünki, muzey fəaliyyəti, muzeyşünaslığın perspektivi insan şüuru, psixikası ilə sıx bağlı olduğundan bu sahənin araşdırılmasına böyük ehtiyac duyulur.

Muzeyşünaslığın inkişafında estetikanın da əhəmiyyəti ön planda tədqiq edilməli, muzeyin həm daxili estetik mühitinin yüksək səviyyədə olması, həm də muzey fəaliyyəti vasitəsilə daxili və zahiri estetik təsirlərin qiymətləndirilməsi tədqiq edilməli, tətbiqin təsiri haqqında araşdırılmış nəticələr müvafiq mütəxəssis qrupuna və auditoriyaya çatdırılmalıdır.



Beləliklə, bu günə qədər estetik tərbiyə, estetik mahiyyət, əhəmiyyət, bədii-estetik qabiliyyətin inkişafı, təsiri və s. istiqamətlərdə aparılan tədqiqatlar sistemləşdirilməli və «Muzey estetikası»nın bir elm kimi təşəkkülünə alim-sənətşünaslar, muzeyşünaslar nail olmalıdırlar.

Muzey işçisinin, yaradıcının, seyrçi-tamaşaçının fəaliyyətində etik normalar, davranış mədəniyyətinin nümayişi, elmi dünyagörüşünə yüksək münasibətin bəslənilməsi, vətəndaşlıq şüuru və yetkinliyinə tətbiq prosesində yüksək hörmət və ehtiram bildirilməsi, muzey fəaliyyətində davranış qaydalarına hörmət bəslənilməsi, sadəlik və təvazökarlığın tərbiyə edilməsi, muzey işçisinin etik vəzifələri və s. kimi məsələlərin geniş tədqiqata cəlb edilməsinin vaxtı çatmışdır. «Muzey etikası»nın inkişafı üçün mövcud muzey mühitində tədqiqatçı fəaliyyəti özünü göstərməlidir. Tətbiqi muzeyşünaslıqda muzey pedaqogikası, muzey psixologiyası, muzey estetikası, muzey etikası kimi sahələr daha ətraflı araşdırılmalı, bədii təmayüllü ali təhsil müəssisələrinin «Muzeyşünaslıq» kafedralarında, «Sənətşünaslıq» fakultələrində bu istiqamətli fənlər tədris edilməlidir. Bunu mövcud inkişaf tələb edir.

Fəaliyyətinin mahiyyətinə görə muzey işçisi geniş və yaxud məhdud məzmunlu problemlərin həllində mühüm amil xarakterli olur. Direktorun, müavinlərin, şöbə, bölmə müdirlərinin, fond müdiri və işçilərinin, bərpa bölmələri işçilərinin, ekspozisiya və digər sahələrdə fəaliyyət göstərən peşəkarların gördükləri işin keyfiyyət dərəcəsi, təbii ki onların həm nəzəri, həm də təcrübi bacarıq və qabiliyyətlərindən asılı olmaqla, bir sıra imkanların açılmasına, aşkarlanmasına şərait yaradır. İmkandan mövcud muzey şəraitində nəticəyə çatmaq üçün işçilər tərəfindən müəyyən zaman daxilində istifadə edilirsə, onda daha tez nəticə əldə edilir.

Keyfiyyət göstəricisinə gəldikdə isə, qeyd etmək lazımdır ki, burada nisbilik baş verə bilər, yəni keyfiyyətli fəaliyyət, əhatəli zaman çərçivəsində baş verə bilər və əksinə.

Həm də fəaliyyətin məzmunu müəyyən zamanda tənzimlənir. Məsələn, muzey əşyasının bərpasına keyfiyyətli

nəticə üçün nisbətən çox vaxt sərf edilir. Eyni zamanda bərpanın tam əhatə olunması mərhələ-mərhələ həyata keçirilsə də, çox diqqətlə, peşəkarcasına aparılır. Səriştəsiz işçilərə isə bu proses şamil edilə bilməz. Çünki, nə qədər vaxt verilsə də, səriştəsizlik, təcrübəsizlik hökmən özünü göstərir.

Muzey işçisi yaradıcıdır-fəhlə əşyanı, eksponatı məqsədyönlü şəkildə müəyyən edilmiş yerə (otağa, fonda və s.) çatdırmalıdır. Yəni, gördüyü işin mahiyyətini hər kəs yaradıcı kimi bilməlidir. Növbətçi işçi isə onu, müvafiq şərait üçün uyğun yerdə yerləşdirməlidir. Bu mərhələdə yaradıcılıq daha qabarıq şəkildə özünü göstərir. Bərpaçılıqda da, ekspozisiyanın bədii tərtibatında da, bələdçilərin fəaliyyətində də, ümumiyyətlə, fəaliyyətin bütün mərhələlərində yaradıcılıq vacib sayılır. Bu yaradıcılığın bir istiqaməti də məhz sərgi fəaliyyətində ekspozisiyaya yönəldilir. Ekspozisiya muzeyin kompleks fəaliyyətinin nəticəsi sayılır. Məhz buna görə də muzey işçisi müvafiq başlıca tələbləri yerinə yetirməlidir:

1. Öz nəzəri biliklərini durmadan artırmalıdır;
2. Təcrübi qabiliyyət və yaradıcı bacarıqlarını mütəmadi inkişaf etdirməli, vərdişlərə yiyələnməlidir;
3. Öz yaradıcılığını mütəmadi olaraq inkişaf etdirməlidir;
4. Muzeyin fəaliyyətinə yaradıcı yanaşmalıdır.

Ekspozisiya muzey kollektivi tərəfindən təşkil edildiyindən, ayrı-ayrı dünyagörüşlərin, yaradıcılıqların nəticəsidir. Rəssam, dizaynçı, tərtibatçı, işıqçı-rəssam, bələdçi və digərlərinin kompleks yaradıcılığı məhz ekspozisiyanın tamaşaçı ixtiyarına verilməsi ilə nəticələnir.

Ekspozisiya müvafiq prinsiplərə əsaslanmaqla müəyyən tarixi dövr yaradıcılığını əks etdirir. Mərhələli şəkildə yaradılan ekspozisiya, həm də müəyyən tarixi və yaxud yaradıcılıq mərhələlərini nümayiş etdirir. Ekspozisiyanın keyfiyyət göstəriciləri onu təşkil edənlərin, yəni, muzey işçilərinin peşəkarlıq keyfiyyəti göstəricilərindən asılıdır. Ekspozisiyanın təşkilində aşağıdakı tələblər nəzərdə tutulmalıdır:

1. Ekspozisiyanın mövzusu ümumi mühitə, şəraitə, muzey mühitinə uyğun seçilməlidir;



2. Ekspozisiyada məzmun dolğunluğuna nail olunmalıdır;
3. Ekspozisiyanın təşkilində elmilik, planlılıq, ardıcıllığa xüsusilə diqqət verilməlidir;
4. Bütünlüklə ekspozisiya fəaliyyətinə yaradıcı yanaşılmalıdır.

Bir tərəfdən kollektivsiz ekspozisiya mümkün deyil, digər tərəfdən isə, ekspozisiya təşkil edənlərin, yaradanların təcəssümçüsü kimi mühüm xarakter kəsb edir. Yəni, həm muzey işçisi, həm də ekspozisiya bir-biri üçün zəminə çevrilir, bir-birini şərtləndirirlər.

Məlumdur ki, tamaşaçı müxtəlif yaş qrupuna mənsub ola bilər. Hər yaş qrupuna mənsub tamaşaçının isə özünəməxsus dünyagörüşü, qavrama qabiliyyəti, bilik, bacarıq və vərdişlərə yiyələnmə dərəcəsi mövcuddur. Bütün bu keyfiyyətlər, amillər nəzərə alınmaqla ekspozisiyanın təşkili xüsusi diqqət mərkəzində olmalıdır.

Tamaşaçı fəaliyyəti aktiv və passiv olmaqla iki qrupa bölünür. Aktiv fəaliyyətli tamaşaçılar adətən əsas təhsil illəri yaş dövrünə (təxminən 12-22 yaşa qədər) aid olanlardır. Aktiv qrupa aid tamaşaçılar-yeniyetmə gənclər öz nəzəri biliklərinin tədqiqini təcrübi şəkildə muzey ekspozisiyalarında axtarırlar və bununla yeni nəzəri bilik üçün zəmin yaradırlar. Eyni zamanda müxtəlif sahələr üzrə maraqlar yaranmağa başlayır. Məhz bu maraqlar nəticəsində gələcək fəaliyyətin təməli qoyulur, peşəyönümü formalaşır, ayrı-ayrı peşələrə yaradıcı yanaşmanın yolları axtarılmağa başlanılır. Get-gedə belə maraqlar inkişaf etməyə, artmağa başlayır. Artan maraqlar yenidən ekspozisiyaya baş çəkmək, sərgilərlə yenidən, həm də dərindən tanış olmaq üçün zəmin yaradır. Getdikcə bu proses planlı xarakter alır və məqsədəuyğun fəaliyyətə çevrilir. Tədris prosesi ilə ekspozisiya arasında, məktəblə muzey arasında, ailə ilə muzey arasında sıx qarşılıqlı əlaqələr yaranmağa başlayır. Eyni zamanda, bu cür əlaqələr ayrı-ayrı elmlərin mənimsənilməsi, qavranılmasına, həm də digər muzeylərə, tarixi mədəniyyət abidələrinə, qoruq muzeylərə, abidə komplekslərinə münasibəti formalaşdırır. Kompleksliliyin

yaranması insan şüurunun hərtərəfli fəaliyyətdə inkişafı üçün zəmin yaradır. Milli mədəni dəyərlərə artan maraq, bəşəri dəyərlərə olan marağı formalaşdırır. Bütün bunların nəticəsində təcrübi bacarıq və qabiliyyətlərin, vərdişlərin aktiv şəkildə inkişafı istiqamətlənir. Nəhayət, qarşılıqlı münasibət öz nəticəsini verir, yəni təcrübi olaraq yaradıcılıq nümunələri mərhələ-mərhələ yaranmağa başlayır, yəni yaradıcılığın təməli və sonraki nəticələri tətbiq şəklində aşkarlanır.

Passiv tamaşaçı ekspozisiyada passiv qavrama prosesi keçirir, sadə maraqlarla kifayətlənir, həmin məqama qədərki nəzəri biliklərlə gördüklərini müqayisə etmir, bir növ laqeydlik göstərir, buna görə də maraqların yaranması prosesi getmir, muzeyə, ekspozisiyaya təkrar gəlişlər üçün zəmin yaranmır. Əlbəttə, bu qrup insanlarda yaradıcılığa münasibət özünü göstərmir.

Beləliklə, yaradıcı kollektivsiz ekspozisiya, ekspozisiyasız tamaşaçı münasibəti mümkün deyildir. Fəaliyyətdə bu proses getdikcə qanunauyğun şəkil alır. Bu qanunauyğunluğun mahiyyətini belə səciyyələndirmək olar: fəaliyyət prosesində muzey işçisi, ekspozisiya və tamaşaçı münasibəti biri-birini şərtləndirir.

Tətbiq prosesində zənginləşmə əsasdır. Muzey fəaliyyətində mahiyyət baxımından zənginləşmə prosesi özünəməxsus mürəkkəbliyə malik olmaqla, əsas hərəkətverici priyomlar kompleksindən ibarətdir. Fəaliyyət mexanizmində məqsədin zənginləşmə istiqamətinə yönəldilməsi, bilavasitə ekspozisiya materialları, şərait və aparıcı, əsas amil sayılan muzey işçiləri vasitəsilə həyata keçirilir. Təbiidir ki, bu proses mərhələlik şəraitində olur. Zənginləşmənin mənbəyi isə muzey tədbirləridir. Sərgi və yaxud digər muzey tədbirləri özünəməxsus xüsusiyyət çərçivəsində zənginləşməni həyata keçirir. Tədbirlər kompleksinə nəzər salsaq, muzeydaxili və muzeydənkənar tədbirlərin mövcudluğu məlumdur.

Muzeydaxilində həyata keçirilən və zənginləşmədə mənbə rolunu oynayan mədəni-kütləvi tədbirlər, iş formaları aşağıdakılardır:

1. Müxtəlif mövzulara həsr edilən sərgilər, ekspozisiyalar;



2. Yaradıcı sənətkarlarla görüş gecələri;
3. Müxtəlif mövzularda mühazirələr, söhbətlər;
4. Viktorinalar, disputlar;
5. Müxtəlif xarakterli yaradıcı müsabiqələr;
6. Təhsil müəssisələri və digər ictimai-siyasi, tərbiyəvi fəaliyyət mərkəzlərinin muzeyləri üçün eksponatlar, ekspozisiyalar və bələdçilərin hazırlanması üzrə görülən işlər.

Muzeydənkənar yerlərdə həyata keçirilən və zənginləşmədə mühüm təsirə malik mədəni-kütləvi tədbirlər, iş formaları aşağıdakılardır:

1. Şəhər və qəsəbələrin mədəniyyət evləri, saraylarında təşkil edilən sərgilər;
2. Ayrı-ayrı təhsil müəssisələrində təşkil edilən səyyar sərgilər;
3. Təhsil müəssisələrində təşkil edilən digər muzey tədbirləri;
4. Bədii dərnəklər;
5. İncəsənətin ayrı-ayrı sahələrindən, muzeylərin eksponatlarından bəhs edən sənədli filmlərin, foto-albomların izahlı şərhlərlə nümayişi;
6. Muzey fəaliyyətindən bəhs edən söhbətlər;
7. Müsabiqələrin keçirilməsi.

Zənginləşmə prosesində muzey fəaliyyətinin səmərəliliyini iki istiqamətdə (nəzəri və təcrübi) müəyyənləşdirməyi məqsədəmüvafiq saymaq lazımdır:

Birincisi, muzey fəaliyyəti prosesində nəzəri zənginləşmənin özünəməxsus yeri mövcuddur. Nəzəri zənginləşmənin son nəticəsi sayılan biliklərin əldə olunması, sonrakı bacarıq və vərdişlərin formalaşmasında mənbəyə çevrilir. Eyni zamanda nəzəri formalaşma sonrakı təcrübi zənginləşmənin başlanğıcı, idraki prosesdə hərəkətverici fəaliyyət hesab olunur.

İkincisi, muzey fəaliyyətində təcrübi zənginləşmə üçün tədbirlərin təcrübi təsiri mühüm əhəmiyyətə malikdir. Bu zaman tətbiq prosesi baş verir.

Beləliklə, həm nəzəri, həm də təcrübi təsirlər istər muzeydaxili, istərsə də muzeydənkənar tədbirlər prosesində özünü göstərir. Lakin həm birinci, həm də ikinci fəaliyyət prosesində keyfiyyət göstəricisi mühüm əhəmiyyətə malikdir. Müasir muzey fəaliyyətinin təsirlilik dərəcəsi əsas etibarilə onun keyfiyyət göstəricilərindən asılıdır. Müxtəlif mövzulara həsr edilmiş sərgi və ekspozisiyalarda istər nəzəri, istərsə də təcrübi istiqamətlərdə edilən təsir prosesində eksponatın keyfiyyətli təqdimi, ekspozisiyada hər bir detalın, məlumatın səmərəli çatdırılması, bədii tərtibat işinin maraqlara uyğun şəkildə təşkili, texniki vəsaitdən məqsədyönlü və keyfiyyətlə istifadə, ətraf mühitin maraq dairəsinin nəzərə alınması və digər amillər həmişə diqqət mərkəzində olmalıdır. Bütün hallarda ölkədəki tarixi-iqtisadi və siyasi durum, hadisələrin gedişi də tədbirin mövzusunun seçimində mühüm amil rolunu oynamalıdır. Lakin hər hansı halda milli mənafe, mövqe baxımından çıxış etmək lazımdır. Yeri gəldikcə tarixi köklərə, milli dəyərlərə müraciət olunmalıdır. Çünki, əsl incəsənəti müxtəlif tarixi dövrlərdə xalq yaradır. İncəsənət bədii yaradıcılığın nəticəsidir ki, onun tarixi də çox qədimdir. İllər, qərinələr, əsrlər biri-birini əvəz etdikcə müxtəlif növ incəsənət nümunələri daha mükəmməl məzmun, forma kəsb etmiş, zaman keçdikcə bədii-özfəaliyyət - bədii-yaradıcılıq əməyin özünəməxsus sahəsinə, sənət sahəsinə çevrilmişdir. Xalq içərisindən çıxan sənətkarlar hər şeydən əvvəl xalqın zövq və tələbatını müxtəlif növlü ədəbiyyat və incəsənət əsərlərində əks etdirməyə müvəffəq olmuşlar.

Yaradıcı sənətkarlarla təşkil edilən görüşlərdə də keyfiyyət göstəricisi əsas tutulmaqla, sənətkarlıq nümunələrinə həm nəzəri, həm də təcrübi şəkildə istinadlar edilməklə, tamaşaçıda müxtəlif maraqlar yaradılır, zövqlər oyanılır, bilik, bacarıq, vərdişlər üçün zəmin öz təsirini göstərir. Əlbəttə, tədbirin keyfiyyətsiz təşkili, tarixi dövrün nəzərə alınmaması, marağa uyğun mövzunun seçilməməsi, sənətkarın yaratdığı nümunələrin keyfiyyətsiz seçimi, bərpası və təqdimi, keyfiyyətsiz təcrübi təsirlər və s. zənginləşmənin inkişafına zəmin yarada bilməz.



Muzeylərdə müxtəlif mövzularda mühazirə və söhbətlərdə keyfiyyətli şəkildə, elmi mənbələrə istinadən verilən nəzəri məlumatların mənimsənilməsi prosesinə müxtəlif yaş qrupuna məxsus tamaşaçı incəsənət aləmini zinətləndirən ayrı-ayrı sənətkarların yaradıcılıq üslubu, bədii obrazlar qalereyası ilə yaxından tanış olurlar. Zənginləşmə prosesində tamaşaçı belə bir cəhəti şüurlu olaraq dərk edir ki, hər bir sənətkar fərdi bədii obrazlar vasitəsilə müxtəlif məzmunlu həyat hadisələrini, insanların əmək, həyat şəraitini, cəmiyyətə, bir-birinə münasibətlərini, arzu və amallarını, hiss və həyacanlarını, xarakterini, bütövlükdə isə dövrü tərənnüm edir. Heç şübhəsiz, bədii yaradıcılığın müxtəlif sahələri üzrə fəaliyyət göstərən sənətkarlar tarixi dövrü əsas götürməklə, həmin sahənin spesifik təsir ifadə vasitələrini əsas götürürlər.

Viktorinalar və disputların muzey mühitində, eksponat qarşısında, tarixi dövrün nümunəsi önündə həyata keçirilməsi isə keyfiyyət amilini daha da artırır və bu səpgili tədbirlər əsas etibarilə məktəbli, tələbə, aspirantın bilik, bacarıq və vərdişlərinin artması, inkişafında amilə çevrilir. Seçilən suallar və mövzuya münasib cavab mühitə münasibətdə muzey işçisindən daha diqqətli olmağı tələb edir. Münasib zaman çərçivəsində tədbirin məzmununun daha zəngin olması tələb olunur. Cavab və məlumatların, şərhlərin, elmi fakt və maraqlı materialların tamaşaçıya hərtərəfli verilməsi muzey işçisindən yüksək bilik, bacarıq, vərdiş və səriştəlilik tələb edir. Məsələn, məktəblilər belə muzey işçiləri sayəsində sərgi salonlarında incəsənətin müxtəlif növləri üzrə çox böyük rol oynayan ifadə vasitələri haqqında da lazımi təsəvvürə yiyələnirlər. Zənginləşmə prosesinin keyfiyyətli davamında onlar öyrənirlər ki, müxtəlif həyat həqiqətlərini, insanların həyat və fəaliyyət tərzini, xüsusiyyətlərini təcəssüm etdirməkdə təsviri incəsənətdə rənglər, boyalar, daşların ahəngi, naxış və bəzəklər, musiqidə səslər və ritmlər, dinamik çalarlar, səslənmə tərzləri, bədii ədəbiyyatda sözlər, insanları həyacanlandıran poetik ifadələr, deyimlər və s. əsas rol oynayır. Belə keyfiyyətli zənginləşmə nəticəsində məktəbli və yaxud tələbədə incəsənətə münasibətin bu və ya digər cəhətləri

formalaşır. Bu da onların nəzəri məlumatlarını genişləndirir, onları bütövlükdə geniş incəsənət aləminə, mədəni dəyərlərin dərkinə yaxınlaşdırır.

Zənginləşmə prosesində məktəbli, yaxud tələbənin elmi-mədəni dünyagörüşü artır, ayrı-ayrı bədii-silsilə fənlərinə, elmlərə dərin maraq yaranır, uzun müddətli yadda saxlamaya nail olur, digər tərəfdən isə gələcək peşəyönümü istiqamətində inkişaf, formalaşma, təyinetmə prosesi baş verir. Eyni zamanda həm milli mədəni-mənəvi dəyərlərin dərindən və hərtərəfli dərki baş verir. Vətənə dərin məhəbbət hissi formalaşır, həm də milli mədəniyyətlərin bəşəri mədəniyyətlə müqayisəsi prosesi baş verir ki, bu da idraki proseslərin daha da inkişafı, formalaşmasına gətirib çıxarır.

Keyfiyyətli zənginləşmədə təsviri incəsənətin əhəmiyyəti mühümdür. İlk baxışdan belə təsəvvür yaranır ki, təsviri incəsənət yalnız zahiri oxşarlığı tərənnüm edir. Eyni zamanda təsviri incəsənət «...təsvir olunan şeyin mənasını, onun təkrarolunmaz xüsusiyyətlərini və fərdiliyini; insanın xarakter və daxili mahiyyətini, təbiətin təkrarolunmaz gözəlliyini, dünyanın rəng və mistik zənginliyini açıb göstərir.

Təsviri incəsənətə bir də görmə-sahə incəsənəti deyilir, çünki, bu incəsənət həyat hadisələrini səth üzərində və sahədə əks etdirir, onun əsasında əyanilik və hissedilmə qabiliyyəti durur... Lakin əgər rəngkarlıq, heykəltaraşlıq, qrafika həyatı əks və təcəssüm etdirirsə, təsvir olunan şeyin görkəmini və simasını saxlayırsa, dekorativ-tətbiqi incəsənətin növlərinin əksəriyyəti isə varlığı bilavasitə əks etdirmir və onu təsvir etmir. Bunlar maddi mühiti yaradır ki, bu mühitdə insanlar yaşayır və işləyirlər, insanların praktik ehtiyaclarını və tələblərini ödəyir, faydalılığı gözəlliklə, bacarıqla birləşdirir».[74]

Muzeylərdə təsviri incəsənətin elmi-bədii mahiyyəti haqqında verilən keyfiyyətli, səmərəli məlumatlar əyaniliklə, real mühitlə əlaqələndirildikdə, zənginləşmədə maraq, heyrət, fəal emosional qavrama özünü göstərir.

[74] Estetik tərbiyə. Bakı., «Maarif», 1972, s. 202-203.



Hazırki zənginləşmənin keyfiyyətli fəaliyyətə söykənməsində teatr incəsənətinin də əhəmiyyəti mühümdür. Tamaşa pyesdən başlanır. Pyes müəllifin, dramaturqun duyğu və düşüncələrini təsvir etdiyi hadisələri hərəkətdə, dinamikada göstərir. Məzmuna, dinamikaya uyğun səhnədə qurulan dekorlar, quruluş, bədii tərtibat işləri, musiqi müşayəti, geyim, forma və s. tamaşanın qavrama təsirini, bədii gücünü qat-qat artırır. Lakin muzeylərdə cəmləşdirilən ayrı-ayrı teatrların müxtəlif tarixi dövr yaşantıları müvafiq muzey mühiti vasitəsilə zənginləşməyə xidmət edir ki, bu da müxtəlif mövzulu sərgi və tədbirlərin zəminində baş verir.

Beləliklə, muzey mühitndən istifadə vasitəsilə, tədbirlərin gücü ilə zənginləşmə prosesi gedir. Burada keyfiyyət göstəricisi əsas sayılır. Yəni, muzey mühiti, mühitin həyata keçirdiyi tədbirlər, bu tədbirlərin keyfiyyəti nəticəsində idraki proseslər, zənginləşmə kimi mürəkkəb qarşılıqlı əlaqələr kompleksi yaranır və inkişaf edir. Bu inkişafda idraki proseslər fəaliyyət mexanizminin mənbəyi sayılır. Belə qarşılıqlı əlaqəliliyin qanunauyğunluğa çevrilməsində elmi idrak, yaradıcı idrakla qarşılıqlı şəkildə təsirlərdə iştirak edir. Muzey mühitinin komplekslıliyindəki keyfiyyətlilik tədbirin (sərgi və yaxud digər tədbirlər) keyfiyyətliliyinə, bu isə idraki prosesin, zənginləşmənin keyfiyyətli şəkildə davamına səbəb olacaq , əldə olunan nəticə isə digər mühitlərə müsbət təsirlə nəticələnəcək, özünü göstərəcəkdir. Əldə olunan müsbət nəticə, əvvəlki fəaliyyətin keyfiyyətli mərhələliyinin məqsədyönlü yüksək pilləsi kimi özünü göstərməlidir. Tədbirlərin gedişində təsirlər öz işini görür, zənginləşmə yaranır, lakin sonuncunun yüksək şəkildə olması keyfiyyətliliklə ölçülür. Müvafiq muzey mühiti vasitəsilə həyata keçirilən tədbirlərdə keyfiyyətlilik dərəcəsi nə qədər yüksək olarsa, zənginləşmənin keyfiyyəti də buna müvafiq olaraq artar.

# VI FƏSİL

## TƏTBİQİ KULTUROLOGİYADA TEXNİKİ VƏ ƏYANİ VASİTƏLƏRİN ƏHƏMİYYƏTİ

### *6.1. Mədəniyyət müəssisələrində texniki yaradıcılığın təşkili*

Respublikamızın mədəniyyət müəssisələrində, mədəniyyət evi və saraylarında, mədəniyyət və istirahət parklarında, kitabxanalarda, klublarda və s. mədəni mərkəzlərdə kütləvi təbliğatın müxtəlif formalarından-məruzə, mühazirə, söhbət, disput, kinolektoriya, fototərtib, habelə səhnəciklərdən, pyeslərdən geniş istifadə olunur.

İnsanların estetik və bədii tərbiyəsində mühüm vasitə olan bədii və texniki yaradıcılıq, mədəniyyət və incəsənətimizi daim rövnəqləndirir, gündəlik həyatımıza canlı ruh və nəfəs gətirir. Bu iş insanlar üçün mənəvi zövq və zənginləşmə mənbəyinə çevrilir. Məhz buna görə də,dövlətimiz bu prosesə böyük əhəmiyyət verir və öz diqqət mərkəzində saxlayır. Kütlələrin bədii və texniki özfəaliyyət yaradıcılığı bu gün Azərbaycanda yüksəliş dövrünü keçirir və əməli nəticələr verir.

Asudə vaxt dedikdə istirahətə, təhsilə, ictimai-siyasi fəaliyyətə, elmi-texniki və bədii yaradıcılığa, mənəvi zənginliyə, əxlaqi saflığa, estetik zövqlərin inkişafına sərf olunan vaxt nəzərdə tutulur, odur ki, dövlətimiz mənəvi zənginliyi, əxlaq saflığı, fiziki kamilliyi özündə birləşdirən hərtərəfli insan yetişdirilməsi işində asudə vaxtın əhəmiyyətini yüksək qiymətləndirir və kütləvi, yaradıcı təşkilatların fəaliyyətini bu istiqamətə yönəldir.

Asudə vaxtın səmərəli keçirilməsi, adamdarın elmi-bədii yaradıcılıqla, ədəbiyyat və incəsənətlə və digər fəaliyyət sahələri ilə məşğul olmaları bu gün yeni vəzifələr müəyyənləşdirir.

Milyonlarla adamların bədii-estetik marağını, mənəvi tələbatını ödəməyə xidmət edən bədii və texniki özfəaliyyət yaradıcılığı son illər sənətşünas və mədəniyyətşunas



alimlərimizin diqqətini daha çox özünə cəlb edir. Bədii və texniki özfəaliyyət yaradıcılığı və onun müxtəlif sahələri demək olar ki, bütün şəhər və rayonlarımızda bu gün geniş təşəkkül tapmaqdadır.

Bədii-texniki yaradıcılığın inkişaf problemlərinin həlli yalnız təşkilati səylərdən deyil, həm də bu problemlərin elmi-nəzəri tədqiqatından asılıdır.

Bədii və texniki yaradıcılıq sənətinin tədqiqi bədii-sosial hadisə olub, onun müxtəlif sahələrinin inkişaf yollarını və üsullarını əhatə etməklə yanaşı, son dərəcə böyük tərbiyəvi əhəmiyyət kəsb edir.

Özfəaliyyət iştirakçıları əksər hallarda zəhmət adamlarından, eləcə də tələbə-gənclərdən, ayrı-ayrı müəssisələrdə çalışan oğlan və qızlardan ibarət olur.

Yaddan çıxarmaq olmaz ki, onların çoxu sənaye və kənd təsərrüfatının müxtəlif sahələrində çalışır, bədii texniki yaradıcılıqla əsasən öz asudə vaxtlarında məşğul olurlar.

Bədii və texniki özfəaliyyət incəsənəti ilə olan ünsiyyət hər şeydən əvvəl geniş kütlənin incəsənətə, bədii və texniki yaradıcılığa artmaqda olan marağından irəli gəlir və bu mütərəqqi meyl hər vasitə ilə təbliğ və mühafizə olunmalı, özfəaliyyət iştirakçılarının iş şəraiti, asudə vaxtları, ixtisaslarının spesifikliyi və s. kimi məsələlərə xüsusi diqqət yetirilməlidir. Belə ki, tələbələrin imtahan sessiyaları, yay tətili, o cümlədən, əyani, qiyabi və hansı şöbədə oxumaları, istehsalat, sənaye və kənd təsərrüfatının müxtəlif sahələrində çalışan həvəskarların əmək fəaliyyətinin xüsusiyyətləri, hansı növbədə işləmələri, hətta yolları belə nəzərə alınmalıdır. Xüsusilə kollektivin təşkili, eləcə də onun ardıcıl və məqsədyönlü fəaliyyətində özfəaliyyət rəhbərləri (rejissorlar, müsiqiçilər, dirijorlar, rəssamlar, fotoqraflar, kinematoqrafçılar və s.) dediyimiz cəhətləri diqqət mərkəzində saxlamalıdırlar. Məhz belə olduqda həvəskar iştirakçılar özlərinə göstərilən qayğını hiss edir, bədii və texniki yaradıcılığa daha çox maraq göstərir, eyni zamanda əmək fəaliyyətindən, tədris prosesindən geri qalmır, müvəffəqiyyətlə, maneəsiz olaraq öz peşəsini, yaradıcılıq

qabiliyyətini artırmağa, təhsilini müvəffəqiyyətlə başa vurmağa imkan tapa bilirlər.

Bədii və texniki özfəaliyyət sənəti gördüyümüz kimi mürəkkəb sosial mədəni sistem olub müxtəlif bədii-estetik və sosial problemlərlə əlaqədardır. Bununla belə, onun əsas məqsədi qabaqcıl dünyagörüşünə yiyələnmiş yeni insanın hərtərəfli ahəngdar inkişafına xidmət etməkdir. Milyonların incəsənəti olan bədii özfəaliyyət yaradıcılığı müxtəlif peşə sahiblərini, sosial və yaş qruplarını, oğlan və qızları bədii yaradıcılığa yaxınlaşdırır, onların bədii təfəkkürünü, estetik zövqünü formalaşdırır, hərtərəfli ahəngdar inkişafına, mənəvi mədəniyyətinin durmadan yüksəlməsinə fəal kömək edir.

Hərtərəfli inkişaf etmiş insan namuslu əməkdə, məqsədyönlü zəhmətdə öz yaradıcılıq istedadını, sosial mahiyyətini hərtərəfli ifadə edə bilir və bu, ona müsbət hisslər, emosiyalar bəxş edir. İncəsənət, o cümlədən, bədii və texniki özfəaliyyət sənəti, adamlarda nəcib hisslər oyadır, bizi əhatə edən maddi aləmi daha dərindən duymağa imkan yaradır.

Bədii-estetik, pedaqoji tədqiqatlar tələb edən çoxşaxəli və daim inkişafda olan bədii və texniki özfəaliyyət yaradıcılığının tərbiyəvi rolu getdikcə artır, təsir dairəsi genişlənir.

Texniki yaradıcılığın elmi təşkilinə aşağıdakı prinsiplər daxildir:

1. Texnikanın aparıcı sahələrini öyrənmək və bu gün həmin sahədə hansı məsələlərin həll olunduğuna nəzarət etmək;
2. Texnikanın ən geri qalan məlum sahələrini öyrənmək. Bu, texniki tərəqqinin əsas mövqelərini və ümumi təmayüllərini müəyyən etmək işini asanlaşdırır;
3. Texniki məsələləri həll etmənin üsulları, fiziki effektlər, yeni materiallar və i.a. haqqında məlumat toplamaq və sistemləşdirmək. Onların mənbəyi texnikaya aid dövri mətbuat və ədəbiyyatdır. Ədəbiyyatla tanışlıq texniki özfəaliyyətin səmərəli işləməsi üçün vacib tələbdir. Ədəbiyyatın oxunması ixtiraçının yaradıcılıq məharətini artırır;
4. İxtiraçılıq yaradıcılığının nəzəriyyəsinə aid ədəbiyyata diqqət yetirmək. Belə ədəbiyyat hələ o qədər də çox deyil, lakin ixtiraçılıq texnologiyasının ayrı-ayrı məsələlərinə bu və ya digər dərəcədə toxunan xeyli kitab və məqalə vardır;
   Yaradıcılığın metodologiyası problemlərini işıqlandıran ədəbiyyata xüsusi fikir vermək lazımdır;
5. Tədris məsələlərini həll etmək sahəsində təcrübə toplamaq.

Texniki özfəaliyyət sistemi professional texniki yaradıcılığa da xidmət göstərə bilər və bu yolla cəmiyyətimizdə elmi-texniki tərəqqinin sürətlənməsinə öz əlavə töhfəsini verə bilər.

Elmi-texniki özfəaliyyətin təşkilini son məqsəd prinsipi üzrə aparmaq məqsədəuyğundur. Yəni konkret özfəaliyyət qrupunun marağına səbəb olan predmetin başlıca olaraq son təyinatından çıxış edilməlidir. Bədii və texniki özfəaliyyətin istirahət funksiyaları, həm də mədəni-maarif xarakterli ictimai təşkilat rolu vardır. Bədii və texniki özfəaliyyət sadəcə əyləncə yox, fəal bədii məzmunlu istirahətdir, o geniş xalq kütlələri arasında mədəni-maarif işi və bədii özfəaliyyətlə məşğul olan insanların könüllü ictimai təşkitatıdır.

Elmi-texniki fəaliyyətdən fərqli olaraq bədii və texniki özfəaliyyət, insan fəallığının, onun estetik tələbatının və bədii qabiliyyətinin realizə edilməsi ilə əlaqədar olan xüsusi bir incəsənət növüdür.

Bədii özfəaliyyət kollektivlərinin çox böyük hissəsini gənclər təşkil edir. Bəs oğlan və qızları bədii yaradıcılığa cəlb edən nədir?

Mədəniyyətin fəal şəkildə mənimsənilməsinə, özlərinin istedad və qabiliyyətlərini üzə çıxarmağa gənclərin meyl etməsi, yaradıcılıq prosesində bilavasitə iştirakı - bütün bunlar bədii özfəaliyyətin təsir gücünü şərtləndirən cəhətlərdir. Bədii və texniki yaradıcılıq özünün universallığı, ümumiliyi,

insanların düşüncə və hisslərinə böyük təsir imkanları sayəsində insanların mühüm tərbiyə vasitəsinə çevrilmişdir.

Bədii və texniki özfəaliyyətin inkişafı dövlət əhəmiyyətli bir məsələyə çevrilib ki, burada bir tərəfdən geniş xalq kütlələrinin bədii yaradıcılıq prosesində istedad və bacarığı meydana çıxır, digər tərəfdən, xalq teatrları, xalq çalğı alətləri, foto, kino özfəaliyyətləri, rəqs ansamblları, həvəskar rəssamların sərgiləri və s. xalqın estetik və mənəvi tərbiyəsi işində professional sənətlə qoşa iştirak edir. İncəsənətin başqa janrları kimi bədii və texniki özfəaliyyət də insanların zəruri, mənəvi ehtiyacından doğur və xalqa nəciblik, xeyirxahlıq, yüksək zövq və gözəllik duyğusu tərbiyə edir.

Mədəniyyət müəssisələrində kənarda qalan bir vacib məsələyə də toxunmaq istəyirik. Bildiyimiz kimi musiqi janrları içərisində ən geniş yayılmışı xordur. Xor ifaçılığının kütləvilik baxımından estetik tərbiyədə və geniş xalq kütlələrini səfərbər etməkdə, onlarda nikbin əhval - ruhiyyə yaratmaqda rolu böyükdür. Yüksək emosional təsir gücü olan xor əsərləri cəmiyyətin, xalqın qayəsini, ideyasını ifadə etməklə yanaşı, insanlara kollektivçilik, beynəlmiləlçilik kimi nəcib keyfiyyətlər təlqin edir. Təəssüf ki, respublikamızın yaradıcı kollektivlərində, mədəniyyət müəssisələrində dövlət əhəmiyyətli olan bu məsələyə bir qədər soyuq münasibət bəslənilir.

Biz inanırıq ki, incəsənətin bütün janrlarının inkişafına diqqət artdığı kimi, xor musiqisinin inkişafına diqqəti artıraraq bu sahədə təsirli tədbirlər görəcəklər.

Yaradıcılıq işi mürəkkəb və çoxcəhətli bir prosesdir. Onun mühüm bir sahəsini texniki yaradıcılıq təşkil edir və uşaqların təxəyyülündə, axtarış meyllərini genişləndirir, onlarda iradəlik, əməksevərlik, həyata fəal münasibət kimi əxlaqi sifətlər aşılayır. Uşaqların texniki yaradıcılıq fəaliyyətini inkişaf etdirmək vacib bir məsələdir. Mədəniyyət müəssisələrində təşkil olunan uşaqların texniki yaradıcılığı dərnəkləri bu məqsədə xidmət edir. Naxışlı tikmə, hörmə, kağız və kartonla görülən işlər uşaqların texniki yaradıcılığına



təsir göstərir. Texniki yaradıcılıq qabiliyyəti əsasən praktiki iş prosesində formalaşır. Bu prosesdə onlar həm əyani surətdə mürəkkəb və rəngarəng texniki işlər görür, yeni və səmərəli yollar axtarmaq kimi məsələlər üzərində müstəqil düşünməli olurlar. Uşaqların texniki yaradıcılığa olan meyllərini düzgün müəyyənləşdirmək və istiqamətləndirməkdə «Bacarıqlı əllər» dərnəyinin rolu olduqca böyükdür. Dərnəklər peşə seçməkdə çətinlik çəkən kiçik və orta yaşlı uşaqlara öz texniki yaradıcılıq qabiliyyətlərini inkişaf etdirməkdə yaxından kömək edir. «Bacarıqlı əllər» dərnəklərinə müəllim və ya mütəxəsislər rəhbərlik etməlidirlər. Rəhbər iş planı tərtib etməlidir. Planda uşaqların istək və arzuları, dərnəyin maddi-texniki bazasının imkanları nəzərə alınmalıdır. Orta və böyük yaşlı uşaqlarla texnikaya aid məktəbdənkənar, yəni mədəniyyət müəssisələrində aparılan işin əsas formalarından biri də avia-modelçilik, gəmi modelçiliyi, elektro - texnika, radio - texnika, foto-kino dərnəklərinin təşkilidir. Çalışmaq lazımdır ki, uşaqlar ilk gündən «Bacarıqlı əllər» dərnəyində fəal iştirak etsinlər, istər əməli, istərsə də tədbirlərin təşkilində dərnəyin rəhbərinə yaxından kömək göstərsinlər. Məşğələlər müəyyən edilmiş və qabaqcadan razılaşdırılmış cədvəl üzrə aparılmalıdır. Cədvəldə məşğələnin günləri və saat göstərilməlidir. Əməli işlər, düzəldiləcək modellərin xarakterindən asılı olaraq uşaqlar arasında bölüşdürülməlidir. Eyni zamanda onların arzuları da nəzərə alınmalıdır.

Modellərin hazırlanması həm fərdi, həm də kollektiv surətdə icra oluna bilər. Dərnək rəhbərlərinin fəaliyyəti yalnız məşqələlərin təşkili ilə başa çatmır.Onlar eyni zamanda fərdi və kollektiv məsləhətlər təşkil etməli, seminar və konfrans keçirməli, sərgi, yarış və müsabiqə təşkilində iştirak etməlidirlər.

Elektro-texnika dərnəyinin əhəmiyyəti olduqca böyükdür.

Elektrik texnikası işləri orta yaşlı uşaqların marağına səbəb olur. Elektro-texnika dərnəklərində keçirilən məşğələlər uşaqların dünyagörüşünü genişləndirir və fizika elminin öyrənilməsini asanlaşdırır. Uşaqlar müxtəlif texniki

yaradıcılıq dərnəklərində ürəklərinə yatan işlər tapdıqları üçün burada həmişə vaxtlarını maraqlı və şən keçirirlər.

Mədəniyyət müəssisələrində uşaqlar arasında aparılan işdə texniki dərnəklərdən hələ lazımınca istifadə olunmur. Lakin bu dərnəklərin fəaliyyəti uşaqlarda əməyə məhəbbət, hələ uşaqlıq illərində əməyi sevmək kimi xüsususiyyətlər təlqin edir. Kütləvi tədbir formalarından fərqli olaraq dərnək məşğələləri uzun müddət davam edir, yeni dinləyici tərkibinə malik olur. Bu da dərnək işini müntəzəm xarakterli edir, uşaqların yaş və fərdi xüsusiyyətlərini nəzərə almağa imkan verir. Uşaqlar üçün təşkil edilmiş texniki dərnəklərin sayı və profili tərbiyə vəzifələrindən, uşaqların maraqlarından, mədəniyyət müəssisələrinin real imkanlarından asılıdır. Uşaq texniki dərnəklərin təşkili əsasən könüllük əsasında qurulmalıdır. Dərnəklərə yalnız qabiliyyəti olanlar deyil, bütün uşaqlar, qəbul edilə bilərlər. Zəif oxuyan və intizamsızları uzaqlaşdırmaq və ya onları götürməmək olmaz.Belə uşaqlar dərnək işinin müsbət təsirinə daha çox ehtiyac duyur. Uşaqları maraqlandıran iş və kollektivçilik onlara müstəqil işləməyi, özlərini yaxşı aparmağı öyrədir. Bəzi uşaqlar eyni vaxtda bir neçə dərnəkdə məşğul olmaq istəyirlər. Belə uşaqlara izah etmək lazımdır ki, dərnəkdə iştirak etmək olar, lakin bu dərnəklər müxtəlif xarakterli dərnəklər olsunlar. Uşaqların texniki yaradıcılıq dərnəkləri həftədə iki dəfə dərnək üzvülərinin yaşından asılı olaraq, bir saat yarım və ya iki saat məşğul olmalıdırlar. Dərnəklərin işi dərs planı və proqramı ilə müəyyən edilir. Bu plan və proqram, məcburi deyil tövsiyə xarakteri daşımalıdır.

Günü-gündən əldə edilən yeni növlü texniki vəsaitlər ölkəmizin iqtisadi qüdrətinin möhkəmlənməsinə kömək edir. Texniki yaradıcılıq gənclərin şəxsiyyətini zənginləşdirir, onu daima öz dünyagörüşünü, ixtisas biliklərini genişləndirməyə sövq edir, daxili enerjisini fəallaşdırır. Texniki yaradıcılıq gəncləri tədricən yaxınlaşdırmalı, onların qabiliyyətini, biliyini təkmilləşdirməli, meyl dairəsini formalaşdırmalıdır. Gənclərdə texniki yaradıcılığa meyl oyanmasında və onun inkişafında bir çox məşğələlərin böyük əhəmiyyəti olduğu aydın olur.



Mədəniyyət müəssisələrinin texniki kollektivləri, o cümlədən modelçilər dərnəkləri məktəb dərnəklərindən fərqli olaraq səciyyəvi üstünlüyə malikdir. İndi modelləşdirmə əvvəlkilərdən keyfiyyətcə tamamilə fərqlənir. Texniki yaradıcılığın inkişafında ictimai tədris müəssisələrinin rolu əhəmiyyətlidir. Texniki yaradıcılıq işləri sərgilərdə nümayiş etdirilməlidir. Bu da gənclərin texnikaya olan həvəsini bir daha artırır, işlərin çertyoj və fotoları, maşın və ya avtomodelçilərin, ixtiraçılar klubunun fəaliyyəti haqqında həvəskarlar tərəfindən çəkilmiş kinofilmləri müntəzəm olaraq nümayiş etdirilməlidir. Bu da yaradıcılıq növlərini təbliğ etməyə və xalq istedadları sıralarına yeni həvəskarları cəlb etməyə kömək edir, fəaliyyətdə olan texniki dərnək üzvləri mədəniyyət müəssisələrinin texniki təminatı üçün çox iş görə bilər. Avadanlıq, əyani tədris vəsaitlərinin təkmilləşdirilməsi və müstəqil hazırlanmasından başqa, klub fəaliyyətinin sənədləşdirilməsində, foto, səs, videoyazı, kino, maketlərin hazırlanması və s. işlərə kömək edə bilər. Mədəniyyət müəssisələrində texniki dərnəklərin fəallaşması kütləvi istehsalın, texniki təbliğatın və gənclərin əmək tərbiyəsi üçün xüsusi əhəmiyyətə malikdir. Texniki yaradıcılığın inkişafının geniş və maraqlı nümayiş etdirilməsi, ictimai həyatın həlledici forması olan maddi istehsalın yaranmasında gələcək nəslin düzgün yol seçməsində əhəmiyyətli rol oynayır. Hazırda respublikada gənclərin texniki yaradıcılığı sürətlə inkişaf etməlidir. Xırda dağınıq texniki dərnəklərin əvəzinə gənc texniklər klubu yaradılmalıdır, onların işinin müxtəlifliyi xalq təsərrüfatı əhəmiyyəti olan vəzifədir. Həll etməyə imkan verən nümunələri həyata keçirmək lazımdır. Bu baxımdan elektrotexnika dərnəkləri az əhəmiyyətə malik deyildir. Gənclər foto, kino, radio dərnəklərinin məşğələlərində böyük həvəs göstərirlər.

Gənclərin texniki yaradıcılığının inkişafı texniki dərnəklərin gələcək inkişafı, onların işinin ictimai əhəmiyyətinin gücləndirilməsi, əmək tapşırıqlarını seçməkdə, dərnək üzvlərinə müstəqillik və təşəbbüskarlığın verilməsi istiqamətində gedir. Mədəniyyət müəssisələrində təşkil

edilmiş texniki dərnəklər gənclərin texniki yaradıcılıq qabiliyyətlərinin aşkara çıxarılması və inkişafında xüsüsi yer tutur. Hər bir dərnəkdə keçirilən məşğələlər həvəskarların ümumi elmi və politexniki görüş dairəsinin inkişafına istedad və maraqlarının, ixtisas və peşə meylinin aşkara çıxarılmasına kömək edir, onları əməli biliklərlə, bacarıq və vərdişlərlə silahlandırır. Texniki dərnəklər gələcək ixtisasa və peşəyə istiqamətləndirmənin, peşə ixtisas meylini inkişaf etdirməyin, əmək tərbiyəsinin və kollektiv əmək sərf etməyin bir vasitəsidir. Məlumdur ki, texniki dərnəklərdə sərf edilən əmək təkcə təcrübi bacarıq və vərdişlərin yaranması olmayıb, həm də hər şeyi bilmək və yaradıcılıq tərbiyəsi deməkdir.

Gənclərin texniki yaradıcılıq qabiliyyətlərinin inkişafı dövrün, müasir həyatın tələbidir.

Gənclərdə texniki yaradıcılıq qabiliyyətinin inkişafı ümumi tərbiyənin əsas tərkib hissələrindən biri olan əmək tərbiyəsi ilə əlaqədardır.

Həvəskarlar texniki yaradıcılıq dərnəklərində yaradıcı əmək sərf etdiklərini, bu əməyin əhəmiyyətini dərk etməlidirlər.

Gənclərin texniki yaradıcılıq inkişafında texniki dərnəklərdən lazımınca istifadə olunmur. Halbuki mədəniyyət müəssisələrinin qarşısında qoyulmuş vəzifələr texniki dərnəklərin rolunu və əhəmiyyətini xeyli dərəcədə artırır.

Mədəniyyət müəssisələri gənclər üçün texniki dərnəklərin təşkilində təşəbbüs göstərməlidirlər. Texniki yaradıcılığın böyük iqtisadi əhəmiyyəti vardır. Texniki yaradıcılıq çox planlı mədəni əhəmiyyətə malikdir. Hər bir dərnək üzvünün texniki yaradıcılıq işində yüksək siyasi məna hiss olunarsa, bu, gənclərin ümumi dünyagörüşünün artması deməkdir.

Mədəniyyət müəssisələrində xalq yaradıcılığının bütün növləri arasında texniki yaradıcılıq ən görkəmli yer tutur.

Texniki yaradıcılığın inkişaf səviyyəsi mədəniyyət müəssisələrinin bütün işinin effektliliyinin həlledici göstəricilərindən biridir.



Mərhum Prezidentimiz xalqın bədii və texniki yaradıcılığına, xalq istedadlarının çiçəklənməsinə həmişə birinci dərəcəli əhəmiyyət vermişdir.

Kino-insan dühasının ən gözəl nailiyyətlərindən biridir. Elmin və texnikianın müxtəlif problemlərini geniş kütlə qarşısında tez, aydın və əyani olaraq açmaq, onları ədəbiyyat və incəsənət əsərlərinin ən gözəl nümunələri ilə tanış etmək, tarixin səhifələrini canlandırmaq üçün müasir kinematoqrafiya böyük təsirə, müxtəlif texniki üsullara və geniş yaradıcılıq imkanlarına malikdir. Kinonun bu gözəl xüsusiyyətləri onu qısa bir müddət ərzində məşhur etmiş, yüksək inkişaf pillələrinə qaldırmışdır. Kino ən qüdrətli bir təşviqat və mədəni tərbiyə vasitəsinə çevrilmişdir.

Kinonun ən qiymətli cəhətlərindən biri odur ki, ekran qarşısında oturmuş tamaşaçı bir-iki saat ərzində öz yerindən durmadan dünyanın müxtəlif ölkələrini gəzir, müxtəlif şəhərləri görür, müxtəlif xalqların həyat və məişətiləri ilə, onların iqtisadi və siyasi vəziyyətləri ilə tanış olur. Əgər hər hansı bir romanı oxuyub qurtarmaq üçün oxucu bir neçə gün vaxt sərf etməli olursa, bu romanda təsvir edilən bütün hadisələri, bütün həyat və mübarizə səhnələrini kino-tamaşaçı, yaxın iki saat ərzində əyani bir şəkildə görə bilər.

Mədəniyyət xəzinəmizə ən qiymətli inci dənəcikləri kimi daxil olmuş minlərcə bədii, sənədli, texniki, elmi-kütləvi filmlər, parlaq və maraqlı kinoşəkillər bədii boyalar və müxtəlif əyani formalarla xalqımızı tərbiyə edir, onların mədəni istirahətinə xidmət göstərir, qabaqcıl elmi geniş kütlə arasında yayır, kino tamaşaçılarını mədəniyyət sahələrində çalışan ədəbiyyat və incəsənət ustalarımızın habelə xalq təsərrüfatının müxtəlif sahələrində çalışan alimlərimizin, mühəndislərimizin, ixtiraçı və novatorlarımızın əldə etdikləri yeni-yeni nailiyyətlərlə tanış edirlər.

Ölkəmizdə xalq təsərrüfatının aramsız inkişafı uğrunda gedən mübarizədə, respublikamızda yenidənqurma işlərinin sürətlənməsində və tədris-təlim işlərinin canlandırılmasında kinodan hərtərəfli istifadə olunur.

Kino ümumtəhsil fənlərini əyaniləşdirmək üçün ən gözəl bir vəsait olmaqla, keçirilən dərslərin yaxşı mənimsənilməsində şagird və tələbələrə köməklik göstərir, sənayenin və kənd təsərrüfatının müxtəlif sahələrindən çəkilmiş filmlər isə - onları istehsalat müəssisələri ilə yaxından tanış edir.

Kino incəsənəti xalqımızı yeni ideyalar ruhunda tərbiyə edir, onların böyük yaradıcılıq yollarını işıqlandırır, əmək qəhrəmanlıqları göstərməyə şövqləndirir, sülh, əmin-amanlıq və bütün dünya xalqlarının qardaşlığı uğrunda gedən mübarizədə onlara ilham verir.

Kinostudiyalar tərəfindən ədəbiyyat və incəsənətin elm və texnikanın, kənd və şəhər təsərrüfatlarının müxtəlif sahələrini işıqlandıran bir çox elmi-kütləvi filmlər, habelə məktəblərdə öyrənilən fizika, kimya, coğrafiya və s. bu kimi tədris fənlərini əyaniləşdirən filmlər də istehsal edilməkdədir ki, həmin filmlərdən ölkəmizin müxtəlif istehsalat sahələrində, elmi-tədqiqat müəssisələrində və tədris ocaqlarında lazımınca istifadə edilməlidir.

Bütün bunlar kino həvəskarları dərnəklərinin fəaliyyətini canlandırmaq, istehsalat sahələrində yaradılan həvəskar kinostudiyalar şəbəkəsini genişləndirmək və orta məktəbləri başdan-başa kinolaşdırmaq haqqında hökumətimiz tərəfindən verilmiş tapşırıqların təcili surətdə yerinə yetirilməsi zərurətini bir daha sübut edir.

Ölkəmizdə kino həvəskarları qruplarının sayını artırmaq, kino fakültələrinin yaranması ilə əlaqədar olaraq, burada iştirak edənlərin, müəllimlərin, elmi-tədqiqat işçilərinin və ayrı-ayrılıqda fəaliyyət göstərən kino həvəskarlarının lazımi ədəbiyyatla təchiz edilməsi problemi meydana gəlmişdir.

Respublikamızda fəaliyyət göstərən yüzlərcə kino və foto dərnəklərinin tələbini ödəmək, bu dərnəklərdə çalışan minlərlə həvəskarların və dinləyicilərin foto-kino üzrə nəzəri biliklərini artırmaq üçün biz Azərbaycan dilində çox az ədəbiyyat yaratmışıq.



Kino-həyat hadisələrinin və hərəkət proseslərinin ekran üzərində yaradılan kinomatik təsvirlərinə, bu təsvirlərin ekrandan bizə bağışladığı həyatilik, canlılıq effektinə deyilir.

Bizim sevə-sevə tamaşa etdiyimiz kinolar xüsusi aparatların vasitəsilə çəkilmiş və xüsusi aparatlar vasitəsilə ekranda nümayiş etdirilərək orada bizə «canlı kimi göstərilən minlər və milyonlarca adi fotoşəkilciklər silsiləsindən başqa bir şey deyildir. Nazik, şəffaf və çox uzun lent üzərində alınmış bu kiçik şəkillərin hər birinə kinokadr, kadrların ümumi silsiləsinə kinofilm deyilir. Kinofilmlərin çəkilməsi üçün tətbiq edilən aparatlara kinoçəkən aparat, filmləri ekrana saldıran aparatlara isə kinoproyektor deyilir.

Kino-insanların siyasi biliklərinin artmasında, vətənpərvərlik ruhunda tərbiyəsinin qüdrətli vasitəsidir.

Hökumətimiz kinonun hərtərəfli inkişaf etdirilməsinə, kinofilmlərin ideya-siyasi və bədii səviyyəsinin yüksəldilməsinə, əhaliyə kino xidmətinin yaxşılaşdırılmasına həmişə qayğı göstərir.

Respublikamızda kino həvəskarlarının sayı gündən-günə artır. Kino həvəskarları kino işini öyrənir və yeri gəldikdə kinodan mədəni həyatımızda istifadə edirlər.

Bir sıra mədəniyyət müəssisələrində kino dərnəkləri artıq fəaliyyət göstərməkdədir. Burada müntəzəm olaraq dərnəklərin ilk təşkilat yığıncaqları keçirilir. Yığıncaqlarda məşğələlərin planları, kino laboratoriyaların sahmana salınması, kino materialların əldə edilməsi məsələsi müzakirə olunur.

Mədəniyyət evlərində təşkil edilmiş kino dərnəklərinə təcrübəli kino həvəskarları cəlb edilmişlər.

Kino həvəskarları dərnək məşğələlərində fəal iştirak etməklə bərabər, çəkiləcək kadrlar planının nəzərdən keçirilməsində, bir sıra kütləvi tədbirlərdə şura üzvlərinə yaxından kömək edirlər. Bundan başqa onlar kino laboratoriyasını sahmana salır, kino materialları və kimyəvi dərmanların əldə edilməsi qayğısına qalırlar.

Laboratoriyada kino işinə aid avadanlıqlar, cihazlar, aparatlar, lentlər, qablar, məhlullar, xalat, əlcək, işıqlar və s.

olmalıdır. Müasir tipli kinoçəkən və kinoproyektorlardan istifadə edilməlidir.

Dərnəyin proqramı tərtib edilməlidir. İstehsalatdan ayrılmamaq şərtilə dərnəkdə məşğələlər həftədə 2 saat olmaqla ayda 4 dəfə keçirilir.

Məşğələlər müsahibə yolu ilə aparılır. Praktiki məşğələlərə daha çox diqqət yetirilir. Dərnəkdə məşğələlər canlı və maraqlı keçirilməlidir. Dərnəyin rəhbəri kino işinin texnikasına aid bütün cəhətləri dərnək üzvlərinə öyrətməkdə öz bilik və bacarığını əsirgəməməlidir. Rəhbər, dərnək məşğələlərində istifadə etdikləri müxtəlif markalı kino aparatların xüsusiyyətlərini, aparatların arasında olan fərqləri dərnək üzvlərinə diqqətlə başa salmalıdır.

Dərnək rəhbəri istifadə edilən kino işinə aid olan aparatların, cihazların və avadanlıqların xüsusiyyətlərini dərnək üzvlərinə başa salır və aydınlaşdırmalıdır.

Mədəniyyət müəssisələrində kino həvəskarlarının bədii yaradıcılığına həsr edilmiş müsahibələrin keçirilməsi lazımdır.

Mədəniyyət evlərində kino dərnəyi təşkil etmək işinə başladıqda, hər şeydən əvvəl kino həvəskarlarını aşkara çıxarmalı, fizika müəllimlərini və təcrübəli kino mütəxəssislərini kino dərnəyinə cəlb etmək lazımdır.

Kino laboratoriyalar sahmana salınmalı, kino materialların əldə edilməsi üçün çalışmalı və dərnək şurası seçilməlidir.

Kino işi üçün ən azı iki otağın olması vacibdir. Otaqlardan biri kino laboratoriya üçün ayrılmalı və ora avadanlıqlarla təchiz edilməlidir. Kino həvəskarları laboratoriyada qayda-qanuna, təmizliyə nəzarət etməli, yeni başlayan dərnək üzvlərinə məsləhətlər verməli və onları kino materialları ilə təmin etməlidirlər.

Rəhbər kinonun texnikası, kompozisiya ilə, hərəkət edən obyektlərin şəklini çəkmək şərtləri və üsulları, bina daxilində təsvirlərin çəkilməsi və s. haqqında kino həvəskarlarına geniş məlumat verilməli və onlarla əməli iş aparmalıdır.



Həvəskarlar tərəfindən çəkilən filmlər arasında müsabiqə keçirmək olar. Yaxşı çəkilmiş həvəskar filmlər qiümətləndirilməlidir.

Keçirilən bədii-kütləvi tədbirlərdə həvəskarlar tərəfindən çəkilmiş filmlərdən istifadə etmək olar.

İctimai qaydada əmək prosesində gənclərin vətənpərvərlik tərbiyəsi ilə əlaqədar həyata keçirdiyimiz müxtəlif rəngarəng tədbirlər onlarda xalqına, Vətəninə vicdanla xidmət etmək arzuları oyadır, onların bir şəxsiyyət kimi yetişməsində mühüm rol oynayır.

Tərbiyə işinə çox diqqət yetirmək, gənclərin, əmək və vətənpərvərlik ruhunda tərbiyə edilməsini günün başlıca vəzifəsi hesab etmək lazımdır.

Mədəniyyət müəssisələri gənclərlə bu vəzifəni həyata keçirmək üçün ideoloji vasitələrdən və incəsənət xəzinəsindən fəal istifadə etməlidir. Həmin işin müəyyən bir hissəsi kinonun üzərinə düşür.

İncəsənətin kütləvi, əhəmiyyətli formalarından biri olan kino hər bir gəncin yüksək ideyalara yiyələnməsində onun mənəvi dünyasının zənginləşməsində və vətənpərvərlik tərbiyəsində mühüm rol oynayır.

Bütün bunları nəzərə alaraq mədəniyyət müəssisələrində kino yaradıcılıq dərnəyinin təşkili lazımdır.

Kino yaradıcılığı dərnəyinin təşkili haqqında ətraflı elan verilməsi böyük əhəmiyyətə malikdir.

Kino həvəskarları dərnəkdə çox böyük yaradıcılıq işləri görürlər. Onların yaratdıqları filmlərdən kütləvi tədbirlərdə geniş istifadə edilməlidir. Belə filmlərdən səmərəli və düzgün istifadə etməklə keçirilən tədbirin keyfiyyətini qat-qat artırmış oluruq.

Kino həvəskarları yaratdıqları kino film ətrafında kütləvi işin təşkili və kino filmlərin nümayiş etdirilməsindən əvvəl tamaşaçılara mədəni xidmət göstərilməsində iştirak etməlidirlər.

Kinematoqrafiya kino sənətini fəal surətdə yayır. Kino müasir elm və texnikanın ən mürəkkəb məsələləri haqqında yüz minlərlə tamaşaçıya hamının başa düşə biləcəyi maraqlı,

elmi, inandırıcı bir şəkildə məlumat verir, alimlərin müvəffəqiyyətləri haqqında danışır, kənd təsərrüfatı və sənaye qabaqcıllarının təcrübəsini yayır.

Kino həvəskarları tərəfindən yaradılmış elmi-kütləvi filmlər istehsal texnikasının təbliğ etmək üçün mühüm bir vasitədir.

Mühazirələr zamanı müvafiq kino filmlərinin nümayiş etdirilməsi elmi-maarif təbliğatı sahəsində ən yaxşı formalardan biridir.

Kinonu mühazirə təbliğatı işi ilə əlaqələndirmək üçün müxtəlif vasitədən istifadə olunur. Mühazirəçinin vəzifəsi filmdə olan ən çətin və mürəkkəb məsələlər haqqında əlavə məlumat verməkdən və ya təkrar izahat verməkdən ibarətdir. Əvvəlcə mühazirə oxunur, sonra isə həmin mühazirənin əsas müddəalarını əks etdirən film nümayiş etdirilir. Kino mühazirəsi işində bu üsullardan geniş istifadə olunur.

Mühazirəçinin canlı sözü ilə kino filmlərinin nümayişi zamanı mühazirə daha müvəffəqiyyətlə keçir. Mühazirəçi mədəniyyət evi müdiri və kino mexaniki ilə birlikdə qısa metrajlı filmləri seçib hazırlayırlar. Mühazirənin müvafiq yerlərində mühazirəçinin göstərişi ilə həmin parçalar nümayiş etdirilir.

Kino həvəskarları tərəfindən yaradılmış filmlər elmin ən müxtəlif sahələri üzrə kino mühazirələri təşkili üçün geniş imkan verir.

Həvəskar kino festivalları mədəni-maarif işində mühüm yer tutur.

Kənd təsərrüfatının yüksəldilməsi məsələlərinə və qabaqcıl təcrübəyə, kənd təsərrüfatı elmi və texnikasının nailiyyətlərinə həsr edilmiş həvəskar kino festivalları keçirilməlidir.

Hər bir kino festivalına qabaqcadan yaxşı hazırlıq görmək, həvəskar filmləri seçmək, müsahibə və mühazirə hazırlamaq lazımdır.

Kino festivalının nə vaxt keçiriləcəyi barədə əhaliyə xəbər verilməlidir.



Mədəniyyət müəssisəsi binasının qarşısında və meydanlarda afişalar, plakatlar və s. vurulmalıdır. Müəssisənin foyesində kino festivalının mövzunu əks etdirən fotoşəkilləri vurulmalıdır. Mədəniyyət evləri mühazirəçilər dəvət edir və onlar film nümayiş etdirilməzdən əvvəl çıxış edirlər.

Filmin nümayiş etdirilməsi qurtardıqdan sonra onun müzakirəsi təşkil edilir və kino festivalının qarşıdakı günlərində göstəriləcək kino filmlərinin proqramı elan olunur.

Çəkilmiş həvəskar kinofilmlər kino dərnək üzvlərinin tam yaradıcılıq işləridir.

Kino festivalında qalib gələn həvəskar filmlər elan edilməlidir. Yaxşı olar ki, qalib çıxan film mükafatlansın. Bu kino dərnəyi üzvlərinin həvəsləndirilməsinə səbəb olar.

Qədim dövrdə yaşayan insanlar istək və arzularını əməli olaraq həyata keçirə bilməyirdirlər. O dövrün əfsanələr şəklində bizə gəlib çatan arzular, məsələn, «sehirli xalça» ilə çox yüksəklərə uçmaq və uzun bir məsafəni qısa müddətdə keçmək, «sehirli almazla» hər yeri görmək, «sehirli çubuqla» hər yeri eşitmək imkan xaricində idi. İnsanların əfsanəvi təsəvvürləri sonralar həqiqətə çevrilmiş adamlar təbiət sirlərini daha dərindən öyrənməyə və onları bəşəriyyətin xidmətinə verməyə başlamışlar. Nəhayət insanların xəyalında böyük maraq doğuran təbiət sirrlərinin ən mühümlərindən birini açmaq şərəfi A.S.Popova nəsib oldu. Radio cihazı 1895-ci il mayın 7-də A.S.Popov tərəfindən ixtira edilmişdir. Birinci dəfə radio verilişi A.S.Popov və onun köməkçisi Rıbkin tərəfindən 1896-cı ildə Peterburqda 250 metr məsafədən mörze əlifbası ilə verilmişdir.

Morze əlifbasını amerikalı Morze 1838-ci ildə icad etmişdir.

İlk rabitə xətti 1844-cü ildə Vaşinqton ilə Baltimor şəhəri arasında çəkilmiş dəmir məftildən ibarət idi.

Əhaliyə mühüm mədəni xidmət vasitələrindən biri elm və texnikanın müasir inkişafı şəraitində daha geniş yayılan radio və televiziyadır. Radio və televiziya kütləvi və təsirli ideya silahıdır. O, qəzet, kitab, kinematoqrafiya, başqa

təbliğat vasitələrinin bütün qiymətli xüsusiyyətlərini özündə cəmləşdirir. Radio verilişi və televiziya geniş auditoriyaya malikdir. O, nəinki operativ məlumat mənbəyidir. Həmçinin hərtərəfli maarif, təhsil və tərbiyənin ən effektli vasitəsi, mədəni istirahət vasitəsidir. Radio və televiziya insanların dünyanı dərk etmək imkanlarını son dərəcə artırmışdır.

Hazırda elektron KİV siyasi həyatda, elmdə, texnikada, vətəni müdafiə və başqa sahələrdə mühüm rol oynayır və oynamaqdadır. Radio-texnika yer kürəsinin istənilən hər hansı nöqtələri arasında teleqraf və telefon rabitəsi yaradır, canlı mənzərələri və şəkilləri uzaqlara verir, maşın və mexanizmləri uzaqdan idarə etməyə imkan yaradır. Radio-texnika xalq təsərrüfatında geniş tətbiq olunmaqla bərabər, ölkə müdafiəsi üçün də yararlı və dəyərli silahlar yaratmağa imkan verir.

1899-cu ildə radio verilişləri səslə verilmişdir.

1900-cu ildə A.S.Popov dünyada ilk radio rabitə xəttini qurmaqla Qoqland adası və Kotka şəhəri arasında 50 km-lik məsafədə müntəzəm olaraq teleqraf rabitəsi yaratmışdır. A.S.Popov kainatı dolduran elektromaqnit dalğalarını bəşəriyyətə xidmət etməyə məcbur etmiş, müasir, kütləvi və yeni bir elmin əsasını qoymuşdur. Sonralar Popov və onun işləri nəinki ayrı-ayrı elmi cəmiyyətlərin diqqətini cəlb etdi, hətta bütün cəmiyyət radio ilə məşğul olmağa başladı və onu himayə etdi.

Radio elminin və radio sənayesinin sonrakı inkişafı tarixi bir sıra görkəmli alimlərin adı ilə bağlıdır. Alimlərin təşəbbüsü ilə bu sahədə tədqiqat institutunun təməli qoyulmuşdur.

İlk gündən başlayaraq radio ancaq bir məsələ üzərində dayanmışdır ki, bu da iki nöqtə arasında elektromaqnit dalğaları vasitəsilə rabitə yaratmaq məsələsidir. Əvvəllər bu rabitə şərti siqnallar vasitəsilə yeni morze işarələri ilə əmələ gətirilirdi. Bu işlərin nəticəsində radio teleqraf yaradıldı. Sonra isə radio haqqındakı biliklərimiz artdığı üçün iki nöqtə arasındakı rabitə şəklini dəyişdi, danışıq və musiqi verilişi mümkün oldu. Radio-rabitənin bu növünə radio-telefon adı



verilmişdir. Daha sonralar radio rabitənin əsas hissəsi olan radio dalğalarının ultra-qısa növünü mənimsəməklə şəkil vasitəsilə rabitə, yəni radio uzaqgörmə, televiziya yaradıldı.

Bütün radio-rabitə üsullarının həm nəzəri və həm də əməli cəhətlərini bir yerə toplamaqla radio-texnika elmi yaradılmışdır.

Hər hansı radio-rabitə əsasən üç hissədən ibarətdir:

1. Radio-rabitənin verilmiş hissəsi;
2. Radio-rabitənin qəbuledici hissəsi;
3. Radio-rabitənin verilmiş hissəsi ilə radio qəbuledici hissə arasında rabitə yaradan dalğalar.

Bu proses aşağıdakı qaydada aparılır:

Birinci hissədə, səs rəqsləri daxil olur. İkinci hissədə, səs rəqsləri elektrik rəqslərinə çevrilir, üçüncü hissədə isə elektrik rəqsləri yüksək tezlikli maqnit rəqslərinə, dördüncü hissədə isə maqnit rəqsləri elektromaqnit dalğalarına çevrilir. Beləliklə, bir məntəqədən başqa məntəqəyə verilməsi tələb olunan səs rəqsləri nəticə etibarilə elektromaqnit dalğalarına çevrilir və atmosferdə yayılır.

Qəbuledici hissə veriliş hissəsinin ardıcıllığının əksidir. Yəni elektromaqnit dalğaları, yüksək tezlikli maqnit rəqslərinə, maqnit rəqsləri isə elektrik rəqslərinə, onlar da səs rəqslərinə çevrilir.

Radio-rabitənin üçüncü hissəsini radio-dalğaları sahəsi təşkil edir. Radio verilişləri, radio dalğalarının uzunluğundan və tezliyindən asılıdır. Radio dalğalarının uzunluğunu dəyişməklə, yeni-yeni radio verilişləri növləri yaradılmışdır.

Televiziya-tele görmə, yəni uzaq görmə deməkdir. Televiziya müasir radio-texnikanın ən maraqlı müvəffəqiyyətlərindən biridir. Birinci uzaq görmə sistemi 1907-ci ildə professor Rozinq tərəfindən təklif edilmişdir. Sonra isə uzaq görmə sisteminin verici və istərsə də qəbuledici quruluşlarının mükəmmələşdirilməsində radio-texnika mütəxəssislərinin rolu yüksək olmuşdur.

Radio ilə televiziya demək olar ki, quruluş etibarilə eynidir. Ancaq burada səs enerjisi ilə birlikdə işıq enerjisi də nəzərə alınmalıdır. Televiziya verilişlərinin ən maraqlı prosesi

şəklin işığa və əksinə, işığın şəklə çevrilməsi hadisəsidir. Televiziyada təsvirlərin elementlərinin ardıcıl verilməsi prinsipi qəbul edilmişdir. Bu prinsipi 1878-ci ildə Portuqaliya alimi A.Payva, 1880-ci ildə rus alimi P.İ.Baxmetyev bir-birindən xəbərsiz təklif etmişlər.

Veriliş məntəqəsində təsvirin elementləri ardıcıl elektrik siqnalına çevrilir, sonra siqnallar rabitə materiallarının vasitəsilə qəbul məntəqəsinə ötürülür və burada elektrik siqnalları yenidən təsvirlərə çevrilir. Səs enerjisini elektrik rəqslərinə çevirən mikrafon olduğu kimi işıq enerjisini də elektrik rəqslərinə çevirən bir cihaz vardır. Bu cihaz 1888-ci ildə professor A.Stoletovun kəşf etdiyi fotoelektrik hadisəsinə əsaslanmış fotoelementidir. Fotoelementin üzərinə işıq düşən zaman işləyir, işıq düşmədiyi zamanlar isə cərəyansız qalır. Ona görə də foto element işıq mikrafonu vəzifəsini görə bilər. Televiziyada verilişlər bir saniyə ərzində 25 kadr tezliyi ilə verilir. Televiziya verilişlərində bir tam kadrın açılış sətirləri vasitəsilə televiziya ekranında yaradılan şəklə televiziya rastrı deyilir. Televiziya verilişlərində televiziya rastrı düzbucaqlı formada olur. Kadr formatı eninin hündürlüyünə, yəni 3 - 4-ə nisbəti kimidir.

Televiziya verilişləri kütləvi informasiya, təbliğat, tərbiyə, maarif, elm, texnika yenilikləri haqqında, həmçinin əhalinin mədəni istirahətini təşkil etmək vasitəsidir.

1936-cı il İngiltərədə televiziya verilişi yaranmışdır.

1939-cu ildə Rusiyada Moskva və Leninqradda müntəzəm televiziya verilişlərinə başlamışlar. II Cahan muharibəsi illərində televiziya verilişləri dayandırılmışdır.

1945-ci ildə yenidən Rusiya televiziya verilişlərinə başlamışdır.

1948-ci ildə Rusiya xarici televiziya verilişlərinin baxışına başlamışdır.

1951-ci ildə Moskvada, telestudiya, 1954-cü ildə onun şöbələri yaradılmışdır.

1954-cü ildə Moskvanın rəngli tele-verilişlərinə başlamışlar.



1956-cı ildə Moskvada ikinci proqram istifadəyə verilmişdir.

1957-ci ildə radio verilişləri və telekomitə yaradılmışdır.

1941-ci ildə ABŞ - da televiziya yaranmışdır.

Bakıda 1956-cı ildə fevralın 14-də televiziya, 1971-ci ildə rəngli televiziya yaranmışdır.

Radio - təbliğat-təşviqat işində və əhalinin mədəni istirahətinin təşkilində təsirli vasitələrdən biridir. Hər bir mədəniyyət müəssisəsinin radioqəbuledici və radio verilişi məntəqəsi olmalıdır. Buna görə də hər şeydən əvvəl radio cihazını öyrənmək, ondan istifadə etməyi bacarmaq lazımdır.

Hər bir mədəniyyət müəssisəsində televiziya cihazının olması məsləhətdir. Birinci növbədə «Son xəbərlərin», «Beynəlxalq xülasələrin» adamların əmək igidliyi, yenilik uğrunda mübarizə, yüksək məhsul uğrunda mübarizə, nailiyyətlər haqqında xəbərlərə kollektiv baxış təşkil etmək lazımdır.

Əhalinin radio texnikasına olan marağını nəzərə alaraq mədəniyyət müəssisələrində radio texnikası dərnəyini təşkil etmək məqsədəmüvafiqdir. Dərnəklərin rəhbərləri fizika müəllimləri, rabitə işçilərindən seçilməlidir.

Mədəniyyət müəssisələri radio dərnəyi yaradılması haqqında geniş elan verir, radio həvəskarlarını siyahiyə alır, ilk məşğələlər üçün lazımi materiallar və alətlər hazırlayır.

Radio dərnəklərinə bütün arzu edənlər qəbul olunur. 10-15 nəfərdən ibarət çox da böyük olmayan dərnəklərin işi səmərəli və müvəffəqiyyətli olur. Dərnək üzvlərinin ümumi təhsili təqribən eyni səviyyədə olmalıdır.

İlk məşğələdə dərnəyin rəhbəri dərnək üzvlərini proqram və məşğələlərin keçirilməsi ilə tanış edir. Təşkilat yığıncağında dərnəyin bürosu seçilir. Büro hər məşğələ üçün ədəbiyyat, əyani vasitələr, alətlər hazırlayır, dərnək üzvləri arasında intizama nəzarət edir, onların dərsə davam etməsinin uçotunu aparır.

Radio dərnəyinin üzvləri radio texnikasına yaxşı bələd olmadıqda məşğələlər radio qəbuledicilərin öyrənilməsi və

hazırlanması üzrə radio dərnəklərinin proqramı əsasında təşkil edilir.

Radio dərnəklərində radio verilişinin və radio qəbulunun prinsipləri, habelə radioqəbuledicisinin quruluşu, hazırlanması və işə salınması qaydaları öyrənilir. Dərnəyin hər bir üzvü radio qəbuledicini öyrənməli, qəbulediciləri müstəqil surətdə hazırlamağı və qurmağı bacarmalıdır.

Radio dərnəyinin məşğələləri üçün bir neçə alət: vintaçanlar, itiağızlı kəlbətinlər, yastıağız kəlbətinlər və qalaylayıcı olmalıdır.

Radioqəbulediciləri öyrənən və quran radio dərnəklərinin proqramı təqribən 25 dərs saatı həcmində olub 12 mövzudan ibarətdir:

Proqrama aşağıdakı mövzular daxildir:

1. Radionun tarixi və əhəmiyyəti – 2 saat;
2. Radioverilişi necə təşkil edilir – 2 saat;
3. Radio qəbulu necə təşkil edilir – 2 saat;
4. Radio qəbuledici necə işləyir – 2 saat;
5. Avtomat induksiya makarası – 3 saat;
6. Kondensatorlar – 1 saat;
7. Qəbuledicilərin quraşdırılması – 4 saat;
8. Antenna və torpaq xətti – 2 saat;
9. Padioverilişi xətti – 2 saat;
10. Radio cihazından istifadə qaydası – 2 saat;
11. Gələcək işin perspektivləri – 2 saat;
12. Vətənimizdə radio texnikasının müvafiq nailiyyətləri - 1 saat;

Radio dərnəyində adətən həftədə bir-iki dəfə, dərnək üzvlərinin özləri tərəfindən müəyyən edilmiş günlərdə, iki-üç saat məşğələ keçirilir. Bundan əlavə dərnək üzvləri evdə əməli işlərlə məşğul olurlar. Dərnəyin rəhbəri hər məşğələnin axırında evə tapşırıq verir.

Növbəti məşğələlərdə iştirak edə bilməmiş, habelə geridə qalan dərnək üzvləri üçün dərnəyin rəhbəri və ya onun tapşırığı ilə dərnəyin daha hazırlıqlı üzvü əlavə məşğələlər təşkil etməlidir.



Proqramdakı materialların öyrənilməsi qurtardıqdan sonra iki-üç saat yekun məşğələsi keçirilir. Həmin məşğələdə dərnəyin işinə yekun vurulur. Nəzəri biliklərin və əməli vərdişlərin necə mənimsənildiyi yoxlanır. Dərnəyin müdavimlərinin biliyinə qiymət verilir.

Məşğələlərin gedişində dərnək üzvləri iki-üç qəbuledici düzəltməli, əyani vasitələr - radio cihazlarının hissələrindən ibarət sxem hazırlamalıdırlar. Həmin tapşırıqları yerinə yetirmək üçün dərnəyin üzvləri bir neçə qrupa ayrılır. Qəbuledicilər düzəltmək işi proqramdan kənar saatlarda aparılır və qismən ev tapşırığı kimi yerinə yetirilir.

Elektrik enerjisi ilə işləyən qəbuledicilərlə uzaq məsafələrdə olan radio stansiyalarının verilişini qəbul etmək olur. Lakin həmin qəbuledicilərin işi elektrik enerjisi ilə qidalanmaq vasitələrinə görə aşağıdakı növlərə bölünür:

- batareyalı cihazlar;
- elektrik şəbəkəsindən qida alan şəbəkə cihazları;
- qidanı elektrik şəbəkəsindən və ya batareyadan alan universal cihazlar.

Qəbuledicini səliqəli saxlamaq və ona diqqətlə qulluq etmək lazımdır.

Qəbuledici lazımınca köklənməsə, veriliş təhrif olunacaq, xırıltılı səslər eşidiləcəkdir.

Qəbuledicinin səsinin çox uca olması verilişin keyfiyyətini olduqca pisləşdirir.

Qəbuledicinin bütün gücü ilə səslənməsinə və səs ucalığı tənzimçisinin axıra qədər burulmasına çalışmaq lazım deyildir. Tənzimçini elə burmaq lazımdır ki, səs normal eşidilə bilsin və o, adama xoş gəlsin.

Nəzərə almaq lazımdır ki, uzaq məsafələrdəki stansiyaları axşam və gecə, payızda və qışda yaxşı eşitmək olar. Qış axşamlarında və ya yağışlı payız axşamlarında veriliş daha yaxşı eşidilir. Yayda, isti quru havalarda uzaq məsafələrdəki stansiyaları yaxşı eşitmək olmur.

Radio qəbulu qurtardıqdan sonra qəbuledicini söndürmək lazımdır.

Qəbuledicini daimi cərəyan şəbəkəsi ilə birləşdirmək olmaz.

Qəbuledici 220 volt gərginliyi olan şəbəkədən qidalanırsa, onu gərginlik çox azalmış olduqda 127 volt gərginliyi olan şəbəkə ilə birləşdirmək olmaz.

Elektrik şəbəkəsindən qidalanan qəbulediciləri nəzarətsiz buraxmayın.

Qaz kəmərindən torpaq xətti kimi istifadə etmək olmaz.

Fotoaparatın yaradılma ideyası ilk dəfə XIII əsrdə meydana gəlmişdir. Həmin ideyanın müəllifi görkəmli fizik Bekon Roççer olmuşdur. Bundan iki əsr sonra Leon Battista, XVI əsrdə isə Leonardo da Vinçi və italiyalı fizik Covanni Battist Della Porta Bekon Roççerin ideyasının praktik tətbiqi üzərində işləmiş və obskur kamerası adlı fotoaparatlar düzəldərək cisimlərin optik təsvirini almağa müvəffəq olmuşlar. Optik təsvirin lövhə üzərində həkk edilə bilməsi üçün, lövhənin özü şüaya qarşı həssas olmalı idi. Bu, XVI əsrin axırlarında yaşamış kimya alimi Fabritsiusu maraqlandırdı. O, bu sahədə apardığı xeyli axtarışlardan sonra günəş şüasının təsiri ilə gümüş – xloridin qaraldığını müəyyən etdi. Doğrudur, bundan təxminən 100 il sonra kimyaçı alim Boyl da qızıl duzunun günəş şüasına qarşı həssas olması barədə məlumat vermişdi. Lakin fotoqrafiyanın sonrakı inkişaf tarixi Fabritsiusun ixtirasının daha qiymətli olduğunu sübut etdi.

Bundan sonrakı dövrdə də bir çox kimyaçılar, rəssamlar, fiziklər kimyəvi maddələr vasitəsi ilə müxtəlif yazılar almışlar, işığa həssas olan maddələr həm nəzəri, həm də təcrübi cəhətdən aşkar edilmiş oldu. Bizə fotoqrafiyanın növü kimi görünən rəngli fotoşəkil məsələsi də alimlərin diqqətini çoxdan cəlb etmişdir. Hələ XIX əsrin əvvəllərində ingilis fiziki və astronomu Con Herşel spektral işığa qarşı həssas olan kimyəvi maddələr qatı üzərində rəngli fotoyazılar almışdır. O, yalnız bənövşəyi və qırmızı rənglərdən başqa bütün rənglərin fotoəksini ala bilmişdir.



1810-cu ildə alman alimi Tomas Zeyebek Herşelin ixtirasını öz laboratoriyasında təkmilləşdirərək işığa həssas olan kimyəvi maddələr qatı üzərində bənövşəyi və qırmızı rəngləri də almağa müvəffəq olmuşdur. Lakin belə qiymətli ixtira ağ və qara fotoyazıları bərkidən kimyəvi məhlulların kəşf edilməməsi üzündən tezliklə itib getmişdir.

Əvvəlki ixtiralardan fərqli olaraq 1816-cı ildə Fransada Nyeps qardaşları - Jozef və Klod adi kağızı gümüş xlorid məhlulunda islatmaqla işığa həssas olan fotokağız hazırlamış və belə fotokağızlar üzərində obskur kamerası aparatı vasitəsilə fotoşəkil çəkməyə müvəffəq olmuşlar. Nyeps qardaşları həmçinin dünyada birinci olaraq fototəsviri bərkitmək üsulunu kəşf etmişlər.

Bundan az sonra Jozef Nyeps bitumun şüanın təsiri ilə bərkiməsini aşkara çıxarmış və bununla da fotoaparatla helioqravüra çəkmək üsulunu kəşf etmişdir. Jozefin helioqravüra almaq üsulu çox sadə idi. Fotoaparatın obyektlərindən düşən şüanın təsirilə bitum bərkliyi üçün onu lavanda yağı ilə yuduqda üzərində təsvirin klişəsi alınırdı.

Bəzi rəssamlar Jozef Nyepsin bu ixtirasının əleyhinə çıxaraq, onu rəssamlığı mexanikləşdirmək, rəssamlığa zidd əməl kimi qiymətləndirirlər. İxtiraya bu cür münasibət Jozef Nyepsi az qala ruhdan salır. Lakin qardaşı Klodu görmək üçün Londona gedərkən Parisdə təsadüfən rəssam Lemert ilə görüşür. Jozef ondan o zamanın məşhur rəssamı Lui-Jak-Dagerrin ixtiraya necə münasibət bəslədiyini soruşur. Lemert Jozefə bildirir ki, Dagerr onun ixtirasını yüksək qiymətləndirir, o, obyektivlə lövhəni bərabər surətdə işıqlandırma texnikasının Dagerr tərəfindən həll edildiyini də Jozefə xəbər verir. Bundan sonra Jozef Parisə qayıdır və ixtiranı davam etdirmək məqsədi ilə optik Şevalyenin emalatxanasında axromatik obyektiv və periskopik linzalar düzəltdirir.

1829-cu ildə Jozef bu obyektivlə üzərinə gümüş-xlorid çəkilmiş şüşə lövhədə ilk dəfə fototəsvir almağa müvəffəq oldu. Onun bu ixtirası müasir fotoqrafiyaya çox yaxın idi.

Jozef öldükdən sonra Dagerr ixtira üzərində tək işləmişdir.

1839-cu ilin yanvarında Fransa Elmlər Akademiyasının elmi şurası Lui-Jak-Dagerrin həmin ixtirasını yüksək qiymətləndirmiş və ixtiranı Fransa Deputatlar Palatasının müzakirəsinə verməyi qərara almışdır. Fransa Deputatları Palatası 1839-cu ilin avqustunda ixtiranı müzakirə edərək bəyənir və Dagerrin şərəfinə onu «Dagerrotipiya» adı ilə elan edir.

Fotoqrafiya elmin, texnikanın və istehsalatın bir çox sahələrinin öyrənilməsində insanlara böyük köməklik göstərir. Hətta elə sahələr vardır ki, onların öyrənilməsi bilavasitə fotoqrafiya ilə bağlıdır. Məsələn, astronomiyanın və ya kosmik fəzanın ətraflı öyrənilməsini fotoqrafiyasız heç cür təsəvvür etmək olmur.

Fotoqrafiya yalnız texniki vasitə olması ilə deyil, həm də təsviri incəsənətin təbliğatçısı və onun yeni forması kimi insanların rəğbətini qazanmışdır.

Fotoqrafiya insanların mədəni istirahətində də mühüm rol oynayır. O, təbiət hadisələrini daha dərindən dərk etməyə, həyatın gözəlliyini daha yaxından duymağa geniş imkanlar açır, insanların estetik hisslərini qidalandırır. Təhsilindən, sənətindən və yaşından asılı olmayaraq fotoqrafiya hamını əyləndirir. Öz körpəsinin sevindirici baxışlarının, onun müxtəlif mimikalarının hətta şıltaqlıq anlarının fototəsvirini qoruyub saxlamaq həm ata və ana, həm də övladın özünə çox gözəl yadigar olur.

Çəkilmiş fotoşəkillər öz bədii keyfiyyətindən asılı olmayaraq uzun illər yaşayır və zaman keçdikcə onlar nəinki daha doğma və əziz olur, hətta onlardan bəziləri misli görünməmiş qiymət kəsb edən tarixi sənədə çevrilir.

Hazırda fotoqrafiya elm və texnikanın demək olar ki, bütün sahələrində, o cümlədən, təbabətdə, metallurgiyada, hərbi işlərdə, geoloji kəşfiyyat işlərində, atomların tədqiqində, mətbuatda, kinoda, televiziyada və s. yerlərdə geniş tətbiq edilir.



Təsviri sənət kimi qiymətləndirilən fotoşəkillər yüksək bədii keyfiyyətə malik olmalıdır.

Fotoqrafiya əsasən üç istiqamətdə inkişaf etməkdədir. Bunlardan birincisi jurnalistikaya aid olub, gündəlik qəzet və jurnallarda nəşr edilən fotoşəkillər, ikincisi sərgilərdə nümayiş etdirilən kitablar və bədii fotoalbomlarda nümayiş etdirilən bədii fotoşəkillər, üçüncüsü isə məişət fotoşəkilləridir.

Obyektlərin təbii rənginə görə təsvirin kompozisiyasını qurmaq, onu kadr müstəvisi üzərində cazibədar və dolğun göstərmək rəssamlıqda işlədilən bir çox prinsiplərlə bilavasitə əlaqədardır. Həmin prinsiplərdən obyektə görə görünüş nöqtəsinin seçilməsi, istifadə edilməsi, kadr müstəvisi üzərində əsas obyektin düzgün,detalların bölünməz və düzgün mütənasibliklə yerləşdirilməsi, təsvirin miqyasının planlara görə düzgün təyin edilməsi və s. misal göstərmək olar.

Rəngli fotoşəkillər çəkdikdə fotoqraf fotoaparatın görünüş axtarıcısından baxanda obyektin kadr çərçivəsində necə görürsə, kağız üzərində də onun təsviri elə olduğu kimi alınır. Beləliklə də, rəngli fotoşəkillərin kompozisiyasını qurarkən yuxarıda adları çəkilən prinsiplərlə yanaşı, koloritlik prinsipinə də əməl etmək lazım gəlir.

Koloritdən rəssamlıqda yalnız əlaqədar olan münasibətləri tamamlamaq, psixoloji deyil, həm də əsərin ideya məzmunun, psixoloji əhval-ruhiyyənin və surətlərin daxili xarakterinin açılmasında bir vasitə kimi istifadə olunur. Beləliklə, kolorit, rəsm əsərlərinin emosional təsirini müstəsna dərəcədə artırdığı kimi, fotoqrafiyanın qüdrətini də artırmış, onu yüksək emosional qüvvəyə malik təsviri incəsənət kimi yüksəltmişdir.

Rəssamlıqda olduğu kimi, fotoqrafiyada kompozisiya hazır şəkildə tapılır. Fotoqrafiya da gerçəkliyi sənətin süzgəcindən keçirərək ümumiləşdirir, onda mənalı keyfiyyətlər tapmağa çalışır. Məsələn,təbii mənzərələr öz gözəlliyinə görə nə qədər cazibədar görünsə də onun fotoşəkilini yaradıcılıq axtarışları aparmadan çəksək, həmin mənzərələr fotoşəkildə təbii formasında olduğu qədər cazibədar görünməyəcəkdir.

Yaradıcılıq axtarışları aparıb, təsviri qaydalardan bacarıqla istifadə etdikdə isə hətta təbii formasında nəzəri cəlb etməyən mənzərənin də çox gözəl və cazibədar fotoşəkilini çəkmək olar.

Rəssam tablonu tamamlamaq üçün bir çox keyfiyyətlər icad edir, yəni kadrı ağırlaşdıra bilən detalları götürür, obyektlərin yerini dəyişir, əlavələr edir, ideya və məzmun kompozisiyasım tamamlayır.

Fotoqraf isə belə yaradıcılıq imkanına malik deyildir. O, fotokompozisiyanı qurmaq üçün bütün yaradıcılıq imkanlarını obyektin üzərində axtarır.

Fotoqrafiya «işığı yazıram» deməkdir. İlk meydana çıxan foto işi ilə rəssamlar məşğul olmuşlar, XVIII əsrin 50-90-cı illərində fototexnikanın aşağı səviyyədə olmasına baxmayaraq rəssam fotoqraflar gözəl bədii xüsusiyyətlərə malik olan foto əsərləri yaratmışlar. Öz rəsm əsərləri ilə bütün dünyada məhşur olan Denyer, Oktavıus Xill və başqa rəssam - fotoqraflar fotoişindən istifadə etməklə gözəl əsərlər yaratmışlar. Rus rəssamı A.O.Karelin Rəssamlıq Akademiyasını qurtardıqdan sonra fotoqrafiya ilə məşğul olmuş və fotoqrafiyanı ömrünün sonuna kimi peşə seçmişdir.

Fotoqrafiya insanın həyat və fəaliyyətinin əksini illər boyu saxlayır. Həyat dəyişir, insanlar qocalır və fəaliyyətini dayandırır. Yüz il əvvəl çəkilmiş foto şəkil isə sirri olduğu kimi saxlayır. Buna görə də çəkilmiş foto şəkil, onun bədii və texniki keyfiyyətlərindən asılı olmayaraq çox qiymətli olur.

Fotoqrafiya elmin bütün sahələrində insanlara kömək edir.

1861-ci ildə İnqiltərə mütəxəssisi Maksel rəngli foto şəkillər əldə etmişdir. Rəngli fotoqrafiyanın ixtiraçılarından biri də fransalı Babrilya Linman olmuşdur.

Moskvalı Usıqinin o zaman Lipmanın üsuli ilə çəkdiyi foto nailiyyət kimi saxlanılır.

Rəngli fotoqrafiya üçün buraxılan lentlərin emulsiyası üç təbəqədən ibarətdir. Bu təbəqələrin hər biri bir rəngə həssasdır. Birini təbəqənin emulsiyası göy rəngə, ikinci



təbəqənin emulsiyası göy və yaşıl rəngə, üçüncü təbəqə isə göy və qırmızı işıqda həssas olur.

Günəş işığında foto şəkillər üçün buraxılan neqativ materialları DJ, elektrik işığında fotoşəkillər çəkmək üçün buraxılan neqativ materiallarına LN işarəsi qoyulur.

1964-ci ildən Almaniyada rəngli fotoqrafiya materialları «Orvakolor» markası ilə buraxılardı. Günəş işığında çəkmək üçün lentlər «Orvakolor UT», elektrik işığında çəkmək üçün lentlər isə «Orvakolor UK» adlanırdı.

1966-cı ildən etibarən daha keyfiyyətli «Orvakolor İS-16» markalı rəngli neqativ materialları buraxılmağa başlanmışdır.

Müxtəlif formatlarda olub, müxtəlif işıq həssaslığa malik olan rəngli foto kağızlar vardır.

Rəngli foto kağızlar iki qrupa bölünür.1-ci, DS-2, DS-3, DS-4, LN-2, LN-3, LN-4 rəngli neqativlərdən alınmış şəkilləri çap etmək üçün F-1, F-2, F-3 markalı rənglifoto kağızlar hazırlanır. 2-ci, DS-5, LN-5 neqativlərdən çap etmək üçün F-4 markalı foto kağızlar istehsal olunur.

Rəngli foto kağızların saxlama müddəti 14 aydır. Çox soyuq havada saxlamaq olmaz. Rütubətdən, nəmişlikdən və çox istidən qorumaq lazımdır.

Foto işinin müasir texnikası çox sadədir və onu hər kəs mənimsəyə bilər. Lakin yeni başlayan foto həvəskarlarının qarşısına şəkil çəkmək, onu aydınlaşdırmaq və çap etmək cəhətdən bir sıra suallar çıxır. Mədəniyyət müəssisələri foto həvəskarlarına kömək etməlidir. Foto dərnəyi təşkilat işinə başladıqda, hər şeydən əvvəl foto işi ilə məşğul olmağı arzu edənləri aşkara çıxarmaq, onların hansı foto aparatlarına və avadanlığa malik olduqlarını öyrənmək, fizika müəllimlərindən, peşəkar fotomütəxəssislərindən dərnəyə rəhbərlik işinə cəlb etmək lazımdır.

*Dərnəyin ilk təşkilat yığıncağında məşğələlərin planını,* foto laboratoriyasının sahmana salınması, avadanlıq və foto materialları əldə edilməsi məsələlərini müzakirə etmək, dərnək şurası seçmək lazımdır.

Foto həvəskarları sonrakı yığıncaqlarda gələcək ayda çəkiləcək şəkillərin planını nəzərdən keçirir, divar qəzetinin buraxılmasında, sərgi hazırlanmasında, kütləvi tədbirlərin həyata keçirilməsində və s. dərnəyin iştirak etməsi məsələlərini müzakirə edirlər.

Dərnəyin tərkibində fotoqrafiya texnikası ilə yaxşı tanış olmayan adamlarla yanaşı foto şəkilləri çəkmək sahəsində təcrübəsi olan adamlar da ola bilər. Buna görə də foto həvəskarları üçün iki qrup yaradılmalıdır. Bunlardan birində yeni başlayanlar, o birində isə daha hazırlıqlı foto həvəskarları məşğul olmalıdır.

Foto dərnəyinin fəaliyyətinin genişləndirilməsi mədəniyyət müəssisələrinin üzərinə düşür.

Foto dərnəyinin işi onun iştirakçılarının təşəbbüsü və fəallığı əsasında qurulur. Onlar qüvvələri ilə foto laboratoriyanı sahmana salır, foto materialları və kimyəvi dərmanlar əldə edilməsi qayğısına qalırlar.

Mədəniyyət evlərində təşkil edilmiş foto dərnəklərin işi yaxşı qurulmalıdır. Burada dərnəklərin ilk təşkilat yığıncaqları keçirilir. Yığıncaqlarda məşğələlərin planları, foto materiallarının əldə edilməsi məsələsi müzakirə olunur.

Foto həvəskarları dərnək məşğələlərində fəal iştirak etməklə bərabər, çəkiləcək şəkillər planının nəzərdən keçirilməsində, divar qəzetinin buraxılmasında, sərgilərin hazırlanmasında və s.bir sıra kütləvi tədbirlərdə sura üzvlərinə yaxından kömək edirlər. Bundan başqa onlar laboratoriyanı sahmana salır, fotomaterialları və kimyəvi dərmanların əldə edilməsi qayğısına qalırlar.

Mədəniyyət evində foto laboratoriya üçün ayrıca bir və ya iki otaq ayrılmalıdır.Otaq normal temperaturada saxlanılır.

Laboratoriyada foto aparatlar, üçayaqlı ştativ,qırmızı fənərlər, foto lentlər, kimyəvi məhlullar,vannalar, qablar, söyüdücü aparatlar, şəklin surətini çıxarmaq üçün çərçivə, məhlullar üçün müxtəlif ölçülü şüşə qablar, ələk, xalat və s. foto işinə aid avadanlıqlar olmalıdır.



İstehsalatdan ayrılmamaq şərtilə dərnəkdə məşğələlər həftədə 2 saat olmaqla ayda 4 dəfə keçirilir.

Məşğələlər müsahibə yolu ilə aparılır. Dərnəkdə məşğələlər canlı və maraqlı keçməlidir.

Dərnək rəhbəri məşğələlərdə istifadə edilən ayrı-ayrı aparatların xüsusiyyətlərini, quruluşunu dərnək üzvlərinə başa salıb və aydınlaşdırmalıdır.

Dərnək üzvləri müxtəlif şəkillərin, divar qəzetlərinin, foto albomlarının, foto sərqilərinin və montajların hazırlanmasında, mədəniyyət evlərinə, kitabxanalara, muzeylərə və kitabxana işçilərinə yaxından kömək etməlidirlər.

Mədəniyyət evində foto həvəskarlarının bədii yaradıcılığına həsr edilmiş sərgi təşkil edilməsi məsləhətdir. Foto sərgisində şəkillər müəlliflərinə görə qruplarda yerləşdirilməlidir.

Foto laboratoriyanın yaxşı təşkili foto dərnəyinin müvəffəqiyyətlə işləməsi üçün böyük əhəmiyyətə malikdir.

Yaxşı olar ki, foto laboratoriya üçün ayrıca bir rütubətsiz otaq ayrılsın. Bu otağın havası həm qışda, həm də yayda normal otaq temperaturasında olmalıdır. Laboratoriyanın qapı və pəncərəsi kip ortülməlidir. Dərnək məşğələləri üçün foto laboratoriyasında stol və stul, divar rəfi, foto materiallarını, neqativləri və müxtəlif avadanlığı saxlamaq üçün şkaf olmalıdır.

Foto dərnəyində işlədilən materialların düzgün üçotu aparılmalıdır. Bunun üçün foto materiallarının alınması və işlədilməsinə məxsus kitabça və fotolaboratoriyada növbətçilərə məxsus jurnal olmalıdır.

Foto laboratoriya üçün nümunəvi daxili qaydalar vardır:

1. Laboratoriyada yalnız foto dərnəyinin üzvləri işləyə bilərlər;
2. Laboratoriya axşam saat 5-dən sonra işləməlidir. Dərnək üzvləri yalnız istirahət günlərində laboratoriyada gündüz vaxtı işləyə bilərlər;

3. Laboratoriyada işləyənlər aşağıdakılara əməl etməlidirlər:
a) Təmizliyi gözləməli, laboratoriyada papiros çəkməməli;
b) Hər bir vannaya yalnız özünə məxsus məhlulu tökməli, bunun üçün hər bir vannanın üzərində hansı məhlula məxsus olduğu yazılmalıdır;
c) İş qurtardıqdan sonra vannalar yaxşı yuyulmalı, işlər qurmaq üçün qurğunun üzərinə qoyulmalı və stolların üstü silinib təmizlənməlidir;
ç) Tərəzidən istifadə edən zaman kimyəvi dərmanları bilavasitə tərəzinin gözünə tökmək olmaz, bunun üçün tərəzinin gözünə bir vərəq kağız döşəmək, çəki daşlarını maşa ilə götürmək, dərmanları çəkib qurtardıqdan sonra tərəzinin gözlərini silmək lazımdır;
d) Laboratoriyadan axırıncı olaraq gedən dərnək üzvü döşəməni süpürməli, işıqları söndürməlidir.
4. Laboratoriyanın açarı onun müdirində və ya daha hazırlıqlı dərnək üzvləri içərisindən təyin edilən növbətçidə olmalıdır;
5. Növbətçinin vəzifələri aşağıdakılardan ibarətdir: Foto laboratoriyada qayda-qanuna və təmizliyə, həmin qaydaların dərnək üzvləri tərəfindən əməl olunmasına nəzarət etmək; yeni başlayan bütün dərnək üzvlərinə fotoqrafiya məsələləri haqqında məlumat vermək;
Kimyəvi dərmanlar və foto materialları vermək və bunları kitabçaya qeyd etmək.
6. Foto dərnək üzvləri divar qəzeti üçün şəkillər çəkməlidir. Şəkilləri çəkmək üçün bütün foto materiallar və cihazlar olmalıdır;
7. Dərnək üzvlərindən hər hansı biri daxili intizam qaydalarına əməl etməzsə, onun məsələsi dərnəyin ümumi yığıncağında müzakirə olunmalıdır.



## FOTO APARATIN QURULUŞU VƏ ONDAN İSTİFADƏ ETMƏK QAYDALARI.

Foto aparatın əsas vəzifələri bunlardır: a) Fokus məsafəsini təyin etmək; b) Diafraqmanın müəyyən olunması; v) Aydınlıq dərəcəsini təyin etmək və s. ibarətdir.

Yeni başlayanlar üçün fotoqrafiya məşğələlərinin proqramı əsasən aşağıdakılardan ibarətdir:

1-ci məşğələ.

Foto aparatlarla ümumi tanışlıq.

2-ci məşğələ.

Şəkil çəkmək üçün hazırlıq. Bromlu-gümüşlü emulsiya nədən ibarətdir? Foto aparata plyonka necə salınır və hərəkət etdirilir? Ekspozisiya necə müəyyən edilir. Foto eksponometrləri və onlardan istifadə etmək qaydaları.

3-cü məşğələ.

Foto şəklin çəkilməsi. Foto aparatının şəkil çəkmək üçün hazırlanması. Şəkil çəkmək üçün obyektin seçilməsi. Aparatın vəziyyəti. Şəklin çəkilməsi.

4-cü məşğələ.

Neqativ prosesi. Plyonkanı aydınlaşdırmaq üçün lazım olan şərait. Aydınlaşdırıcı və bərkidici məhlulların hazırlanması. Temperatur və vaxtın təyin edilməsi. Plyonkanın bərkidilməsi və yuyulması neqativin qurudulması qaydaları.

5-ci məşğələ.

Foto şəklin köçürülməsi prosesi. Aydınlaşdırılmış neqativin keyfiyyətinin müəyyən edilməsi. Foto kağızların növləri və onların istifadə olunması. Aydınlaşdırıcı və bərkidici məhlulların hazırlanması. Şəkli çap etmək üçün kontakt. Çap olunmuş şəklin yuyulması və quruldulması.

6-cı məşğələ.

Neqativdən şəklin böyüdülməsi. İlk şəkillərin və çapın nəticələrinin nəzərdən keçirilməsi. Böyüdücünün qurulması prinsipləri. Şəklin böyüdülməsində çap texnikası.

7-ci məşğələ.

Foto şəklin kompozisiyası. Kompozisiyanın adi əsasları. Bədii həqiqət və həqiqətə uyğunluq. Şəklin mövzu və məzmunu. Şəklin planını necə hazırlamalı.

8-ci məşğələ.

Hərəkət edən obyektləri necə çəkməli. Hərəkət edən obyektlərin şəklini çəkmək və üsulları. Hərəkət edən obyektlərin şəklini çəkən zaman ekspozisiyanın müəyyən edilməsində görmə bucağının əhəmiyyəti.

9-cu məşğələ.

Portret çəklişi. Fotoqrafiya portretinin quruluşu prinsipləri. Portretin xarakterinin əks olunmasında işıqlandırmanın təsiri.

10-cu məşğələ.

Bina daxilində şəkil çəkmək.

Gündüz işığında və süni işıqda bina daxilində şəkil çəkmək.

Foto şəkli çəkməkdən ötrü dərnək üzvləri üçün təşkil edilən ekskursiya təlim xarakteri daşımalıdır. Bu ekskursiyaların məqsədi naturadan şəkil çəkmək işi ilə üzvlərini tanış etməkdir. Divar qəzetində iştirak etmək dərnək işinin mühüm sahələrindən biridir. Foto dərnəyi divar qəzetinin redaksiya heyətinin təklifi və ya öz təşəbbüsü ilə qəzetin redaksiya heyətinə kömək etmək üçün bir, yaxud iki nəfər ən təcrübəli foto həvəskarı ayırır.

Divar qəzetinə təhkim edilmiş foto həvəskarı redaksiya heyətinin planı, yaxud hazır məqalələr və məktublarla tanış olur və bunlar üçün şəkil çəkilməsini təşkil edir.

Divar qəzetində foto şəkilləri əsasən ayrı-ayrı məqalələrə həsr olunursa, foto qəzetində bir sıra şəkillər verilir və bunlar bir-biri ilə əlaqələndirilərək ictimai-siyasi əhəmiyyəti olan müəyyən bir hadisə haqqında təsəvvür verir.

Mədəniyyət müəssisələrində foto həvəskarlarının bədii yaradıcılığına həsr edilmiş sərgi təşkil etmək olar.

Müvəffəqiyyətləri əks etdirən və ya nöqsanları aşkara çıxaran hər bir şəkil faktlara ciddi surətdə uyğun gələn inandırıcı bir sənəd olmalıdır.



Foto həvəskarları tərəfindən çəkilmiş bir çox şəkillər gələcək üçün qiymətli sənəd ola bilər.

Hər hansı bir foto aparatın aşağıdakı əsas hissələri vardır; obyektiv, diafraqma, görünüşaxtarıcı, optik məsafəölçən, çaxmaq, qurma mexanizmi, plyonkanı geri sarıma mexanizmi, məsafə şkalası, dəqiqlik dərinliyi şkalası və s.

**Obyektiv.**

Obyektiv fotoaparatın əsas hissələrindən biridir. Obyektiv dəqiq optik linzalarla təchiz edilir. Onun gözündə ən azı üç linza yerləşdirilir.

Obyektivin vəzifəsi fotoşəklini çəkmək istədiyiniz cismin və ya hansı obyektin təsvirini foto aparatın daxilində olan ekrana köçürməkdən ibarətdir.

Obyektivin işıq gücü və fokus məsafəsi obyektivin gözünün diametrindən və optik linzaların quruluşundan asılıdır.

Obyektivin fokus məsafəsi şərti olaraq "F" hərfi ilə işarə olunur. Fokus məsafələrinin müxtəlifliyinə görə müasir fotoobyektivləri üç qrupa ayırmaq olar:

- Kiçik fokus məsafələr (geniş bucaqlılar);
- Normal fokus məsafələr (normal bucaqlı);
- Böyük fokus məsafələr(teleobyektivlər).

**Diafraqma.**

Diafraqma fotoobyektivlərin əsas hissələrindən biridir. Diafraqma obyektivin linzaları arasında yerləşdirilmiş və bir-birinin üstünü örtən nazik təbəqələrdən ibarətdir.

Diafraqmanın əsasən vəzifəsi işıq şüalarının fotoaparatın daxilinə az və çox keçməsini tənzimləməkdən ibarətdir.

Diafraqmanın ikinci vəzifəsi fokus nöqtəsinin dəqiqlik dərinliyini artırmaqdan ibarətdir. Diafraqma obyektivin işıq yolunu kiçiltdikdə fokus nöqtəsinin dəqiqliyi də bir o qədər dərinləşir.

Diafraqmanın müəyyən edilməsi hava şəraitindən və ekran pərdəsinin açılıb bağlanma surətinin təyin edilməsindən asılıdır.

## Görünüş axtarıcı

Görünüşaxtarıcı fotoaparatın münasib hissəsində yerləşdirilir və fotoşəkli çəkiləcək hər hansı obyektə aparatı düzgün tuşlamaq və görünüş nöqtəsi seçmək işinə xidmət edir.

Görünüşaxtarıcı adətən fotoaparatın yuxarı hissəsində daimi olaraq yerləşdirilir.

Müasir fotoqrafiyada ən çox tətbiq olunan optik linzalı və güzgülü görünüşaxtarıcılardan ibarətdir.

## Optik məsafəölçən.

Fotoaparatın obyektivi ilə cismin arasında olan məsafəni ölçən optik linzalar sisteminə məsafəölçən deyilir.

Müasir fotoaparatlarda cisimlə obyektiv arasında olan məsafə başlıca olaraq məsafəölçənlə təyin edilir. Hər hansı fotoaparatda cismin, məsafəsindən asılı olaraq, onun fokus nöqtəsini təyin etmək üçün müəyyən bir vasilə varsa, ona məsafəölçən deyilə bilər. Çünki cisimlə obyektiv arasındakı məsafə ölçülmədən fokus nöqtəsi dəqiqləşdirilə bilməz.

Optik məsafəölçən əsas etibarı ilə iki formada olur. Birinci görünüşaxtarıcı optik linzalarla birləşdirilmiş forma, ikinci isə görünüşaxtarıcı ilə heç bir əlaqəsi olmayan optik məsafəölçən.

## Çaxmaq.

Çaxmağın işi fotoaparatın içərisində yerləşdirilmiş işığa həssas neqativ materialının üzərinə obyektivdən keçən işığın düşməsi müddətini tənzimləməkdən, yaxud da neqativ materialının işığa həssaslığından asılı olaraq qabaqcadan təyin edilmiş sürətlə ekran pərdəsini açıb bağlamaqdan ibarətdir.

Müasir fotoaparatların çaxmağı olduqca mürəkkəb, neqativ materialı üzərinə salınacaq işığın qabaqcadan təyin



olunmuş müddətini çox dəqiq yerinə yetirir. Çaxmaq başlığı üzərindəki şkalada təyin edilən müddət gözləmə vaxtı adlanır. Quruluşlarına görə çaxmaqların müxtəlif gözləmə vaxtları vardır.

## Qurma mexanizmi.

Qurma mexanizminin işi plyonkanın kadrları çəkildikdə onu hərəkət etdirib yenidən qurmaqdan ibarətdir. Müasir fotoaparatların çoxunda qurma mexanizmini hərəkət etdirmək üçün çaxmaqla dişli çarxı əlaqələndirən qoldan istifadə olunur.

Mərkəzi çaxmaqla işlədən fotoaparatlarda isə qurma mexanizmi yalnız plyonkanı hərəkət etdirmək işinə xidmət edir.

## Plyonkanı geri sarıma mexanizmi.

Fotoaparatın içərisində olan plyonkada bütün kadrlar çəkilib qurtardıqdan sonra plyonkanı yenə də əvvəlki bağlı kasetə sarımaq lazımdır. Məlum olduğu kimi plyonka üzərində fotoşəkillər çəkildikcə, çəkilmiş kadrlar dişli barabanlar vasitəsi ilə bağlı kasetə paralel olan açıq kasetə tərs üzü isə üstə sarınır. Bütün kadrlar çəkilib qurtardıqdan sonra kameranı açmadan geri sarıma mexanizmi ilə plyonka yenə əvvəlki kasetə sarınır. Yalnız bundan sonra kameranı açıb kaseti götürmək olar.

Plyonkanı geri sarımaq üçün əvvəlcə o barabanın dişlərindən azad edilməlidir. Bunun üçün çaxmağın dişlərindən azad edilməlidir. Bundan ötrü çaxmağın düyməsində və ya başqa bir münasib yerində olan açarı axıra qədər sağa fırlamaq, yaxud aşağıya basmaq lazımdır.

## Məsafə şkalası.

Fotoşəkli çəkilən cisimlə obyektiv arasındakı məsafəni təyin etmək üçün məsafə şkalasından istifadə edilir. Məsafə

şkalası obyektivin sağanağında yerləşdirilmişdir. Şkaladakı bölgülər və rəqəmlər cisimlə obyektiv arasındakı məsafəni bildirir.

Fotoşəklin, çəkmək istədiyimiz hər hansı bir obyektin fokus nöqtəsini məsafəölçən vasitəsi ilə tapdıqdan sonra məsafə şkalasına baxsaq obyektin fotoaparatdan hansı məsafədə olduğunu dəqiq təyin etmək olar.

**Dəqiqlik dərinliyi şkalası.**

Obyektivin sağanağında məsafə şkalası ilə üz-üzə bərkidilmiş dəqiqlik dərinliyi şkalası da vardır. Dəqiqlik dərinliyi şkalası diafraqma rəqəmləri əsasında fokus nöqtəsinin dəqiqlik dərinliyinin nə qədər məsafəni əhatə etməsini təyin etmək işinə xidmət edir.

**Fotoşəkil çəkməyin texnikası.**

Fotoşəkil çəkmək işində əsas amillərdən biri də şəkil çəkməyin texnikasını yaxşı bilməkdən ibarətdir. Buna görə fotoşəkil çəkməyin texnikası həvəskar fotoqrafları daha çox maraqlandırır.

Fotosu çəkiləcək cismin işığa həssas neqativ materialı üzərində təsvirin almaq üçün istər təbii, istərsə də süni işıqlanmadan istifadə edilir.

Hər hansı texniki, yaxud bədii fotoşəkillər çəkmək işində işıqlanma həlledici rol oynayır. İşıqlardan düzgün istifadə olunması fotoşəklin keyfiyyətli çıxmasına səbəb olur.

Vaxtından və yerindən asılı olaraq fotosu çəkilən obyektlər müxtəlif dərəcədə işıqlanır. İşıqlanma dərəcəsi o qədər müxtəlifdir ki, bu barədə konkret məsləhətlər vermək mümkün deyildir. Bacarıqlı fotoqraflar öz təcrübələri sayəsində işıqlardan istifadə etməyə o qədər adət edirlər ki, hər hansı hava şəraitində işıqlanma dərəcəsini müəyyənləşdirir və fotoşəkillər çəkərkən işıqlanmada olan çatışmazlığı asanlıqla aradan qaldırırlar.



Lakin fotoqrafiyanı yeni öyrənənlər bu işdə çətinlik çəkirlər. Buna görə də həvəskar fotoqraflara müxtəlif yerlərdə və müxtəlif cür işıqlanma şəraitində fotoşəkillər çəkmələri üçün az da olsa, həqiqətə yaxın olan məsləhətlər və göstərişlər verməyə çalışacağıq.

İstər günəş işığı, istərsə də süni işıqlar cismin üzərinə müxtəlif bucaq altında düşür. Ona görə də bir yerdən düşən işıq cismin yalnız bir tərəfini işıqlandıra bilər. Kölgə düşən tərəf qara alındığı üçün, həmin tərəfdə olan detallar qara tor içərisində itir və onu görmək mümkün olmur.

İşıqla kölgə arasında olan kontrastlılıq fərqini nisbətən azaltmaq lazım gəldikdə kölgə düşən tərəfdən günəşin əksinə hər hansı ağ pərdə tutub qünəşin şüasını kölgəolan sahəyə əks etdirməklə kölgəli sahəni nisbətən işıqlandırmaq olar.

Fotoşəkli çəkilən obyektin işıqlanma dərəcəsindən və neqativ materialının işığa həssaslığından asılı olaraq gözləmə vaxtı təyin olunur. Gözləmə vaxtının düzgün təyin edilməsi fotoşəkillər çəkmək texnikasının həlledici amillərindən biridir.

Şəkilin obyektinin işıqlanması əsas etibarı ilə coğrafi şəraitdən, ilin fəslindən, günün vaxtından, səhər, günorta və axşam olmasından, havanın neçəliyindən yəni günəşli, yarıbuludlu və ya tamamilə buludlu olmasından asılıdır.

Göründüyü kimi müxtəlif işıqların spektral şüalanması da müxtəlifdir. Gündüz seyrək buludlu havada spektral şüalanma göy, mavi, bənövşəyi, yaşıl, sarı, narıncı və qırmızı şüalar demək olar ki, bərabər olur. Günəşli açıq havada isə goy, mavi və bənövşəyi şüalanma artır. Bunun əksinə olaraq hər hansı süni işıqlanmada göy, mavi və bənövşəyi şüalar gündüz işığına nisbətən xeyli az olur, qırmızı şüalanma isə xeyli artır.

Gündüz işığında fotoşəkillər çəkərkən ilin fəsli, günün vaxtı və coğrafi şərait nəzərə alınmalıdır. Məlum olduğu kimi, yay aylarında günəş yer səthini qış aylarına nisbətən xeyli çox işıqlandırır. Günorta çağı, səhər və axşam çağına nisbətən daha işıqlı olur. Günəş şimal rayonlara nisbətən cənub rayonlarda yeri daha çox işıqlandırır. Bunlar gözləmə vaxtını həmişə bir qaydada saxlamağa imkan vermir. Digər tərəfdən

obyektivin işıq gücü və diafraqmanın təyin edilməsi də gözləmə vaxtının dəyişdirilməsinə səbəb olur. Məsələn, fotoşəkli çəkiləcək obyektin işıqlanmasından asılı olaraq diafraqmanın işıq yolunu böyük götürmək tələb olunursa, demək gözləmə vaxtı buna müvafiq olaraq dəyişdirilməlidir.

Beləliklə də, fotoşəkil çəkilən obyektin işıqlanmasından asılı olaraq həm diafraqmanın işıq yolunu kiçiltmək, həm də gözləmə vaxtını azaltmaq zərurəti meydana çıxır və ya əksinə.

Hərəkətdə olan cisimlərin fotoşəklini çəkərkən gözləmə vaxtının təyin edilməsi, cismin sürətindən asılıdır. Cismin sürəti nə qədər çox olarsa, gözləmə vaxtını da bir o qədər azaltmaq lazımdır.

Hərəkətdə olan cisimlə obyektiv arasındakı məsafə böyük olduqca, bucaqları dəyişdirmək mümkün olduğu üçün, gözləmə vaxtını sürətdən asılı olmayaraq xeyli çoxaltmaq mümkündür.

Məsələn, sürətlə hərəkət edən qatara yaxından baxdıqda onun daha sürətlə hərəkət etdiyi hiss olunur. Lakin qatar uzaqlaşdıqca fotoqrafla qatar arasındakı bucaq kiçilməyə başlayır. Həmin bucaq kiçildikcə, qatarın əvvəlki sürəti elə bil ki, azalır. Beləliklə, əgər qatar keçərkən ona düz baxdıqda gözləmə vaxtını 1/200 saniyə təyin etmək tələb olunursa, qatar uzaqlaşıb 45 dərəcəyə qədər bucaq altında göründükdə isə gözləmə vaxtını 1/100 saniyə və daha çox artırmaq olar.

Müasir fotoobyektivlərin işıq gücü və neqativ materialların işığa olduqca həssaslığa malik olması süni işıqda, yəni elektrik işığında fotoşəkillər çəkmək üçün əlverişli şərait yaradır. Demək lazımdır ki, hazırda süni işıqda şəkillər çəkmək həm sənətkar, həm də həvəskar fotoqraflar arasında geniş yayılmışdır.

Süni işıqda fotoşəkillər çəkməyin bir sıra üstün cəhətləri vardır. Məsələn, elektrik işığında şəkil çəkdikdə, gündüz işığı üçün vacib olan günün vaxtı, rayon, fəsil və hava şəraiti nəzərə alınmır. Digər tərəfdən, süni işıqda şəkil çəkmək üçün istifadə edilən işıqlanmanın dərəcəsini və spektral



tərkibini bir dəfə öyrənməklə işığa həssaslığı eyni olan neqativ materialı üçün sabit gözləmə vaxtı təyin etmək olar.

Fotoşəkillər çəkilişindən sonra plyonkanın aşkarlanması, neqativ prosesi adlanır. Fotoşəkil çəkilməsində olduğu kimi neqativ prosesində bir neçə hazırlıq işləri aparılır. Bunlar əsas etibarı ilə, neqativ prosesi üçün lazım olan aşkarlayıcı və bərkidici məhlulların, laboratoriya avadanlığının hazırlanmasından, su ilə təmin edilməsindən və sairədən ibarətdir.

Neqativ prosesində aşkarlayıcı və bərkidici məhlullardan, əlavə sudan da istifadə edilir. Bərkitmək prosesindən sonra neqativ boz, yaxud həddindən artıq qara ola bilər. Bunu aradan qaldırmaq üçün, prosesi işıqda aparıla bilən qaraldıcı, yaxud ağardıcı məhlullardan istifadə olunmalıdır.

Bütün aşkarlayıcı, bərkidici, qaraldıcı və ağardıcı maddələr su ilə həll edilir. Buna görə suyun özü də neqativ prosesində həlledici rol oynayır. Bütün məhlulları təmiz və şəffaf suda hazırlamaq lazımdır. Əks halda suyun tərkibində olan müxtəlif qələvilər maddələrə pis təsir göstərə bilər.

Hər hansı məhlulu hazırlamaq üçün ən yaxşısı distillə edilmiş sudur. Əgər distillə edilmiş su yoxdursa, içməli sudan da istifadə etmək olar. Bu məqsəd üçün təmiz qaba yığılmış yağış suyundan da istifadə etmək mümkündür. Çay və quyu sularından, yalnız bunların heç biri olmadığı hallarda istifadə etmək olar.

Foto məhlullarını hazırlayan zaman quru və kristal maddələrin də təmizliyinə və onların resept əsasında dəqiq ölçülməsinə ciddi əməl olunmalıdır. Yadda saxlamaq lazımdır ki, neqativ prosesi üçün istifadə olunan maddələr həm susuz və həm də kristal halında olur. Kristal maddələrin tərkibində müəyyən miqdarda su olduğunu nəzərə alaraq onları susuz maddələrdən iki dəfə artıq götürmək lazımdır.

Məhlul hazırlanan zaman maddələrin ardıcıllıqla həll olunmasına ciddi fikir verilməlidir. Məhlulları qarışdırarkən elə etmək lazımdır ki, məhlul ələ bulaşmasın. Aşkarlayıcı maddənin tərkibində zəhərləyici və aşındırıcı maddələr var.

Həmin maddələr əlin dərisinə pis təsir göstərər, dərinin zəhərlənməsinə və ləkələnməsinə səbəb ola bilər.

Aşkarlama üçün normal hərarət 20 dərəcəyə qədər nəzərdə tutulur.

Aşkarlama üçün olan baçoklar qeyri-şəffaf qara plastik kütlədən hazırlanır. Baçokun içərisində plyonka üz-üzə yapışmasın deyə xüsusi spiral qoyulur.

Plyonka baçoka tamamilə qaranlıqda salınır. Buna görə də plyonkanı baçoka salmazdan əvvəl hazırlıq işləri görülməlidir. Baçokun ayrı-ayrı hissələri stolun üstünə elə yığılmalıdır ki, qaranlıqda onları lazım olduqca tapıb istifadə etmək mümkün olsun.

Fotoplyonkaları aşkarlamaq üçün iki-üç cür baçok istehsal olunur. Birinci-birüzlü spirallı, ikincisi isə ikiüzlü spirallı baçoklardır.

Plyonka, dəqiqə hesabı ilə aşkarlanır. Aşkarlama qurtarana qədər plyonka baçokun üzərində ox işarəsi ilə göstərilmiş qaydada fırladılır.

Plastinkalar xüsusi çərçivədə vanna içərisində yuyulur.

Neqativ prosesi qurtardıqdan sonra plyonkanı yaxşı qurutmaq lazımdır. Neqativ quruduqdan sonra otaqda temperatur 25-28 dərəcədən artıq olmamalıdır.

Neqativi tozlu və çox nəmli otaqda, həmçinin gun düşən yerdə, peç və ya qaz plitəsi yaxınlığında qurutmaq olmaz.

Fotoqrafın hər hansı kiçik bir diqqətsizliyi nəticəsində neqativ ya həddindən artıq açıq, ya da əksinə, həddindən artıq qara alına bilər. Belə olduqda ağardıcı və yaxud qaraldıcı maddələrdən istifadə edilir.

Pozitiv prosesi fotoqrafiya işində demək olar ki, sonuncu prosesdir.

Optik proyeksiya üsulu ilə fotoşəkillər çap etmək üçün fotoböyüdücü adlanan cihazdan istifadə edilir. Fotoböyüdücü proyeksiyaedici cihazlar əsasında qurulmuşdur. Onun işıq mənbəyi, kondensoru, obyektivi, ekranı, neqativ üçün çərçivəsi, qırmızı işıq süzgəci vardır.



Neqativdə olan təsviri fotokağıza köçürdükdən sonra kağızda iz görunmür. Gizli əksi aşkara çıxarmaqdan ötrü fotokağız aşkarlayıcı məhlula salmaq lazımdır.

Çap olunmuş fotokağız dərhal aşkarlanmalı, sonra yuyulmalı və bərkidilməlidir. Buna görə də aşkarlama və bərkitmə üçün lazım olan bütün avadanlıq əvvəlcədən hazırlanmalıdır.

Təsvir neqativdən fotokağıza köçürüldükdən sonra aşkarlayıcı vannaya salınır. Foto kağızı vannaya salarkən elə etmək lazımdır ki, kağız bütünlüklə islansın. Pinsetlə foto kağızı aşkarlayıcıda hərəkət etdirməklə təsvirin aşkarlanmasına nəzarət etmək lazımdır. Normal təsvir alındıqda pinsetlə fotokağızın küncündən tutub yuxarı qaldırmaqla üzərində olan məhlul vannaya süzülür, sonra su olan vannaya salınıb yuyulur, daha sonra isə üçüncü vannada olan bərkidicidə bərkidilir.

Pozitiv prosesi qurtardıqdan sonra çap olunmuş kağızlar təmiz yuyulmalı və qurudulmalıdır.

Müasir fotoqrafiyada elektrik quruducularından geniş istifadə edilir. Elektrik quruducusunda şəkillər 5-10 dəqiqə ərzində qurudulur.

Müasir Azərbaycan Respublikamızın mədəniyyət müəssisələrinin əksəriyyətində, qadınlar arasında aparılan kütləvi-siyasi işlər qadınların əmək fəallığının yüksəldilməsinə, genişləndirilməsinə, onlarda nəcib sifətlər tərbiyə edilməsinə yönəldilmişdir.

Mədəniyyət müəssisələrinin bir çoxunda təşkil edilmiş naxış tikmək, toxuculuq və tikiş dərnəklərinin rolu çox böyükdür.

Rayon yerlərində tikiş dərnəklərinin böyük əhəmiyyəti vardır.

Tikiş dərnəyini bitirmiş olan hər bir evdar qadın, heç bir çətinlik çəkmədən evdə müxtəlif ölçülərdə qadın, uşaq və kişilər üçün asanlıqla üst və alt paltarları tikə bilər.

Qadınlar mədəniyyət sarayları, mədəniyyət evi və klubun həyatında yaxından iştirak etməklə öz fəallığını artırır,

bilik səviyyəsini yüksəldir və ictimai mühitdə qayda və qanunları düzgün dərk edirlər.

Dərnəklərə ixtisaslı mütəxəssislər rəhbərlik edə bilər. Tikiş dərnəyinin rəhbəri tədris planını və proqramını tərtib etməlidir. Dərnək iştirakçılarının iş qabiliyyəti, dərzilik bacarığı nəzərə alınaraq, proqramın 300-450 saata tərtib edilməsi məsləhət görülür.

Proqram təxmini olduğuna görə dərnək rəhbəri proqram üzrə məşğələ saatlarını artırıb azalda bilər.

Proqramı keçib qurtarmaq üçün hər gün 3-4 saat - həftədə 4 dəfə məşğələ aparılması məsləhət görülür. Proqramı mükəmməl öyrəndikdən sonra dərnək rəhbəri dərnəyin iş planını, jurnal-gündəlikdə yazılan hər bir məşğələnin geniş planını tərtib edir. Dərnək məşğələlərinin günləri mütləq mədəniyyət evi və klubun kalendar iş planında göstərilməlidir. Hər bir məşğələdən sonra, iş planında nəzərdə tutulan tədbirlərin yerinə yetirilməsi qeyd olunmalıdır.

Məşğələlərin keyfiyyətli aparılması üçün dərnək işləri vaxtı mədəniyyət müəssisələrində başqa tədbirlər keçirilməməlidir. Dərnək rəhbərinin göstərişi üzrə, dərnək iştirakçıları məşğələ üçün lazımi işləri görürlər. Məşğələ qurtardıqdan sonra isə məşğələ aparılan otaqda iş yerlərini təmizləyib sahmana salırlar. Sonra dərnək üzvlərinin ümumi iclasında dərnək rəhbərinə kömək üçün sinif nümayəndəsi seçilir. Sinif nümayəndəsi dərnək rəhbərinin birinci köməkçisi hesab olunur. O, dərnək işinin təşkilində, dərnək məşğələlərinin müntəzəm aparılmasında, dərnək üzvləri arasında nizam-intizam yaradılmasında və s. işlərdə dərnək rəhbərinə kömək edir.

Dərnək məşğələlərində bütün nəzəri işlər praktiki işlərlə əlaqələndirilir. Məşğələlərin gedişində dərnək rəhbəri işə diqqət edərək, dərnək üzvlərinə əlavə izahatlar və nöqsanları düzəltmək üçün əməli göstərişlər verir. Yaxşı olardı ki, mədəniyyət evi, klubun işçiləri tikiş dərnəyi üçün ayrıca otaq ayırsınlar. Otağı stol, sinif lövhəsi, mebellərlə təmin etsinlər, əyani tədris vəsaitləri versinlər, bacarıqlı rəhbərlər seçsinlər və dərnəyə lazım olan bütün işləri yerinə yetirsinlər.



Dərnək üzvləri arasında siyasi-kütləvi və tərbiyəvi işlərin aparılmasının böyük əhəmiyyəti vardır. Ona görə həftədə bir dəfədən az olmayaraq dərnək üzvlərinə elmi-bədii, ictimai-siyasi mövzularda müntəzəm olaraq mühazirələr oxunmalıdır.

Dərnək işlərinin normal aparılması üçün çalışmaq lazımdır ki, dərnəkdə iştirak edənlərin sayı 20-dən yuxarı olmasın. Əgər həvəskarların sayı çox olarsa, bir neçə qrupun yaradılması məsləhət görülür. Dərnək rəhbəri praktiki işin yerinə yetirilməsi üçün hər dəfə dərnək üzvlərinin hazırlığını yoxlamalıdır. Bu yoxlama parçanın düzgün kəsilməsi, biçilməsi və keyfiyyətli tikilməsi üçün lazımi imkan yaradır.

Proqram üzrə dərs məşğələləri keçirilib qurtardıqdan sonra, mədəniyyət müəssisələrində tikiş dərnəyinin hesabat gecəsi keçirilir. Həmin gecədə dərnək rəhbəri işlərin yekunu haqqında məruzə edir, ayrı-ayrı dərnək üzvləri öz işindən danışır. Belə gecələrdə mədəniyyət müəssisələrinin foyesində fəalların köməyilə dərnək üzvlərinin əl və maşın işlərinə dair nümunəvi sərgi təşkil edilməlidir.

Bədən tərbiyəsi və idman insanların müxtəlif sahələrdə tərbiyəsinin və onların səhhətini möhkəmlətməyin mühüm vasitəsidir. Bədən tərbiyəsi və idman gənc nəslimizi güclü, dözümlü, çevik və cəsarətli adamlar kimi tərbiyə etməyə kömək edir, iradə və xarakteri möhkəmləndirir, vətənimizin əmək qabiliyyətini artırır. Bədən tərbiyəsi və idman həmçinin sağlam istirahətin təşkili üçün mühüm amillərdən biridir.

Cəmiyyətin üzvləri bədən tərbiyəsi və idmanı kütləvi surətdə inkişaf etdirməkdə öz bədən tərbiyəsi kollektivinə fəal kömək etməli, bədən tərbiyəçilərinin idman ustalığını yüksəltmək, bədən tərbiyəçilərinin qabaqcıl rolunu təmin etmək uğrunda mübarizədə kollektivin ortaya atdığı faydalı təşəbbüsləri yaymalı, idman tikililərinin yaradılmasında və lazımi avadanlıqla təchiz edilməsində fəal iştirak etməlidirlər.

Bədən tərbiyəsi və idmanın təbliğ edilməsinin forma və üsulları çoxcəhətlidir. Bütün bu forma və üsullardan istifadə edərək, mədəniyyət müəssisələrinin işçiləri, söhbətlər, məruzə, mühazirələr keçirmək, müxtəlif mövzularda sərgilər

düzəltmək, idman mövzularında kinofilmlər nümayiş etdirmək, bədən tərbiyəsi-idman gecələri və s. maraqlı tədbirlər keçirməklə, bədən tərbiyəsi və idmanı təbliğ etməlidirlər.

Respublikamızın bir sıra mədəniyyət müəssisələrinin işçiləri bədən tərbiyəsi və idmanın təbliğ edilməsində fərqlənərək, yeni bədən tərbiyəsi kollektivlərinin yaradılmasında idman cəmiyyətlərinə yaxından kömək edirlər.

İdman kollektivi təşkil etmək üçün 3-5 nəfərdən ibarət müvəqqəti təşkilat bürosu yaradılır. Bunlar bədən tərbiyəsi kollektivi yaratmaq işinə rəhbərlik edirlər, kollektivin üzvlərinin siyahısım tuturlar, ümumi yığıncaqlar, kollektivin şurasını seçirlər.

14 yaşına çatmış və 14 yaşından yuxarı gənclər bədən tərbiyəsi kollektivinin üzvü ola bilərlər.

15 nəfərdən az üzv olan kollektivlərdə ümumi yığıncaq tərəfindən bədən tərbiyəsi təşkilatçısı seçilir. Ümumi yığıncaq kollektivin smetasını, iş planlarım və kollektiv şurasının hesabatlarım müzakirə edib təsdiq edir, şuranın qərarlarını nəzərdən keçirir və təsdiq edir.

Kollektiv şurası və təftiş komissiyası açıq səsermə yolu ilə bir il müddətinə seçilir. Kollektiv şurası öz heyəti içərisindən sədr, sədr müavini, katib və ayrı-ayrı iş sahələrinə məsul olan adamlar seçir.

Hər hansı bir kollektivin, komandanın və ya bölmənin işinin əsası, bədən tərbiyəçiləri ilə müntəzəm olaraq əməli məşğələ aparılmasını təşkil etməkdən ibarətdir.

Bədən tərbiyəsi kollektivlərində bir neçə bölmə yaradılır. İdmanın bu və ya başqa bir növü ilə məşğul olmağı arzu edən bədən tərbiyəçiləri bu bölmələrə daxil olurlar.

Məsələn, bəziləri yüngül atletika ilə, başqaları güləşmə və ağırlıq qaldırma ilə, bəziləri isə gimnastika, voleybol, futbol ilə məşğul olmağı arzu edirlər.

Kollektiv şurası ümumi fiziki hazırlıq üzrə bölmələr yaradılmasına xüsusi diqqət yetirməlidir.

Bütün kollektivlərdə ümumi fiziki hazırlıq üzrə bölmələr yaradılması məsləhət görülür. Həmin bölmələrdə



keçirilən məşğələlər gəncləri idmana cəlb etmək üçün ilk addımdır.

Hər bir bölmədə 3-5 nəfərdən ibarət büro seçilir, komandaları və ya qrupları olan bölmələrdə isə komandaların kapitanları və qrup nümayəndələri seçilir. Bölmənin üzvlərinin ümumi yığıncağını ayda bir dəfə və ümumiyyətlə mövsüm müddətində azı iki dəfə- mövsümün başlanğıcında və axırında keçirmək daha yaxşıdır.

Bədən tərbiyəçiləri arasında tərbiyə işi aparmaq, hərtərəfli fiziki hazırlıq əsasında idman ustalığını yüksəltmək hər bir bölmənin, hər bir komandanın mühüm vəzifəsidir.

Bölmələrdə məşğələlər təsdiq olunmuş dərs planları və proqramları əsasında aparmalıdır.

Dərs planları tərtib olunan zaman ciddi fikir verilməlidir ki, hər bir bölmədə mümkün qədər bütün il boyu məşğələ keçirilsin.

Kollektiv şurası hər bir bədən tərbiyəçisinin bütün fəsillərdə idman hərəkətlərinin bu və ya başqa bir növü ilə məşğul ola bilməsi üçün lazım olan bütün şəraiti yaratmalıdır.

Hər bir bölmənin məşğələ planında bir-birinin ardınca gələn üç dövr nəzərdə tutulmalıdır:

1. Hazırlıq dövrü - bu dövrdə bölmənin bütün üzvləri idman mövsümü üçün ümumi bədən tərbiyəsi hazırlığı keçir;
2. Əsas dövr - bu dövrdə idmanın bu və ya başqa bir növünün texnikasım öyrənmək üçün məşğələlər keçirilir;
3. Keçid dövrü - əsas idmanın qış növləri ilə məşğul olan bədən tərbiyəçiləri üçün həmin dövr yay aylarında, idmanın yay növləri ilə məşğul olan bədən tərbiyəçiləri üçün isə qış aylarıdır.Bu dövrdə ümumi inkişafa kömək edən fiziki hərəkətlərlə məşğul olmaq lazımdır.

Məşğələləri həftədə iki-üç dəfə 1.5-2 saat ərzində aparmaq lazımdır. Məşğələnin rəhbəri işi elə təşkil etməlidir ki, bir dəqiqə belə boş keçməsin. Dərs vaxtı bu qayda ilə bölüşdürülməlidir.

- giriş hissəsi – 3-5 dəqiqə;
- hazırlıq hissəsi – 10-20 dəqiqə;
- əsas hissə – 40-60 dəqiqə;
- son hissə – 5 dəqiqə.

Kollektivin şurası məşğələ keçmək üçün ən təcrübəli idmançılar içərisindən ictimai təlimatçı ayırmalıdır.

İctimai təlimatçılar hər bir məşğələyə ətraflı hazırlaşmalı, hər bir dərsin dəqiq konspektini tutmalı, müəyyən edilmiş forma əsasında idman bölməsinin gördüyü işlərin uçotuna dair gündəlik yazmalı, özü üçün bacarıqlı köməkçilər ayırmalıdır.

Bədən tərbiyəsi kollektivində ümumi fiziki hazırlıq bölməsinin məşğələləri müntəzəm keçirilməlidir. Bədən tərbiyəsi ilə birinci dəfə məşğul olan çoxlu yeni üzvlərə malik kollektivlərdə bu bölmə xüsusilə böyük əhəmiyyət kəsb edir. Bu bölmə bədən tərbiyəçilərinin gələcəkdə idman texnikasına yiyələnməsi üçün ilk hazırlıq mərhələsidir.

Bədən tərbiyəsi və idmanın geniş kütlələr arasında təbliğ olunması işinin düzgün təşkil edilməsi adamların sağlamlaşmasına və onların bədən tərbiyəsi kollektivinə cəlb olunmasına kömək edir.

Bədən tərbiyəsi işini kütləvi surətdə genişləndirmək sahəsində mədəniyyət müəssisələrinin üzərinə xüsusi vəzifələr düşür.

Bədən tərbiyəsi kollektivlərinin təşkil edilməsi işində mədəniyyət işçiləri daha fəal iştirak etməlidirlər. Mədəniyyət işçiləri bədən tərbiyəsi işini kütləvi surətdə genişləndirmək üçün bir sıra konkret tədbirlər görməlidirlər. Onlar hər şeydən əvvəl kütləvi surətdə əhalini bədən tərbiyəsi kollektivinə cəlb etməli, yeni bədən tərbiyəsi kollektivlərinin yaradılması işində yaxından kömək etməlidirlər.

Bədən tərbiyəsi və idmanın təbliğ edilməsində əyani təşviqat vasitələrinin-şüarların, plakatların, sərgi və vitrinlərin rolu böyükdür.

Mədəniyyət müəssisələrinin müasir dövrdə əsas vəzifələri bədən tərbiyəsi-idman gecələri keçirmək, bədən tərbiyəsi və idmanı əhali içərisində təbliğ etməkdir.



İdmanı kinonun köməyi ilə təbliğ etmək üçün xüsusi idman kinoları gecələri təşkil etmək daha yaxşıdır.

Mədəniyyət müəssisələri texniki yaradıcılıq işlərinə, texniki dərnəklərin fəaliyyətinə daha artıq diqqət yetirməkdən, geniş insan kütlələrini bu işə cəlb etməkdən, onların marağını ardıcıl olaraq artırmaqdan, insanlara xidmətin forma və üsullarını təkmilləşdirməkdən və bütün tədbirləri yüksək ideya və siyasi səviyyədə keçirməkdən ibarətdir.

### *6.2 Tətbiqi kulturologiyada əyani vasitələrdən istifadə*

Hələ qədimdən insanlar tanrının onlara bəxş etdiyi maddi varlığın gözəlliyindən (əyaniliyin ən primitiv və daha təsirli formalarından) zövq almışlar. Daha sonralar isə müxtəlif ictimai-iqtisadi formasiyalarda öz arxitekturasının incəliyi və cazibədarlığı ilə insanları valeh edən saraylar, məscidlər, kilsələr, tikili sənət əsərləri və s. yaranmağa başlamışdır.

XX əsrin əvvəllərinə kimi ayrı-ayrı şəxslərin evlərində keçirilmiş məclislər və təşkil olunmuş toplantılar sonralar mədəniyyət müəssisələrinin inkişafına güclü təkan vermişdir. İlkin mərhələdə mədəniyyət müəssisələri başlıca olaraq əhalinin maariflənməsi ilə məşğul olmuşdur. Siyasi vəziyyətdən asılı olaraq onlar təbliğat və təşviqat işinə geniş yer verməyə başlamışdılar. XX əsrin 20-ci illərindən başlayaraq təbliğat və təşviqat vasitələri artıq öz xüsusiyyətlərinə görə ayrılmağa, seçilməyə başladı. Yəni onlar şifahi və əyani təbliğat və təşviqat sahələrinə bölündülər. Lakin bu heç də o demək deyildi ki, biri digərindən tam ayrılaraq müstəqil olaraq fəaliyyət göstərirdi. Onlar kütləvi təbliğat və təşviqatın hər hansı bir formasında birləşir, bir-birini tamamlayırdı.

Mədəniyyət-insanların əsrlər boyu qoruyub nəsildən-nəslə ötürdüyü maddi və mənəvi sərvətlər toplusudur. Bu maddi və mənəvi nemətlər toplusu, incəsənət vasitəsilə xalqa çatdırılır. İncəsənət isə, gerçəkliyi kommunikativ surətdə əks etdirən bir sahədir.

Hər hansı bir cəmiyyətdə yaşamağımızdan, hansı sosial qrupa aid olmağımızdan asılı olmayaraq mədəniyyət və incəsənət abidələri həmişə təbliğ edilmiş, xalqa çatdırılmışdır. Azərbaycan xalqının zəngin maddi və mənəvi nemətlərinin də həm respublikanın özündə, həm də bütün dünyada tanınmasına, təbliğinə ehtiyac olmuşdur. Milli və bəşəri dəyərləri özündə ehtiva edən Azərbaycan folkloru, mədəniyyəti, incəsənəti dünya xalqlarının diqqətini həmişə özünə cəlb etmişdir. Bəs bu mədəniyyət, bu incəsənət, folklor bu gün necə qorunur, necə təbliğ olunur, hansı vasitələrlə xalqa çatdırılır?

İnsan gerçəkliyi qavramaq üçün duyğuların köməyinə ehtiyac duyur. Əgər biz eşitmə orqanlarımızla hər hansı bir materialı mənimsəyərkən diqqətimizi toplamağa cəhd ediriksə, görmə orqanları bunu qeyri-ixtiyari edir. Yəni insan gözü ilə gördüyünü daha tez duyur, daha tez mənimsəyir və qavrayır.

Fikrimizi bədii dillə çatdırsaq, insanın gözü gözəlliyi duymaq üçün yaranıb. İnsan, gözəlliyi dərk etdikcə, duyduqca paklaşır, mənən təmizlənir, insan ruhu gözəlliyi mənimsədikdə göylərə ucalır.

Beləliklə, yuxarıda qeyd etdiyimiz kimi, əyani təbliğat və təşviqat müstəqil bir forma kimi XX əsrin 20-ci illərində formalaşmışdır. Əyani təbliğat və təşviqat formalarını aydınlaşdırarkən bu formanın fəlsəfi anlayışına fikir versək, görərik ki, o, gerçəkliyi xarici görünüşdə ifadə edir. Bu cür xarici görünüş formaları onun material əsaslarında-stend, plakat, transparant və s. əksini tapır.

Əyani təbliğatın formalarına keçməmişdən əvvəl, görək əyani təbliğat nəyi ifadə edir, hansı məqsədi güdür, onun hansı növləri var, əyani təbliğat və təşviqatın vəzifəsi nədən ibarətdir?

Ümumiyyətlə, mədəniyyət müəssisələrində aparılan işi iki yerə ayırmaq olar. Onlardan birincisi kulturoloji tələblər baxımından nəzəri hissəni, yəni iş metodikasını təşkil edir. İkinci ən böyük hissəsi isə, praktiki işdən ibarətdir. Praktiki işi üç hissəyə bölmək olar. 1) şifahi təbliğat, 2) əyani təbliğat və təşviqat, 3) texniki vəsait. Hər üç forma bir-birini tamamlayır,



bir forma digərinə yardım edir. Bir sözlə, əyani təbliğat formaları texniki vasitələrin köməyilə şifahi təbliğatın məqsədyönlü surətdə həyata keçirilməsinə kömək edir, onu obrazlı və estetik göstərir.

Əyani təbliğatın başlıca məqsədi ondan ibarətdir ki, o, canlı, konkret məsələlərə cavab verir. Əyani təbliğat və təşviqat kəskin tərbiyə silahı kimi kütlələri maarifləndirmək və səfərbər etmək üçün qüvvətli, təsirli bir vasitədir. Özünün ifadəliliyinə görə, fərqlənir. Orijinal ifadə formalarına, ideya-estetik tərbiyə və eləcə də pedaqoji təsir gücünə malikdir.

Əyani təbliğat və təşviqat formalarına-müraciətlər, plakatlar, şüarlar, dioqramlar, xəritə, panno, şəkillər, fotoşəkillər, sərgilər, müxtəlif vitrinlər və s. aiddir. Hər bir forma spesifik xüsusiyyətə, konkret vəzifəyə malikdir. Hər birinin isə öz tərtibi metodları vardır.

Bu baxımdan əyani təbliğat və təşviqat vasitələri əsasən aşağıdakıları özündə ehtiva edir:

- Dioqramlar iş prosesinin göstəricisi olub, rəqəm, yazı, tərtibatdan qurulur, sütunlu, lentvari, fiqurlu, sektorlu və dioqram-qrafik şəklində olur;
- Divar qəzetinin əsas vəzifəsi hər hansı bir müəssisənin ictimai, iqtisadi və mədəni həyatını işıqlandırmaqdan, ədəbiyyat və incəsənət, elm və texnika yeniliklərindən danışmaqdan, çatışmamazlıqları tənqid etməkdən və qabaqcıl iş təcrübəsini yaymaqdan idarətdir;
- Plakat-təsviri sənətin ən kütləvi növüdür. Həm çağırışçı, həm də səfərbəredici təbliğat vasitəsidir. Plakat üzərində işləyərkən, birinci növbədə, onun əsas ideyasını tərtibat vasitəsilə açmağa çalışmaq lazımdır. Plakatlarda gedən yazılar konkret, qısa və obrazlı olur. Plakatlar məqsəd və xüsusiyyətlərinə görə aşağıdakı məzmunda olur:
  - siyasi;
  - kitabxana;
  - təbliğat pəncərəsi;
  - təlimatçı-texniki;
  - reklam və elanlar.

Kütləvi materialların və eksponatların nümayişi üçün əyani təbliğat forması olan sərgidən geniş istifadə olunur. Sərgi sintetik bir formadır. Çünki onun stendləri üzərində əyani təbliğat növlərinin çoxu istifadə olunur. Sərgilər stasionar və səyyar olur. Əyani təbliğatın ən sintetik forması «Danışan stend»dir. Burada filmaskop, maqnitafon və digər texniki vasitələrdən istifadə olunur.

Əyaniliyin sxem, cədvəl, dioqram, xəritə, kardeoqram kimi formalarından mühazirə oxunan zaman və şifahi təbliğatın başqa formalarını və metodlarını keçirərkən, klub kabinetlərini tərtib edərkən istifadə olunur.

Müasir dövrdə əyaniliyin istifadə edilən formaları müxtəlif və rəngarəngdir. Əyani təbliğat vasitələrinin istifadə olunmasında mətbuat, televiziya və kinonun daha çox imkanı və rolu var.

Əyani təbliğat və təşviqat təşkilində onun dərkedilməsinin psixoloji xüsusiyyətləri nəzərə alınmalıdır. Bu xüsusiyyətlərin aydınlaşdırılması bir sıra faktorlardan asılıdır, başlıcası isə, kütləvi təbliğat və təşviqat vasitələri sisteminin düzgün təşkili və qurulmasından asılıdır. Kütləvi təbliğat vasitələri ilə verilən informasiyaya maraq insanın daxili mənəviyyatına əsaslanır. Mənəvi tələbatların ödənilməsi şəxsiyyətin hərtərəfli inkişafı və onun həyat fəaliyyətinə hazırlanması prosesidir. Əyani təbliğat mənəvi həyatın ictimai əsaslarını özündə birləşdirir. Bu əsaslar şəxsiyyətin mənəvi tələbatlarını ifadə edir. Lakin bu tələbatların əyani təbliğat və təşviqata tətbiq edilərək həyata keçirilməsi özünəməxsus xarakter daşıyır və spesifik xüsusiyyətlərə malikdir. İlk növbədə, əyani təbliğatın digər kütləvi təbliğat növlərinə aid olan hadisələrlə, faktorlarla dolu olmasıdır. Məsələn, radio hər saatdan bir, cəbhədə baş verən hadisələr haqqında məlumat verirsə, qəzet bir dəfə gün ərzində baş vermiş hadisələr haqqında söhbət açırsa, televiziya həmin hadisəni əyani surətdə göstərir və insanlara təqdim edir.

Mədəniyyət müəssisələrində əyani təbliğat və təşviqat vasitələrinin dərk edilməsi bu gün hər bir şəxsdən yaradıcı təfəkkür tələb edir. Belə ki, mədəniyyət müəssisəsinə gələn



şəxs əyani təbliğat və təşviqat vasitələri ilə ya «ayaqüstü» ya da hərəkətdə olarkən tanış olur. Bu da ona gətirib çıxarır ki, subyekt əyani vasitələrlə təsadüfən üzləşərkən tanış olur. Əgər gözdən qaçarsa, subyektin tanışlığı mümkün deyil.

Deməli, əyani təbliğat və təşviqlatın təşkilində başlıca psixoloji əsaslar mədəniyyət müəssisələrində qeyri-ixtiyari diqqətin yaranması üçün şərait yaratmaqdan ibarətdir. Lakin iş, diqqəti cəlb etməklə bitmir, cəlb edilmiş diqqəti saxlamaq da lazımdır.

İkinci psixoloji əsas diqqətin yaranmasıdır. Mənimsəmənin daha aktiv fəaliyyət prosesi üçün şərait yaratmaq lazımdır.

Əyaniliyin prinsiplərindən çıxış edərək aşağıdakılara nəzər salaq:

Əyaniliyin əsas prinsipi ondan ibarətdir ki, o, insan hisslərinin müxtəlif orqanlarını cəlb edir. Hər bir halda materialın məntiqi cəhətdən dərk edilməsilə, mənimsənilməsilə yanaşı, əyaniliyi də nəzərə almaq lazımdır. Əks təqdirdə, əyaniliyin birtərəfli anlayışı baş verir, bu da onunla nəticələnir ki, praktikada əyani vasitədən daha çox istifadə edilir, lakin bu az təsir edir.

Bu zaman insanın abstrakt düşüncəsinin inkişafında durğunluq yaranır. Əgər hiss orqanlarından qulaq daha çox informasiyanı almaq, eşitmək qabiliyyətinə malikdirsə, insan gözün köməkliyilə informasiyanın 90 faizini qəbul edir. Bu cəhətin nəzərə alınmaması dinləyicilər tərəfindən təbliğatı qəbul etmək qabiliyyətinin aşağı düşməsinə səbəb ola bilər. Əyanilik materialının qəbulu dərəcəsini artırır, dərketmə prosesini aktivləşdirir, auditoriyaya ideoloji, tərbiyəvi təsiri yüksək səviyyəyə çatdırır. İnformasiyanın əyani şəkildə çatdırılması onu daha dəqiq qəbul etməyə imkan verir və onun uzun müddət yadda qalması üçün, yaddaşa həkk olunması 2,8 san., çərçivəyə salınmış şəkil üçün 15 san., rəngli şəkil üçün 0,9 san., kino vasitəsilə 0,7 san., natura ilə nümayiş zamanı isə 0,4 san. lazımdır. Əgər nəzərə alsaq ki, şifahi materialın dərk edilməsi və yadda qalması 3 gün və 3 saat

əhatə edir, onda əyaniliyin rolunun hansı səviyyədə olması nəzərə çarpar.

Ümumiyyətlə, psixoloji mədəniyyət dedikdə, bu zaman dinləyici tamaşaçılarla mənəvi əlaqə qurmaq daha təsiredici vasitələrin tapılması nəzərdə tutulur.

Təbliğat psixoloji əlaqədən yaranır. Bu insanlar arasında elə əlaqədir ki, bir şəxsin digərinə təsiretməsini saxlayır. Psixoloji əlaqə, emosional əlaqə, insan, hörmət, simpatiyaya bağlılıq əsasında qurulmuşdur.

Əgər biz əyani təbliğat və təşviqatda psixoloji xüsusiyyətlərin nəzərə alınması barədə söhbət açacağıqsa, gəlin əvvəlcə, əyani təbliğat və təşviqatın mənimsənilməsi prosesində psixologiyanın hansı sahələrinin iştirak etməsi barəsində bir neçə kəlmə deyək.

Psixi təsəvvürlər mərhələsində bir sıra psixi hadisələr başlıca rol oynayır: təxəyyül, hafizə, diqqət və s.

Təsəvvürlər duyğu və qavrayışın vəhdətindən yaranır və obyektiv gerçəkliyin ümumiləşmiş surətidir. Təsəvvürlərdə eyniliklə ümumilik çulğalaşır. Çünki bu və ya digər cisim haqqında təsəvvür onun dəfələrlə qavranılması sayəsində təşəkkül tapır.

Subyekti istər ixtiyari, istərsə də qeyri-ixtiyari cəlb edən əyani təbliğat və təşviqat vasitəsi hisslərə təsir göstərərək qavranılır, yaddaşın köməkliyi ilə hafizəyə həkk olunur.

Gəlin, yuxarıda dediyimizi açaq. Yəni hisslər, qavrayış, yaddaş, hafizə nə deməkdir? Onlar insan psixologiyasının fəaliyyətində hansı rolu oynayırlar?

- Emosiyalar və hisslər: insanın dərk etdiyi cisim və hadisələrə, başqa adamlara, həmçinin özünün rəftar və davranışına, fikir və arzusuna bəslədiyi münasibəti ifadə edən prosesdir.

İnsan hissləri idrak obyektinə bəslənən subyektiv münasibətin inikasıdır. Bununla da, hisslər iki başlıca funksiyasını yerinə yetirir. Birincisi, hisslər ətraf aləmdə baş verən hadisələrin hansının insan həyatı üçün faydalı və ya təhlükəli olması barədə xəbər verir. Bu onun siqnal funksiyası adlanır.



İkincisi, hisslər insanın hərəkət və fəaliyyətinin motivi kimi çıxış edərək onları müəyyən istiqamətə yönəldə bilir. Bu cəhət hisslərin tənzimetmə funksiyası ilə bağlıdır. Məsələn: şəhidlərə həsr edilmiş fotostendləri müşahidə edərkən insanda, həm şəhidlərin qəhrəmanlığı qarşısında baş əymək, həm də düşmənə qarşı nifrət hissi oyanır.

Deməli, hissin obyekti cisim və hadisələr, subyekti isə, insan özüdür.

Qavrayış: hiss üzərində bilavasitə təsir edən cisim və hadisələrin bütün əlamət və xassələrinin bütövlükdə inikasıdır. Məsələn, rəng, işıq predmetə aid olan forma haqqında məlumat verir. Qavrayış insanın marağından, meylindən, dünyagörüşündən, emosional vəziyyətindən və s. asılıdır.

Bu cəhətlər qavrayışın seçiciliyində daha aydın surətdə nəzərə çarpır. İnsana eyni zamanda müxtəlif cisimlər təsir göstərir. Onlardan bir qismi daha aydın, aşkar qavranılır, digər qismi isə, nisbətən tutqun olur və ya onları heç qavramırlar. Çünki insan eyni zamanda ona təsir edən müxtəlif və rəngarəng cisimlərin, hadisələrin hamasını qavraya bilməz. Bu halda, qavradığımız cisim qavrayışın obyekti, yerdə qalanlar isə, fon olur. Məsələn, mədəniyyət müəssisəsində foyedə divardan asılmış hər hansı bir əyani təbliğat vasitəsi obyektdirsə, divar və foyedə olan digər predmetlər onun fonudur.

Diqqət və hafizə mürəkkəb psixi hadisə kimi çoxcəhətli insan fəaliyyətinin bütün sahələrinə xidmət edir. Gündəlik həyatda insana yüzlərlə qıcıqlayıcı təsir edir. Lakin insan onların hamısına reaksiya vermir, ən vaciblərini seçib ayırır. Bu proses mədəniyyət müəssisələrinə gələnlərdə də müşahidə olunur. Yəni birinin diqqətini çəkən predmet digərinə maraqsız görünə bilər və o, buna əhəmiyyət verməyə bilər.

Diqqətin mahiyyəti hər şeydən əvvəl, əhəmiyyətli, yəni tələbatlarla bağlı, mövcud fəaliyyətə uyğun gələn təsirləri seçməkdi. Digər ikinci dərəcəli, kənar təsirlərə isə, əhəmiyyət verməməkdə təzahür edir.

Adətən, hafizənin dörd əsas prosesi: - yadda saxlama, hifzedilmə, yadasalma və tanıma ayırd edilir. Gəlin, həmin

proseslərin qarşılıqlı əlaqəsinə diqqət yetirək. Məlumdur ki, müəyyən materialı yadda saxlama həyat və fəaliyyət prosesində toplanan fərdi təcrübə ilə bağlıdır. Yadda saxlanılan materialın insanın gələcək fəaliyyətində istifadə olunması yadasalma və xatırlama tələb edir. Materialın möhkəmlənməsi və yadda saxlanması müddətindən asılı olaraq hafizənin qısa müddətli, uzun müddətli və operativ növləri var.

Bəs diqqətin hansı növləri var? Tamaşaçı televiziya verilişlərinə baxdığı və ya mədəniyyət müəssisəsində bir tədbirdə natiqi dinlədiyi vaxt onda diqqətin həmin obyektə yönəlməsi, mərkəzləşməsi prosesi baş verir. Lakin bu zaman xüsusi iradi səy tələb olunmur. Bu qeyri-ixtiyari diqqətdir. Deməli, diqqətin birinci növü qeyri-ixtiyaridir ki, bu da qabaqcadan qarşıya qoyulmuş məqsədlə, heç bir xüsusi niyyətlə bağlı olmayan və iradi cəhd tələb etməyən diqqətdir.

Elə buradan da diqqətin ikinci növü doğur. Yəni qeyri-ixtiyari diqqət birincidirsə, deməli, ikinci növ diqqət olmalıdır. İxtiyari diqqətin yaranması insanın xüsusi niyyəti və məqsədilə bağlıdır. O, daha çox fəaliyyət prosesində əmələ gəlir və fəaliyyətin tənzim edilməsinə yönəlmiş olur. Qarşıya qoyulmuş şüurlu məqsədlə bağlı olaraq əmələ gələn və müəyyən iradi səy tələb edən diqqət ixtiyaridir.

Mədəniyyət müəssisələrində isə daha çox qeyri-ixtiyari diqqətin yaranması prosesinə rast gəlinir. Əyani təbliğat və təşviqat vasitələrində qeyri-ixtiyari diqqətin yaranmasına təsir göstərən amillər-rəng, konstruksiya, kompozisiyadır.

Mədəniyyət işçisi müəssisəsinin tərtibatı zamanı əyani təbliqat və təşviqat nümunələrinin müxtəlif rənglərindən istifadə edir. Hər bir rəng bu və ya digər tərzdə insanın emosiyalarına təsir göstərir. İ.Repin bu barədə deyirdi: «Rənglər bizim silahımızdır, onlar bizim fikrimizi ifadə etməlidirlər. Kolorit zərif işlənmiş ləkə deyil, o şəklin əhvali-ruhiyyəsini, onun daxilini açmalıdır. O, musiqidə akkord kimi geniş xalq kütləsini cəlb etməyi bacarmalıdır».

Deməli, plakatın, dioqramın, çağırışın rəng tapıntısı onun mətninin açılmasında böyük psixoloji rol oynayır.



Bunun üçün də, rənglərin simvolik mənalarını bilmək hər bir mədəniyyət işçisi üçün, xüsusilə də əyani təbliğat vasitələrini tərtib edənlər üçün vacibdir. Məsələn, göy rəng səma, dəniz, gələcəyi ifadə edirsə, qara rəng pis əhvali-ruhiyyəni, bədbinliyi, müharibəni ifadə edir.

Əyani təbliğat və təşviqat vasitəsi şəhərin ümumi tərtibatının ayrılmaz hissəsidir. Buna görə də, konstruksiyanın düzgün təşkili üçün rəssam əyani təbliğat vasitələrinin harada, hansı obyektlə qonşu olacağına diqqət verməlidir. İctimai həyatla geniş səsləşən əyani təbliğat nümunələrinin adamların daha sıx yerləşdiyi, şəhərin daha çox hərəkətli hissəsində yerləşdirilməsi psixoloji cəhətdən məqsədəuyğundur. Belə yerlərdə qeyri-ixtiyari olaraq materiallar diqqəti cəlb edir.

Kompozisiya əyani təbliğat vasitələrinin ideya məzmununu açan əsas amildir. Buna görə də, mətnin düzgün çatdırılması üçün incəsənətin sintezi, ədəbiyyat və üslub birliyi vacibdir. Burada arxitektura ilə yanaşı, dəzgah və monumental təsviri, tətbiqi və dekorativ-tətbiqi sənət nümunələri, işıq tərtibatı, yaşıllıq, gündəlik əyani təbliğat və təşviqat nümunələri, reklamlar fəaliyyətdə olmalıdır. Çünki bu saydıqlarımız təkcə bir-birinə yardım etmir, həm də kompozisiyanın tamamlanmasında böyük rol oynayırlar.

Bildiyimiz kimi, tamamlanmış kompozisiya göz oxşadığına görə, daha tez diqqəti cəlb edəcəkdir. Bunlar yalnız küçə və meydanların tərtibatında deyil, həm də mədəniyyət müəssisələrinin tərtibatında əsas götürülən amillərdir. Eksteryer, fasad və interyerin tərtibatı, rəng, kompozisiya baxımından elə təşkil olunmalıdır ki, o qeyri-ixtiyari olaraq diqqəti cəlb etməli, hafizənin köməkliyi ilə yaddaşa həkk olunmalıdır.

Əyani təbliğat və təşviqat şəxsiyyətin mənəvi tələbatlarını ödəməyə xidmət edir. Əyani təbliğat və təşviqat vasitələrinin mənimsənilməsi prosesi adətən qısa müddətlidir. Tamaşaçı onunla tələsik və ayaqüstü tanış olur. Əyani təbliğat və təşviqat zamana öz təsirini göstərir ki, təsir subyekti bilmədən əyani vasitə ilə rastlaşır, özündən asılı olmayaraq diqqətli refleks yaranır. Bunu Pavlov «nədir?» refleksi

adlandırmışdır. Təxmini refleks ətraf mühitin dəyişməsinə qarşı yeni qıcıqlanmaya münasibətdir. Adamları mədəniyyət müəssisələrinə cəlb edən, adətən, öz-özlüyündə əyani təbliğat və təşviqat formaları deyil, onunla bağlı olmayan başqa motivlərdir. Klubda nümayiş etdirilən əyani təbliğat materialları isə, qeyri-ixtiyari diqqəti cəlb edən qıcıqlandırıcı rolunu oynayır. Beləliklə, klubda əyani təbliğat və təşviqatın təşkilinin birinci psixoloji xüsusiyyəti kluba gələnlərdə qeyri-ixtiyari diqqətin yaranması üçün şəraitin meydana gəlməsidir. Lakin diqqəti cəlb etmək hələ kifayət deyil, onu saxlamaq lazımdır. Bunun üçün diqqət cəlbedici olmalıdır. Cəlbedici diqqət isə, insanın məqsədyönlü fiziki və əqli fəaliyyətidir.

Beləliklə, insanın diqqətini saxlamaq üçün onun aldığı əyani məlumat ilə bağlı olan əqli fəaliyyətini hərəkətə gətirmək lazımdır. Deməli, əyani təbliğat və təşviqatın ikinci xüsusiyyəti məqsədyönlü və qeyri-iradi qavramanın meydana gəlməsi üçün şəraitin yaradılmasıdır.

Lakin bu ilk şəraitin olması, həm də o demək deyil ki, dərk edilən bu və ya digər əyani təbliğat və təşviqat forması effektli xarakter daşıya bilər. Əgər əyani təbliğata daxil edilmiş informasiya materialı heç bir yeni şey vermirsə, məlum məsələni qeyri-məlumatla müqayisə etmirsə, assosiasiya doğmursa, (şüurda ayrı-ayrı təsəvvürlər arasında əlaqə) emosional təsir oyatmırsa, onun məzmunu şəxsiyyətə əhəmiyyətli təsir edə bilməz.

Yuxarıda dediklərimizi konkretləşdirsək, əyaniliyin psixoloji xüsusiyyətlərinə nəzər sala bilərik.

Ümumi bir qanunu əyani təbliğatın konkret bir forması ilə açırıqsa, bu zaman insanın psixoloji cəhətdən onu dərk etməsi yüngülləşir. Bu halda, əyani təbliğat və təşviqat təbliğ olunan fikrə illüstrasiya vasitəsi kimi çıxış edir. Ancaq o qoyulan məsələdə bir fakt, təsdiqləyici rolunu oynayaraq onu daha da inandırıcı edir. Bu zaman nəinki, statistik məlumatlar, həm də fotoşəkillər, kino nümayişi də inandırmaq gücünə malikdir. Deməli, əyaniliyin başlıca funksiyası dərketmədir. Əyanillik illüstrasiya vasitəsilə təbliğ olunan fikrin sübutluluğunu təmin edir və təsadüfi deyil ki, bir əyani



təbliğat vasitəsi çox vaxt özündə hər iki aspekti cəmləşdirir. Buna görə də, əyani materialların seçilməsi zamanı ilk növbədə, onun dərkedilməsi gücünü istiqamətləndirmək lazımdır.

Lakin məhz bu iki keyfiyyət onun inandırmaq gücünü təyin edir.

Əyani təbliğatın üçüncü psixoloji xüsusiyyəti fəal fikri fəaliyyət və emosional təsirin gücü üçün şəraitin yaranmasıdır. Bunun üçün təbliğ edilən materialın məzmunu, birincisi, yenilik elementinə malik olmalı, ikincisi kluba gələnin marağına səbəb olmalı, üçüncüsü, konkret, yerli hadisələr və faktlarla sıx bağlı olmalıdır.

Deməli, həqiqi əyani təbliğat və təşviqat məsələnin elə həllini tələb edir ki, o, diqqəti cəlb etməyə, marağı inkişaf etdirməyə, dərinləşdirməyə imkan versin. Bunu yalnız məzmunun qayğısına qalmaqla deyil, dərketmə prosesini yüngülləşdirən, fəallaşdıran əyanilik formalarının yaranması ilə əldə etmək olar.

Şəxsiyyətə fəal təsir etmək üçün onun fəaliyyətinin motivlərini öyrənmək lazımdır.

İnsanda yaradıcı, həyati başlanğıcları oyatmaq üçün onu canlandırmaq lazımdır. İncəsənət bu baxımdan insanların psixikasına təsir etmənin canlı nümunələrini verir.

Əyani təbliğat və təşviqat vasitəsinin başa düşüləcək şəkildə qavranılması üçün, onun metodikası və təşkili bir sıra pedaqoji tələblərə də cavab verməlidir.

Psixoloqların tədqiqatları göstərir ki, insanlar mədəniyyət müəssisələrini, kino, teatrları ziyarət edərkən, televerilişlərə baxarkən, mətbuatı gözdən keçirərkən hər şeydən əvvəl, özləri üçün faydalı olan yeni məlumatlar götürmək istəyirlər. Klub işinin kompleks xarakteri bu baxımdan əyləncə ilə tərbiyə işinin birgə təşkili xüsusiyyətinin həyata keçirilməsinə imkan verir.

Mədəniyyət müəssisələrinin işi tərbiyə prosesini əhatə edir. Bəs, əsas elementlər hansılardır?

Pedaqoji proses iki əsas komponentlərlə xarakterizə olunur: təsirin subyekti və təsirin obyekti. Öz növbəsində,

subyektin obyektə olan təsiri əvvəlcədən qarşıya qoyulmuş pedaqoji məqsədi ifadə edir.

Klubların kütləvi təbliğat və təşviqat fəaliyyətinin çoxfunksiyalı, kompleksli xarakteri, onu bir çox komponentləri özündə birləşdirən effektli pedaqoji sistemə çevrilir. Hər hansı bir kütləvi tədbirin təhlili göstərir ki, burada tərbiyə fəaliyyətinin əsas komponentləri var və tərbiyə obyekti eyni zamanda subyekt kimi çıxış edir, yəni biz yüksək effektli pedaqoji sistemlə rastlaşırıq.

Klubun təbliğat və təşviqat tədbirlərinin quruluşu pedaqoji proses kimi dörd cəhətə malikdir:

a) məlumatın məzmunu;

b) klub təşkilatçısının işini – məlumat mənbəyini və ya başqa mənbələrdən əldə edilən məlumatları ötürmək;

c) tərbiyə olunanların klub müəssisələrində iştirak etməyi;

ç) məlumatı çatdırma vəsaiti;

Hər bir təbliğat və təşviqat tədbirinin strukturu özündə pedaqoji sistemi əks etdirməli, kütləvi təbliğat və təşviqatın klub metodikasının, həm ümumi, həm də konkret səciyyəvi xüsusiyyətini nəzərə almalıdır:

1. Əyani vasitələr, yəni əsl əşyalar və onların ifadəsi, ideya və anlayış deyil, konkret hissi surətləri çatdırır, anlayış və ideya isə qavrayışın şüurunda təfəkkürü işlətmək yolu ilə yaranır. Adətən, buna təbliğatçının sözü kömək edir, ona istiqamət verir;
2. İncəsənətin ayrı-ayrı növləri müxtəlif tənasübdə hər iki siqnal sisteminə təsir edir.

Canlı sözlə əyani vasitələrin əlaqələndirilməsi şüura, hisslərə və iradəyə təsir gücünü bir neçə qat artırır. Təsirin ifadəliliyi və dəqiqliyinə təsir subyektinin şəxsiyyəti, həmin adamın metodik ustalığı, dərketmə, işgüzar və mənəvi hörməti də böyük rol oynayır.

Ancaq bizim məqsədimiz heç də pedaqoji prosesləri təhlil etmək deyil, onların əyani təbliğat və təşviqatın vasitəsilə çatdırılması barədə söhbət açmaqdır.

Cəmiyyətin qarşıya qoyduğu məqsədə uyğun olaraq şəxsiyyətin formalaşmasına mütəşəkkil və məqsədyönlü



rəhbərlik, tərbiyə prosesi adlanır. Onun başlıca məqsədi cəmiyyət üçün yararlı, mənəvi potensiala malik, fiziki cəhətdən sağlam, əməyə qadir, ideyaca mətin, vətənpərvərlik ruhunda böyümüş, vətənini, millətini sevən şəxsiyyət yetişdirməkdən ibarətdir.

Tərbiyə inandırma yolu ilə həyata keçirilməlidir. İnandırma metodu aşağıdakı pedaqoji vasitələrlə həyata keçirilir:

a) söhbətlər (qrup və ya fərdi);

b) müxtəlif xarakterli müzakirələr;

c) disputlar;

ç) şou-gecələr.

Tərbiyə işində fərdi yanaşma və yaşa uyğun yanaşmanın çox böyük əhəmiyyəti var. Buna differensional yanaşma da deyirlər. Bu zaman müxtəlif əhali qrupunu, sosial vəziyyəti, ixtisası, yaş, cins, dini inamlarına görə bölürlər.

İnsan nə qədər çox bilik, təcrübə əldə edirsə, o əyani təbliğat və təşviqat tərəfindən verilən məlumatla bir o qədər az qane ola bilər. Buna görə də, yaşa, təhsilə görə əhalinin müxtəlif qrupuna differensial yanaşma nəzərdə tutulur.

İnsanların yaş, cins, sosial, təhsil, milli, peşə mənsubiyyətdən asılı olaraq, zövqləri, hissləri və tələbatları arasında fərdlərarası qarşılıqlı ünsiyyət növü formalaşır. İnsanların beyinlərinə psixoloji təsir etmək baxımından ideoloji iş irəlidə gedir. Bu halda, o, psixoloji-emosional, estetik, yaş və mənəvi tələbatlardan irəli gələn xüsusiyyətləri də nəzərə alır.

İdeoloji işin başlıca müvəffəqiyyəti sorğular nəticəsində əldə olunan iş olduğunu söyləsək, onu da qeyd etməliyik ki, eyni təbliğatın köməkliyi olmadan bu iş müsbət nəticə verə bilməz. Bu təsir forması ilk əvvəl, əyani vasitələrin köməkliyilə insanın özü qarşısında onun biliyindən, ictimai səviyyəsindən irəli gələn həyat gerçəkliyini dərk etməyə kömək edir.

Lakin ideoloji iş apararkən əyani təbliğat və təşviqat vasitəsi (plakat, stend, sərgi və s.) öz aktuallığı ilə seçilməlidir. Onlar şəxsi, subyektiv fikri daşımalıdır. Yəni subyekt əyani təbliğat vasitəsini öyrənərkən bunu yalnız onun fikri olduğuna

inanmalıdır. Sanki o, öz fikrini ifadə edib, özü bu əyani vasitəni yaratmışdır. Belə olduqda, əyani təbliğat vasitəsi insanın psixologiyasına güclü təsir edə bilər, onu mənən dəyişdirə bilər, hər hansı bir məsələyə insanın diqqətini yönəldərək onu tərbiyə edər.

Mədəniyyət müəssisələrində əxlaqi, estetik, fiziki, əmək və s. tərbiyə formalarının təbliğinə diqqət verilir.

İncəsənətin ideya-tərbiyəvi, əxlaqi-tərbiyəvi funksiyası mahiyyətcə incəsənətin başlıca vəzifəsi olan estetik tərbiyəyə bağlıdır. Estetik tələbat insanın yaradıcılıq qabiliyyətinin inkişafını təmin edir, əməyə estetik münasibət yaratmaqla, onu daxili zərurətə çevirir. Estetik tələbatın tərbiyəsi insanın hissi emosional dünyasının zənginləşməsi və inkişafına xidmət edir. Estetik münasibət vasitəsilə insan həyata, cəmiyyətə saf və təmənnasız münasibət bəsləyir. Estetik tələbat insanı mənən zənginləşdirir. Onun insan psixologiyasına təsiri kompleks səciyyə daşıyır. Bu təsir həm idrak, həm mənəvi, həm praktiki məzmuna malik olur. Estetik tərbiyə insan təfəkkürünün inkişafına güclü təsir göstərir, onun orijinallığını, təravətini artırır. Son zamanlar isə vətənpərvərlik motivləri təbliğat işində daha çox yer tutur. Bu da respublikamızın məruz qaldığı təcavüzlə əlaqədardır. Sərhədlərimizdə müharibə gedən bir dövrdə hərbi vətənpərvərlik mövzusuna bu gün daha çox fikir verilməlidir. Gənclərdə Vətənə, onun təbiətinə məhəbbət oyatmaq, torpaqlarımızı göz bəbəyi kimi qorumaq hissləri aşılamaq, vətənpərvərlik tərbiyəsinin əsas məzmununu təşkil edir. Bu baxımdan əyani təbliğat və təşviqat vasitələrinin çox zəngin imkanları vardır. Əyani təbliğatın döyüşkən, səfərbəredici xarakteri, güclü təsiredici qüvvəsi ilə fərqlənməsi xalqı birliyə çağıran, düşmənə qalib gəlmək kimi ideyanı təbliğ edən şüarlar, plakatlar, eyni zamanda, düşmənə nifrət oyadan foto-şəkillər, stendlər, sərgilər və s. məhz belə bir vaxtda çox böyük əhəmiyyətə malikdir. İndi əyani təbliğat vasitələrinin həmişəkindən daha çox effekti ola bilər. Daha doğrusu, canlı sözün deyə bilmədiyini əyani təbliğat vasitəsilə emosional şəkildə çatdırmaq faydalı olur.



Bütün sahələrdə dinləyici yalnız təbliğ olunan ideyanı anlamalı deyil, həmçinin də onu qəbul etməlidir. Bu da yalnız onun ağlına deyil, həm də «ürəyinə» təsir etməyi tələb edir. Bu məsələnin həllində əyanilik böyük rol oynayır. Əyaniliyin emosional gücü onun konkretliyindədir. Bizim hisslərimiz əşyavi olduğundan, onlar hər hansı bir əşya, fakt, sübut, hadisəyə cavab olaraq meydana gələ bilər. Öz konkretliliyinə görə, əyanilik yalnız ağıl, düşüncə üçün deyil, həm də ürək üçün təsiredici qüvvə rolunu oynayır. Məsələn, mühazirə zamanı kinofilmlərdən istifadə edilməsinin necə təsiredici gücə malik olmasını qeyd etməyə bilmərik. Kino işçilərinin əsas vəzifəsi də ondan ibarətdir ki, filmdə göstərilənləri tamaşaçıya inandırıcı şəkildə çatdırsın. Özünün texniki imkanlarına görə kinematoqrafiya materialın təqdim edilməsində daha çox cəlbedici, sadə və aydın bir formadır. Kino, istər səssiz, istərsə də səsli formada təqdim olunsun, ekranda gedən dinamik təsvirlərin köməkliyilə təsiredici və yaddaqalan olmasını saxlayır. Kinonun emosional təsiri filmin yaradılması prosesində bir tərəfdən hadisə və faktların sənədlər əsasında qurulması, digər tərəfdən hadisələri vaxt çərçivəsindən çıxararaq insan beyninin qəbul edilməsi üçün əlverişli etməsi ilə izah olunur.

İdeoloji və ya tərbiyə işində kinonun bədii, elmi-kütləvi, xronikal-sənədli, tədris filmləri sahələri istifadə olunur. Həyat gerçəkliklərinin obrazlar vasitəsilə əyani şəkildə verilməsi tamaşaçılar tərəfindən maraqla qarşılanır. Kinonun bu cür imkanı, yəni sistemliklə fəaliyyətin bağlılığı böyük tərbiyəvi əhəmiyyətə malikdir.

Teatr və kino insanın fikrini açmaq üçün ən əlverişli formadır. Müəyyən tarixi dönəmlərdə insanlar arasındakı əlaqələri araşdırmaq üçün, təsiredici münasibətlərin emosionallığını yüksəldir.

İnsan həyatının və əməllərinin nəticəsinin dərk edilməsi sahəsində təsviri incəsənət əsərinin özünəməxsus rolu vardır. İncəsənət əsəri və ya əyani təbliğat vasitəsi ətraf mühiti əks etdirərək onun dərk edilməsində insana yeni hisslər aşılayır.

Bir şəxs incəsənət əsəri ilə rastlaşırsa, onun mənəvi aləmində, emosiya və hisslərində, estetik tələbat və estetik təcrübəsində, əhvali-ruhiyyəsində dəyişiklik baş verir.

Tutaq ki, biz bir portreti, heykəltaraşlıq nümunəsini, təsviri sənət əsərini seyr etmək üçün muzeyə gedirik. Bu zaman muzeyə getməyin hansı tələblər baxımından aydınlaşdırılması lazımdırmı? Yəni, biz öz marağımızı üstələyə bilmədiyimiz üçün muzeyə gedirik, yoxsa estetik tələbatımızı ödəmək üçünmü?

Deməli, bunu aydınlaşdırmaq bizim qavrama qabiliyyətimizə təsir göstərir. Bunun üçün də hər hansı bir prosesi yüksək səviyyədə qavramaq üçün əyanilik köməyə gəlir.

Teatr və kino haqqında söhbət açdığımız zaman musiqinin də əyani təbliğat vasitəsi kimi qeyd etməyə bilmərik.

Musiqi insanın hisslərini açıqlayan bir vasitədir. Musiqi kədəri, ağrını, sevinci, şən əhvali-ruhiyyəni ifadə edir. Musiqi əsəri yaranarkən, bəstəkar yalnız notları bir-birinin ardınca düzmür, o həm də ürəyinin bir parçasını, əhvali-ruhiyyəsini bu əsərdə ifadə edir. Elə əsərlər vardır ki, dinləyici onun adını belə bilmir, lakin yüksək təsir qüvvəsinə malik olması ilə dinləyicinin yaddaşına həkk olunur. Bu baxımdan mədəniyyət müəssisəsində keçirilən tədbirlərdə (tematik gecə, sual-cavab gecələri, viktorinalar və s.) musiqinin əyani təbliğat vasitəsi kimi çox geniş imkanları var.

Əyani təbliğatın döyüşkən ruhunu nəzərə alsaq, onda musiqinin səfərbəredici bir gücə malik olmasını görərik. Dövrümüzün tələbləri baxımından yaranmış əsgər marşları, qəhrəmanlıq nəğmələrini misal göstərmək olar.

Geniş tamaşaçı kütləsini əhatə edən televiziyanın, həm psixoloji, həm də pedaqoji cəhətdən yüksək imkanları var. Əyaniliyin daha çox qəbul edildiyi bu forma pedaqoji-psixoloji təsir vasitəsidir.

Bildiyimiz kimi, əhalinin çox az hissəsi mədəniyyət müəssisələrinə gedir, lakin 90 faizi gününü televiziya qarşısında keçirir. Buna görə də, televiziyada verilən verilişlər



öz tərbiyəvi funksiyasına görə seçilməlidir. Milli xüsusiyyətləri nəzərə alaraq, bütün tərbiyə formalarını işıqlandırmalıdır. Günün aktual məsələləri ilə bağlı verilişlər hazırlanmalıdır.

Yuxarıda dediyimiz kimi, ideoloji işin əyani təbliğat və təşviqat vasitələri ilə aparılmasında milli televiziyanın daha geniş imkanları vardır. Məsələn, gənclərə hərbi vətənpərvərlik ruhu, düşmənə qalib gəlmək hissi aşılamaq üçün milli televiziyada vətənpərvərlik ruhlu tədbirlər hazırlanmalıdır. Bu silsilədən «Vətəndaş», «Ağsaqqal sözü», «Milli qəhrəmanlarımız», «Azərbaycan əsgəri», «Arxa da cəbhədir» sənədli publisistik və «Bura Vətəndir», «İgid əsgər möhkəm dayan», «Durna teli», «Bu vətən sənindir» kimi başlıqlar altında verilən publisistik, musiqili-bədii proqramları göstərmək olar.

Vətəndaşlıq, vətənpərvərlik tərbiyəsinin təbliği baxımından mətbuatın da əyani vasitə kimi imkanlarını qeyd etmək lazımdır.

Mətbuatda verilən şüarlar, plakatlar daha təsiredici qüvvəyə malikdir. Əgər mətbuatda gedən jurnalist qeydləri çoxlarının gözündən qaçırsa, böyük şriftlərlə, gözəçarpan yerdə ilk səhifədə verilən şüarlar isə daha tez nəzər-diqqəti cəlb edir və daha təsiredici gücə malik olur.

«Ekran-efir» qəzetində rəssam Gündüz Əlizadənin mübarizə mövzusundakı plakatları, Vətən igidlərinə müraciətlər buna misal ola bilər. Yaxşı ola bilər ki, «hər şey cəbhə üçün, hər şey qələbə üçün» şüarı bütün qəzetlərin ilk səhifəsində verilsin.

Bütün bunlar onu göstərir ki, əyani təbliğat və təşviqat vasitəsi özünəməxsus hisslərlə yaranır, bu hisslər də bitkin fikir və döyüşkən emosiya yaradır, səfərbəredici ruh aşılayır.

Ümumiyyətlə, təbliğatın və təşviqatın bütün növləri-mətbuat, şifahi və əyani təbliğat, ədəbiyyat və incəsənət, radio və televiziya, müxtəlif texniki nailiyyətlər kütləvi ideya və emosional təsir vasitələri olduğundan məlumat verməyə, ideyaların, nəzəriyyələrin, elmi görüşlərin, əxlaqi və estetik anlayışların yayılmasına xidmət etməlidir.

Mədəniyyət müəssisələri pedaqoji fəaliyyət sahəsini əhatə edir. Pedaqoji fəaliyyətsə, psixoloji təsir qüvvəsinə malik olmalıdır. Əyani təbliğat və təşviqat vasitələrinin köməkliyi ilə insanın emossional hisslərinə təsir göstərərək onu tərbiyə etmək olar.

Fikrimizi əsaslandıraraq – Suraxanı rayonu, Qum adası NQÇİ-nin Qurban Abbasov adına Mədəniyyət Sarayının yüksək iş təcrübəsini xüsusi qeyd etmək olar. Onu da qeyd etmək lazımdır ki, müasir dövrün tələbləri baxımından, özünümaliyyələşdirmə ilə əlaqədar olaraq mədəniyyət sarayı əhalinin mənəvi cəhətdən zənginləşməsi, Vətənə məhəbbət, milli adət və ənənələrimizin qorunması və inkişaf etməsi üçün lazımi tədbirlər həyata keçirir. Bundan başqa, mədəniyyət sarayının geniş işıqlı otaqları, kiçik tamaşaçı zalı, rəqs qrupu üçün ayrılmış rəqs otaqları vardır. Bütün bunlar mədəniyyət sarayı kollektivinin Suraxanı rayon əhalisinə lazımi səviyyədə mədəni xidmət etməsi üçün əsaslı şərait yaradır. Mədəniyyət sarayının fasadında müxtəlif əyani təbliğat vasitələrindən geniş istifadə edilmişdir. İnteryer daha cəlbedicidir. İnteryerdə təsviri sənət əsərləri, habelə, «Heydər Əliyev və Azərbaycan mədəniyyəti» foto stendi göz oxşayır. İnteryerdə təsviri sənət əsərlərindən geniş istifadə daha çox tamaşaçı diqqətini özünə cəlb edir.

Mədəniyyət sarayında zəhmətkeşlərin mənəvi tətəbatının artması ilə əlaqədar olaraq bədii yaradıcılıq və tematik tədbirlərinin keçirilməsinə ciddi fikir verilir. Burada müharibə və əmək veteranları ilə gənclərin görüşlərinin keçirilməsi, ənənəvi bir hal almışdır.

Bu gün əyani təbliğatın insan düşüncəsinə təsiri bir sıra faktorlardan asılıdır. Bu cür faktorların öyrənilməsi və təsirinin yüksək səviyyədə qalxması üçün əhali arasında sosioloji tədqiqat işi aparılır. Bu tədqiqatlar mədəniyyət müəssisələrində təbliğatın hansı formasının, hansı şəkildə (mətbuat, kino, radio və televiziya, bədii əsər, şüar, plakat və s.) müasir dövr üçün daha effektli təsir etməsini müəyyən edir. Sosioloji tədqiqatlar apararkən aşağıdakıları nəzərə almaq lazımdır:



1. Əyani təbliğat və təşviqat vasitələrinin tərtibatının prinsiplərini müəyyən etmək. Mövzusunu müəyyənləşdirmək. Konkret olaraq kimlərin nəzərdə tutulduğunu aydınlaşdırmaq;
2. Təsiretmənin nə dərəcədə olmasını müəyyənləşdirmək;

Əyani təbliğat və təşviqat vasitələrinin müsbət və mənfi cəhətlərini aydınlaşdırmaq. Anket, müsahibə, sorğu metodu ilə təkliflər yığmaq və bunlardan əyani təbliğat və təşviqat vasitələrinin rolunun yaxşınlaşdırılmasında istifadə etmək;

3. Əyani vasitələrin emosional səviyyəsini öyrənmək və bu vasitələrdən harada və hansı məqsədlə istifadə olunmasını müəyyənləşdirmək.

Beləliklə, müasir dövrdə əyani təbliğat və təşviqat vasitələrinin mahiyyəti, əhəmiyyəti və istifadəsindən bəhs edərkən cəmiyyətimizdə cərəyan edən proseslərə də ciddi diqqət yetirilməlidir. Dünyada qlobal, regional və lokal hadisələrə yeni münasibətin müşahidə edildiyi bir vaxtda şablonçuluğa, stereotiplərə və vaxtı keçmiş ənənəvi formalara əsla yol vermək olmaz. Məqsəd bəşəri və milli-mənəvi dəyərlərin təbliğinə, dövlətçiliyin qorunmasına, demokratik, hüquqi, vətəndaş cəmiyyətinin yaradılmasına yönəldilməlidir. Yalnız bu halda mədəniyyət siyasətimizin uğurundan, sosial-mədəni sahənin məqsədyönlü idarəedilməsindən və mədəniyyət müəssisələrinin səmərəli fəaliyyətindən danışmaq olar.

# VII FƏSİL

# SOSİAL-MƏDƏNİ SAHƏNİN İDARƏEDİLMƏSİNİN ELMİ-NƏZƏRİ VƏ ƏMƏLİ MƏSƏLƏLƏRİ

## *7.1. Sosial - mədəni sahənin idarəedilməsi kulturoloji proses kimi*

Azərbaycan Xalq Cümhuriyyətinin varisi olan müstəqil, suveren Azərbaycan Respublikası özünün həm mübarizələrlə, ziddiyyətlərlə, qanlı hadisələrlə, həm də fərəhli olaylarla, nailiyyətlərlə zəngin olan tarixini — müstəqilliyin yeni mərhələsini yaşadığı bir vaxtda müasir dünya siyasətində qlobal, regional və lokal problemlərin, qloballaşma və mədəni inteqrasiya məsələlərinin həllinə yeni münasibət müşahidə edilməkdədir.

Demokratiyanın siyasi sistem kimi formalaşdırılmasını, yeni demokratik tipli mədəniyyətin yaradılmasını tələb edən bu prosesdə Azərbaycan Respublikası da fəal iştirak etməkdədir. Respublikada milli və bəşəri dəyərlərin sintezini, dünya təcrübəsinə inteqrasiyanı təmin edən mühitin formalaşdırılması yönündə həyata keçirilən islahatlar dünyanın sosial, mədəni, iqtisadi cəhətdən inkişaf etmiş dövlətləri səviyyəsinə çatmağa şərait yaradır. Sosial, mədəni, iqtisadi tərəqqiyə xidmət edən bu prosesdə qarşıya çıxan problemlər isə bilavasitə idarəetmədə və təhsil prosesində dünyanın mədəniyyət tarixinin, inkişaf təcrübəsinin öyrədilməsini, kompleks təlim-tərbiyə sisteminin qurulmasını, yaradıcılıq əlaqələrinin genişləndirilməsini zərurətə çevirir.

Artıq dünya dövlətləri, beynəlxalq aləmlə əlaqələr genişlənir, ictimai-siyasi, iqtisadi, mədəni həyatımızın tənzimlənməsi yönündə müxtəlif layihələr hazırlanır, qanunlar qəbul edilir. Dünya siyasətini müəyyənləşdirən dövlətlər, beynəlxalq təşkilatlar tərəfindən çoxsaylı mədəniyyət proqramları təklif edilir. Azərbaycan Respublikasının Konstitusiyası, Mədəniyyət haqqında Azərbaycan Respublikasının Qanunu çərçivəsində fəaliyyət göstərən mədəniyyət müəssisələrindən tutmuş, orta məktəblərə, ali



təhsil ocaqlarına qədər mədəniyyət siyasətinin təməl prinsiplərinin şərhinə cəhdlər göstərilir. Bu gün Milli şüurun oyadılması, siyasi mədəniyyətin və sosial yaşam tərzinin yüksəldilməsinə dair elmi-nəzəri əsərlər yazılır. Amma bunlarla yanaşı diqqətdən kənarda qalmış, mühafizəkar ideoloji stereotipləri özündə ehtiva edən, könül açmayan hallar, geriləmələr hələ də müşahidə edilməkdədir. Bu mənzərə mədəniyyət tariximizə laqeyd münasibətdə, bilavasitə kulturoloji fikrimizə qiymətli əsərlər bəxş etmiş mütəfəkkirlərin əsərlərinin nəşri və təbliğində, kulturologiyanın tədrisi prosesində, habelə, bütövlükdə mədəniyyət müəssisələrimizin idarəedilməsi prosesində də özünü göstərməkdədir.

Bu vəziyyət bir tərəfdən milli ideologiyamızın, mədəniyyət siyasətimizin qətiləşdirilmiş nəzəri, hüquqi və praktik icra mexanizminin olmamasından və ya yarıtmaz halından doğursa, digər tərəfdən də tarixən öz kültürünə laqeyd olub, yad kültürlərə heyranlıqla aludə olmuş, assimilyasiyaya uğramış «ziyalılar» nəslinin davam etməkdə olan öndərlik iddialarının, hakimiyyət niyyətlərinin nəticələridir. Hələ də əsli-kökü qarışıq olan, hər zaman «saraya» girmək imkanını özündə saxlayan və öz dilinə xor baxan «ziyalılar»ın əcnəbi dillərə, özgə kültürlərə olan meylləri bu gün də hakim azlıq tərəfindən qeyrət, şərəf, namus, aristokratlıq, ziyalılıq meyarı sayılmaqdadır.

Bu səbəbdəndir ki, türk tarixinə, onun bəşər mədəniyyətinə bəxş etdiyi töhfələrə həqarətlə baxan həmin azlığın, qeyri-milli ünsürlərin oxuduqlarının, yazdıqlarının və öyrətdiklərinin kökündə, mahiyyətində də məhz xalqı doğmalıqdan, özgürlükdən uzaqlaşdırmaq cəhdləri görünməkdədir. Bu cəhdlərdə şəxsi mənafelərin, siyasi məqsədlərin, ideoloji, dini missionerliyin hansının gizlənməsindən asılı olmayaraq-onlarda qeyri-insani, qeyri-bəşəri hisslər, manqurtlaşdırma niyyəti, istismarçı və istilaçı məqsədlər güdülməkdədir.

Bütövlükdə dünya mədəniyyətinin ümumi mənzərəsini canlandıran milli kültürlərin, müxtəlif etnosların, xalqların

təmsilçiləri olan alimlərin kulturoloji fikirdəki yeri və rolu, mədəniyyətin idarəedilməsi sahəsində xarici təcrübənin mənimsənilməsi zərurəti danılmazdır. Lakin son vaxtlar konkret olaraq respublikamız üçün nəzərdə tutulmamış proqramların Azərbaycan mühitində tətbiqi və təbliğinə olan cəhdlərin faydası ilə yanaşı, bu halın milli qürura, təəssübkeşlik hissinə malik yeni nəsil tərbiyələndirmək, yetişdirmək baxımından qüsurlu tərəfləri daha çoxdur. Çünki bu gün Azərbaycan cəmiyyətinin xarici dilləri bilən, kompüterdən baş çıxaran, internet vasitəsilə dünyaya «pəncərə açan» gənclərə ehtiyacı olduğu qədər və ondan daha artıq, heysiyyətli, qürurlu, vətənpərvər vətəndaşlara ehtiyacı vardır. Müasir mədəniyyəti mənimsəmək nə qədər önəmlidirsə, milli kültürümüzə sahib durmaq, ondan faydalanmaq bir o qədər mühümdür. M.Ə.Rəsulzadə 1932-ci ildə Berlində nəşr olunan «İstiqlal» qəzetindəki «Münəvvər mühacirin borcu» adlı məqaləsində[75] yazırdı ki, sadəcə texnikaçı, peşə sahibi hər zaman tapılar. Bu ehtiyacını bir millət, müvəqqəti bir zaman üçün əcnəbilərə müraciət surətilə də təmin edə bilər. Fəqət, heç bir zaman xaricə müraciət olunaraq bir vətənpərvər, bir milliyyətçi və bir istiqlalçı alınamaz. Milli ruhlu, vətənpərvər, istiqlalçı vətəndaş yetişdirmək işi ölkə rəhbərliyi, dövlət qurumları, kütləvi informasiya vasitələri, tədris və tərbiyə müəssisələri, mədəniyyət ocaqları və xüsusilə də ziyalılar ordusu tərəfindən həyata keçirilməlidir.

Əlbəttə, bəşər mədəniyyəti tarixini öyrənmədən, dünya xalqlarının kültürləri ilə tanış olmadan, incəsənəti dəyərləndirmə meyarlarına yiyələnmədən obyektiv, qlobal, demokratik düşüncə tərzinə, humanist, bəşəri hisslərə sahib olan mütəxəssis hazırlığı, vətəndaş yetişdirilməsi, insan tərbiyəsi imkansızdır.

Bu işi başarlı etmək, məqsədə doğru can atmaq üçün isə ilk növbədə milli kültürə sahib durulmalı, milli-mənəvi dəyərlər əxz edilməlidir. Çünki, millət əsasına, kültürəl özəlliklərə söykənmədən, xalqın adət-ənənəsini, şifahi və yazılı

[75] M.Ə.Rəsulzadə. Milli təsanüd. Ankara 1978, s.81-83.



ədəbiyyatını, bədii və iqtisadi məhsullarını mənimsəmədən bəşəri mədəniyyətə gedən yol da keçilməz olar. Millətin dil, din, əxlaq, hüquq, estetika, iqtisadiyyat və texnika ilə bağlı yaşayışının, həyat tərzinin ahəngdar bir bütünü olan kültür demokratik mahiyyət daşıdığı kimi həm də beynəlmiləl, bəşəri məzmun kəsb edir. "Deməli, bir beynəlmiləlçilik içində həm onu təşkil edən, bütün millətləri bürüyən ortaq bir mədəniyyət, həm də hər millətə aid milli kültürlərdən ibarət bir kültürlər kolleksiyası vardır"[76]. Bir sözlə, milli olmayan, xalqın, millətin işinə yaramayan heç bir şeydə bəşərilik də axtarılmaz.

Mədəniyyət siyasətimizdəki, idarəetmədəki mövcud nöqsanların, naqisliklərin əsas səbəblərindən biri də elə bu amillərin dəyərincə qiymətləndirilməməsi və hesaba alınmamasıdır. Halbuki, türk mədəniyyət tarixinin xalqın qan yaddaşına hopmuş, eləcə də kifayət qədər arxeoloji, yazılı və şifahi elə mənbələri var ki, bunların böyük əksəriyyətindən hələ lazımınca yararlanmamışıq.

Bu gün ictimai, iqtisadi, siyasi həyatda mədəniyyətin rolunun artması artıq dünya inkişafının müasir proseslərinin obyektiv qanunauyğunluğuna çevrilib. Bu səbəbdən respublikamızda bütün sahələrdə baş vermiş radikal dəyişikliklər (siyasi, hüquqi, iqtisadi, mənəvi) mədəniyyət sahəsinin idarəedilməsi sisteminə də yeni prinsiplərlə yanaşma zərurətini tələb edir və bu yöndə məqsədyönlü strategiyanın formalaşdırılması vacibliyini irəli sürür. Mədəniyyət sahəsinin perspektiv inkişafının müəyyənləşdirilməsində isə cəmiyyətin müasir inkişaf mərhələsinin mühüm xüsusiyyətlərini nəzərə almaq və təhlil etmək lazımdır.

Siyasi, iqtisadi və mədəni həyat sahələri bir-biri ilə qırılmaz tellərlə bağlı olduğu üçün cəmiyyətin inkişaf perspektivlərinə də kompleks halda yanaşmaq lazımdır. Xalqın mədəni və intellektual səviyyəsi cəmiyyətdə cərəyan edən bütün hadisələrə nüfuz edir. İqtisadiyyatın dirçəldilməsi də xeyli dərəcədə mədəni səviyyədən asılıdır. Bütün hallarda mədəniyyətin inkişafı cəmiyyəti xoş gələcəyə aparan ən mühüm amillərdəndir. Ona görə də bütün real imkanlardan

istifadə etməklə mədəniyyətin problemlərinin həllinə çalışmaq hamının borcudur.

Cəmiyyətin bütün aspektlərinə müdaxilə edən mədəniyyət fasiləsiz olaraq özünü yeni formalarda büruzə verir və onu hər hansı hüdudda saxlamaq çətindir. Ona görə də bu fenomen siyasəti idarə edən şəxslər, mədəniyyət və təhsil sahəsinin mütəxəssisləri, habelə yaradıcı işçilər qarşısında daima yeni vəzifələr qoyur.

Hazırkı dövrdə respublikamız qarşısında duran vəzifələrin geniş miqyası həmçinin xeyli dərəcədə cəmiyyətdə mədəniyyətin mühüm həyati roluna həmahəngdir.

İqtisadi sistemlərin müqayisəli xarakteristikası bazar iqtisadiyyatına keçməyin zəruriliyini təsdiq edir. Bu istiqamətdə müvəffəqiyyətin qazanılması dərəcəsində qlobal mədəniyyət problemlərin həllinin və mədəniyyət müəssisələrinin təsir gücünün də rolu danılmazdır. Çünki qlobal xarakterli problemlərin həllində, dünyanın siyasi, iqtisadi, mədəni hadisələrinin tənzimlənməsində beynəlxalq və milli mədəniyyət təşkilatlarının, müəssisələrinin mühüm əhəmiyyəti vardır.

İqtisadi infrastrukturda mədəniyyətin inteqrasiyası, intensiv təcrübə mübadiləsi məsələsi olduqca çətin və mürəkkəbdir. Mədəniyyət sektorunun maliyyələşdirilməsinin müxtəlif modellərinə ötəri bir nəzərdən məlum olur ki, bu sahəyə dünyada artıq dərəcədə çoxlu yanaşma vardır. Müxtəlif cəmiyyətlərdə onlardan məhz hansının istifadə olunmasının çətinliyi mövcuddur. Bu məsələni qısa müddətdə həll etmək mümkün deyil. Ən səmərəli və sərfəli yolu tapmaq üçün isə dərin araşdırmalara ehtiyac vardır. İndiki dövrdə müxtəlif modellərdən hansının seçilməsi, əsas götürülməsi mədəniyyət sahəsinin gələcək illərdəki vəziyyətini təyin edəcək.

Respublikamızda mədəniyyət siyasəti qarşısında duran o problemlərə nisbətən sakit nəzər yetirmək mümkündür ki, öz təbiətinə və miqyasına görə həmin problemlər bütün dünya mədəniyyətinin problemləri ilə üst-üstə düşür. Ümumiyyətlə isə mədəniyyət sahəsinin işinin təşkilində və



təkmilləşdirilməsində yeni mədəni siyasətin həyata keçirilməsi, bu sahədə çalışanların vəzifə və hüquqlarının qanunla tənzimlənməsi, həmçinin digər dövlətlər və beynəlxalq təşkilatlarla qarşılıqlı əlaqələrin yaranması diqqət mərkəzində durmalıdır.

Mədəniyyət sahələrinin maliyyələşdirilməsində qarşıya çıxan problemləri isə daxili və xarici imkanlardan istifadə etməklə aradan qaldırmaq mümkündür. Bu sahədə dünya dövlətlərinin, beynəlxalq təşkilatların gücündən maksimum istifadə etməklə yanaşı əsas mənbələri daxili imkanlarda axtarmaq lazımdır. Dövlət büdcəsindən ayırmalar, xarici investisiyalar, könüllü iştirakdan gələn vəsaitlərlə yanaşı, pullu xidmət sahələrinin genişləndirilməsi də vacibdir.

Mədəniyyət sahəsinin tələblərinə bu gün diqqət yetirmək lazımdır ki, həyatlarını bu sahəyə, onun tərəqqisinə həsr etmiş yaradıcı ziyalıların, onların zəngin təcrübələrinin, mədəniyyət təşkilatlarının, müəssisələrinin bütöv bir sisteminin dağılmasının qarşısını almaq mümkün olsun.

Mədəniyyət sahəsinin tələbatlarının ödənilməsində qısamüddətli planlarla kifayətlənmək olmaz. Həm də mədəniyyət sahəsi dövlət hesabına, qismən xarici yardımlar hesabına, habelə sahənin ehtiyatlarından kommersiya məqsədilə istifadəsinə yeni yanaşma hesabına, özəlləşdirmə və könüllü iştirak hesabına maliyyələşdirilməlidir.

Azərbaycan Respublikasında mədəniyyət sahəsində dövlət siyasətinin əsas prinsiplərini, vətəndaşların hüquq və azadlıqlarını, milli mədəniyyət sərvəti obyektlərinin qorunub saxlanmasını və inkişafını, mədəniyyət sisteminin demokratik əsaslarla təşkili və idarəolunmasını, mədəniyyət sahəsində fəaliyyətin hüquqi əsaslarını və beynəlxalq əlaqə formalarını müəyyənləşdirən «Mədəniyyət haqqında Azərbaycan Respublikasının Qanunu» mədəniyyət müəssisələrinin idarəedilməsi və iqtisadiyyatının da əsas müddəalarını və təməl prinsiplərini özündə ehtiva edir. Bu qanun mədəniyyət idarələrinin, təşkilatlarının və müəssisələrinin idarəedilməsində bütün xalqların mədəni özünəməxsusluğunun mənbəyi olan şifahi xalq yaradıcılığının, adət-

ənənələrin qorunmasını, mədəni sərvətlərin yaradılması, artırılması və yayılmasını, yaradıcı işçilərin sosial müdafiəsinin təmin olunmasını ən mühüm vəzifə kimi qarşıya qoyur.

Dünya sosializm sisteminin dağılması nəticəsində mədəniyyət sahəsində dövlət siyasətinə və mədəniyyətin maliyyələşdirilməsinə yenidən baxılması zəruriliyinin, inzibati-amirlik sistemindən bazar iqtisadiyyatı sisteminə keçidin reallaşdığı bir dövrdə mədəniyyət siyasəti sahəsində məsuliyyətin əhəmiyyətli bir hissəsi mədəniyyət işçilərinin üzərinə düşür. Mədəniyyət müəssisələrinin idarəedilməsi prosesində meydana çıxan çətinliklər bu məsuliyyətin ağırlığını daha da artırır. Belə ki, imperiya ideologiyasının mənəviyyatımıza vurduğu zərbələrin, siyasi həyatımızdakı təbəqələşmənin elmə, mədəniyyətə tətbiq olunmasının, mənəvi dəyərlərimizin ideoloji zəmində saf-çürük edilməsinin ağrı-acıları nəticə etibarilə bu gün də hiss edilməkdədir. Keçmiş İttifaq respublikaları arasında uzun illər mövcud olmuş mədəni-iqtisadi əlaqələrin qırılması qanunauyğun şəkildə bütün respublikaları demək olar ki, eyni problemlərlə üzləşdirdi. Lakin qərəzli siyasət nəticəsində müharibə vəziyyətinə gətirilmiş müstəqil Azərbaycanın bu problemlərdə payı ikiqat artıq oldu.

Mədəniyyət fenomeninin mahiyyətinə, təbiətinə, onun yeni iqtisadi şəraitdə düçar olduğu yerinin müəyyənləşdirilməsi probleminə müasir dövrdə yenidən baxılması, mədəniyyət sahəsində mövcud vəziyyətin düzgün qiymətləndirilməsi üçün bütövlükdə keçmiş ittifaq respublikaları qarşısında duran problemlərə kompleks halda yanaşmaq lazımdır. Çünki respublikamızda mövcud olan mədəniyyət müəssisələrinin əsası sovet ideologiyasının bərqərar olduğu bir dövrdə qoyulmuşdur. Daha doğrusu bu müəssisələr həmin dövrün bəhrəsidir. Ona görə də müasir ictimai-siyasi şəraitdə mədəniyyət müəssisələrinin vəziyyətindən və mədəniyyətimizin problemlərindən bəhs edərkən bir neçə mühüm amili nəzərə almalıyıq: ölkənin müharibə vəziyyətində olmasını, torpaqlarımızın iyirmi faizinin düşmən tapdağında olmasını,



bir milyondan artıq qaçqının olmasını, inzibati-amirlik sistemindən bazar iqtisadiyyatına keçid mərhələsinin çətinliklərini, dövlət büdcəsindən sosial-mədəni sahəyə ayırmaların ehtiyacları tam ödəmək səviyyəsində olmamasını və s. Əlbəttə bu amillərin siyahısını daha da artırmaq olar. Buna görə də bu qədər çətinliklərə məruz qalmış bir sahənin bütün problemlərini birdən-birə həll etmək mümkün deyil. Bu, hətta uzunmüddətli və çox ağır bir işdir.

Azərbaycan mədəniyyətinin inkişaf perspektivlərini müəyyən etməyə çalışarkən sivil dünyanın mədəni təcrübəsi ilə yanaşı mədəniyyətimizin yaxın keçmişdəki vəziyyətini təhlil etməyə də ehtiyac duyulur. Əgər bu vaxta qədər mədəniyyət müəssisələrinin strukturunda yaxşılığa doğru əhəmiyyətli dəyişikliklər nəzərə çarpmırsa, onlar öz fəaliyyətlərini faktik olaraq əsasən sovet dövründəki forma və vasitələrlə həyata keçirməyə çalışırlarsa, yeni fəaliyyət mexanizmləri hələ heç nəzəri formada da hazır deyilsə, onda bu təhlilin zəruriliyi daha qaçılmaz olur. Digər tərəfdən erməni işğalının mədəniyyətimizə gətirdiyi bəlaları da nəzərdən qaçırmaq olmaz. Belə ki, işğal olunmuş ərazilərdə mədəniyyət sərvətlərimiz talanmış, maddi və mənəvi mədəniyyət abidələrimiz dağıdılmışdır. Ermənilər təcavüz nəticəsində 500 tarixi memarlıq abidəsini, 100-dən çox arxeoloji obyekti, 22 muzey, 4 şəkil qalereyası və 808 klub müəssisəsini, 927 kitabxana, 85 musiqi məktəbi, 10 park, 4 dövlət teatrı və 2 konsert müəssisəsini planlı surətdə məhv etmiş, yaxud özününküləşdirmişlər. Belə bir vəziyyət mədəniyyət müəssisələrinin idarəedilməsi və iqtisadiyyatının təşkili ilə bağlı həlli müşkül olan bir sıra ciddi problemlər meydana çıxartdı.

Mədəniyyət müəssisələrinin üzləşdiyi çətinliklər içərisində şəxsi və işgüzar keyfiyyətləri müasir tələblərə cavab verəcək ixtisaslı kadrlar qıtlığı da başlıca əngəllərdəndir. Çünki, yalnız mədəniyyət sahəsində dövlət siyasətinin əsas prinsiplərini, vətəndaşların hüquq və azadlıqlarını, milli mədəniyyət sərvəti obyektlərinin qorunub saxlanılmasını və inkişafını, mədəniyyət sisteminin demokratik əsaslarla təşkili

və idarə olunmasını, mədəniyyət sahəsində fəaliyyətin hüquqi əsaslarını və beynəlxalq əlaqə formalarını müəyyən edən "Mədəniyyət haqqında Azərbaycan Respublikasının Qanunu"nun əsas müddəalarını həyata tətbiq edəcək, onu öz əməli fəaliyyətləri ilə reallaşdıracaq, bu qanunun işlək mexanizmini yaradacaq mütəxəssislər ordusu formalaşdırılacağı təqdirdə Azərbaycan mədəniyyətinin inkişafından, məqsədyönlü perspektivlərindən danışmaq olar. Belə bir məsuliyyətli vəzifənin həlli bütün səlahiyyətli dövlət və hökumət strukturları, qurumları ilə yanaşı təhsil müəssisələrinin keyfiyyət göstəricilərindən, tədris proqramlarının, dərsliklərin və s. səviyyəsindən də çox asılıdır.

1999-cu ilin statistik məlumatına əsasən Azərbaycan Respublikasında çalışan mədəniyyət işçilərinin ümumi sayı 10597 nəfərdir. 8 milyonluq bir respublika üçün bu böyük rəqəmdir və hər 1000 nəfərə düşən mədəniyyət işçilərinin sayına görə keçmiş ittifaqın digər respublikaları ilə müqayisədə qənaətbəxşdir. Mədəniyyət və incəsənətin müxtəlif sahələrində təhsilli kadrların, peşəkar işçilərin sayı getdikcə artmaqdadır. Onlarla təhsil ocağı mədəniyyət sahəsində kadr hazırlığını ildən-ilə artırır. Lakin belə səmərəli fəaliyyət və idarəçilik görüntüsündə çox vaxt kəmiyyət və keyfiyyət göstəricilərinin uyğunsuzluğu müşahidə edilir. Problemin tənzimlənməsi baxımından respublikamızda peşəkar mədəniyyət işçiləri hazırlayan əsas ali məktəb kimi Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində tədris proqramlarının və dərsliklərin müasir tələblərə cavab verəcək səviyyədə hazırlanması məsələsinə diqqətin daha da artırılması və mədəniyyətin müxtəlif sahələri üzrə kadr hazırlığı prosesinin təkmilləşdirilməsi istiqamətində göstərilən cəhdlər təqdirəlayiqdir.

İndiyədək respublikamızda mədəniyyət fəaliyyətinin tənzimlənməsi məqsədi daşıyan bir sıra qanunların qəbulu sevindirici haldır. Mədəniyyət müəssisələrinin iqtisadiyyatı və idarəedilməsinə birbaşa və ya dolayısı ilə aidiyyatı olan qanunlar bütövlükdə mədəniyyətimizin gələcək perspektivlərinin müəyyənləşdirilməsində əhəmiyyətli rol oynayır. O



cümlədən, «Mədəniyyət haqqında Azərbaycan Respublikasının qanunu» (1998), «Muzeylər haqqında Azərbaycan Respubliyasının Qanunu» (2000), «Tarix və mədəniyyət abidələrinin Qorunması haqqında Azərbaycan Respublikasının Qanunu» (1998), «Kitabxana işi haqqında Azərbaycan Respublikasının Qanunu» (1998), habelə müəllif və həmmüəllif hüququ haqqında, informasiya azadlıqları haqqında, kinematoqrafiya haqqında, memarlıq haqqında, şəhərsalmanın əsasları haqqında, milli arxiv fondu haqqında, turizm haqqında, reklam haqqında, müştərək kino istehsalı haqqında, Avropa konvensiyasına qoşulmaq haqqında və s. qanunlar bütövlükdə mədəniyyət sahəsində qanunvericiliyin əsaslarını müəyyənləşdirir.

Dövlətə məxsus mədəniyyət sərvətlərindən, bu sərvətlərin və milli mədəniyyətin inkişafı, mühafizəsi, təbliği və artırılması ilə məşğul olan mədəniyyət müəssisələri şəbəkəsindən, mədəniyyəti idarə edən orqanlardan, milli-mədəni əmlakın bərpası, mədəniyyət müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi ilə məşğul olan digər dövlət mədəniyyət təsisatlarından ibarət olan Azərbaycan Respublikasının dövlət mədəniyyət sistemi məhz bu qanunlar çərçivəsində fəaliyyət göstərir. Dövlət mədəniyyət sisteminə daxil olan bir təsisat kimi bütün mədəniyyət müəssisələri də fəaliyyətlərində bu qanunları rəhbər tutmalı, idarəetmə prosesini həmin qanunlar vasitəsilə tənzimləməlidirlər.

Mədəniyyət müəssisələrinin dövlət mədəniyyət sisteminin tərkib hissəsi kimi başlıca vəzifəsi milli mədəniyyət sərvətlərinin, dünya mədəniyyəti nümunələrinin etibarlı şəkildə toplanıb qorunaraq gələcək nəsillərə çatdırılmasından, onların əhali arasında geniş təbliğindən, Azərbaycan xalqının adət və ənənələrinə bağlı, milli və bəşəri, mənəvi və intellektual dəyərlərə yiyələnən, müstəqil və yaradıcı düşünən vətəndaşlar yetişdirilməsinə fəal yardım etməkdən ibarətdir.

Digər mədəniyyət təsisatları kimi mədəniyyət müəssisələri də mülkiyyət formasından asılı olaraq dövlət büdcəsindən, yerli büdcələrdən, xüsusi mülkiyyətçinin vəsaitləri, habelə özlərinin fəaliyyətindən əldə edilmiş gəlirlər

və Azərbaycan Respublikasının qanunvericiliyi ilə qadağan olunmamış digər mənbələr hesabına maliyyələşdirilirlər. Son vaxtlar mədəniyyət müəssisələrinin maliyyələşdirilməsində təsərrüfat hesablı fəaliyyətdən qazanılan gəlirlərə nə dərəcədə ümid bəsləmək məsələsinin müzakirəsi sübut etdi ki, mütəxəssislərin çoxu dövlət büdcəsindən ayırmalara daha çox üstünlük verirlər. Çünki mədəniyyət müəssisələrinin digər mənbələr hesabına maliyyələşdirilməsi daimi və müntəzəm xarakter daşımır. Təsərrüfat hesablı fəaliyyətə ifrat dərəcədə üstünlük verilməsi isə mədəniyyət müəssisələrinin əsas məqsəd və vəzifələrindən uzaqlaşma hallarına şərait yaradar, onların sosial funksiyalarının həyata keçirilmə imkanlarını məhdudlaşdırar. Mədəniyyət müəssisələrinin işinin təşkilində və iqtisadiyyatının idarəedilməsində təsadüfi yardımlara, əsas funksiyalardan uzaqlaşmaq hesabına təsərrüfat fəaliyyətinə bel bağlamaq olmaz. Bu sahənin inkişafı, müəssisələrin sosial funksialarından irəli gələn vəzifələr çərçivəsində, müxtəlif maliyyə mənbələrinin kompleks halda istifadəsi, uzlaşdırılması və tənzimlənməsi sayəsində mümkündür.

## *7.2. Mədəniyyət müəssisələrinin iqtisadiyyatı və idarəedilməsinin ümumi xüsusiyyətləri*

Bazar münasibətlərinə uyğun idarəçiliyin və sərbəst iqtisadi sistemin qurulması, inzibati-amirlik metodunun əvəzinə çoxsaylı təsərrüfatçı subyektlərə arxalanan təsərrüfat mexanizminin formalaşmasını tələb edir. Ona görə də uzun illər boyu iqtisadi nəzəriyyə ilə məşğul olan alimlər də, iqtisadi biliklərə yiyələnmək istəyən gənc nəsil də bazar münasibətlərinin xüsusiyyətlərini mənimsəməli, azad rəqabət şəraitində işləməyə alışmalıdırlar. Əgər nəzərə alsaq ki, Avropanın, Amerikanın və Asiyanın inkişaf etmiş ölkələrində bazar sisteminin təşəkkülü prosesi 300 ilə yaxın bir dövrü əhatə edir, deməli, bu, çətin və uzun sürən prosesdir.

Xalq təsərrüfatı sahələrinin tarazlı inkişafı, təsərrüfat mexanizmindəki mühüm dəyişikliklər idarəetmə məsələlərinə prinsipcə yeni qaydada yanaşılmanı tələb edir. Hər bir



təsərrüfat rəhbərinin, mütəxəssisin idarəetmə elminə yiyələnməsi, müasir dövrün ən başlıca və zəruri məsələsidir. Bütün peşə sahibləri kimi mədəniyyət işçiləri də idarəetmə elminə yiyələnməlidirlər. İdarəetmə elmi insanlarda müasir iqtisadi təfəkkürün formalaşmasına köməklik edir, təsərrüfat məsələlərinin həllinə qənaətcilliklə yanaşılması, idarəetmə vərdişi, yaradıcı, səriştəli iş üslubu aşılayır. Demokratik iş üslubunun formalaşması isə mədəniyyət müəssisələrinin düzgün inkişaf strategiyasının verilməsində, kadrların seçilməsində, habelə işgüzar sosial-iqtisadi əlaqələrin təkmilləşməsində mühüm əhəmiyyət kəsb edir.

Mədəniyyət müəssisələrinin idarəedilməsinin spesifik xüsusiyyətlərinə keçməmişdən əvvəl idarəetmə elminin əsas müddəalarını nəzərə çatdıraq.

İdarəetmədə ən başlıca məqsəd və vəzifə cəmiyyətin obyektiv imkanlarından istifadə olunmasını təmin etməkdir. İdarəetmə əslində cəmiyyətin potensialından istifadə etmənin mühüm amilidir. İdarəetmə həm də insanların əmək fəaliyyətinin təşkil edilməsi və səfərbərliyə alınmasının başlıca formasıdır. Bu baxımdan XX əsri idarəetmə əsri də adlandırırlar.

İdarəetmə ictimai-iqtisadi münasibətlərin məqsədəuyğun təşkil edilməsini, konkret olaraq müəssisənin şöbələri, bölmələri arasındakı əlaqəni təmin edir. İdarəetmə əvvəlcədən nəzərdə tutulmuş və dərk edilmiş məqsədə nail olmaq, nəticələr əldə etmək üçün hər hansı bir obyektə məqsədəuyğun təsiretmə vasitəsidir. İdarəetmə bütün obyektiv qanunlar sisteminin tələblərinin, habelə müasir cəmiyyətə xas olan ictimai, kollektiv və şəxsi mənafelərin həyata keçirilməsi mexanizmidir.

İdarəetmə prosesi təbiətin, cəmiyyətin bütün hadisələrinə xas olan bir prosesdir. Bununla əlaqədar olaraq, idarəetmənin üç əsas növü vardır:

1) Cansız təbiətin idarəedilməsi;
2) Canlı təbiətin, orqanizmin idarəedilməsi;
3) Şüurlu, sosial idarəetmə - cəmiyyətin idarəedilməsi.

Hər bir idarəetmə növü öz növbəsində müxtəlif sahələrə ayrılır. Məsələn, sosial idarəetməyə aşağıdakılar aiddir: cəmiyyətin, ictimai istehsalın idarə olunması, dövlət idarəetmə sisteminin, ictimai təşkilatların idarəedilməsi və s. Bütövlükdə isə idarəetmə sistemini üç iri sahəyə bölmək olar: siyasi idarəetmə, iqtisadi idarəetmə və dövlət idarəçiliyi.

İdarəetmənin konkret obyektləri aşağıdakılardan ibarətdir: ayrı-ayrı müəssisələr (eləcə də mədəniyyət müəssisələri) və təşkilatlar, xalq təsərrüfatının ayrı-ayrı sahələri, bütövlükdə xalq təsərrüfatı və cəmiyyət, cəmiyyətdə baş verən iqtisadi, hüquqi və ideoloji proseslər.

İdarəetmə elminin məzmunu isə aşağıdakıları əhatə edir: idarəetmə nəzəriyyəsi, idarəetmənin təşkili, idarəetmə metodları və idarəetmə texnikası. Bu bölmələrin hər biri öz növbəsində bir sıra idarəetmə məsələlərindən ibarətdir. Lakin idarəetmə elminin məğzi əsasən idarəetmə münasibətlərindən ibarətdir. İdarəetmə prosesi ilk növbədə münasibətlər problemi ilə əlaqədardır. Cəmiyyətdə baş verən ictimai münasibətlərin iqtisadi, ideoloji, hüquqi, etik, psixoloji, mədəni və s. növləri vardır. İstehsal münasibətləri idarəetmə münasibətlərini müəyyən edən başlıca şərtdir. İdarəetmə münasibətləri inzibati-hüquqi, təşkilati, psixoloji tipli münasibətlər kimi də təzahür edir. Adamları inandırmaq, şəxsi nümunələr əsasında idarə etmək lazımdır. İdarəetmə cəmiyyətin həyatında fəal rol oynamalıdır. Cəmiyyətin iqtisadi, sosial-siyasi və mənəvi həyatı xeyli dərəcədə həmin münasibətlərin formalaşmasından, keyfiyyətindən asılıdır. İdarəetmə münasibətləri mədəniyyəti idarədən və idarə olunanın peşəkarlıq səviyyəsindən, onların siyasi, mədəni dünya görüşündən və həyat tərzindən asılıdır.

İdarəetmənin bütün obyektləri kimi mədəniyyət müəssisələrinin idarəedilməsində də yuxarıda göstərilən şərtlər nəzərə alınmalıdır. İdarəetmə prosesinin düzgün istiqamət alması, əməyin elmi təşkili üçün idarəetmə elminin qanunlarına, prinsip, funksiya və metodlarına dərindən yiyələnmək lazımdır. İdarəetmədə kargüzarlıq işlərinə, informasiya təminatına diqqət yetirmək lazımdır. İdarəçilik



sahəsində inkişaf etmiş ölkələrin iş təcrübəsindən, Qərb nəzəriyyələrinin hazırda tətbiq olunan formalarından, eləcə də mədəniyyət müəssisələri ilə təcrübə mübadiləsindən istifadə etmək lazımdır.

Rəhbərlik fəaliyyətinin idarəçiliyin əsas şərtlərindən biri olduğunu nəzərə alaraq rəhbərin şəxsi və işgüzar keyfiyyətlərinə, onun iş stilinə, işçilərə olan münasibətlərinə xüsusi diqqət yetirmək lazımdır. Rəhbərin psixoloji keyfiyyəti, birinci növbədə, psixoloji mexanizmlərlə bağlıdır. Müəssisə rəhbəri sosial-lider, intellektual-lider və *inzibatçı-lider* xüsusiyyətlərinə malik olmalıdır. O, siyasi yetkinliyi, intizamlılığı, iş qabiliyyəti, məsuliyyəti, təşəbbüskarlığı, mənəvi keyfiyyətləri ilə şəxsi nümunə göstərməlidir. Eləcə də iqtisadi, siyasi, mədəni bilik səviyyəsi, ümumi dünyagörüşü ilə də fərqlənməlidir.

Müasir dövrdə – insanların şüurunun artdığı, mədəni-texniki səviyyəsinin yüksəldiyi bir şəraitdə mədəniyyət işçisinin sosioloji-psixoloji amillərə, bu amillər vasitəsi ilə işçilərə təsiretmə qabiliyyətinə malik olması son dərəcə vacibdir.

Rəhbərlik fəaliyyəti və psixologiyası özündə aşağıdakı məsələləri ehtiva edir:

- Demokratik qaydalı rəhbərlik iş stili;
- Rəhbərliyin sosioloji-psixoloji cəhəti;
- Sosial psixologiya və adamlar arasındakı münasibətin təşkili;
- Qrup və kollektivin psixologiyası;
- Başqasının fikrinə hörmət etmə;
- Tənqidə, aşkarlığa meyl oyatma;
- Əmək və ictimai fəallığın stimullaşdırılması və s.

Hər bir işçidən, müəssisə, təsərrüfat rəhbərindən sosial-psixoloji məsələlərin dərindən öyrənilməsi, idarəetmə prosesində bu amillərin nəzərə alınması tələb olunur.

Bu gün cəmiyyətimizin bütün sahələri kimi mədəniyyət müəssisələri də bir çox problemlərlə üzləşir. Maliyyə vəsaitinin çatışmaması, bazar iqtisadiyyatının tələbləri, torpaqlarımızın 20%-nin düşmən tapdağı altında olması və s. problemlər öz

təsirini mədəniyyət sahəsinə də göstərmişdir. Təəssüflə qeyd etmək lazımdır ki, indiyə kimi mədəniyyət sahəsində islahat xarakterli, əhəmiyyətli bir iş görülməyib.

Lakin bütün çatışmazlıqlara baxmayaraq, mədəniyyət müəssisələri də obyektiv gerçəkliyə uyğunlaşmaq məcburiyyətindədir. Hazırda bir çox mədəniyyət müəssisələri təsərrüfat hesabı və özünü maliyyələşdirmə yolunda müəyyən addımlar atmaqdadır.

Uzun müddət ölkəmizdə müəssisələrin maliyyələşdirilməsi mərkəzləşdirilmiş dövlət büdcəsindən həyata keçirilmişdir. Xalq təsərrüfatının inkişafı üçün belə maliyyələşdirmə zəruri olmuşdur. Həqiqətən də istər mədəni tələbatların, istərsə də digər maddi tələbatların ödənilməsi üçün mərkəzləşdirilmiş maliyyə fondlarının böyük əhəmiyyəti vardır ki, dövlət büdcəsi belə maliyyə fondlarının yaradılmasının başlıca iqtisadi formasıdır.

Dövlət büdcəsi müəyyən dövr üçün mədaxil və məxariclərin qeyd olunduğu smetadır. Burada vəsaitlərin haradan daxil olduğu və hansı məqsədlərə yönəldiyi göstərilir. Dövlət büdcəsi bir illik müddət üçün tərtib edilir və Azərbaycan Respublikası Prezidentinin təqdimatı ilə Milli Məclisdə təsdiq edilir.

Dövlət büdcəsinin mahiyyəti və rolu, onun mədaxil və məxaricinin strukturu dövlətin sosial-iqtisadi təbiəti ilə, məqsəd və vəzifələri ilə müəyyən edilir. Dövlət büdcəsinin başlıca göstəriciləri onun mədaxil mənbələrinin sabitliyi, defisitin olmaması, maliyyə ehtiyatlarının fasiləsiz artmasıdır. Dövlət büdcəsinin tərkib hissələrindən biri dövlət sosial sığortasıdır.

Dövlət büdcəsinin əsas hissəsi gəlirlərdən ayırmalar və müəssisələrin pul dövriyyəsindən vergilərin tutulması yolu ilə əmələ gəlir. Bura əlbəttə, xarici ticarət, gömrükxana və s. daxildir. Büdcənin bir qismini əhalidən tutulan vergilər təşkil edir.

Dövlət büdcəsinin xərcləri aşağıdakı məqsədlərə yönəldilir: xalq təsərrüfatının maliyyələşdirilməsi, sosial-mədəni tədbirlər və s. (bura təhsil, səhiyyə, sosial-təminat,



mədəni-maarif işi, yəni klub müəssisələrinin, kitabxanaların, eləcə də radio və televiziyanın, bədən tərbiyəsi müəssisələrinin maliyyələşdirilməsi daxildir).

Büdcə maliyyələşdirilməsi təsdiq edilmiş büdcəyə uyğun olaraq, müəssisə, idarə və təşkilatlara öz fəaliyyətlərini həyata keçirmək və inkişaf etdirmək üçün dövlət tərəfindən qaytarılmamaqla büdcə vəsaiti verilməsidir. Büdcə maliyyələşdirilməsi təsərrüfat hesablı müəssisə və təşkilatların maliyyələşdirilməsindən və smeta maliyyələşdirilməsindən ibarətdir. Dövlət büdcəsindən bir qayda olaraq, yenidən tikilən müəssisələrin əsas və dövriyyə fondlarına vəsait qoyuluşu maliyyələşdirilir, habelə fəaliyyətdə olan müəssisələrin öz ehtiyatları çatmadıqda əlavə vəsait ayrılır.

Yeni təsərrüfat şəraitinə keçən müəssisələr öz ehtiyatları çatmadıqda kreditdən də istifadə edir və sonradan onu təsərrüfatdaxili ehtiyatlardan ödəyir. Yeni müəssisələrin bir hissəsinin tikilməsi də bu ehtiyatlar və bank krediti hesabına maliyyələşdirilir. Smeta maliyyələşdirilməsi qeyri-istehsal sahəsi təşkilatlarının əksəriyyətini (məktəbləri, xəstəxanaları, mədəniyyət müəssisələrini və s.) əhatə edir. Onların fəaliyyətinin genişləndirilməsi üçün xərclər bütünlüklə büdcədən ödənilir və bu təşkilatların əldə etdikləri bütün gəlirlər büdcə gəlirinə köçürülür. Büdcə maliyyələşdirilməsi aşağıdakı prinsiplərdə qurulur: məsrəflərin həcminin elmi əsaslarla müəyyən edilməsi, vəsait buraxılmasının ciddi məqsədli olması, planın yerinə yetirilməsi dərəcəsinin uçotu, vəsaitdən düzgün və səmərəli istifadə edilməsinə nəzarət.

Dövlət mədəniyyət müəssisələri bir qayda olaraq yerli büdcələrdən maliyyələşdirilir. Mədəniyyət müəssisələrinin şəbəkəsinin artması, onlar üçün kadr hazırlığı, bu müəssisələrin maddi bazasının möhkəmləndirilməsi məhz büdcə vəsaitləri hesabına mümkün olur.

Mədəniyyət müəssisələrinin gündəlik fəaliyyəti, onların səmərəlilik dərəcəsi xeyli dərəcədə maliyyələşdirilmədən asılıdır. Təcrübədə mədəniyyət müəssisələrinin büdcə ilə əlaqəsinin iki forması mövcuddur:

Bunlardan birincisi, mədəniyyət müəssisələrinin cari fəaliyyətini və eləcə də onun gələcək inkişafı üçün bütün vəsaitlərin bülcədən alınmasını nəzərdə tutur. Büdcə ilə belə əlaqə demək olar ki, bütün dövlət mədəniyyət müəssisələri üçün xarakterikdir.

Büdcə ilə əlaqənin ikinci forması təsərrüfat hesabı prinsiplərinə əsaslanır. Bu zaman müəssisələr büdcədən yalnız çatışmayan vəsaitləri ala bilərlər. Ola bilər ki, müəssisə büdcə yardımına ümumiyyətlə müraciət etməsin. Onlar planlaşdırılan gəlir hesabına öz ehtiyaclarını ödəyə bilərlər. Bəzi müəssisələr hətta büdcəyə də gəlir gətirə bilər. Əlbəttə, bunun üçün əlavə gəlir olmalıdır, bütün plan xərcləri ödənildikdən sonra buna yol vermək olar. Belə maliyyələşdirilmə formasında işləyən mədəniyyət müəssisələrinə mədəniyyət və istirahət parklarını, zooparkları, kinoteatrları nümunə göstərmək olar.

Beləliklə, bu forma mədəniyyət müəssisələri üçün daha geniş meydan açır.

Müəssisələrin smeta-büdcə maliyyələşdirilməsinin əsasında müəyyən prinsiplər durur, bu prinsiplərə riayət olunması dövlət vəsaitinin düzgün və qənaətlə xərclənməsinə şərait yaradır. Maliyyə işlərində hər cür prinsip yalnız onun üçün tətbiq olunur ki, müəssisənin işi daha səmərəli və dövlət qanunlarına müvafiq formada aparılsın. Prinsiplər qaydalarda, əsasnamə və qanunlarda öz ifadəsini tapır, bu isə maliyyə təsərrüfat işlərində müəyyən intizama riayət olunmasına kömək edir, müəssisənin planauyğun surətdə idarə olunmasına şərait yaradır.

Smeta-büdcə maliyyələşdirilməsinin mühüm prinsiplərindən biri dövlət tərəfindən buraxılmış vəsaitlərin planda nəzərdə tutulmuş məqsədlərə xərclənməsidir. Bu prinsip hər bir mədəniyyət müəssisəsinin məqsədli surətdə maliyyələşdirilməsini göstərir. Xərclərin xarakteri, maliyyələşdirilmənin həcmi, buraxılan vəsaitlərin nə dərəcədə məqsədəuyğun olması müəssisəsinin cari ildəki fəaliyyətinin məzmun, forma və həcmindən asılıdır.



Smeta-büdcə maliyyələşdirilməsinin digər prinsipi vəsaitlərin yalnız sahələr üzrə buraxılmasıdır. Klublar, kitabxanalar, muzeylər və s. mədəni-maarif işinin digər sahələri kimi müstəqil olaraq maliyyələşdirilir. Bu prinsipin başlıca məqsədi bu və ya digər mədəniyyət müəssisəsinin konkret tələblərindən çıxış edərək maliyyə vəsaitlərinin müəyyən edilməsidir. Lakin hər bir müəssisənin xüsusiyyətini daha tam şəkildə əks etdirmək üçün hər müəssisənin fərdi məxaric smetası ayrıca tərtib olunmalıdır. Məxaric smetası maliyyə planıdır. Burada maliyyələşdirmənin həcmi ilə yanaşı vəsaitlərin konkret xərclənməsi də göstərilir. Buradan təbii olaraq daha bir prinsip meydana çıxır: bu və ya digər müəssisənin, xərclərin növlərinə görə, yəni büdcə təsnifatının məxaric maddələrinə görə maliyyələşdirilməsi. Beləliklə, maliyyələşdirmənin sahəvi, maddələr üzrə verilməsi prinsipləri ilə yanaşı, konkret smetaya əsasən bölüşdürülməsi hər bir mədəniyyət müəssisəsinin mütləq qanunlarından biridir. Vəsaitlərin buraxılmasının bu qaydası mədəni-maarif işinin məzmunu, keyfiyyəti haqqında, onun rəhbərinin təsərrüfat başçısı kimi qabiliyyəti haqqında məlumat verir. Eyni şəraitdə fəaliyyət göstərən mədəni-maarif müəssisələrinin işinin müxtəlif səviyyəli olması bir çox cəhətdən smeta-büdcə maliyyələşdirilməsinin prinsiplərinə düzgün riayət olunması ilə izah olunur.

Mədəniyyət müəssisənin cari maliyyə vəsaitlərinin həcmini müəyyən etmək üçün başlıca meyar onun illik iş planıdır. Burada mədəni-maarif işini daha da inkişaf etdirmək üçün başlıca tədbirlərin siyahısı və həcmi göstərilməlidir. Həmçinin maddi bazanın zənginləşdirilməsi yolları qeyd olunmalıdır.

Müəssisənin məxaric smetası növbəti il üçün tərtib olunarkən məxaric normalarına riayət etmək lazımdır. Məxaric normaları mərkəzi və yerli dövlət orqanları tərəfindən müəyyən edilir. Norma dedikdə eyni xarakterli xərclərin vahid qiymətləri nəzərdə tutulur. Məsələn, mədəniyyət müəssisələrinin vahid ştatları və ya binanı qızdırmaq üçün vahid qiymətlər dövlət orqanları tərəfindən

müəyyən edilir. Belə normalar olmadan müəssisənin fəaliyyəti üçün zəruri olan vəsaitlərin ümumi məbləğini müəyyən etmək qeyri-mümkündür. Büdcə xərclərinin normalaşdırılması mədəniyyət müəssisələrinin praktik fəaliyyətində mühüm rol oynayır. Normalaşdırma ayrı-ayrı xərclərin xarakteri və həcminə təsir göstərir. Eyni vəziyyətdə olan müəssisələrin eyni iş səviyyəsinə nail olmasına şərait yaradır, buraxılan vəsaitlərin məqsədli və qənaətlə xərclənməsinə nəzarət edilməsinə imkan verir. Büdcə xərclərinin normalaşdırılması məxaric smetasının tərtibinin mühüm metodlarından biridir.

Normaların üç növünü fərqləndirirlər: maddi, maliyyə və büdcə.

Maddi normalara elə xərclər daxildir ki, onlar natural formada müəyyən ölçü vahidi ilə ifadə edilir. Məsələn, yanacağın sərf olunması (ağac-kubmetrlə, kömür-tonla) mövsüm ərzində bir qazanxana və ya bir soba üçün, elektrik enerjisinin sərf olunması kilovat saatlarla və s. Büdcə tərtib edilərkən maddi normalar əsas hesab edilir. Onlar imkan verir ki, maliyyələşdirmənin ölçüsü tam müəyyən edilsin, xərclərin xarakteri təyin edilsin. Bu məqsədlə fərdi maddi normalar mövcuddur, onlar müəssisənin yerləşdiyi iqlim şəraitindən asılı olaraq müəyyən edilir.

Məxaric smetası, məlumdur ki, özünün son göstəricisi kimi xərclərin cəmini ifadə edir. Bunun üçün də büdcə tərtib edərkən maddi normaların hər birinə dövlət qiymətlərini bilmək zəruridir. Yalnız belə şəraitdə biz maliyyə normalarının ölçüsünü müəyyən edə bilərik.

Deməli, maliyyə norması maddi normanın dövlət qiymətinə vurulması deməkdir.

Aydınlaşdırmaq üçün nümunəyə müraciət edək. Fərz edək ki, mədəniyyət müəssisəsinin binasının qızdırılması üçün məsrəf olunan yanacağın qiymətini müəyyən etmək lazımdır. Binada beş soba işləyir. Müəssisənin yerləşdiyi ərazidə havaların soyuq keçdiyi müddət 7 aya bərabərdir. Hər bir sobaya ayda 1,5 kub metr odun tələb olunur. Yanacağın ümumi mövsüm üçün həcmini müəyyən edək:



5x1,5 =7,5 kubmetr 7,5x7=52,5 kubmetr

Beləliklə, demək olar ki, mövsüm ərzində müəssisəyə 53 kubmetr odun tələb olunur. İndi isə hər kub metrin qiymətini (fərz edək ki, 5000 manat) bildikdən sonra maliyyə normasını müəyyən edə bilərik:

$$53x5000 = 265000$$

Beləliklə, müəssisəyə 265000 manat pul lazımdır ki, payız-qış dövründə binanı qızdıra bilsin.

Büdcə norması maliyyə normasının bir hissəsini də təşkil edə bilər. Mədəniyyət müəssisəsində büdcə normasını aşağıdakılar təşkil edir:

Əmək haqqına sərf olunan xərclər, təsərrüfat təminatı, ezamiyyətlərin ödənilməsi, xidməti gedişlər, avadanlığın, inventarın, musiqi alətlərinin alınması, mətbuata abuna yazılışı, repertuar materialı və s.

Bütün normaları mütləq (daimi) və fakültətiv (yerli) normalara ayırırlar. Mütləq normalara aşağıdakılar daxildir:

Vəzifə okladları, ezamiyyə və xidməti gedişlərin ödənilməsinin məxaric normaları. Mütləq normalar dövlət orqanları tərəfindən müəyyən edilir.

Yerli (fakültətiv) normalara müəssisənin saxlanılması üçün lazım olan bütün xərclər aiddir: istilik, işıq, su təchizatı, təmizlik, rəngləmə, əsaslı və cari təmir və s.

Normaların bu növlərini yerli dövlət orqanları və ya ayrı-ayrı idarələr maliyyə orqanları ilə birlikdə müəyyən edirlər. Burada hər şeydən əvvəl yerli şəraitdən irəli gələn spesifik xüsusiyyətlər əks olunmalıdır. Məsələn, istilik normaları şimal rayonlarında bir cür, cənub rayonlarında başqa cür ola bilər.

Mədəniyyət müəssisələrinin rəhbərləri büdcə normalarını bilməklə, smeta xərclərini daha böyük professionallıqla əsaslandıra bilərlər.

Məxaric smetası maliyyə planının ifadə forması kimi bütün xərclərin cəmi deməkdir. Bu smetanı tərtib etmək üçün

təkcə büdcə normaları deyil, həm də planlaşdırılan tədbirlərin məzmunundan irəli gələn göstəricilər də lazımdır. Məxaric smetası müəssisənin fəaliyyəti üçün zəruri olan vəsaitlərin büdcədən ayrılması deməkdir.

Müəssisənin cari xərclərinə aşağıdakılar aiddir: ştatda olan işçilərin əmək haqlarının ödənilməsi, binanın cari təmiri, istilik, işıq, su təchizatı, kanalizasiya avadanlığı, təsərrüfat inventarının, musiqi alətlərinin, yanğından mühafizə vasitələrinin alınması və s.

Fəaliyyətin genişləndirilməsi üçün əsaslı kapital qoyuluşu tələb olunur. Mədəniyyət müəssisələrində bu özünü, binanın yenidən tikilməsi, otaqların sayının artırılması, əsaslı surətdə avadanlıq alınması, inventar alınması formasında göstərə bilər. Bütün bunlar planlı şəkildə müəyyən edilmiş limitlərə uyğun olaraq həyata keçirilir.

Beləliklə, mədəniyyət müəssisələrinin smetası bütün xərclərin xarakterini müəyyən edir. Məqsədli xərclərin daha tam müəyyən edilməsi üçün təcrübədə büdcə təsnifatının müvafiq maddələri mövcuddur.

Bu maddələrin hər biri müəyyən çərçivələrlə məhdudlaşdırılmışdır. Hər bir maddə tamamilə konkret xərcin məqsəd və xarakterini göstərir. Heç də bütün büdcə təşkilatlarında maddələrin hamısı tətbiq olunmur. Lakin bütün maddələrin məzmun və əhəmiyyətini bilmək tələb olunur. Mədəniyyət müəssisələrinin maliyyələşdirilməsində ən çox istifadə edilən maddələri bir-bir nəzərdən keçirək:

I maddə-əmək haqqı. Bu maddə mədəniyyət müəssisələrinə də aiddir və ştatda olan işçinin əmək haqqını nəzərdə tutur. Burada əmək haqqına əlavələr, mükafatlar, uzun illər işləməyə görə əlavələr hesablanır. Bu maddə ciddi şəkildə limitləşdirilir. Müəssisə rəhbəri bu maddədə nəzərdə tutulmuş vəsaitləri başqa məqsədlərə xərcləyə bilməz.

Ştatdankənar tərkibli işçilər üçün əmək haqqı başqa maddələrdə nəzərdə tutulur. Məsələn, bu, cari və əsaslı təmirlə əlaqədar ola bilər. Belə olduqda təmir edən fəhlələrin əmək haqları «III» və «XVI» *maddələr üzrə ödənilir.*



II maddə - əmək haqqına əlavələr. Ölkəmizdə sosial sığortaya böyük vəsaitlər ayrılır. Müvəqqəti əmək qabiliyyətini itirməyə görə, sanatoriyalara, istirahət evlərinə, turist bazalarına göndərişlərin verilməsi, müxtəlif vəsaitlərin verilməsi və s. Dövlət və həmkarlar ittifaqları tərəfindən ümumi əmək haqqı fonduna ayırmalar müəyyən edilir. Mədəniyyət müəssisələri üçün bu adətən 5,5 faiz təşkil edir.

Ayırmalar hər dəfə əmək haqqı ödənilərkən verilir. Sosial sığorta üzrə üzvlük haqları əmək haqqı fondu hesabına deyil, bu fonddan əlavə hesablanır.

III maddə-Dəftərxana və təsərrüfat xərcləri. Bu maddənin diapazonu çox genişdir. Mədəniyyət müəssisələrinin təcrübəsində bu çox mühüm əhəmiyyət daşıyır. Dəftərxana xərcləri başlıca olaraq kargüzarlığın təşkili ilə əlaqədardır. Təsərrüfat xərcləri isə olduqca müxtəlifdir. Bura aşağıdakılar aiddir: istilik, otaqların işıqlandırılması, onların təmiz saxlanılması, su təchizatı, kanalizasiya, cari və əsaslı təmir, dövrü mətbuatın alınması, nəqliyyatın saxlanılması, otaqların icarəyə verilməsi və s. Bundan əlavə üçüncü maddəyə əsasən az qiymətli inventar alına bilər.

IV maddə - Ezamiyyətlər və xidməti gedişlər. Bu maddə üzrə xidməti ezamiyyətlər ödənilir. Buraya ezamiyyət yerinə və geriyə yol haqqı, sutka və mənzil haqları daxildir.

V maddə - Mədəniyyət müəssisələrinin təcrübəsində bu maddə o qədər də tətbiq olunmur. Lakin muzeylərdə, elmi kitabxanalarda, metodiki kabinələrdə istifadə olunur. Bu maddə üzrə kitabxanalar üçün kitabların alınması, elmi-tədqiqat işi və ixtiralar, eləcə də təhsil xərcləri nəzərdə tutulur.

VIII maddə - Təqaüdlər. Bu maddədə ali və orta ixtisas təhsili məktəblərində oxuyan tələbələrə təqaüdlərin verilməsi nəzərdə tutulur.

XII maddə - Təsərrüfat inventarlarının və avadanlığın alınması üçün əsaslı vəsait qoyuluşu. Mədəniyyət müəssisələri şəraitində bu maddələr üzrə xərclər yalnız o zaman nəzərdə tutula bilər ki, vəsaitlər məqsədli xarakter daşısın. Məsələn, yeni binanın tikilməsi və yaxud avadanlığın əsaslı surətdə

dəyişdirilməsi. Bütün digər hallarda cari avadanlıq və inventar alınması üçüncü maddə hesabına icra edilir.

XIV maddə - Yumşaq inventarın və avadanlığın alınması. Əgər mədəniyyət müəssisələrində çoxlu sayda kostyumlar, kollektiv üçün geyimlər alınması nəzərdə tutulursa, bu maddədən istifadə oluna bilər.

XV maddə - Tikinti üzrə əsaslı vəsait qoyuluşu. Müəyyən edilmiş qaydada bu maddə üzrə yeni obyektlərin tikilməsi maliyyələşdirilir.

XVI maddə - Bina və qurğuların əsaslı təmiri. Mədəniyyət müəssisələrində bu maddə üzrə vəsait yalnız o zaman verilir ki, bina və yaxud onun müəyyən hissəsi köhnəlmiş və yararsız hala düşmüş olsun. Bu zaman vəsait həmin binanın bərpasına və təmirinə xərclənir.

XVII maddə - İnventar və avadanlığın təmiri. Mədəniyyət müəssisələrində adətən avadanlıq və inventarın təmiri III maddəyə əsasən aparılır. Lakin bu məqsədlər üçün daha böyük vəsait qoyuluşu tələb olunduqda XVIII maddəyə müraciət edilir. Belə olduqda inventar və avadanlığın mərkəzləşdirilmiş şəkildə təmir olunması daha məqsədəuyğundur.

XVIII maddə - Digər xərclər. Bu maddə kütləvi idman işlərinin təşkilində, mükafatlar, kuboklar, döş nişanları, fəxri fərmanların alınmasında istifadə olunur. Mədəniyyət müəssisələrinin təcrübəsində bu növ xərclər çox vaxt III maddəyə əsasən ödənilir.

Beləliklə, smeta tərtib edərkən yalnız o maddələrə əsaslanmaq lazımdır ki, onlar müəssisənin xərclərinin xarakterinə müvafiq gəlsin. Xərclərin ümumi məbləği tərtib olunarkən da bu maddələrə istinad edilir. Smeta bütün dövlət müəssisələri üçün ümumiləşdirilmiş bir formada tərtib olunur.

Müəssisə binasında cari təmir işlərinin ümumi məbləğini müəyyən etmək üçün inşaatçı-texnik dəvət olunmalıdır. O, bir mütəxəssis kimi təmir işlərinin xarakterini və həcmini müəyyən edir, lazım olan inşaat materiallarının qədərini, işçi qüvvəsini aydınlaşdırır. Başqa sözlə, mütəxəssis təmir işlərinin smetasını tərtib edir, burada təmir işlərinə sərf olunacaq



vəsaitin qədəri müəyyənləşdirilir. Binanın qızdırılması üçün lazım olan vəsaitləri aydınlaşdırmaq üçün də belə hesablamalara ehtiyac vardır. Bunun üçün binanın ümumi sahəsini, kubunu, ölçüsünü, enerjisini, enerji sərfinin xərclər normasını, bir kilovat saatın qiymətini, qazın qiymətini bilmək zəruridir.

Növbəti il üçün məxaric smetasını mədəniyyət müəssisəsinin direktoru tərtib edir. Bu vəziyyət tələb edir ki, hər bir müəssisə rəhbəri təsərrüfat-maliyyə məsələlərini dərindən öyrənsin. Yalnız belə olduqda o, ixtiyarında olan vəsaitləri səmərəli şəkildə xərcləyə bilər.

Smeta layihəsi təsdiq olunandan sonra mədəniyyət şöbəsinə və maliyyə şöbəsinə təqdim olunur. Yalnız smeta təsdiq olunandan sonra hüquqi qüvvəyə minir və icra üçün yerlərə göndərilir. Adətən bu, yanvar-fevral aylarına təsadüf edir. Buna qədər klub müəssisələri ötən ilin səviyyəsində maliyyələşdirilir.

Bu məsələləri əks etdirən məxaric smetasının tərtib olunması əlbəttə, asan məsələ deyil. Lakin smetanın icrasını təmin etmək daha çətin məsələdir. Smetada çox faydalı məqsədlər planlaşdırıla bilər, lakin müəssisə rəhbəri gündəlik idarəetmə işini nəzərdən qaçırarsa, planlar yalnız plan olaraq qalar. «Smetanın icrası» anlayışına bir sıra kompleks məsələlər daxildir, onlar bir-biri ilə qarşılıqlı surətdə əlaqədardır.

Bu, hər şeydən əvvəl maliyyə-büdcə sistemini, onun orqanlarının qarşılıqlı əlaqə formalarını qanunvericiliyə müvafiq formada bilməkdən ibarətdir. Maliyyə orqanlarına mədəniyyət müəssisələrini maliyyələşdirmək hüququ verilmişdir. Onlar müvafiq planları nəzərə almaqla fərdi məxaric smetalarına əsasən vəsait buraxırlar. Bununla yanaşı onlar bu vəsaitlərdən düzgün istifadəyə və eləcə də maliyyə intizamına riayət olunmasına nəzarət edirlər. Maliyyə intizamı pozulduqda müvafiq tədbirlər görürlər. Təsərrüfatsızlıq halları aşkar edildikdə maliyyə orqanı smeta icrasını, maddi sərvətlərin uçotu məsələlərini yoxlaya bilər.

Mühüm məsələlərdən biri də mədəniyyət müəssisələrinin qarşılıqlı əlaqədə olduğu təşkilatlarla hesablamalarının düzgün aparılmasıdır. Burada başlıca cəhət bundan ibarətdir ki, ikitərəfli maliyyə əməliyyatları üçün vaxtında hesablamalar aparılsın. Mədəniyyət müəssisəsinin digər təşkilatlarla əlaqəsi müqavilə, razılaşma formasında ola bilər ki, bu da əlbəttə, yazılı şəkildə sənədləşdirilməlidir.

Üçüncü mühüm məsələ, fəhlə və qulluqçularla maliyyə hesablaşmalarının vaxtında aparılmasıdır. Yəni, xəstəliyə görə bülletenlərin, ezamiyyətlərin, əmək haqlarının vaxtlı-vaxtında ödənilməsidir.

Dördüncü məsələ, əmlakın uçotu və məqsədyönlü şəkildə istifadə olunmasıdır. Maddi sərvətlər işin səmərəliliyinin artırılması istiqamətinə yönəldilməlidir. Mədəniyyət müəssisəsi müvafiq mebellə, inventarla, musiqi alətləri ilə, rekvizitlə, binanın xarici görkəminin tərtibatı ilə təmin olunmalıdır. Bütün bunlar müdiriyyətin zəruri fəaliyyət sahələrindən biridir. Bu sahədə də məsuliyyət hər şeydən əvvəl müdirin, direktorun üzərinə düşür.

Beşinci şərt kreditlərin açılması, kredit sahibinin hüquq və vəzifələrinin dərindən öyrənilməsi, maliyyə-büdcə intizamına riayət olunmasından ibarətdir.

Dövlət mədəniyyət müəssisələrinin təcrübəsində kreditlərin verilməsinin müəyyən sistemi artıq formalaşmışdır. Bura yerli əmanət kassalarında cari hesablaşmaların açılması daxildir (vergilər, sosial-sığorta, əmək haqqı üzrə vaxtında haqq-hesablar aparılması, kassa ərizəsinə əsasən bankdan nağd pulların alınması, kassa əməliyyatları, maliyyə-kredit orqanlarına tələb olunan hesabatların verilməsi).

Dövlət mədəniyyət müəssisələrinin rəhbərliyi arasında rayon, şəhər mədəniyyət evlərinin direktorlarına kredit sahibi olmaq hüququ verilmişdir.

Kənd klublarında təsərrüfatın miqyası bir o qədər də böyük olmadığı üçün və maliyyə əməliyyatları həcmcə kiçik olduğu üçün onlara kredit sahibliyi hüququ verilmir. Belə olduqda kredit sahibi icra nümayəndəliyi olur. Bununla yanaşı, bütün bunlar məsələnin yalnız formal tərəfidir. Faktik olaraq vəsaitlərin tam və düzgün istifadə olunmasına klub müdirləri məsuliyyət daşıyırlar.



Bu işdə klub müdiri passiv rol oynamamalıdır. Məhz klub müdiri klubun tələbatını daha yaxşı bilməli, əhalinin mənəvi tələblərini öyrənməli və smetadan maksimum səmərə ilə istifadə etməlidir.

Mədəniyyət müəssisələrinə vəsaitlər təsdiq olunmuş smeta həcmində buraxılır. Şəhər, rayon, kənd mədəniyyət evlərinin müdirləri növbəti kvartalın başlanmasına bir ay qalmış mədəniyyət şöbələrinə müvafiq tələblər verirlər. Mədəniyyət şöbəsi yerli maliyyə orqanı ilə birlikdə bu tələbnaməni nəzərdən keçirir və dövlət bankından vəsait buraxılması üçün göstəriş verir. Kredit sahibi, təsdiq olunmuş smeta çərçivəsində, vəsaitləri klubun ehtiyaclarına xərcləyə bilər. O, müəssisələrlə, idarə və təşkilatlarla müqavilə bağlayır, qarşılıqlı hesablaşmalar aparır, vəsaitlərin düzgün xərclənməsinə nəzarət edir, vaxtlı-vaxtında hesabatların verilməsini tələb edir.

Açılan kreditlər bütünlüklə mədəniyyət müəssisələrinin ixtiyarına verilir. Bir il müddətində bu vəsaitlər müəssisənin ehtiyaclarına xərclənir, lakin büdcə vəsaitləri il ərzində tam xərclənməmişsə, dekabrın 31-də cari hesabdan çıxarılır və ümumdövlət büdcəsinə keçirilir. Xərclənmiş vəsaitlərin qalıqları təkcə ilin axırında deyil, il ərzində də geri alına bilər. Bəzi müəssisələr maliyyə xərclənməsində daha çox fəallıq göstərir və ya vəsaitlərə ehtiyacı olduğunu əsaslandıra bilirsə, vəsaitləri xərcləyə bilməyən müəssisələrdən bu vəsaitlər alınıb onlara verilir.

Yuxarı kredit bölüşdürücüləri, eləcə də maliyyə orqanları maliyyələşdirməni dayandıra bilərlər. Əgər müdir vəsaitləri qeyri-qanuni yolla xərcləyirsə, maliyyə intizamını kobud surətdə pozursa, yuxarı təşkilatlar bu tədbirlərə əl ata bilərlər. Kreditlərin bərpa olunması yalnız o zaman həyata keçə bilər ki, qeyri-qanuni yolla xərclənmiş vəsaitlər geri qaytarılsın.

Mədəniyyət müəssisələrində maliyyə intizamına riayət olunması mühüm əhəmiyyətə malikdir. Maliyyə intizamının

diapozonu genişdir. Bura aşağıdakılar daxildir: vəsaitlər ciddi olaraq məqsədli xərclənməlidir, ştat cədvəli pozulmamalıdır, əmək haqqı fondu israf edilməməlidir, kassa əməliyyatları və uçotun bütün növləri düzgün aparılmalıdır. Maliyyə intizamını pozmuş şəxslər müxtəlif cəzalara, o cümlədən cinayət məsuliyyətinə cəlb oluna bilərlər.

Büdcə intizamının hər cür pozulması müəssisəni çətin vəziyyətə salır. Buna görə də müəssisə rəhbəri qanunları yaxşı bilməlidir, onları dəqiq yerinə yetirməli və tabeliyində olan şəxslərdən də bunu tələb etməlidir.

Müəssisənin həyata keçirdiyi kassa əməliyyatlarına xüsusi diqqət yetirmək lazımdır. Bu məsələdə başlıca tələb bütün pul əməliyyatlarının bank vasitəsilə həyata keçirilməsidir. Bu, onu göstərir ki, dövlət bankı bütün büdcə təşkilatları üçün icraçı yerində çıxış edir. Bank cari hesablara daxil olan bütün vəsaitləri köçürür, çeklər üzrə nağd pulları verir, təşkilatlara naqdsız əməliyyatları həyata keçirir, əmək haqqı fondunun düzgün xərclənməsinə nəzarət edir və s.

Müxtəlif mənbələrdən mədəniyyət müəssisəsinin kassasına daxil olmuş nağd pullar, banka - cari hesaba köçürülməlidir. Bankda qeyd olunmamış pulları xərcləmək qadağandır. Eləcə də əmək haqqı, ezamiyyət və məzuniyyət üzrə qalmış pulları başqa məqsədlərə xərcləmək qadağandır. Bu qalıqları da vaxtında dövlət bankına təhvil vermək lazımdır. Nağd pullar və digər qiymətli kağızlar yanmayan seyflərdə saxlanmalıdır.

Buraxılan vəsaitlərin vaxtında istifadə olunması, təşkilat və idarələrlə, ayrı-ayrı şəxslərlə haqq-hesabların aparılması, əmlakın uçotu, inventar və maddi sərvətlərin uçotu, vaxtlı-vaxtında hesabatların verilməsi — bütün bunlar hesablayıcı işçidən, onun peşəkarlığından asılıdır. Mədəniyyət müəssisələrinin maliyyələşdirilməsi üçün yeganə mənbə büdcə deyil. Büdcə vəsaitləri ilə yanaşı mədəniyyət müəssisələrinin əksəriyyəti büdcədən kənar vəsaitlər də əldə edirlər.

Xüsusi vəsaitlərin cəlb edilməsi təsərrüfat hesabına əsaslanır. Təsərrüfat hesabının mahiyyəti aşağıdakılardan ibarətdir: Təsərrüfat-maliyyə fəaliyyətində müəssisəyə



operativ müstəqilliyin verilməsi, xərcləri tam və qismən ödəmək üçün vəsaitlər axtarılması, kəmiyyət və keyfiyyət göstəricilərini yerinə yetirdikdə maddi həvəsləndirmə üsullarından istifadə edilməsi, maddi pul vəsaitlərinin istifadə olunmasında işçilərin məsuliyyətinin artırılması, müəssisənin maliyyə təsərrüfat fəaliyyətinin uçota alınması və nəzarət edilməsinin nümunəvi səviyyədə həll olunması.

Məlumdur ki, təsərrüfat hesabı həm maliyyə işlərində, həm istehsal sahəsində, həm də qeyri-istehsal sahəsində tətbiq olunur. Mədəniyyət müəssisələrinin təcrübəsində büdcə ilə müxtəlif münasibətlər mövcuddur. Bu fərqlər hər şeydən əvvəl bu işin spesifikası, xarakteri və istiqaməti ilə müəyyənləşir. Məsələn, mədəniyyət və istirahət parkları və hətta bəzi şəhər mədəniyyət evləri dövlət büdcəsindən xərclərin yalnız bir qismini alırlar. Belə olduqda dövlət orqanları onlara yalnız dotasiya məbləğini verir.

Bununla yanaşı, mədəniyyət müəssisələri, xüsusən kənd müəssisələri fəaliyyətlərini genişləndirmək üçün bütün vəsaitləri dövlət büdcəsindən alırlar. Qazanılmış əlavə vəsaitlərə gəldikdə isə, onlar əhaliyə mədəni xidmət göstərilməsi işindən əlavə mənbə kimi istifadə edilir. Müəssisələrin xüsusi vəsaitləri büdcə vəsaitinə qənaət etmək üçün olduqca faydalıdır.

Mədəniyyət müəssisələrinə xüsusi vəsaitlərin cəlb olunmasının başlıca mənbələri aşağıdakılardır:

a) binanın müxtəlif təşkilat və idarələrə kirayə verilməsi;

b) nəqliyyat vasitələrinin istismarı;

c) pullu konsertlər, kütləvi mühazirələr, rəqs gecələri, tamaşalar, teatr kostyumlarının kirayəsi, rekvizit, idman avadanlığının kirayəsi və s.;

ç) pullu dərnəklərdən əldə olunan gəlir (foto, musiqi, tikmə-biçmə və s. dərnəklər);

d) təsərrüfat orqanlarının birdəfəlik köçürmələri.

Beləliklə, bəzi gəlir mənbələrinin göstərilməsindən aydın olur ki, mədəniyyət müəssisələri bu sahədə geniş imkanlara malikdir. Onlar bu üsullardan istifadə etməklə özlərinin maddi-maliyyə bazalarını möhkəmlədə bilərlər. Mədəniyyət

müəssisələrinin spesifik xüsusiyyətlərindən biri budur ki, o, pullu tədbirlərlə pulsuz tədbirlərin imkanlarından bacarıqla istifadə edə bilər. Məsələnin kommersiya tərəfinə həddindən artıq meyl etmək olmaz. Çünki mədəniyyət evi (sarayı və s.) kommersiya müəssisəsi deyil. Bununla yanaşı, mədəniyyət müəssisələrini dövlət büdcəsindən daima vəsait alan ələbaxımlı müəssisəyə də çevirmək olmaz.

Təcrübə göstərir ki, elə mədəniyyət müəssisələri vardır ki, onlar nəinki büdcə vəsaitləri məbləğində, həm də bu məbləğdən çox-çox əlavə gəlirə malikdirlər. Bəzi rayon, şəhər mədəniyyət evləri büdcə hesabına 5-7 işçi saxlayır, əlavə gəlir hesabına isə 10-15 işçiyə əmək haqqı verir. Buraya özfəaliyyət kollektivlərinin rəhbərləri, rəssam-tərtibatçılar, kassa işçiləri, xadimələr və digər işçilər daxildir.

Xüsusi vəsaitlər hesabına teatr kostyumları, rekvizitlər, xor iştirakçıları üçün formalar, musiqi alətləri, zəruri inventar, dərnəklər üçün avadanlıq alınır. Binanın cari təmiri aparılır, müxtəlif tədbirlərin keçirilməsi üçün xərclər ödənilir. Xüsusi vəsaitlərin ödənilməsi bir çox tələblərlə şərtlənir, bu tələblər bütün müəssisə rəhbərləri üçün zəruridir.

Burada ələbaxımlılıq əhval-ruhiyyəsi olmamalıdır. Əgər müəssisə fəaliyyətinin bu və ya digər sahəsi smetanın gəlir hissəsini ödəyirsə, o zaman məhz bu sahələrin ehtiyaclarına birinci növbədə diqqət yetirmək lazımdır. Bədii kollektivin, onun rəhbərinin müvəffəqiyyəti bir çox cəhətdən qazandıqları vəsaitin nə dərəcədə mənimsənilməsindən asılı olur. Xüsusi vəsaitin yalnız bir hissəsi ümumi ehtiyaclara yönəldilməlidir. Bu vəsaitin çox böyük hissəsi kollektivin fəaliyyətinin genişləndirilməsinə sərf olunmalıdır.

Daha sonra qeyd etmək lazımdır ki, xüsusi vəsaitlərin xərclənməsi smeta əsasında icra edilir. Xüsusi vəsaitlər smetası büdcə smetası qaydasında tərtib olunur və həmin qaydada təsdiq edilir. Xüsusi vəsait smetası yuxarı təşkilatlar tərəfindən təsdiq edildikdən sonra icra edilir. Dövlət bankının yerli şöbəsində cari hesab açılır ki, bu da xüsusi hesab adlanır.

Büdcə vəsaitləri üzrə smetadan fərqli olaraq xüsusi vəsaitlər üzrə smeta məxaric hissəsindən əlavə mədaxil



hissəsinə də malikdir. Mədaxil hissəsində bütün gəlir mənbələri göstərilir. Xüsusi vəsaitlər üzrə mədaxilin planlaşdırılması yeganə məqsəd deyil. Xüsusi vəsait smetası gəlirin, müəssisənin fəaliyyətini genişləndirmək məqsədilə xərclənməsini nəzərdə tutur.

Məlumdur ki, son zamanlar sosial və iqtisadi həyatda baş verən dəyişikliklər bütün sahələrə, o cümlədən mədəniyyət sahəsinə də güclü təsir göstərmişdir. Xalq təsərrüfatının özünü maliyyələşdirmə və təsərrüfat hesabı prinsipləri üzrə qurulması həmçinin mədəniyyət sahəsində də özünü göstərməkdədir.

Hazırda mədəniyyət müəssisələrinin xüsusi vəsaitlər hesabına maliyyələşdirilməsinə geniş imkanlar verilmişdir. Əvvəllər mədəniyyət müəssisələrinin pullu xidmətlərə müraciət etməsi bir sıra qanun və bürokratik sədlərlə məhdudlaşdırılırdı. Müəssisə rəhbəri hər hansı bir pullu dərnək açmaq üçün bir neçə yuxarı təşkilatlandan icazə almalı idi. Hazırda mədəniyyət müəssisəsinin xüsusi vəsaitlər cəlb etməsi nəinki qadağan deyil, həm də başlıca maliyyə tələblərindən biridir. İndi mədəniyyət müəssisəsinin gəlirlə işləməsi başlıca göstərici kimi qiymətləndirilir. Dövlət büdcəsindən ayrılan vəsaitin miqdarı getdikcə azalmaqdadır. Bu da dövlət miqyasında yeridilən iqtisadi siyasətin mahiyyətindən irəli gəlir.

Hazırda mədəniyyət müəssisələrinin pullu xidmətlər təşkil etməsi üçün hər cür hüquqi zəmin yaradılmışdır. Mədəniyyət müəssisələrinin pullu xidmət sahələrini nəzərdən keçirək. Mədəniyyət müəssisələri və məktəbdənkənar tərbiyə müəssisələri aşağıdakı istiqamətlərdə pullu xidmətlər təşkil edə bilərlər:

1. Xalq universitetləri (fakültələri): mədəniyyət, ədəbiyyat, musiqi, teatr, təsviri incəsənət, elmi-texniki biliklər, kitabxana-biblioqrafiya bilikləri, kino, foto, arxitektura, diyarşünaslıq, tarix bilikləri, məişət mədəniyyəti, gənc ailə, valideynlər, sağlamlıq, hüquq bilikləri və s. universitetlər;

2. Mühazirələr, o cümlədən kütləvi mühazirələr, lektoriyalar, kinolektoriyalar (mədəniyyət, incəsənət,

ədəbiyyat, tarix, diyarşünaslıq, ailə və nikah, evdarlıq, arıçılıq və s. məsələlər üzrə);

3. Elm, texnika, hüquq, mədəniyyət, incəsənət, ədəbiyyat, tarix, diyarşünaslıq, tibb, pedaqogika, məişət və s. məsələlər üzrə əhaliyə xidmətlər göstərilməsi, məsləhətlər və elmi məlumatlar verilməsi. Bu məlumatlar biblioqrafiya, arxiv, ekspozisiya, muzey fondlarında olan materiallara əsasən verilir;

4. Məktəblər, kurslar, studiyalar, dərnəklər. Bunların aşağıdakı növləri təşkil edilə bilər:

- Musiqi alətində çalmağı, oxumağı, aktyor ustalığını, xalq rəqslərini, klassik rəqsləri, müasir estrada rəqslərini öyrənmək, kino, foto, təsviri və tətbiqi incəsənət, diyarşünaslıq və s.;

- Biçmə və tikmə, toxuma, paltarların modelləşdirilməsi, kulinariya, makina yazısı, stenoqrafiya, xarici dillərin öyrədilməsi, predmet dərnəkləri, intensiv qiraət dərnəkləri və s.;

- Texniki yaradıcılıq, kompüter texnikası, avtomobil sürücülüyü, bədən tərbiyəsi və sağlamlıq dərnəkləri, ritmik gimnastika, qaçış həvəskarları, idman yerişi, sağlamlıq qrupları və s.;

5. Həvəskar birlikləri və maraq klubları: bədii birliklər, musiqi, teatr, ədəbiyyat, poeziya, kino və fotoincəsənət, rəssamlıq, dizayn və dekorativ tətbiqi incəsənət, həvəskar bəstəkarlıq, xoreoqrafiya birlikləri və s.

Təbiət elmləri birlikləri: astronomiya, təbiətşünaslıq, səyahət, arxeologiya, bağçılıq birlikləri və s.

Texniki birliklər, səmərələşdiricilər, ixtiraçılar, kompüter texnikası və s.

Bədən tərbiyəsi və idman birlikləri: qaçış həvəskarları, turizm və şahmat-dama klubları və s.

Kolleksiya toplayanlar birlikləri: filatelistlər, filofonistlər, numizmatlar və s.

Bundan əlavə mədəniyyət müəssisələrində klub və birliklər də yaradıla bilər. Məsələn, mühəndislər, gənc fəhlə, müəllimlər klubları və s. Birliklər sırasında ailə istirahəti, tanışlıq klubları da yaradıla bilər.

6. Tematik gecələr, istirahət axşamları, elm və mədəniyyət xadimləri ilə görüşlər, teatrlaşdırılmış bayramlar, idman-əyləncə tədbirləri, ailə mərasimləri, ədəbi musiqili qonaq otaqları, rəqs gecələri, diskotekalar, bədii kollektivlərin tamaşa və konsertləri, kino və videoproqramların nümayişi, kitab sərgiləri, həvəskar rəssamların əsərlərnin sərgi satışı, xalq yaradıcılığı yarmarkaları və s.

Hazırda bəzi mədəniyyət müəssisələrində xüsusi vəsait cəlb etmək üçün pullu emalatxanalar yaradılır. Adətən belə emalatxanalar "Özün düzəlt" adlanır. Burada dülgər, çilingər, ayaqqabı, paltar təmiri işlərini görmək olar.

Bəzi müəssisələr pullu xidmətlər sırasında musiqi alətlərinin, idman inventarının, videotexnikanın kirayəsini də təşkil edirlər. Son zamanlar bir çox mədəniyyət müəssisələri turist yürüşlərinin təşkili ilə də məşğul olur. Bütün bu tədbirlər mədəniyyət müəssisələrinin xüsusi vəsait əldə etməsini daha da reallaşdırır, onlara iqtisadi cəhətdən daha böyük müstəqillik vermiş olur.

Xüsusi vəsaitlər üzrə tərtib edilmiş smetaya əsasən mədəniyyət müəssisələri əldə olunmuş gəlirdən aşağıdakı məqsədlərə istifadə edə bilər:

- Mədəniyyət müəssisəsinin maddi-texniki bazasının möhkəmləndirilməsi, əhaliyə pullu xidmətlərin genişləndirilməsi, mədəni-maarif işinin digər formalarının inkişaf etdirilməsi, nağdsız yolla pərakəndə ticarət şəbəkəsindən, müəssisə, idarə və təşkilatlardan avadanlıq, hazır məhsullar, material və xammalların alınması. Bunlardan həvəskar birliklərin, maraq klublarının işində istifadə olunması;

- Nağd pulla ticarət şəbəkəsindən yalnız müəyyən məbləğdə mal və material alına bilər. Əhaliyə pullu xidmətdən əldə olunan gəlir hesabına müqavilə əsasında dəvət olunmuş işçilərə əmək haqqı ödənilə bilər. Əhaliyə pullu xidmət göstərilməsi üçün tələbələri, pensiyaçıları, evdar qadınları və digər şəxsləri cəlb etmək olar. Bina və qurğuları, inventar və

avadanlığı lazımi qaydada saxlamaq üçün ştatda olan işçilərdən əlavə xidmət personalı cəlb edilə bilər;

- Gəlir hissəsinin əsaslandırılmadan qaldırılması və eləcə də endirilməsi mədəniyyət müəssisəsinin fəaliyyətində mənfi nəticələrə gətirib çıxarır. Müəssisənin real gəlirini yalnız əvvəlki illərin dərin təhlili nəticəsində aşkar etmək olar. Belə təhlil prosesində mədəniyyət müəssisəsinin rəhbərindən əlavə metodistlər, bədii rəhbər, kollektiv rəhbərləri də iştirak etməlidirlər. İşə belə münasibət planlaşdırılan dövr üçün imkanların daha düzgün aşkar edilməsinə səbəb olar. İl ərzində neçə pullu tamaşa hazırlamaq olar — bu suala ən yaxşı cavabı teatr kollektivinin rəhbəri verə bilər. Eləcə də bu suallara müvafiq olaraq xor, orkestr, rəqs kollektivlərinin rəhbərləri daha düzgün cavab verə bilərlər. Burada vacib məsələlərdən biri kollektiv rəhbərinin və müəssisə rəhbərinin gəlir mənbəyini görmək bacarığıdır. Gəlir mənbələri, onların real məbləği təyin edilməli və onların icrası üçün qüvvələr və imkanlar obyektiv qiymətləndirilməlidir;

- Pullu tədbirlərin planlaşdırılması əhaliyə mədəni xidməti daha da yaxılaşdırmaq arzusundan irəli gəlməlidir. Başlıca şərt hər bir əhali qrupu ilə məqsədyönlü iş aparılmasından ibarətdir. Hər bir tədbirin dəyəri və lazımlığı, onun ideya səviyyəsi, bədii keyfiyyəti, forma zənginliyi ilə birbaşa əlaqədardır. Əgər əhali konsert və tamaşalara böyük maraq göstərirsə və bu tədbirlərin həmişə yüksək səviyyədə keçməsinə əmindirsə, o zaman tədbirin pullu və ya pulsuz olmasından asılı olmayaraq tədbirlərə daim gələcək.

Beləliklə, pullu tədbirlər mədəniyyət müəssisələrinin maddi bazasının möhkəmləndirilməsində, əhalinin mənəvi tərbiyəsində mühüm rol oynamalıdır.

Xüsusi vəsaitlər üzrə smetanın məxaric hissəsi büdcə təsnifatının maddələri nəzərə alınmaqla tərtib olunur. Maddələr üzrə xərclərin ümumi məbləği planlaşdırılan gəlirdən çox olmamalıdır.

Dövlət mədəniyyət müəssisələrinə müəyyən güzəştlər verilmişdir. Belə ki, onlar gəlirə qoyulan vergilərdən azad



edilmişdir. Mədəniyyət müəssisələri xüsusi vəsaitin tam sahibidirlər.

Hətta xüsusi vəsaitin müəyyən hissəsi ilin axırınadək xərclənməsə belə bu vəsaitlər büdcəyə köçürülmür, müəssisənin ixtiyarında qalır.

Beləliklə, büdcədən əlavə vəsaitlər mədəniyyət müəssisələrinin maddi bazasını möhkəmləndirmək üçün, onların işinin səviyyəsini qaldırmaq üçün mühüm mənbədir. Buna görə də xüsusi vəsaitlərin cəlb olunması məsələsi müəssisə rəhbərinin şəxsi təşəbbüsü kimi qiymətləndirilməməlidir. Buna ümumdövlət mövqeyindən yanaşmaq lazımdır. Və qeyd etmək lazımdır ki, nə qədər maddi imkanlar geniş olarsa, mədəniyyət müəssisəsinin fəaliyyəti bir o qədər təsirli və səmərəli olar.

Göründüyü kimi mədəniyyət müəssisələrinin büdcədən kənar fəaliyyəti xüsusi fəaliyyət sahəsidir. Hazırda təsərrüfat hesabı üzrə mədəniyyət müəssisələrinin idarə edilməsinin yeni prinsipləri işlənib hazırlanmışdır. Onlardan bəzilərini nəzərdən keçirək:

Mədəniyyət müəssisələrinin idarə edilməsinin yeni şərtləri və prinsipləri aşağıdakılardan ibarətdir:

1. Mədəniyyət müəssisələrinin fəaliyyəti dövlətin iqtisadi və sosial inkişaf planına uyğun olaraq qurulur. Dövlət sifarişlərinə, elmi surətdə əsaslandırılmış iqtisadi normativlərə və eləcə də istehlakçıların sifarişlərinə əsaslanaraq mədəniyyət müəssisəsi müstəqil surətdə planlar hazırlayır və müqavilələr bağlayır;

2. Müəssisə tam təsərrüfat hesabı və özünü maliyyələşdirmə prinsipləri əsasında fəaliyyət göstərir. Müəssisənin mədəni-maarif fəaliyyəti və əmək haqlarının ödənilməsi əmək kollektivinin qazandığı vəsaitlər hesabına aparılır. Müəssisə xidmət nəticəsində əldə etdiyi gəlirdən öz maddi mənfəətlərini ödəyir. Gəlir təsərrüfat fəaliyyətinin göstəricisi yerində çıxış edir. Gəlirin bir hissəsi büdcə öhdəliyinin yerinə yetirilməsinə sərf olunmalıdır. Gəlirin digər hissəsi müəssisənin tam ixtiyarına keçir və əmək haqqı vəsaitləri ilə yanaşı kollektivin təsərrüfat hesablı gəlirini təşkil edir;

3. Tam təsərrüfat hesabı və özünü maliyyələşdirmə şəraitində müəssisənin fəaliyyəti özünü idarəetmə prinsipinə uyğun olaraq həyata keçirilir. Əmək kollektivi mədəni təminatın inkişaf etdirilməsi məsələlərini müstəqil olaraq həll edir;

4. Müəssisələr iqtisadi yarış şəraitində fəaliyyət göstərir, əhalinin mədəni tələbatlarını ödəmək üçün mübarizə aparırlar;

5. Müəssisələr dövlət qanunçuluğu əsasında hərəkət edirlər. Təsərrüfat hesabı və özünü maliyyələşdirmə şəraitində onlar geniş hüquqlara malikdirlər və bu hüquqlara riayət olunmasına dövlət nəzarət edir. Dövlət mənafeyinin və vətəndaşların hüquqlarının qorunması üçün müəssisə tam məsuliyyət daşıyır. Bundan əlavə müəssisə aşağıdakı məsələlər üçün də məsuliyyət daşıyır: əmlakın qorunması və artırılması, götürülmüş öhdəlikləri yerinə yetirmək, rentabelliyə nail olmaq.

6. Dövlət müəssisənin öhdəliklərinə cavabdeh deyildir. Müəssisə dövlətin öhdəliklərinə cavabdeh deyildir.

Mədəniyyət müəssisələrinin təsərrüfat hesabı və özünümaliyyələşdirmə prinsipləri əsasında fəaliyyət göstərməsi tələb edir ki, maddi, əmək və vəsait ehtiyatlarından qənaətlə istifadə olunsun, onlar ciddi şəkildə uçota alınsın və nəzarət altında saxlanılsın. Təsərrüfat hesabı imkan verir ki, vəsaitlərdən daha çevik istifadə olunsun və işçilərin iqtisadi cəhətdən təşəbbüskarlığı artırılsın. Başqa sözlə, müəssisə yaradıcı fəaliyyətini özü planlaşdırır. Bütün planlar, o cümlədən smetalar əmək kollektivi şurası tərəfindən təsdiq edilir. Planların əsas istiqaməti mədəni proqramların həyata keçirilməsinə yönəldilməlidir. Planlar tərtib edilərkən iqtisadi normativlərdən istifadə olunur:

a) gəlirdən büdcəyə köçürülən normativlər;

b) işçilərin və xidmətlərin növ və həcmi sahəsində dövlət sifarişləri;

c) pullu və pulsuz xidmətlərin həcmi üzrə rəqəmlər. Müəssisə bütün pullu xidmətləri dövlət və ya müqavilə



qiymətləri əsasında həyata keçirir, əlbəttə, bu zaman qiymətlər iqtisadi cəhətdən əsaslandırılmalıdır.

Xidmətlər ümumi mənada qeyri-istehsal əmək formasına aiddir. Daha dəqiq desək, xidmət müəyyən məqsədəuyğun fəaliyyətdir, əməyin səmərəli formasıdır. Məlumdur ki, mədəniyyət müəssisəsinin fəaliyyətinin nəticələri pullu və ya pulsuz xidmətlərdən ibarət olur. Pullu xidmətlərin böyük bir hissəsi əmtəə-pul dövriyyəsinə cəlb olunur və əmtəə formasını alır.

Qiymətin əsasını xidmətə sərf olunan əmək təşkil edir. Qiymət iqtisadi vəziyyətdən asılı olaraq dəyişə bilər. Əhalinin xidmətə olan ehtiyacı, xidmətə sərf olunan vəsait qoyuluşu və s. buna təsir göstərir. Qiymət mexanizmi kifayət qədər çevik olmalıdır. Yalnız belə olduqda o davamiyyəti və xidmətlərin keyfiyyətini idarə edə bilər.

Mədəniyyət müəssisələrində təsərrüfat hesabının istifadə olunması pullu tədbirlərin keçirilməsi və pullu xidmətlərin göstərilməsi ilə sıx surətdə əlaqədardır. Artmaqda olan tələbatların tam ödənilməsi üçün əhaliyə geniş çeşiddə xidmətlər təklif oluna bilər. Pullu xidmətlərin qiyməti xüsusi orqanlar tərəfindən təsdiq olunur. Respublika Nazirlər Kabineti, İcra - Hakimiyyəti, mədəniyyət müəssisələrinin xüsusi komissiyaları bura daxildir.

Əhaliyə göstərilən xidmətin qiyməti özünümaliyyələşdirmə prinsipi ilə müəyyən edilir. Qiymətin əsasını hər bir xidmət üçün xərclənmiş vəsaitin həcmi təşkil edir. Burada xərclərlə yanaşı, tədbirlərin sayı, qruplarda məşğul olanların sayı nəzərə alınır. Konkret xidmət növünə görə gəlirin həcmi rentabelliyin səviyyəsinə görə müəyyən edilir. Qiymətlər müəyyən edilərkən gəlirin ümumi məbləği məxaricin 15 faizindən çox olmamalıdır.

Əsas xərclərlə yanaşı, əlavə xərclər də nəzərə alınmalıdır, yəni maqnitafon lentinə musiqinin yazılması, gecənin keçirilməsinə görə haqq, müğənnilərin iştirakı və s. Kütləvi teatrlaşdırılmış bayramlara, festivallara, karnavallara və digər belə tədbirlərə giriş qiyməti birdəfəlik qaydada təsdiq edilir.

Giriş biletlərinin kalkulyasiyalarına aşağıdakılar daxil edilir: dəvət olunmuş ansamblların, orkestrlərin, teatr kollektivlərinin xərcləri, bayram tərtibatı, musiqi tərtibatı, geyimlər və s. ayrılan xərclər, ssenari yazılmasına ayrılan xərclər, quruluşçu-rejissorun, mədəni təşkilatçının və xidmət personalının əmək haqqı və digər ümumi xərclər. Giriş haqqı bu zaman xərclərin ümumi məbləği və gəlirin tədbirdə iştirak edənlərin sayına bölünməsi ilə müəyyən edilir.

Xidmətlərin qiyməti mahiyyət etibarilə xidmətin keyfiyyətinin və çeşidinin artırılmasına yönəldilir. Əhaliyə göstərilən belə xidmətlər insanların mədəni tələbatlarının artırılmasına, faydalı vərdişlərin tərbiyə edilməsinə, dünyagörüşünün genişləndirilməsinə xidmət edir.

Pullu xidmətlərin təşkili və inkişaf etdirilməsi üçün məsuliyyət mədəniyyət müəssisələrinin rəhbərlərinin üzərinə düşür.

Özünü maliyyələşdirmə prinsipləri əsasında fəaliyyət göstərən dərnəklərin işinə ümumi rəhbərliyi Mədəniyyət Nazirliyi (və ya Həmkarlar İttifaqı Konfederasiyası) və mədəniyyət müəssisəsinin müdiriyyəti həyata keçirir.

Dərnəklərdə üzvlük haqqı müvafiq maliyyə orqanları tərəfindən müəyyən edilir. Təsdiq olunmuş qiymətlər olmadıqda yerli icra hakimiyyətinin maliyyə şöbələri tərəfindən belə qiymətlər müəyyən edilir. Qiymətlərin təsdiq olunması üçün maliyyə orqanlarına hesablamalar təqdim edilərkən aşağıdakı məlumatlar göstərilir:

Dərnəklərin rəhbərlərinin əmək haqları, həmin işçilərə növbəti məzuniyyətlərin verilməsi üçün xərclər, işin uçota alınması üçün jurnallar, əyani vəsait və materialların alınmasına çəkilən xərclər, musiqi alətlərinin köklənməsi, notların alınmasına sərf olunan xərclər və s. Dərnəklərdən əldə olunan gəlir məxaricdən çox olarsa, onda bu vəsaitlər aşağıdakı məqsədlərə yönəldilir:

Valideyn himayəsindən məhrum olan uşaqların, yetim uşaqların üzvlük haqqı ödəməkdən azad edilməsi, habelə həmin əlavə vəsaitdən dərnək işçilərinin mükafatlandırılması üçün də istifadə oluna bilər. Bununla yanaşı, idman inventarının alınması, musiqi alətlərinin, tədris avadanlığının, səhnə geyimlərinin alınması, eləcə də reklam, sərgilərin tərtibatı, nəqliyyat xərclərinin ödənilməsi də bu vəsaitlər hesabına başa gəlir.



Respublika iqtisadiyyatını sağlamlaşdırmaq, onu adamların ümdə tələbatının ödənilməsinə doğru yönəltmək, sosial-iqtisadi sahədə xalqın artan tələbatını ödəmək, başqa sosial-siyasi məsələlərlə yanaşı, cəmiyyətin intellektual, mənəvi potensialını hər vasitə ilə fəallaşdırmaq, elm və mədəniyyət sahəsinin daha da genişləndirilməsi, ideoloji işin yeniləşdirilməsi, böyüməkdə olan gənc nəslin təlim və tərbiyəsinə, onlarda təşəbbüskarlığın və yaradıcılıq qabiliyyətinin inkişaf etdirilməsi problemlərinə həmişə olduğundan indi daha çox diqqət yetirilməyə ehtiyac vardır.

İdeoloji işin hansı sahəsini götürsək, hər cəhətdən həyata əsaslanmaq lazımdır. İnformasiya, təbliğat, bədii yaradıcılıq, klubların və teatrların, kitabxanaların və muzeylərin bütün ideya-siyasi, əmək, əxlaq tərbiyəsi, dini tərbiyə sahəsinin işi kimi canlı, dinamik və çoxcəhətli bir işdə durğunluğa əsla dözmək olmaz.

Respublikamızın indiki çətin vaxtında mədəniyyət işçiləri həmişəkindən daha da artıq çalışmalıdırlar ki, adamların qabiliyyətinin aşkara çıxması üçün geniş meydan açılsın, onların həyatı mənəvi cəhətdən zəngin, rəngarəng olsun. Bu sahədə yaxşılığa doğru əsaslı dəyişikliklərə nail olmağa çalışarkən bütün mədəni tərbiyə işini elə qurmaq lazımdır ki, o adamların mənəvi tələbatını daha doğlun təmin etsin, onların marağına uyğun gəlsin.

Yaradıcılığa rəhbərlik etmək sadə iş deyildir, nəzakət tələb edən, yaradıcılığın təbiətini anlamağı, ədəbiyyat və incəsənətə hökmən məhəbbət bəsləməyi, istedada hörmət göstərməyi tələb edən bir işdir.

Bu sahəyə rəhbərlik adından bəlli olduğu kimi yaradıcı iş tələb edir. Burada həyatın bütün halları üçün universal vasitələr yoxdur, bu iş daim axtarış, həyatla ayaqlaşmaq bacarığı, tələbata uyğunlaşmağı tələb edir.

Bazar iqtisadiyyatı dövründə mədəniyyət müəssisələri əhalinin müxtəlif kateqoriyalarının artan tələbatını ödəməli, xalqın bədii yaradıcılığı üçün lazımi imkanlar yaratmalı, qabiliyyəti inkişaf etdirməli, sağlam tələbat və yüksək estetik zövqlər formalaşdırmalıdır.

Bu gün bədii yaradıcılığın çoxfunksiyalılığı ilə əlaqədar yaradıcılıq sahəsinin tədqiq olunmamış bəzi janrları, üslub və tərzləri bizə hələlik məlum deyil. Güman etmək olar ki, yaxın gələcəkdə mütəxəssislərimiz incəsənətin təsnif olunmamış qrup, sahə və janrlarını müəyyən etməyə təşəbbüs göstərəcək və bu bədii yaradıcılıq sahəsində janrların öyrənilməsi haqqında tam təsəvvür yaradacaqdır.

Bu gün incəsənətin əməli fəaliyyətində geniş tətbiq edilən əsas janrların və janrlar üzrə dərnək və kollektivlərin yaradılmasına, onlarla işin yaşılaşdırılmasına diqqəti daha da artırmaq lazımdır.

Həmkarlar İttifaqlarına mənsub olan mədəniyyət müəssisələrinin maliyyələşdirilməsi bir xüsusiyyətinə görə fərqlənir. Bu müəssisələr həmkarlar ittifaqının uyğun əsasnaməsinə əsasən maliyyələşdirilir. Bu əsasnamədə deyilir ki, klubun binası müəssisənin balansındadır. Klub təsərrüfatının idarəedilməsi, eləcə də avadanlığın alınması müəssisə vəsaiti hesabına həyata keçirilir. Klub binasının və onun hər hansı bir hissəsinin başqa məqsədlər üçün istifadə edilməsi yalnız həmkarlar ittifaqının razılığı ilə mümkündür.

Hazırda iqtisadiyyata dair ədəbiyyatda təsərrüfat hesabı problemlərinə demək olar ki, tam bir baxışlar sistemi formalaşmışdır. Bu sistemin tərkib hissələri aşağıdakılardan ibarətdir:

1. Təsərrüfat hesabı prinsiplərinin əsasını müəssisələrdə xüsusi gəlirin olması və vəsaitlərin dövriyyəsinin özünəməxsusluğu təşkil edir;

2. Təsərrüfat hesabı bu sahədə yalnız pullu xidmətlər olduqda mümkündür;

3. Qeyri-istehsal sahələri üçün natamam təsərrüfat hesabı xarakterikdir;



4. Xərclərin ödənilməsi mənbəyi kimi cəmiyyətin milli gəliri çıxış edir;

5. Əməyin stimullaşdırılmasının inkişaf etdirilməsi üçün nəzərə almaq lazımdır ki, mədəniyyət işçilərinin əməyini, yalnız nisbi olaraq qeyri-istehsal sahəsi hesab etmək olar.

Müəssisənin iqtisadi səmərəliliyinin göstəricilərini üç böyük qrupa ayırmaq olar: maliyyə ehtiyatlarının, maddi ehtiyatların və əmək ehtiyatlarının səmərəli istifadə olunması.

Maddi bazadan səmərəli istifadə olunması aşağıdakı göstəricilərdə əks olunur:

1. İl ərzində tamaşaçı salonlarının nə dərəcədə dolu olmasının əmsalı;

2. İl ərzində mədəniyyət müəssisələrinin iş günlərinin orta kəmiyyəti;

3. Növbələr əmsalı, iş saatları.

Mədəniyyət müəssisələrində əməyin səmərəliliyi aşağıdakı göstəricilərə əsasən təhlil edilə bilər:

1. Normaların yerinə yetirilməsi (mühazirə və məruzələrin sayı, dərnəklərin, onların üzvlərinin sayı);

2. İşçilərin professional səlahiyyətliliyi. Bura ixtisas, iş stajı, işgüzarlıq keyfiyyətləri, təşkilatçılıq, kommunikativlik, metodiki və tədqiqat işləri daxildir;

3. 1000 sakinə düşən mədəniyyət işçilərinin sayı.

Beləliklə, mədəniyyət müəssisələrinin maliyyələşdirilməsi və bu prosesin idarə olunması mədəniyyət müəssisələrinin fəaliyyətinin müstəqil istiqamətlərindən biridir. Bu, elə bir istiqamətdir ki, nəticə etibarilə həm müəssisənin iqtisadi səmərəliliyini, həm də onun mənəvi ideoloji səmərəliliyini qiymətləndirməyə imkan verir.

Mədəniyyət müəssisəsinin əhatə dairəsini genişləndirmək, yəni dərnəklərin sayını artırmaq, kütləvi tədbirlərin auditoriyasını artırmaq, işin məzmun və formasına müəyyən rəngarənglik gətirmək bir çox cəhətdən məhz müəssisənin təsərrüfat hesabı prinsipləri ilə işləməsindən, gəlirli bir müəssisəyə çevrilməsindən, rəhbərin professionallığından və iqtisadi cəhətdən savadlı olmasından asılıdır. Bu işdə bütün

müəssisə kollektivini maraqlandırmaq, onları ümumi işə cəlb etmək son dərəcə mühüm məsələlərdəndir.

Mədəniyyət məssisəsinin maliyyə işlərinin düzgün idarə olunması buradakı kargüzarlıq işinin nə dərəcədə səliqəli qurulmasından asılıdır. Yuxarıda qeyd etdiyimiz kimi pul əməliyyatları mütləq sənədləşdirilməli və müvafiq qaydada qorunub saxlanılmalıdır. Müəssisə ilə digər təşkilatlar arasında aparılan hər bir maliyyə əməliyyatı üçün müdir (direktor) məsuliyyət daşıyır. Odur ki, sənədlərə ciddi münasibət bəslənilməlidir.

Bazar iqtisadiyyatı istər istehsal sahəsində, istərsə də qeyri-istehsal sahəsində ziyanla işləyən müəssisələrin mövcudluğuna yol vermir. Yalnız azad rəqabət, iqtisadi müstəqillik və rentabellik - müasir dövrün tələbləri məhz belədir. Bu yalnız müəssisə rəhbərinin və həmin kollektivin professionallıq səviyyəsindən, ictimai rəyi öyrənmə qabiliyyətindən və çevik siyasət yeritmək bacarığından asılıdır.

Mədəniyyət müəssisələri üçün xüsusi vəsaitlərdən, yəni pullu xidmətlərdən əldə olunan vəsaitlər getdikcə daha böyük əhəmiyyət kəsb etməyə başlayır. Nəticə etibarilə bu vəsaitlər müəssisənin həm iqtisadi, həm də sosial səmərəliliyini müəyyən edir.

Müəssisələrin maliyyələşdirilməsi prosesi maliyyə intizamını tələb edir. Maliyyə intizamı işdə dəqiqlik, səliqə, mövcud qanunvericiliyi bilmək kimi keyfiyyətlər tələb edir.

Əlbəttə, mədəniyyət müəssisəsinin rəhbəri heç də mühasibin vəzifələrini icra etmir, hətta bəzi klub müəssisələri mərkəzləşdirilmiş mühasibatlıq tərəfindən maliyyələşdirilir, lakin bütün bunlar mədəni-maarif işinin iqtisadiyyatını, onun maliyyələşdirilməsi yollarını bilmək zərurətini aradan qaldırmır. Mədəni-maarif işinin rəhbərləri bədii-yaradıcılıq işi ilə yanaşı, eyni zamanda, inzibati işi, maliyyə işinin təşkilini dərindən və mükəmməl surətdə bilməlidirlər. Yalnız belə olduqda mədəniyyət işçisinin professionallıq səviyyəsindən söhbət gedə bilər.



### *7.3. Milli mədəniyyətmizin təməl prinsiplərinin sosial-mədəni sahəyə tətbiqi.*

Mədəniyyət, bir millətin ortaq düşüncəsini və kimliyini təşkil edən maddi və mənəvi dəyərlərin yaratdığı bir sintezdir. Bir millətin mədəni dəyərləri, keçmişdən gələn təcrübənin işığında və müasir düşüncənin içində izah edilən dəyərlərin yaradıcı bir gələcəyə doğru hərəkəti ilə dinamizm qazanır. Sağlam bir cəmiyyət- tarixi düşüncəyə sahib, keçmiş ilə qürur duyan və gələcəyinə inam və ümidlə baxan bir cəmiyyətdir.

Mədəniyyət strukturunda keçmişlə gələcək arasındakı yaradıcı bir prosesin gerçəkləşməsi-bir cəmiyyətdə mədəni dəyərlər çeşidli mədəni fəaliyyətlər yardımıyla və bu fikrin o cəmiyyətin fərdlərinin düşüncələrinə işləməsiylə mümkündür. Mədəniyyət xalqda yaşayır, ziyalının zehnində, dimağında kristallaşır. Milli səviyyədə mədəniləşmə xalqla ziyalı arasındakı canlı və müntəzəm təsirlə saxlana bilir. Ziyalı xalqda yaşayan mədəni dühanı gerçəkləşdirir, onun şüuraltı gerçəklərini düşüncələşdirir və təkrar xalqa yayır. Eni zamanda, ziyalının zehnində kristallaşan bu mədəni dəyərlər həm alıcı, həm də verici olaraq yabançı mədəniyyətlərdən təsirlənir və mədəniyyətdəki zənginləşməni saxlayır.

Mədəniyyət Nazirliyinin funksiyası və vəzifəsi, həm milli anlamda, həm də beynəlmiləl anlamda zəngin bir mədəniləşməni saxlamaqdır. Qloballaşma prosesinə girmiş olan dünyamızda, mədəniyyətlər arasındakı qarşılıqlı təsirdə millətimiz öz mədəni dəyərlərini, düşüncəsində və milli şüurunda mühafizə edilən prosesə bağlılığını, dünya millətləriylə bütünləşməsini və mədəniyyətcə zənginləşməsini saxlamalıdır. Yalnız milli dəyərlərinin mühafizəsini təmin edən bir toplum (cəmiyyət), mədəniyyətlər arasındakı bu ölçüdə dinamik bir sevgiylə həm varlığını qoruyacaq, həm də beynəlxalq bir mədəniyyətin içində alıcı və verici olaraq təsirini və əhəmiyyətini saxlayacaqdır.

Konstitusiyamız, bununla bağlı qanunlarımız və hökumət proqramlarımız, mədəniyyət sahəsində dövlətin və fərdin birgə və uyğun bir əməkdaşlıq edəcəyi qarışıq bir sistem içərisində çalışmasını hər yönü ilə müəyyənləşdirməkdədir. Respublikamızın özünə xas bir mədəniyyət strukturu mövcuddur. Bazar iqtisadiyyatı sistemini qəbul etmiş ölkəmiz mədəniyyətimizi də bu sistemin işığında mühafizə, tətbiq və inkişaf etdirmək məcburiyyətindədir.

Bir millətin mədəniyyəti, keçmişindən süzülüb gələn maddi və mənəvi dəyərlərin cəmi və zaman daxilində özünə xas duyğu, düşüncə və ifadə tərzi ilə ortaya çıxmaqdadır.

Dünya millətlərinin çeşidli mədəniyyətləri vardır. Bunlar arasında Azərbaycan xalqının da özünəməxsus, köklü və zəngin milli mədəniyyəti böyük önəm daşıyır. Bu mədəniyyət, türklüyün doğuşu ilə başlamış, zamanla inkişaf edərək, minlərcə il türk toplumlarını «millət» olaraq mühafizə etmiş, onlara «türklük» damğası vurmuşdur.

Azərbaycan mədəniyyətini meydana gətirən bütün dəyərləri araşdırmaq, tanıtmaq, bunları daha məhsuldar və yaradıcı ünsürlər olaraq inkişaf etdirmək milli vəzifələrimizdəndir.

Bu günkü Azərbaycan mədəniyyətinin təməllərini xalqımızın tarix boyunca yaşamış olduğu təcrübələr müəyyənləşdirmişdir. Azərbaycan mədəniyyəti milli dəyərlərimizin yüzillər boyunca sürən qarşılıqlı təsirləri nəticəsində özünəxas bir xüsusiyyət qazanaraq sintez edilməsi ilə meydana gəlmişdir.

İnkişafa bağlı mədəniyyət siyasətlərinin önəmli bir fokus nöqtəsi də demokratiya ruhuna uyğun tarazlı bir insan şəxsiyyəti yaratmağa səy göstərən təhsildir. Mənəvi və ruhi xüsusiyyətlərin bütünü kimi təzahür edən şəxsiyyət (hər kəs) mənliyinə bağlı toxunulmaz, vaz keçilməz təməl haqq və hürriyyətlərə sahibdir. «Hər kəsin doğulduğu andan toxunulmaz, pozulmaz və ayrılmaz hüquqları və azadlıqları vardır»[77]. «Hər kəs yaşama, maddi və mənəvi varlığını qoruma və inkişaf etdirmə haqqına sahibdir»[78]. Ənənəvi

[78] Türkiyə Cümhuriyyəti Anayasası, 17-ci maddə.



pedaqogika, çevrə (mühit) təsirlərini insandan kənar hadisələr kimi qəbul etmiş, bu səbəbdən onun üzərində durmamışdır. Halbuki, modern yanaşmada, sosial çevrənin təhsil, tərbiyə baxımından insan üzərində araşdırılması vacib olan təsirlər buraxdığı qəbul edilmişdir. Demokratik planlamanın önəmli məsələsi, mühit və şəraitdən demokratik təhsil üçün istifadə etməkdir. Davranış pozuntularının çoxu sosial pozuqluq əlaməti olaraq qəbul edilə bilər. Davranış və xarakterin yenidən tərbiyəsi, bərpası həm psixoloqun, həm də sosial sahə mütəxəssisinin işidir. Şəxsiyyətin formalaşmasında sosial mühiti təşkil edən birinci qruplar – ailə, sosial qurumlar, rəqabət və əməkdaşlıq kimi sosial mexanizmlərdir.

Psixoloji və maddi mühiti, insanların arzu etdiyi dəyərləri seçməyə təşviq edəcək şəkildə dəyişdirmək sosial və mədəni planlaşdırmanın dayandığı əsaslardan biridir. Ona görə də respublikamızda fərdin aktivlik baxımdan yardımını saxlamağa və fikirlərin azad olaraq formalaşmasına və rəqabətinə şərait yaradılmalıdır. Ölkəmizdə planlı inkişafın dayandığı bir başqa təməl prinsip də dəyişməyə meylli olan insanı kamilləşdirmək, yəni əmin-amanlıq duyğusuna sahib, status və vəzifəsini itirmək qorxusunu duymayan insan şəxsiyyəti yetişdirmək və qorumaqdır. Demokratik inkişafın ən yetərli şəkli, artmaqda olan təcrübələrin işığında təməl prinsip və dəyərlərin davamlı olaraq yenidən izah edilməsini və mənimsədilməsi zərurətini ortaya qoyur.

Azərbacanda məktəb və təhsil sosial dəyişmənin bir vasitəsi olmaq məcburiyyətindədir. Vəzifəsi isə, bir yandan, qazanılmış bilikləri axtarmaq, digər yandan tarixi və demokratik təcrübə çərçivəsində həyatın insanı maraqlandıran müxtəlif səhifələrini izah etməkdir. Bir millətin böyüklüyü, siyasi hüdudları ilə birlikdə, mədəni varlıqları, kültür zənginlikləri, milli birlik və bütünlüyü ilə ölçülür. Keçmişin acı gerçəkləri bizə milli mənliyi bilinməyən millətlərin başına nə fəlakətlərin gəldiyini göstərmişdir. Öz milli varlığına və öz mədəniyyətinə sahib çıxa bilməyən millətlər heç bir zaman yaşaya bilməz. Bir millətin milli mədəniyyəti o millətin milli

şəxsiyyətidir. Çağdaş mənası ilə milli mədəniyyətin məqsədi bu şəkildə xülasə edilə bilər:

1. Uşaqlarımızı fiziki, ruhi, əxlaqi inanclar və insanlıq münasibətləri baxımından Azərbaycan Respublikasına, milli-vətənpərvərlik prinsiplərinə bağlı bir vətəndaş kimi yetişdirmək;

2. Millətimizi bölünməz bir bütün halında, milli şüur çərçivəsində toplayaraq üstün, yüksək, milli, əxlaqi, insani dəyərlərini inkişaf etdirmək, müasir sivilizasiyanın qurucu və yaradıcı seçkin bir üzvü halına gətirmək;

3. Uşaqlarımıza və gənclərimizə vətən sevgisi, vətənini tanıma və tanıtma arzusu aşılanması. Vətənə xidmət duyğularının yüksəldilməsi;

4. Millətimizin yüksək xarakterini, incəsənətə sevgisini, milli birlik və bərabərlik duyğusunu müntəzəm, davamlı olaraq və bütün vasitələrlə, hər cür tədbirlərlə bəsləmək;

5. Milli idealı parçalamamaq, türk millətinin yüksək mədəniyyətli böyük bir millət olduğunu bütün dünyaya tanıtmaq, inkişaf etməsini gerçəkləşdirmək üçün ilk növbədə mənliyimizi və milli mədəniyyətimizi öyrətmək.

Azərbaycan xalqı tarixin dərinliklərinə kök salmış, çox qədim və çox geniş, zəngin bir mədəniyyətə sahibdir. Türk mədəniyyəti müxtəlif mədəniyyətlərə təsir göstərmiş, millətimiz tarixin çox dönəmində digər millətlərə örnək olmuşdur. Türk varlığı, manealərə, əks cəhdlərə baxmayaraq, dünyanın ən böyük ərazilərinə yayılmış, kimsənin inkar edə bilməyəcəyi böyük bir varlıqdır. Milli İstiqlal sərhədləri içində və xaricdə, türk dünyasından sənətsiz, musiqisiz və mədəniyyətsiz qalan heç bir türk topluluğu yoxdur. Hər türk bölgəsinin özünə xas sənəti, musiqisi və mədəniyyəti vardır. Bütün bu mədəniyyətlər bütövlükdə türk milli mədəniyyətini meydana gətirir.

Yeni dövrdə xidmətlərin çoxluğu və qarışıq bir şəkil alması, texnologiyanın və buna paralel olaraq ixtisas sahələrinin çox inkişaf etməsi, işlərin tək bir nəfər tərəfindən aparılmasına məhdud hallarda imkan verməkdə, əksərən bir çox adam tərəfindən görülməsini zəruri etməkdədir ki, bu da



öz növbəsində təşkilatlanmanı zəruriləşdirməkdədir. Təşkilat məlum bir məqsədi gerçəkləşdirmək üçün, işlərin bölünməsi və təkrar birləşdirilməsi surətilə insan, vasitə, vəsait kimi qaynaqların ən təsirli istifadəsini saxlama işidir. Funksional bir təşkilatlanmadan məhrumolma-mədəniyyətdə anlam fərqliliyi, mədəni kadr nöqsanlığı, tələb edilən vasitə-vəsaitlərin çatışmazlığı, mühitin hazır olmaması, ehtiyac duyulan vəsaitlərin və büdcənin müxtəlif sektorlarının mədəniyyət, mədəniləşmə və mədəniyyət dəyişməsi və inkişafı xüsusunda yetərsizliyidir.

Sistem dəyişdirmədə bəzi ana faktorlar gərəklidir. Mədəniyyət təşkilatı içində bu ana faktorlar diqqətə alınmalıdır:

1. Mədəniyyət fəlsəfəsi və siyasətinin nöqsansız təsdiq edilməsi;

2. Siyasətə uyğun əhatə dairəsinin genişliyinin və tətbiq etmənin necə aparılacağını müəyyənləşdirən bir strategiyanın inkişaf etdirilməsi;

3. Bütün nazirliklərin fəaliyyətləri arasında mədəniyyət mövzusuna yer verilməsi;

4. Sistemin inkişafı və tətbiqi üçün lazımı maliyyə durumunun təsdiqi;

Müasir dövrdə nəzəri baxımdan modern qurum və ya təşkilat deyildikdə, fikrə hər şeydən öncə sistem gəlməkdədir. Birləşdirici, bütünləşdirici, bir-birinə qarşılıqlı təsirdə və bir-birini tamamlayan ünsürlər və fəaliyyətlər topluluğu olan vahid sistem. Bu şəkildəki sistemin modelini struktur xüsusiyyətləri təşkil etməkdədir.

Şura tipli çalışmalardan, sadəcə mövcud olanı müəyyənləşdirməkdə və nəql etməkdə yetərlilik gözlənilmədiyindən, bilavasitə olması lazım olanı araşdırmaq, müzakirə, təklif və tövsiyə etmək istənildiyindən, mədəni xidmətləri özündə cəmləşdirən bir qurum kimi çox önəmli, dərin və geniş əhatəyə malik bir sahənin təşkilatı söhbət mövzusu olduqda görüləcək ilk iş sistem analizidir.

Yalnız sistem analizi yolu ilə təşkilatların bütün fəaliyyətlərini təşkil, koordinasiya və nəzarət edən mövcud

sistem (məqsədləri, funksiyaları, fərdlər arası əlaqələri və əməkdaşlıq dərəcəsinin quruluşu, istiqaməti və səmərəsi ilə) mühitlə bir bütünlük içində incələnə və inkişaf etdirilə bilər.

Bu mənada artıq təşkilatın məqsədlərinin gerçəkləşib gerçəkləşmədiyini anlamaq, dəyərləndirmək, öyrənmək, bunların işığı altında tənzimləyici və inkişaf etdirici yeni tədbirlər görmək üçün qədimdən olduğu kimi yalnız idarəetmə və rəhbərlik deyil, ümumilikdə təşkilat bütünlüyü əsas götürülməkdədir. Çünki, rəhbərlik və idarəetmə təşkilatın, sistemin ana sahələrindən sadəcə biridir. Təşkilatın təməl sahəsinə, prinsiplərinə isə məqsədlər, dəyərlər və digər ana funksiyalar daxildir.

Toplumların milli və mənəvi dəyərləri də təşkilatların məqsədlərinə, funksiyonerlərin hüquq, vəzifə və məsuliyyətlərinə qanunilik qazandırır.

Təşkilatların məqsəd və vəzifələrini daşıyan (qərar, planlaşdırma, tənzimləmə, kommunikasiya, koordinasiya, əməkdaşlıq, nəzarət, qiymətləndirmə) funksiyaları özündə ehtiva edən idarəetmə, rəhbərlik sahəsindən sonra təşkilatın səmərəliliyi ilə həqiqətən bağlı olan insan münasibətlərinin, ehtiyacların, tarazlığın, təşviqatın, ədalətin, dəyişmə və yeniləşmənin, mənəviyyatın və inamın yer aldığı və təmsil edildiyi təşkilatın atmosferi sahəsi gəlməkdədir.

Ümumilikdə ictimai xidmətlərdəki dağınıqlığın, təkrarlanmaların, kəsişmələrin, israfçılığın və bunların yaratdığı savadsızlığın, koordinasiya və əməkdaşlıq yoxluğunun və ya yetərsizliyinin, çox bahalı xidmət sahəsinin əsas səbəbi bilavasitə münasibət, rəftar, davranış və tətbiq olunma ilə bağlıdır. Çünki bu münasibət və tətbiq olunmaya görə bütün cəmiyyət üzərində söz sahibi olan avtoritet, ümumiyyətlə öyrənməyə, araşdırmaya, analizə və dəyərləndirməyə görə deyil, təşkilatları sadəcə öz qrupu və ya əhatəsinin görüş, düşüncə meyllərinə görə qurmaqdadır.

Beləcə siyasi sabitsizlik dövrlərində aparılan çox avtoritet dəyişiklikləri, təşkilatların varlıqları və etibarları ilə rəhbərlərin statusları və şəxsiyyətləri üzərində haqlı-haqsız olduqca çox təsirlərə səbəb olmaqdadır.



Bu da, idarəçilərin, bütün vəzifəlilərin, təşkilatın – məqsədlərində dövlət məmurluğu üçün vacib olan məsuliyyətlilik, cavabdehlik duyğusu içində ictimai faydam güdmə və məslək əxlaqına uyğun hərəkət etmək yerinə, hərəkətlərini avtoritet mənafeyinə tərs düşməməyə görə nizamlamalarına yol açır.

Belə hal idarəetmə funksionerlərinin iş və işləmələrinin ikinci plana atılması kimi təhlükəli nəticələr yaratmaqdadır.

Hələ bu təhlükə ən çox "Təhsil" və "Mədəniyyət" sektorlarının təşəbbüs və fəaliyyətlərinin tənzimlənməsi zamanı rəsmi idarəedənlərin siyasi-ideoloji ehtiraslarının məsuliyyətlilik duyğularını və məslək əxlaqlarını aşması hallarında çox ciddi və geniş sahələri əhatə edir. Bu kimi durum, rəftar və tətbiq etmələr idarəetməni, dolayısıyla idarəedicilər birinci plana çıxarır. İdarə və rəhbərlik — idarəedicilər birinci planda olduqları halda isə təşkilat, dolayısı ilə təşkilatı meydana gətirən məqsədlər, dəyərlər, funksiyalar ikinci plana keçir, səhlənkarlıq edilir, onlara əhəmiyyət verilmir, əvəzində ümumi mənafeyə zidd olan başqa məqsədlər güdülür.

Belə təşkilatlarda idarəçilik təşkilatın xaricində hesab edilir, idarəçilər də özlərini, təşkilatın içində olduqları halda, təşkilatın və onunla bağlı hər şeyin üstündə görmə xəstəliyinə tutulurlar.

Burada üzərində önəmli durmaq istədiyimiz xüsuslardan birincisi, mədəniyyətin, xüsusilə milli mədəniyyətin — bir cəmiyyətin (toplumun) ortaq dəyərlər, məqsədlər və ideallar çevrəsində birləşdirici, anlaşdırıcı, uzlaşdırıcı, toplayıcı və bütünləşdirici funksiyalarından irəli gələrək, bu sahə idarəçilərinin siyasi və ideoloji davranışlar, intriqalar içində qəti surətdə olmaması şərtidir.

İkincisi, mədəniyyətin dövlətin əsl ana funksiyalarından ən önəmlisi və vazkeçilməz olması həqiqətinə görə, milli və əxlaqi məsuliyyətlilik duyğusu içində hərəkət edilərək gündəlik partiya siyasətləri və mübahisələri xaricində qalmanın vacibliyi məsələsidir. Bunun bir nəticəsi olaraq da, milli mədəni xidmətlərin əsas dövlət siyasəti olaraq mənimsənməsi,

hər şeydən uca tutulması, buna görə təşkil edilməsi və yürüdülməsidir.

Mövzusu və məqsədi İNSAN olan mədəniyyət sosial baxımdan toplumla və fərdlərlə bağlıdır. Sosial funksiya ilə fərdlərə milli mədəniyyət aşılanır, mənimsədilir. Siyasi baxımdan, dövlətinə və millətinə sadiq, insanlıq idealına bağlı fərdlər yetişdirilməsi və buna səy göstərilməsi məqsədi güdülür. Bu mənada demokratik ölkələrdə təhsil və mədəniyyətin siyasi olması səbəbindən, o, cəmiyyəti meydana gətirən bütün demokratik, qanuni, təşkilat qruplarının, orqanların, çevrələrin görüşləri, istəkləri, meylləri, ehtiyacları siyasətlərin təyinində və funksiyaların təsbitində nəzərə alınır. Bu, demokratik ölkələrdə, əsasən rejimə, intizama, idarəetməyə qoşularaq iştirak edən vətəndaşların, özləri ilə doğrudan bağlı daha alt sistem olan mədəniyyətə də yardımda olma haqlarının bir zəruriliyi və sonucudur.

Millətimizin varlığı, mahiyyəti, tərkibi ilə bağlı gerçəklər, insanımıza aid özəlliklər və keyfiyyətlər qarşısında: milli təhsil və milli mədəniyyətdə çox xassə olunmasına, qatı qəlibçilikdən qaçılmasına, fərqliliklərin ayrılıq xüsusiyyəti və əsası olaraq göstərilməsi yerinə ən böyük zənginlik qaynağı olaraq işlənməsi və qiymətləndirilməsinə, hər şeydən əvvəl də cəmiyyətdə və hər zonadakı insanlarda özlərinə, cəmiyyətinə, dövlətinə və gələcəyinə inam duyğusunun yüksəldilməsi xüsuslarının əhəmiyyətinə və lazımlılığına ilk növbədə diqqət yetirilməlidir. Bunu saxlayacaq mühit, şərait ortaq mədəniyyətdir. Ortaq mədəniyyət-milli mədəniyyətdir.

Milli tariximizin bizə bəxş etdiyi ən qiymətli miras milli mədəniyyətimizdir. Bu səbəbdən hər şeydən əvvəl və hər sahədə mədəniyyətin təsbiti mövzusuna üstünlük verilməlidir.

Milli mədəniyyət gələcək nəsillərə daha da zənginləşdirilmiş halda ötürülməlidir. Mədəniyyət dəyişmədən və zənginləşdirilmədən varlığını qoruya bilməz. Bu məqsədlə yaradıcı və qurucu səciyyəli hər cür fəaliyyət təşviq edilməli, yeni qabiliyyətlərin kəşf edilməsi, istiqamətləndirilməsi, dəyərləndirilməsi fəaliyyətlərinə mühüm əhəmiyyət verilməlidir.



Bir halda ki, mədəniyyəti millət meydana gətirir və mədəniyyət də milləti yaşadır, deməli, yaşamaq üçün milli mədəniyyətimizi yaşatmaq məcburiyyətindəyik. İlk növbədə mədəniyyətimizin keçmişini, mədəniyyət xəzinəmizi layiqincə mənimsəmiş, həzm etmiş nəsillər yetişdirməklə işə başlamalıyıq. Müasir Avropa mədəniyyəti dairəsinə girdiyimizə görə, mədəniyyətimizin özündə böyük bir dəyişiklik etmədən, yəni mühafizə edilməsi zəruri olan milli şəxsiyyətimizi təşkil edən xarakterik keyfiyyətlərimizi budamadan, təcrübəyə və elmin mütərəqqi nailiyyətlərinə söykənərək, forma dəyişikliklərini şüurlu surətdə aparmaq məcburiyyətində olduğumuzu qəbul etməliyik. Əsrlər boyu milli varlığımızı təyin edən mədəniyyətimizi zamanın şüuru, düşüncəsi içində yoğurub, onu yalnız bilmək və öyrənməyə deyil, həm də bizi yönəldən, idarə edən bir daxili səs halına gətirməyə çalışmalıyıq.

# NƏTİCƏ

«Tətbiqi kulturologiya» dərsliyi Azərbaycan mədəniyyətşünaslığının inkişafı ilə bağlı olaraq meydana gəlmişdir. Bu dərslik milli – mənəvi dəyərlərə söykənərək ərsəyə gəlmiş, mədəniyyətin inkişafına müsbət təsir göstərə biləcək bir sıra sahələri özündə əks etdirə bilmişdir. Dərsliyin hazırlanması prosesində Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin professor və müəllim heyətinin tətbiqi kulturologiya sahəsində apardığı tədqiqatlar xüsusi əhəmiyyət kəsb etmişdir. Keçmiş təcrübəyə müasirlik baxımından yanaşılmış, müxtəlif fəsil və bölmələr tətbiqi kulturologiyanın beynəlxalq tələbləri əsasında işlənilmişdir.

«Tətbiqi kulturologiya» dərsliyinin mövzuları müəyyənləşdirilərkən müvafiq fənn proqramında nəzərdə tutulan spesifik xüsusiyyətlər nəzərə alınmış, mədəniyyət sahəsinin idarə olunması sistemindəki yeniliklər əsas amil kimi götürülmüşdür.

Məlumdur ki, Azərbaycan dövlət müstəqilliyini əldə etdikdən sonra mədəniyyət müəssisələrinin fəaliyyət istiqamətləri də yeniləşmiş, bütün idarəetmə sistemi bazar iqtisadiyyatı şəraitinə uyğunlaşdırılmışdır. Sözsüz ki, belə bir vəziyyətdə «Tətbiqi kulturologiya» dərsliyinin həyat reallıqlarına uyğunlaşdırılması zərurəti meydana çıxmışdır.

Tətbiqi kulturologiya – ölkəmizdə baş verən demokratik proseslərin daima inkişafı ilə əlaqədar olaraq gündən – günə zənginləşir, ictimai, mədəni həyatda baş verən bütün yenilikləri özündə əks etdirir.

Mədəniyyət inkişaf etdikcə o, insana məxsus olan mənəvi keyfiyyətlərə də öz müsbət təsirini göstərir. Mədəni inkişafın təsiri ilə insanlar intellektuallaşır, onların davranış və vərdişləri humanistləşir. Mənəvi tərəqqi şəxsiyyətin dünyagörüşünü bəşəri dəyərlərlə zənginləşdirir.

Lakin mədəni inkişaf sadəcə olaraq kortəbii şəkildə baş vermir. İnsanın mədəni fəaliyyəti onun yaşadığı cəmiyyətin qanunları əsasında formalaşır, inkişaf edir. Xüsusilə, cəmiyyətin mədəniyyət strukturları cəmiyyətdə gedən mədəni



prosesləri elmi əsaslarla düzgün istiqamətə yönəldir, insanların ardıcıl mədəni fəaliyyətinə təminat yaradır. Elə buna görə də, Azərbaycanda mədəniyyət müəssisələri ilə yanaşı, mədəniyyət və incəsənət təmayüllü təhsil müəssisələri də fəaliyyət göstərir. Bu müəssisələrdə hazırlanan kadrlar peşəkar bir səviyyədə mədəniyyətin inkişaf dialektikasını düzgün dərk edir, «Tətbiqi kulturologiya» fənni vasitəsi ilə aldığı bilgiləri əyani olaraq cəmiyyət həyatına tətbiq edirlər.

İctimai, elmi, mədəni tərəqqinin müasir mərhələsində Azərbaycan cəmiyyətində də çoxfunksiyalı mədəniyyət sistemləri – müəssisələri, cəmiyyətləri, assosiasiyaları, elmi, bədii strukturları formalaşmaqda və inkişaf etməkdədir. Onların hər birinin fəaliyyət istiqamətlərini, inkişaf dialektikasını öyrənmək və təhlil etmək, əldə olunan müsbət nailiyyətləri yaymaq və mədəni həyatımızın bütün sahələrinə tətbiq etmək vəzifələri əsasən tətbiqi kulturologiyanın öhdəsinə düşür. Çünki tətbiqi kulturologiya əldə olunan nəzəri bilikləri təcrübi amillərlə əlaqələndirir və onu konkret bir sistem şəklinə salıb cəmiyyətin mədəni həyatına tətbiq edir. Məhz buna görə də, tətbiqi kulturologiya daima özünü cəmiyyətdə gedən mədəni inkişaf proseslərinə uyğunlaşdırır, eyni zamanda mədəni inkişafın təşkilatçılıq funksiyasını yerinə yetirir. «Tətbiqi kulturologiya» elm sahəsi kimi həmişə axtarır, tədqiqat aparır, əldə olunan müsbət nəticələri cəmiyyətin mədəni həyatına tətbiq edir.

## RESUME

The textbook «Applied culturology» deals with the development of culturology of Azerbaijan. This textbook has been prepared on the basis of national – spiritual values. The investigations carried out in the sphere of applied culturology played a great role in the preparation process of the textbook, which has been implemented by the professor and teachers' staff of Azerbaijan State University of Culture and Arts.

While identifying the topics including the textbook of «Applied culturology» specific features have been taken into consideration according to the subject curriculum.

Applied culturology is developing due to the improvement of democratic process in our country having found all its reflection in social, cultural life.

By the improvement of culture, it exerts positive influence on spiritual qualities characteristic to human nature. Spiritual development helps the improvement of personality's world scope with worldwide values.

In Azerbaijan society a lot of multi - functioned cultural systems – institutions, societies, associations, scientific, artistic structures are being in the process of formation and development.

It is duty of culturology to study the activity directions, development dialectics and analize, to spread the positive achievements gained and apply it in all spheres of our life.



Therefore, applied culturology always tries to coincide to the cultural development processes in the society, as well as implements organizational function of cultural development. Applied culturology as a sphere of science investigates and applies the positive result in the cultural life of society.

## Учебник «Прикладная культурология»

Создание учебника «Прикладной культурологии» вызвано потребностями развития азербайджанской культурологии. Будучи созданным, в опоре на национально-духовные ценности, этот учебник смог вобрать в себя целый ряд областей знания, способных положительно воздействовать на развитие культуры. В процессе подготовки учебника особое значение имели исследования в области прикладной культурологии, проводимые профессорско-преподавательским составом Азербайджанского государственного университета культуры и искусств. В основе подходов к прежней практике лежали современные представления, различные главы и разделы учебника были разработаны исходя из международных требований прикладной культурологии.

При определении тем учебника «Прикладной культурологии» были приняты во внимание предполагаемые соответствующей учебной программой специфические особенности, в качестве основного фактора были учтены новшества в системе управления сферой культуры.

Известно, что после обретения Азербайджаном независимости также были обновлены направления деятельности культурных учреждений, вся управленческая система была приведена в соответствие с условиями рыночной экономики. Безусловно, при этом появилась настоятельная необходимость привести учебник прикладной культурологии в соответствие с реалиями жизни.

Прикладная культурология, в связи с постоянным развитием демократических процессов нашей страны, с каждым днем всё более обогащается, отражает в себе все новшества, имеющие место в общественной, культурной жизни.

В процессе своего развития культура неизбежно положительно воздействует и на духовные качества человека. В результате культурного развития люди интеллектуализируются, их поведение и привычки - гуманизируются. Духовный прогресс обогащает мировоззрение личности, актуализирует в нём общечеловеческие ценности.



Однако культурное развитие не происходит стихийно. Культурная деятельность человека формируется, развивается на основе законов окружающего его общества. В частности, культурные структуры общества, исходя из научных основ, стараются правильно направить происходящие в обществе культурные процессы, создать предпосылку для последовательной культурной деятельности людей. Именно поэтому и действуют в Азербайджане наряду с культурными учреждениями профилирующие учебные заведения культуры и искусств. Подготавливаемые в этих учебных заведениях кадры на профессиональном уровне осваивают диалектику развития культуры, знания, полученные по предмету «Прикладной культурологии», непосредственно используют в общественной жизни.

На современном этапе общественного, научного, культурного прогресса в азербайджанском обществе также формируются и развиваются многофункциональные культурные системы – учреждения, общества, ассоциации, научные и художественные структуры. Задачи изучения и исследования направлений деятельности, диалектики развития каждого из них, распространения достигнутых положительных результатов и внедрения во все сферы нашей культурной жизни возлагаются на прикладную культурологию. Прикладная культурология связывает достижения теоретических знаний с принципами практики и в виде конкретной системы внедряет их в культурную жизнь общества. Именно поэтому прикладная культурология постоянно приспосабливается к идущим в обществе культурным процессам, одновременно осуществляет организаторскую функцию культурного развития. «Прикладная культурология», как сфера науки, всегда находится в поисках, ведет исследования, внедряет полученные положительные результаты в культурную жизнь общества.

«Bakalavr» təhsil pilləsi üçün

# «TƏTBİQİ KULTUROLOGİYA» FƏNNİ ÜZRƏ

## PROQRAM



### *Kursun məqsəd və vəzifələri*

«Tətbiqi kulturologiya» fənni üzrə tərtib olunan proqram Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin «Kulturologiya» fakultəsində istifadə olunmaq üçün nəzərdə tutulub.

Kursun tədrisi, əyani şöbədə, III kursun V semestrindən başlayaraq VI semestrin sonuna qədər davam edir.

(Fənn üçün cəmi 70 s: 44 saat mühazirə, 26 saat seminar nəzərdə tutulur)

«Tətbiqi kulturologiya» bir çox elmləri özündə birləşdirməklə yanaşı, mədəniyyətşünaslığın bütün sahələrini əhatə edir. Bədii-estetik, pedoqoji-etik, mədəni-kutləvi, əyani - texniki və s. məsələlərlə bağlı bilgilər kursun əsas məzmununu təşkil edir. Proqramda maraq və zövqlərin öyrənilməsi üçün differensiallaşdırmanın mahiyyətinə xüsusi diqqət yetirilir. «Tətbiqi kulturologiya» milli özünüdərketmənin formalaşdırılması üçün dinə və ənənəvi mədəniyyətə xüsusi yer verir, mədəniyyətlərin inteqrasiyasına xüsusi diqqət yetirir, dünyanın qabaqcıl mədəni-kütləvi fəaliyyət formalarının nümunələrinin Azərbaycan mədəniyyətinə tətbiq olunmasını müsbət qiymətləndirir.

Tətbiqi kulturologiya milli özünüdərketmə prosesində sağlam ünsiyyətin yaradılmasına, dünya kulturoloji fikrinin müqayisəli tədqiqinə, bütövlikdə fərd və şəxsiyyət, tərbiyyə və cəmiyyət, insanşunaslığa xidmət edən elm sahələrindən biridir. Bu elmin prinsipial xüsusiyyətlərindən ən başlıcası odur ki, o öz predmetinin tədqiqində idealı yox, məhz dünyann obyektiv reallığını seçir, milli və ümumbəşəri dəyərlərə istinad edir.

**«Tətbiqi kulturologiya» kursu üzrə saatların bölgüsü**

| № | Mövzular | Saatların miqdarı | |
|---|---|---|---|
| | | Mühazirə | Seminar |
| 1 | Tətbiqi kulturologiyanın predmeti və vəzifələri | 2 | |
| 2 | Asudəvaxtşünaslıq tətbiqi kulturologiyanın əsas istiqamətlərindən biri kimi | 4 | 2 |
| 3 | Tətbiqi kulturologiyada sosioloji tədqiqatların yeri | 4 | 2 |
| 4 | Tarixi - ənənəvi ünsiyyət formaları və onların sosial - kulturoloji mahiyyəti | 2 | 2 |
| 5 | Ünsiyyət prosesində özünü-idarəetmə və informasiya mübadiləsinin rolu | 2 | 2 |
| 6 | Turizm -tətbiqi kulturologiya-nın əsas tərkib hissəsi kimi | 4 | 2 |
| 7 | Tətbiqi muzeyşünaslıq və onun əsas istiqamətləri | 2 | 2 |
| 8 | Tətbiqi kulturologiyada adət və ənənələrin yeri | 4 | 4 |
| 9 | Tətbiqi kulturologiya və differensiallaşdırma | 4 | 4 |
| 10 | Tətbiqi kulturologiya ilə müqayisəli kulturologiyanın vəhdəti | 4 | 2 |
| 11 | Dini mədəniyyətin tətbiqi kulturologiyaya inteqrasiyası | 2 | 2 |
| 12 | Tətbiqi kulturologiyada əyani vasitələrin yeri | 2 | |
| 13 | Tətbiqi kulturologiyada texniki vasitələrin rolu | 2 | |
| 14 | Bədii – kütləvi iş tətbiqi kulturologiyanın əsas istiqamətlərindən biri kimi | 4 | 2 |
| 15 | Sosial – mədəni sahənin idarə edilməsinin elmi – nəzəri və əməli məsələləri | 2 | |
| | Cəmi | 44s. | 26s. |



## Mövzu 1. Tətbiqi kulturologiyanın predmeti və vəzifələri

Tətbiqi kulturologiya-insan və cəmiyyətin, şəxsiyyətin formalaşması haqqında elm kimi. Tətbiqi kulturologiyanın prinsipial xüsusiyyətləri. Tətbiqi kulturologiyanın cəmiyyətdə yeri.

Tətbiqi kulturologiya və ona əsas istiqamətləri.

Tətbiqi kulturologiyada varislik prinsipi. Tətbiqi kulturologiyada nəzəriyyə ilə təcrübənin vəhdəti. Mədəniyyət müəssisələri tətbiqi kulturologiyanın obyekti kimi. Tətbiqi kulturologiya estetik təsir vasitəsi kimi. Tətbiqi kulturologiyanın metodları. Tətbiqi kulturologiyanın əsas funksiyaları.

Müqayisəli tətbiqi kulturologiya. Tətbiqi kulturologiyada beynəlxalq ənənələrin rolu.

Mədəniyyət anlayışı və ona müxtəlif yanaşmalar.

## Mövzu 2. Asudəvaxtşünaslıq tətbiqi kulturologiyanın əsas istiqamətlərindən biri kimi

Mədəni fəaliyyət tətbiqi kulturologiyanın tərkib hissəsi kimi. İctimai-sosial institutlar və mədəni fəaliyyətin təşkilində onların rolu. Tətbiqi kulturologiyanın əsas subyektləri. Asudə vaxtın əsas sosial problemləri. Asudə vaxtın təşkilinin sosial — mədəni mühiti. Asudə vaxtın yaradıcılıq mühitinin təşkili xüsusiyyətləri. Bədii xalq yaradıcılığı ilə asudəvaxtşünaslığın vəhdəti. Asudəvaxşünaslıq sahəsində beynəlxalq təcrübənin öyrənilməsi. Kulturologiyada şəxsiyyət anlayışı. Mədəni ünsiyyətin təşkilində milli-mənəvi dəyərlərin rolu. Beynəlxalq mədəni əlaqələr, onların tətbiqi kulturologiyanın inkişafına təsiri və asudəvaxtşünaslıq.

### Seminar

1. Asudə vaxt sosial sərvət kimi;
2. Mədəni - kütləvi tədbirlərdə tamaşaçı-iştirakçı ünsiyyəti;
3. Teatrlaşdırılmış şou-konsertlər, onların əhəmiyyəti;
4. Kütləvi xalq bayramlarının ssenariləşdirilməsi və onların keçirilmə xüsusiyyətləri.

## Mövzu 3. Tətbiqi kulturologiyada sosioloji tədqiqatların yeri

Sosioloji tədqiqatlar tətbiqi kulturologiyanın elmi informasiya əsası kimi. Sosioloji tətqiqatların nəticələrinin tətbiqi kulturologiyanın inkişafına rasional və empirik təsiri.

Sosioloji tədqiqatın əsas mərhələləri. Sosioloji tədqiqatların təşkilinin xüsusiyyətləri. Sosioloji tətqiqatların formaları. Sosioloji tətqiqatın metodları. Sosioloji tətqiqatlarda eksperimentlərin rolu.

Tədbiqi kulturologiyada sosial layihələşdirmənin mahiyyəti. Sosial proqnozlaşdırma və onun tətbiqinin kulturologiyada yeri. Sosial proqnozlaşdırmanın mahiyyəti.



Sosioloji tətqiqatların plan və proqramının tərtibi xüsusiyyətləri. Sosioloji tədqiqatların məqsəd və vəzifələri. Tədqiqatın vahid problemi və onun mahiyyəti. «Çox problemli» tədqiqatlar və onlarda yaranan çətinliklər.

Sosioloji tədqiqat prosesində istifadə olunan vasitələrin, metodların, anlayışların məntiqi təhlili xüsusiyyətləri. Tədqiqatın hipotezləri və onların mahiyyəti. Tədqiqata dair informasiyaların toplanılmasında fərziyyələrin rolu. Sorğunun keçirilmə xüsusiyyətləri. Mərhələli sosioloji tədqiqat və onun vəzifələri. Sorğu metodları. Sosioloji tədqiqatın mahiyyəti.

Sosioloji tədqiqatlar tətbiqi kulturologiya sahəsində mövcud informasiya boşluğunun aradan qaldırılması vasitəsi kimi. Tətbiqi kulturologiyanın inkişafında psixologiya, fəlsəfə, pedaqogika və s. humanitar elmlərin rolu.

### Seminar

1. Mədəniyyət müəssisələrində keçirilən sosioloji tədqiqatların əhəmiyyəti;
2. Sosioloji tədqiqatların məqsəd və vəzifələri;
3. Sosioloji tədqiqatlar - tətbiqi kulturologiyanın elmi formasiya əsası kimi;
4. Tətqiqata dair informasiyaların toplanmasında fərziyyələrin rolu.

## Mövzu 4. Tarixi - ənənəvi ünsiyyət formaları və onların sosial-kulturoloji mahiyyəti

Şəxslərarası ünsiyyətin təşkili tətbiqi kulturologiyanın əsas sahəsi kimi. Elmi ədəbiyyatlar ünsiyyətin sosial - kulturoloji mahiyyəti haqqında.

Ünsiyyətin yeni forma və vasitələri, onların tətbiqi metodları. Kütləvi ünsiyyətin dini-mənəvi formaları. Milli adət - ənənələr kütləvi ünsiyyət vasitəsi kimi. Sosial fəallıq və onları formalaşdıran vasitələr. Əmək ənənələri, bayram və mərasimləri kütləvi ünsiyyət vasitəsi kimi. Ailə və məişət adət-

ənənə və mərasimlərin kütləvi ünsiyyətin yaradılmasında rolu. Asudə vaxt ünsiyyəti və onun formaları.

**Seminar**

1. Milli özünüdərketmə prosesində ünsiyyət əsas amillərdən biri kimi;
2. Asudə vaxt ünsiyyəti və onun formaları;
3. Əmək ənənələri, bayram və mərasimləri kütləvi ünsiyyət vasitəsi kimi;
4. Milli adət və ənənələr mənəvi dəyərlər kimi.

### Mövzu 5. Ünsiyyət prosesində özünüidarəetmə və informasiya mübadiləsinin rolu

Mədəni ünsiyyətin təşkilinin müasir problemləri. Tətbiqi kulturologiya mədəni ünsiyyətin təşkili haqqında. Mədəni ünsiyyətin bazar iqtisadiyyatı şəraitinə uyğunlaşdırılmasının elmi – metodiki əsasları.

Tətbiqi kulturologiya-mədəni ünsiyyətin təşkilində aktual informasiyaların əhəmiyyətinə dair. İnformasiya mübadiləsi və onun xüsusiyyətləri. İnformasiya mübadiləsinin mahiyyəti.

Özünüdərketmə prosesində kommunikasiya vasitələrinin rolu. Kommunikasiyanın əsas aspektləri. Kommunikasiya vasitələrinin informasiya prosesində rolu.

Dərketmə fəaliyyəti informasiya mübadiləsinin əsas komponentlərindən biri kimi. İnformasiya mübadiləsi və qiymətləndirmənin xüsusiyyətləri. Kütləvi ünsiyyət mübadiləsi. Fərdlərarası ünsiyyət mübadiləsi. Ünsiyyət insanın emosional vəziyyətinin əsas xüsusiyyəti kimi.



**Seminar**

1. Tətbiqi kulturologiyada ünsiyyət problemi;
2. İnsanın özünüdərketmə prosesində kommunikasiya vasitələrinin rolu;
3. Dərketmə fəaliyyəti informasiya mübadiləsinin əsas komponentlərindən biri kimi;
4. İnformasiya mübadiləsi və onun xüsusiyyətləri.

### Mövzu 6. Turizm - tətbiqi kulturologiyanın əsas tərkib hissəsi kimi

Turizm-fəal istirahətin kütləvi formalarından biri kimi. Turizm aktual mədəni-sosial hadisə kimi. Turizm təşkilatlarının fəaliyyətinə tətbiqi kulturologiyanın sosial, elmi münasibəti. Mədəni asudə vaxtın təşkil olunmasında turizmin rolu. Turizm bazar iqtisadiyyatı şəraitinə uyğun olan ən əlverişli kulturoloji fəaliyyət sahəsi kimi. Turizm fiziki tərbiyə vasitəsi kimi. Tarixi bilgilərə yiyələnməkdə turizmun əhəmiyyəti. Ekoloji mədəniyyətin formalaşmasında turizmin rolu.

Turist qruplarının formalaşdırılması xüsusiyyətləri. Səyahətin sosial-mədəni mahiyyəti və onun turist qruplarının formalaşmasına təsiri. Turistlərlə aparılan mədəni-kütləvi işin forma və metodları. Turist- ekskursiya mərkəzlərində aparılan mədəni-kütləvi işin tətbiqi kulturoloji əsasları. Turistlərlə aparılan mədəni-kütləvi işin sosial vəzifələri.

Turizm işində kütləvi informasiya vasitələrinin rolu. Turizm sahəsində təbliğat xarakterli işin forma və metodları. Turistlərin fərdi istedad və bacarıqlarının üzə çıxarılması yolları.

Turizmin idarə olunması və onun maliyyə əsasları.

**Seminar**

1. Turizm-aktual mədəni sosial hadisə kimi;
2. Ekoloji mədəniyyətin formalaşmasında turizmin rolu;

3. Turistlərlə aparılan mədəni-kütləvi işin forma və metodları;
4. Ekskursiya mərkəzlərində mədəni-kütləvi tədbirlərin təşkili və onların əhəmiyyəti.

**Mövzu 7. Tətbiqi müzeyşünaslıq və onun əsas istiqamətləri**

Muzey işinin formalaşmasında tətbiqi kulturologiyanın yeri. Tətbiqi müzeyşünaslığın fəaliyyət istiqamətləri. Tətbiqi müzeyşünaslığın əsas vəzifələri. Tətbiqi muzeyşünaslığın yaranma tarixi.

Tətbiqi müzeyşünaslığın metodologiyası və metodikası. Muzey işinin əsas xüsusiyyətləri. Muzey fondu və onun elmi kompleksləşdirilməsi. Muzeyin təcrübi fəaliyyətinin aktual sahələri. Müzeylərin tədris – tərbiyə fəaliyyəti.

Muzey isçisinin əxlaq normaları, onun peşə etikası. Muzeylərdə elmi - maarif fəaliyyətinin təşkili. Ekspozisiyaların, sərgilərin növləri və onların təşkili xüsusiyyətləri. Müzeylərdə vətənpərvərlik tərbiyəsinin aşılanması.

**Seminar**

1. Müasir mərhələdə tətbiqi muzeyşünaslığın məqsəd və vəzifələri;
2. Tətbiqi müzeyşünaslığın elmi-metodik təminatı və kompleksləşdirilməsi;
3. Tətbiqi müzeyşünaslıqda ənənəvilik və tarixi varislik prinsipləri;
4. Mədəni - kütləvi tətbirlərin keçirilməsində müzeylərin rolu.

**Mövzu 8. Tətbiqi kulturologiyada adət və ənənələrin yeri**

Adət-ənənələrin sosial-mədəni mahiyyəti. Adət və ənənələr mədəni-kütləvi tədbirlərin mövzu mənbəyi kimi.



Tətbiqi kulturologiya sahəsinə adət və ənənələrin tətbiqi mexanizmi.

Adət və ənənələr bədii yaradıcılıq mənbəyi kimi. Milli şüurun formalaşmasında, inkişaf etməsində adət və ənənələrin rolu.

Adət və ənənələrdə tamaşa elementləri. Adət və ənənələrdə emosional ifadə vasitələri. Dini, milli-ənənəvi bayramlar və onların mədəni-sosial mahiyyəti. Əmək bayramları və onların sosial-mədəni mahiyyəti. Ailə-məişət bayramları və onların mədəni-sosial mahiyyəti. Dövlət bayram və mərasimləri. Bayram və mərasimlər ünsiyyət vasitələri kimi. Kütləvi bayramların bədii-emosional təşkilinin forma və metodları. Kütləvi bayramların təşkilində ssenariləşdirmənin əhəmiyyəti.

**Seminar**

1. Bədii xalq yaradıcılığının tarixi qaynaqları;
2. Ozan-aşıq yaradıcılığı şifahi xalq ədəbiyyatının janrlarından biri kimi;
3. Azərbaycan- folklor incilərinin beşiyi kimi;
4. Bədii xalq yaradıcılığında tarixilik və varislik;
5. Azərbaycan klassikləri milli adət və ənənələr, mərasimlər haqqında;
6. Milli adət və ənənələr milli mədəniyyətin başlıca amili kimi;
7. Məişət mərasimləri, əmək nəğmələri;
8. Xalq təbabəti və ondan istifadə ənənəsi.

**Mövzu 9. Tətbiqi kulturologiya və differensiallaşdırma**

Tətbiqi kulturologiya differensiallaşdırmanın əhəmiyyəti haqqında. Differensiallaşdırmanın elmi-texnoloji əsasları. Differensiallaşdırmanın forma və metodları. Fərdi yanaşmada yaş xüsusiyyətlərinin nəzərə alınması. Ayrı-ayrı yaş

qruplarının ümumi psixoloji vəziyyətlərinin proqnozlaşdırılması və onların mənəvi maraqlarının differensiallaşdırılması.

Müxtəlif sosial qrupların differensiallaşdırılmasında peşə fəaliyyətinin, psixoloji mühitin nəzərə alınması. Mədəni-kütləvi tədbirlərin hazırlanmasında təşkilatçının vətəndaşlıq mövqeyi. Şəxsiyyətlər və fərdlər arasında təşkil olunmuş ünsiyyətin yaradılmasında differensiallaşdırılmanın əhəmiyyəti. İntellektual differensiallaşdırma.

**Seminar**

1. Tətbiqi kulturologiyada differensiallaşdırmanın əhəmiyyəti;
2. Differensialaşdırmanm elmi-nəzəri istiqamətləri;
3. Differensialaşdırmanın forma və metodları;
4. Mədəni kütləvi tədbirlərin hazırlanmasında differensiallaşdırma;
5. Sosial qruplarda psixoloji vəziyyətlərin proqnozlaşdırılması və sağlam ünsiyyətin yaradılması;
6. Differensialaşdırmada fərdi yanaşma metodu;
7. İntellektual differensialaşdırma və onun əhəmiyyəti;
8. Differensialaşdırmada sosioloji tədqiqatların rolu.

## Mövzu 10. Tətbiqi kulturologiya ilə müqayisəli kulturologiyanın vəhdəti

Tətbiqi kulturologiya sahəsində beynəlxalq təcrübə. Qərbin iqtisadi inkişaf etmiş ölkələrinin mədəni həyatında baş verən kulturoloji yeniliklər. Beynəlxalq mədəni kulturoloji proseslərdə, mütərəqqi ənənələrin öyrənilməsi və tətbiqi qaydaları.

Beynəlxalq mədəni əlaqələrin tətbiqinin, kulturologiyanın muqayisəli şəkildə inkişaf etməsinə təsiri. Mədəniyyətlərin inteqrasiyası və müqayisəli kulturologiya. Differensiallaşdırmanın tətbiqi metodları. Ölkədaxili proseslərdə müqayisələr və təhlillər. Mədəniyyət müəssisələrində müqayisəli eksperimentlərin kulturoloji əhəmiyyəti.



Mədəniyyət müəssisələrində tarixi ənənəvi mədəni fəaliyyətin müqayisəli şəkildə təşkili.

Adət və ənənələrin müqayisəli tətbiqi və onun kulturologiyada yeri.

**Seminar**

1. Tətbiqi kulturologiyada dünyəvilik və müasirlik;
2. Differensiallaşdırmada müqayisəli kulturologiyanın tətbiqi metodları;
3. Müqayişəli kulturologiya və onun əsas istiqamətləri;
4. Avropa və Şərq ölkələrində keçirilən kütləvi xalq bayramların spesifik xüsusiyyətləri.

## Mövzu 11. Dini mədəniyyətin tətbiqi kulturologiyaya inteqrasiyası

Din və mədəniyyət, onların tarixi qarşılıqlı əlaqələri. Milli mədəniyyətlərin formalaşmasında dinlərin rolu. Dində mənəviyyat problemi və onun adət və ənənələrə təsiri. İslam dini və onun mədəni-əxlaqi xüsusiyyətləri. İslam dinində mövcud olan mədəni-əxlaqi xüsusiyyətlərin tətbiqi kulturologiyada yeri. Qurban bayramının mədəni-kulturoloji xüsusiyyətləri, onlardan mədəni-sosial hadisə kimi istifadə ollunması. Orucluq bayramının əxlaqi-emosional mühiti və mədəni-kütləvi əhəmiyyəti. Ünsiyyət probleminin həllində dinin rolu. Dini bayramların sosial-mədəni hadisəyə çevrilməsinin kulturoloji əhəmiyyəti.

**Seminar**

1. Din və mədəniyyətin tarixi və onların qarşılıqlı əlaqəsi;
2. Dində əxlaqi-mənəvi dəyərlər və onun adət və ənənələrdə yeri;
3. Dini mərasim və bayramların tətbiqi kulturologiyada rolu;

4. Dini bayramların sosial-mədəni hadisəyə çevrilməsinin forma və metodları.

### Mövzu 12. Tətbiqi kulturologiyada əyani vasitələrin yeri

Əyani vasitələrin mədəni-kütləvi tədbirlərdə tətbiqinin məqsəd və vəzifələri. Əyani vasitələrin təsiredici amilləri. Əyani vasitələrin tətbiqində obrazlılıq anlayışı.

Əyani vasitələrin tətbiqi metodikası. Əyani vasitələrin təsir gücünün müxtəlifliyini yaradan faktorlar. Kompozisiyanın dərketmə prosesinə təsiri. Rənglərin psixoloji təsiri. Əyani vasitələrdə fizioloji xüsusiyyətlərin nəzərə alınması. Təsviri üslub, onun təbliğat və təşviqatda rolu.

Fotoreportaj-əyani vasitənin xüsusi forması kimi. Tətbiqi kulturologiyada stend, plakat, sərgi və s. kimi əyani təbliğat vasitələrinin əhəmiyyəti. Nümayişetdirmə əyani təbliğatda emosional vasitə kimi. Təbliğat və təşviqatın formaları.

### Mövzu 13. Tətbiqi kulturologiyada texniki vasitələrin rolu

Texniki vasitələrin inkişaf tarixi. Texniki vasitələrin tətbiqi kulturologiyada yeri. Texniki vasitələrdə baş verən təkamülün tətbiqi kulturologiyanın məzmun və mahiyyətinə təsiri. Mədəni-kütləvi tədbirlərdə əyani faktorların nümayiş etdirilməsində texniki vasitələrin rolu. Kino qurğuları və onların kulturoloji mahiyyəti. Videotexnika və onlardan mədəni- kütləvi tədbirlərdə istifadə etmənin əhəmiyyəti. Radio və televiziya-muasir dövrün ən aktual texniki vasitələrindən biri kimi. Foto aparatlar və onların tətbiqinin kulturologiyada əhəmiyyəti.

Texniki vasitələrdən istifadə etmənin forma və metodları. İstirahət və əyləncə texnikası, onların müasir inkişaf formaları. Elmi-texniki tərəqqinin müasir



mərhələləsində kompyüter və başqa texniki vasitələrin tətbiqi kulturologiyanın inkişafında rolu.

### Mövzu 14. Bədii-kütləvi iş tətbiqi kulturologiyanın əsas istiqamətlərindən biri kimi

Bədii-kütləvi işin inkişaf tarixi. Bədii-kütləvi iş tətbiqi kulturologiyada pedoqoji proses kimi. Bədii-kütləvi işin etik və estetik mahiyyəti. Bədii-kütləvi işin bazar iqtisadiyyatı şəraitinə uyğunlaşdırılması.

Bədii-kütləvi işin emosional vasitələri.

İllüstrasiyalaşdırma - bədii kütləvi işin ən sadə emosional metodu kimi.

Bədii-kütləvi işin dramaturji əsasları. Klub dramaturgiyası. Bədii - kütləvi tədbirlərin ssenariləşdirilməsi.

Bədii-kütləvi tədbirlərin formaları, onların hazırlanması və müasir metodları. Kütləvi bayramların teatrlaşdırılmasının mahiyyəti. Konsert teatrlaşdırılmasının mahiyyəti.

Müasir şəraitdə bədii-kütləvi işin maliyyə əsasları.

Tətbiqi kulturologiyada elmi-kütləvi tədbirlərin təşkili metodları.

#### Seminar

1. Bədii - kütləvi iş tətbiqi kulturologiyanın əsas istiqamətlərindən biri kimi;
2. Bədii - kütləvi işin təşkili və metodikası;
3. Bədii - kütləvi işin dramaturji əsasları;
4. Müasir bazar iqtisadiyyatı şəraitində bədii – kütləvi işin maliyyələşdirilməsi.

### Mövzu 15. Sosial - mədəni sahənin idarəedilməsinin elmi - nəzəri və əməli məsələləri

Sosial-mədəni sahənin idarəedilməsi kulturoloji proses kimi. İdarəetmədə qloballaşma və mədəni inteqrasiya amillərinin nəzərə alınması. İdarəetmədə demokratik iş

sisteminin formalaşdırılması. Sosial mədəni sahənin maliyyələşdirilməsinin formaları.

Mədəniyyət müəssisələrinin iqtisadiyyatı və idarəedilməsinin ümumi xüsusiyyətləri. Bazar münasibətlərinə uyğun idarəçiliyin və sərbəst iqtisadi sistemin qurulması. İdarəetmə elminin əsas müddəaları. Rəhbərlik fəaliyyəti idarəçiliyin əsas şərtlərindən biri kimi. Mədəniyyət müəssisələrinin büdcəsi və maliyyələşdirilmə xüsusiyyətləri. Smeta-büdcə maliyyələşdirilməsinin əsas prinsipləri. Maliyyə intizamı. Təsərrüfat hesabına əsaslanan xüsusi vəsaitlər. Pullu xidmət sahələri. İllik iş planının və illik smetanın tərtibi qaydaları. Xidmətlərin qiymətləndirilməsi prinsipləri. Həmkarlar İttifaqlarının nəzdində olan mədəniyyət müəssisələrinin maliyyələşdirilməsi xüsusiyyətləri. Milli mədəniyyətimizin təməl prinsiplərinin sosial - mədəni sahəyə tətbiqi məsələləri. Azərbaycan mədəniyyətini meydana gətirən dəyərlərin araşdırılması, tanıdılması və inkişaf etdirilməsi milli vəzifə kimi. Məktəb və təhsil-sosial dəyişmənin bir vasitəsi kimi. Milli mədəniyyətin məqsədi və vəzifələri. Müasir modern qurum və ya təşkilatın nəzəri mahiyyəti.



# Mədəniyyət və sənət nümunələri



*Qobustan. Qaya üstü təsvirlər.*



*Naxçıvan şəhərində "Mömünə - xatun" mavzoleyi.*




*Gəncə şəhərində Nizami mavzoleyi*



*Şəki. Xan sarayı.*



*QAX. İlisu kəndində Sumuq - qala qülləsi. XVI əsr.*



*BAKI. Mərdəkan kəndində qəsr. 1204.*



*BAKI. Ramana kəndində qəsr. XIII əsr.*



*BAKI. Mərdəkan kəndində böyük qəsr. 1187.*



*BAKI. Şəhərin ən qədim məscidi - Sınıq qala. 1079.*



*QAZAX. Əskipara kəndində qüllə.* XVI *əsr.*





*ŞƏKİ. Ağcaqala qülləsi.* XII- XIII *əsrlər.*



*QAZAX. Didivan kəndində qüllə.* XVI *əsr.*



*CULFA. Xanağa kəndində Əlincə qalası.*
VII - VIII *əsrlər.*



*Bakı şəhərində Nizami Gəncəvinin heykəli.*



*Bakı şəhərində Səməd Vurğunun heykəli.*



*"Kitabi - Dədə Qorqud."*



*Qılınc dəstəyi, XX əsr*



*Azərbaycanın dekorativ - tətbiqi sənət nümunələri.*



*Bədii döymə və dekorativ-tətbiqi sənət nümunələri.*



*Azərbaycanın milli musiqi alətləri.*



*Əl ilə toxunan Azərbaycan milli xalçası.*



*Xovlu xalça "Dərvişlər". Təbriz məktəbi.*



*Xovlu xalça. Quba məktəbi.*



*Xovlu xalça "Xan çeşnisi". Quba məktəbi.*



*Xovlu xalça "Bico". Şirvan məktəbi.*

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasının Konstitusiyası (1995-ci il 27 noyabr). Bakı, «Kitab» cəmiyyəti, 1998.
2. Ağayev R. Azərbaycan xalq yaradıcılığı. Bakı, Mars-Print, 1999.
3. Ağayev R. Azərbaycanın beynəlxalq mədəni əlaqələri. Bakı, Mars-Print, 2003.
4. Ağayev R. Əlizadə A. Bədii xalq yaradıcılığında tarixilik və varislik. Bakı, Mars-Print, 2003.
5. Alxasova E. Ünsiyyət mədəniyyətinin tərbiyə edilməsi (metodik vəsait). Bakı, Mars-Print, 2000.
6. Alxasova E. Məktəbəqədər müəssisələrdə mədəni fəaliyyətin təşkili (tədris vəsaiti). Bakı, Mars-Print, 2001.
7. Alxasova E. Sadə oyun formaları və onların təsnifatı (metodik vəsait). Bakı, Mars - Print, 2001.
8. Abbasov Ə, Məmmədov F. Sülh mədəniyyəti nədir? Bakı, «Yeni nəsil» nəşriyyat evi. 2002.
9. Abdullayeva S.A. Azərbaycan xalq çalğı alətləri. Bakı «Adiloğlu» nəşriyyat, 2002.
10. Anadol C., Abbasova F. Türk kültür və medeniyeti. İstanbul, Kültür, Sanat Yayımcılık, 2002.
11. Cavit B. Teşkilat ve idarə. Ankara, 1966.
12. Elçin. Ədəbiyyatda tarix və müasirlik problemi. Elmi məruzə. Bakı, 1997.
13. Əfəndiyev T. Azərbaycan dramaturgiyasında metodlar. Bakı, Elm,2002.
14. Əfəndiyev T. Azərbaycan mədəniyyəti və incəsənəti. İran, 2003.
15. Əliyev T. Məişət xidmətinin iqtisadiyyatı, təşkili və idarəedilməsi. Bakı, Azərnəşr, 1992.
16. Əliyeva A. Azərbaycan romantiklərinin yaradıcılığında türkçülük. Bakı, Elm, 2002.
17. Əlizadə A. Milli mədəniyyətdə tarixilik (dərs vəsaiti). Bakı, Mars-Print, 2000.





18. Əmirxanov S., Hüseynov İ. Dünya muzeyləri və tarixi mədəniyyət abidələri. BDU nəşriyyatı, 1996.
19. Əlizadə M. Teatr: Seyr və sehr... Bakı, Elm, 1998.
20. Filip Kotler. Marketinqin əsasları (ruscadan tərcümə edənlər: Rauf Hacıyev, Rövşən Məmmədov). Bakı, Erkün, 1993.
21. Fons Trampenaars, Charles Hamrden-Turner. Küresel iş yönetimi. Ve kültürel çeşitlilik (çeviren Zülfi Dicleli). İstanbul, Anadolu Qrubu Yayınları, 1998.
22. Hacıyev B. Cəfər Cabbarlı pyeslərinin səhnə təcəssümü. Bakı, Mars-Print, 2002.
23. Haqverdiyev T. Bədii-kütləvi işin təşkili və metodikası. Bakı, BDU nəşriyyatı, 1992.
24. Həmkarlar İttifaqı klubu, mədəniyyət sarayı və evi haqqında əsasnamə. «Ülfət» qəz., 13 dekabr 1996-ci il.
25. Hüseynov İ., Əmirxanov S. Kulturoloğiya və onun əsas istiqamətləri. Bakı, ADMİU, 1996.
26. Hüseynov İ. Asudə vaxt mədəniyyətinin tərbiyə edilməsi sahəsində başlıca məqsəd və vəzifələr (metodik göstəriş). Bakı, Nərgiz, 2000.
27. Hüseynov İ. Azərbaycan milli adət və ənənələrinin bədii – estetik mahiyyəti. Bakı, Mars-Print, 2002.
28. Xudiyev N. Radio, televiziya və ədəbi dil. Bakı, Azərnəşr, 2001.
29. John U. Nef. Sanayileşmenin kültür temelleri. Milli egitim basım evi, İstanbul, 1986.
30. Kafesoğlu İ, Türk Milli kültürü İstanbul, Cağaloğlu, 1996.
31. Kayabalı İ., Aslanoğlu C. Milli egitim və kültür. Arisan matbası, 1983.
32. Kərimov K.Ç, Əfəndiyyev R.S., Rzayev N. İ., Həbibov N.D.Azərbaycan incəsənəti. Bakı, İşıq, 1992.
33. Kazımzadə A. Azərbaycan kinosu. I-II cild, Bakı, Nağıl evi, 2003.
34. Kitabxana işi haqqında Azərbaycan Respublikasının Qanunu. «Mədəniyyət» qəz., 15 fevral, 2000-ci il.
35. Kulturologiya (dərslik). Bakı, Mars-Print, 2003.

36. Qarayev Y. Tarix: yaxından və uzaqdan. Bakı, Sabah, 1995.
37. Qarayev Y. XXI əsr: qlobal sivilizasiya və Şərq dəyərləri. Dirçəliş-XX əsr, 2001, № 1-2 (35-36), s 124 - 132.
38. Qarayev Y. Min ilin sonu... Bakı, Elm, 2002.
39. Qaziyeva N. Səhnə pedaqogikası. Bakı, Mars-Print, 2004.
40. Qurbanlı M. Əsrə bərabər 10 il (1991-2001). Bakı, Ozan. 2001.
41. Qasımlı M. Ozan aşıq sənəti. Bakı, Uğur, 2003.
42. Quliyev E. Televiziya iki əsrin ayrıcında, Bakı, İşıq, 1993.
43. Qubatoğlu B. Mədəniyyət tarixi. I-II cild. Bakı, Nasir, 2002.
44. Qloballaşma və Azərbaycan (respublika elmi – praktik konfransının materialları) Bakı, Adiloğlu, 2001.
45. Quliyev T. İdarəetmənin əsasları. Bakı, Maarif,1993.
46. Quliyev T. Menecmentin (idarəetmənin) əsasları, Bakı, Nağıl evi, 2001.
47. Qurbanov B. Musiqinin bədii – estetik məsələləri. Bakı, Ağrıdağ, 2002.
48. Qurbanov B. Azərbaycan incəsənəti: təriflər, təhriflər, Bakı, Araz, 2001.
49. Quliyev E. Televiziya: Nəzəriyyə, inkişaf meylləri, Bakı-2004.
50. Menecerin sorğu kitabçası, Bakı, Elm, 1991.
51. Mehmet Kaplan. Türk Milletinin kültürel degerləri. İstanbul, Milli Egitim Basimevi, 1977.
52. Mədəni – maarif işində sosioloji tədqiqatların metodikası (metodik göstəriş), Bakı, APİ-nin mətbəəsi,1989.
53. Mədəniyyət haqqında Azərbaycan Respublikasının Qanunu. «Mədəniyyət» qəz., 13 may 1998-ci il.
54. Mədəniyyət dünyası, /elmi məqalələr toplusu, I – VII buraxılışlar, 2001 – 2004
55. Məmmədbəyova İ. Müstəqil Azərbaycan Respublikasında mədəni asudə vaxt: ənənə və varislik (metodik vəsait). Bakı, ADMİU, 2001.
56. Məmmədov Ə. Milli adət və ənənələr. Bakı, Mars-Print 2000.



57. Məmmədov Ə. Nur karvanı. Bakı, ADMİU, 2003.
58. Məmmədov Ə. Asudə vaxtın ümumi metodikasına giriş (Dərs vəsaiti), ADMİU, 1995.
59. Məmmədov Ə. Uşaq və yeniyetmələrlə mədəni fəaliyyətin təşkili. Bakı, Nərgiz, 1999.
60. Mədəniyyət və sənət jurnalı, Bakı, ADMİU, №1, 2003.
61. Musiqi sənəti: problemlər, perspektivlər elmi məqalələr toplusu, Bakı, ADMİU, 2002.
62. Muzeylər haqqında Azərbayycan Respublikasının Qanunu. «Azərbaycan» qəz., 25 mart 2000-ci il.
63. Muzeyşünaslıq (dərslik). Bakı, Mars-Print, 2002.
64. Nümtaz Türhan. Kültür değişmeleri. İstanbul, Milli egitim basıevi,1969.
65. Nəbiyev A. Azərbaycan xalq ədəbiyyatı, I hissə. Bakı, Turan, 2002.
66. Niyazi Mehdi. Çətin və dolaşıq durumların kulturolojisi. Qərb və Şərq mədəniyyətlərində virtual örtüyün «kosmoqoniyası» Bakı, Qanun, 2001.
67. Ögel B. Türk kültür tarihine giriş, IX cildde. Ankara, Kültür Bakanlığı, 2000.
68. Rəhimov A. Mədəniyyət müəssisələrində texniki təchizat işləri. Bakı, Xaqan, 2002.
69. Rəhimov A. Texniki vəsaitlər (dərs vəsaiti). Bakı, ADMİU, 2002.
70. Rustəmli A. Susmaz duyğuların səltənətində. Bakı, 2002.
71. Selçuk Kantarcıoğlu. Rəhberlik özgütü, İstanbul, Milli egitim basımevi, 1973.
72. Selçuk Kantarcıoğlu. Türkiye Cumhuriyeti hükümet proqramlarında kültür. T.C. Kültür Bakanlığı, Ankara, 1998.
73. Sosiologiya. Bakı, «Təbib», 1994.
74. Sofiyev X. XX əsrin əvvəlləri Azərbaycan mədəniyyətində Əhməd bəy Ağaoğlu. (Avtoreferat) Bakı, ADMİU, 2003.
75. Suleymanov M. Müasir dövrdə mədəniyyət müəssisələrinin idarə olunması və iqtisadiyyatı (Metodik tövsiyə). Bakı, ADMİU, 1996.
76. Suleymanov M. Novruz (tarixi kökləri). Metodik vəsait. Bakı, ADMİU, 1998.

77. Şahbazov K.A., Məmmədov M.H., Həsənov H.S. Müasir menecment. Bakı, Bilik, 1994.
78. Şükürov A. Kulturologiya (dərslik). Bakı, Elm, 1998.
79. Şükürov A. Fəlsəfə və qloballaşma. Bakı, Adiloğlu, 2002.
80. Tağıyev Ə., Əliyev Q. Kulturologiya (dərs vəsaiti). Bakı, Təbib, 1997.
81. Tarix və mədəniyyət abidələrinin qorunması haqqında Azərbaycan Respublikasının Qanunu. «Azərbaycan» qəz., 19 iyun 1998-ci il.
82. Will Durant. Medeniyetin temelleri. İngilis dilinden çeviren: Necat Muallimoğlu. İstanbul, Birleşik yayıncılık, 1996.
83. Бобахов В.А., Левикова С.И. Культурология (программа базового курса, хрестоматия, словарь терминов). Москва, ФАИР – ПРЕСС, 2000.
84. Восток-Запад. Исследования (переводы, публикации). Москва, Наука, 1985.
85. Гуревич П. С. Культурология (учебник, 3-е изд., перераб. и доп.) Москва, УИЦ «Гардарики», 1999.
86. Зейналов Х.А. Искусство Азербайджана в контексте искусствознания России (монография) – Баку, Элм, 2003.
87. Золкин А. Л. Културология (учеб. Пособие для вузов, под ред. Проф. Н. В. Михайловой). Москва, ЮНИТИ-ДАНА, 2001.
88. История и культурология (учебное пособие для студентов вузов. Н.В. Шишова, Т. В. Кулич, М.И. Бойко и др., Под ред. В. Шишовой). Москва, Издательская корпорация «Логос», 1999.
89. Культура на пороге III тысячелетия. Тезисы. Докладов международного семинара в г. Санкт – Петербурге ( 25 – 26 апреля 1994 года). Санкт – Петербург, 1994.
90. Культурология (Учеб. Пособие для вузов. Под. Ред. проф. А.Н. Марковой, 3-е изд). Москва, ЮНИТИ- ДАНА, 2002.
91. Как провести социологическое исследование. М., 1990.
92. Мамедов Ф.Т. Культурология (учебное пособие). Баку, Абилов, Зейналов и сыновья, 2002.



93. Мамонтов С.П. Основы културологии (Учебное пособие для высшых учебных заведений). Москва, «Олимп», «ИНФРА- М» 1999.
94. Поздняков Э.А. Философия культуры. Москва, Интурреклама, 1999.
95. Разин В.М. Введение в культурологию (Учебник для высшей школы). Москва, Издательский ДОМ «ФОРУМ», 2000.
96. Dadasheva S. Kulturology and State building in Azerbaijan. «Azerbaijanis» (The Presidium of Azerbaijan National Academy of Sciences) Bakı- 2003 (p. 26).
97. Dadaşov A. Ekran dramaturgiyası. Bakı, Maarif, 1999.
98. Dadaşov A.Ssenari yaradıcılığı. Bakı, BDU, 2001.
99. Dəmirova M. Turizm-ekskursiya mərkəzlərində mədəni fəaliyyətin təşkili (proqram). Bakı, ADMİU, 2002.
100. Dadaşov A. Kütləvi informasiya vasitələrində reklam və marketinq problemləri. Bakı, BDU nəşriyyatı, 2001.
101. Dadaşov A. Kütləvi informasiya vasitələrində reklam və marketinq problemləri. Bakı, BDU,2001.
102. Hacıyev B. Dramaturq və tarix. Bakı, Yazıçı, 1985.
103. Hacıyev B. Klassik Azərbaycan dramaturgiyası və onun səhnə təcəssümü problemi. (Doktorluq avtoreferatı) Bakı, BDU, 1998.
104. Hacıyev B. A. Şaiq dramaturgiyasının səhnə təcəssümü. Bakı, Nərgiz, 1998.
105. Hacıyev B. S.Vurğun dramaturgiyasının tədrisi. Bakı, Nərgiz, 1999.
106. Hacıyev B. M.İbrahimov yaradıcılığı və Azərbaycan teatrı. Bakı, «Araz – M», 2000.
107. Şəmşizadə N. Azərbaycan ədəbiyyatşünaslığı. Bakı, Ozan, 1997.
108. Zöhrabov R. Zərbi muğamlar. Bakı, Mars-Print 2004.
109. Zöhrabov R. Rast muğam dəstgahının nəzəri əsasları. Bakı, Mars-Print 2002.
110. Zöhrabov R. Muğam. Bakı, Azərbaycan Dövlət Nəşriyyatı. 1991.
111. Ziya Göyalp. Türkçülüyün əsasları. Bakı, Maarif, 1991.

## Kitabın içindəkilər

GİRİŞ - ........................................................... 3
I FƏSİL. Tətbiqi kulturologiya elm sahəsi kimi
**İlqar Hüseynov**........................................... 8
1.1. Tətbiqi kulturologiyanın predmeti və vəzifələri
**İlqar Hüseynov** ........................................... 8
1.2. Asudəvaxtşünaslıq tətbiqi kulturoloqiyanın əsas istiqamətlərindən biri kimi
**İlqar Hüseynov** ........................................... 28
II FƏSİL. Tətbiqi kulturologiya və sosioloji tədqiqatlar
**Nigar Əfəndiyeva, İlqar Hüseynov**.................... 50
2.1. Tətbiqi kulturologiyada sosioloji tədqiqatların yeri
**Nigar Əfəndiyeva, İlqar Hüseynov**.................... 50
2.2. Sosioloji tədqiqatın vəzifələri və onun əsas metodları
**Nigar Əfəndiyeva İlqar Hüseynov**...................... 58
III FƏSİL. Bədii xalq yaradıcılığı və milli-mənəvi dəyərlər ........................................... 76
3.1. Milli adət və ənənələr mənəvi dəyərlərin zəmini kimi
**Ələkbər Məmmədov**........................................ 76
3.2. Bədii xalq yaradıcılığının tarixi qaynaqları və müasirlik **Ramiz Ağayev, Abdin Əlizadə**................ 99
3.3. Bədii-kütləvi iş tətbiqi kultorologiyanın əsas istiqamətlərindən biri kimi
**Elmira Alxasova, İradə Məmmədbəyova**.............. 131
IV FƏSİL. Ünsiyyətin sosial-kulturoloji mahiyyəti və onun mənəvi tərbiyə sistemində rolu.............. 152
4.1. Tarixi-ənənəvi ünsiyyət formaları və onların sosial-kulturoloji mahiyyəti **Yaşar Yusubov** ......... 152
4.2. Ünsiyyət prosesində milli özünüdərketmə və informasiya mübadiləsinin rolu
**Yaşar Yusubov, Elmira Alxasova**....................... 161
4.3. Təbiətlə ünsiyyət mədəniyyəti **Ələkbər Məmmədov**.... 172
V FƏSİL. Turizm və muzeyşünaslıq tətbiqi kulturologiyanın əsas tərkib hissəsi kimi......... 198
5.1. Turizm-sosial-mədəni fəaliyyət sahəsi kimi
**Mələksima Dəmirova** ........................................ 198
5.2 Tətbiqi muzeyşünaslıq və onun əsas istiqamətləri
**Sabir Əmirxanov** ........................................ 213
VI FƏSİL. Tətbiqi kulturologiyada texniki və əyani vasitələrin əhəmiyyəti.............................. 240
6.1. Mədəniyyət müəssisələrində texniki yaradıcılığın təşkili **Arif Rəhimov**.......................... 240
6.2. Tətbiqi kulturologiyada əyani vasitələrdən istifadə
**Solmina Dadaşova, Rəbiyə Zərdabi** .................... 287
VII FƏSİL. Sosial-mədəni sahənin idarəedilməsinin elmi-nəzəri və əməli məsələləri .................. 306
7.1. Sosial - mədəni sahənin idarəedilməsi kulturoloji proses kimi **Mübariz Süleymanov**..................... 306
7.2. Mədəniyyət müəsissələrinin iqtisadiyyatı və idarə - edilməsinin ümumi xüsusiyyətləri
**Mübariz Suleymanov**.................................... 316
7.3. Milli mədəniyyətimizin təməl prinsiplərinin sosial-mədəni sahəyə tətbiqi **Mübariz Suleymanov**... 347
NƏTİCƏ - ........................................................ 356
REZUME ........................................................ 358
Учебник «Прикладная культурология» ...................... 360
«Tətbiqi kulturologiya» fənni üzrə proqram 362
**Ə.Məmmədov, S.Dadaşova, İ.Hüseynov**.................... 377
Mədəniyyət və sənət nümunələri ..............................
ƏDƏBİYYAT......................................................... 404
Kitabın içindəkilər ............................................. 410

Nəşriyyat redaktoru: Valeh Əsgərov
Texniki redaktoru: Natəvan Mehdiyeva
Kompüter tərtibatçısı: Liana İsyanova
Operatorlar: Səminə Hüseynova
Solmaz Nəcəfova
İngilis dilinə tərcümə edən: Könül Əfəndiyeva
Rus dilinə tərcümə edən: Oqtay Həmidov

Ələkbər Əli oğlu Məmmədov
Solmina Soltan qızı Dadaşova
İlqar Həsrət oğlu Hüseynov

**TƏTBİQİ KULTUROLOGİYA**

*(dərslik)*

*Azərbaycan dilində*

---

Yığılmağa verilmiş 02.12.03., Çapa imzalanmış 09.03.04
Format 60x84 1/16. Fiziki ç.v.– 25,6.
Sifariş 73. Tiraj 1000 nüsxə.
«Mars - Print» nəşriyyat – poliqrafiya firması
Tel.: 222 5724